AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
ARXEOLOGİYA VƏ ETNOQRAFİYA İNSTİTUTU

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR 2011

Bakı - 2012

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ АРХЕОЛОГИИ И ЭТНОГРАФИИ

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ 2011

Баку – 2012

NATIONAL ACADEMY OF SCIENCES OF AZERBAIJAN
INSTITUTE OF ARCHAEOLOGY AND ETHNOGRAPHY

ARCHAEOLOGICAL RESEARCHES IN AZERBAIJAN 2011

Baku – 2012

Məsul redaktor: **M.N.RƏHİMOVA**
tarix elmləri doktoru

Redaksiya heyəti: **T.Ə.Bünyadov**
AMEA-nın həqiqi üzvü

İ.A.Babayev
AMEA-nın müxbir üzvü

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR – 2011

Bakı, *"Xəzər Universiteti"* nəşriyyatı, 2012, 402 səh.

ISBN 978-9952-8209-2-8


AFpoligrAF mətbəəsində çap olunmuşdur

AZ1143, Bakı şəhəri
Hüseyn Cavid prospekti, 31
Tel.: +(99412)4393649
E-mail: arxeoetno@archaeology.org.az

© Arxeologiya və Etnoqrafiya İnstitutu, 2012



HESABAT – 2011




2011-ci ildə arxeoloji qazıntılar aparılmış abidələr:

1 - ZUVANDÇAY mağarası;
2 - QAZMA düşərgəsi;
3 - I HƏSƏNSU yaşayış yeri;
4 - GÖYTƏPƏ yaşayış yeri;
5 - AŞAĞI DAŞARX yaşayış yeri;
6 - GÖL YERİ yaşayış yeri;
7 - QARQUCAQ kurqanları;
8 - I MAXTA yaşayış yeri;
9 - SƏRKƏRTƏPƏ yaşayış yeri;
10 - FAZIL TƏPƏBAŞI nekropolu;
11 - ŞADILI kurqanları;
12 - ŞAHTAXTI yaşayış yeri;
13 - PLOVDAĞ yaşayış yeri;
14 - II KÜLTƏPƏ yaşayış yeri;
15 - SUMBATAN yaşayış yeri;
16 - SARVANTƏPƏ yaşayış yeri;
17 - YASTITƏPƏ yaşayış yeri;
18 - RƏSUL DƏRƏSİ yaşayış yeri;
19 - MEYDANTƏPƏ yaşayış yeri;
20 - QƏBƏLƏ (SƏLBİR) şəhər yeri;
21 - QALATƏPƏ yaşayış yeri;
22 - SANDIQTƏPƏ yaşayış yeri;
23 - BALATƏPƏ yaşayış yeri;
24 - GÜLİSTAN qalası;
25 - ŞƏMKİR şəhər yeri;
26 - DİROVDAĞ yaşayış yeri;
27 - AĞSU şəhər yeri;
28 - QALA şəhər yeri;
29 - ŞƏHƏRGAH yaşayış yeri;
30 - PALIDLI nekropolu;
31 - SİTALÇAY kurqanları;
32 - DÜBƏNDİ yaşayış yeri;
33 - MENTEŞ yaşayış yeri;
34 - OVÇULARTƏPƏ yaşayış yeri;
35 - OĞLANQALA yaşayış yeri;
36 - KAMİLTƏPƏ yaşayış yeri;
37 - QARACƏMİRLİ sarayı;
38 - Gədəbəydə arxeoloji kəşfiyyat;
39 - Lerikdə arxeoloji kəşfiyyat;
40 - İmişlidə arxeoloji kəşfiyyat;
41 - Şahdəniz-2 kəşfiyyat işləri.

1:4 000 000

40 0 40 80 120 160 KM


48⁰
44⁰
40⁰
48⁰
1
2
3
4
5
6
7
8
9
10
11
12
13
14
15
16
17
18
19
20
21
22
23
24
25
26
27
28
29
30
31
32
33
34
35
36
37
38
39
40
41

AZƏRBAYCANDA 2011-cu ildə APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR

M.N.Rəhimova

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru

Son illər respublikamızın ərazisindəki arxeoloji abidələrdə geniş miqyaslı tədqiqat işləri aparılır. Dövlət rəhbərliyinin bu sahəyə göstərdiyi diqqət və qayğı sahəsində elmi araşdırmaların coğrafiyası genişlənmiş və keyfiyyəti daha da yüksəlmişdir. Cari ildə də arxeoloji araşdırmaların dinamikası yüksələn xətt üzrə inkişaf etmişdir.

2011-ci ildə respublikamızın Abşeron, Salyan, Qəbələ, Quba, Xaçmaz, Şabran, Xızı, Qax, Şəki, Ağcabədi, Ağdam, Fizuli, İmişli, Neftçala, Oğuz, Cəlilabad, Şamaxı, Ağsu, Gəncə, Goranboy, Tovuz, Ağstafa, Şəmkir, Şərur, Babək, Ordubad, Bərdə, Gədəbəy və s. rayonlarında geniş və irimiqyaslı arxeoloji qazıntı işləri aparılmış, Qəbələ–İsmayıllı bölgəsinə etnoqrafik səfər təşkil edilmişdir.

Mil–Qarabağ bölgəsində arxeoloji tədqiqat işlərinin genişləndirilməsi İnstitutumuzun elmi fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil etmişdir. Bu bölgədə, yalnız 2011-ci ildə həm beynəlxalq tərkibli Azərbaycan–Almaniya ekspedisiyası, həm də İnstitutun müstəqil ekspedisiyası tərəfindən 50-dən artıq əvvəllər elmə məlum olmayan neolit, eneolit və tunc dövrlərinə aid yaşayış məskənləri və qəbir abidələri aşkar edilmişdir. Bununla yanaşı Naxçıvan, Gəncə–Qazax, Şəki–Zaqatala, Quba–Xaçmaz, Lənkəran–Astara bölgələrində də iri miqyaslı qazıntı işləri aparılmış, yeni arxeoloji abidələr aşkara çıxarılmışdır. Tədqiqat işlərində yerli arxeoloqlarla yanaşı Avropanın müxtəlif ölkələrindən dəvət edilmiş geomorfoloqlar, paleobotaniklər, topoqraflar və digər elm sahələrinin nümayəndələri də çalışmışlar. Birgə çöl işləri nəticəsində götürülən nümunələr xarici ölkələrin müasir laboratoriyalarına müxtəlif analizlər üçün göndərilmişdir. Əvvəlki illərdə beynəlxalq tərkibli ekspedisiyaların apardıqları arxeoloji qazıntı işlərinin nəticələri barədə elmi məqalələr bir sıra xarici ölkələrdə nəşr edilmişdir. Bütün bunlar İnstitutun beynəlxalq elmi əlaqələrinin genişlənməsinə, Azərbaycanın qədim dövr abidələri, zəngin tarixi barəsində informasiyaların bütün dünyada geniş yayılmasına şərait yaratmışdır.

2011-ci ildə İnstitutun beynəlxalq elmi əlaqələri genişlənmiş, ABŞ, Fransa, Almaniya, Yaponiya, Gürcüstan, Koreya, Rusiya, Polşa arxeoloqları və etnoqrafları ilə birlikdə Azərbaycanın bir sıra abidələrində qazıntı, tədqiqat işləri aparılmış, görüşlər keçirilmiş, gələcək əməkdaşlıq barəsində müzakirələr aparılmışdır.

2011-ci ildə Azərbaycan ərazisində aparılmış arxeoloji araşdırmaları tarixi mərhələlər üzrə aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

Daş dövrü. Lerik rayonunda, Zuvandçay vadisində yerləşən *Zuvandçay mağarasında* arxeoloji qazıntı işləri aparılmışdır.

Arxeoloji qazıntılar zamanı düşərgənin çöküntülərindən daş dövrünə və sonrakı mərhələlərə aid mindən artıq osteoloji qalıqlar, 55 ədəd daş məmulatı, saxsı qab qalıqları tapılmışdır. Zuvandçay paleolit düşərgəsindən tapılmış daş məmulatının texniki-tipoloji xüsusiyyətlərinə əsasən onların mustye mədəniyyəti dövründə hazırlandığını söyləmək olar.

Bunlardan əlavə Şərur rayonundakı paleolit dövrü *Qazma mağara* düşərgəsində qazıntı işləri aparılmış, Şamaxı, İsmayıllı və Qəbələ rayonları ərazisində daş dövrü abidələrinin axtarış kəşfiyyat işləri həyata keçirilmişdir.

Neolit–eneolit dövrləri. Ağstafa rayonunun Aşağı Kəsəmən kəndi yaxınlığında yerləşən *I Həsənsu* neolit dövrü yaşayış məskənində (e.ə. VII – VI minilliklər) arxeoloji qazıntı işləri davam etdirilmişdir. I Həsənsuda aşkar edilmiş arxaik səciyyəli daş alətlər, osteoloji qalıqlar Azərbaycanda erkən neolitdən istehsal neolitinə keçidin olduğunu və mədəniyyətlər arası varisliyi sübut edir. Qazıntı zamanı I

Həsənsu neolit yaşayış məskənində sonrakı dövrlərdə – e.ə. III minillikdə salınmış qəbir aşkar edilmişdir. Qəbrin təmizlənməsi zamanı erkən tunc dövrünə aid saxsı qablar, qızıldan və gümüşdən hazırlanmış bəzək əşyaları aşkar edilmişdir. Bütün bunlar Azərbaycanın erkən tunc dövrü metalişləmə sənətinin tarixinin öyrənilməsi üçün dəyərli tapıntılardır.

Tovuz rayonunda *Göytəpə* neolit dövrü yaşayış məskənində qazıntı işləri Yaponiya mütəxəssisləri ilə birgə həyata keçirilmişdir. Göytəpə neolit dövrü yaşayış məskənində "Cənubi Qafqazın qədim mədəniyyətləri" mövzusunda MDB ölkələrinin gənc arxeoloqlarının yay məktəbi layihəsi həyata keçirilmişdir. Bu layihə MDB ölkələrinin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən maliyyələşdirilmişdir. Göytəpədə qazıntılar zamanı bir sıra yeniliklərlə yanaşı qədim dövrdə yaşayış yerini əhatələmiş müdafiə divarının qalıqlarının aşkar edilməsini xüsusilə göstərmək lazımdır. Belə tikili qalıqları digər həmdövr abidələrdən məlum deyil.

Azərbaycan–Almaniya birgə arxeoloji ekspedisiyası 2011-ci ilin yayında Mil düzündə – Ağcabədi rayonu ərazisində yerləşən *I Kamiltəpə* eneolit dövrü yaşayış məskənində tədqiqatları davam etdirmişdir. Qazıntı zamanı çiy kərpicdən inşa olunmuş platformanın bir hissəsi və dördkünc ev yerləri təmizlənmiş, çay daşları və obsidiandan əmək alətləri və keramika nümunələri aşkar edilmişdir. Radiokarbon analiz I Kamiltəpə yaşayış yerinin e.ə. VI minilliyin ortalarına aid olduğunu göstərir.

2011-ci tədqiqat ilində *IV Kamiltəpədə* açılan xəndək (arx) sistemi böyük maraq doğurur. Cənubi Qafqazın neolit və eneolit məskənlərində onun oxşarına təsadüf olunmayıb. Bu abidədə o dövr üçün çox nadir tapıntılardan olan 3800-ə yaxın muncuq nümunəsi və onları hazırlamaq üçün istifadə edilmiş 70-dən artıq mikrolit alət tapılmışdır. Radiokarbon analizin nəticələrinə görə IV Kamiltəpə, Qarasu boyundakı, eləcə də bütün Mil düzündəki abidələrin arasında ən qədimi olub b.e.ə. VI minilliyin əvvəllərinə aiddir.

Mil düzündə cari ildə kəşfiyyat işləri genişləndirilmiş və I Kamiltəpənin ətrafında – Qarasu boyunca qeydə alınan abidələrin sayı 46-ya çatdırılmışdır. Onların çoxu neolit-eneolit dövrlərinə aiddir. İnstitutun digər ekspedisiyası tərəfindən Ağdam rayonu ərazisində aparılan arxeoloji kəşfiyyat işləri nəticəsində daha 15-dən artıq yeni arxeoloji abidə aşkara çıxarılmışdır.

Tovuz rayonundakı *Menteş* qədim yaşayış yerində Fransa mütəxəssisləri ilə birgə aparılan qazıntılar zamanı qədim yaşayış yerinin dövr etibarilə daha qədim olan son neolit dövrünü əhatə edən mədəni təbəqə aşkar edilmişdir. Menteş qədim yaşayış yerində keçən illərdə aparılan qazıntılar abidənin xronoloji dövr çərçivəsinin e.ə. V – IV minilliklər arasında olduğunu göstərirdisə, 2011-ci ildə aparılan qazıntılar qədim yaşayış yerinin alt təbəqəsinin son neolit dövrünə, yəni b.e.ə. VI minilliyin sonlarına aid olmasını deməyə əsas verir.

Goranboy rayonunun Tatarlı kəndi ərazisində yerləşən *Göl yeri* qədim yaşayış yerində arxeoloji qazıntı işləri həyata keçirilmişdir. Eneolit və ilk tunc dövrlərinə aid bu yaşayış yerində tədqiqatlar zamanı ilk tunc dövrünə aid yarımqazma tipli yaşayış evləri, təsərrüfat quyuları, ocaq yerləri və zəngin arxeoloji materiallar aşkar olunmuşdur.

Tunc – erkən dəmir dövrü. Şərur rayonu ərazisində ilk tunc dövrünə – Kür-Araz mədəniyyətinə aid *Maxta* yaşayış yerində (e.ə. IV–III minilliklər) qazıntı nəticəsində metaləritmə sobasının aşkar edilməsini xüsusilə qeyd etmək lazımdır. Bu abidədə nadir tapıntılar sırasında bir tikili qalığının içərisində çoxlu sayda gildən heyvan fiqurlarını göstərmək olar.

Şərur rayonundakı *Aşağı Daşarx* çoxtəbəqəli qədim yaşayış yeri ciddi dağıntılara məruz qalmış və burada təxirə salınmaz arxeoloji xilasetmə işləri aparılması zərurəti meydana çıxmışdır. Arxeoloji qazıntı burada mədəni təbəqənin ümumi qalınlığının 5 m-dən artıq olduğunu göstərmişdir. Qazıntı sahəsində oval planlı tikili qalığı, keramika, daş və sümük məmulatı, ocaq qurğusu və s. maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Müəyyən edilmişdir ki, abidədə Kür-Araz mədəniyyətinin orta və son mərhələsi təmsil edilmişdir.

Xaçmaz rayonu ərazisində çoxtəbəqəli *Sərkərtəpə* qədim yaşayış yerinin erkən tunc dövrü – e.ə. IV–III minilliklər təbəqəsində qazıntı işləri davam etdirilmişdir. Əsas tapıntılar müxtəlif tip saxsı qab qalıqlarından ibarətdir. Bundan əlavə ocaq qurğuları, daşdan hazırlanmış dən daşları, çaxmaq daşından oraq dişləri, toppuz başlığı, sümükdən hazırlanmış bizlər aşkar edilmişdir. Bütün bu tapıntılar Azərbaycanın şimali-şərq bölgəsinin erkən tunc dövrü əhalisinin həyat tərzinin, məişətinin, müxtəlif sənətkarlıq sahələrinin tarixinin tədqiqi üçün mühüm əhəmiyyət kəsb edir.

Mədəniyyət və Turizm Nazirliyinin müraciəti və maliyyə dəstəyi ilə İnstitutun ekspedisiyası Quba

rayonunun *Xınalıq* kəndində və onun ətrafında arxeoloji tədqiqat işləri aparmışdır. Ərazidən əvvəllər elmə məlum olmayan bir sıra yeni arxeoloji abidələr aşkar edilmişdir. Belə ki, bu tədqiqatlara qədər Xınalıq kəndi və onun ətrafında elmə məlum olan ən qədim abidələr erkən orta əsrlər dövrünə (IV–VIII əsrlər) aid idi. Aparılan arxeoloji kəşfiyyat və qazıntı işləri nəticəsində müəyyən edildi ki, Xınalıq kəndi ətrafında dəniz səviyyəsindən 2000 m-ə yaxın hündürlükdə tunc dövrünə (e.ə. III–II minilliklər) aid yaşayış məskəni və qəbir abidələri mövcuddur. Bu tapıntılar bölgənin yüksək dağlıq ərazilərinin məskunlaşma tarixinin öyrənilməsi üçün olduqca dəyərli abidələrdir.

Goranboy rayonu ərazisində ilk tunc dövrünə aid *1 №-li Şadlı* kurqanının örtüyü altında sərdabə tipli iri ölçülü qəbir kamerası aşkar edilmişdir. Müəyyən edilmişdir ki, kurqan sərdabəsində müxtəlif vaxtlarda 100-dən artıq insan dəfn olunmuşdur. Sərdabədən 32 ədəd saxsı qab, 11 ədəd sümükdən hazırlanmış iy başlığı, bir ədəd daşdan hazırlanmış möhür, pasta muncuqlar və ağacdan hazırlanmış vaza tipli qabın kömürləşmiş qalığı aşkar edilmişdir. Kurqanın cənub-qərb küncündə ağacdan hazırlanmış taxtın qalıqları aşkar edilmişdir.

“Abşeron” arxeoloji ekspedisiyası e.ə. III–II minilliklərə aid *Dübəndi* yaşayış yerində qazıntı işlərini davam etdirmişdir. Burada uzunluğu 80 m-dən artıq daşdan tikilmiş divar qalığı, müxtəlif arxeoloji materiallar, o cümlədən çoxlu sayda qayaüstü təsvirlər aşkar edilmişdir. Ekspedisiya eyni zamanda Dübəndi dəmiryol stansiyası yaxınlığında da e.ə. II minilliyin əvvəllərinə aid yaşayış yeri aşkar edərək qazıntı işləri aparmışdır. Burada da müxtəlif arxeoloji materiallarla yanaşı qayaüstü təsvirlər aşkar edilmişdir.

Babək rayonundakı *II Kültəpə* yaşayış yerində tədqiqatlar davam etdirilmişdir. Azərbaycanda erkən şəhər mədəniyyətinin tarixinin öyrənilməsi baxımından II Kültəpədə aparılan qazıntıların mühüm əhəmiyyəti vardır. Belə ki burada aşkara çıxarılmış e.ə. II minilliyin I yarısına aid memarlıq qalıqları həmin dövrdə bölgədə şəhər mədəniyyətinin təşəkkül tapdığını söyləməyə imkan verir. Abidənin təbəqələrinin stratiqrafik ardıcıllığı tunc dövründə ərazidə mədəniyyətlərin varisliyinin öyrənilməsi üçün xüsusi əhəmiyyət daşıyır.

Oğuz rayonundakı orta tunc dövrünə aid *Kərimli* kurqanlarında tədqiqat işləri davam etdirilmiş, 2 №-li kurqanın qazıntısı tam başa çatdırılmışdır. Bu qəbir kamerasında insan skeleti ilə yanaşı bütöv öküz skeleti aşkar edilmişdir. Qəbirdə zəngin maddi mədəniyyət qalıqları – keramika, metal məmulatı, müxtəlif bəzək əşyaları, 10-a qədər gildən hazırlanmış quş fiqurları aşkar edilmişdir. Metal məmulatı sırasında hakimiyyət simvolu olan tuncdan hazırlanmış ağac əsaya bərkidilmiş ştandartı xüsusilə qeyd etmək lazımdır. Əldə edilmiş arxeoloji materiallar əsasında kurqanı e.ə. II minilliyin II rübünə aid etmək olar.

Naxçıvan bölgəsində İnstitutumuzun ekspedisiyaları tərəfindən erkən şəhər mədəniyyətinə – e.ə. II minilliyin sonu – I minilliyin əvvəllərinə aid abidələrdə arxeoloji qazıntı işləri aparılmışdır. Bunlardan ilk növbədə Şərur rayonundakı *Oğlanqala* abidəsini qeyd etmək lazımdır. İnstitutumuzun əməkdaşları Oğlanqalada qazıntılar aparan beynəlxalq ekspedisiyanın tərkibində fəaliyyət göstərmişlər. Qazıntılar nəticəsində müdafiə divarları da daxil olmaqla bir sıra tikili qalıqları aşkara çıxarılmışdır. Bundan əlavə Oğlanqalanın cənub divarlarının təmizlənməsi zamanı antik dövrə aid küp qəbri aşkar edilmişdir. Yaşlı insanın dəfn edildiyi bu qəbirdə 4 ədəd gümüş pul, 5 ədəd isə üzük – möhür aşkar edilmişdir. Gümüş pullar e.ə. I əsrin sonlarında Roma imperatoru Oktavian Avqustun adına kəsilmişdir. Bu numizmatik materiallar e.ə. I əsrdə Atropatena və Roma imperiyası arasında olan münasibətlərin tarixinin öyrənilməsi üçün qiymətli tapıntıdır. Eyni zamanda bu küp qəbrinin aşkara çıxarılması Oğlanqalada təqribən 1000 il müddətində – e.ə. II minilliyin sonlarından – I minilliyin sonlarınadək intensiv həyatın olduğunu sübut edir.

Növbəti şəhər tipli abidə kimi “Xaraba-Gilan” arxeoloji ekspedisiyası tərəfindən Ordubad rayonu ərazisində tədqiq edilən *Sumbatan* yaşayış yerini göstərmək olar. Sumbatan yaşayış yeri qədim Manna və Midiya qalaları ilə müqayisəli şəkildə öyrənilmişdir. Qazıntılar göstərdi ki, bu yaşayış yeri inzibati, iqtisadi və dini mərkəz olmuşdur. Bu abidə Azərbaycan ərazisində qədim şəhər mədəniyyətini öyrənmək üçün böyük maraq doğurur.

Bütün bunlardan əlavə Ordubad rayonu ərazisində tunc dövrünə aid 12 kurqan qazılaraq tədqiq edilmişdir. Bu kurqanlardan aşkar edilmiş maddi mədəniyyət nümunələri əsasən polixrom boyalı qablar və daş alətlərdən ibarətdir.

Mədəniyyət və Turizm Nazirliyin müraciəti əsasında Ağstafa rayonundakı “Keşikçidağ” qoruğu yaxınlığında, *Ceyrançöl* ərazisində dağıntıya məruz

qalmış abidələrə baxış keçirmişdir. Müəyyən edilmişdir ki, həmin sahədə ümumi sahəsi 2 hektara yaxın olan son tunc – erkən dəmir dövrünə aid nekropol yerləşir. Təsərrüfat işləri nəticəsində buradakı qəbirlərdən bir neçəsi dağıntıya məruz qalmışdır. Nekropoldakı kurqan tipli qəbirlərdən biri ekspedisiya tərəfindən qazılaraq tədqiq edilmişdir. Bu kurqanda saxsı qablardan ibarət arxeoloji materiallar aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, bu kurqanlar Ceyrançöl ərazisində tunc dövrünə aid aşkar edilmiş ilk kurqanlardır.

Qazax və Ağstafa rayonları ərazisindəki e.ə. II minilliyin ikinci yarısına aid *Sarvantəpə* və *Yastıtəpə* yaşayış məskənlərində arxeoloji qazıntı işləri daha da genişləndirilmişdir. Nəticədə qeyd edilən dövrə aid memarlıq, təsərrüfat və məişət qalıqları, eyni zamanda zəngin keramika məmulatı, gil möhürlər, tuncdan hazırlanmış məişət və bəzək əşyaları, sümük və daş alətlər və s. maddi mədəniyyət qalıqları aşkara çıxarılmışdır. Bu abidələrin qazıntısı bölgənin tunc dövründə məskunlaşma tarixinin öyrənilməsi üçün mühüm əhəmiyyət daşıyır.

Gədəbəy rayonu ərazisində arxeoloji kəşfiyyat işləri nəticəsində son tunc dövründən orta əsrlərədək bütün tarixi mərhələləri əhatə edən çoxsaylı yaşayış məskənləri və qəbir abidələri qeydə alınmışdır. Bu bölgədə mövcud olan siklop tikililər sırasında *Govdu* qalasını xüsusilə qeyd etmək lazımdır. Müdafiə xarakterli bu qalanın ümumi sahəsi bir neçə hektar təşkil edir.

Antik – erkən orta əsrlər dövrü. Azərbaycan, Almaniya, Rusiya və Gürcüstan mütəxəssislərindən ibarət beynəlxalq tərkibli arxeoloji ekspedisiya Şəmkir rayonunun *Qaracəmirli* kəndi yaxınlığındakı e.ə. I minilliyin ortalarına – V–IV əsrlərə aid saray kompleksində arxeoloji qazıntı işlərini davam etdirmişdir. Bu qədim yaşayış yeri bir neçə km^2-dən ibarət çox böyük sahəni əhatə edir. Əsaslı arxeoloji qazıntılar və kəşfiyyat işləri nəticəsində qeyd edilən dövrə aid böyük ictimai binaların qalıqları aşkar olunmuşdur. Bunlardan ən irisi saray kompleksinin qalıqlarıdır. Çox maraqlıdır ki, Qaracəmirlidə aşkar edilən saray öz sahəsinə görə Əhəmənilər imperiyasının mərkəzi şəhəri olan Persopolda I Dara və Kserksin tikdirdikləri saraydan böyükdür. Şəmkirdə aşkar edilən bu sarayın çoxlu zalları, uzun koridorları və kiçik otaqları olmuşdur. Bu abidə təkcə Azərbaycanın deyil bütün Qafqaz, Yaxın və Orta Şərqin tarixini öyrənmək üçün misilsiz elmi əhəmiyyətə malikdir.

Hesabat ilində qədim *Qəbələnin* antik dövrə aid sahəsində qazıntılar davam etdirilmişdir. Burada aşkara çıxarılan e.ə. IV – III əsrlərə aid çox böyük ərzaq anbarının qalıqları xüsusi əhəmiyyətə malikdir. Bu anbarda gövdələrinin aşağı hissəsi yerə basdırılan iri təsərrüfat küplərində ərzaq məhsulları saxlanmışdır. Hesabat ilində qazıntı sahəsinin xeyli dərəcədə genişləndirilməsi sayəsində küplərin sayı 240-a çatmışdır. Lakin hələ bu anbarın qalıqları tam aşkar edilməmişdir. Bu böyüklükdə anbar qalıqları Azərbaycanda, o cümlədən qonşu ölkələrin heç birində bu vaxta qədər aşkar edilməmişdir. Bu anbarda on tonlarla məhsul saxlanmışdır. Belə anbar 2400 il bundan əvvəl ancaq dövlət əhəmiyyətli anbar ola bilərdi və bu, sübut edir ki, Qəbələ o zaman böyük şəhər olmuşdur.

Əvvəlki illərdə Qəbələdə aşkar edilmiş oval planlı ictimai bina qalıqlarında qazıntı işləri davam etdirilmişdir. Onlardan ən irisinin içərisində 600-700 adamın toplaşa biləcəyi ehtimal edilir. Belə binalarda çox ehtimal ki, dövlət əhəmiyyətli yığıncaqlar keçirilirdi.

Qədim Qəbələnin *Səlbir* və *Qala* adlandırılan erkən orta əsr – orta əsr sahələrində də geniş miqyaslı arxeoloji qazıntı işləri aparılmışdır. Nəticədə qeyd edilən dövrlərə aid şəhər memarlığı strukturu, məişət qalıqları, o cümlədən şəhərin kanalizasiya və su təchizatı sistemi, müxtəlif sənətkarlıq sahələrinin məhsulları olan maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır. Səlbir sahəsində qazıntı işləri Koreya mütəxəssisləri ilə birgə həyata keçirilmişdir.

Antik və erkən orta əsrlər dövrlərinə aid aparılan arxeoloji qazıntılar sırasında Qarabağda – Ağcabədi rayonunun Salmanbəyli kəndi yaxınlığındakı *Qalatəpə* qədim şəhər məskənini xüsusilə qeyd etmək lazımdır. Burada aparılan qazıntılar antik və erkən orta dövrlərini yazılı mənbələrinin bu ərazidə şəhərin mövcud olması barədəki məlumatlarını əsaslı şəkildə maddi faktlar əsasında sübuta yetirmiş oldu. Qazıntılar nəticəsində Qalatəpədə möhtəşəm şəhər memarlığının qalıqları – çiy kərpicdən inşa edilmiş bir neçə mərtəbəli evlərin, küçələrin qalıqları, daşdan iri sütun altlığı, şəhər sənətkarlığına aid maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

Qalatəpə qazıntılarından əldə edilən arxeoloji materiallar buradakı antik şəhərin hələ e.ə. III–II əsrlərdə meydana gəldiyini göstərir. E.ə. I – b.e. II əsrlərində şəhərdə gur həyat olmuş, qonşu regionlarla, o cümlədən Roma imperiyası və onun əyalət-

ləri ilə mədəni, iqtisadi, xüsusilə ticarət əlaqələri yüksək inkişaf etmişdir. III əsrdən başlanan Sasani-Roma müharibələri zamanı şəhər tənəzzül dövrünə qədəm qoymuşdur. Bu abidədə tədqiqatların davam etdirilməsi nəzərdə tutulur.

2011-ci ildə Qalatəpə şəhər yerinin nekropolunda da tədqiqat aparılmış, antik dövrə aid daha üç küp qəbir açılaraq öyrənilmişdir. Onlardan dəmir silah nümunələri (xəncər, nizə ucu və s.), tunc və dəmirdən bəzək əşyaları, üzəri boyalı müxtəlif saxsı qablar toplanmışdır.

Salyan rayonunun Şorkənd və Çuxanlı kəndləri arasındakı *Babazanlı* karxanasında torpaq işləri görülərkən təsadüfən aşkarlanmış antik dövrə aid küp qəbirləri nekropolunda arxeoloji qazıntı işləri aparılmışdır. Bütövlükdə bu nekropolda 21 küp qəbrində qazıntı işləri aparılmışdır. Qəbirlərdən müxtəlif bəzək əşyaları, boyalı və sadə saxsı qablar və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

Şəmkir arxeoloji ekspedisiyası AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm nazirliyi, Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi üzrə 2011-ci il yanvarından bu günədək *Şəmkir* şəhər yerində geniş çöl arxeoloji tədqiqatları aparır. Abidədə 2011-ci ildə şəhər qala divarlarını tədqiq etmək məqsədi ilə şəhristanın cənub-qərbində arxeoloji qazıntı işlərinə başlayıb. Şəhər divarı 31 m uzunluqda cənub-şimal istiqamətində, 10 m uzunluqda qərb-şərq istiqamətində açılaraq təmizlənməyə başlanılmışdır. Ümumiyyətlə, Şəmkir şəhər yerində aparılan qazıntılar onun tarixinin daha bir neçə əsr qədim olduğunu, buranın VI–VII əsrlərdən məskunlaşdığını göstərmişdir.

2011-ci ildə Şəmkirdə VI qazıntı sahəsində orta əsrlərə aid mədəni təbəqənin altında, dəmir dövrünə – e.ə. I minilliyin I yarısına aid torpaq qəbir aşkar edilmişdir. Qəbirdə bükülü vəziyyətdə dəfn edilmiş qadına aid skelet, onun üzərində isə müxtəlif bəzək əşyaları aşkar edilmişdir.

"Şamaxı" arxeoloji ekspedisiyası tərəfindən orta əsr *Şamaxı* şəhər yerində arxeoloji qazıntı işləri davam etdirilmişdir. Mədəni təbəqənin alt qatlarında erkən orta əsr materialları ilə yanaşı son antik dövr keramika nümunələrinə də rast gəlinmişdir. Bu tapıntılar antik Şamaxı şəhərinin məhz bu ərazidə yerləşdiyini ehtimal etməyə əsas verir. Bundan əlavə ekspedisiya axtarış-kəşfiyyat işləri nəticəsində Şamaxı şəhərindən şimali-şərqdə orta əsrlər ə aid daha bir şəhər yerini aşkar etmişdir. Güman edilir ki, bu abidə bu vaxtadək yeri müəyyən edilməmiş Şirvan şəhərinin qalıqlarıdır. Şübhəsiz gələcəkdə aparılacaq qazıntı işləri bu şəhər barədə daha dəqiq məlumatlar verəcəkdir.

"Şamaxı–Ağsu" arxeoloji ekspedisiyası Şamaxı şəhəri yaxınlığındakı orta əsrlərə aid *Gülüstan* qalasında geniş miqyaslı arxeoloji qazıntı işlərinə başlamışdır. Nəticədə orta əsr şəhər həyatına aid təsərrüfat və məişət qalıqları, sənətkarlıq nümunələri aşkar edilmişdir. Bu abidənin turizm marşrutuna daxil edilməsi və bu məqsədlə burada arxeoloji qazıntı işlərinin genişləndirilməsi olduqca vacibdir.

Son orta əsr *Ağsu* şəhər yerində geniş qazıntı işləri aparılmışdır. Dörd ay ərzində 5000 m^2 sahədə XVII əsrə aid şəhər qalıqları öyrənilmişdir. Bu sahədə 56 sütundan ibarət şəhərin Cümə məscidinin qalıqları, bir neçə su quyusu, şəhərin əsas içməli su təchizatı anbarı və baş meydanlardan biri qismən təmizlənərək aşkara çıxarılmışdır.

Beləliklə, 2011-ci ildə Arxeologiya və Etnoqrafiya İnstitutunun Respublikamızın bütün bölgələrində apardığı irimiqyaslı arxeoloji qazıntı işləri nəticəsində on minlərlə maddi mədəniyyət qalıqları aşkara çıxarılmışdır. Bu tapıntılar Azərbaycanın daş dövründən başlayaraq orta əsrlərə qədərki çoxminillik tarixinin öyrənilməsi üçün zəngin elmi informasiya bazası yaratmışdır.

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ в 2011 году

Рагимова М.Н.

Директор Института Археологии и Этнографии НАН Азербайджана

Исследования археологических памятников на территории Азербайджанской республики в последние годы приобрели широкий размах. Благодаря всесторонней поддержке и реальной материальной помощи со стороны руководства республики, значительно расширена география полевых исследовательских работ, укреплена материально-техническая база экспедиций, что позволило улучшить, как качество полевых работ, так и аналитический анализ полученных артефактов.

В 2011 г. динамика полевых работ продолжала развиваться по нарастающей, ставшей традициональной для последних лет, линии. В этом году на территории Абшерона, Нахчыванской автономской республики города Гянджи, в Сальянском, Габалинском, Губинском, Хачмазском, Шабранском, Хызынским, Гахском, Шекинском, Агджабединском, Агдамском, Физулинском, Имишлинском, Нефтечалинском, Огузском, Джалилабадском, Шамахинском, Агсуинском, Геранбойском, Товузском, Агстафинском, Шамкирском, Бардинском, Гедабекском и других районов проводились стационарные широкомасштабные исследования разнотипных археологических памятников, относящихся к различным историческим эпохам. В 2011 г. была также организована этнографическая экспедиция в Габала-Шамахинский регион.

Одной из приоритетных для полевых исследовательских работ Института, как и в предшествующие годы, остается Миль–Карабахская зона. В этом регионе только в 2011 г. Международной азербайджанско-германской и самостоятельной экспедициями Института археологии и этнографии выявлено более 50-ти новых, ранее неизвестных науке, памятников (поселений и могильников) периода неолита, энеолита и бронзы. Наряду с этим, в результате масштабных полевых работ, новые археологические памятники были выявлены на территории Нахчыванской Автономной Республики, в Гянджа-Газахской, Шеки-Закатальской, Губа–Хачмазской, Лянкяран–Астаринской зонах. В ряде экспедициях, наряду с местными археологами, в полевых исследованиях участвовали и, приглашенные из различных стран Европы, геоморфологи, палеоботаники, топографы и специалисты других научных дисциплин. Полученные, в результате полевых работ, образцы артефактов были отправлены для проведения соответствующих анализов в самые современные зарубежные лаборатории. Следует отметить, что результаты полевых работ международных экспедиций прошлых лет в 2011 г. были опубликованы в научных изданиях ряда стран. Все это способствовало расширению международных научных связей Института и способствовало распространению во многих странах мира научной информации о многих важных, с научной точки зрения, древних памятниках Азербайджана. Следует указать, что в 2011 г. международные связи Института заметно расширились. Совместные исследования в области археологии и этнографии проводились с учеными из США, Франции, Германии, Японии, Грузии, Кореи, России и Польши. Наряду полевыми работами обсуждались и перспективные направления будущих совместных работ.

В целом, проведенные в 2011 году полевые археологические исследования, в принятой историко-археологической литературе периодизации, можно объединить в следующие группы.

Период палеолита. В Лерикском районе в долине реки Зувандчай продолжалось изучение

пещерной палеолитической стоянки Зувандчай.

В результате раскопок в отложениях пещеры были выявлены, относящиеся к каменному веку и последующим эпохам, более 1000 остеологических образцов и 55 каменных орудий и керамических обломков. Выявленные здесь каменные орудия, по их технико-типологическим характеристикам, относятся к периоду среднего палеолита (мустье). В Шарурском районе Нахчыванской Автономной Республики продолжалось исследование пещерной палеолитической стоянки Газма, а в Шамахинском, Исмаиллинском, и Габалинском районах проводились разведовательно-поисковые работы выявленных памятников каменного века.

Неолит–Энеолитический период. Продолжались полевые исследования на неолитическом поселении Хасансу I у села Ашагы Кесаманлы в Агстафинском районе. На этом поселении, датируемым VII-VI тыс. до н.э., обнаружены каменные орудия архаических форм и остеологический материал, показывающие преемственность культуры раннего неолита и его перехода в стадию развитого неолитического производящего хозяйства. При раскопках поселения Хасансу I было выявлено впускное погребение III тыс. до н.э. Здесь при очистке могильной камеры были обнаружены керамические сосуды периода ранней бронзы, золотые и серебряные украшения. Находки в этой могиле дают ценные данные для изучения металлургии в эпоху ранней бронзы.

В Товузском районе, совместно с японскими специалистами, продолжались полевые работы на неолитическом поселении Гейтепе. На базе неолитического поселения Гейтепе в отчетном году была организована летняя школа молодых археологов стран СНГ, посвященная изучениям «Древних культур Южного Кавказа». Финансирование этого проекта было осуществлено Фондом межгосударственного Гуманитарного Сотрудничества стран СНГ. В процессе раскопок поселения Гейтепе, наряду с целым рядом новых открытий, следует особо отметить выявленные остатки оборонительных стен, окружавших данное поселение. На, синхронных этому памятнику других поселениях аналогичные фортификационные сооружения пока не известны.

Азербайджано–Германская совместная международная экспедиция в 2011 году продолжала изученние поселения энеолитического периода Кямильтепе I в Мильской степи на территории Агджабединского района. Во время раскопок была обнаружена, сооруженная из сырцового кирпича, платформа основания жилых помещений четырехугольной формы, орудия труда, изготовленные из речного булыжника и обсидиана, а также фрагменты керамических изделий. Результаты радиокарбонных анализов позволяют датировать поселение Кямильтепе I серединой VI тыс. до н.э.

В 2011 г. в Агджабединском районе исследовалось и поселение Кямильтепе IV. Выявленная здесь древнейшая система водоснабжения в виде древнего канала (арха) вызывает большой научный интерес, поскольку такие сооружения на неолитических и энеолитических памятниках Южного Кавказа еще не встречались.

На поселении Кямильтепе IV обнаружены, считающиеся редким для памятников этого периода, более 3000 различных бус и 70-микролитических орудий, с помощью которых эти бусы изготавливались. Результаты радиокарбонных анализов позволяют датировать поселение Кямильтепе IV началом VI тыс. до н.э. На сегодня это самое древнее раннеземледельческое поселение на всей территории Мильской степи.

Одновременно азербайджанско–германская экспедиция продолжала разведовательно-поисковые работы в Мильской степи, благодаря которым число, вновь выявленных, древних памятников здесь доведено до 46. Большая часть этих памятников являются раннеземледельческими поселениями периода неолита–энеолита. Вторая экспедиция Института, проводящая разведывательные работы в низменном Карабахе, выявила еще 15 новых памятников на территории Агдамского района.

На территории Товузского района, совместная азербайджано–французская экспедиция в 2011 году продолжала изучение древнего поселения Ментеш. В этом году исследовались еще более древние горизонты поселения, относящиеся к периоду позднего неолита. Таким образом, если раскопки этого поселения прошлых лет позволили изучить энеолитические горизонты памятника с соответствующий датировкой V-IV тыс. до н.э., то раскопки 2011 году позволили установить, что памятник более древний, нижние горизонты его культурного слоя

относятся к концу VI тыс. до н.э. и дают артефакты, характерные для периода позднего неолита.

В Геранбойском районе на территории села Татарлы исследовалось древнее поселение периода энеолита и ранней бронзы. В процессе раскопок здесь были выявлены жилища типа полуземлянок периода ранней бронзы, хозяйственные ямы, места очагов и значительный археологический материал данного периода.

Период бронзы и раннего железа. В 2011 году продолжались работы на поселении Махта в Шарурском районе Нахчыванской Автономной Республики. На этом памятнике относящемся к кура-аракской культуре эпохи ранней бронзы (IV-III тыс. до н.э.) была выявлена печь для выплавки металла, а под обломками одного из древних строений обнаружено множество зооморфных глиняных фигурок. Оба факта относятся к числу редких и важных для науки находок.

В Шарурском районе проводились и срочные спасательные археологические работы на многослойном поселении Ашагы Дашарх, сильно пострадавшем в ходе хозяйственных работ. Раскопки показали наличие на поселении пятиметрового культурного слоя. На участке раскопа были выявлены жилые помещения овального плана, изделия из керамики, камня и кости, очажные сооружения и другие образцы материальной культуры. Установлено, что памятник относится к раннебронзовому периоду и отражает средний и поздний этапы развития куро-аракской культуры.

В Хачмазском районе продолжались исследования многослойного поселения Серкертепе. Изучались слои раннебронзового периода IV-III тыс. до н.э. Основные находки этого года представлены фрагментами различных керамических сосудов, каменными зернотерками, очажными сооружениями, кремневыми зубцами наборных серпов, костяными шильями и т.д. Все эти находки имеют важное значение для реконструкции образа жизни, быта, хозяйства, ремесла и идеологии поселения северо-восточного региона Азербайджана в эпоху ранней бронзы.

По просьбе и при финансовом обеспечении Министерства культуры и туризма в Губинском районе в зоне села Хыналыг были проведены археологические исследования. Здесь обнаружены ряд, ранее неизвестных науке, памятников. До этого года самые ранние памятники в зоне села Хыналыг датировались ранним средневековым периодом. В результате проведенных исследований установлено, что в зоне села Хыналыг на высоте более 2000 м над уровнем моря имеются поселения и могильники эпохи бронзы, датируемые III-II тыс. до н.э. Это очень важные памятники в плане изучения процесса освоения людьми горных регионов в эпоху бронзы.

В Геранбойском районе был исследован курган №1 у села Шадлы. Под курганной шапкой находился склеп с захоронениями эпохи ранней бронзы. В обширной камере склепа в разное время было погребено более 100 человек. В склепе обнаружены 32 керамических сосуда, 11 костяных пряслиц, одна, изготовленная из камня, печать, множество пастовых бус и обуглившийся фрагмент деревянной чаши. В юго-восточной части камеры сохранились остатки деревянного ложа.

Абшеронская экспедиция в 2011 году продолжала исследование поселения Дюбенди III-II тыс. до н.э. Здесь были выявлены многочисленные наскальные рисунки и кладка стены длиной до 80 м. Одновременно проводились и раскопки на поселении начала II тыс. до н.э., выявленное недалеко от железнодорожной станции Дюбенди. Здесь также, наряду с многочисленным археологическим материалом, были обнаружены и наскальные рисунки.

В 2011 г. продолжались исследования на курганном поле Керимли в Огузском районе. Были завершены исследования кургана №2. Здесь в могильной камере, наряду с костяком человека, находился и целый костяк быка. В камере имелся богатый могильный инвентарь: многочисленные керамические сосуды, изделия из металла, украшения, в том числе и 10 глиняных фигурок птиц. Особо следует отметить бронзовый штандарт, являвшийся символом власти. Такие штандарты надевались на особые деревянные посохи. На основании, выявленного в могильной камере, материала курган датирован второй четвертью II тыс. до н.э.

На территории Нахчыванской Автономной Республики были исследованы ряд памятников II-I тыс. до н.э. Особое внимание уделялось памятникам, отражающим раннегородскую цивилизацию.

Продолжались исследования на городище II тыс. до н.э. Кюльтепе II в Бабекском районе. Это поселение имеет исключительно важное значение с точки зрения изучения раннегородской цивилизации на территории Азербайджана. Так, выявленные здесь остатки архитектурно-строительных сооружений позволяют говорить о наличии развитой раннегородской цивилизации. Наличие на городище Кюльтепе II, последовательно залегающих друг над другом, культурных слоев различных периодов эпохи бронзы, позволяет говорить о преемственности культуры в данном регионе на протяжении более чем двух тысяч лет.

На территории Шарурского района продолжались археологические работы на городище Огланкала. Раскопки проводились международной экспедицией с участием сотрудников Института. Здесь в этом году расчищены строительные остатки, в том числе и часть оборонительной стены. Кроме того, при расчистке южной оборонительной стены городища Огланкала было выявлено кувшинное погребение. В данном погребении, наряду с многочисленным могильным инвентарем, выявлены четыре серебряные монеты и пять перстней с печатками. Монеты чеканены в конце I в. до н.э. от имени императора Октавиана Августа. Это ценная находка для изучения взаимоотношений между государством Атропатена и Римской империей. Одновременно наличие этого кувшинного погребения дает основание утверждать, что жизнь на городище Огланкала интенсивно продолжалась более 1000 лет, то есть с конца II до конца I тыс. до н.э.

На территории Ордубадского района «Хараба–Гиланской» археологической экспедицией продолжалось исследование городища Сумбатан. Этот памятник изучается в сопоставлении с крепостями Манны и Мидии. Исследования показали, что это был административный, экономический, религиозный центр и, его изучение очень важно в свете получения знаний о ранних городах Азербайджана.

Следует отметить и, изученные в этом году на территории Ордубадского района, 12 курганов. Полученные из могильных камер этих курганов предметы представлены, в основном, полихромно крашеными керамическими сосудами и каменными орудиями.

В 2011 году, в связи с обращением Министерства культуры и туризма, на территории Акстафинского района в зоне Джейранчёля около заповедника «Кешикчидаг» были обследованы, подвергшиеся разрушению, ряд памятников. Установлено, что в данной зоне на площади около 2-х гектаров находится могильник периода поздней бронзы и раннего железа. В результате земельно-хозяйственных работ несколько могил были разрушены. Одно из захоронений курганного типа этого могильника было обследовано. В кургане были выявлены керамические сосуды, характерные для конца II – начала I тыс. до н.э. Следует отметить, что это первые курганные захоронения, выявленные в Джейранчельской зоне.

В Газахском и Агстафинском районах продолжались исследовательские полевые работы на поселениях второй половины II тыс. до н.э. Сарвантепе и Ястытепе. В 2011 году здесь были выявлены строительные остатки, предметы хозяйства и быта, в том числе многочисленные фрагменты керамических изделий, глиняные печати, бронзовые украшения и бытовые предметы, костяные, каменные орудия и другие образцы материальной культуры. Изучение этих памятников позволяет реконструировать принципы расселения в этой зоне в эпоху бронзы.

В Гядабейском районе продолжались разведывательные работы по выявлению и взятию на учет археологических памятников различных исторических эпох, начиная от периода бронзы до средних веков. Был выявлен ряд новых поселений и могильников. Особо следует отметить, изучение в этой зоне большого поселения эпохи поздней бронзы Говдугала, имеющего мощные оборонительные стены циклопического типа.

Античный и раннесредневековый период. В 2011 году были продолжены исследования крупного дворцового комплекса V-IV вв до н.э. возле села Гараджамирли Шамкирского района. Полевые исследовательские работы здесь осуществляла международная археологическая экспедиция, в составе которой работали специалисты Азербайджана, Грузии, России и Германии. Дворцовый комплекс охватывает обширную территорию в несколько квадратных километров. В результате масштабных стационарных и разведывательных полевых работ были зафиксированы, относящиеся к указан-

ному периоду, большие общественные здания. Самое крупное из них представляет собой остатки здания дворцового типа. Примечательно, что, выявленный в Гараджамирли, дворцовый комплекс ахаменидского типа, по своим размерам превосходит Персепольский дворец. У Гараджамирлинского дворца имеются множество залов, коридоров и небольших комнат. Этот памятник имеет огромное значение для изучения истории не только Азербайджана, но и всего Кавказа, Ближнего и Среднего Востока.

В отчетном году продолжались раскопки античной Габалы. Здесь значительным открытием стало выявление большого продуктового склада IV-III вв. до н.э. На складе в больших, зарытых в землю, хозяйственных кюпах хранили продукты. В 2011 году, в результате расширения территории раскопа, число выявленных хозяйственных кюпов доведено до 240. Но, несмотря на это, территория склада полностью еще не раскопана. Такой, огромный по масштабам, продуктовый склад античного времени, где можно было хранить тонны продуктов, на сегодня единственный не только в Азербайджане, но и в соседних странах.

В IV-III вв. до н.э. такой склад мог быть сооружением исключительно государственного значения и он еще раз подтверждает, что Габала уже в тот период был значимым городом. Продолжались и раскопки, выявленного в прошлые года, большого, овального в плане, общественного здания. Самое большое помещение этого здания могло вместить 600-700 человек. Вероятно, в таких помещениях проходили собрания государственного значения.

На территориях раннесредневековой и средневековой Габалы, именуемых Сельбир и Гала, также продолжались масштабные археологические раскопки. На участке Сельбир раскопки велись совместно с археологами из Кореи. В результате полевых работ, в 2011 г на территориях Гала и Сельбир выявлены архитектурно-строительные остатки указанных периодов, в том числе система городского водоснабжения и канализации, многочисленные предметы различных ремесленных отраслей, свидетельствующих об интенсивной ремесленно-хозяйственной жизни города на протяжении всего средневековья.

Среди исследуемых памятников античного и раннесредневекового периодов особо следует отметить изучение античного городища Галатепе у села Салманбейли Агджабинского района. Проводимые здесь масштабные археологические работы, массовыми находками образцов материальной культуры, позволили подтвердить сведения античных и раннесредневековых источников о наличии городов Кавказской Албании в этой зоне.

В результате раскопок городища Галатепе установлено наличие масштабных городских строений. Это, в частности, стены многоэтажных домов, сложенных из сырцового кирпича, городские улицы, каменные базы колонн, многочисленные предметы городского ремесленного производства.

Результаты раскопок на Галатепе со всей очевидностью показывают наличие здесь уже в III-II вв. до н.э. города с развитой городской инфраструктурой. В I в. до н.э. – II в. н.э. город переживал период бурного расцвета. Он имел тесные торгово-ремесленные связи с соседними регионами, в том числе с Римской империей и ее провинциями. В III в. н.э., в связи с длительными войнами Сасанидов с римлянами, город постепенно стал приходить в упадок. Масштабные археологические исследования этого городища будут продолжены.

В 2011 г. исследовался и некрополь городища Галатепе. Здесь были раскопаны и изучены еще три кувшинных захоронений античного периода. Среди могильного инвентаря оказалось много железного оружия (мечи, кинжалы, наконечники копий) бронзовых и железных украшений, расписных керамических сосудов.

В Сальянском районе во время земляных работ на участке между селами Шоркенд и Чуханлы случайно было обнаружено могильное поле с кувшинными погребениями. Здесь проведены археологические раскопки, в процессе которых исследовано 21 кувшинное погребение. Наряду с костяками погребенных были обнаружены многочисленные украшения, простые и расписные керамические сосуды и другие предметы материальной культуры.

В 2011 г. Шамкирская археологическая экспедиция Института археологии и этнографии НАНА совместно с Министерством культуры и туризма и Общественным Объединением Развития регионов на протяжении всего года вела

масштабные археологические работы на территории средневекового городища Шамкир. В этом году изучались городские оборонительные стены на юго-западном участке городища. Городские стены по направлению юг-север были расчищены в длину до 31 м., а по направлению восток-запад на 10 м. Следует отметить, что раскопки позволили установить, что город Шамкир имеет более древнюю историю и, что его городская структура сформировалась уже в VI-VII вв. На VI раскопочном участке городища Шамкир под средневековым культурным слоем, была обнаружена грунтовая могила первой половины I тыс. до н.э. Женский костяк этого погребения находился в сильно скорченном положении с большим числом различных украшений.

Шамахинская археологическая экспедиция в 2011 году продолжала исследовать памятники средневековой Шамахи. На территории городища в нижних горизонтах культурного слоя, наряду с остатками материальной культуры раннесредневекового периода, были выявлены и образцы керамики позднеантичного периода. Экспедиция осуществляла и разведовательно-поисковые работы, в результате которых к северо-западу от современной Шамахи были выявлены остатки еще одного средневекового городища. Можно предположить, что это городище является средневековым городом Ширван, который упоминается во многих раннесредневековых источниках и который пока не локализован. Но для подтверждения или опровержения этой версии необходимы масштабные раскопки городища.

«Шамаха–Агсуинская» археологическая экспедиция начала масштабные археологические исследования средневековой крепости Гюлюстан. В результате полевых работ были выявлены, относящиеся к средневековому периоду, предметы хозяйственного и бытового назначения и интересные образцы ремесленного производства. Считаем целесообразным еще больше расширить изучение крепости Гюлюстан и включить этот исторический памятник в список объектов туристического посещения.

Еще одним объектом полевых работ «Шамаха-Агсуинской» экспедиции в отчетном году стало изучение позднесредневекового города Агсу. В течении четырех месяцев здесь велись полевые работы. В итоге была вскрыта площадь в 5000 м^2 и изучены культурные горизонты города, относящиеся к XVII веку. На площади раскопа выявлена соборная мечеть. Сохранились части ее фундамента и 56 колонн, свидетельствующие о грандиозности данного строения. Были также обнаружены колодцы и системы водоснабжения города, расчищена часть главной городской площади.

Таким образом, в 2011 году в результате, проведенных археологическими экспедициями Института археологии и этнографии широкомасштабных полевых работ, во всех регионах республики были выявлены и изучены десятки тысяч образцов материальной культуры различных исторических эпох. Эти находки заметно пополняют информационную базу для изучения многовековой истории и культуры Азербайджана, начиная от периода каменного века до позднего средневековья.

ARCHAEOLOGICAL STUDIES IN AZERBAIJAN IN 2011

M.N.Ragimova

Director of the Institute of Archeology and Ethnography

2011 was remarkable for a wide scale of the archaeological investigations in Azerbaijan. Thanks to the government's considerable support the geography of the investigations has been expanded and, adequately, the quality of the research has been increased.

The archaeological excavations have embraced many regions of Azerbaijan such as, Absheron, Salyan, Gabala, Guba, Xachmaz, Shabran, Khizi, Gakh, Shaki, Agjabadi, Agdam, Fizuli, Imishli, Neftchala, Oguz, Jalilabad, Shamakhi, Agsu, Ganja, Goranboy, Tovuz, Agstafa, Shamkir, Sharur, Babek, Ordubad, Barda, Gedabej etc. Along with the archaeological investigations there have also been the ethnographical investigations in the Gabala-Ismayilli region.

The archaeological investigations along the Mil-Garabakh regions remained one of the important directions of the Institute's scientific interest. Azerbaijan-Germany International expedition team has revealed more than 50 new monuments (dwellings and burial sites) of the Neolithic, Eneolithic and Bronze ages. Along with these works there have been large scale archaeological excavations in the territories of Nakhchivan, Ganja-Gazakh, Shaki-Zagatala, Guba-Xachmaz, Lankaran-Astara regions.

These expeditions have included participants from Azerbaijan and European countries as well. Among them were foreign geomorphologists, paleobotanics, topographs and other specialists. The artifacts' samples collected from the field works have been delivered to the foreign countries' advanced laboratories for different analysis.

The 2011 was remarkable also for expanding the Institute's international cooperation with scholars from the USA, France, Germany, Japan, Georgia, Korea, Russia, Poland and others. Previously published articles and information by the Azerbaijani archaeologists in the journals abroad promoted the expansion of the Institute's international contacts.

The review of the Institute's archaeological studies for the 2011 are listed below. The order is given according to the period established in the archaeology.

Stone Age. The archaeological excavations were carried out in the Zuvadchay cave situated in Zuvadchay valley in the Lerik region. During the archaeological excavations there have been revealed more than a thousand osteological remains, 55 stone tools and ceramic finders related to the Stone Age period. Based on the technical-typical features of the stone made tools it is possible to conclude that Zuvadchay Paleolithic camp is related to the Musty culture.

In the Sharur region of the NAR study of the Paleolithic cave Gazma has continued and in the Shamakhi, Ismayilli and Gabala regions exploratory works have been done, revealing monuments of the Stone Age.

Neolith-Eneolith Ages. The archaeological excavations in I Hasansu Neolith Age (VII-VI millenniums B.C.) dwelling place which is situated next to Ashagi Kasaman village of the Agstafa region. Archaic typical stone tools, osteological remainders which were found in I Hasansu are proof that, there was passage from Early Neolith to

Neolith and inherited culture. There was a burial place found which had an inlet related to the III millennium B.C. Cleaning camera lense was productive; There were found samples of decoration made of gold and silver and ceramic. These findings are invaluable for understanding the Early Bronze Age metal history of Azerbaijan

The excavation works taken in the Tovuz region, Geytepe Neolith Age at the dwelling were made in collaboration with Japanese specialists. There has been a summer school project of CIS countries (young archaeologists named "The Ancient Culture of the Southern Caucasus" at the Geytepe Neolith living place). This project was supported by the Interstate Humanitarian Fund in collaboration with the CIS. Of special interest is the discovery made in Geytepe of the defense walls' remains which were surrounding the dwelling site in that ancient time.

Azerbaijan-Germany archaeological expedition continued investigations on the dwelling place Kamiltepe of the Eneolith Period. The monument is situated in Mil valley of the Agjabadi region. During excavation there were found ceramic samples and tools made from the river stones and obsidian, cleaned four-cornered home/dwelling places and part of the mud brick construction. Radio carbon analysis shows that Kamiltapa I living place is related to the middle of the VI millennium B.C.

The ancient system of water supply in the shape of the channel (archaic), which was revealed here, represents a great scientific interest. This construction has been discovered for the first time among the South Caucasus' existed monuments of the Neolithic and Eneolithic periods.

In the settlement Kamiltepe have been discovered more than 3000 different beads and 70-microlithic tools by means of which these beads were made. These bead are estimated by the specialists as a rare samples for the given period. Radio carbon analysis shows that I Kamiltapa living place is related to the middle of the VI millennium B.C. Today this monument has been dated as the ancient early agricultural settlement across Mil Valley

Simultaneously Azerbaijan-German archaeological expedition continued exploratory study in the Mil valley. As a result of this study the number of newly revealed ancient monuments increased up to 46. Most of these monuments are the early agricultural settlements of the Neolithic – Chalcolithic period. The second expedition of the Institute carried out exploratory study in the Garabagh Valley has revealed another 15 new monuments in the territory of Agdam region.

Azerbaijan-French expedition in 2011, continued study on the ancient settlement Mentes of the Tovuz region. The joint team achieved investigation of the settlement's early horizons which are related to the late Neolithic period. As a result of these excavations the lower layers of the monument have been dated as of the VI millennium B.C. and the artifacts are typical for the late Neolithic period.

Investigations were continued on the territory of the settlement Tatarly of the (Geranboy region) of the Eneolith and Early Bronze periods. Here have been revealed mud brick constructions, house hold places and ovens and collected a considerable archaeological materials of the given period.

Bronze and Early Iron Ages. In 2011, works continued on the settlement Makhta of the Sharur region of NAR. In the monument relating to the Kur-Araxes culture of the Early Bronze Age (IV-III millennium B.C.) has been found furnace for smelting metal, and under the rubble of one of the buildings were discovered many zoomorphic clay figurines. These two facts are rare and important for the archaeology.

In Sharur district conducted an urgent rescue archaeological works on a laminated settlement Ashaghy Dasharkh, which has been damaged during the economic works. Excavations have revealed the presence of cultural layer, which was five-meter in heights. On the excavated site have been revealed living places an oval in their plan, tools made out of ceramic, stone and bone materials, and other samples of the material culture. It has been identified that the monument is related to the Early Bronze period and reflects the middle and late stages of the Kura-Araxes culture.

In the Khachmaz region archaeologists continued study of the multilayer settlement Serkertepe. A special focus was paid on the study of the Early Bronze period related to the IV-III millennium B.C. Key findings of this year are represented by the

different fragments of the ceramic vessels, stone grinders, hearth facilities, flint sickle teeth type-setting, bone, awls, etc. All these findings are important for the reconstruction the level of life, craft and ideology of the early settlers of the north-eastern region of Azerbaijan in the Early Bronze Age.

At the request and the financial support of the Ministry of Culture and Tourism in Guba in the area of the village Khinalig were conducted archaeological works. Here were found a number of previously unknown archaeological monuments. Up to the current year, the earliest monuments in the area of the village Khinalig dated by early medieval period. The studies found that in the area of the village Khinalig at the altitude of over 2,000 m above sea level, there are settlements and tombs of the Bronze Age, which has been dated related to the III-II century B.C. This group of monuments represents a great interest in term of studying the process of development people life in the mountain regions.

In Goranboy region was investigated mound number 1 at the village Shadly. Under the headline was a barrow burial vault related to the Early Bronze Age. In the vast chamber tomb were buried more than 100 people during different historical periods. In the crypt found 32 ceramic vessels, 11 bone spindles, one of them was made of stone, seal, and numerous of beads and charred fragment of the wooden bowl. In the south-eastern part of the chamber has been revealed the wooden bed.

Absheron expedition in 2011, continued study the settlement of the Dubendi is related to the III-II centuries B.C. There have been identified numerous rock carvings and masonry walls up to 80 meters. The team also carried out excavations at the settlement, which was situated close to the railway station Dubendi. The settlement has been dated by the archaeologists as related to the III-I millennium B.C.

In the 2011, research continued on the mound field Kerimli of the Oguz region. The studies of the mound number 2 has been completed. Here in the burial chamber, along with a human skeleton was also found a skeleton of a bull. The chamber was rich by the burial equipment, such as numerous potteries, metalwork, jewelry, including 10 clay figurines of birds. It's also important to note that the bronze emblem is a symbol of power. Such standards were worn on special wooden staves. On the territory of NAR a number of monuments have been investigated. These monuments were related to the II-I century B.C. A special attention was paid to investigation of the monuments which reflect the early urban civilization.

Investigations were continued on the site Kultepe II at the Babak District, which is related to the II-I millennium B.C. This settlement is crucial from the view point of studying the early urban civilization in the territory of Azerbaijan. The identified remains of the architectural structures refer to the presence of the early urban civilization. On the Sharur region archaeological works continued on the Oglankala site. Excavations were carried jointly by the International expedition of the Institute. Here, in this construction, are cleaned residues, including part of a defensive wall. Also, when clearing the southern defensive wall fort Oglankala revealed pitcher burial. In this burial, along with numerous grave inventories, revealed four silver and five signet rings. Coins minted in the end I century B.C. on behalf of the Emperor Octavian Augustus. This is a great finding for the study of relationships between the Atropatena state and the Romanian Empire. Simultaneously, the presence of the pitcher burial gives background to believe that life on the Oglankala site was intense and has lasted more than 1,000 years, or from the from the end of the II millennium up the end of the I millennium B.C.

On the Ordubad territory the "Kharaba-Gilan" archaeological expedition continued research on the Sumbatan settlement. This monument is studied in the context of relations to the Manna and Media fortresses. Studies have shown that it was an administrative, economic and religious center, and its study represents great interest in the research of the early cities of Azerbaijan.

In 2011, in connection with the request of the Ministry of Culture and Tourism, in the Agstafa district the whole area around the Djeyranchol "Keshikchidag" preserve has been examined. Unfortunately, a few monuments have been destroyed. As a result of studies in the area it has been identified that the revealed burial at the area

about of 2 hectares is related to the Late Bronze and Early Iron Age.

Antic and Early Middle Ages: Azerbaijan-Georgia-Russian and Germany archeological expeditions continued investigations on the large palace complex related to the V-IV millennium B.C. The complex is situated in the village of the Garadzhamirli-Shamkir region. The palace complex covers a vast area in a several square kilometers. As a result of the joint field works large community buildings have been registered. The largest of them represents the remains of a palace building. It is noteworthy that the palace complex in Garajamirli is bigger than the Persepolis palace. The palace has a number of large rooms, corridors and small rooms as well. This monument has a great importance for study of the history of Azerbaijan and the Caucasus and the Middle East regions.

During the past year, the excavations were continued in ancient Gabala. A remarkable moment revealed a large product warehouse related to the IV-III centuries B.C. As a result of the expanded excavation here, archaeologists revealed 240 large pitchers. Despite this, the warehouse area is not yet fully excavated. In this warehouse it would be possible to store tons of products.

The existence of this huge storage space proves once again that Gabala was one of the significant centers in the IV-III centuries B.C. Expeditions have continued excavations of the community buildings. The largest room could accommodate approximately 600-700 people. Perhaps, these rooms were for holding state meetings.

In the territories of the Early Medieval Gabala, called Selbir and Gala, were continued an extensive archaeological excavations. On the site of Selbir excavations were carried out in conjunction with archaeologists from Korea. As a result of these field works architectural and structural remains have been identified, including a system of the urban water supply, sanitation and numerous artifacts of craft and household function. These findings testify to an intensive craft-economic life in the city of Gabala.

Among the studied monuments of the Ancient and the Early Medieval periods a particular interest represents the ancient settlement Galatepe, which is situated near the village Salmanbeyli-Agjabedi region. The archaeological works here have revealed a numerous samples of the material culture. These findings confirm the ancient and medieval source's data about the existence the cities of the Caucasian Albania in this area.

The excavations revealed the existence of mighty urban buildings in the settlement of Galatepe. This refers to multi-story house walls which were built from mud-brick constructions, including the city streets, the bases of the columns and numerous other items of the urban handicraft.

The excavations at Galatepe clearly show the presence of a city with well a developed urban infrastructure. The city experienced a period of rapid development and had close trade and craft connections with neighboring regions including the Roman Empire and its provinces. In the III century B.C. owing to the long wars between the Romans and the Sassanids, the city gradually began to decline. Large scale archaeological investigations of this settlement will be continued.

During the construction works in the Salyan region in the area between the villages of Shorkend and Chukhanly, a sepulchral field with a jugful of burials was inadvertently discovered. Archaeological excavations on the site have investigated 21 jug burials. Along with the buried skeletons were a numerous decorations, plain and painted ceramic vessels and other artifacts.

In 2011 the Shamkir archaeological expedition of the Institute of Archaeology and Ethnography, the Ministry of Culture and Tourism of Azerbaijan and Association on the Development of regions carried out extensive archaeological works in the Shamkir medieval town’s territory. The city's defensive walls in the southwest sector of the settlement were studied. City walls were cleared in the southern and northern directions in the length of up to 31 meters and in the eastern and western direction by 10 meters.

It should be noted that the excavations revealed that Shemkir city has more ancient history and that its urban structure has been formed in the VI-VII centuries. At the excavation site of the settlement in Shemkir a medieval cultural layer was found dirt buried grave of the first half century with a Female skeleton who was buried in a crouched position with many different decorations.

Shamakhi archaeological expedition in 2011 continued to explore the monuments of medieval Shamakhi. On the territory of the settlement in the earlier cultural layers have been discovered remains of material culture related to the early Medieval period and samples of the ceramics findings from the Late Antique period. The expedition were continuing the study and exploratory works. The most interesting finding of the team work was finding the Medieval fortresses at the north-west of the modern Shamakhy city. It can be assumed that this settlement is the medieval city of Shirvan, which has been mentioned by the Early Medieval authors. For proving this proposal it is necessary to organize large-scale excavations in the territory of the ancient city.

"Shamakhy-Aghsu" archaeological expedition handed out a large-scale archaeological survey of the medieval fortress in Gulistan in the beginning of this year. As a result of the field work a number of household items and household examples of handicraft production relating to the Medieval period have been identified. We consider further expanding the study in this area.

"Shamakhy-Aghsu" expedition carried out the field works, in Aghsu city, which is related to the Late Medieval period. Within four months field works conducted here it has been revealed the area in 5,000 m^2, which has a cultural layers of the city Aghsu related to the XVII century. Here was found remains of the Mosque's fundament and 56 columns, testifying about the huge building in the past centuries. Wells and water systems of the city were also found? The part of the city's main square has been plundered before.

Thus the archaeological research conducted by the researchers of the Institute in 2011 have been identified and studied around tens of thousands of samples of the material culture related to different historical periods. These findings represent significant materials for study Azerbaijan's ancient history and culture starting the Paleolithic period up to the Late Middle Ages.

ARXEOLOJİ QAZINTILAR

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ
ARCHAEOLOGICAL EXCAVATIONS

QƏDİM DAŞ DÖVRÜ
КАМЕННЫЙ ВЕК
STONE AGE

NEOLİT VƏ ENEOLİT DÖVRÜ
ПЕРИОД НЕОЛИТА, ЭНЕОЛИТА
NEOLITHIC, ENEOLITHIC PERIOD

TUNC VƏ DƏMİR DÖVRLƏRİ
ПЕРИОД БРОНЗОВОГО И ЖЕЛЕЗНОГО ВЕКОВ
PERIOD OF BRONZE AND IRON AGES

ANTİK DÖVRÜ VƏ İLK ORTA ƏSRLƏR
АНТИЧНЫЙ ПЕРИОД И РАННЕЕ СРЕДНЕВЕКОВЬЕ
ANTIQUE AND EARLY MEDIEVAL PERIOD

ORTA ƏSRLƏR DÖVRÜ
СРЕДНЕВЕКОВЫЙ ПЕРИОД
MEDIEVAL PERIOD

PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI TƏDQİQATLARIN İLKİN NƏTİCƏLƏRİ
(Lerik rayonu)

Ə.Q.Cəfərov

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Paleolit arxeoloji ekspedisiyası 2011-ci ilin iyul-avqust aylarında Ə.Q.Cəfərovun rəhbərliyi altında Lerik rayonunun Buzeyir kəndi yaxınlığında, Zuvandçayın sol sahilində yerləşən Zuvandçay mağarasında ilkin arxeoloji kəşfiyyat işləri aparmışdır. Zuvandçay mağara düşərgəsi 2007-ci ildə Paleolit arxeoloji ekspedisiyasının Lerik rayonu ərazisində apardığı arxeoloji kəşfiyyat işləri zamanı qeydə alınmışdır [1] (şəkil 1).



Şəkil 1.

2011-ci ildə Zuvandçay mağarasında aparılan arxeoloji qazıntıların əsas məqsədi aşağıdakılardan ibarət olmuşdur:

1. arxeoloji qazıntılar zamanı düşərgənin stratiqrafiyasının müəyyən edilməsi;
2. ayrı-ayrı təbəqələrdən tapılmış arxeoloji, paleontoloji və digər tapıntıların dövrlərinin müəyyən olunması;
3. daş məmulatlarının texniki-tipoloji xüsusiyyətlərinin tədqiq edilməsi;
4. ibtidai insanların ovçuluq təsərrüfatının xarakterinin müəyyən olunması;
5. ayrı-ayrı sümük məmulatlarının hansı heyvanlara aid olmasının təyin edilməsi;
6. ibtidai insanların mağarada məskunlaşmasının xaraketrinin müəyyən edilməsi və digər problemlərin öyrənilməsi.

Zuvandçay mağara düşərgəsi Lerik yolunun 11-ci kilometrliyində, Buzeyir kəndinin yaxınlığında Zuvandçayın sol sahilində yerləşir [2]. Mağara düşərgəsi dəniz səviyyəsindən 1630 metr yüksəklikdə, çayın müasir yatağından 200 metr hündürlükdə yerləşir.

Zuvandçay mağara düşərgəsində ilkin arxeoloji qazıntı işləri düşərgənin HXİİK 6-10-cu kvadratlarında aparılmışdır. Aparılan arxeoloji qazıntılar zamanı düşərgənin çöküntülərində hələlik 5 arxeoloji təbəqə müəyyən olunmuşdur. Arxeoloji qazıntılar aparılan sahədə düşərgənin çöküntüsünün ümumi qalınlığı 1 m 81 sm-ə bərabərdir. Lakin mağara düşərgəsinin çöl tərəfinə getdikcə çöküntünün qalınlığı artır. Gələcəkdə aparılacaq arxeoloji tədqiqatlar zamanı daha yeni mədəni təbəqələrin qeydə alınacağıı güman edilir.

Zuvandçay mağara düşərgəsinin birinci və ikinci təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı orta əsrlər, antik, dəmir, tunc və eneolit dövrlərinə aid gil qab qırıqları tapılmışdır. Mağara düşərgəsinin 3-5-ci təbəqələrində aparılan arxeoloji qazıntılar zamanı isə daş dövrünə aid quş və heyvan sümükləri aşkar olunmuşdur.

Zuvandçay paleolit düşərgəsində aparılan arxeoloji qazıntılar zamanı çöküntülərdə bir neçə ocaq layları qeydə alınmışdır (şəkil 2). Bu xüsusiyyət düşərgə sakinlərinin ocaqdan istifadə etdiklərini söyləməyə əsas verir.



Şəkil 2.

Arxeoloji qazıntılar zamanı Zuvandçay mağara düşərgəsinin 3-5-ci təbəqələrindən 500-dən artıq sümük qırıqları tapılmışdır. Düşərgədən tapılmış sümük məmulatı çapılıb doğranmış vəziyyətdədir. Bu da onların əksəriyyətinin hansı heyvan və quş növlərinə aid olmasını təyin etməyi olduqca çətinləşdirir. Ancaq sümük məmulatı işərisində 30-dan artıq çənə və diş qeydə alınmışdır. Məhz həmin çənə və dişlər əsasında sümük məmulatının hansı heyvan və quş növlərinə aid olmasını müəyyən etmək mümkün olmuşdur.

Zuvandçay paleolit düşərgəsinin III-V təbəqələrindən tapılmış sümük məmulatı içərisində dağ keçisi, cüyür, keçi, tülkü, quş və müxtəlif gəmiricilərin sümük qalıqları qeydə alınmışdır. Zuvandçay paleolit düşərgəsindən tapılmış sümük məmulatları mağara sakinlərinin ovçuluqla məşğul olduqlarını göstərir və bu bölgədə daş dövrünün heyvanat aləmini tədqiq etməyə imkan verir.

2011-ci ildə Paleolit arxeoloji ekspedisiyasının Zuvandçay mağarasında apardığı arxeoloji qazıntılar zamanı 55 ədəd daş məmulatı tapılmışdır. Düşərgədən tapılmış daş məmulatı arasında əmək alətləri, qəlpələr, istehsal tullantıları və çay daşları qeydə alınmışdır. Zuvandçay mağara düşərgəsindən tapılmış daş məmulatının texniki və tipoloji xüsusiyyətlərinə görə onların mustye mədəniyyəti dövründə hazırlandıqlarını söyləmək olar.

Lerik rayonu ərazisində olan Zuvandçay mağarasından paleolit dövrünə aid maddi mədəniyyət qalıqlarının tapılması mühüm elmi əhəmiyyətə malikdir. Rayonun ərazisindən bu vaxta qədər daş dövrünə aid arxeoloji və paleontoloji materiallar ancaq Buzeyir mağarasından tapılmışdır. Zuvandçay mağarasından paleolit dövrünə aid maddi mədəniyyət qalıqlarının tapılması Buzeyir mağarasında sakin olan daş dövrü insanlarının Zuvandçaydan oraya köçməsini söyləməyə imkan verir. Əgər Buzeyir paleolit düşərgəsində ibtidai insanların yaşayış sahəsi 100 kvadrat metrdən bir qədər artıqdırsa, Zuvandçay mağarasında qədim insanların yaşayış sahəsi 600 kvadrat metrə bərabərdir.

2011-ci ildə aparılan arxeoloji qazıntılar zamanı tapılmış maddi mədəniyyət qalıqları, çöküntünün stratiqrafiyası və yaşayış sahəsinə görə Zuvandçay mağarası Azərbaycanın Qarabağ ərazisində qeydə alınmış Azıx [4] paleolit düşərgəsindən sonra ikinci paleolit düşərgəsidir. Aparılan arxeoloji qazıntılar nəticəsində tapılmış arxeoloji və paleontoloji materiallara əsasən Zuvandçay mağara düşərgəsində ibtidai insanların 100-120 min il bundan əvvəllərdə məskunlaşdığını söyləmək olar.

ƏDƏBİYYAT

1. Cəfərov Ə.Q., Avşarova İ.N., Zeynalov A.Ə. Zuvandçay vadisində arxeoloji tədqiqatlar. 2006-2007-ci illərdə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunları. Bakı, 2007.
2. Azərbaycan Arxeologiyası. Daş dövrü. Bakı, 2008.
3. Cəfərov Ə.Q. Azərbaycanın ilk sakinləri. Bakı, 2004.
4. Hüseynov M.M. Azərbaycanın qədim paleoliti. Bakı, 1985.

А.Г.Джафаров

ПЕРВЫЕ РЕЗУЛЬТАТЫ ИССЛЕДОВАНИЙ ПАЛЕОЛИТИЧЕСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

Палеолитическая археологическая экспедиция в 2011 году проводила исследования в пещере Зувандчай, расположенной на левом берегу одноименной реки, близ села Бузеир Лерикского района. В результате раскопок обнаружен огромный археологический материал.

В пещере Зувандчай зарегистрировано пять культурных слоев. В первых двух культурных слоях найдена керамика, относящаяся к периодам средних веков, античности, железному веку и эпохе энеолита.

В третьем, четвертом и пятом слоях выявлены орудия труда и кости диких животных каменного века. По техническим и типологическим особенностям, каменные изделия относятся к культуре мустье.

A.G.Jafarov

THE FIRST RESULTS OF INVESTIGATIONS TAKEN AWAY BY PALEOLITH ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

There is talked about archaeological and paleontological materials found during archaeological excavations taken away in Zuvandchay cave situated in the left side of Zuvandchay near Buzeyir village of Lerik region with administration G.Jafarov in July-August 2011 of ANAS Archaeology and Ethnography Institute's Paleolith archaeological expedition in the article.

There are registered five archaeological layers in sediments Zuvandchay's cave during excavations. There are found broken clay plate about Middle Ages, Antique, Iron, Bronze and Eneolith ages from first and second layers.

There are found hunting animal bones labor tools about Stone Age in 3-5 layers of cave camp.It is possible to say that stone products were prepared in Musty culture period mostly technician and typological properties.

PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASI CƏNUBİ QAFQAZ DƏSTƏSİNİN TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİ

(Şamaxı, İsmayıllı, Qəbələ rayonları)


M.M.Mənsurov

Paleolit arxeoloji ekspedisiyası 2011-ci il noyabrın 1-dən dekabrın 29-dək Şamaxı-İsmayıllı-Qəbələ rayonları ərazilərində çöl-tədqiqat işləri aparmışdır.


Çöl-tədqiqat işlərində Cənubi Qafqaz paleolit arxeoloji dəstəsinin başlıca məqsədi aşağıda sadalanan məsələlərə diqqət yetirməkdən ibarət olmuşdur:

1. Cənubi Qafqaz dağları ətəklərində və maili düzənliklərdə axtarış, kəşfiyyat-qazıntı işləri aparmaq;
2. Cənubi Qafqaz dağları ətəklərində Eopleystosen və Erkən Pleystosen (Abşeron və Bakı yarusları) çöküntülərinin yayılma sahələrini seçmək;
3. Maili düzənlik və çay terraslarında axtarış kəşfiyyat işləri aparmaq;
4. Çay daşları və gətirilmə konuslar kəsiklərində müşahidə və araşdırmalar etmək;
5. Antropogen dövrü gilicə və qumluca qatlarında təmizləmə və sıyırmalar aparmaq;
6. Perspektivli tapıntı sahələrinin müvafiq yerlərində qarımlar açmaq;
7. Qeydə alınan materialların texniki və morfoloji xüsusiyyətlərini müəyyənləşdirmək;
8. Əldə olunan artefaktlar əsasında qonşu ərazilərin daş dövrü yaşayış yerləri daş məmulatları ilə texniki və tipiloji müqayisələr vermək;

Paleocoğrafi baxımdan dağ ətəyi və maili düzənlik, eləcə də çay terraslarının alt qatlarında Eopleystosen, Erkən Pleystosen (Abşeron, Bakı) çöküntüləri geniş yayılmışdır. Bu qəbil layları Şamaxı nahiyəsinin Tircan, Şilyan, İvanovka, Kürd-Ması, Uştal kəsilişlərində, eləcə də Qəbələ bölgəsinin Vəndam, Nic, Sultan-Nuxa, həmçinin Əmili, Hacallı, Qaradeyin kəndləri dairəsi çöküntülərində təsadüf edirik. Məhz bu səbəblərdən axtarış, kəşfiyyat-yoxlama (şəkil 1) işləri yuxarıda göstərilən məntəqələr ətrafında getmişdir.




Şəkil 1. Daş alətlər (Şamaxı rayonu).




Şəkil 3. Çaxmaq məmulatı (İsmayıllı rayonu).



Şəkil 2. Şamaxı rayonu, Çuxur Yurd kəndi – İslam düzündən görüntü.



Şəkil 4. Süxur nümunələri (İsmayıllı rayonu).



Şəkil 5. Artefaktlar (İsmayıllı rayonu).

İlk axtarış-kəşfiyyat işinə Şamaxı rayonu ərazisində başladıq. Meşəliklə örtülü dağlıq ərazidə yerləşən Avaxıl və Dəmirçilər kəndləri ətrafında axtarışlar apardıq. Bu kəndlərdən cənub-şərqdə Pirqulu, Nağaraxana, Məlhəm kimi yaşayış məntəqələri yerləşir. Sonrakı kəndlər ətrafında kəsiliş açılışlara, açıq sahələrə rast gəlmədiyimizdən aralarda geniş axtarışlara rəvac vermədik. Qırxbulaq ətrafı qar zolaqları ilə örtülü olduğundan dərələrin dibinə enə bilmədik.

Digər marşrutumuz Pirsaat çayının sağ sahili boyu sarı gilli kəsilişlərə, pilləli terraslara baxış keçirdik. Qız meydanı - Kürdəmir yolu ətrafı yerləri gəzdik. Pirsaat çayının sol sahili boyu iki pilləli terrası gözdən keçirdik. Üst terrasın üzərindən çaxmaqlaşmış roqovik cinsli massiv lövhə tapılmışdır. Onun üzərinə yanları boyu orta bərabərində aşel tipli gəz və zəncirvari retuşlu qaşov iş elementi düzəlmişdir. Ölçüləri: 8,8 x 6,2 x1,7 sm (şəkil 1,1).

Başqa bir axtarış istiqaməti Qəleybuğurd və Şiş kəndləri yaxınlığındakı qumlu-gilli kəsilişlərə və yastanalara baxdıq.

Bədo-İstisu yolunda cənub-qərb istiqamətində olan iqamətgahın şərq istiqamətində yatmış qılıclara nəzər yetirdik. Bədo bulağı ətrafında ağ çaxmaq daşı üzərinə hazırlanmış qaşov əldə etdik. Bu alət kiçik ölçülü yastı çay daşı üzərinə formalaşmışdır. Onun hər iki üzü və sağ yanı təbii qabıqlıdır. Daşın yuxarı və aşağı ucu dikinə pilləli dişəklənmişdir. Ölçüləri: 6,4 x 5,2 x 2,3 sm (şəkil 1,2).

Şamaxı rayonu ərazisində axtarışlar apardığımız müddətin son günündə Əngrxaran kəndi ətrafı Binasti dağı ətəklərinə qalxdıq. İslam düzünü gəzdik. Çaxmaqlaşmış əhəng daşından çopper tipli alət əldə etdik. Alətin alt üzü iki laylı yastıdır. Üst üzü hündür olub qabarıqdır. Planda düzbucaq biçimlidir. Ucları və sağ yanı dik olmaqla qalındır. Sol yanı iri fasetlərlə formalaşmışdr. Bu bir üzlü işlənmiş çopper tipli artefaktdır. Ölçüləri: 9,6 x 6,8 x 4,4 (şəkil 1,4).

Göylər və Mədrəsə kəndləri ətrafı tirələrdə aparılan axtarış işləri zamanı da paleolit dövrünə aid qalıqlar qeydə alınmışdır. Bu tirələrin davamı İsmayıllı—Qəbələ rayonları ərazilərinin müvafiq səviyyələrində də izlənilir. İslam düzündən sonra Şirəli dağı ətəklərinə diqqət yetirdik. Əhəngli çınqıl laylı kəsikdə təmizləmə, arıtlama işləri apardıq. Kəsikdən bir ədəd alət əldə etdik. Bu düzbucaq formalı roqovik cinsli lay daş parçası üzərində formalaşmış uc qaşovudur. Planda düzbucaq formalıdır. Əsası enli, yuxarı ucu nisbətən yığcamdır. Yanları və aşağı ucu dikdir. Hər iki üzü yastıdır. Yuxarı ucu faset və pulcuqlarla maili dişəklənmişdir. Bu alət massiv uc qaşovudur. Səthləri bütövlükdə qalın patinayla örtülmüşdür. Ölçüləri: 10 x 7,4 x 2,7 sm (şəkil 1.3).

Axtarış kəşfiyyat işləri zamanı İsmayıllı rayonunun Tircan kəndi ərazisinin şimal-şərqində, 800-1000 metr yüksəklikdə olan aşağı dağlıq qurşağında mustye dövrü düşərgə yerindən bir neçə əşya götürülmüşdür. Bu düşərgədə təbaşir dövrü çöküntülərindən üzə çıxmış yüksək keyfiyyətli çaxmaq daşından xammal istifadə olunmuşdur. Ticran kəndi yaxınlığından tapılan çaxmaq məmulatı qəlpə, nüvə və lövhədən ibarətdir.


Qəlpə - nüvə qalığına oxşar qısa qalın olub üçbucaq formalıdır. Hamar vurma səthinə və yayğın zərbə düyününə malikdir. Üst üzü təbii qabıqla örtülüb, qabarıqdır. Qəlpənin sol yanı üst üzdən bir cərgə dişəklənmişdir. Ölçüləri: 9,2 x 5,7 x 2,3 sm (şəkil 3,5).

Uc qaşovu – düzbucaq formalı qısa qalın nukleusvari qəlpə üzərində formalaşmışdır. Alt və üst üzü yastı olub yanları dik vurulmuşdur. Yuxarı ucu nisbətən sivriləşibdir. Sol yanın yuxarı səthi üst üzdən dişəklənmışdi. Məmulat süd rəngli patina ilə örtülmüşdür (şəkil 3,2). Ölçüləri: 4,5 x 2,7 x 1.9 sm.


Lövhəvari qəlpələr. Bunların bir yanı qalınaraq olub təbii qabıqdadır. İki ədədi izlərdə yastıdır. Üçüncü lövhavari qəlpə qayıq şəkillidir. Sol yanı dik sağ yanı mailidir. Hamar vurma səthi kiçik zərbə düyümü vardır. Sağ yanı qövsvaridir. Süd rənglidir. Süd rəngli patina ilə örtülüdü. Ölçüləri: 5,5 x 2,9 x 1,5 sm (şəkil3, 1, 3, 6).

Nukleus - dördbucaq formalıdır. Hər iki üzdə yastıdır. Yanları dikdir. Əsas vurma səthləri yuxarı və aşağı ucdadır. Hər iki üzündə uclardan, axırda isə yanlardan vurulan zərbə izləri aydın bilinir. Bir tərəfi təbii qabıqlı, digəri isə dikinə dişəklidir. Səthləri yüngül patinalıdır. Ölçüləri: 5,4 x 4,1 x 3,2 sm (şəkil 3, 4).

İsmayıllı rayonu ərazisində Basqal kəndinə səfər etdik. Kənd icra nümayəndəsi və Bələdiyyə müavini ilə görüşdük. İcra nüməyəndəsi Novruz müəllim bildirdi ki, “orta dağlıq qurşaqlar göründüyü kimi qar altındadır. May-iyun aylarında gəlin, hər cür köməklik göstərmək bizim tərəfdən olacaqdır. Və biz də marağındayıq ki, rayonumuzun daş dövründən məskunlaşma tarixini üzə çıxardaq.”



Şəkil 6. Daş alətlər (Qəbələ rayonu).



Şəkil 7. Alətlər (Qəbələ rayonu).

Bundan sonra səhəri günü qarlı-buzlu çox qorxulu sıldırım qayalar altı ilə Lahıc qəsəbəsinə getdik. Lahıc Diyarşünaslıq muzeyinin direktoru və Muzey İnformatika Mərkəzinin sədri ilə görüşdük. Muzey direktoru tərəfindən Niyal dağ ətəyindən götürülmüş bir neçə süxur nümunələri içərisindən çaxmaqlaşmış yaşma cinsli iri daş yumrusu (şəkil 4, 1) və iki ədə qəlpə diqqətimizi çəkdi. Bu qəlpələrin ikisi də üz qəlpəsidir. Biri qayıqvari formalıdır. Alt üzü yastı üzü hündür olub iki səthlidir. Yüngül patinalı olub yanları dişəklidir (şəkil 4. 2).

İkinci qəlpə düzbucaqlıdır. Üst üzlərdə yastıdır. Yanları dikdir. Xammalı, sumağı rəngli çaxmaqlaşmış yaşma cinsli daşdır. Üst səthində düzbucaq biçimli ağ süxur qatı vardır. Bu həm də qəlpənin təbii qabığını daşıyır. Onun sağ yanı əvvəl iri fasetlərlə, ikinci növbədə retuşla dikinə işlənmişdir. İkinci işləmədən bu yanda dərin gəz əmələ gəlmişdir (şəkil 4.3), sol yanında mexaniki əzilmə müşahidə olunur. Ümumiyyətlə, Lahıc muzeyində saxlanılan və Niyal dağdan süxurlar ümid verir ki, bu ərazidə ibtidai insan məskənlərinə və alət dəstlərinə rast gəlinəcəkdir.

Bu ilki çöl-tədqiqatları zamanı kəşfiyyat işləri İvanovka qəsəbəsi və Kürdmaşı kəndi ətraflarında geniş yayılmış Eopleystosen Alt Xəzər çöküntülərindən bir neçə qədim daş dövrü artefaktı götürülmüşdür. Onlardan bəzisinin təsvirini veririk.

Nüvə-dördbucaq formalıdır. Üst üzü çökək, alt üzü qabarıqdır. Xammalı çaxmaqlaşmış əhəng daşdır. Nüvənin səthləri qalın patina və əhəng qabıq ilə örtülüdür. Bunlardan əlavə üzərində mineral qabarcıqları da əmələ gəlmişdir. Yanlarından alt üzə maili vurulmuş qoparma səthləri görünür. Üst üzündə enli qəlpə izləri qalmışdır. Görünür, əşya uzun müddət gil çöküntüsü daxilində qalmışdır. Ölçüləri: 6,8x8,9x4,1 sm (şəkil 5.2)

Çopper – düzbucaq şəkilli yastı çay daşı üzərində hazırlanmışdır. Bir yanı əvvəl iri qoparmalarla, sonra dırnaqvari retuşla dişəklənmişdir. Bu yanın aşağı hissəsi alt üzdən pulcuqlarla işlənmişdir. Yanları və ucların illər boyu döymə izləri müşahidə olunur . Ölçüləri: 9,1x6,1x2,8 sm (şəkil 5.3).

Əl çapacağı. Bir üzü yastı, digəri nisbətən qabarıqdır. Xammalı felsiz cinsli çay daşıdır. Küp hissə qabıqlıdır. Tam yastı üzün 2/3 hissəsi alətin yanları boyu fasetlərlə yuxaldılmışdır. Çapacağın yuxarı hissəsi uzunsov qopmalarla işlənmişdir. Bu üzün ortası batıqdır. O biri üzün sol yanı isə təbii qabıqda yarımdairəvi olub qabarıqdır. Sağ yarısı qövsvaridir. Bu üzdə də yuxarı uca yaxın hissə qoparmalarla yuxaldılmışdır. Beləliklə, yuxarı hissə ox ucu şəklində iti çıxıntıyla qurtarır. Çapacağın hər yeri bozumtul qalın patinayla onun üstündən də əhəng qabığı ilə örtülür. Ölçülər: 13,4x9,6x3,3 sm (şəkil 5.1).

Belə texniki, morfoloji xüsusiyyətlərə malik bifaslar Soni və Axştir mağara düşərgələrindən əldə olunmuşdur (Zamyatnin 1961; Kalantadze, Tuşabramişvili 1978).

Paleolit arxeoloji ekspedisiyasının Cənubi Qafqaz dəstəsi 2011-ci ilin payızında Qəbələ nahiyəsinin Sultan-Nuxa, Böyük Əmili, Hacallı, Çarxana Qara Deyin və Savalan kəndləri ərazisində, Qara çay və Sarısu çayları arası maili (şəkil 8) düzənlikdən 10-dan çox artefakt əldə etmişdir. Bunlar qəlpə, gəzli alət, çopper və əl çapacağı tipli əşyalardan ibarətdirlər.

Massiv qəlpə - dördbucaq biçimlidir. Yanları dikdir. Əsası enli olub, altı maili vurulmuş iki aşırımlı vurma səthinə malikdir. Üst üzü nazik qatlı qoparma izləri daşıyır. Yuxarı ucu sivridir. Ölçüləri: 10,5x9,7x4 sm (şəkil 6.7).

Dişli qaşov - felzit cinsli yastı, yuxa çaydaşı üzərində hazırlanmışdır. Düzbucaq formalı olub, sağ yanı dikinə vurulmuşdur. Yuxarı ucunda üç gəz açılmışdır. Ölçüləri: 6,8x5,3x2 sm (şəkil 5).

Felzit cinsli üçbucaq formalı – çaydaşı üzərində gəzli alət sol yanı və ona bitişik aşağı hissə dikinə vurulmuşdur. Əsəsən sağ yarısı və alt üz təbii qabıqlıdır. Qəlpənin sağ yanı fasetlərlə işlənərək gəzli ağız alınmışdır. Ölçüləri: 8,3x6,1x2,2 sm (şəkil 6.2).

Bir yanlı batıq qaşov – trapes formalı massiv çaxmaq daşı üzərində hazırlanmışdır. Yanları və tutacağı dik olub hamardır. Alt və üst üzü yastıdır. Aşağı səthi əhəng, yuxarı səth isə cəng ərpi ilə örtüdür. Ağız hissə düz olub maili hamar dişəklənmişdir (şəkil 6.6). Ölçüləri: 6,8x8x3, 5 sm.

İskənə tipli alət – düzbucaq biçimli olub felzit cinsli yuxa lay daş parçası üzərində formalaşmışdır. Əsası fasetlərlə dişəklənmişdir. Alətin sol yanı bir üzdən qoparmalar daşıyır. Səthləri və dişək yerləri boz rəngli patina ilə örtülmüşdür. Ölçüləri: 7,5x6,9x1,1 sm (şəkil 7.1).

Təbii tutacaqlı qaşov – felzit cinsli çaydaşı üzərində hazırlanmışdır. Düzbucaq biçimlidir. Alt və üz qabarıq, üst yastıdır. Bel hissə, uclar və alt üz təbii qabıqlıdır. Ağız xətti yuxaldıcı döşəyə malikdir. Səthlər ərp və əhəng qatı ilə örtülmüşdür (şəkil 6.4). Ölçüləri: 6,2x11x2,4 sm.

Çopper - trapes formalıdır. – İki üzdən də qabarıqdır. Əsası və alt üzü təbii qabıqda olub qalınaraqlıdır. Üst üzü pilləvari yuxaldıcı fasetlərlə işlənmişdir. Ağız hissə yarımdairəvi olub çox itidir, kəsmə, doğrama işində işlənə bilər. Ölçüləri: 6x7,8x2,4 sm (şəkil 6.8).

Çopper – nal şəkillidir. Tərkibində ağ zehi olan felzit cinsli yuxa çaydaşı üzərində hazırlanmışdır. Ağız dikinə qat-qat qoparmalarla formalaşmış, ortada çıxıntısı olan iki gəzə malikdir. Ölçüləri: 6,7x7,1x2,1 sm (şəkil 6.3).

Çopper – romb şəkilli daş üzərində hazırlanmışdır. Alt üzü yastı, üst üzü hündürdür. Yanları dik vu-

rulmuşdur. Səthləri sığallı olub bozumtul rəgli patina ilə örtülüdür. Ölçüləri: 6,4x7,5x3,3 sm (şəkil 6.1).

Çopper – nal şəkilidir. Felzit cinsli çaydaşı hazırlanmışdır. Hamar qalın küp hissə və yastı alt üz təbii qabıqlıdır. Süxurun tərkibində ağ rəngli zehlər vardır. Ağız hissə yarım dairəvi olub, əsasən üst qismən də alt üzdən iri fasetlərlə formaya salınmışdır. Ölçüsü: 9x11,9x3,9 sm (şəkil 6.8).

Çopper – qaramtıl rəngli, çaxmaqlaşmış çaydaşı üzərində hazırlanmış ütü formalı alətdir. Alt üzü yastı, sağ yanı və əsası dik olub hündürdür. Yuxarı ucu sivri olub qalındır. Bu ucun və alt üzü dikinə döymə qoparmalarla işlənmişdir. Ölçüləri: 9,2x7x5,3 sm (şəkil 6.9).



Şəkil 8. Cənubi Qafqaz dağları ətəklərinin qolları arası maili düzənlik və terraslar.

Əl çapacağı. Uzunsov badam formalı olmuşdur. Xammalı, tərkibində boz və qara rəngli süxur zehləri olan vulkan mənşəli çaydaşıdır. En kəsiyi linzavaridir. Küpü təbii qabıqlıdır. Aşağı hissə orta bərabərədək enli və qabarıq olmaqla qalındır. Yanları üst üzə qədər irili xırdalı qoparmalarla arıtlanmışdır. Çapacağın yuxarı ucu sivriləşdirilmişdir. Bu ucu haçavari çıxıntıyla qurtarır. Alətin sol yanı alt üzdən vurulan zərbədən dikinə zədələnmişdir. Bu çapacaq bir neçə funksiyanı yerinə yetirə bilən alət olmuşdur. Ölçüləri: 15x9,9x4,9 sm. Çapacaq hazırlanma texnikasına, morfologiyası və formasına görə abbevil (arxaik aşel) alətləri ilə oxşarlıq təşkil edir (şəkil 7,7a).

Belə əlamətlərə malik alətlər Satanidardan (Paniçkina 1953) əldə olunmuşdur. Kompleksin digər alətlərinin paralelləri Azığın VI (6) təbəqəsindən (Quseynov 2010) əldə olunmuşdur.

Paleolit arxeoloji ekspedisiyası Cənubi Qafqaz dəstəsinin 2011-ci ildə apardığı axtarış, kəşfiyyat-qazıntı işlərinin ilkin nəticələri:

1. Görünür ki, Şəki–Qəbələ bölgəsinin dağlıq qurşaqlarında paleolit üzrə axatrışlar hələlik nəticə vermir.

2. Ona görə də bu nahiyədə kəşfiyyat-yoxlama işləri dağətəyi maili düzənlik və dağ qollarından cənuba yayılan terras səkilərində aparmaq perspektivlidir.

3. İsmayıllı–Şamaxı bölgəsində isə dağlıq zolaqlarda, həm də maili düzənliklərdə paleolit üzrə kəşfiyyat işləri aparmaq məqsədə uyğun sayılır. Çünki, bu zonada Şəki–Qəbələ dağlıq-meşəlik dairəsindən çox fərqli müsbət relyef formaları qabarıq nəzərə çarpır.

4. Balakən–Zaqatala bölgəsinə gəldikdə isə Dmanisi və Ceyrançöl düşərgələrindən sonra ibtidai insanların yayılma ərazisi kimi bura ümidverici görünür.

5. Ümumiyyətlə, Cənubi Qafqazın Keşikçidağ ətrafı qollarında aşkar edilən qədim paleolit abidələri sakinlərinin sonrakı dövr yaşayış izlərinin buradan şimal-şərq istiqamətində davamını ayırd etmək olur.

6. Beləliklə, Balakən-Şəki, Qəbələ-Şamaxı, eləcə də Şabran-Quba zonalarının dağətəyi ərazilərində kəşiyyat və qazıntıların ilk insanların yayılma yolları probleminin həllində böyük əhəmiyyəti vardır.

ƏDƏBİYYAT

1. Zamyatnin S.N. 1961. Oçerki po paleolitu. M., L.
2. Kalantadze A.N., Tuşabramişvili. 1978. Tsonskaya peşşera //Arxeologiya i paleogeoqrafiya ranneqo paleolita Krıma i Kavkaza; Putevoditel. M.
3. Paniçkina M.Z. 1953. Selskiy kompleks drevne-paleolitiçeskoqo mestonaxojdeniya Satanidar MİA №39. M.
4. Quseynov M.M. 2010. Drevniy paleolit Azerbaydjana. Baku.

М.М.Мансуров

ПРЕДВАРИТЕЛЬНЫЕ РЕЗУЛЬТАТЫ ПОЛЕВЫХ ИССЛЕДОВАНИЙ ЮЖНОГО СКЛОНА БОЛЬШОГО КАВКАЗА ОТРЯДА ПАЛЕОЛИТИЧЕСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2011 году отряд южного склона Большого Кавказа проводил разведку и раскопки в Шамахинском, Исмаиллинском и Габалинском районах Азербайджана.

Основные археологические и палеографические работы проводились на палеолитическом местонахождении Гара Дейин Габалинского района. Это место расположено на левой стороне реки Карачай возле села Гара Дейин. Среди найденных артефактов выделены чопперы, скребла, долотовидное орудие и миндалевидное рубило аббевильского облика (архаичный ашель).

Наряду с этими заложен шурф у реки Сары су, где несколько лет назад был найден мустьерский остроконечник. Единичные артефакты найдены у села Гаджаллы и Султан-Нуха.

В Исмаиллинском районе в окрестностях села Ивановка из геологического разреза извлечен бифас, нуклеус и чоппер. Аналогичные бифасы древнеашельского возраста известны из раннепалеолитического местонахождения Сатанидар и из нижнего слоя пещерной стоянки Ахштыр.

Кремневый комплекс мустьерского облика обнаружен на южном склоне нижнегорной полосы в окрестностях села Тирджан.

В Шамахинском районе севернее села Чухур Юрд и в бассейне Пирсаат чай найдены массивный концевой скребок и крупная пластина.

Главной целью исследований в этой зоне было выяснение направлений миграций и технический характер комплексов древнейших людей.

M.M.Mansurov

PRELIMINARY RESULTS OF FIELD STUDIES OF THE SOUTH SLOPE OF MAJOR CAUCASUS OF GROUP OF PALEOLITHIC ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

In 2011, the group of the southern slope of the Major Caucasus carried out excavation and exploration in Shamakhy, Ismailly and Gabala destricts of Azerbaijan.

The main archaeological and paleographic work was conducted at the Paleolithic site Gara Deyin of Gabala district. This area is on the left bank of the river Garachay near the village of Gara Deyin. Among the artifacts found there are choppers, scrapers, chisel-shaped tools and almond-shaped chipping tool (labor tool of a primitive man) (archaic Acheulian).

Along with these was laid pit near the river Sarisu, where a few years ago have been found Mousterian sharp-pointer. Isolated artifacts were found near the village Hajally and Sultan Nukha.

In Ismailly district, in the outskirts of the village Ivanovka from the geological open-pit was removed unfinished bifaces, queen cells and a chopper. The similar bifaces of old Acheulian age are known from the early Paleolithic site of Satanidar and from the lower layer of Ahshtyr cave site.

Flint complex of the Mousterian nature was found on the southern slope of the lower mountain strip, near the village Tirjan.

In Shamakhy district, to the north of the village Chukhuryurd and in the basin of Pirsaatchay was found massive stub scraper and a large plate.

The main goal of the research in this area was to determine the direction of migrations and the nature of the technical complexes of ancient people.

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA PALEOLİTİN TƏDQİQATI

(Naxçıvan MR, Şərur rayonu)

A.Ə.Zeynalov

Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu Paleolit arxeoloji ekspedisiyasının Qazma dəstəsi 2011-ci ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunda yerləşən Qazma mustye mağara düşərğəsində arxeoloji qazıntı işlərini davam etdirmişdi və Naxcıvan Muxtar Respublikası ərazisində arxeoloji kəşfiyyat işləri aparmışdır.

Qazma paleolit düşərgəsi 1983-cü ildə Paleolit arxeoloji ekspedisiyası tərəfindən qeydə alınmışdır. Burada 1987-1990-cı illərdə Ə.Q.Cəfərovun rəhbərliyi altında arxeoloji qazıntılar aparılmışdır. 2008-ci ildə Qazma paleolit düşərgəsində arxeoloji tədqiqatlar bərpa olunmuş və 2008-2011-ci illərdə A.Ə.Zeynalovun rəhbərliyi altında arxeoloji qazıntı işləri davam etdirilmişdir (Şəkil 1).

Qazma mustye mağara düşərğəsi Naxçıvan Muxtar Respublikası Şərur rayonu ərazisində, Tənənəm kəndindən 3 km cənub-şərqdə, Arpa çayından 14.5 km aralıda, dəniz səviyyəsindən 1508 m hündürlikdə, Qazma dərəsində yerləşir (Şəkil 2, 3).


2011-ci ilin tədqiqat mövsümündə düşərgənin yeni tədqiqat sahəsində çöküntülərin stratiqrafiyası aşağıdaki kimi müəyyən olunmuşdur:

I təbəqə - tədqiq olunan sahədə I təbəqə dağılıb və qalmayıb.

II təbəqə – açıq qəhvəyi rəngli gillicə torpaqdan ibarətdir. II təbəqədən heyvanların sümük qalıqları tapılmışdır. Tədqiqat sahəsində II təbəqənin qalınlığı ayrı-ayrı hissələrdə kəskin fərqlənir və 13-42 sm-ə bərabərdir. Çöküntünün eninə kəsiyində bu daha aydın görünür (Şəkil 4).

III təbəqə - tund sarı rəngli gillicədən ibarətdir. Qazıntı zamanı təbəqədən sümük məmulatları aşkar olundu. Tədqiq olunan sahədə III təbəqənin qalınlığı 37-40 sm-dir (Şəkil 4).

IV təbəqə - III təbəqədən fərqli olaraq nisbətən tünd sarı rəngli gillicə torpaq təbəqəsindən ibarətdir. Təbəqədə tez-tez qaya daşı qırıqlarına və mağaranın tavanından düşmüş stalaktit parçalarına rast gəlmək olur. Tədqiq olunan sahədə IV təbəqənin qalınlığı 34-38 sm-dir (Şəkil 4). Dördüncü təbəqədən başlayaraq sümük məmulatının sayı artmağa başlayır. Eyni zamanda IV təbəqədən başlayaraq sümük qalıqları ilə birlikdə daş məmulatı da aşkar olunur. Təbəqədən 9 ədəd daş məmulatı tapılıb. Onların 7 ədədi dəvəgözü daşından, 2 ədədi isə çaxmaq daşından hazırlanıb.



Şəkil 1. Qazma mağarasının planı.



Şəkil 2. Qazma mağarasına və Qazma dərəsinə kosmosdan görünüş.



Şəkil 3. Qazma mağarası. Ümumi görünüş.



Şəkil 4. Qazma mağarası. Qazıntı sahəsinin ümumi görünüşü.

V təbəqə - tünd sarı rəngli bərk gillicə torpaqdan ibarətdir. Təbəqənin içərisində çoxlu qaya daşı qırıqları və stalaktit parçaları qeydə alınmışdır. Təbəqədən sümük qalıqları və daş məmulatı aşkar olunmuşdur. V təbəqə 10-cu kvadratın bəzi hissələrində qayaya çıxdı, 9-cu kvadratda isə tam davam edirdi. V təbəqənin qalınlığı 40 sm-ə çatır (Şəkil 4) və mağaranın içərisinə getdikcə yox olur. Təbəqədən 11 ədəd daş məmulatı tapılmışdır. Onların 10 ədədi dəvəgözü daşından, 1 ədədi isə çaxmaq daşındandır.

VI təbəqə - tünd şabalıdı rəngli gillicə torpaq təbəqəsindən ibarətdir. Yuxarıda təsvir olunan təbəqələrdən fərqli olaraq VI təbəqənin sahəsi yeni tədqiqat sahəsində bir qədər azalır. Yuxarıda təsvir olunan təbəqələrdən fərqli olaraq VI təbəqə yeni tədqiqat sahəsinin daha az bir hissəsində müşahidə olunurdu. Mağaranın döşəməsi mağaranın içərisinə doğru getdikcə şaquli qalxdığına görə çöküntülərin qalınlığı azalır və əgər 9 kvadratda tam şəkildə izlənirsə 10 kvadratda qismən müşahidə olunur. Təbəqədən sümük qalıqları və daş məmulatı aşkar olunmuşdur. Tapılan daş məmulatı cəmi 3 ədəddir. Onların 3 də dəvəgözü daşındandır. VI təbəqənin aşkar olunan sahədə qalınlığı 10 sm-ə bərabərdir (Şəkil 4).

Qazma düşərgəsində aşkar olunmuş sümük məmulatı

Tədqiqat mövsümündə Qazma mağarasının yeni tədqiqat sahəsində aparılan arxeoloji tədqiqatlar nəticəsində II-VI təbəqələrdən 1420 ədəd sümük məmulatı aşkar olunmuşdur. Onların 60 ədədi iri sümüklər, 1150 ədədi xırda sümük qırıqları, 111 ədədi iri heyvanların dişləri və çənələri, 90 ədədi quş və gəmiricilərin sümükləri, dişləri və çənələridir. Sümüklərin 9 ədədi yanmış vəziyyətdə olmuşdur.

Qazma mağarasından aşkar olunmuş sümüklərin əksəriyyəti çapılıb doğranmış vəziyyətdə olduğundan, onların təyin olunması çox çətinləşmişdir. Sümüklərin hansı heyvan növlərinə aid olması əsasən diş və çənə qırıqları əsasında təyin olunmuşdur. Eyni zamanda sümüklərin çapılıb doğranmış vəziyyətdə olduğu, qədim mağara sakinlərinin ovladıqları heyvanların ətini yedikdən sonra sümükləri qıraraq iliyini çıxarıb yediklərini göstərir. Sümüklərin arasında yanmış sümüklərin tapılması, V təbəqədə isə artıq sayca Qazma mağarasında dördüncü ocaq yerinin qeydə alınması, düşərgə sakinlərinin ovladıqları heyvanları bişirib, yediklərini göstərir.

Tədqiqat mövsümündə aparılan qazıntılar zamanı Qazma mağarasının II-VI təbəqələrindən aşağıda qeyd olunan heyvan növlərinin qalıqları müəyyən olunmuşdur:

№	Heyvan növləri	Təbəqələr							Sümüklərin sayı
		Qarışıq	I	II	III	IV	V	VI	
1.	Gəmiricilər (Rodentia)				+	+	+	+	
2.	Dovşan (Lepus europaeus L.)					+	+		
3.	Pleystosen eşşəyi (Equus hidruntinus Reg.)					+	+	+	
4.	İbtidai öküz (Bos primigenius)					+			
5.	Maral (Cervus elaphus L.)					+	+		
6.	Ceyran (Gazella subgutturosa Guld.)					+	+	+	
7.	Keçi (Capra sp.)				+	+	+	+	
8.	Qoyun (vəhşi) (Ovis sp.)			+	+	+			
Sümüklərin sayı		-	-	98	215	596 (3)	378 (6)	133	1420 (9)

* mötərizədə yanmış sümüklərin sayı göstərilib

Mağaranın IV-VI təbəqələrində sümük məmulatları ilə yanaşı, əmək alətləri də aşkar olunmuşdur. Məhz bu təbəqələrdə sümüklərin sayının artımı müşahidə olunur (diaqram 1). Əvvəlki illərin tədqiqatlarında da bu müşahidə olunurdu. Mağaranın IV-VI təbəqələrindən aşkar olunan fauna qalıqları göstərir ki, bu dövrdə düşərgə sakinlərinin əsas məşğuliyyəti ovçuluqdan ibarət olmuşdur. Təyin olunmuş heyvan növləri göstərir ki, Qazma mağara düşərgəsinin yerləşdiyi ərazi mustye dövründə heyvanat aləmi ilə zəngin olmuşdur.

Aşkar olunmuş sümük qalıqlarının elmi tədqiqi göstərir ki, Qazma mağarasında yaşayan ibtidai inanların əsas ov obyektləri pleystosen eşşəyi, ceyran, keçi və maral olmuşdur (baxmayaraq ki, bu ilin sümük tapıntılarında maral təyin olunmamışdır, əvvəlki qazıntılarda maral qalıqları bütün təbəqələrdə müşahidə olunurdu).

Qazma mustye düşərgəsindən tapılmış daş məmulatları


2011-cu ilin tədqiqat mövsümündə Qazma mağarasının yeni tədqiqat sahəsində aparılan arxeoloji tədqiqatlar zamanı IV-VI təbəqələrdən fauna qalıqları ilə yanaşı daş məmulatları aşkar olunmuşdur. 23 ədəd daş məmulatının 20 ədədi (87%) dəvəgözü daşından, 3 (13%) ədədi çaxmaq daşındandır.


2011–cu ildə aşkar olunmuş əmək alətləri arasında aşağıdakı alət tipləri müəyyən edilib: mustye itiucluları, alətlərin fraqmentləri, retuşlanmış qəlpə. Daş məmulatı arasında üzərində ikinci işlənmə izi olmayan qəlpə, lövhə və istehsal tullantıları vardır. İstehsal tullantılarının qeydə alınması düşərgə sakinlərinin burada alət hazırladığını söyləməyə imkan verir.

Diqqəti cəlb edən mustye itiuclularıdır. Ümumiyyətlə mustye itiucluları Qazma mağarasından aşkar olunmuş alət tiplərinin 25% təşkil edir. Bu ilin tədqiqat mövsümündə cəmi 3 ədəd mustye itiuclusu tapılıb (hər təbəqədən biri) (səkil 5 № 1, 2, 5). Lakin, bu itiucluları birləşdirən bir xususiyyət var - dəstək hissələrinin bel və ya qarın tərəfindən nazildilməsi. Ümumiyyətlə, Qazma mağarasında dəstək hissələri nazildilmiş itiuclular kifayət qədərdir və artıq onların Qazma düşərgəsi üçün xarakterik olmasını söyləmək mümkündür.

İtiuclulardan biri V təbəqədən tapılmış uzunsov mustye itiuclusudur (şəkil 5 № 1-də). İtiuclu dəvəgözü daşından hazırlanmışdır, işlək ağızları dik və yarımdik pilləvari dişəklə retuşlanmışdır. Alətin bazal hissəsi yoxdur. Böyuk ehtimalla demək olar ki, itiuclu qabaqcadan düşünərək fraqmentləşdirilmişdir. Çünki: 1 - fraqmentləşmə yerində bir neçə zərbə izi müşahidə olunur; 2 – artıq Qazma mağarasında bu üsulla işlənən itiuclunun bir neçəsi tapılıb. Eyni zamanda, tam retuşlanmış mustye itiuclularının dəstək hissəsinin fraqmentləşdirilməsi, Qarabağ bölgəsində yerləşən Tağlar mağarasi üçün də xarakterik əlamətdir.

Diaqram 1






Şəkil 5. Qazma mağarası. Daş məmulatı.

Naxçıvan Muxtar Respublikası ərazisində arxeoloji kəşfiyyat işləri

Qazma mağara düşərgəsində arxeoloji qazıntılar ilə yanaşı Paleolit arxeoloji ekspedisiyasının Qazma dəstəsi Naxçıvan Muxtar Respublikasının digər ərazilərində arxeoloji kəşfiyyat işləri də aparmışdır.



Şəkil 6. Yuxarı Yaycı kəndi.



Şəkil 7. Alley-1 və Alley-2 mağaraları.



Şəkil 8. Yarasa Yuvası mağarası.

İnsanın formalaşma dövründə Azərbaycan ərazisində əlverişli paleoiqlim şəraitin olmasına baxmayaraq, burada paleolit dövrünün tədqiqinə yalnız XX əsrin əllinci illərində başlanılmışdır. Naxçıvan MR ərazisində isə ibtidai insanın əsas sığınacağı olan karst mağaralarının nisbətən geniş inkişaf etməsinə baxmayaraq, burada arxeoloji kəşfiyyat işləri yalnız 1983 ildə aparılmış və nəticədə ilk paleolit düşərgəsi – Qazma mağarası qeydə alınmışdır.

Axtarışlar ilk növbədə mağaraların geniş yayıldığı sahələrdən biri Şərur rayonu Yuxarı Yaycı kəndinin ətraf ərazilərinə yönəldi (Səkil 6). Mağaralar Yaycıçayın sahillərində, dəniz səviyyəsindən 1400-1600 m yüksəklikdə yerləşir.

Bu qrupda genezisinə görə tipik karst və böyüklüyünə görə ən uzunu Xizəngi mağarasıdır. Mağara Yaycı-Sədərək antiklinalının şimal-şərq qanadında, çay yatağından 340 m. yüksəkdə yerləşir. Xizəngi mağarası öz morfoloji əlamətlərinə görə başqa mağaralardan kəskin fərqlənir. Mağara kifayət qədər böyük olub, sahəsi 180 m^2-dir. Girəcəkdən 40-cı m-də, mağaranın döşəməsində diametri 3-4, dərinliyi 10 m-ə qədər olan şaxta əmələ gəlmişdir. Lakin orada çöküntülərin olmadığına görə diqqəti, Xizəngi mağarasından bir qədər aşağıda yerləşən, Hacı Rüstəmalı mağarası cəlb elədi.

Hacı Rüstəmalı mağarası Yuxarı Yaycı kəndinin şimalında, Yaycı-Sədərək antiklinalının şimal-şərq qanadında, çay yatağından 240 m yüksəkdə, Xizəngi mağarasından 300 m şərqdə yerləşir. Mağaranın sahəsi 168 m^2, orta eni 7.3 m, orta hündürlüyü 2.3 m, ümumi uzunluğu 23 m-dir. Şərti yaşı Xəzər dövrüdür. Hal hazırda çobanlar mağaranı heyvan saxlamaq üçün istifadə edirlər, eyni məqsədlə mağara qədim dövrlərdə də istifadə olunurdu. Mağaranın üst təbəqəsi peyin tərkiblidir. Mağarada ölçüsü 2x1 metr olan arxeoloji kəşfiyyat şurfu qoyuldu, 2 metr dərinlikdə mağaranın döşəməsi çıxdı. Döşəmə çox rütübətli sarı rəngli süxurdan ibarətdir. Ümumiyyətlə, şurfdan 6 ədəd sümük qırığı (onlardan bir ədəd xırdabuynuzlunun dişi və bir ədəd alt çənəsi), 4 ədəd neolit və tunc dövrinə aid qil qab qırıqları aşkar olundu.

Yuxarı Yaycı kəndinin yaxınlığında daha iki mağara - Alley-1 və Alley-2 mağaraları, şərti yaşları Yuxarı Xəzər dövrü olduğundan, diqqəti cəlb elədilər (Səkil 7).

Alley-1 mağarası Yuxarı Yaycı kəndindən 1 km cənub-qərbdə, Yaycıçayın sağ sahilində, çay yatağından 60 m yüksəkdə yerləşir. Mağaranın sahəsi 142 m^2, orta eni 6.0m, orta hündürlüyü 6.3 m, ümumi uzunluğu 27 m-dir. Girişdən 10 m aralı, uzunluğu 10 m olan salon əmələ gəlmişdir. Mağaranın tavanında kiçik stalaktitlər müşahidə olunur. Mağaranın giriş hissəsindəki döşəmə qayadan ibarətdir, 2.5 metrdən sonra çöküntü başlanır. Çöküntü çox yumşaq sarı gillicə torpaqdan ibarətdir və yaşca çox cavan olduğundan burada arxeoloji kəşfiyyat şurfu qoyulmadı.

Alley-2 mağarası Alley-1 mağarasından 100 m şimal-şərqdə yerləşir. Mağaranın sahəsi 12 m^2-dir, çöküntü yoxdur.

Diqqəti cəlb edən mağaralardan biri Gümüşlü kəndinin yaxınlığında yerləşən eyni adlı mağaradır. Mağaranın sahəsi kifayət qədər iridir - 88 m^2, şərti yaşı isə Yuxarı Xvalın dövrüdür. Lakin, mağara su anbarının ərazisində yerləşdyindən orada tədqiqat apara bilmədik.

Şərur rayonu Tənənəm kəndindən 18 km aralıda, Qara Quş yasaqlığında yerləşən mağaraya da baxıldı. Qara Quş yasaqlığında yerləşən mağaranı yerli əhali "Məhəmməd vurulan mağara" adlandırır. Mağara kiçikdir, iki xırda zaldan ibarətdir və iki tərəfi açıqdır. Sahəsi təxminən 10 m^2. İlk baxışdan mağarada çöküntü var idi, və şurf qoymağa cəhd etdik. Lakin, qazdıqdan sonra məlum oldu ki, çöküntü o qədər də dərin deyil. Heç bir tapıntı aşkarlanmadı.

Növbəti baxış keçirdiyimiz mağara Ordubad rayonu Biləv kəndinin ərazisində yerləşən Yarasa Yuvası adlanan mağara idi. Mağara Biləv kəndinə çatmamış, Tivi kəndinə gedən yolda (körpüdən 6 km), Gilan çayın sol sahilində yerləşir (Səkil 8). Giriş hissəsindən başlayaraq mağaranın döşəməsi qayadan ibarətdir və 60-70 dərəcə bucaq altındadır. Həm bu, həm də mağarada minlərlə yarasaların olması səbəbindən ora girmək mümkün olmadı. Mağarada çöküntü yoxdur.

Naxçıvan Muxtar Respublikası ərazisində karst mağaralarının ən geniş yayıldığı sahə Ordubad rayonunun Kotam-Kilit kəndləri ərazisidir. Lakin, o ərazidə yerləşən mağaraların erməni hərbiçiləri tərəfindən atəşə tutulma təhlükəsi olduğundan, arxeoloji kəşfiyyat işləri aparmaq qeyri mümkün idi.

Beləliklə, Qazma mağarası Naxçıvan ərazisində qədim daş dövrünə aid yeganə abidə kimi qalır. Lakin, burada karst mağaralarının mövcudluğu, ibtidai insanın yaşaması üçün əlverişli şəraitin olması yeni paleolit düşərgələrinin aşkarlanması ehtimalını artırır. Buna görə də, Naxçıvan ərazisində arxeoloji kəşfiyyat işlərinin davam etdirilməsi məqsədə uyğundur.

А.А.Зейналов

ИССЛЕДОВАНИЕ ПАЛЕОЛИТА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

Палеолитическая пещерная стоянка Газма была открыта в 1983 году палеолитической археологической экспедицией под руководством М.М.Гусейнова, А.К.Джафарова. Раскопки в пещере проводились в 1987-1990 под руководством А.К.Джафарова, 2008-2011 годах под руководством А.А.Зейналова.

Пещера Газма расположена в Шарурском районе Нахчыванской Автономной Республики Азербайджана, в 3-х км северо-восточнее селения Тананам и в 11-ти км северо-западнее селения Гарабаглар, на абсолютной высоте 1508 м над уровнем моря.

В 2011 году археологические раскопки в пещере Газма были продолжены. Археологическими раскопками в пещере вскрыто 6 слоев. I слой – без находок. II и III слои представляют собой суглинок различных оттенков содержащих большое количество мелкообломочного материала и кости животных.

Наибольший интерес представляют IV-VI слои содержащие каменные артефакты мустъерского периода и следы охотничьей и хозяйственной деятельности мустьерцев, в частности большое количество остеологического материала. В целом вся толща палеолитических культурных слоев (слои IV-VI) литологически тождественна: это легкий суглинок, незначительно варьирующий по цвету, с очажными и илистыми прослойками и с известняковым щебнем.

В 2011 году отрядом палеолитической археологической экспедиции Института археологии и этнографии Национальной АН Азербайджана были проведены археологические разведочные работы на территории Нахчыванской Автономной Республики Азербайджана. Основные усилия были направлены на исследование пещер с отложениями. Разведочными работами были охвачены территории наибольшего скопления карстовых пещер – это прилегающие территории сел Юхары Яйджи, Гюмюшлю и заказника "Гара Гуш" Шарурского района, сел Билав и Кетам Ордубадского района. Палеолитических находок обнаружено не было.

На сегодняшний день пещера Газма является единственной палеолитической стоянкой в Нахчыване, однако наличие карстовых пещер и благоприятных условий для проживания древнейших людей дает основание предположить наличии других, еще не открытых палеолитических стоянок.

A.A.Zeynalov

STUDY OF THE PALEOLITHIC IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC OF AZERBAIJAN

SUMMARY

The Paleolithic site of Cave Gazma was discovered in 1983 by a Paleolithic archeological team led by M.M.Huseynov and A.K.Jafarov. Excavations at the cave site were carried out under the guidance of A.K.Jafarov in 1987-1990 and A.A.Zeynalov in 2008-2011.

Cave Gazma is located in the Sharur region of the Nakhchivan Autonomous Republic of Azerbaijan, 3 kilometers northeast of village Tananam and 11 kilometers northwest of village Garabaglar, at the absolute height of 1508 meters above sea level.

Archeological excavations at Cave Gazma were continued in 2011. The excavations revealed 6 layers in the cave. Layer I contained no discoveries. Layers II and III represent a loam of different tints containing a great variety of small fragmental material and bones of animals.

Of utmost interest are Layers IV-VI containing lithic artifacts of the Mousterian period and traces of hunting and economic activity of Mousterian inhabitants, particularly, a large number of osteological material. Generally speaking, the whole thickness of Paleolithic cultural layers (Layers IV-VI) is lithologically identical: this is a light loam with insignificantly varying tint, with hearth and silty interlayers and with limestone.

In 2011, a team of the Paleolithic expedition of the Archeology and Ethnography Institute of the National Academy of Sciences of Azerbaijan carried out archeological exploration works in the territory of the Nakhchivan Autonomous Republic of Azerbaijan of Azerbaijan. Exploration works covered the territories of biggest accumulations of karst caves that included the adjacent territories of villages Yuhary Yayji, Gumushlu, reserve Gara-Gush in the Sharur region, and villages Bilav and Ketam in the Ordubad region. No Paleolithic discoveries were made.

At the moment, Cave Gazma is the only Paleolithic site in Nakhchivan; however, the availability of karst caves and favorable living conditions for most ancient people make us assume the existence of other, yet undiscovered Paleolithic sites.

NEOLİT DÖVRÜ HƏSƏNSU YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR

(Ağstafa rayonu)

N.Ə.Müseyibli, A.M.Ağalarzadə, G.K.Axundova

Ağstafa rayonundakı neolit dövrü I Həsənsu yaşayış məskənində əvvəlki illərdə aparılmış arxeoloji qazıntı işləri 2011-ci ildə VIII kvadratda davam etdirilmişdir. VIII kvadrat yaşayış yerinin mərkəzinə yaxın sahəni əhatə edir. 25 m^2–lik bu sahədə qazıntı işləri materikə qədər çatdırılmışdır. Bütün yaşayış yerinin mədəni təbəqəsini iki stratiqrafik mərhələyə ayıran steril təbəqə VIII kvadratda da müşahidə edilmişdir.

Qazıntı prosesində 1,5-1,7 m dərinlikdə, kvadratın şimal divarı ətrafında çiy kərpiclərdən hörülmüş tikili qalığı aşkara çıxarılmışdır (şəkil 1). Bu, dairəvi planlı otağın yarı hissəsindən ibarət idi. Bu tikili və onun ətrafındakı bəzi kiçik tikili fraqmentləri bilavasitə steril təbəqənin üstündə inşa edilmişdir. Bu, həmin tikililərin yaşayış yerinin ikinci məskunlaşma mərhələsinə aid olduğunu göstərir. Qazıntı kvadratının şimali-şərq küncündə isə iki ədəd təsərrüfat quyusunun qalıqları aşkar edilmişdir. VIII kvadratın şimali-şərq divarının tən yarısı ölçüsündə steril təbəqə kəsilmiş və həmin sahə 1 m qalınlığında kül qatı ilə dolmuşdur. Bu, çox ehtimal ki, üst mədəni təbəqədə qazılmış iri ölçülü təsərrüfat quyusunun qalığı olmuşdur.



Şəkil 1.

VIII kvadratın şimali-qərb küncündə 2,4 m dərinlikdə qurulmuş ocaq yeri aşkar edilmişdir. Bu ocaq yanıb qaralmış gil kütlələrindən və yanaraq qızarmış kərpiclərdən ibarətdir. Kərpiclərin ilkin nizamı bir qədər pozulmuş, onların yeri bir az dəyişmişdir. Maraqlıdır ki, kərpiclərin ölçüləri biri-birindən çox fərqlənir. Çox güman ki, belə bir vəziyyət ocağın tərəflərinin qurulması ilə bağlı olmuşdur. Onlar parçalandığından yalnız birinin dəqiq ölçülərini götürmək mümkün oldu: 25 x 15 x 9 sm. Belə bir təsəvvür

yaranır ki, kərpiclər məqsədyönlü şəkildə odda bişirilmişdir. Belə ki, onların təkcə ocağın mərkəzinə doğru yönəlmiş səthləri deyil, bütün tərəfləri odun təsirindən qızarmışdır. Lakin bu məsələnin gələcəkdə daha ətraflı araşdırılmasına ehtiyac vardır. Ocaq qurğusunun ölçüsü 65 x 45 sm, saxlanmış hündürlüyü 30 sm-dir. Ocağın içərisi qara kül qatı ilə dolmuşdur.

Qazıntı kvadratında mədəni təbəqənin maksimal qalınlığı 2,6-2,7 m qeydə alınmışdır.

Abidənin **daş məmulatı** pazşəkilli alət, oraq dişi, dəstə, balta, sürtgəc, dişəkləyici və lövhəşəkilli alət, üst dən daşı və s. ibarətdir.

Pazşəkilli alət tünd yaşıl rəngli çay daşından hazırlanmış, kiçik ölçülüdür. Uzunsov olub, işlək ucu hər iki tərəfdən yaxşı cilalanmış, hamarlanmışdır. Arxa tərəfi qalındır. Çox ehtimal ki, alətin arxa tərəfi ağac dəstəyə keçirilərək istifadə edilmişdir. Alətin bir səthi düz, əks səthi isə qabarıqdır. Bəzilərinin işlək sonluğu hər iki üzdən yaxşı cilalanmışdır. İşlək ağıza doğru azacıq genişlənir. Orta hissədə bərkidilmək üçün çökəklik müşahidə edilir.

Yaşıl rəngli çaxmaqdaşından lövhəşəkilli oraq dişinin üzərindəki bitum izi onun çəpinə bərkidildiyini sübut edir. Ətraflarında dişək izləri yoxdur. Tünd yaşıl rəngli çay daşından alət də vardır. Qalın, uzunsovdur. Hər iki geniş səthində, bir-birinə əks tərəfdə simmetrik qaydada oyuqlar vardır. Bir sonluğunda zəif döymə izi var, digər sonluğu sınmışdır.

Dəstə tipli alət yaşıl rəngli, uzunsov dairəvi kəsikli çay daşından olub səthində qırmızı ləkələr var. Bir tərəfi sınmışdır. Saxlanmış sonluğunda döymə-işləmə izi var. Tünd yaşıl rəngli, sıx tərkibli çay daşından digər dəstə tipli alət olan uzunsov daşın bir tərəfi sınmışdır. Bir sonluğunda döymə izi vardır. Boz rəngli çay daşından olan başqa dəstə tipli alət uzunsovdur. Bir sonluğu sınmışdır. Digər sonluğunda vurma-işləmə izi var.

Tünd yaşıl rəngli, sıx tərkibli çay daşından uzunsov yastı “balta” tipli alət kobud hazırlanmış və bu alətin ortasında bərkidilmək üçün eninə bağlamanın izi vardır. Alətin hər iki sonluğundan istifadə edilmişdir. Tünd boz rəngli çaxmaq daşın bir tərəfindən iri qəlpələr qopmuşdur. Ətraflarından xırda qoparmaların izləri vardır. Çox güman ki, qaşov kimi istifadə edilib.

Sürtgəclər yaşıl rəngli çay daşından olub əsasən yastı-ovalvari formalıdırlar. Əsasən bir səthi işlənərək hamarlanmışdır. Digər, eyni cinsli daşdan hazırlanmış sürtgəcin yarısı sınmışdır. Daşın bir səthindən istifadə edilmişdir. Qalmış hissənin uzunluğu 13 sm-dir.

Qara rəngli çay daşından yastı, lövhəşəkilli alətlərdən birinin bir sonluğu sınmışdır, digər sonluğunda vurma-işləmə nəticəsində qopmalar müşahidə edilir.

Andezit cinsli boz rəngli çay daşından dən daşı hazırlanmışdır. İşlək səthi çökəlmişdir və olduqca hamardır. Daşın bir tərəfi digərinə nisbətən qalındır. Daşın xarici səthi də sürtülərək hamarlanmışdır. Dən daşının işlək, çökək səthində qırmızı oxra çöküntüsü vardır (şəkil 2).



Şəkil 2.

Dişəkləyici alətlər qara rəngli, sıx tərkibli daşdan hazırlanmışlar. Uzunsov, kəsikdə rombşəkilli alətlərin bütün səthi hamardır. İki kənarından istifadə edilmişdir. Yastı, uzunsovdur. Səthi hamardır.

Yaşayış yerindən obsidiandan çoxsaylı alətlər aşkar olunmuşdur (şəkil 3). Obsidian məmulatı müxtəlif tip nukleuslardan, alətlərdən və istehsal çıxarlarından ibarətdir. Hər il olduğu kimi 2011-ci ildə də Həsənsu yaşayış yerində aşkar edilmiş obsidiandan düzəldilmiş alətlər özünəməxsusluğu ilə seçilir. Onların əksəriyyəti Şomutəpə mədəniyyətinə aid digər yaşayış yerlərinin obsidian məmulatı ilə eyniyyət təşkil edir. Bununla yanaşı daha arxaik səciyyəli yastı nukleuslar, mikrolitlər, yonqarlar və s. alətlər də aşkar edilmişdir. Yuxarıda qeyd edilənlərdən əlavə, qaşovlar, sıyırğallar, kəsərlər, iskənələr və s. alətlər çoxluq təşkil edir.



Şəkil 3.



Şəkil 4.

Çaxmaqdaşından alətlər (şəkil 4) say etibarilə üstünlük təşkil edir. Bunlar daha çox oraq dişlərindən ibarətdir. Çaxmaqdaşından nukleuslar və istehsal tullantıları da aşkar edilmişdir.

Yaşayış yerindən **saxsı qab fraqmentləri** də tapılmışdır (şəkil 5). Üst səviyyədə müxtəlif qablara aid 44 ədəd fraqment aşkar olunmuşdur. Bunlar qonur, qara, boz qırmızı çalarlı, əsasən nazik divarlı qablara aiddirlər. Cəmi bir ədəd qalın (1,8 sm) divarlı tünd boz rəngli qaba aid fraqment tapılmışdır. Qabların səthi qeyri-hamar olsa da, az hallarda səthi cilalı nümunələrə də rast gəlinir. Keramikanı gilinin tərkibinə görə iki qrupa ayırmaq olar: bitki qatışıqlı və qeyri-üzvi (əsasən iri qum) qatışıqlı. İkincilər say etibarilə daha çoxdur. Aşkar edilən fraqmentlərdən bəziləri qabların forması barədə məlumat verir. Belə ki, onların bir qismi düz divarlı, düz ağızlı banka şəkilli qablara aiddirlər. Bir ədəd yastı oturacaqlı qab qalığı aşkar edilmişdir. Solğun qırmızı rəngli bu qab iri qum qatışıqlı gildən hazırlanmışdır. Yastı oturacağın ətrafları bir qədər kənara çıxıntılıdır. Qabın divarı kənara meyllidir. Bu, çox ehtimal ki, dərin kasa tipli qab hissəsidir.

Maraqlı tapıntılardan biri eyni qrupa aid qırmızı rəngli qab fraqmentidir. Bu, çox ehtimal ki, qabın ağız kənarına yaxın hissəsidir. Onun üzərində bir qədər yuxarı yönəlmiş, üfüqi istiqamətli qulaqcıq formalı çıxıntı var.

2011-ci ilin qazıntıları zamanı I Həsənsu yaşayış yerindən **sümükdən alətlər** tapılmışdır. Lövhəşəkilli alət iribuynuzlu heyvan sümüyündən hazırlanmışdır. Alətin yastı və enli olan hər iki tərəfi istifadə nəticəsində cilalanmışdır. Hər iki tərəfindən sınmışdır. Salamat qalmış hissənin uzunluğu 10 sm-dir. Bizlər lülə sümüyündən hazırlanıb (şəkil 6).

Onlardan biri yastı və enli sonluğa malikdir. Yanları yonulmuşdur. Sonluğu sınıqdır. Uzunluğu – 7,7 sm-dir. Digər deşici də uzun və enlidir. Orta hissəsi bir tərəfindən məqsədli şəkildə sındırılmışdır. Çox güman ki, bu asan istifadə üçün edilib. Sonluğu tacvari formada kəsiklərlə bəzədilmişdir. Həmçinin bu hissə alətin ovucun içində asan tutulması üçün işlənib. Uzunmüddətli istifadə nəticəsində işlək ucu cilalanmışdır, yanları hamarlanıb. Uzunluğu - 8,8 sm-dir. Aşkarlanmış 4 ədəd bizlərdən ikisi dairəvi başlıqlı, ikisi isə tacvari başlıqlıdır. Dairəvi sonluqlu bizlər xırdabuynuzlu heyvan sümüyündən hazırlanıb. Onlardan biri nazik və enlidir. Uzunmüddətli istifadə nəticəsində tamamilə cilalanmışdır. İşlək ucu itidir. Yanlardan uca doğru

yonulmuşdur. Uzunluğu – 6,8 sm-dir. İkinci dairəvi başlıqlı biz isə nisbətən qısadır. Enli və yastı olub iti işlək ucu vardır. Uzunmüddətli istifadə nəticəsində cilalanmışdır. Dairəvi başlığının üzərində kəsmə naxış çəkilməsi işi sona çatmamışdır. Uzunluğu – 6 sm-dir. Digər iki ədəd biz tacvari başlıqlıdır. Balaca, yastı və enli olan biri işlək uca doğru nazikləşdirilmişdir. Uzunluğu – 4,5 sm-dir. İkinci bizin iti uclu sonluğu sınmışdır. Lakin uzunmüddətli istifadəsi yaxşı cilalanmasından aydın müşahidə edilir. Yastı və enlidir. Sonluğu kövrəkdir. Uca doğru yanlardan nazikləşdirilmişdir. Salamat qalan hissənin uzunluğu 5,2 sm-dir.



Şəkil 6.



Şəkil 5.



Şəkil 7.

Bu dərinlikdən bir ədəd buynuzdan alət tapılmışdır. İribuynuzlu heyvana məxsus alət uzunmüddətli istifadə nəticəsində cilalanmışdır. Uc hissəsində qeyri-müəyyən formalı və məqsədi bilinməyən kəsiklər vardır. Tam hamarlanaraq karandaşvari formaya salınmışdır. Aşağı hissəsi enli, yuxarı sonluğu nazikdir, ucu sınmışdır. Salamat qalmış hissənin uzunluğu 11 sm-dir. Bu dərinlikdən 2 ədəd biz tapılıb. Xırdabuynuzlu heyvan sümüyündən düzəldilmiş bizin iti və işlək ucu istifadədən cilalanmışdır. Sonluğu enli və yastıdır. Uzunluğu – 7 sm-dir. Digər biz sınıqdır. Yastı və uzunmüddətli istifadə nəticəsində cilalanmışdır, yanları yonulub. İti ucludur. Salamat qalmış hissənin uzunluğu 5,2 sm-dir. Bu dərinlikdən tapılmış 2 ədəd sümük alət istifadəlidir. Onlardan biri iribuynuzlu heyvanın buynuzundandır, və alət kimi istifadəsi aydın müşahidə edilir. Belə ki, yastı və alt üzü hamarlanmışdır. Sonluğu və ucu sındığı üçün müəyyənləşdirmək çətindir. Buynuz həmçinin kövrək olduğu üçün dağılır. Salamat qalmış hissəsinin uzunluğu 8,5 sm-dir. Digər əşya heyvanın lülə sümüyündəndir. Uzunmüddətli istifadə nəticəsində bütünlüklə cilalanmışdır. Alətdən hansı məqsədlə istifadə edilməsi məlum deyil.

İribuynuzlu heyvan sümüyündən bir ədəd çəkicşəkilli alət aşkar edilmişdir (şəkil 7). Alətin ortasından çox ehtimal ki, ağac sapın keçirilməsi üçün ikitərəfli, boruşəkilli deşik açılmışdır. Onun üzərində səthin hamarlanması prosesində istifadə edilən daş alətin izləri saxlanmışdır. Aşağı hissəsi çəpinə kəsilmiş və iti uclu düzəldilmişdir.

Beləliklə, Həsənsu neolit dövrü yaşayış yerinin qazıntısı zamanı aşkar edilmiş tapıntılar əkinçilik mədəniyyətinin erkən mərhələsi üçün səciyyəvidir. Həm əvvəlki illərdə, həm də 2011-ci ildə burada torpağın şumlanması, becərilməsi üçün heç bir alət aşkar edilməmişdir. Halbuki, Şomutəpə mədəniyyətinə aid digər abidələrdən çoxsaylı belə alətlər tapılmışdır ki, bu da həmin abidələrin erkən əkinçiliyin təşəkkül tapdığı, formalaşdığı mərhələyə aid olduğunu göstərir. Həsənsuda isə belə alətlərin tapılmaması və daha qədim dövrün xüsusiyyətlərini saxlamış obsidian və çaxmaqdaşından alətlərin aşkar edilməsi bu abidənin neolit dövrünün torpağın şumlanmasına qədərki daha əvvəlki mərhələsinə, yəni yabanı halda bitən taxılın biçilərək istifadə edilməsi mərhələsinə aid olduğunu göstərir.

Н.А.Мусеибли, А.М.Агаларзаде, Г.К.Ахундова

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА НЕОЛИТИЧЕСКОМ ПОСЕЛЕНИИ ГАСАНСУ

РЕЗЮМЕ

В 2011 г. продолжены раскопки на неолитическом поселении Гасансу I (Акстафинский р-н). На VIII квадрате исследуемого участка раскопки доведены до материка. Толщина культурного слоя составила 2,7 м. Выявлены остатки круглоплановых построек из сырцового кирпича, хозяйственная яма, разрушенное очажное сооружение. Последнее возведено из сырцового кирпича разных размеров. Под воздействием длительного огня эти кирпичи обожжены докрасна.

Каменные орудия представлены зернотерками, пестами, терочниками, ретушерами и др. Обнаружены многочисленные орудия из обсидиана: скребки, скобели, резцы, стамески и др., а также нуклеусы разных типов. Кремневые орудия малочисленны и в основном представлены вкладышами серпов.

Костяные изделия состоят из шильев и пластинчатых орудий, изготовленных из реберных костей крупного рогатого скота. Выявлен один молоткообразный предмет из кости крупнорогатого животного, с просверленным отверстием в середине. Известны несколько орудий из рога.

Обнаружены фрагменты керамических сосудов с прямыми боками красного, серого и бурого цветов, изготовленные из глины грубого состава. Сосуды из глины с растительной примесью малочисленны.

Как и в предыдущие годы, в текущем году на поселении Гасансу не обнаружено ни одного орудия для обработки почвы. Такие многочисленные орудия известны из всех других поселений шомутепинской культуры. Однако, на Гасансу обнаружены нуклеусы и орудия труда (в том числе микролитические) из обсидиана и кремня более архаичного характера, которые не выявлены на других поселениях шомутепинской культуры. Эти факты дают основание отнести Гасансу I к начальному этапу раннеземледельческой культуры или к переходному периоду производящему неолиту, основывающемуся на использовании дикорастущих злаков без обработки почвы и датировать поселение концом VII – началом VI тыс. до н.э.

N.A.Museibli, A.M.Agalarzadeh, G.K.Akhundova

ARCHAEOLOGICAL EXCAVATIONS AT THE NEOLITHIC SETTLEMENT OF HASANSU

SUMMARY

In 2011, continued excavations at the Neolithic settlement Hasansu I (Aghstafa district). On the VIII square of the area excavations were developed to the mainland. The thickness of the cultural layer was 2.7 m. There were revealed remnants of round mud-brick buildings, a household pit and ruined hearth construction. The latter was built of mud bricks of different sizes. Under the long-term exposure of the fire these bricks had become red.

Stone tools are grain-graters, pestles, graters, retouchers and others. There were found numerous tools made of obsidian: scrapers, drawing knives, cutters, chisels, gouges, etc. as well as queen cells of different types. Flint tools are few and are mostly represented by sickle liners.

Bone products consist of awls and plate implements, made of rib bones of cattle. It was identified one hammer-shaped item made of cattle bone, with a drilled hole in the middle. There are several tools made of horn.

Found fragments of pottery vessels with straight sides of red, gray and brown color, made of coarse clay composition. Clay vessels with vegetable inclusion are few.

As in previous years, this year there was not found any tools for cultivation in the settlement of Hasansu. Numerous tools of this type are known from all other settlements of Shomutepe culture. However, in Hasansu were found queen cells and labor tools (including microlithic) of obsidian and flint more archaic nature that are not identified in other settlements of Shomutepe culture. These facts give reason to relate Hasansu I to the initial phase of early agricultural culture or transition period of producing Neolithic (late Stone Age), based on the use of wild cereals without cultivation and to date the settlement to the end of VII - beginning of the VI century BC.

GÖYTƏPƏ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Tovuz rayonu)

F.E.Quliyev, Y.Nişiyaki, S.Kadovaki, F.R.Hüseynov, Y.Arimatsu,
K.Şimoqama, Ş.Kume, Ç.Akaşi, T.Odaka, O.Brelyova,
O.Zamanov, Y.Məmmədov, Ş.Səlimbəyov

(Qazıntının 4-cü mərhələsi)

GİRİŞ

Gəncə-Qazax bölgəsində ən iri arxeoloji abidələrindən biri olan Göytəpə qədim yaşayış yeri Kür çayının sağ sahilinin orta axarında, Tovuz şəhərindən 10 km şərq tərəfdə yerləşir. Göytəpə abidəsi bir sıra digər neolit dövrünə aid təpələrin (Şomutəpə, Qarğalartəpə, Töyrətəpə) əhatəsində olub, Kiçik Qafqaz sıra dağlarının qərb hissəsinin arealına daxildir. Burada hər il təxminən 400 mm yağıntı düşür. Kiçik Qafqazdan başlanan bir sıra böyük və kiçik çay axınları Kür çayına axaraq ovalığın landşaftını ayırır. Göytəpə belə bir vadinin, Zəyəm çayının qərb terrasında yerləşmişdir.

Göytəpə magistral yoldan (İpək yolu) 340 metr kənarda olub dəniz səviyyəsindən 420 metr hündürlükdə 1,5 hektardan çox ərazini əhatə edir. Onun diametri 145 metr, hündürlüyü isə 9 metrdir.

ABİDƏNİN QAZINTI METODİKASI


2008-ci ildə abidənin topoqrafik planı tərtib olundu və təpənin üst hissəsindən qazıntı sahəsi hərəsi 100 kv metr olmaqla (10x10) ardıcılıqla (1,2,3) kvadratlara bölündü. Həmçinin, qazıntı işlərinin stratiqrafik qeydlərinin dəqiq olması üçün kvadratların mərkəzi hissəsində şimal-cənub istiqamətində 40 sm qalınlığında zolağ saxlanıldı.

Aparılan qazıntı işləri əsasən abidənin şimal-şərq hissəsində cəmləşmişdir. Nəticədə 2008-2010-cı illər ərzində 1A, 2A, 3A, 4A, 2B, 3B, 4B kvadratları qazılaraq öyrənilmişdir.

2011-ci ildə arxeoloji qazıntı işləri 1B kvadratında aparılmışdır. Qazıntı işlərinin məqsədi 1B kvadratının tikililəri ilə ona bitişik olan əvvəl qazılmış 1A, 2A, 2B kvadratlarının tikililəri ilə biri-birinə kompleks şəkildə bağlı olmasını və dövr etbarı ilə xronoloji çərçivələrini müəyyənləşdirməkdən ibarət idi. Həmçinin abidənin şimal hisəsinin ətəyində 4B kvadratında qazıntı işləri davam etdirilmişdir. Qeyd etməliyik ki, abidənin şimal hissəsində bölünmüş 4B kvadratında qazıntı işləri 2009-cu ildən etibarən aparılır. Burada məqsəd abidənin şimal ətəyinin üst hissəsindən materikinə qədər əsaslı və dəqiq öyrənilməsi olmuşdur. Bundan əlavə abidənin mədəni təbəqəsinin qalınlığını təyin edilməsi üçün qədim yaşayış yerinin dörd tərəfində 2 x 2 metr ölçülərində olan yoxlama şurfları qazılmışdır (94A, 93A2, 93A1, 97F,97G, 5B,7B, 1GG).

Kvadrat 1B

Bu kvadratın qazıntıları zamanı 15 tikili binasının qalıqları aşkar edildi. Onlardan 9 dairəvi planlı (lokus 1, 3, 4, 5b, 6, 7, 10, 11, 15), 2 dairəvi tikililərin birləşdirilməsi funksiyasını oynayan divarlar (lokus 5a, 13), 2 daxili həyət (lokus 18, 19) və istehsal yerindən (lokus 17) ibarətdir. Qazıntı sahəsində üst təbəqədə sonradan salınmış 5 müsəlman qəbri və 1 son tunc və ilk dəmir dövrünə aid olan torpaq qəbirlər təmizləndi. Qəbirlərin demək olar ki hamısı qədim yaşayış yerinin mədəni təbəqəsini müəyyən qədər zədələmişdir. Zədələnmə tikili qalıqlarının ümumi vəziyyətindən bilinirdi. Burada aşkar olunmuş tikililərin əsasən böyük əksəriyyəti 2-ci tikinti horizontuna aid idi. Qazıntılar zamanı çoxlu sayda keramika məmulatlarının və əmək alətlərinin rast gəlindiyi sahədə (17 lokus), istehsal yerinin mövcud olması faktı üzə çıxdı.



Şək. 1: Göytəpənin qazıntı sahələrini əks topoqrafik xəritə.

Kvadrat 4BI

2010-cu ildə 4 B1 kvadratında 6, 7 və 8-ci tikinti horizontunun memarlığını əks etdirən tikililər aşkar edilmişdir. 2011-ci ildə isə bu qazıntı sahəsində tikililərin aşağı səviyyələrini aşkara çıxarmaqla yanaşı buradan tapılmış arxeoloji materialları və bitki qalıqlarını toplayıb 4BII kvadratından tapılmış materiallarla müqayisə etmək məqsədilə qazıntı işləri davam etdirildi.

7-ci və 8-ci tikili horizontları

Qazıntılara görə 7-ci və 8-ci horizonta aid olan əyri xətli şimala uzanan divar və dairəvi tikililər yaşayış evi rolunda yox, xarici sərhəd kimi fəaliyyət göstərməsi məlum oldu. Həmin divarın qərb hissəsində olan açıq ərazidə gildən sapand daşları (20 ədəd) və çiy kərpiclərdən qalıqlar tapıldı.



Şək. 2: 4 B kvadratının şimaldan görünüşü. Qazıntı sahəsində rəqəmləmə ərazidə qazılmış tikili horizontlarını göstərir.



Şək. 3: 8-ci horizontun memarlıq qalıqları, şimaldan görünüş.

9-cu horizont

Bu kvadratın şimal hissəsi müasir dövrün təsiri ilə dağıdılmışdır. Burada kiçik ərazidə (3.7 x 1.5 m) (şək. 6) kvadratın ortasındaki 9-cu horizonta aid materiallar aşkar etdik. Qazılmış ərazinin şərq qurtaracağında əyri xətli divarı 7-ci və 8-ci horizontun açıq divarlarına oxşar şəkildə aşkar etdik. Divarla yanaşı ocaq və çay daşları topası çöl hissədə əks olunmuşdur (şək. 4).

10-cu horizont

Qazıntılar zamanı 4B kvadratının şimal sahəsində 10-cu tikili horizontuna aid olan dairəvi planlı 3 ev çıxıntılı divarları ilə birgə torpaqdan təmizləndi (divar 74, 76 və 81) (divar 75, 83 və 90) (şək. 9). Aşkar olunmuş 74-cü və 76-cı dairəvi planlı tikililər biri birinə bağlı olan qalın divarla birləşir. 74-cü və 83-cü divarlar şimal tərəfdə olan dairəvi evlə birləşir. Şimalda olan bu divar çox guman ki, daha sonra başqa bir

divarla sola tərəf bir az əyilən 90-cı divar ilə birləşmişdir. Buradan məlum olur ki, 4BI kvadratından 4AII kvadratının qərb tərəfinə doğru genişlənən evlər həyətyanı sahəni təşkil edir.

Dairəvi binaların döşəməsi (74-cü Divar) heç bir xüsusiyyəti özündə əks etdirməyən təxminən 10 sm qalınlığında çöküntülü olub kül qatından ibarətdir. Digər tərəfdən şimaldakı evin döşəmə qatı (konteks 84) otaqın içərisinin zəngin olduğunu göstərdi. Burada da ocaq (74-cü) evin divarının çöl tərəfində yerləşmişdir. Ocağın ətrafında yanmış çay daşları yığını, küllü çuxur, gildən hörülmüş təsərrüfat quyusu və sal daş aşkar edildi.



Şək. 4: 9-cu horizontun qazılmış sahəsi, cənubdan görünüşü. Bu qazıntı sahəsi müasir dövrdə dağıntılara məruz qalmışdır.



Şək. 5: 10-cu horizontun memarlıq qalıqlarının cənubdan görünüşü. Qeyd edək ki, öndəki əyri xətli divar hər iki tərəfdən dağıntılara məruz qaldığı üçün qismən qorunmuşdur.

11-ci və 12-ci horizont


Tikililər və onların səciyyəvi xüsusiyyətləri (gildən hörülmüş təsərrüfat quyuları və evin girişi)

4BI kvadratının qazılmış sahələrinin 11-ci və 12-ci horizontlarında üç dairəvi planlı tikili torpaqdan təmizləndi (şək.6-7). Onlardan biri 4BI və 4BII kvadratları boyunca uzanan, tam qazılmış oval tikilidir (2.5 x 3 m). Bu tikilinin qərb və şərq tərəflərinə 2 çıxıntılı divarlar birləşmişdir (26 və 94, 94-cü digər divarla 95-ci ilə birləşir). Oval şəkilli binanın şərq divarına birləşən çıxıntılı divar, 4B II kvadratında digər dairəvi planlı tikiliyə (16-cı divar) bağlanır.


Dairəvi evlərin birləşməsi Göytəpədə həyətyanı sahələrin formalaşdırması ilə bağlıdır. Bundan əlavə 4B kvadratının 11-ci horizontunun tikinti kompleksinin strukturu fərqli xüsusiyyətlərə malikdir. Burada 16-cı divarın daxil hissəsində torpaqın içərisində gildən hörülmüş qida ehtiyatlarının saxlanılması məqsədilə (anbarların) quyuların olmasıdır (şək.8-9). Qida ehtiyyatlarının saxlanılması üçün nəzərdə tutulmuş qeyd olunan quyular evin şimal-şərq hissəsində yerləşmişlər. Gildən hörülmüş quyular Göytəpədə geniş yayılsa da onlar adətən çöldə yerləşmişdirlər. Burada (divarın xaricində) beş ədəd torpağın içərisində gildən hörülmüş təsərrüfat quyuları 12-ci horizonta aiddir (şək.7).

Bayır hissədə mövcud olan qida ehtiyyatları üçün nəzərdə tutulan quyular 2010-ci il mövsümündə qazılmışdır. Bu mövsüm qazılmış quyulardan birinin (118-ci) ölçüsü planda təxminən 50 x 65 sm-dir. Yarı hissəsi torpaq içində olmuş gildən hörülmüş quyuların döşəmədən nə qədər hündür olması hələ də qaranlıq olaraq qalır. Digər (121-nömrəli) quyu ölçüsünə görə bir qədər geniş olub (təxminən 65 x 65 sm), döşəmədən ən azı 50-60 sm hündürdür. Qazılmış sahə sümük çalovu və buynuzlu heyvan kəlləsi, evin divarında nizamsız düzülmüş çoxlu sayda uçmuş çiy kərpiclərdən ibarətdir.

Başqa bir xarakterik cəhət isə otağın girişidir (16-cı Divar). Evin divarının şimal hissəsində təxminən 60sm genişliyində boşluq vardır (şək. 9). Boşluq olan tikilinin hissəsində adətən olduğu kimi yanmış kərpic fraqmentləri daşlarla birgə torpaq çöküntüsündən ibarətdir.



Şək. 6: 4B kvadratında 11-ci horizontun bina qalıqları.



Şək. 7: 4B kvadratının 12-ci horizontun bina qalıqları.



Şək. 8: 11-ci horizonta aid evin (16-cı Divar) cənub şərq görünüşü. Biri-birinin yaxınlığında gildən hörülmüş oval formalı təsərrufat quyuları.



Şək. 9: İçəridəki gildən hörülmüş qida anbarlarının şimaldan görünüşü.

Obsidian parçaları

Tikilinin içəri hissəsində qazıntılar zamanı (16-cı divar) obsidiandan ibarət qəlpələr aşkar edildi. Tapılmış 230 parça qəlpələnmiş hissələr ağız hissəsi iti olan istifadə edilmiş kəsici alətlərə aiddirlər.

Tapılmış obsidianlar arasında bir neçə müxtəlif obsidian növləri müşahidə olunsa da, daha xarakterik olanlar (yarımşəffaf qara və qəhvəyi) üstünlük təşkil edir. Burada obsidian parçalarının əksəriyyəti divardan uçmuş çiy kərpic fraqmentləri ilə birlikdə döşəmədə tapılmışdır. Çox güman ki, bu

obsidian parçaları ilkin istehsaldan sonra ikinci yerdəyişməni təmsil edir. Bu problemi yoxlamaq üçün obsidian yığınlarının içərisindəki çöküntüləri suda ələyib onları bərpa etməyə səy göstərdik .

Döşəmə üzərində aşkar olunmuş materiallar

16-cı divarın dairəvi planlı tikilisi çoxlu sayda tapılmış materiallarla xarakterizə olunur. Tapılmış materiallar isə əsasən osteoloji qalıqlar, heyvan sümüyündən hazırlanmış alətlər (bizlər, çəkiclər), qəlpələnmiş obsidian ucluqları və dən daşlarından (baltalar, əl daşları) ibarətdir. Maraqlı və xüsusi əhəmiyyətli tapıntılardan isə bituma bərkidilən 3 ədəd iti uclu obsidian ülgüclərinin tapılmasıdır (şək. 10).



Şək. 10: Binanın döşəməsində aşkar edilən bituma bərkidilmiş obsidiandan ülgüclər. Ağ ləkələr döşəmənin üzərində yayılmış bitki qalıqlarıdır.



Şək. 11: 12-ci horizonta aid evin (16-cı Divar) şimaldan görünüşü. Əvvəlki horizontun çiy kərpicdən tikilmiş divarı döşəmədə görsənir.

12-ci horizontun döşəməsi

Buradan məlum olur ki, qeyd edilən tikilinin (16-cı Divar) 11-ci və 12-ci səviyyələrdə döşəmələri olmuşdur. Beləki, 11-ci horizontun döşəmələri düz olarkən, 12-ci horizontun döşəmləri isə pilləli olmuşdur (şək. 11). Döşəmənin şimal hissəsi cənub hissədən aşağıda təxminən 80 sm idi. Qazıntılar göstərdi ki, tikilinin cənub tərəfində hündür loja tipli platformavar idi. Bundan əlavə divarda 60 sm genişliyində boşluğun tapılması evin şimal tərəfdən girişin olmasını göstərir. Giriş 12-ci horizontun döşəməsindən 40 sm hündürlükdə olmuş və 11-ci horizontda istifadə olunmuşdur.

2. QƏDİM YAŞAYIŞ YERİNİN SƏRHƏDLƏRİNİN TƏYİN EDİLMƏSİ ÜZRƏ YOXLAMA ŞURFLARI


Göytəpənin əsas qazıntı sahələrində tapılmış tikililərə nisbətən daha qədim tikinti horizontlarını aşkarlamaq və təpənin sərhədlərini təyin edilməsi məqsədilə abidənin ətrafında beş yerdə yoxlama şurfları qazıldı (2x2 m və yaxud 1x1 m). Qazılmış yoxlama şurfları yeni faktik maddi dəlilərin ortaya çıxması ilə nəticələndi. Qədim yaşayış yerinin şərq tərəfində aşkar olunmuş iri ölçülü mühafizə divarı yoxlama şurflarının qazıntısından əldə olunan əsas yenilik oldu.

Təpənin şərq hissəsinin ətəyində aparılan (96F kvadratı) qazıntı işləri zamanı divar boyu çiy kərpiclərin izləri müşahidə olunurdu. Şərq ətəyində qoyulmuş şurfun qazıntısı çiy kərpiclərdən hörülmüş monolit divarı üzə çıxartdı. Iri ölçülü tikili strukturunun yuxarı hissəsinin yuyulub aparılması və kənarlarının müasir kanal konstruksiyasının çəkilişi zamanı zədələnməsinə baxmayaraq, divar hələ də ən azı 1m qalınlığında və 1 m hündürlükdə qalmışdır (şək. 12).

Təpənin kənarı istiqamətində çiy kərpiclərdən ibarət yeddi cərgəli divar uzanır. Sarımtıl-qəhvəyi rəngli çiy kərpiclərlərdən hörülmüş (şək. 25 və 26) divar massivi, bünövrə rolunda olan çarpaz qoyulmuş 20 sm qalınlığında yastı kərpiclər üzərində tikilmişdir. Bünövrənin altında isə xırda çay daşlarından çınqıl qatı var idi. İkinci buna oxşar süni olan çınqıl qatı yaşayış məskəninə doğru divar tərəfdə bünövrədən təxminən 80 sm hündürlükdə aşkara çıxarılmışdı. Divarın yuxarı hissəsini əmələ gətirən çiy kərpic söküntüləri digər bir geniş divarın mövcud olması ilə müşayət edilir. Divarın funksiyası hələ də naməlumdur. Təpənin şərq hissəsində qazılmış yoxlama şurfu onu göstərdi ki, Göytəpənin neolit dövrü sakinləri yaşayış yerinin ətrafında fərqli tikinti üslubundan istifadə etmişdilər.



Şək. 12: Boz rəngli çiy kərpiclərin düzülüşü (qərbdən tərəfdən görünüş).



Şək. 13: Göytəpənin qazıntı sahələrinin tikili qalıqları.

3. 1BI-1BII VƏ 3A-4A KVADRATLARININ STRATİQRAFİYA ANALİZLƏRİ

2008-2011-ci illər ərzində aparılan tədqiqatlar nəticəsində qazılmış kvadratlarda stratiqrafiq araşdırmalar aparılmışdır. Ilkin qazıntılar zamanı 1A, 2A və 2B kvadratlarında aşkar edilmiş dairəvi planlı tikililər 5 tikili horizontuna bölünürdü.

2010-2011-ci illərdə 1BI, 1BII, 3A və 4A kvadratlarında aparılmış arxeoloji qazıntılar qədim yaşayış yerinin tikililəri və memarlığı ilə bağlı yeni stratiqrafik məlumatlar vermiş oldu. Nəticədə qədim yaşayış yerinin (təpənin üst hissəsindən aşağıya doğru hissəyə qədər) bütöv memarlıq planı 5-ci tikili horizontundan 12-ci tikili horizonta qədər çatmış oldu (şək.13).

Beləliklədə, bu il qazıntı mövsümündə Göytəpə qədim yaşayış yerinin dairəvi planlı tiklilərinin yeni horizontları aşkar edildi. Şomutəpə mədəniyyətinin memarlığını əks etdirən dairəvi planlı tikililərin, Göytəpə qədim yaşayış yerində sistemli şəkildə olması bir daha yerli neolit sakinlərində tikinti mədəniyyətinin yüksək olduğunu göstərmiş oldu.

4. PALEOBOTANİK ARAŞDIRMALAR

4.1. Yaşayış məskəninin torpaq çöküntüləri




Şək.14: Çiy kərpic üzərində bitki izləri.

Bu ilin torpaq çöküntülərindən əldə edilmiş nümunələr 4BI kvadratından götürülmüşdür. Təqribən 130 sm hündürlükdə divar qalığından ibarət olan dairəvi tikilinin içəri və bayır hissəsində eləcə də həmin dairəvi tikilinin döşəməsi üzərində sistemli analizlər həyata keçirlmişdir. Təcrübə məqsədilə 97 F nömrəli yoxlama şurfu botanik analizlərə cəlb edilmişdir. Bu mövsüm ərzində biz 4BI və 97F kvadratlarından ümumilikdə 162 torpaq nümunəsi götürdük. Onlardan beşi 97F, 16-sı 4BI və 4BII, qalanları isə 4BI kvadratlarının qazıntıları zamanı əldə edilmişdir. Torpaq nümunələrinin 116-sı (təxminən 330 litr) paleobotanik analiz üçün seçilmişdir. Əvvəlki mövsumdə əldə edilmiş 9 ədəd torpaq nümunəsi (19 litr) suda yuyularaq analiz edilmişdir. Suda yuyulma zamanı bir neçə nümunədə çiy arpa dənələri görsənmişdir. Keçən il çiy arpa dənələri, döyülmüş taxıl, qabıqdan təmizlənmiş buğda, mərci və digər yabanı buğda çeşidləri (Graminaceae, Asteraceae, Brassicaceae, Boraginaceae, Chenopodiaceae və.s.) müəyyən edilmişdir. Həmçinin fitolit analizlər üçün müəyyən çöküntülər də toplanmışdır. Eyni zamanda bəzi bitki qalıqları üzərində izləri araşdırmaq məqsədilə Göytəpənin çiy kərpic fraqmentləri yığılaraq toplanmış və onların izləri çiy kərpiclər üzərində aydın şəkildə müşahidə edilmişdir. Onlardan biri spikeletin izlərini göstərmiş oldu. Guman edilir ki, bu buğdanın izidir (şək. 14). Müqayisəli təhlillərin aparılması üçün təpənin ərazisindən müasir bitki nümunələri də götürülmüşdür. Göytəpədən aşkar edilmiş bitki qalıqları içərisində **Asteraceae and Brassicacea** tiplərinə məxsus bitki toxumları aşkar edildiyindən bu növlər daha çox diqqətəlayiq hesab edilir.

5. GÖYTƏPƏNİN ƏTRAFINDA KƏŞFİYYAT XARAKTERLİ ARAŞDIRMALAR

2011 ci ildə Tovuz arxeoloji ekspedisiyası Zəyəm və Tovuz çayları arasında 5 km radius məsafəni əhatə edən ərazidə arxeoloji abidələrin yerlərinin müəyyən edilməsi ilə əlaqədar kəşfiyyat xarakterli tədqiqatlar həyata keçirmişdir. Araşdırmalar Yaponiyanın Tokiyo Universitetinin mütəxəssisləri ilə birgə **Google Earth** sputnik proqramı vasitəsilə aparılmışdır. Burada ehtimal edilən abidələrin topoqrafik görüntüsü əsas götürülərək əraziyə baxış keçirilmiş və GPS vasitəsi ilə çoxlu sayda yeni arxeoloji abidələr qeydə alınmışdır. Qeyd etməliyik ki, **Google Earth** proqramı vasitəsilə abidələrin qeydiyyatı üsulu 90% özünü doğrultmuşdur. Aşağıda qeyd olunan cədvəllərdə abidələrin yerləşmə nöqtələri (29 sayda arxeoloji sahələr) və dövrləri göstərilmişdir. GPS dən istifadə edərək xeyli sayda coğrafi məlumatlar (yüksəklik, hündürlük, uzunluq, miqyas) əldə olunmuşdur.

Ümumilikdə 4 neolit dövrü (neolit dövrü abidələri 1980–cı illərdə mərhum arxeoloq İ.H.Nərimanov tərəfindən, 2007 ci ildə isə Azərbaycan-Fransa beynəlxalq arxeoloji ekspedisiyası tərəfindən aşkar edilmişdir) 2 erkən eneolit dövrü, 1 son eneolit və erkən tunc, 8 son tunc və ilk dəmir, 16 antik və erkən orta əsrlər və 2 orta əsrlər dövrü abidələri müəyyən edilmişdir.



Şək 15: Arxeoloji abidələrin yerlərinin müəyyən edilməsi ilə əlaqədar kəşfiyyat xarakterli tədqiqatların xəritəsi (Zəyəm çayı deltasının qərb hissəsi). Abidələrin nömrələri 1-ci Cədvəldə qeydə göstərilmişdir. Geniş dairə Qovlar qəsəbəsindən 5 km-lik radiusu göstərir.

Cədvəl № 1.

2011-ci ildə Göytəpə ətrafında kəşfiyyat xarakterli araşdırmalar zamanı baxış keçirilən abidələrin siyahısı:

GPS nöqtə	Abidənömrə	Növ	Qeydlər	Dövr	Tapıntılar
3	NA	Müasir tikili	Su çəni		Yoxdur
34	NA	Müasir tikili	Körpü		Yoxdur
35	2	Təpə		Erkən Eneolit	Saxsı nümunələri, obsidian, dən daşı
36	3	Təpə	Hüseyinqulu	Neolit	Saxsı nümunələri, obsidian, dən daşı
37	NA	Dərə			
38	NA	Təbii təpə			
39	NA	Müasir tikili	Qəbiristanlıq		
40	NA	Təbii təpə			
41	5	Daş struktur	Top Dağdağan	?	Yoxdur
42	4	Kurqan		Antik	Saxsı nümunələri, obsidian
43	6	Kurqan		?	Yoxdur
44	7	Kurqan		?	Yoxdur
45	NA	Təbii təpə			
46	NA	Müasir tikili	İstifadə olunmayan dəyirman		
47	NA	Təbii təpə			
48	NA	Təbii təpə			
49	8	Səpələnmiş artefaktlar		Antik	Saxsı nümunələri, iri daşlar
50	9	Təpə	Hacı Elamxanlı Təpə	Erkən Neolit?	Saxsı nümunələri, obsidian, çaxmaqdaşı, dən daşı
51	10	Təpə	Çəltiktəpə	Erkən Eneolit	Saxsı nümunələri, obsidian
59	NA				
60	11	Təpə	Aytəpə	Son Tunc-Erkən Dəmir, Antik/Erkən orta əsrlər	Saxsı nümunələri, obsidian, dən daşı
61	12	Təpə	İbrahim hacılı	Son Tunc-Erkən Dəmir, Antik/Erkən orta əsrlər	saxsı, obsidian
62	NA				
64	13	Kurqan		?	Saxsı nümunələri
65	NA				
66	14	Səpələnmiş artefaktlar		Son Tunc, Antik	Saxsı nümunələri
67	15	Təpə	Menteştəpə	Son Eneolit, Erkən Tunc	Saxsı nümunələri
68	16	Təpə		Antik/Ekən Orta Əsrlər	Saxsı nümunələri
69	17	Təpə		Son Tunc, Antik/Erkən Orta əsrlər, Son Orta Əsrlər	Saxsı nümunələri, obsidian, şürələnmiş keramikalar,şüşə bilərzik
70	18	Təpə		Son Tunc, Antik/ Erkən Orta Əsrlər, Son Orta Əsrlər	Saxsı nümunələri, şürələnmiş keramikalar
71	19	Təpə		Antik/Erkən Orta Əsrlər	Saxsı nümunələri, obsidian
72	21	Təpə		Antik/Erkən Orta Əsrlər	Saxsı nümunələri, obsidian
73	20	Təpə		Erkən Orta Əsrlər	Saxsı nümunələri, obsidian
74	NA				
75	22	Təpə		Antik	Saxsı nümunələri
76	23	Təpə		Antik	Saxsı nümunələri
78	NA				
79	1	Göytəpə		Neolit	
80	24	Təpə	Törətəpə	Neolit/Eneolit?, Antik, Erkən Orta Əsrlər?	Saxsı nümunələri, obsidian, dən daşı
81		*Səhv qeydedilmi ş*			
82	NA	Təbii təpə			
83	NA	Təbii təpə			
84	NA	Təbii təpə			
85	NA	Təbii təpə			
86	25	Səpələnmiş artefaktlar		Son Tunc-Erkən Dəmir	Saxsı nümunələri, obsidian
87	26	Təpə		ErkənEneolit	Saxsı nümunələri, obsidian, çaxmaqdaşı, kvars daş, gdən daşı
88	NA	Təbii təpə			
89	27	Təpə	Törətəpə	Son Tunc-Erkən Dəmir, Antik	Saxsı nümunələri, obsidian
90	28	Səpələnmiş artefaktlar		Son Tunc, Antik/Erkən Orta Əsrlər	Saxsı nümunələri, dən daşı
91	NA	dağətəyi			
92	29	Səpələnmiş artefaktlar		Antik	Saxsı nümunələri

NƏTİCƏ

2011-ci ildə aparılan uğurlu çöl tədqiqat işləri yüksək nəticələr vermişdir. Əsas nəticələr aşağıdakı kimi qruplaşdırmaq olar:

1.1B kvadratında 17 saylı tikili kompleksi (lokus) özünün qurluşuna görə fərqli xüsusiyyətlərə malikdir. Burada istehsal alətlərinin, və keramika fraqmentlərinin çoxluğ təşkil edilməsi qeyd olunan tikilinin özəlliklərini aşılayır. Qazıntı sahələrində aşkar olunmuş arxeoloji materialların 30%, 17 saylı tikili kompleksinin üzərinə düşür. Çox gumankı burada istehsal ocağı ilə birlikdə saxsı məmulatlarının bişirilməsi üçün iki yaruslu kürə yerləşmişdir. Burada aşkar olunan iki yaruslu dulus kürəsi konstruksiya etibarı ilə Orta Şərqin Xasuna mədəniyyətinə aid olan Yarımtəpə (şimali İraq ərazisi) abidəsinin kürələri ilə oxşardır. Göytəpə ilə sinxron olan Yarımtəpə qədim yaşayış yerinin 3-cü sektorunda dördüncü tikili horizontunda 13 iki yaruslu dulus kürəsi aşkar olunmuşdur. Konstruksiya etibarı ilə diametrləri 2 metr olan kürələrin bişmə kamerası qalanmış ocağ yerindən ayrılaraq isti havanı təmin edən dəliklərlə isinirdi. Əsasən evlərdən kənarda olan yüngül örtüklü kürələrin yanında dəyirmi formalı quyular olmuşdur. Onların içərisi kül və kömürlə doldurulmuş vəziyyətdə aşkar olunmuşdur. Bütün bu əlamətlər Göytəpənin 1b kvadratının 17 saylı tikili kompleksi ilə uyğun gəlir *(Masson,1989.s.71;Merpert, Munçaev, 1971. s.150.)*

2. Qazıntı mövsümü 1B (16 saylı tikili) və 3A kvadratında aşkar edilmiş materiallar arasında ən maraqlı tapıntılardan biri antropomorf gil heykəlciklərdir (tikili horizontu 2). Hər iki heykəlcikləri kişi fiqurlarına aid etmək olar. Məlumdur ki, Cənubi Qafqazın son neolit və eneolit dövrünə aid olan qədim yaşayış yerlərində çoxlu sayda qadın heykəlcikləri tapılmışdır. Lakin Göytəpədən aşkar olunmuş gil heykəlciklərin onoloji nümunələri Gürcüstan ərazisində öyrənilmiş Xramis-didiqora qədim yaşayış yerindən məlumdur *(Qlonti, Djavaxaşvili, Kiquradze, 1973. Ş.10)*. Insan təsvirli bu fiqurların baş geyimləri və sifət ətrafında olan cizgiləri kişi heykəlciklərin olmasını ehtimal etməyə əsas verir

3. 4BI Kvadratında 11/12 ci horizontlarında aşkar edilmiş bütöv bir tikili aparılan qazıntıların ən yüksək nəticəsi hesab edilir. Aşkar olunmuş tikili təqribən 130 sm-lik hündür divar qalığından ibarətdir və çox yaxşı vəziyyətdə qalmışdır. Bu bizə dövrün tikinti texnologiyası haqqında dəqiq analizlər aparmağa yardımçı olacaqdır.

4. Təpənin kənarında aparılan müayinələr nəticəsində yaşayış yerinin sərhəddi bu il aparılmış qazıntılarımızın ikinci yüksək nəticəsi hesab edilir. Təpənin şərq hissəsində müəyyən edilmiş çiy kərpiclərdən ibarət iri tikili qalığı xüsusilə diqqətəlayiqdir. Beləki, yaşayış yerini əhatələmiş mühafizə divarının qalıqlarının aşkar edilməsi digər həmdövr abidələrindən məlum deyil. Tikilinin funksiyası üzərində araşdırmalar davam etdirilir və bu barədə gələcəkdə dəqiq informasiya vermək mümkün olacaq.

5. Qazıntı kvadratlarının stratiqrafiya analizləri də həmçinin əhəmiyyətli nəticələr vermişdir. Regionda Göytəpə tikilililəriнə bənzər heç bir neolit dövrü abidəsi aşkar olunmadığından, tikili qalıqların dövrləşməsini və onların digər xarakterik xüsusiyyətləri qədim yaşayış yerinin Neolit dövrü ilə bağlı hər bir sferasını tədqiq etməyə imkan verir. Belə tədqiqat abidənin maddi mədəniyyət nümunələrinin araşdırılmasına da xeyli yardımçı olacaq.


6. Neolitləşmənin araşdırılması ilkin olaraq bitkilərin insanlar tərəfindən istifadəsi, heyvanların əhilləşdirilməsi və bütün bu kimi proseslərin nəticələrinin sənədləşməsindən və bitki qalıqlarının neolit tədqiqatı proqramı çərçivəsində elmi analizlərindən ibarətdir. Əhilləşdirmə prosesləri və onların xronoloji xüsusiyyətləri və eləcə də, bitkilərin istifadə olunma mexanizmləri bu il apardığımız arxeoloji tədqiqatlarımızın əsas hədəflərindən hesab edilir. 4BI Kvadratından aşkar edilmiş bütöv bir tikili qalığının içərisindən toplanmış bitki qalıqlarının analizləri çox güman ki, yaxşı nəticələr verəcəkdir.

7. Bu ildə təşkil edilmiş yeni proqrama əsasən, Göytəpə ətrafında kəşfiyyat xarakterli araşdırmalar həyata keçirilmişdir. Qısa bir zaman çərçivəsində aparılmış kəşfiyyat xarakterli araşdırmalar Göytəpənin xronologiyasını və yerləşmə mövqeyini anlamaq üçün kifayət qədər yetərli olmuşdur. Müxtəlif dövrlərə aid təqribən 30-a yaxın abidə üzərində aparılmış geomorfoloji araşdırmalar neolit dövrü yaşayış

məskənlərinin xarakterizə edilməsinə yardımçı olacaq. Burada aşkar edilmiş Hacıəlləhmanlı qədim yaşayış məskəni (№ 009) çox zəruri hesab edilir. Göytəpə və Hacıəlləhmanlı qədim yaşayış yerlərinin müqayisəli tədqiqatları Şomutəpə mədəniyyətinin mənşəyinin aydınlaşdırılmasına əhəmiyyətli dərəcədə yardımçı olacaqdır.

8.Yuxarıda qeyd edilənlər çöl tədqiqatlarının əsas nəticələridir. Aşkar edilmiş materiallar xüsusi laborator müayinələri tərəfindən analiz ediləcəkdir. Yaponiya arxeoloqları ilə birlikdə həyata keçirilən birgə tədqiqat proqramının əsas hədəflərindən biri Şomutəpə mədəniyyətinin müasir elmi analizlər vasitəsilə araşdırılmasından ibarətdir. Əldə olunan nəticələr Azərbaycanda neolit dövrü zamanı baş vermiş neolitləşmə proseslərini işıqlandırmağa əsas verəcəkdir.

Tovuz rayonunda **Göytəpə** neolit dövrü yaşayış məskənində qazıntı işləri Yaponiya mütəxəssisləri ilə birgə həyata keçirilmişdir. Göytəpə neolit dövrü yaşayış məskənində "Cənubi Qafqazın qədim mədəniyyətləri" mövzusunda MDB ölkələrinin gənc arxeoloqlarının yay məktəbi layihəsi həyata keçirilmişdir. Bu layihə MDB ölkələrinin Dövlətlərarası Humanitar Əməkaşlıq Fondu tərəfindən maliyyələşdirilmişdir.





Ф.Э.Кулиев, Йош.Нишияки, Ф.Р.Гусейнов, С.Кадоваки, Ю.Ариматсу, К.Шимогама, Ч.Акаши, Т.Одака Ш.Куме, О.Брелева, О.Заманов, Я.Мамедов, Ш.Салимбеков

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА НЕОЛИТИЧЕСКОМ ПОСЕЛЕНИИ ГЁЙТЕПЕ

РЕЗЮМЕ

Проведенные в 2011 г. успешные полевые исследования дали высокие результаты. Основные результаты можно сгруппировать следующим образом:

1. Комплекс постройки (локус) № 17 в квадрате 1В обладает отличительными по своему строению особенностями. Многочисленнсть обнаруженных здесь производственных инструментов и фрагментов керамики представляют собой особенности отмеченной постройки. 30% археологических материалов, обнаруженных на участках раскопок приходится на комплекс постройки № 17. Вероятно, вместе с очагом производства здесь располагалась двухярусная печь для изготовления изделий керамики. Обнаруженная здесь двухярусная гончарная печь похожа на печи памятника Ярымтепе (территория Северного Ирага), относящейся по своей конструкции к культуре Хасуна Среднего Востока.

2. В сезон раскопок в квадрате 1В (постройка № 16) и 3А одной из интереснейших среди обнаруженных материалов находок являются антропоморфные глиняные статуэтки (горизон 2 постройки). Обе статуэтки можно отнести к мужским фигурам.

3. Граница поселения, обнаруженная в результате обследований на окраине холма, является вторым высоким результатом проведенных в этом году раскопок. Особого внимания заслуживают развалины крупной постройки из сырого кирпича, обнаруженной на восточной стороне холма. Обнаружение останков оборонительной стены, окружающей поселение, не выявлены среди памятников того же периода. Исследования функций постройки продолжаются и в будущем можно будет дать об этом подробную информацию.

4. На основании составленной в этом году новой программы были проведены расследования разведочного характера вокруг Гейтепе. Проведение за короткое время расследований разведочного характера оказалось достаточным для выяснения хронологии Гейтепе и его позиций. Геоморфологические исследования приблизительно 30-ти памятников различного периода помогут характеризовать поселения периода Неолита. Обнаруженное здесь древнее поселение Гаджиаллахманлы (№ 900) является очень важным открытием. Сравнительный анализ древних поселений Гейтепе и Гаджиаллахманлы окажет значительную помощь для выявления происхождения культуры Шомутепе.

F.E.Guliyev, Y.Nishiaki, F.R.Huseynov, S.Kadowaki, Ch.Akashi, K.Shimogama, Sh.Kume, O.Zamanov

ARCHAEOLOGICAL EXCAVATIONS AT THE GÖYTEPE

SUMMARY

Fieldworks conducted in 2011 yielded very good results. The main results have been grouped as following:

1. According to its form building complex of number 17 on the square 1B has its own distinctive features. Majority of tools, artifacts and pottery fragments actualy show the distinctions of mentioned structure. 30% of the archaeological materials found in the excavation area accordingly refer to the building complex of number 17. A furnace with two layers used for pottery industry had presumably been located here with the hearth. According to its construction, the same potter's furnace with two layers is of similarity with the furnaces found at the monument of Yarimtepe (Northern Iraq) i.e. refer to the Khasuna culture of the Middle East.

2. Anthropomorphous clay figurines (structure horizon 2) are considered to be one of the most interesting finds among the materials discovered during fieldwork on the Squares of 3A and 1B (building structure 16). Both of the figurines can be referred to the male figure. It is clear that a large number of female figurines had been discovered at the Neolithic and Chalcolithic settlements of the Southern Caucasus. But the onological samples of the clay figurines found from Goytepe are obvious from the ancient settlement of Khramis – didigora of Georgia *(Glonti, Djavakhashvili, Kiguradze, 1973. SH.10).* Head covers and the featuers around the faces of such human figurines allow us to prove that these samples were actually of male figurines.

3. A complete building structure discovered on the XI / XII horizons of the Squares of 4B1 is considered to be the best result of the excavations. Discovered building structure consists of wall remain approximately 130 cm and well preserved. This will help us to make accurate analysis on the construction technology of the period.

4. Limit of the settlement discovered by the samplings at the corner of the mound is the second best result of the investigations done this year. A large structure remain consisting of mud bircks discovered at the eastern part of the mound is of particular importance. Discovery of the fortification walls around ancient settlement is not evident from the other monuments of the same period. Analysis are being done at the present moment on the function of the structure.

AŞAĞI DAŞARX YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILAR

(Naxçıvan MR, Şərur rayonu)

A.Q.Seyidov

Aşağı Daşarx qədim yaşayış yeri Şərur rayonunun eyni adlı kəndinin içərisində, Naxçıvan-Sədərək avtomobil yolunun sol tərəfində yerləşir. Abidə şərqdən Ələddin çayının qolu ilə, digər tərəflərdən isə müasir yaşayış sahələri ilə əhatələnmişdir. Abidənin cənub-qərb hissəsində açılmış yarğanda 7-8 metr qalınlığında mədəni təbəqə izlənilir. Eyni zamanda, abidənin şimal-şərq hissəsində olan kəsikdə 3,5-4 metr qalınlığında İlk Tunc dövrünə aid mədəni təbəqə vardır.

Abidə ilk dəfə 2001-ci ildə arxeoloq S.H.Aşurov tərəfindən 5x5 m sahədə tədqiq edilmiş, burada İlk Tunc dövrünə aid dörd tikinti qatı müəyyən edilmişdir **[Aşurov S.,2003, s. 18-23].**

2011-ci ildə tərəfimizdən abidənin mərkəzi hissəsində 8x6 m sahədə (48 kv.m) qazıntı işləri 0,8 m dərinliyədək davam edildi (Ekspedisiyanın rəisi-t.e.d.,prof. A.Seyidov, üzvləri: AMEA-nın müxbir üzvü, t.e.d. V.Baxşəliyev, t.e.n T.Xəlilov, t.e.n.R.Bağırov, t.e.n.M.Əliyev, Ə.Cabbarov, Z.Quliyeva, E.Məmmədov). Abidənin xarakterini müəyyənləşdirmək üçün qazıntılar 3x3 m sahədə (9 kv.m) 2 metr dərinliyə—ana torpağa çatanadək davam etdirildi. Qazıntılar zamanı 1.5 metr dərinlikdə uzunluğu 1 metr 40 sm, eni 35 sm, hündürlüyü 45 sm olan oval formalı, dairəvi planlı, möhrədən tikilmiş divar qalığına rast gəlindi. Divarın bir ucu qazıntı sahəsindən kənara çıxırdı.

Qazıntıdan əldə edilmiş arxeoloji materiallar qara və boz rəngli keramika parçalarından, ocaq qurğusu, daş və sümük alətlərdən ibarətdir. Maddi-mədəniyyət nümunələri Kür-Araz mədəniyyətinin erkən, orta və son mərhələlərinə aiddir.


Aşağı Daşarx qədim yaşayış yerinin Kür-Araz mədəniyyəti təbəqəsindən aşkar olunmuş arxeoloji materiallar içərisində keramika çoxluq təşkil edir. Bunlar təsərrüfat küpü, küpə, kasa, qazan, badya, banka, parç, araba təkəri modeli, manqal, müxtəlif görünüşlü yarımşar formalı qulplar və digər məqsədlər üçün istifadə olunan keramika nümunələrindən ibarətdir. Ümumiyyətlə, İlk Tunc dövrünə aid keramika məmulatı bir sıra xüsusiyyətinə görə özündən əvvəlki və sonrakı mədəniyyətlərin materialından əsaslı surətdə fərqlənir. Bu xüsusiyyətlər sırasına onların hazırlanma texnologiyası, qabların forması, naxışlanması və s. daxildir. Əsasən, boz, qara və çəhrayı rəngdə bişirilmiş, üzəri cilalı, gilinin tərkibinə narın və bəzi hallarda iri qum qatılmış, əsasən əldə hazırlanmış keramika bu dövr üçün xarakterikdir.


Kasa tipli qablar müxtəlif formalıdır. Onları hazırlanma texnologiyasına və formasına görə 4 tipə ayırmaq olar. Birinci tipə konusvari, ikinci tipə qabarıq, yuvarlaq gövdəli, üçüncü tipə bikonik və qabarıq gövdəli, dördüncü tipə isə gilinin tərkibinə narın qum qatılaraq hər iki üzdən yaxşı hamarlanmış, üzərinə qara rəngli maddə çəkilərək parıldayanadək cilalanmış kasalar aiddir. Sonuncu tip kasanın gövdə hissəsində batıq xətlərlə üçbucaq formalı naxışlar salınmış, onların araları isə düz xətlərlə doldurulmuşdur.


Küpə tipli qablar bir-birindən azacıq fərqlənirlər. Onlar əsasən gen ağızlı, silindrik boğazlı, oturacağa doğru daralan, qabarıq gövdəlidirlər. Bəzilərinin ağız hissəsi kəsikdə dördkünc və üçkünc olub, xaricə doğru çıxıntılı, dəyirmiləşdirilmiş formaya malikdir. Küpələrin gilinə əksər hallarda narın, bəzən isə iri qum qatılaraq yaxşı bişirilmişdir.


Çölmək tipli qablar daha səliqəli və simmetrik hazırlanmışdır. Ağız kənarı xaricə qatlanaraq, dəyirmiləşir. Onlar bikonik formalı, qabarıq gövdəli, qısa silindrik boğazlı, geniş ağızlı, yastı oturacaqlıdır. Bəzisinin üzərində his izi qalmışdır. Qabların gilinə narın qum qatılaraq, çəhrayı və boz rəngdə bişirilmişdir. Divarlarının qalınlığı 0,5-1 sm arasındadır. Bəzi çölmələrin ağzının kənarı ilə boğazını birləşdirən kiçik yarımşar formalı qulpu vardır.


Parç tipli qabların divarı düz, oturacağı yastıdır. Onlar nazik divarlı olmaqla, xaricdən qonur, daxildən isə boz-qonur rənglidirlər. Gövdəsində ovalvari yarımşar formalı tək qulpları var.



A
B
C
D
E
J
1
2
3
4
5
6
7
8
1.5
2.8
8.0 m
6.0 m
0
1
2 m



0 1 2 sm
1



2
0 1 2 sm



0 2 4 sm
3



4
0 2 4 sm



1
0 2 4 sm
2
0 2 4 sm


3


4









Qazan tipli qablar geniş ağızlı, şar gövdəli və yastı oturacaqlıdır. Bəzisinin ağız kənarı bayıra qatlanmışdır. Bu tip qablardan uzun müddət istifadə edildiyindən üzəri və içərisi qaralmışdır.

Qapaqlar əsasən dairəvi-diskşəkilli formalı, alt tərəfi yastı, üstü mərkəzi hissədə batıq, kənarları bir qədər yuxarıya doğru köbəlidir.

Nalşəkilli ocaq qurğusunun bir parçası əldə edilmişdir. O açıq çəhrayı rəngdə bişirilmiş, üzəri yaxşı sığallanaraq, anqoblanmışdır. Bir qədər sadə hazırlanmışdır. Onun orta hissəsi və kənar ucları dikdir. İlk görünüşdə bu qurğu sanki, oturub ayaqlarını yana açmış insana bənzəyir.

Gil təkər modelləri dairəvi, kəsikdə bikonik formalı, top hissəsində deşiyi olan silindrik çıxıntıya malikdir. Gilinə narın qum qatılaraq nisbətən yaxşı bişirilmiş, tünd boz və qonur rənglərdədir.

Abidənin keramika məmulatından görünür ki, onlar narın və iri qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Qabların bir qismi sadə dulus çarxında hazırlanmışdır. Onu hazırlayan ustanın barmaq izləri bəzi qabların üzərində açıq-aydın görünür. Əldə düzəldilmiş qablar isə olduqca simmetrik və səliqəlidir. Üzəri cilalanmış qablar çoxluq təşkil edir. Təsərrüfat qablarının və xüsusi məqsədlə hazırlanmış qabların gilinin tərkibində iri qum qarışığına, bəzilərində daş ovuğuna rast gəlinir.

Aşağı Daşarx qədim yaşayış yerində Kür-Araz mədəniyyətinin ilk mərhələsinə aid arxeoloji materiallara az rast gəlinir. Lakin İlk Tunc dövrünün orta mərhələsinə aid kasa və çölməklərin gövdəsinin proporsiyasında müəyyən dəyişiklik qeydə alınır.

Orta mərhələnin xarakterik xüsusiyyəti çölmək, küpə və bankatipli qablarda çəhrayı astarın meydana çıxmasıdır. Bu rəng narıncıdan qəhvəyiyədək dəyişir. Bu mərhələnin qabları yaxşı anqoblanmış, bəzi qabların səthi yüngülcə cilalanmışdır. Ancaq belə qablar olduqca azdır. Əsası Eneolit dövründən başlayan və İlk Tunc dövründə daha da inkişaf edən bəzək üsullarının (yapma, cızma, basma, oyma) Erkən və Orta Tunc dövründə təkmilləşməsi mədəniyyətlərin bir-biri ilə genetik bağlılığının göstəricisidir.

Kür-Araz mədəniyyətinin son mərhələsi üçün nazik divarlı məişət qabları xarakterikdir. Çəhrayı astar bu mərhələdə aradan çıxır. Üzəri parıldayanadək cilalanmış qablar geniş yayılır. Onların səthində cilalayıcı alətin izlərini asanlıqla görmək

mümkündür. Son mərhələnin çölməkləri formaca əvvəlkilərdən fərqlənir. Bəzi çölməklərdə əvvəlki mərhələ üçün xarakterik olan silindrik boğazlar yoxdur. Bu dövrdə yuvarlaq-bikonik formalı çölməklər geniş yayılmışdır. Qulplar başlıca olaraq, qabların ağzının kənarında yerləşdirilmişdir. Dairəvi, yuvarlaq formalı batıqlar, relyef və həndəsi ornamentlərlə naxışlanma dövrün xarakterik xüsusiyyətlərindən biridir.

Aşağı Daşarx yaşayış yerindən müxtəlif məqsədlər üçün istifadə olunan daş və sümük alətlər tapılmışdır. Keramikadan fərqli olaraq, bu dövrün daş və sümük alətlərində o qədər də fərqli xüsusiyyətlər nəzərə çarpmır. Daş məmulatı içərisində əsasən əmək alətləri və müxtəlif məqsədlər üçün istifadəsi nəzərdə tutulan alətlər əsas yer tutur. Onlar dəvəgözü (obsidian), çaxmaq daşı, çay daşı və tufdan hazırlanmış müxtəlif alətlərdən — balta, gürz, dəstə, sürtgəc və digərlərindən ibarətdir. Yaşayış yerindən xeyli dəvəgözü və çaxmaq daşından hazırlanmış məmulatlar tapılmışdır. Aşağı Daşarxdan tapılmış dəvəgözü və çaxmaq daşından hazırlanmış məmulatlar kəsici və deşici alətlərdən ibarətdir.

Bu dövrə aid maddi-mədəniyyət nümunələrinə Sədərək **[Seyidov, Baxşəliyev, 2011]**, Ərəbyengicə **[Seyidov, Baxşəliyev, 2009]**, Xələc **[Seyidov, Baxşəliyev, Mahmudova 2010]**, Ovçular-təpəsi **[Baxşəliyev V., Marro C., Aşurov S., 2010]**, və b. abidələrdə rast gəlinir.

2006-2011-ci illərdə aparılan araşdırmalar zamanı Ovçular təpəsində "Proto-Kür-Araz" keramikası aşkar olunmuşdur. Ovçular Təpəsindən götürülən kömür analizlərinin nəticələri e.ə. 4200-4000-ci illəri göstərmişdir **[Marro C., Bakhshaliyev V., Ashurov S. 2011, p.62, fig.6].** Bu tarixi yoxlamaq üçün təkrar analizlər verilmiş və eyni nəticə alınmışdır. Odur ki, Kür-Araz mədəniyyətinin formalaşması dövrünü bu ərazidə e.ə.V minilliyin sonuna aid edirik.









Qeyd etmək istəyirik ki, bununla Naxçıvanın Tunc dövrü mədəniyyətinin öyrənilməsini bitmiş hesab etmək olmaz. Naxçıvan ərazisində onlarla açılmamış abidə öz tədqiqatçısını gözləyir. Söz yox ki, gələcək tədqiqatçılar yeni materiallar əsasında bir sıra açıq qalmış məsələlərin daha doğru, geniş izahını verəcək və yeni fikirlərini söyləyəcəklər.

ƏDƏBİYYAT

1. Aşurov S.H. Naxçıvanda arxeoloji tədqiqatlar. Bakı, 2003, 120 s.
2. Baxşəliyev V.,Marro C., Aşurov S. Ovçulartəpəsi., Bakı, “Elm”, 2010.
3. Marro C., Bakhshaliyev V., Ashurov S. Excavation at Ovçulartepesi (Nakhchivan, Azerbaijan). Second Preliminary Report: The 2009-2010 Seasons // Anatolia Antiqua, XIX, 2011, s. 53-100.
4. Seyidov A.Q., Baxşəliyev V.B. Ərəbyengicə. Bakı: Nurlan, 2009, 160 s.
5. Seyidov A.Q., Baxşəliyev V.B., Mahmudov V.Ə. Xələc. Bakı “Elm”, 2010, 220 s.
6. Seyidov A.Q., Baxşəliyev V.B. Sədərək. Bakı, “Elm”, 2011, 184 s.

А.Г.Сеидов

РАСКОПКИ НА ДРЕВНЕМ ПОСЕЛЕНИИ АШАГЫ ДАШАРК

РЕЗЮМЕ

Поселение Ашагы Дашарк расположено в центре одноименного села Шарурского района, на левой стороне шоссе Нахчыван-Садарак. Поселение с востока охвачено одним из притоков реки Аладдин. Поселение со всех сторон окружено современными жилищами и огородами. На юго-западной части поселения, в естественном овраге, культурный слой прослеживается на толщину 7-8 метров. А на северо-восточной части поселения толщина раннебронзового культурного слоя достигает 3,5-4 метров. Культурный слой памятника сильно разрушен во время строительных работ.

В 2011 году на памятнике произведены археологические раскопки. В центре поселения заложен раскопочный участок площадью 8х6 метра (48 m^2). Раскопки продолжены до глубины 0,8 м. Для выяснения характера памятника на площади 3х3 м (9 m^2) раскопки продолжены до глубины 2 м – до материка.

Во время раскопа на глубине 1,5 м выявлено круглоплановое помещение из глинобита. Определенная часть помещения осталась за пределами раскопа. Длина стены составляет 1,40 м, ширина - 35 см, высота - 45 см.

Выявленные артефакты представлены керамикой, орудиями из камня и кости. Большинство находок составляют керамические изделия серого и черного цветов. Обнаруженные материально-культурные остатки относятся к раннему, среднему и позднему периодам Куро-Араксской культуры.

A.G.Seyidov

EXCAVATIONS IN SETTLEMENT OF ASHAGHY DASHARKH

SUMMARY

The settlement of Ashaghy Dasharkh is located in the center of the village with the same name in Sharur district, on the left side of the Nahchivan-Sadarak highway. All other sides of the site are surrounded by modern houses and kitchen gardens. In the south-west corner of the site a natural ravine has revealed that the depth of occupation is 7-8 m here. In contrast, on the north-east Early Bronze Age layers are 3.5-4 m thick.

In 2011 excavations were initiated at Ashaghy Dasharkh. At the center of the settlement an 8x6 m (48 m^2) excavation unit was placed which was excavated down to a depth of 0.8 m. Within this unit, a 3x3 m deep sounding exposed material to a depth of 2 m.

The first structure a mudbrick circular house was found at a depth of 1.5 m. Part of the house remained outside of the excavation area. The length of the wall that was uncovered was 1.40 meter, its width was 35 cm, and its preserved height was 45 cm. The most common and numerous finds, however consist of pottery of gray and black ware. The material found dates to the early, middle and late periods of the Kur-Araz culture.

NAFTALAN-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR

(Goranboy rayonu)

M.M.Hüseynov



Göl yeri yaşayış yerinin ümumi görünüşü.

Naftalan-Goranboy arxeoloji ekspedisiyası 2011 ci ildə Goranboy rayonunun Tatarlı və Qarqucaq kəndləri ərazisində arxeoloji qazıntı işləri aparmışdır. Arxeoloji qazıntı işləri Göl yeri qədim yaşayış yerində, 2 saylı Qara Arxac kurqanında və Qarqucaq kəndi ərazisindəki kurqanlarda və küp qəbirlərdə həyata keçirilmişdir.

Göl yeri qədim yaşayış yeri Goranboy rayonun Tatarlı kəndindən 1 km cənub-şərqdə yerləşir. Yaşayış yerinin ərazisi 2,5 ha-ya yaxındır.

Yaşayış yeri 2009-cu ildə qeydə alınmış, 2010 və 2011-ci illərdə burada arxeoloji qazıntı işləri aparılmışdır.

2011-ci il qazıntıları yaşayış yerinin şərq tərəfində yeni kvadratların artırılması ilə davam etdirilmişdir.

Yaşayış yerindən eneolit dövrünün yarımqazma evlərinin qalıqları, çoxsaylı təsərrüfat quyuları və ocaq yerlərinə rast gəlinmişdir.

Eneolit dövrünə aid yarımqazma evlərdən biri 11 m^2 sahəni əhatə edir. İçərisindən müxtəlif maddi mədəniyyət nümunələri-eneolit dövrünə aid saxsı məmulatına, obsidian və çaxmaqdaşıdan hazırlanmış oraq dişləri və kəsicilərə təsadüf edilmişdir.

Yaşayış yerində indiyə qədər ilk tunc dövrünə aid 40-dan artıq təsərrüfat quyusu, 3 ocaq yeri aşkar edilmişdir. Ocaq yerləri dairəvi və oval formada hazırlanmışdır. Ölçüləri 0,80–1,6 m. arasındadır. Ocaq yerlərindən, 10-20 sm qalınlığı olan kül qatının içərisindən saxsı, daş və sümük məmulatı tapıldı.

Bəzi ocaq yerlərində iri ağac kömürlərinə rast gəlinmişdir. İri ağac kömürlərinin ətrafından ilk tunc dövrünə aid saxsı məmulatı və daş əmək alətləri əldə edilmişdir.

Yaşayış yerindən əldə olunan arxeoloji materiallar içərisində eneolit və ilk tunc dövrünə aid saxsı məmulatı çoxluq təşkil edir.



Göl yeri yaşayış yeri. Qazıntı sahəsi.



Göl yeri yaşayış yeri. Eneolit dövrünə aid saxsı məmulatı.

Eneolit dövrünə aid saxsı məmulatı əsasən qonur rəngli, bitki qarışıqlı hazırlanmışdır. Yarımqazmadan aşkar olunmuş saxsı qablardan biri qazan tipli olub. düz oturacaqlı, geniş ağızlı hazırlanmışdır. Ağız kənarı xaricə genişlənir. Ağız kənarında kiçik qulaqcıq formalı çıxıntı var.

Saxsı qabarın bəziəri buynuzvari çıxıntılara malikdir. Eneolit dövrünıə aid bu cür saxsı qab hissələri bitki və çınqıl qarışıq gillə yoğrularaq hazırlanmışdır. Buynuzvari və qulaqcıq formalı çıxıntılara malik bu cür saxsı qablar əsasən qonur, qismən isə boz rəngdə hazırlanmışlar. Yaşayış yerinin eneolit təbəqəsindən en kəsikdə dairəvi formalı qulplar da aşkar edilmişdir. Belə qulplar Azərbaycanın eneolit dövrü yaşayış yerlərindən olduqca az aşkar edilmişdir.

İlk tunc dövrünə aid saxsı məmulatı küplər, küpələr, qazanlar və s. dən ibarətdir. Bu tip saxsı qablar, əsasən yarımşar formalı qulplara malikdirlər.

Küpələri forma etibarilə 3 qrupa bölmək olar. 1. Dar boğazlı küpələr. 2. Geniş ağızlı, şar gövdəli küpələr. 3. Bikonik gövdəli küpələr.






Küpələrdən bəziləri narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Belə küpələrdən bəziləri orta həcmli olub, qonur rənglidir. Bəzi küpələrin səthi hisin təsirindən qara rəng almışdır. Sadə üsulla hazırlanmış küpələrdən bəzilərinin ağız kənarı yarımdairəvi formada xaricə əyintili olub, xaricdən köbəlidir. Bir qrup küpələrin iki tərəfdən şar formalı en kəsikdə dairəvi kiçik qulpu var.

Küpələrdən bəziləri qara rəngli olub, kiçik həcmlidir. Uzun boğazlı, ağız kənarı yarımdairəvi formada xaricə əyintili küpəlrdən bəzilərinin gövdəsinin yuxarı hissəsində, en kəsikdə üçbucaq formalı qulpu vardır.



Kiçik həcmli küpələrdən bəziləri boz rəngli olub, bikonik gövdəyə malidirlər. Onların çiyindən boğaza keçən hissələri batıq cızma xətlə əhatələnmişdir.

Qablardan bəziləri kasa formasında hazırlanmışdır. Kasalardan bəziləri xaricdən qara, daxildən isə qonur rəngli olub, ovalvari oturacaqlıdırlar. Düz hündür boğazlı kasaların ağız kənarları yarımdairəvi formada xaricə əyintilidir. Ağız kənarları xaricə getdikcə nazilir. Çiyin hissə 2-3 sm enində kanalvari batıqla əhatələnmişdir.



Yaşayış yerinin ilk tunc dövrünə aid təbəqəsində xeyrələrə də təsadüf edildi. Əldə edilən xeyrə tipli saxsı qab nümunələri qunur rəngli olub, narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Xeyrələrin bəziləri geniş ağızlı dar oturacaqlı hazırlanmış, ağız kənarı daxilə əyintilidir.



Yaşayış yerindən ilk tunc dövrünə aid qazanlara da rast gəlinmişdir. Qazanlar əsasən qonur, qismən isə qara rəngdə hazırlanmışdır. Qazanlardan bəziləri narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli bişirilmişdir. İri həcmli, qonur rəngli, yastı oturacaqlı qazanlardan bəzilərinin ağaz kənarı daxilə meyllidir. Ağız kənarına yaxın çiyin hissəsində ilk tunc dövrü üçün xarakterik olan yarımşar formalı qulpa malik qazanların bəzilərinin ağız kənarı daxildən köbəlidir.

Göl yeri yaşayış yeri. İlk tunc dövrünə aid saxsı məmulatı.



Göl yeri yaşayış yeri. Daş əmək alətləri.

Qazıntılar zamanı müxtəlif hissələrində deşiklər açılmış qablara aid fraqmentlərə təsadüf edilmişdir. Həmin fraqmentlər narın qum qarışıq gildən hazırlanmış qablara məxsusdur. Deşiklər əsasən qablar bişirilməzdən əvvəl iti uclu əşya ilə çöldən basmaqla açılmışdır. Çoxsaylı deşiklər qabların daha çox gövdə hissəsində nizamsız şəkildə açılmışdır. Çox ehtimal ki, bu fraqmentlər süzgəc tipli qablara məxsusdur. Fraqmentlərin bəzilərində deşiklərin açılması prosesi sona çatdırılmamışdır.

Süzgəclərdən bəziləri uzun boğazlı olub, narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Boğaz hissəsi düz şəkildə yuxarı qalxaraq ağız kənarına doğru sonluğa getdikcə bir qədər nazilir. Belə qabların boğazdan aşağı çiyindən başlayaraq deşiklər açılmışdır. Bəzi qabların müxtəli hissələrində xüsusən gövdə və çiyin hissəsində bir və ya iki ədəd oyuq açılmışdır.

Tava tipli qablara aid bir neçə fraqment aşkar edilmişdir. Qum qarışıq gillə yoğrularaq kobud hazırlanmış tavalar boz və qonur rəngli, geniş ağızlı, yastı oturacaqlıdır. Əldə edilmiş tavaların demək olar ki, hamısı dayaz formada hazırlanmışdır.

Yaşayış yerinin ilk tunc dövrünə aid təbəqəsinin müxtəlif yerlərindən sınmış halda qapaqlar aşkar edilmişdir. Qapaqlar boz və qonur rəngli olub, narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. 1,4-2,6 sm qalınlığında olan qapaqların bəziləri güclü yanmaya məruz qalmışlar. Diametrləri 15-28 sm-dir. Qapaqların alt hissəsi əsasən düz, üst hissəsi isə oval formadadır. Qapaqların əksəriyyətinin üstdən mərkəzi hissəsində əl tutmaq üçün yarımşar formalı qulpları vardır.

Miniatür qablar. Gövdələri 3,5-4,8 sm diametrindədirlər. Bu qabların ağzının diametri 3,2-4,1 sm, hündürlükləri 3,5-4,7 sm, oturacaq diametrləri 2,5-3 sm-dir. Boz, qonur, narıncı rəngli bu qablar təmiz tərkibli gildən olub, əldə səliqəsiz hazırlanmışdır.

Yaşayış yerində aparılan tədqiqatlar zamanı çoxsaylı qulplar aşkar edilmişdir. Qulplar əsasən ilk tunc dövrü üçün xarakterik olan yarımşar formada hazırlanmışdır. Boz, qara və qonur rəngdə olan qulplar müxtəlif böyüklükdədirlər. Qulplar qabların forma və təyinatından asılı olaraq müxtəlif formada hazırlanmış və qabların müxtəlif yerlərinə bərkidilmişdir. Bəzi qulplar gövdədə, bəziləri çiyində yerləşmişlər. Bir qisim qulplar isə qabların ağız kənarı ilə çiyinlərini birləşdirir.

Daş məmulatı. Yaşayış yerindən çoxsaylı daş əmək alətləri aşkar edilmişdir. Daş məmulatına dən daşlarını, döyüm alətlərini, həvəng və dəstələri, oraq dişlərini və müxtəlif təyinatlı kəsici alətləri və s. aid etmək olar.

Dən daşlarının bəziləri qayıqvari formadadır. Onların oturacaq hissəsi bir qədər qabarıq işlək hissəsi hamar və bir qədər çökək, ucları isə yuxarı qalmış vəziyyətdədir. Qayıqvari, iri ölçülü dən daşları çox güman ki, iş prosesində müəyyən nöqtədə tərpənməz vəziyyətdə qalmışdır. Belə dən daşlarından eyni nöqtədə uzun müddət istifadə edirdilər. Dən daşların bəziləri boz rəngli tuf daşından hazırlanmışdır. İşlənmə nəticəsində üzərlərində çökəklik əmələ gəlmişdir. Dən daşları taxılın üyüdülməsi, yarma alınması və başqa məqsədlər üçün işlədilmişdir. Ola bilsin ki, bu daşlardan duz əzmək üçün də geniş istifadə edilmişdir.

Yaşayış yerindən obsidian, qismən çaxmaqdaşından hazırlanmış oraq dişləri və başqa kəsici əşyalar aşkar edilmişdir. Oraq dişlərinin əsasən bir tərəfi dişəklənmiş, digər tərəfi isə iti saxlanılmışdır. Bəzi oraq dişlərinin çərçivəyə bərkidilən iti tərəfində bitum izi aşkar edilmişdir. Bitum oraq dişlərinin çərçivədə möhkəm dayanmasını təmin etmişdir. Oraq dişlərindən fərqli olaraq bəzi kəsici alətlərin bir tərəfində deyil bir neçə tərəfində dişəklənmə prosesi həyata keçirilmişdir. Kəsicilərin əksəriyyətində dişəklənmə həyata keçirilməmiş, iti tillərindən istifadə olunmuşdur.

Aparılan tədqiqatlar nəticəsində Göl yeri qədim yaşayış yerini eneolit və ilk tunc dövrlərinə (e.ə.V-IV minilliklər) aid etmək olar.

2 №li Qara Arxac ilk tunc dövrü kurqanı: 2 №li Qara Arxac kurqanı Goranboy rayonunun Tatarlı kəndi ərazisində 1 №li Qara Arxac kurqanından 150-200 metr şərqdə, Göl yeri yaşayış yerindən 300-350 metr şimal-qərbdə yerləşir.



2№-li Qara Arxac kurqanı.



2№-li Qara Arxac kurqanı. Saxsı məmulatı.

Kurqanaltı kamera sərdabə tiplidir. Kameranın divarları ağ əhəngdaşından hörülmüş, lakin divarın bəzi yerlərində çay daşlarından da, istifadə edilmişdir. Çox səliqə ilə hörülmüş divarın daşları bir-birinə sıx bərkidilmişdir. Kvadrat formalı qəbir kamerasının küncləri ovalvari formada qurulmuşdur. Kameranın ölçüləri 3-3.10 metr, hündürlüyü 1-1,10 metr-dir.

Kurqan qarət olunduğundan qəbir avadanlığı tamamilə dağıntıya məruz qalmışdır. Kurqandan 4 küpə tipli saxsı qaba, insan və heyvan sümüklərinə rast gəlinmişdir.

Küpələr orta və kiçik həcmli olub, hamısı narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Qara və boz rəngdə hazırlanmış saxsı qablar bikonik gövdəli, düz oturacaqlı olub, ağız kənarı xaricə əyintilidir. Yarımşar formalı qulplarla yanaşı, lentvari və kvadrat formalı qulplara da rast gəlinmişdir.

Kurqandan həmçinin saxsı qabların boğaz və gövdə hissələrindən fraqmentlər də, əldə edilmişdir.

Goranboy rayonunu Qarqucaq kəndi ərazisində aparılan arxeoloji qaıntı işləri zamanı zəngin arxeoloji materiallar aşkar edilmişdir. Aparılan arxeoloji tədqiqatlar nəticəsində kurqan və küp qəbirlər aşkar edilmişdir. İlk dəmir dövrünə aid kurqanda sonradan 2 ədəd daş qutu qəbir, 1 dəd isə küp qəbir salınmışdır.

1№li Qarqucaq kurqanı: Goranboy rayonunun Qarqucaq kəndi ərazisində, kəndin şimal-şərq hissəsində yerləşir.

Kurqan həyətyanı sahəyə düşdüyündən kurqanın üst örtüyü tamamilə dağıdılmışdı. Müşahidələrə əsasən kurqanüstü örtüyün diametrinin 16-17 metr, hündürlüyünün isə 2-2,5 metr olduğunu söyləyə bilərik.

Kurqanaltı torpaq qəbir. Kurqanaltı torpaq qəbirdən aşkar edilən arxeoloji materiallar daha qədim dövrə aiddir. Kurqanın mərkəzində salınan bu qəbirin arxeoloji materiallarının küp qəbirlər qurularkən dağıntıya məruz qalmışdır. Əsas kurqanaltı qəbirə aid etdiyimiz arxeoloji materiallar ilk dəmir dövrünə aid 2 ədəd bardaqdan və bəzək əşyalarından ibarətdir.



1№-li Qarqulaq kurqanı. İlk dəmir dövrünə aid bardaqlar.

Bardaqlardan biri qara rəngli olub, narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Ağız kənarı yarımdairəvi formada xaricə əyintilidir. En kəsikdə dairəvi formalı qulpları ağız kənarı ilə çiyini birləşdirir. Gövdə və çiyin hissəsi 3, boğaz hissəsi isə 1 ədəd qabarıq xətlə əhatələnmişdir. Dabanlı oturacaqlıdır. Dabanın hündürlüyü-0,5 sm-dir.

Digər bardaq qara rəngli narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Gövdənin yuxarı hissəsi-4, çiyin hissə-3 ədəd kanalvari batıqla əhatələnmişdir. Kanalvari batıqların içərisi dalğavari cızmalarla naxışlanmışdır. Gövdənin oturacağa qədər olan səthi şaquli istiqamətdə şüyrələnmişdir. Qulpun ağız kənarına birləşən hissəsinin yuxarısında kiçik çıxıntı vardır.

Bəzək əşyaları pasta, əqiq, kauri, gil və digər minerallardan hazırlanmışdır. Ən çox pasta muncuqlar əldə edilmişdir. Bəzək əşyalarının əksəriyyətini təşkil edən pasta muncuqlar(720 ədəd) kiçik həcmli olub, ağ və göy rəngdə, doğrama üsulu ilə hazırlanmışdır. Zınqrov formalı ağ rəngli bəzək əşyasının yuxarı hissəsində asmaq üçün deşik açılmışdır. Qəbirdən həmçinin 3 ədəd Kauri muncuq, 1 ədəd sümükdən hazırlanmış nal formalı muncuq, 10 ədəd müxtəlif formalarda-açıq qırmızı və qırmızı rəngli əqiq muncuq, 9 ədəd müxtəlif formalı muncuqlar, 2 ədəd kiçik həcmli muncuq aşkar edilmişdir. Muncuqlardan biri düyməvari, digəri isə boru şəklində hazırlanmışdır. Boru şəkilli muncuqun səthi cızma xətlə əhatələnmişdir. Bir tərəfində deşik açılmışdır. 4 ədəd qırmızı rəngli, şəffaf obsidiandan hazırlanmış, enli və yastı bəzək əşyası. 7 ədəd bəzək əşyası (altısı obsidiandan) doğrama üsulu ilə, digəri isə kiçik həcmli hazırlanmışdır.

Daş qutu qəbirlər. Kurqanda 2 ədəd daş qutu salınmışdır.

1 №li daş qutu qəbir. Kurqanın üst örtüyü dağıdılıb düzənlənərkən kurqan örtüyü altında qurulmuş daş qutu qəbrin üst örtük daşı traktorun kovuşuna ilişmiş və nəticədə daş qutu qəbir diqqəti cəlb etmişdi. Daş qutu qəbirin içərisi yerli əhali tərəfindən demək olar ki, tamamilə dağıdılmışdı. Yalnız qəbirdən bir neçə saxsı qab hissələri və insan sümüklərinə təsadüf edilmişdi. Qəbrin içərisinin müasir dövrdə tamamilə qarət edilməsinə baxmayaraq qəbirin ətrafındakı daşlar demək olar ki, dağıdılmamışdı.

Daş qutu qəbirin cənub-qərb divarında uzunluğu-1,73 metr, şimal-qərb divarında 1,66 metr, eni 90 sm, dərinliyi-61 sm-dir.

2 №li daş qutu qəbir 1 №li daş qutudan 3,05 metr cənub-qərb istiqamətdə yerləşir. Daş qutu yaxşı saxlanmışdır.

Daş qutunun şimal-şərq divarının uzunluğu 1,22 metr, cənub-qərb divarının uzunluğu-1,28 metr, eni şimal-qərb (yəni baş) tərəfdə 67 sm, aşağı-(ayaq tərəfdə) eni 68 sm, hündürlüyü-60 sm, Divarının qalınlığı 12 sm-dir. Daş qutunun içərisində sol yanı üstə sıx bükülmüş vəziyyətdə skelet və ətrafından zəngin maddi-mədəniyyət nümunələri aşkar edilmişdir.


Qəbirdən 3 ədəd saxsı qab, 2 ədəd dəmir xəncər, 2 ədəd dəmir bıçaq tipli kəsici, 4 ədəd xəncər qabını(qını) saxlayan tunc əşya, 2 ədəd əqiqdən qaşları olan tunc üzük, 1 ədəd tunc iynə, 1 ədəd bülöv daşı, 1 ədəd tunc biz, 2 ədəd tunc qolbağ, 1 ədəd tunc pilək aşkar edilmişdir.

Qəbirdən aşkar edilən saxsı qablardan biri dolça formada olub, narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Orta həcmlidir, üzəri hislə örtülmüşdür. Ağız kənarı yarımdairəvi formada xaricə əyintilidir. En kəsikdə dairəvi formalı qulpu ağız kənarı ilə gövdəni birləşdirir.

Süddan biçimli saxsı qab, açıq qırmızı rəngli orta həcmlidir. Ağız hissəsi novçalı saxsı qabın en kəsikdə dairəvi formalı qulpu ağız kənarı ilə gövdəni birləşdirir.



2№-li daş qutu qəbir.





2№-li daş qutu qəbir. Saxsı məmulatı.




2№-li daş qutu qəbir. Üzüklər.

Qəbirdən 2 ədəd dəmir xəncər aşkar edilmişdir. Hər iki xəncər eyni yerdə üst-üstə aşkar olundu. Maraqlı cəhətlərdən biri xəncərləri kəmərdə saxlayan tunc əşyalarında aşkar edilməsidir. Ehtimal ki, xəncərlərin qabı taxta və ya dəridən olduğu üçün saxlanmamışdır. Hər iki xəncər oxşar hazırlanmışdır. Xəncərlər arasındakı fərq onların ölçüsündədir. Xəncərlərin ikisinin də hər iki tərəfi kəsərli hazırlanmışdır. Birinci xəncərin uzunluğu 37 sm-dir. Xəncərlərin arxa hissəsi əllə rahat tutması üçün münasib hazırlanmışdır. Əl tutan hissəsinin sonluğu dairəvi formada olub, uzunluğu-10 sm, sonluqdakı dairəvi hissəinin diametri 4,5 sm, darəvi hissənin içərisindəki oyuğun diametri 2 sm-dir. Xəncərin tiyəsinin uzunluğu -22,5 sm-dir.

Digər xəncərin uzunluğu 32,5 sm, əl tutan hissəsinin uzunluğu 11,7 sm, arxa dairəvi formalı hissəsinin diametri 3,5 sm, dairəvi hissənin ortasındakı deşiyin diametri 2 sm, tiyəsinin uzunluğu 18,5 sm-dir.

Boşqab tipli saxsı qab ovalvari altlıqlı, dayaz formada hazırlanmış bir tərəfində kiçik qulpu var. Qabın gövdə hissəsi kanalvari batıqla əhatələnmişdir. Ağız kənarının üst hissəsi üçbucaq formada dik çıxıntılıdır. Qabın ağız kənarının üst hissəsi yolkavari formada, bir istiqamətdə naxışlanmışdır.



2№-li daş qutu qəbir. Dəmir xərcərlər, bülöv, tunc əşyalar.


Qəbirdən 2 ədəd, olduqca nəfis hazırlanmış tunc üzük aşkar edilmişdir. Üzərlərində əqiqdən qaş qoyulmuşdur. Üzük qaşlarının üzərində oyma üsulu ilə işlənmiş zoomorf təsvirləri var. Təsvirlərdən biri yırtıcı heyvanı xatırladır. Diametrləri 2-2,5 sm, qaşın uzunluğu 1,2-1,5 sm, eni 1 sm-dir.

Səliqə ilə hazırlanmış bülöv daşının dörd bir yanı istifadə nəticəsində yeyilərək çökəlmişdir. Bu isə həmin bülövün daş qutuda dəfn olunan insana məxsus olduğunu göstərir. Bülöv daşının yuxarı hissəsində ip keçirmək üçün deşik açılmışdır. 3 ədəd xəncər, bir ədəd bıçağın aşkar edildiyi daş qutu qəbirdən aşkar edilən bülöv daşı ehtimal ki, elə həmin silahları itiləmək üçün istifadə edilmişdir.



1№-li Qarqucaq kurqanı. Bəzək əşyaları.

Sallama küp qəbir: Kurqandan 1 ədəd sallama küp qəbir də, aşkar edilmişdir. Küp qəbrin yarıdan yuxarı hissəsi təsərrüfat işləri zamanı dağıntıya məruz qalmışdır. Küp qəbirdən insan skeletinin qalıqları ilə yanaşı 1 ədəd orta həcmli boşqab tipli saxsı qab, 1 ədəd böyük, 2 ədəd kiçik qolbağ, 1 ədəd tunc üzük, 1 ədəd tunc iynə, 1 ədəd tunc medalyonu xatırladan əşya və digər metal əşyaların fraqmentləri, 13 ədəd muncuq əldə edilmişdir.




Sallama küp qəbir. Bəzək əşyaları, tunc iynələr, qolbağ, üzük.

2 №li Qarqucaq küp qəbiri: Qarqucaq kəndi ərazisində ilk küp qəbir (1№li li) 2010 cu ildə tədqiq edilmişdir.

2 №li küp qəbir Qarqucaq kəndinin cənub-şərq qurtaracağında, Qarqucaq kurqanı yaxınlığında aşkar edilmişdir. Küp qəbir şərq-qərb istiqamətində qurulmuşdur. Qəbir şərq-qərb istiqamətində olmaqla ağız hissəsi qərbə yanı üstə dəfn edilmişdir. Küp qəbirdə mərhum sağ yanı üstə bükülmüş vəziyyətdə aşkar edilmişdir. Küp qəbrin ətrafından 7 ədəd müxtəlif həcmdə və formada hazırlanmış saxsı qablar tapıldı. Küp qəbrin oturacaq hissəsinə yaxın qoyulmuş çəllək formalı saxsı qab digərlərindən öz böyüklüyünə görə seçilir. Maraqlıdır ki, iri həcmli saxsı qab təmizlənərkən içərisindən boşqab tipli çox nəfis hazırlanmış saxsı qab və xırda buynuzlu heyvan sümükləri aşkar edilmişdir.



2№-li Qarqucaq küp qəbir.



2№-li Qarqucaq küp qəbir. Saxsı məmulatı.

Küp qəbrin uzunluğu 1 metr 40 sm, gövdə hissəsində eni 1 metr, ağız diametri-67 sm-dir. Küpün oturacağa yaxın hissəsində diametri 8 sm olan oyuq açılmışdır. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, oturacağa yaxın hissəsində oyuq açılmış küp qəbirlər Azərbaycanın digər bölgələrindən aşkar olunmuş küp qəbirlərdə də, təsadüf edilmişdir. Bu isə ehtimal ki, axirət dünyasına inamla əlaqədar olaraq ruhun öz evini, yəni küp qəbiri tərk edib yenidən geri qayıtması üçün edilmişdir. Sadə üsulla hazırlanmış küpün ağız kənarı çərtmələrlə naxışlanmışdır.

Küp qəbirdən maraqlı və zəngin arxeoloji material aşkar edilmişdir. Azərbaycanda aşkar olunmuş küp qəbir avadanlıqları içərisində ən çox aşkar edilən arxeoloji materiallar gildən hazırlanmış müxtəlif təyinatlı və formalı, fərqli ölçülərə və naxışlanma üsullarına malik, bəzən dulus çarxında, çox vaxt isə əldə hazırlanmış gil

qablar əsasən keyfiyyətli bişirilmiş və yüksək ustalıqla düzəldilmiş, gilinin tərkibinə bir qayda olaraq narın qum qatılmış, üzərləri bəzən cilalı, boyalı və ya anqoblu olan saxsı qablardır. Onlar əsasən təsərrüfatda, məişətdə və dini mərasimlərin icrasında işlənmişdir.

Saxsı qablar içərisində öz rəngarəngliyi ilə seçilən qablar küp və küpələrdir. İri həcmli təsərrüfatda işlənilən küplərlə yanaşı, həm təsərrüfatda, həm də mətbəxdə işlənilən orta həcmli küpələr və nəhayət küpəciklər-dopulardan ibarətdir. Küp qəbirlərində adətən mərhumun dəfn olunduğu küplər iri təsərrüfat küpləri də vardır. Yalnız uşaqlar çox vaxt həcmcə kiçik olan müxtəlif formalı qablarda dəfn olunmuşlar. Öz formalarına görə dəfn küplərini iki tipə bölmək olar. Armudvari və şarvari gövdələri olan olan küplər. Qarqucaq kəndi ərazisindən aşkar etdiyimiz küplərdən də biri armudvari, digəri isə şarvari gövdəyə malikdir.

Küp qəbirlərdən əldə edilmiş gil qablar içərisində küpələr üstünlük təşkil edirlər. Orta həcmli olan bu qablar mütəlif formalara malikdirlər. Bunlara ağızı dəyirmi, lüləkli, ağzı novçalı küpələr daxildirlər. Küpələr rənglərinə, üzərlərindəki ornamentlərə görə də müxtəlifliyə malikdirlər.

Bir ədəd iri həcmli ağzı novçalı bardaq tipli qab istisna olmaqla əsas arxeoloji materiallar küp qəbirin arxa hissəsinə qoyulmuşdur.

Saxsı qabların daha bir tipini ağzı novçalı qablar təşkil edir. Belə qablar Qafqaz albaniyasının bütün yaşayış məskənlərinin və nekropollarının qazıntıları zamanı aşkar edilmişdir. Onların hamısı əldə, simmetrik hazırlanmış, əsasən qırmızı rəngdə bişirilmişlər. Bu qabların novçaları ölçülərinə görə müxtəlifdirlər. Üç və ya dörd ləçəkli ağzı olan, qısa və uzadılmış novçalı, həmçinin şəbəkəli arakəsmə ilə təchiz olunmuş qablar aşkar edilmişdir. Belə qablar şərti olaraq süddan adlandırılır, çünki bunların içərisində cürbəcür mayelər saxlanılmışdır. Qarqucaq küp qəbirindən bu tip süddan biçimli saxsı qab aşkar edilmişdir.

Ağzı novçalı bardaq tipli qab, Küp qəbrin ağız hissəsindən 37 sm məsafədə qoyulmuş, yaxşı müfafizə olunmuşdur. Ağız hissəsinə əhəng daşından qapaq funksiyasını yerinə yetirən münasib yonulmuş daş qoyulmuşdur. Sadə üsulla, qonur rəngli hazırlanmış saxsı qab narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Ağız hissəsi yarımdairəvi formada xaricə əyintilidir. En kəsikdə dairəvi formalı qulpu ağız kənarı ilə çiyini birləşdirir. Yaxşı vəziyyətdə qalmışdır.

Lüləli qab: Narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmış saxsı qab tək qulplu, tək lüləklidir. Ağız hissəsi yarımdairəvi formada xaricə əyintilidir. En kəsikdə dairəvi formalı qulpu çiyinlə ağız kənarını birləşdirir. Qabın lüləyi çiyin hissədə yerləşir.

Küpə: qonur rəngli ikitərəfli qulpa malik küpə narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Ağız kənarı yarımdairəvi formada xaricə əyintilidir. En kəsikdə dairəvi formalı qulpları çiyinlə ağız kənarlarını birləşdirir. Ağız kənarı sonluğa getdikcə nazilir. Ağız kənarının bayır hissəsi çərtmələrlə naxışlanmışdır. Boğaz hissəsi bir, çiyin hissəsi iki ədəd dalğavari xəttlə cızma üsulu ilə naxışlanmışdır. Qulpun ağız kənarına birləşən hissəsi yuxarı qalxmışdır. Qulpun yarıdan yuxarı üst hissəsi çərtmələrlə naxışlanmışdır.

Ağzı dəyirmi küpələr küp qəbirlərində ən geniş yayılmış tip olmasa da, daha qədim dövr qabları ilə oxşar əlamətlərə malikdirlər. Erkən dəmir dövrünə aid abidələrdə təsadüf olunan gil qablar içərisində dəyirmi ağızlı küpələr üstünlük təşkil edirlər. Təsadüfi deyil ki, bu formalı küpələrə küp qəbirlərin inkişaf dövrünün ilk mərhələlərində daha çox rast gəlinmişdir. Bu tip küpələr Mingəçevirin zəif bükülmüş skeletli torpaq və erkən küp qəbirlərində, Yaloylutəpənin torpaq qəbirlərində aşkar olunmuşdur. Bu qabların yayılma arealı çox genişdir. Qafqaz Albaniyasının bir çox abidələri ilə yanaşı bu tip küpələrə bəzi yerli xüsusiyyətləri ilə Gürcüstanın, Ermənistanın və Şimali Qafqazın sinxron abidələrində də təsadüf olunur.

Çəllək tipli böyük həcmli saxsı qab: Narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışdır. Şar gövdəli saxsı qab geniş ağızlıdır. Ağız hissə daxilə meyllidir. Sadə üsulla hazırlanmış qabın hündürlüyü-64 sm, gövdəsinin diametri-65 sm, ağızınln diametri 58 sm-dir. Qabın içərisindən boşqab tipli digər bir qab aşkar edildi. Boşqabın ətrafından xırda buynuzlu heyvan sümükləri aşkar edilmişdir.

Çəllək tipli iri həcmli qabın içərisindən aşkar edilmiş qonur rəngli boşqabın ağız kənarında bir ədəd dairəvi formalı kiçik qulpu vardır. Qulpun içərisində diametri-1,5 sm olan dairəvi deşik açılmışdır. Sadə formada hazırlanmış boşqabın ağız kənarı daxilə meyllidir. Qulp en kəsikdə dairəvi formalıdır.

Çaynik formalı tək qulplu, lüləkli saxsı qab. Qonur rəngli olub, narın qum qarışıq gillə yoğrularaq

keyfiyyətli hazırlanmışdır. Saxsı qab bir ədəd eninə qulpa və əks istiqamətdə bir ədəd lüləyə malikdir. Geniş ağızlı qabın ağız hissəsi daxilə meyllidir. Qabın yarı hissəsi sınmış, lüləyə tərəf olan hissəsi yanmaya məruz qalmışdır. Yanma nəticəsində qabın yarı hissəsinin həm daxili, həm də xarici hissəsi qaralmışdır.

Oxşar lüləkli qablar Qaraköbər küp qəbirlərində və Mingəçevirdə aşkar edilmişdir.

Yekun olaraq qeyd etmək istərdim ki, küp qəbirdə dəfn etmə adəti geniş bir ərazidə yayılmışdır. Azərbaycanın müxtəlif regionlarında küp qəbirlərindəki bir sıra lokal xüsusiyyətlərə baxmayaraq, bu adətin icrasında müəyyən bir qanuna uyğunluqların varlığı diqqəti cəlb edir.

М.М.Гусейнов

ОБ АРХЕОЛОГИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ, НАФТАЛАН-ГЕРАНБОЙСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2011 году проведены раскопки на территории Геранбойского района.

Исследования древнее поселение Гель йери, расположенное между селами Татарлы, Каргуджаг. Раскопки проводились также на курганах Кара Архадж №2, могиле №2 и кургане вблизи села Каргуджаг.

Во время раскопок на поселении Гель йери выявлены хозяйственные ямы, очажные места, остатки полуземлянок энеолитического периода и изделия из керамики, камня и кости энеолитического и позднебронзового периода.

Курган Кара Архадж №2 расположен на 150-200 м. восточное от кургана Кара Архадж №1. Подкурганная камера склепного типа. Из кургана выявлены 4 керамического сосудов, останки человеческих скелета и костей животных ранней бронзы.

В 2011 году в селе Каргуджак были исследованы курган и кувшинные погребения. На кургане раннего железа были выявлены два каменных ящика и кувшинное погребение античного периода.

Кувшинное погребение №2 расположенно на приусадебном участке, юго-восточной окраине села Каргуджаг. Скелет в кувшине был обнаружен на правом боку в скорченном положении. Вокруг кувшинного погребения были обнаружены 7 керамических сосудов различных объемов и форм.

M.M.Huseynov

ABOUT ARCHAEOLOGICAL RESEARCHES BY ARCHAEOLOGICAL EXPEDITION NAFTALAN-GORANBOY

SUMMARY

In 2011, archeological expedition Naphtalan-Goranboy carried excavations in Goranboy. Studies have been carried on the ancient village of Gel yeri, located between the villages Tatarli and Kargudzhag.

Excavations were also conducted on the mound Kara Arhadzh number 2, grave number 2 near the village Kargudzhag. During excavations in the settlement Gel yeri there were identified household pits, hearth room, the remains of huts of Eneolithic period and pottery, stone and bone belong to Late Eneolithic period.

Kurgan Kara Arhadzh number 2 is located at 150-200 m east of the mound Kara Arhadzh number 1. In the burial chamber of the mound were found 4 ceramic vessels of the Early Bronze Age, the remains of a human skeleton and bones of animals.

In 2011, in the village of Kargudzhak there were investigated a kurgan and pitcher burials. On the mound that belongs to early Iron Age were found two stone burial boxes and pitcher burial of antique period. Pitcher burials number 2 is in the plot, the south-eastern edge of the village Kargudzhag. The skeleton was found in a jar on the right side. Seven ceramic vessels of different volumes and shapes around pitcher burials were discovered.

SİRAB ƏTRAFINDA ARXEOLOJİ ARAŞDIRMALAR
(Naxçıvan MR, Babək rayonu)

V.B.Baxşəliyev



Babək rayonunun Sirab kəndi yaxınlığında 2010-cu ildə aparılan araşdırmalar zamanı eneolit, tunc, dəmir və orta əsr dövrünə aid xeyli maddi mədəniyyət nümunəsi aşkar olunmuşdur. Abidələrin bəzisində, xüsusilə Qaratəpə və Sürümçək yaşayış yerləri istisna olmaqla, digər abidələrdə mədəni təbəqə olduqca az yığılmışdır. Bu, yaşayış yerlərində həyatın mövsümi xarakterdə olduğunu göstərir. Aşkar olunan abidələrin bir qrupu eneolit dövrünə aiddir.

Eneolit dövrünə aid abidələrdən Sürümçək, Zirincli, Şorsu, Yumru Sürümçək, Qaratəpə, Çay ağzı, Taxçalı, Güney ağıl, At ağıl və digərlərini göstərmək olar. Bu abidələr arasında Zirincli yaşayış yeri xüsusilə diqqəti cəlb edir. Digər yaşayış yerlərində müxtəlif dövrlərə aid keramika nümunələri aşkar olunsa da, bu abidədə yalnız eneolit keramikasına rastlanmışdır. Araşdırmalar zamanı qırmızı və sarı rəngli saman qarışıq keramika nümunələri, tiyəşəkilli baltalar tökmək üçün qəlib, mis filizinin qalıqları aşkar olunmuşdur. Sirab abidələrindən aşkar olunan saman qarışıq, bəzən daraqvari alətlə naxışlanmış və samanüzlü keramika məmulatının paralelləri Azərbaycan və Yaxın Şərq abidələrindən mövcuddur. Bu abidələrdə daraqvari ornament yalnız bir neçə nümunə ilə təmsil olunmuşdur. Zirincli, Şorsu, Yumru Sürümçəkdən aşkar olunan keramika nümunələrində daraqvarı alətin izlərinə demək olar ki, rastlanmamışdır. Zirinclidən aşkar olunan bir kasanın bənzəri Tülintənin qədim nümunələri ilə oxşardır. Digər kasa və küpələrin bənzərləri Cənubi Qafqaz və Şərqi Anadolunun müxtəlif abidələrindən bəllidir.

Zirincli və Şorsu yaşayış yerlərində aşkar olunan keramika məmulatının bir qismi gövdəsində kiçik oval deşik açılan qablarla xarakterizə edilir. Onların hamısı saman qarışıq, qırmızı, ya da sarı rənglidir. Araşdırmalar Cənubi Qafqazın bu tip keramikasının bəzi tədqiqatçılar tərəfindən ***"Sioni keramikası"***, abidələrin isə ***"Late Sioni ware site"*** adlandırılmasının düzgün olmadığını göstərir. Naxçıvan abidələrindən aşkar olunan bu tip keramika texnoloji xüsusiyyətləri və qədimliyi ilə Sioni keramikasından fərqlənir. Gövdəsində, yaxud ağzının kənarında deşık açılan kasalar Keçilidə, Xələcdə, Ovçulartəpəsində, Böyük Kəsikdə, Azərbaycan və Cənubi Qafqaz digər abidələrində, Şərqi Anadoluda rastlanmışdır.

Sürümçəkdən aşkar olunan keramika məmulatının bir qismi, xüsusilə kasa tipli qablar boya bəzəməlidir. Naxışlar qəhvəyi rənglə qabların saxsısı üzərinə, bəzən isə cilasız qırmızı boya üzərindən çəkilmişdir.







Arxeoloji araşdırmalar Sirab ərazisində yayılan samanlı keramikanın Azərbaycan, xüsusilə Naxçıvan abidələri üçün xarakterik olduğunu göstərir. Sirab abidələrindən aşkar olunan boyalı keramika da Azərbaycan abidələri üçün xarakterikdir. Son illərədək Naxçıvan abidələrindən son eneolit dövrünə aid boyalı keramika məmulatı məlum deyildi. Lakin Ovçular Təpəsi və Xələcdə aparılan araşdırmalar zamanı boyalı keramıka məmulatı aşkar edilmişdir. Xələcdə bu tip keramika xüsusilə çoxluq təşkil edir. 1968-ci ildə İ.H.Nərimanovun I Kültəpə abidəsində apardığı kəşfiyyat xarakterli araşdırmalar zamanı Eneolit dövrünə aid qırmızı-qəhvəyi rənglə naxışlanmış boyalı keramika aşkar olunmuşdur. İ.H.Nərimanovun fikrinə görə, I Kültəpədən aşkar olunan qırmızı anqoblu keramika Şərqi Urmiya hövzəsi ilə əlaqələrin olduğunu təsdiq edir. Bizim apardığımız araşdırmalar zamanı Şərur rayon tarix-diyarşünaslıq muzeyində Şortəpə abidəsindən tapılmış boyalı bir kasa aşkar edilmişdir. Tədqiqatlar boyalı keramikanın Naxçıvanda kifayət qədər yayıldığını təsdiq edir. Bəlli oldugu kimi, qırmızı boyalı keramika Hacı Firuz yaşayış yeri üçün də xarakterik olmuşdur. S.Krollun fikrincə, neolit və eneolit dövründə Azərbaycanın özünəməxsus mədəni ənənələri olsa da, son eneolit dövrü Urmiya hövzəsinə Ubeyd ənənələrinin daxil olması ilə xarakterizə olunur. Qırmızı anqoblu boyalı keramika məmulatı İran Azərbaycanında Yanıqtəpə, Göytəpə, Kültəpə, Livar və digər abidələrdə də yayılmışdır. Aparılan araşdırmalar nəticəsində qırmızı anqoblu boyalı keramikanın Azərbaycan üçün xarakterik olduğu müəyyən olunmuşdur. Naxçıvandan aşkar olunan keramika məmulatının formaca Şərqi Anadolu abidələri ilə yaxın olmasına baxmayaraq, Naxçıvanda, Mil düzündə və Urmiya hövzəsində yayılan keramikanın özünəməxsus xüsusiyyətləri Naxçıvanın son eneolit keramikasının Urmiya hövzəsi və Şimali Mesopotamiya ilə bağlı olduğunu göstərir. B.Helvinqin fikrinə görə Şimali Ubeydin arealı Urmiya gölündən şimala yayılmamışdır. Lakin məlum olduğu kimi, Xalaf-Ubeyd tipli keramikanın Cənubi Qafqazda yayılmasını tədqiqatçılar Şimali Mesopotamiya ilə bağlayırlar. B.M.Masson bunu etnik miqrasiyanın nəticəsi hesab edir. S.A.Le Blank və P.J.Vatson Xalaf tipli keramikanın şimala və şimal-şərqə doğru yayıldığını da qeyd etmişlər. Son illər aparılan araşdırmalar Ubeyd keramikasının Naxçıvanda yayıldığını, lakin yerli ənənələrin aradan çıxmadığını təsdiq edir.

Sirabda erkən tunc dövrünə aid olduqca az material aşkar edilmişdir. Tapıntıların böyük qrupu orta tunc dövrünə aiddir. Aşkar olunan keramika məmulatının bir qisminin Boyalı qablar mədəniyyətinin erkən mərhələsinə aid olması olduqca diqqətçəkicidir. Bu tip qablarda boya birbaşa qabın boyanmamış, yaxud qırmızı rənglə boyanmış cilasız səthinə çəkilmişdir. XX əsrin 90-cı illərində aparılan araşdırmalar zamanı Naxçıvan ərazisində dağ qalalarının olduğu müəyyən edilmişdi. Son illər aparılan araşdırmalar zamanı Naxçıvanın dağlıq ərazisində yeni qalatipli yaşayış yerləri, o cümlədən Göynük qalası, II Bəzəkli qalası və digərlərinin qeydə alınması dağ qalalarının Naxçıvan üçün xarakterik olduğunu göstərir. Sirab ərazisindəki Sürümçək, Sırran ağıl və Qurddağ qalaları şübhəsiz ki, bu dövrün müdafiə istehkamlarından olmuşdur.







Orta tunc dövrünə aid keramika məmulatının bir qismi qara rəngdə bişirilmiş cizma və basma naxışlı qablardan ibarətdir. Onların hamısı forma verməyən parçalardan ibarətdir. Onlar bir qismi ziqzaqşəkilli cızma ornamentlə naxışlanmışdır. Qahabçay hövzəsindən aşkar olunan parçaların biri cızma xətlərlə, digəri isə basma ornamentlə naxışlanmışdır. Bu tip keramika məmulatı orta tunc dövrünün erkən mərhələsi üçün xarakterik hesab edilir.

Sirab ətrafında, həmçinin dəmir dövrünə və orta əsrlərə aid xeyli abidə qeydə alınmışdır.

Sirab ərazisində aparılan araşdırmalar burada qədim dövrlərdən başlayaraq insanların məskunlaşdığını göstərir. Ərazinin bol otlaqları, gursulu çayları, həmçinin bu ərazinin təbii mağaralar və qayaaltı sığınacaqlarla zəngin olması qədim insanların burada məskən salması üçün şərait yaratmışdır. Araşdırmalar zamanı yaşayış yerlərindən xeyli obsidian qəlpələrinin və nukleusların aşkar olunması, hətta Qahabçay hövzəsində misin mineralları olan malaxit və azuritə rastlanması qədim insanların xammal ehtiyatları ilə tanış olduqlarını göstərir. Şübhəsiz ki, xammal əldə etmək istəyi də insanların geniş əraziyə yayılmasında müəyyən rol oynamışdır.




1
2
3
4
5
0 2 4 6 8
6
0 1 2 3 4


1
2
3
4
5
6
7
8
9
10
11
12
13
14
15
16
0 2 4 6 8

В.Б.Бахшалиев

АРХЕОЛОГИЧЕСКИЕ ИЗЫСКАНИЯ В ОКРЕСТНОСТИ СИРАБ

РЕЗЮМЕ

Во время исследования вблизи села Сираб Бабекского района в 2010 году были выявлены памятники различных периодов истории, в том числе многочисленные материально-культурные образцы эпохи энеолита, бронзы, железного века и средневековья. Среди них привлекает внимание Сюрумчек, Зиринджли, Шорсу и Юмру Сюрумчек, Чай агзы и другие. Керамические изделия, обнаруженные в памятниках Сираба, с примесью мякины и хорошо известны из памятников Нахчывана. Миски, краю венчика которой просверлены маленькие отверстия, известны из поселений Зиринджли и Шорсу. Они представлены красноглиняными изделиями. Исследования показывают, что определение подобной керамики Южного Кавказа под названием «Сиони» было неверным. Некоторые керамические изделия из поселения Сюрумчек, особенно миски, расписаны. Орнаменты черного или коричневого цветов нанесен прямо на нелощеную поверхность сосудов, иногда поверх матовой красной краски.

Археологические исследования Сирабских памятников выявили, что керамические изделия этого региона характерны для памятников Нахчывана и Азербайджана. Расписная керамика того периода из Сирабских памятников характерна также для памятников Азербайджана. До последних лет позднеэнеолитическая керамика на территории Нахчывана была малочисленной. Однако, раскопки в Овчулартепеси и Халадж также обнаружили расписную керамику. Подобная керамика особенно распространена в поселении Халадж. В 1968 году И.Г.Нариманов во время разведывательных работ в Кюльтепе I обнаружил расписные сосуды красно-коричневого цвета. По мнению И.Г.Нариманова, красноангобированная расписная керамика, обнаруженная в Кюльтепе I утверждает существование связей с памятниками бассейна Восточной Урмии. Нашими исследованиями в Шарурском историко-краеведческом музее представлена расписная миска, найденная в поселения Шортепе. Исследования показывают, что расписная керамика энеолитического периода была широко распространена на территории Нахчывана. Как известно, подобная керамика характерна также для поселения Хаджи-Фируз. По мнению С.Кролла, несмотря на то, что в эпоху неолита и энеолита Азербайджан имел свои особенные культурные традиции, в позднем энеолите Урмийский бассейн характеризуется вхождением сюда Убейдских традиций. Красноангобированная расписная керамика обнаружена в таких памятниках Иранского Азербайджана, как Яныгтепе, Геойтепе, Кюльтепе, Ливар и в других. Исследования показывают, что красноангобированная расписная керамика характерна для памятников Азербайджана. Несмотря на то, что керамика Нахчывана по форме аналогична керамике памятников Восточной Анатолии, однако, особенности керамики Нахчывана, Мильской степи и бассейне Урмии показывают, что позднеэнеолитическая керамика Нахчывана связана с Северной Месопотамией и Приурмийским бассейном. По мнению B.Helwing, ареал Северного Убейда не распространялся далее севера озера Урмия. Однако, как известно, распространение керамики Халаф-Убейдского типа на Южном Кавказе исследователи связывают с Северной Месопотамией. В.М.Массон связывают это с результатами этнической миграции. S.A.Le Blanc and P.J.Watson также высказывали, что Халафская керамика распространена на север и северо-восток. Исследования последних лет показывают, что Убейдская керамика была распространена на территории Нахчывана, однако развивались также местные традиции.

Среднебронзовая керамика является самым массовым материалом памятников села Сираб. Подобная керамика характерна для среднебронзового периода Нахчывана.

Были обнаружены также памятники эпохи Железного века и средневековья.

Исследования памятников в окрестностях Сираб показывают, что эта территория была заселена с древнейших времен. Богатые пищевые ресурсы воды, а также присутствие многочисленных подскальных убежищ и пещер создали благоприятные условия для заселения древнего человека. Нахождение во время исследований многочисленных осколков обсидиана, обсидиановых нуклеусов, а также таких минералов меди как халкозин и азурит показывают, что древние люди хорошо знали окружающую среду. Вероятно, освоение природных ресурсов способствовало расселению людей на большой территории.

V.B.Bakhshaliyev

ARCHAEOLOGICAL SURVEY IN VICINITY OF SIRAB

SUMMARY

During research in 2010 near the village Sirab in the Babek region including material culture from the Chalcolithic Age, the Bronze Age, the Iron Age and the Middle Age have been discovered. Among them the attention draws of Sürümçek, Zirincli, Şorsu and Yumru Sürümçek, Çay ağzı and others. The pottery which has been found in Sirab, with the chaff tempered and chaff faced are well-known from Nakhchivan monuments. The bowl on the top of which rim little apertures are drilled are known from settlements Zirincli and Şorsu. They are presented by red products. Researches show that delivery of similar ceramics of Southern Caucasus under the name "Sioni" was wrong. Some pottery from the Sürümçek, especially bowls are painted. The decoration comes from black or brown paint applied directly to the unburnished surface of the vessels, sometimes over a dull red paint.

Archaeolgical research in Sirab shows that the chaff-faced pottery of this region is characteristic of the monuments of Nakhchivan and Azerbaijan. The painted ceramics of this period from Sirab sites is also characteristic for the monuments of Azerbaijan. Until recently, late Chalcolithic pottery in the territory of Nakhchivan was a very little known. However excavations in Ovçulartepesi also discovered painted ceramics. Similar ceramics are especially common in the settlement Xalac. In 1968 I.G.Narimanov during the survey in Kültepe I found vessels with red-brown paint. According to I.G.Narimanov the red-slipped painted ceramics which have been found out in Kültepe I confirm the existence of contact with the monuments of East Urmia. A similar painted bowl from Şortepe is now in the Sharur historical and ethnographical museum. Research shows that painted ceramics from the Chalcolithic period were widespread in Nakhchivan. Similar ceramics were characteristic also for the settlement of Haji-Firuz. According to S.Kroll this is true in spite of the fact that during the epoch of Neolithic and Chalcolithic, Azerbaijan had especial special local cultural traditions, however in the Late Chalcolithic the Urmia basin is characterised by Ubaid traditions. The red-slipped painted ceramics are found in monuments in Iranian Azerbaijan like Yanıctepe, Göytepe, Kültepe, Livar and others. Research show that the red-slipped painted pottery is characteristic for of Azerbaijan. In spite of the similarities between pottery from Nakhchivan and from Eastern Anatolia, however the presence of certain ceramics in Nakhchivan, Mil steppe and of Urmia basin shows, that the Late Chalcolithic ceramics of Nakhchivan are most connected to Northern Mesopotamia and the Urmiya basin. According to B.Helwing the Northern Ubaid did not spread north of Lake Urmia. However other researchers connect the spread of ceramics of Halaf-Ubaid type in Southern Caucasus, with Northern Mesopotamia. Some researchers connect it with ethnic migration. Researchers also have stated that Halaf ceramics spread to the north and the northeast. Research during recent years show that Ubaid ceramics did spread to Nakhchivan, however the local traditions also developed.

The Middle Bronze Age ceramics represent the most common material found in the Sirab region. Similar ceramics are characteristic of the Middle Bronze Age of Nakhchivan generally. New mountain fortresses also have been found.

Iron Age and Middle Ages monuments have been also found.

Research of monuments in the vicinity of Sirab show that this territory has been populated from an early period. The rich natural forage, abundant water, and presence of numerous rocky ledges and caves created a favorable condition for settlement. Finds of numerous splinters of obsidian, queen cell of obsidians and also such minerals of copper, chalcozin and azurite during the survey show that the ancient people knew the environment well and used its mineral. Probably, desire to reach raw materials encouraged the settlement of this area.

I MAXTA QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Naxçıvan MR, Şərur rayonu)

S.H.Aşurov, V.B.Baxşəliyev, S.A.Hüseynova, F.A.Əliyeva

I Maxta ilk tunc dövrü yaşayış yeri Şərur rayonunda, eyni adlı kəndin qərb qurtaracağında, Araz çayının 2 km-də, 390.35/.23,61// C; 440.56/.21,95// B koordinatlarında, dəniz səviyyəsindən 803 metr yüksəklikdə yerləşir.

2011-ci ildə qazıntılar əvvəlki illərdə tədqiqatlarına başlanılmış kvadratlarda – 300 kv.m. sahədə davam etdirilmişdir. 1-4 kvadratlarda ibadətgah adlandırılan dairəvi tikilinin daxili təmizlənmiş, küllü torpaqdan ibarət bu hissədən, əsasən yanmış heyvan sümükləri tapılmışdır. Keramika məmulatı azlıq təşkil edir. İbadətgahın ortasında qövsvari divarın olduğu izlənilir. Divarın bir tərəfi ibadətgahın divarının altına doğru uzanır. Çox güman ki, bu divar ibadətgahdan əvvəl mövcud olmuş başqa bir dairəvi tikilinin qalığıdır. Bu kvadratdakı bir kərpic enində qurulmuş düz divar da aşağı laylara doğru davam edir. Şərq tərəfdə 5 cərgə hündürlüyündə kərpiclər izlənilsə də, qərbdə dağıdıldığından onun davamını müəyyən etmək mümkün olmamışdır. Hazırda divarın müəyyən edilmiş uzunluğu 5 m-dir.

5-ci kvadratda əvvəlki ildə açılmış metaləritmə sobasının kənarları təmizləndi. Sobanın cənub-şərqə tərəf uzanan körük hissəsi tam açıldı. Körük hissənin kənarlarında kiçik bir sahədə kərpic düzümləri aydın seçilir. Sobadan şimala doğru olan başqa bir dairəvi tikilinin alt qatlarda davam etmədiyi məlum oldu. Bu kvadratda sobadan şərqə tərəf olan hissədə heç bir tikili qalığı izlənilmir. Halbuki, digər kvadratlarda tikililər çox sıx izlənilir. Sobadan qərbdə ötən il açılmış dördkünc tikilinin daxili təmizləndi. Bu hissədə yanmış kül təbəqəsi 50 sm-dən çox davam edir. Divarın qərbində ona paralel digər divar təmizləndi. Bu divarın cənub tərəfi nisbətən alt qatlara, cənub tərəfdəki səki tipli kərpic qurğunun altına doğru uzanır. Üst qatlarda bu kvadratda bir neçə iri həcmli daş və hörgü izlənsə də, alt qatlara doğru daş tikililərə rast gəlinmir.

6-cı kvadratda qazıntılar davam edərkən dairəvi və dördkünc bir neçə tikinti qalığı aşkar edilmişdir. Tikililərin hamısı çiy kərpic və möhrə ilə qurulmuşdur. Kərpiclər əsas divarlarda daha iri həcmlidirlər. Arakəsmələrdə və yardımçı tikililərdə onlar nisbətən kiçik ölçülərə malikdirlər. Bəzən isə arakəsmələr birbaşa möhrə ilə qurulmuşdur. Bir neçə yerdə kiçik və iri daşlara rast gəlinir. Lakin bunlar tikili qalıqları deyil. Maraqlıdır ki, I Maxta abidəsində indiyədək tədqiq olunmuş heç bir tikinti qalığında daşlardan istifadə olunmamışdır. Fikrimizcə, bu bilavasitə I Maxta sakinlərinin təsərrüfatının əsasını oturaq əkinçiliyin təşkil etməsi ilə bağlı olmuşdur. Yaşayış yerinin üst təbəqələrində tam dördkünc və dairəvi binalar təmizlənmişdir. Lakin alt təbəqədə dairəvi tikililər çoxluq təşkil edir. Bəzən dairəvi tikililərə yardımçı dördkünc tikililər əlavə olunmuşdur. Arxeoloji materialların çoxu məhz bu yardımçı binaların daxilindən əldə edilir. Həm də bu zaman əldə edilən keramika məmulatı daha iri həcmli qabların hissələrindən ibarətdir. Lakin dördkünc və dairəvi tikililərin, başqa sözlə, əsas evlərin daxilindən adətən kiçik həcmli saxsı hissələri və bəzən də miniatür qablar əldə edilir.

Dördkünc evlər adətən bir-birindən ayrı inşa olunmuşdur. Onların aralarında bəzən arakəsmələrə rast gəlinməsinə baxmayaraq, kənarlarına birləşik əlavə tikililər yoxdur. Dairəvi tikililərdə isə əksinədir. Onların daxillərində arakəsmələrə rast gəlinmir. Bu tip evlərdə daha çox kənarlarında ona birləşik şəkildə qurulmuş kiçik ölçülü, dördkünc otaqlara rast gəlinir. Yardımçı otaqların hər birinin öz funksiyası olmuşdur. Onların daxilindən əldə edilmiş arxeoloji materialların müxtəlifliyi də bunu sübut edir. I Maxtanın dairəvi və düzbucaqlı tikililəri, yalnız funksional xüsusiyyətlərinə görə bir-birindən seçilmişlər.










6-cı kvadratda dairəvi tikiliyə bitişik kiçik dördkünc tikili qalığı təmizlənmişdir. Bu tip tikililərə I Maxtada tez-tez rast gəlinir. Daha maraqlısı isə bu tikilinin daxilində iri həcmli, yastı, iki hissəyə ayrılmış daşın tapılmasıdır. Daşın bir parçasının üzərində hər iki tərəfindən istifadə edilməklə çəpinə deşik açılmışdır. Kiçik bir tikilinin daxilindən tapılmış bu daşın hansı məqsəd daşıdığını hələlik söyləmək çətindir. Ancaq bu tip daşlara Ovçulartəpəsində də rast gəlinir. Daşın ətrafı təmizlənərkən oradan gil heyvan fiquru da tapıldı.



2011-ci tədqiqat ilində bir neçə kəsici alət aşkar edilmişdir. Onların hamısı oraq dişidir. Çaxmaq daşından hazırlanmışdır. Hər iki üzü işlənmişdir. Boz-qonur rəngdədir. Uzunluqları 7 sm-dək, enləri isə 2,5 sm-ə qədərdirlər.

I Maxtanın daş alətləri əsasən dən daşları, sürtgəclər, həvəng və dəstələrdən ibarətdirlər. Lakin 2011-ci il tədqiqatları zamanı onların yalnız kiçik hissələri tapılmışdır. Buradan bir sıra kiçik daş alətlər də tapılır ki, onların təyinatını müəyyən etmək mümkün deyildir.

Tapılmış bir ədəd tuf daşı qonur–qırmızı rəngdədir. Çox yüngüldür və hər tərəfində işlənmə izləri vardır. Üzərində şaquli deşik açılmışdır. Hər iki üzü yastıdır. Hansı məqsədlə istifadə olunduğunu söyləmək çətindir. Bir ədəd əqiq muncuq əldə edilmişdir. Qırmızı-qonur rəngli, kiçik ölçülü, dairəvi formalıdır. Üzərində deşik açılmışdır.

I Maxtanın sümük alətləri tapıntıların xüsusi qrupunu təşkil edirlər. Onların əksəriyyəti bizlərdir və çoxunun uc hissəsi sınmışdır. Az bir qismi kiçik ölçülü olsalar da, əksəriyyəti nisbətən böyükdürlər. Uzun müddət işləndiklərindən, hər tərəfdən yaxşı cilalanmışlar. Sümük alətlər qazıntı zamanı bütün kvadratlardan əldə olunur və saylarına görə Naxçıvanın digər abidələrindən fərqlənir.

Bu ilki qazıntılar zamanı I Maxtadan çoxsaylı saxsı qab hissələri, gil qadın və heyvan fiqurları aşkar edilmişdir.

Saxsı məmulatını forma müxtəlifliklərinə görə 3 qrupa ayırmaq olar:

1. Məişət və təsərrüfat keramikası.
2. Gil antropomorf və zoomorf fiqurlar.
3. Ocaq qurğuları.

I Maxtanın keramika məmulatı içərisində tez-tez rast gəlinən təsərrüfat küpləri qum və parçalanmış daş qatışıqlı gildən hazırlanmışdır. Əksəriyyəti qalın divarlı olduqlarından zəif bişirilmişdir və buna görə də qara zolaq aydın hiss olunur. Bəzilərinin xarici səthi qara boyanıb və yaxşı cilalanıb. Onların boğazları daxildən müxtəlif rəngli boyalarla rənglənmişdir.

Dar boğazlı küplərin boğazları hündür və silindrikdir. Nisbətən geniş boğazlı küplərə də rast gəlinir. Bəzən boğazla gövdənin birləşdiyi hissəni nazik cızma və ya basma xətt haşiyələyir.

I Maxtanın təsərrüfat küpləri ölçülərinin böyüklüyünə görə diqqəti cəlb edir. Bəzən ağız kənarının diametri 50-sm-dən artıq olan küplərə rast gəlinir. Fikrimizcə bu fakt bir daha I Maxta sakinlərinin oturaq həyat tərzi keçirdiyini sübut edir.

I Maxtada sayca daha çox əldə edilən saxsı məmulatı küpələrdir. Bu tip qabların hamısının hazırlanmasında eyni texnikadan – sadə bad üsulundan istifadə edilmişdir. Bir qisminin üzərinə qara, qonur, boz rəngli anqob çəkilərək cilalanmışdır. Bəzən oturacaqları dabanlı və ya daxilə batıq küpələrə rast gəlinir. Onların hamısının yarımşar formalı qulpları vardır.

Küpələrin bəzilərinin gövdə və boğaz hissələrini bir-birindən basma xətt ayırır, başqa bir qrupunun isə ağız səthi və boğazı daxildən daraqvari alətlə işlənmişdir.

Yalnız boğaz tərəfdə kiçik bir hissəsi sınmış küpənin ağız ilə gövdə hissəsini yarımşar formalı qulp birləşdirir. Gövdə hissə xaricdən qara rəngdədir, boğaz hissəsi və daxili isə qonur rəngdədir. Gövdə hissəsində 5 yerdə dairəvi batıq şəklində naxışları vardır. Batıqlar qulpun aşağısında bir-birinə yaxın məsafədədir. Digərləri nisbətən aralı vurulmuşdur. Yarımşar formalı qulpun yuxarı hissəsində də bir ədəd kiçik basma naxış vardır.

I Maxtanın keramika məmulatı Kür-Araz mədəniyyətinin səciyyəvi xüsusiyyətlərindən biri sayılan klassik qara cilalı keramika məmulatı ilə yanaşı qonur, boz, qırmızımtıl rəngli qabların hissələrindən ibarətdir. Az bir qism saxsı məmulatının hazırlanması zamanı gilin tərkibinə parçalanmış daş qalıqları qatılmışdır. Bu tərkibli keramika məmulatı Naxçıvanın son eneolitdən ilk tunc dövrünə keçid mərhələsində rast gəlinir.

Saxsı qabların üzərində ənənəvi yarımşar formalı qulplara tez-tez rast gəlinir. Eyni zamanda yarımşar formalı qulpların müxtəlif çeşidləri əldə olunmuşdur. Bəzən çox kiçik, əldə hazırlanmış, qeyri simmetrik miniatür qablar əldə olunur. Bunlar sanki uşaq oyuncaqlarını xatırladır.

Bir ədəd kiçik miniatür qab hissəsi qırmızı - qonur rəngdədir. Ağız kənarına yaxın hissədə kiçik dairəvi çıxıntı vardır. Çıxıntının üzərində şaquli istiqamətdə deşik açılmışdır.

Yaşayış yerinin ən geniş istifadə olunan saxsı məmulatı içərisində çölməklər xüsusi yer tutur. Yemək hazırlamaq üçün istifadə olunan çölməklərin gövdəsinin aşağı hissəsi əlavə suvanmışdır. Çölməklərin hamısının oturacağı yastı və hamardır. Onların ağız kənarları ilə boğazın aşağısını yarımşar formalı qulplar birləşdirir. Çölməklərin üzərində rast gəlinən his qatı onlardan mətbəx qabları kimi istifadə edildiyini göstərir.

I Maxtanın mətbəx qablarının başqa bir qrupunu qazanlar təşkil edirlər. Onlar sayca azdır. Uzun müddət ocağın üzərində qaldıqlarına görə qaralmışlar. Qazanların oturacaqları yastı və geniş, gövdələri azca qabarıq, boğazları nisbətən dardır. Ağız kənarları düz olan qazanların, adətən, bir-birinin əksində olan iki ədəd qulpu vardır.












I Maxtanın keramika məmulatı sırasında çoxluq təşkil edən kasaların oturacaqları yastı və geniş olub yanları yuxarıya doğru genişlənir. Onların bəzilərinin ağız kənarlarında üçbucaq formalı çıxıntıları vardır. Bu çıxıntıların üzərində şaquli deşiklər açılmışdır ki, bu adət orta və son tunc dövrü dulusçuluq sənətində davam edir.

İkinci qrup kasalar gövdələrinin quruluşuna görə seçilirlər. Onların gövdələri əsasən, şarşəkillidirlər. Bu tip kasaların hamısının ağız kənarı xaricə doğru qatlanır. Boğaz hissələri daxildən müxtəlif rənglərlə boyanıb.

Naxçıvanın ilk tunc dövrü abidələrinin hamısında olduğu kimi, I Maxtada da saxsı məmulatı içərisində müxtəlif forma və ölçülü qapaqlar böyük əksəriyyət təşkil edirlər. Onların hamısının gilinin tərkibində bu dövrün qablarında olduğu kimi, qum qatışığı vardır. Qapaqlar sarı, boz, qonur, qara, qırmızı rəngli olub, bəzilərinin səthi parıldayanadək cilalanmışdır. Onların əksəriyyəti diskşəkilli olub, aşağı hissələri hamardır. Üst hissəsi mərkəzə doğru pilləli konsentrik dairələrdən ibarətdir. Əksəriyyətinin üst tərəflərində, dairəvi çökək hissədə yarımşar formalı qulpları vardır.

Badya tipli qablar daxildən daha yaxşı cilalanmışlar. Adətən badya tipli qabların ağız kənarları daxilə doğru daralan formada olur. Bu onların tutulmasını asanlaşdırmaq məqsədi ilə edilmişdir.

Maxta yaşayış yerində rast gəlinən tava tipləri ilk tunc dövründən sonra məişətdən çıxmamış və onlardan uzun müddət istifadə edilmişdir.



I Maxtadan əldə olunmuş təkər modelləri narın qum qatışıqlı gildən yoğrulmuş, rəngləri boz, qonur və qaradır. Onların hamısının top hissəsi hər iki tərəfə doğru qabarıqdır. Top hissələrində üfüqi deşik açılmışdır. Bir təkər modeli ölçülərinə görə diqqəti cəlb edir. Onun diametri 11 sm-dir. Bu araba təkəri modeli indiyədək Naxçıvandan məlum olan ən geniş diametrli modeldir.

Dövrün gil qabları zaman keçdikcə yeni əlamətlər qəbul etmələrinə baxmayaraq, araba təkərii modellərinin formaları dəyişməz qalmışdır. Bu bir daha sübut edir ki, e.ə. IV minilliyin əvvəllərindən insanların təsərrüfat həyatına daxil olmuş araba uzun müddət dəyişməz qalmışdır.

I Maxta yaşayış yerinin naxışlı keramika məmulatı diqqəti cəlb edir. Naxışlar daraqlama, cızma, basma və konnelyur üsullarla işlənilmiş və müxtəlif həndəsi fiqurlardan ibarətdirlər. Qabların bəzilərinin boğaz hissəsi cızma, gövdəsi isə basma üsulu ilə naxışlanmışdır.

I Maxtadan əldə edilmiş ocaq qurğuları xüsusi əhəmiyyət kəsb edir. Ümumiyyətlə, erkən tunc dövründə ocaq qurğularının müxtəlif formaları geniş yayılmışdır və onlar Kür–Araz mədəniyyətini səciyyələndirən xüsusiyyətlərdən biri sayılır.

I Maxta qədim yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı əldə edilən ocaq qurğuları, dairəvi manqal formalı ocaq qurğuları və nalşəkilli ocaq qurğularından ibarətdir. Böyük ölçülü manqallardan fərqli olaraq, kiçik ölçülü manqallara daha tez-tez rast gəlinir. I Maxtada kiçik ölçülü dairəvi manqal formalı ocaq qurğusu evlərin içərisindən tapılır. Bu tip ocaq qurğuları evin döşəməsində qazılmış çalada qurulduğundan, torpağa basdırılmış xarici səthi kobud olur. 2011-ci ildə 6-cı kvadratda təmizlənmiş dairəvi evin mərkəzində məhz bu tip manqal aşkar edilmişdir. Maraqlıdır ki, manqal tipli ocaqlar yalnız dairəvi tikililərin daxilindən tapılır. Dördkünc tikililərdə isə bu tip manqallara rast gəlinmir. Manqallardan otaqların qızdırılması üçün istifadə olunmuşdur.





I Maxta yaşayış yerindən əldə olunmuş digər ocaq qurğuları nalşəkillidir. Bu tip qurğuların digər abidələrdən əldə edilən klassik formaları ilə yanaşı, eyni zamanda tam fərqli xüsusiyyətlərə malik olanlara da rast gəlinir. Əldə edilən ocaq qurğularının orta çıxıntıları müxtəlif formalıdır. Bu çıxıntılar dördbucaqlı, konusvari, slindirik və ya antropomorf formada düzəldilmişdir.

Antropomorf fiqurlardan biri silindrik formadadır. Yuxarı tərəfində çıxıntısı vardır, insan fiquruna bənzəyir.

2011-ci il qazıntıları zamanı əldə edilən fiqurlardan biri öküz formasındadır boğaz və arxa hissəsində deşik vardır. Başqa bir öküz fiquru sarımtıl ağ rəngdədir. Şişvari buynuzu vardır, biri sınmışdır. Boğaz hissəsində deşik açılmışdır. Qoç formasında olan, kiçik ölçülü gil fiqur boz rəngdədir. Burun və buynuz hissələri, həmçinin arxa ayaqlarının yarısı sınmışdır. Boğaz hissəsindən deşik açılmışdır.

I Maxtada son illər aparılmış kompleks tədqiqatlar həmdövr abidələrin tarixləndirilməsinə yenidən baxmağa imkan vermişdir. I Maxta yaşayış yerinin keramika məmulatı içərisində yalançı qulplara, üçbucaq formalı çıxıntılara tez-tez rast gəlinir ki, onların birbaşa analoqları Baba-Dərviş, Şərqi Anadolunun Karaz, Zülfübuaq və Çaldıran düzü abidələrindən və Göytəpədən məlumdur. Göytəpənin məhz deşiksiz qulplar tapılmış K3 təbəqəsindən götürülmüş kömür analizi e.ə. 2574-146 il (R-199) tarixini göstərir. I Maxtanın isə üst təbəqələrindən götürülmüş kömürün analizi e.ə. 3316-2931 illəri göstərmişdir. Maraqlıdır ki, II Kültəpənin aşağı təbəqələrindən alınmış analizlərin nəticələri də eyni tarixi göstərir. I Maxtada analizlərin mədəni təbəqənin yalnız üst, 2 m-lik təbəqəsindən alındığını və bundan aşağıda ən azından 3 m-lik bir təbəqənin mövcudluğunu nəzərə alsaq, abidə də Kür-Araz mədəniyyətinin e.ə. IV minilliyin əvvəllərindən formalaşdığını söyləmək mümkündür.

С.Х.Ашуров, В.Б.Бахшалиев,
С.А.Гусейнова,Ф.А.Алиева

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА ДРЕВНЕМ ПОСЕЛЕНИИ МАХТА I

РЕЗЮМЕ

Поселение Махта I расположено в Шарурском районе, на западной окраине одноименного села, в 2-х километрах от реки Аракс, в координатах 390.35 /.23,61// С; 440.56/.21,95// В, на высоте 803 метров над уровнем моря.

В 2011 году были продолжены раскопки на площади в 300 кв.м. В квадратах 1-4 расчищено круглое строение, напоминающее молельню. В центре молельни обнаружены следы дугообразной стены. Одна часть стены уходит под стену и, вероятно, эта стена является стеной другого, более раннего круглого строения.

В 5-м квадрате были расчищены края металлоплавильной печи, открытой в прошлом году. Выяснено, что другое круглое строение, находящееся к северу от печи, не продолжается в нижних слоях.

При раскопках 6-го квадрата обнаружены остатки нескольких круглых и четырехугольных строений. Все строения возведены из сырого кирпича и глинобита. Интересно, что ни в одном из остатков строений, исследованных на памятнике Махта I, не использованы камни. По нашему мнению, это связано, с тем, что основу хозяйства в Махта I непосредственно составляло оседлое земледелие.

В 6-м квадрате были расчищены остатки маленькой четырехугольной постройки, примыкающей к круглому строению. Такой тип построек часто встречается на Махта I. Внутри постройки найден плоский камень крупного размера, разделенный на две части. На одном осколке камня с обеих сторон сделаны наклонные отверстия.

Хозяйственные кувшины, часто встречающиеся среди керамических изделий, изготовлены из глины с добавлением песка и дробленого камня. Горловины сосудов изнутри окрашены разными красками.

Наиболее часто встречающиеся керамические изделия из Махта I представлены кувшинами. При изготовлении сосудов этого типа использована единая техника – ленточный способ. Основу и часть горловин некоторых кувшинов разделяет штампованная линия, а поверхность горловин другой группы изнутри обработана гребневидным инструментом.

Керамические изделия Махта I, наряду с частями сосудов каштанового, серого, красноватого цветов, представлены классическими чернолощеными керамическими изделиями, характерными для Куро-Аракской культуры. В составе глины небольшой части керамических изделий имеются фрагментированные остатки камня. Керамические изделия такого состава в Нахчыване встречаются на переходном этапе от позднего энеолита к ранней бронзе.

Поддоны кувшинов, составляющих большинство в ряду керамических изделий I Махта – плоские и широкие, с расширяющимися краями. По краям горловин некоторых из них имеются выступы треугольной формы. На поверхности выступов имеются вертикальные отверстия. Эта традиция продолжалась в искусстве керамики среднего и позднего бронзового периодов.

Выявленные в Махта I модели колес серого, каштанового и черного цветов, изготовлены из смешанной глины. Одно такое изделие диаметром 11 см. привлекает внимание своими размерами. Такая модель колеса повозки является самой распространенной в Нахчыване.

Привлекает внимание керамическое изделие с Махта I, украшенное геометрическими фигурами, полученными вдавливанием и коннелюрами.

Очажные сооружения с поселения Махта I представлены круглыми мангалами. Круглые мангалы малых размеров в Махта I для обогрева помещений обнаружены внутри домов, выкопанными в землю. Интересно, что мангалы обнаружены только внутри круглых строений.

Другие очажные сооружения, обнаруженные на поселении Махта I, подковообразные. Наряду с классическими формами этого типа встречаются и полностью отличающиеся.

Одна из фигур, выявленная во время раскопок 2011 года, изготовлена в форме быка. Фигура меньшего размера серого цвета имеет форму овцы.

Проведенные в последние годы в Махта I комплексные исследования позволили пересмотреть датировку памятников того периода. Ручки керамических изделий заменены выступами треугольной формы. Их аналоги известны из Баба-Дервиша, из памятников Караз, Зюлфюбулак, Чалдыран в Восточной Анатолии и из Гёктепе. Анализ угля, взятого из верхних слоев Махта I, указывает на 3316-2931 гг. до н.э. Если принять во внимание то, что анализы были получены только из верхнего, двухметрового слоя и, что под этим слоем существует еще как минимум один трехметровый слой, то, можно предположить, что Куро-Аракская культура на памятнике сформировалась с начала IV тысячелетия до н.э.

S.H.Ashurov. V.B.Bahshaliyev
S.H.Huseynova, F.A.Aliyeva

ARCHAEOLOGICAL INVESTIGATIONS IN I MAKHTA ANCIENT SETTLEMENT

SUMMARY

The First Makhta Early Bronze Age Living Place is situated in Sharur district in the west end of the same named village, 2 km in the Aras river 390.35// C; 440.56/21,95// in B coordinates 803 km from the sea level. The excavations continued till in the 300 kv. m square area which had begun in 2011 years. The place which named temple had cleaned circular building in 1-4 squares. There is following arch typical wall in the middle of temple. One side of wall is stretches to the under temple's wall and it suppose that this wall is a remainder of other circular buildings which has been before temple. Melting metal stove's edge has cleaned in previous year in the fifth square. Has known that circular building which is from stove to the North side hasn't continued in the lower layers. When excavations continued it is find out some circular and four-cornered building remains in the 6 square layer . All of buildings have structured with air brick and stamp. It is interesting that there is not used of stone none of building remains which investigated still in the First Makhta monument. In our opinion it is related to basic of sedentary tillage in the people of I Makhta

There is cleaned little four-cornered building remains in the sixth layer which is joint to circular building in the sixth layer. Like this type buildings are often meet in the I Makhta. More interesting is that is founding of stone big capacious, flat, broken to two parts inside of this building. On the one part of stone with using both of parts made slanting hole Pitchers of economy are made of stone mixed, sand with clay which are meet inside of I Makhta's ceramics product their throats has been dyed with multicolor paints from interior. Faience product jugs in number more got in the I Makhta.

Preparing all types this dishes have been used of the same technique-basic lent manner. The push line is separating some of jugs throat and body part from one by one, other group's mouth surface and throat have been used with comb typical tool from inside.

I Makhta's ceramic product which is counting as Kuro Araxes culture's typical specialty is consists of parts of brown, grey, reddish color of dishes, adjoining classic black lustrous ceramic products. At time the little part of preparing faience products there have been added remainders stone which broken to peaces to clay's composition. As this composition ceramic product meets in the passage step from the Last Eneolit to the Early Bronze Age in Nakhcivan.

The majority in the row of ceramic products of I Makhta bowl's seats are wide and flat and edges expands to the top. In the edge of mouth some of them have triangle formed protuberance. On the these protuberance there are opening vertical holes that this tradition is continued in the pottery art in the Middle and Last Bronze Age.

Wheel models got from I Makhta are kneaded of fine sand mixture clay, colors are grey, brown and black. One wheel model is attracting for measure. It's diameter is 11 cm. This car wheel model is the most wide diameter model which known still from Nakhchivan. The I Makhta's living place's patterned ceramic product is attracting. The patterns used with comb, draw, push and connelyur manners and consist of various geometrical figures.

During archaeological excavations in I Makhta antique place getting devices of hearth are consist of round shaped brazier devices of hearth and horseshoe illustrated devices of hearth. Devices of hearth which have round shaped brazier, little measure founding from home's inside of I Makhta. This type devices of hearth which are plant to land have rough outer surface, because of devising hole which has digger in home's floor. It is interesting that brazier typical dishes finding in inside of round buildings. But in four-cornered buildings there is not meet as this type braziers. Braziers had used for heating of rooms.

The devices of heating which got from I Makhta living place have horseshoe illustration. Adjoining this type devices classic forms got from other monuments at the same time it meets having quite different properties.

One of figure got during excavation in 2011 year has bull form, there is hole in its throat and back part. Ram formed clay figure which has little measure is grey.

Last years complex investigations which taking away in I Makhta allows for look anew history the same time monuments. Often meets false handles, triangle formed protuberances in inside ceramic product of I Makhta living place that their direct analogues are known from Baba-Darvish, Eastern Anatolia Karaz, Zulfubulag and Chaldiran sooth monuments and Goytapa. The coal analysis taken from I Makhta top layer and existence at least 3 metric layer has shown 3316-2931 years B.C. If we take into account, cultural layer formed from only top 2 metric layer and existence at least 3 metric layer, it is possible to say that, Kuro Araxes culture in monument had formed from beginning of IV millenium B.C.

AĞSTAFA RAYONUNDA TUNC DÖVRÜNÜN QƏBİR ABİDƏLƏRİ

(Ağstafa rayonu)

N.Ə.Müseyibli, G.K.Axundova, A.M.Ağalarzadə

İlk tunc dövrü

Neolit dövrü I Həsənsu yaşayış yerində 2011-ci ildə aparılan qazıntı zamanı qazıntı sahəsinin VIII kv-da Kür-Araz mədəniyyətinə – erkən tunc dövrünə aid sallama qəbir aşkar edilmişdir. Qəbir demək olar ki, bütün mədəni təbəqəni kəsib keçmişdir. 2,3 m dərinlikdə aşkar edilən qəbirdə bilavasitə ölçülərin və avadanlığın üstü və çox ehtimal ki, qəbirin döşəməsi ağaclarla örtülmüşdür. Bu ağaclar toz halına qədər çürüdüyündən onların ölçülərini müəyyənləşdirmək mümkün olmadı. Qəbir kamerası mədəni təbəqənin kül qatışıq torpağında qazıldığından onun ölçüləri yalnız ağac çürüntülərinin tutduğu sahəyə uyğun müəyyən edildi: 3,3 m x 1,5 m. Uzunsov qəbir kamerası şimali-şərq – cənubi-qərb istiqamətlidir (Tablo I, 1).


Qəbirin şimali-şərq yarısında iki insan dəfn edilmişdir. Onlardan birincisinin skeleti (1 № li skelet) başı cənubi-qərbə doğru aşkar edilmişdir. Kəllə və qabırğa sümükləri üstdəki ağırlıqdan çox dağılmışdır. Onun sağ yanında ayaq sümüyü aşkar edilmişdir, qol sümüyü isə qabırğa sümükləri ilə qarışmışdır. Sonrakı dağıntılar nəticəsində skeletin ilkin nizamı pozulduğundan dəfnin hansı vəziyyətdə icra edildiyini müəyyən etmək çətindir. Bununla belə, skeletin sümüklərinin, xüsusilə də onurğa sümüyünün ümumi vəziyyəti dəfnin sağ yanı üstdə icra edildiyini söyləməyə əsas verir.

Skeletin kəllə sümüyü ilə yanaşı qəbir örtüyünün ağırlığından qoyulduqları yerdə kiçik hissələrə parçalanmış iki ədəd saxsı qab aşkar edilmişdir. Onlardan biri qara-tünd boz rəngli, ikincisi isə qara cilalıdır. Bu qablarla yanaşı, onlardan cənubi-şərqdə tunc məmulatı – borulu balta (Tablo II, 1), yastı – pazşəkilli balta (Tablo II, 3), yarpaqşəkilli kiçik bıçaq və ya nizə ucluğu (Tablo II, 4), kvadrat kəsikli uzunsov (iskənə tipli) alət (Tablo III, 1) və burma-spiralşəkilli bəzək əşyaları (Tablo III, 2) aşkar edilmişdir. Skeletin sol yanında tuncdan hazırlanmış yarpaqşəkilli xəncər tapılmışdır (Tablo II, 2).

Qəbirdə ikinci insan (2 № li skelet) birincisinin üstündə, sol yanı üstdə, ayaqları bükülü, əlləri sifəti qarşısına qaldırılmış vəziyyətdə, başı şimali-şərqə olmaqla dəfn edilmişdir. Qəbir örtüyünün ağırlığından kəllə sümüyü xırda hissələrə parçalanmışdır. Bu skeletin bud sümükləri birinci skeletin qurşaq hissəsində aşkar edilmişdir. Kəllə sümüyü ətrafında qızıl məftildən hazırlanmış iki ədəd burma bəzək əşyası (Tablo III, 5), sağ biləyində gümüşdən dairəvi kəsikli qolbaq (Tablo III, 3), onun yanında gümüşdən spiralvari burma bəzək əşyası (Tablo III, 4), barmağında isə ametistdən hazırlanmış üzük aşkar edilmişdir (Tablo III, 6).

Çox ehtimal ki, hər iki dəfn arasında müəyyən zaman fasiləsi olmuş və ikinci insan dəfn edilərkən birinci skeletin nizamı pozulmuşdur. Lakin ikinci insanın məhz bu qəbirdə dəfn edilməsi görünür məqsədyönlü səciyyə daşımışdır və burada dəfn edilmiş hər iki insanı sosial-məişət münasibətləri birləşdirmişdir. Belə ki, birinci skeletin yanında aşkar edilmiş silah nümunələrinə, nisbətən iri sümüklü olmasına və sağ yanı üstdə dəfn edilməsinə əsasən kişiyə məxsus olmasını söyləmək mümkündür. İkinci insan çox güman ki, qadın olub sol yanı üstdə dəfn edilmişdir. Azərbaycan və Qafqazın digər ərazilərində tunc və antik dövrlərdə kişilərin sağ, qadınların isə sol yanı üstdə dəfn edilməsi faktları müəyyən edilmişdir (*Müseyibli, Axundova 2007; Müseyibli 2009*). Bundan əlavə, birinci skeletin yanında müxtəlif silahlar aşkar edildiyi halda, ikinci skeletin üstündə yalnız bəzək əşyaları aşkar edilmişdir.

Daha bir məsələni qeyd etmək lazımdır. Haqqında bəhs edilən bu qəbir burada istər tunc, istərsə də nəcib metalların (qızıl, gümüş), eyni zamanda qiymətli mineraldan – ametistdən hazırlanmış üzüyün aşkar edilməsi ilə erkən tunc dövrünün – Kür-Araz mədəniyyətinin ən zəngin abidələrindən biridir. Bütün bu tapıntılar burada dəfn edilmiş insanların cəmiyyətdə mühüm mövqeyə malik olmalarını sübut edir.



Kür-Araz mədəniyyəti tayfaları e.ə. III minillikdə dəfnləri bir qayda olaraq kurqanlarda icra edirdilər. Qəbirlər üstündə kurqan örtüklərinin qurulması ilk növbədə onların yerinin itirilməməsi məqsədini daşımışdır. Neolit dövrünə – e.ə. VII minilliyin sonu – VI minilliyin birinci yarısına aid I Həsənsu yaşayış yeri öz ölçülərinə görə iri həcmli kurqanı xatırladır. Düzənlik ərazidə 50 m diametrində, 3 m-dən artıq hündürlükdə təpə əlbəttə Kür-Araz insanlarının diqqətini çəkməyə bilməzdi. Buranı dəfn üçün seçən qədim insanlar bu təpənin məhz kurqanı əvəz etdiyini düşünmüşlər. Qəbirin təpənin demək olar ki, mərkəzi hissəsində qazılması çox ehtimal ki, məhz bu amillə bağlı olmuşdur.

Keramika

Qəbirdə iki ədəd saxsı qab aşkar edilmişdir. Onlardan biri nisbətən iri həcmli olub narın qum qatışıqlı, yaxşı yoğurulmuş gildən əldə düzəldilmişdir. Ağız kənarı xaricə meyllidir. Bikonik gövdəli qabın oturacağı yastıdır. Gövdə hissəsində biri-birinə əks tərəflərdə iki ədəd yarımşar tipli qulpu vardır. Qabın xarici səthi qara rənglidir və zəif cilalıdır. Cilalanma üfüqi və şaquli istiqamətlərdə aparılmışdır. Qabın daxili səthi qırmızıdır. Ümumiyyətlə, kəsikdə tən yarıya qədər qabın divarının daxili tərəfi qırmızı, xarici tərəfi isə qara rənglidir. Belə bir vəziyyət qabın bişirilmə temperaturundan asılı olmuşdur. Qulpların əks tərəfində qabın içərisi qabarıqdır. Bu onu göstərir ki, qulplar qaba yapma üsulu ilə əlavə edilməmiş, əksinə, qab formalaşdırılarkən onun divarından düzəldilmişlər. Yastı oturacağının qalınlaşdırılması üçün qabın dibinə içəridən əlavə gil qatı çəkilmişdir (Tablo I, 2).

İkinci qab nisbətən kiçik həcmlidir. Narın qum qatışıqlı, yaxşı yoğurulmuş gildən əldə formalaşdırılıb. Qabın daxili səthində formalaşdırma prosesində əmələ gəlmiş izlər saxlanmışdır. Qabın xarici səthi tünd qara, daxili isə tünd boz rənglidir. Xarici səthi tam parlaqlığa qədər yaxşı cilalanmışdır. Dar boğazlıdır, ağız kənarı xaricə meyllidir. Qabarıq gövdəli olub, yastı-dabanlı oturacaqlıdır. Gövdənin qabarıq hissəsində iki ədəd yarımşar tipli qulpu vardır. Bu qabın da qulpları birinci qabla eyni üsulla düzəldilib. Qulplarla eyni səviyyədə qabın gövdəsini iki ədəd paralel kəsmə xətlər əhatələyir. Bu xətlər arasındakı sahə biri-birinin içərisində çəkilmiş, üçbucaqları əmələ gətirən dörd paralel ziqzaqvari xətlərlə doldurulub. Maraqlıdır ki, bu qabın bütün hissələri qəbirdə aşkar edilməmişdir (Tablo I, 3).

Metal məmulatı


Birinci skeletin ətrafında yalnız tunc məmulatı aşkar edilmişdir (Tablo II; Tablo III, 1, 2). Bunlar əsasən silah nümunələridir. Onlardan ən maraqlısı sap keçirmək üçün yuxarısı dairəvi borulu baltadır (Tablo II, 1). Demək olar ki, bütün keyfiyyətini saxlamış bu balta işlək ağıza doğru genişlənir. Borusunun ətrafı qalın düzəldilmişdir. Bu baltanın tam analogiyası Azərbaycan ərazisindəki abidələrdən məlum deyil. Ağdam rayonunun Xındırıstan kəndində təsadüfən tapılmış bir balta (*Нариманов. Джафаров 1990, с. 9*) Həsənsu baltasına bənzəsə də tipoloji olaraq tam fərqlidir. Həsənsu baltasının ən yaxın və çoxsaylı paralelləri Gürcüstan ərazisindəki erkən tunc dövrü abidələrindən (*Гамбашидзе и др. 2010*), Dağıstandakı e.ə. III minilliyə aid Vəlikənd katakombalarından (*Магомедов 2000*) məlumdur. Həsənsu baltasını onlardan fərqləndirən yeganə əlamət onun işlək ağzının hər iki tərəfdən çıxıntılı olmasıdır.


Yastı pazşəkilli (balta tipli) alət də erkən tunc dövrü abidələrində tez-tez rast gəlinən tapıntılardandır (Tablo II, 3). Belə alətlər, o cümlədən Həsənsu qəbirindən tapılmış digər tunc məmulatının paralelləri Azərbaycanın cənubi-şərq bölgəsində qazılmış 1 №li Telmankənd kurqanında (*Mahmudov 1987; Махмудов и др. 1968*), Şimali Qafqazın ilk tunc dövrü abidələrində (*Кореневский 2011*), Gürcüstan abidələrində (*Гамбашидзе и др. 2010),* Vəlikənd qəbirlərində (*Магомедов 2000*) və digər abidələrdə aşkar edilmişdir. Uzunsov iskənə tipli (Tablo III, 1) və yastı pazşəkilli alətlər Suriyada I Tell Xəznənin e.ə. III minilliyə – erkən sülalə dövrünə aid qəbir abidələrində aşkar edilmişdir (*Мунчаев и др. 2004*). Bu əşyalar dülgər alətləri hesab edilirlər (*Авилова 2008).*

Qəbirdə aşkar edilmiş balta, nizə ucluğu və spiralvari tunc əşyaların kimyəvi tərkibi analiz edilmişdir (Cədvəl 1). Onlardan ilk iki əşya, yəni silahların mərgümüş tuncu (Cu – As) olması müəyyən edilmişdir. Spiralda isə mərgümüşün miqdarı aşağı (təbii) səviyyədədir. Silahlarda mərgümüşün nisbətən yüksək səviyyəsi bu əşyaların daha möhkəm tərkibli olması məqsədini daşımışdır. Analizin nəticələrindən məlum olan digər elementlərin aşağı (təbii) göstəricisi Qafqazın ilk tunc dövrü metal məmulatı üçün səciyyəvi olub belə birləşmələrin tərkibində təbii qatışıq hesab edilir və çox güman ki, metalın tərkibindəki mis-mərgümüş birləşməsi ilə bağlı olmuşdur (*Галибин 1991; Инанишвили, Джибладзе 2010; Кореневский 2011*).


Qeyd edildiyi kimi, ikinci skeletə aid yalnız nəcib metaldan əşyalar aşkar edilmişdir. Skeletin kəllə sümüyü ətrafında qızıldan hazırlanmış iki ədəd spiralvari-burma əşya tapılmışdır. Gümüşdən hazırlanmış eyni tipli bir ədəd əşya qol sümüyü yanında aşkar edilmişdir. Buradaca qol sümüyündə bir ədəd gümüş qolbaq tapılmışdır. Qızıldan və gümüşdən düzəldilmiş spiralvari-burma əşyaların tuncdan hazırlanmış analoqları birinci skeletin ətrafında digər tunc məmulatları ilə birgə aşkar edilmişdir.

Tablo II







Tablo III



Tablo IV






10
cm

Qeyd etmək lazımdır ki, Həsənsu ilə eyni bölgədə, Gürcüstanın Bolnisi rayonu ərazisində Kür-Araz mədəniyyəti dövründə geniş istifadə edilmiş Saqdrisi qızıl mədənləri mövcuddur (*Гамбашидзе и др. 2010).* Həsənsu qəbirindən aşkar edilmiş qızıl məmulatının xammal mənbəyinin məhz Saqdrisi yataqları olması istisna deyildir.

Gümüşdən hazırlanmış qolbaqlar Dağıstanda Vəlikənd katakombalarında aşkar edilmişdir (*Магомедов 2000, с. 78).* Həsənsunun qızıl və gümüş məmulatının çoxsaylı paralelləri Gürcüstan ərazisindəki abidələrdən məlumdur (*Гамбашидзе и др. 2010).*

İkinci skeletin barmaq sümüyündə aşkar edilmiş ametistdən düzəldilmiş üzüyü də qeyd etmək lazımdır. Olduqca səliqəli və nəfis hazırlanmış bu üzük erkən tunc dövrü üçün nadir tapıntılardan biridir.

Həsənsu qəbrinin xronologiyasından bəhs edərkən ilk növbədə keramika məmulatının xüsusiyyətinə diqqət yetirmək lazımdır. Belə ki, qəbirdən aşkar edilmiş, yarımşar tipli qulpa malik, tünd boz rəngli, qırmızı astarlı qab Kür-Araz mədəniyyətinin e.ə. IV minilliyin ikinci yarısı – III minilliyin əvvəli üçün səciyyəvidir. İkinci qab qara, parlaq cilalı olub üzərində həndəsi naxışlar vardır. Belə qablar daha çox e.ə. III minilliyin birinci yarısı və ortalarında istehsal edilmişdir. Digər tərəfdən, Gürcüstanda analoji metal məmulatının aşkar edildiyi abidələr də e.ə. IV minilliyin sonu – III minilliyin birinci yarısına aid edilmişdir (*Гамбашидзе и др. 2010).* Həsənsunun metal məmulatı ilə eyniyyət təşkil edən materialların aşkar edildiyi Vəlikənd katakombaları üzrə aparılan radiokarbon analizlər e.ə. III minilliyin əvvəllərini göstərmişdir. Belə müqayisəli materiallar əsasında Həsənsunun ilk tunc dövrü bu qəbrini e.ə. III minilliyin birinci yarısına aid etmək olar.

Son tunc dövrü

"Keşikçidağ" Dövlət tarix-mədəniyyət qoruğunun əməkdaşlarının qoruğa yaxın ərazidə qədim qəbirlərin mövcudluğu barədə verdikləri məlumatı yerindəcə yoxlamaq üçün 2011-ci il iyun ayında arxeoloji ekspedisiya həmin ərazidə işləmişdir. Ərazi şimaldan "Keşikçidağ" qoruğunun sərhədləri, cənubdan "Karvan dərəsi" deyilən dərə ilə hüdudlanır. Sahə əsasən düzənlikdən ibarətdir. Ərazidən otlaq sahəsi kimi istifadə edilir. Bura baxış zamanı qoruq əməkdaşlarının verdikləri məlumat öz təsdiqini tapmışdır. Yəni bu ərazidə doğrudan da, qədim qəbirlərin olduğu müəyyən edilmişdir. Buradakı qəbirlər bir neçə hektar ərazini əhatə edən Xocalı-Gədəbəy mədəniyyətinə aid kurqanlardan ibarətdir. Burada onlarla kurqan tipli qəbirlərin olduğu müəyyənləşdirildi. Sahədə heyvandarlıqla əlaqədar olaraq süni göllərin yaradılması zamanı qədim qəbir abidələri dağıntıya məruz qalmışdır.

Kurqanların örtüyünün diametri bəzən 10-12 m-ə yaxınlaşır. Kurqan örtükləri çay daşlarından ibarətdir. Bu kurqanların aid olduğu dövrü müəyyən etmək üçün onlardan birində qazıntı işləri aparıldı (kurqan № 1). Kurqanın çay daşlarından ibarət örtüyü müasir səthlə eyni səviyyədə olub şimal – cənub istiqamətində 4,8 m, şərq – qərb istiqamətində isə 5, 7 m ölçüsündə idi. Örtüyün şimali-şərq tərəfində daşlar nisbətən seyrək yerləşmişdir. Qəbir kamerası ilə yanaşı iri ölçülü, 1 m uzunluğunda qaya yerləşmişdi. Belə uzunsov qayalar bu nekropoldakı demək olar ki, bütün kurqanların mərkəzi hissəsində yerləşdirilmişdir. Heç də istisna deyil ki, bu qayalar buradakı kurqanlarda dəfnlər zamanı dikinə, şaquli basdırılmış, zaman keçdikcə yanı üstdə düşmüşlər. Çox güman ki, yaylaq-qışlaq maldarlığı ilə məşğul olan və yalnız qış mövsümlərində burada məskunlaşan Xocalı-Gədəbəy mədəniyyəti tayfaları qəbirlərin yerinin daha dəqiq qeyd olunması məqsədi ilə bu qayaları çox zəif hiss edilən kurqan örtükləri üzərində ucaltmışlar. Eyni zamanda bu qayalar dəfnlərlə bağlı dini-ritual ideyalarla da əlaqəli ola bilərdi.

Qəbir kamerasının uzunluğu 1,3 m, eni 0,5 m, dərinliyi 70 sm olmuşdur (Tablo IV, 1). Kurqanın mərkəzində yerləşmiş qəbir kamerasında heyvan sümükləri, 2 ədəd saxsı qab və tısbağa qını aşkar edildi. Son tunc – erkən dəmir dövrünə aid qəbirdə tısbağa qınının aşkar edilməsi Mingəçevir qazıntılarından məlumdur (*Асланов, Ваидов, Ионе 1959*). Qəbirdə insan skeletinə rast gəlinmədi. Azərbaycanın qərb bölgəsində yayılmış Xocalı-Gədəbəy mədəniyyətinə aid qəbir abidələrinin bəzilərində insan skeleti aşkar edilməmişdir. Yaylaq – qışlaq maldarlığı ilə məşğul olan qədim tayfaların dəfn adətlərində xatirat qəbirləri geniş yayılmışdır (*Кесаманлы 1999; Müseyibli 2004; Müseyibli 2010*). Bu tip xatirat qəbirlərindən biri də məhz hazırkı qazdığımız kurqandır. Aşkar edilmiş keramika məmulatı əsasında bu kurqanı son tunc – erkən dəmir dövrünə – e.ə. II minilliyin sonlarına aid etmək olar.

Qəbirdə aşkar edilmiş qabların hər ikisi qara cilalıdır. Onlardan biri dar boğazlı, küpə tiplidir (Tablo IV, 3.). Qabın bütün səthi cila üsulu ilə çəkilmiş naxışlarla örtülmüşdür. Boğazdan oturacağa qədər düz xətlər,

basma nöqtələr, çəpinə xətlər, dalğalı xətlər, səliqəsiz çəkilmiş üfüqi xətlər və yenə də oturacağa doğru çəkilmiş düz xətlər biri digərini əvəz etmişdir. Bütün bu naxış komponentlərini biri-birindən dörd ədəd üfüqi çəkilmiş zolaqlar ayırır. Qabın üstdən görünüşü Günəş təsvirini xatırladır. Burada ilin fəsillərinin biri-birini əvəz etməsi səhnəsinin rəmzi təsvir edildiyini də ehtimal etmək mümkündür.

İkinci qab bardaq tiplidir (Tablo IV, 2). Dar boğazlı olub, ağız kənarını çiyinlə birləşdirən qulpa malikdir. Qabın gövdəsində və oturacağa yaxın yerdə deşiklər açılmışdır. Belə hallara bəhs edilən dövrün qəbir abidələrində dəfələrlə rast gəlinmişdir. Qabın altı dabanlı oturacağa malikdir ki, bu da Xocalı-Gədəbəy mədəniyyəti keramikası üçün az təsadüf edilən qablardandır. Qabın gövdəsində məqsədli açılmış iki deşik vardır. Bu qabın da bütün səthi cila üsulu ilə naxışlanmışdır. Qabın üstündə yuxarıdan aşağıya şaquli zolaqlar, üç paralel üfüqi xətlər, torşəkilli təsvir, zəif cilalı sahə və ondan oturacağa doğru düz, uzun xətlər ardıcıllıqla çəkilmişdir.

Hər iki qabın Xocalı-Gədəbəy mədəniyyəti abidələrində çoxsaylı analoqları məlumdur.

Haqqında bəhs edilən bu kurqanları son tunc dövrünün – e.ə. II minilliyin ikinci yarısının maldar əhalisinə aiddir. Bu abidələr indi olduğu kimi üç min il əvvəl də Ceyrançöl ərazisinin heyvandarlar tərəfindən qış otlaq sahələri kimi istifadə edildiyini göstərir.

Böyük Kəsik qəsəbəsindən təqribən 5 km şərqdə daha bir neçə kurqan aşkar edildi. Bunların Keşikçidağ yaxınlığındakı kurqanlardan fərqi ondan ibarətdir ki, onların örtükləri hündür olub (2 m-ə qədər), daha iri həcmlidirlər. Yalnız arxeoloji qazıntılardan sonra bu kurqanların tunc dövrünün hansı mərhələsinə aid olduğunu qəti söyləmək mümkündür.

Aparılan çöl tədqiqat işləri göstərir ki, "Keşikçidağ" qoruğu və ətraf ərazilərdə müxtəlif dövrlərə aid çoxsaylı tarixi, arxeoloji abidələr vardır və onların araşdırılması ərazinin qədim tarixinin öyrənilməsi baxımından olduqca əhəmiyyətlidir.

ƏDƏBİYYAT

1. Mahmudov F.P. Astara rayonundakı ilk tunc dövrü kurqanları haqqında // Azərbaycanın maddi mədəniyyəti. X cild. Bakı, 1987
2. N.Müseyibli. Zəyəmçay nekropolunda arxeoloji qazıntılar // "Azərbaycan arxeologiyası və etnoqrafiyası" jurnalı. Bakı, 2004, №2
3. Müseyibli N., Axundova G. II Qıraq Kəsəmən nekropolunda arxeoloji qazıntılar // "Azərbaycan arxeologiyası", №3-4. Bakı, 2007
4. Müseyibli N. Zəyəmçay nekropolunun qəbir tipləri // "Azərbaycan arxeologiyası", №2. Bakı, 2009
5. Авилова А.И. Металл Ближнего Востока. Модели производства в энеолите, раннем и среднем бронзовом веке. Москва, 2008
6. Асланов Г.М., Ваидов Р.М., Ионе Г.И. Древний Мингечаур. Баку, 1959.
7. Галибин В.А. Изделия из цветного и благородного металла памятников эпохи ранней и средней бронзы Северного Кавказа // Древние культуры Прикубанья. Ленинград 1991.
8. Гамбашидзе Ир., Миндиашвили Г., Гогочури Г., Кахиани К., Джапаридзе И. Древнейшая металлургия и горное дело в Грузии в VI-III тыс. до н.э. Тбилиси, 2010
9. Инанишвили Г., Джибладзе Л. Никелевая бронза на Кавказе // Археология Кавказа, № 2-3. Тбилиси 2010.
10. Кесаманлы Г.П. Археологические памятники эпохи бронзы и раннего железа Дашкесанского района. Баку, 1999.
11. Кореневский С.Н.Древнейший металл Предкавказья. Москва, 2011.
12. Магомедов Р.Г. Материалы к изучению культур эпохи бронзы в Приморском Дагестане. Махачкала, 2000
13. Махмудов Ф.А., Мунчаев Р.М., Нариманов И.Г. О древнейшей металлургии Кавказа // Советская археология, №4. Москва, 1968
14. Мунчаев Р.М., Мерперт Н.Я., Амиров Ш.Н. Телль Хазна I: Культово-административный центр IV – III тыс. до н.э. в северо-восточной Сирии. М., 2004
15. Нариманов И.Г., Джафаров Г.Ф. О древнейшей металлургии меди на территории Азербайджана // Советская археология, №1. Москва, 1990.

Table 1

HASANSU

Chemical analyses : ICP-MS ; Performed by Dr. BODE M. (DBM laboratory) on Element XR, HR-SC-ICP-MS, ThermoScientific, New Wave Project: "The metallurgical development of the ancient cultures in Azerbaijan (end 6th/beginnings 5th - 1st millenniums BCE)" Autor: Dr. COURCIER A. (CNRS- UM5060, Institut de Recherche sur les ArcheoMATeriaux (IRAMAT).

Informations			Analyse																		
			ppm (1 ppm= 0,0001%)														Weight %				
Type of artefact	Bochum Lab. n°	Sample n°	**Ag**	**Sn**	**Sb**	**Te**	**Pb**	**Bi**	**Au**	**P**	**S**	**Fe**	**Co**	**Ni**	**Zn**	**Se**	**As**	**Sn**	**Sb**	**Ni**	**Cu**
flat axe	4600 12	AZE-087	255	135	830	1	100	2	2	55	99	1315	1	90	13	4	0.98	0.0135	0.08	0.01	84.96
	Results nornamized		297	157	966	1	116	2	2	64	115	1530	1	104	16	4	1.14	0.0157	0.10	0.01	98.86
spear head	4602 12	AZE-089	370	35	910	1	1525	12	1	20	87	510	2	235	13	3	1.17	0.0035	0.09	0.02	90.64
	Results nornamized		403	38	991	1	1661	13	1	22	94	555	3	256	14	3	1.27	0.0038	0.10	0.03	98.73
spiraled thing	5035 12	AZE-086	11	6520	20	3	115	2	2	535	3570	155	4	1395	305	3	0.15	0.65	0.0020	0.14	72.00
	Results nornamized		15	9037	28	4	159	3	3	741	4948	215	6	1933	423	4	0.21	0.90	0.00	0.19	99.79

Table 2

Analytical Center

Azerbaijan National Academy of Sciences Institute of Geology

HASANSU

Chemical composition of upper coating of silver bracelet, - in %

Na_2O	MgO	Al_2O_3	SiO_2	P_2O_5	SO_3	K_2O	CaO	TiO_2	MnO	Fe_2O_3	Ag	Cl	Cu	Br
0,031	**0,042**	**0,094**	**1,04**	**0,028**	**0,077**	**0,024**	**1,74**	**0,044**	**0,032**	**0,065**	**64,75**	**17,51**	**1,63**	**12,66**

Chemical composition of lower metal part, - in %

Ag	Cl	Br	O
75,36	10,35	8,70	5,59

Radiographodiffractometric analyses showed that presented pattern is **Ag (Cl, Br) Embolithic mineral.**

Table 3

Chemical composition of golden spiralled thing, - in %

Au	Ag	Cu	Ni
93,52	6,41	0,04	0,01

Chief of the center: N.M.Sadigov

Analysts: M.I.Abdullayev, B.A.Sadigova, S.V.Qurbanova

Н.А.Мусеибли, Г.К.Ахундова, А.М.Агаларзаде

ПОГРЕБАЛЬНЫЕ ПАМЯТНИКИ ЭПОХИ БРОНЗЫ АКСТАФИНСКОГО РАЙОНА

РЕЗЮМЕ

В ходе раскопок неолитического поселения Гасансу I, в центральной части холма на глубине 2,3 м обнаружено впускное погребение куро-аракской культуры ранней бронзы. Непосредственно на уровне погребенных и инвентаря камера была перекрыта древесиной, от которой осталась сгнившая масса коричневого цвета в виде пыли. Размеры продолговатой могильной камеры 3,3 м х 1,5 м, направление северо-восток – юго-запад (Табл. I, 1).

Как правило, куро-аракские племена хоронили своих умерших в могилах с курганной насыпью. Данная же могила в Гасансу I не имеет такой насыпи. Однако, вполне вероятно, что этот холм, диаметром 50 м и высотой 3 м, для древних людей заменил насыпь в виде кургана.

В северо-восточной половине камеры захоронены два человека. Порядок костей первого (скелет №1) нарушен, и только в общих чертах можно предположить, что он был захоронен на правом боку. Черепная кость и два сосуда возле головы под тяжестью заполнения раздавлены на мелкие фрагменты. Рядом с этими сосудами, выше головы погребенного, лежали втульчатый топор (первая такая находка на территории Азербайджана), плоский тесловидный топор (в верхней части которого сохранились поперечные следы от перевязки, вероятно, к деревянной рукоятке), наконечник копья, долота, спиралевидные предметы. Слева от скелета обнаружен листовидный кинжал Табл. II; Табл. III, 1, 2).

Кости второго погребенного (скелет № 2) лежали частично на костях первого. Погребение совершено скорченно на левом боку. В руке находился серебряный браслет (Табл. III, 3) и рядом с ним спиралевидный предмет из серебра (Табл. III, 4). На пальце было кольцо из аметиста. Аналоги последнего из памятников ранней бронзы Азербайджана нам не известны. Около черепной кости обнаружены два золотых спиралевидных завитка (Табл. III, 5).

В эпоху бронзы и последующие периоды на Южном Кавказе мужчин, в основном, хоронили на правом, а женщин на левом боку скорченно. Учитывая это обстоятельство и предметы, найденные возле погребенных, можно предположить, что в этой могиле первый скелет принадлежит мужчине, второй – женщине. Вероятно, между этими захоронениями существовала временная разница и при погребении женщины нарушен анатомический порядок скелета мужчины. Не исключено, что обоих погребенных связывали семейно-бытовые узы и они при жизни занимали важное место в обществе.

Оба керамических сосуда из могилы характерны для куро-аракской культуры и снабжены полушаровидными ручками. Большой сосуд, с черной поверхностью и красной подкладкой, слабо лощен. Второй сосуд с обеих сторон черный и лощен до зеркального блеска. Плечевую часть сосуда занимают геометрические фрагменты, выполненные врезными линиями.

Погребение из Гасансу I по находкам разнотипных металлических изделий можно отнести к числу самых богатых могил куро-аракской культуры Южного Кавказа. Все металлические предметы имеют близкие параллели в памятниках куро-аракской культуры на территории Грузии, в катакомбах Великента в Дагестане и памятниках ранней бронзы Северного Кавказа.

Анализ химического состава предметов из цветных металлов показал, что они изготовлены из медно-мышьяковых (Cu – As) сплавов (таблица 1). В разных частях Южного Кавказа имеются богатые залежи этого сырья. Сырье благородных металлов (таблицы 2, 3), вероятно, происходит из Сагдриси (Болниский р-н Грузии).

На основе сравнительного анализа куро-аракское погребение из Гасансу I можно датировать первой половиной III тыс. до н.э.

На территории Джейранчельского плоскогорья раскопано одно погребение периода поздней бронзы (вторая половина II тыс. до н.э.). На основе сообщений сотрудников историко-культурного заповедника «Кешикчидаг», на участке, находящемся в нескольких километрах к югу от заповедника, зафиксирован курганный некрополь поздней бронзы. Насыпи плоские, чаще находятся на уровне современной поверхности. С целью определения характеристики и датировки было раскопано одно погребение с плоской каменной насыпью (Табл. IV). В центральной части кургана находился большой камень длинною в 1 м. Могильная яма обнаружена именно около этого камня. Почти на всех курганах зафиксированы такие камни, которые на фоне плоской насыпи из мелкого речного камня резко бросаются в глаза. Вышеизложенная ситуация наводит на мысль, что древние люди, заселявшие эти пастбища только в зимний сезон, с помощью таких камней выделяли погребения. Не исключено, что изначально эти камни были установлены вертикально, а в последующие периоды накренились.

В камере обнаружены два керамических сосуда, украшенные пролощенными линиями, панцирь черепахи и фрагмент кости мелкого рогатого скота. Этот кенотаф (поминальное погребение) не содержало человеческих останков. Такие погребения характерны для племен Ходжалы-Кедабекской культуры, занимавшихся отгонным скотоводством.

N.A.Museibli, G.K.Akhundova, A.M.Aghalarzadeh

BURIAL MONUMENTS OF THE BRONZE AGE OF AGSTAFA REGION

SUMMARY

In the course of excavations in the Neolithic settlement Hasansu I, in the central part of the hill at a depth of 2.3 m was revealed an inlet burial related to the Kura-Araxes culture of the early Bronze Age. Directly at the level of the buried and equipment camera was blocked with timber from which has remained only rotted brown mass of dust. Dimensions of oblong burial chamber is 3,3x1,5 m, the direction to the northeast – southwest (Fig. I, 1).

As a rule, the Kura-Araxes tribes buried their dead in graves with kurgan embankment. The afore-mentioned grave in Hasansu I do not have such embankment. However, it is quite probably that this hill, with a diameter of 50 m and a height of 3 m, replaced embankment in the form of the kurgan for the ancient people.

In the north-eastern half of the chamber were buried two persons. The order of bones (skeleton 1) of the first is disturbed, and only in general terms it can be assumed that he was buried on the right side. Cranial bone and two vessels near the head were crushed into small fragments under the weight of the filling. Next to these vessels, above the head of the buried were pipe-shaped ax (the first such discovery in Azerbaijan), flat adze-shaped ax (at the top of which are preserved traces of cross rusty ties, probably, to a wooden handle), spearhead, chisels, spiral objects. To the left of the skeleton was revealed a leaf-shaped dagger (Fig. II; Fig. III, 1, 2).

Bones of the second buried (skeleton 2) were partly on the bones of the first. Was buried crouched on his left side. In his hand was a silver bracelet (Fig. III, 3) and beside the silver spiral object (Fig. III, 4). On his finger was a ring of amethyst. Analogs of the latter in the early Bronze Age monuments of Azerbaijan are not known. Beside the skull bones were found two golden spiral curls (Fig. III, 5).

In the Bronze Age and the subsequent periods in the South Caucasus, men were mostly buried on the right and the women crouched on the left side. Taking into account this circumstance and objects found near the buried we can assume that the first skeleton in the grave belongs to a man, the second – to a woman. Probably between these graves existed the time difference and at the burial of a woman the order of anatomical skeleton of the man had been disturbed. It may well be so that both the buried were related with some family ties and in life they had an important place in society.

Both ceramic vessels from the grave are characteristic for the Kura-Araxes culture and provided with hemispherical handles. The large vessel with black surface and red coating is slightly glossy. The second vessel is black on both sides and polished to a smooth surface. The shoulder of the vessel is occupied by geometric fragments, developed with cut-lines.

Burial from Hasansu I for the finds of diverse metal products can be considered as the richest graves of the Kura-Araxes culture of the South Caucasus. All metal objects have close parallels in the monuments of the Kura-Araxes culture in Georgia, in the catacombs of Velikend in Dagestan and in the early Bronze Age monuments of the North Caucasus.

The chemical composition of the objects from non-ferrous metals has shown that they were made of copper-arsenic (Cu-As) alloys (Table 1). There are rich deposits of this raw material in different parts of the South Caucasus. Input materials of precious metals (Tables 2 and 3), probably derived from Sagdrisi (Bolnisi District of Georgia).

Based on the comparative analysis the Kura-Araxes burial of Hasansu I can be dated to the first half of III millennium BC.

On the territory of the plateau Jeyranchol was excavated one burial of the late Bronze Age (second half of the II millennium BC). Grounding on the information of employees of Historical and Cultural Reserve “Keshikchidag”, on the site, locating a few kilometers south of the reserve, was recorded burial necropolis of the Late Bronze Age. Embankments are plane, often at the level of current surface. In order to determine the characteristics and the dating was excavated one burial mound with a flat stone embankment (Fig. IV). In the central part of the kurgan was a large stone 1 meter length. Burial pit was discovered just near the stone. Almost in all the kurgans were recorded such stones, which against a flat embankment of small cobble-stones arrest attention. This situation suggests that the ancient people who populated on these pastures only during the winter season, with the help of these stones had isolated burial. It may well be so that these rocks were originally installed vertically, and in subsequent periods tilted to one side.

In the camera was found two ceramic vessels ornamented with glossed lines, tortoise shell and bone fragments of small-cattle. This cenotaph (memorial burial) did not contain human remains. Such burials are characteristic for tribes of Khojaly-Gadabey culture, occupied in distant cattle-breeding.

РЕЗУЛЬТАТЫ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК НА ПОСЕЛЕНИЕ СЕРКЕРТЕПЕ

(Хачмазский район)

Д.Л.Мусаев



Археологические раскопки 2011 г. были продолжены с глубины 3-х метров. Этот слой характеризуется эпохой ранней бронзы, примерно началом III тыс. до н.э. Однако в процессе раскопок были выявлены отдельные фрагменты керамики, относящиеся к средневековому периоду IX – XII в.в., а также к эпохе раннего железа и средней бронзы. Вся керамика была обнаружена в яме, которая прорезала слой эпохи ранней бронзы.

Строительные остатки представлены:


1.Скоплениями речных камней. 2. Следами глиняной обмазки пола с добавлением мелкорубленой соломы и навоза, 3. Кусками турлучного строения, на которых остались следы плетения. 4. Ямками от жердей (столбов) диаметром 8-10 см на расстоянии 20 см, 5. Следами пепла диаметром до 2 м.

Археологический материал представлен керамикой, изделиями из камня и кости.

Подавляющая часть археологических находок представлена керамикой. Анализ материала дан в хронологических рамках и по функциональному назначению.

Средневековая керамика представлена тремя предметами: 1. фрагмент светильника, носик частично обломан, со следами копоти, корпус округлый, дно плоское, ручка петлевидной формы. Длина светильника 10 см, высота 5 см, высота верхней части отверстия 2,5 см., цвет серый.2. фрагмент чайника розового цвета, корпус круглый, сохранилась часть носика, крепившегося в верхней части корпуса. В центре, наверху, имеется горловина трубчатой формы, ручка петлевидной формы в верхней части корпуса и с горлышком. Центр корпуса опоясан врезной линией. Высота чайника 10 см, 3.фрагмент горла кувшина с лентовидной ручкой оканчивается венчиком, отогнутом наружу. Горло опоясано 2 парными линиями, цвет керамики розовый, черепок плотный.


Семь фрагментов керамики крупных сосудов представляют эпоху железа. Две из них идентичны по орнаменту, но отличаются по цвету, один светло-серого цвета, другой темно - розового. Поверхность покрыта ломанными и параллельными линиями, выполненными методом вдавления, обжиг высокого качества, черепок плотный. Три фрагмента отличаются от предыдущих орнаментом, которое опоясывает плечико кюпа. Орнамент выполнен методом налепной ленты с косыми глубокими насечками. Цвет от светло-серого, до темного. Немногочисленной является керамика эпохи средней бронзы. В основном это фрагменты кюпов с венчиками.











Один из фрагментов черного цвета, с белым плотным налетом. Поверхность орнаментирована врезными зигзагообразными перпендикулярно–горизонтальными линиями. Как правило, керамика того периода в подавляющем большинстве черного цвета, хорошо обожжена, имеет плотный черепок. Надо отметить, что орнаменты в виде колоса, вероятно, символизируют хлеб, богатство. Один из фрагментов представляет горловину кюпа. Горло от тулова отделяет врезная линия, ниже ее нанесен орнамент в три ряда в виде косых насечек.

Раскопки этого года выявили, в основном материал эпохи ранней бронзы, представленные керамикой, изделиями из камня и кости.

По функциональному назначению изделия из керамики можно разделить на несколько групп: фрагменты кюпов, горшки, кубки, вазы, блюда, очажные подставки и жаровни.





Большую часть керамики составляют фрагменты кюпов, что свидетельствует о широком их применении и большом значении в хозяйстве. В кюпах могли хранить зерно, жидкость, масло и т.д. Кюпы III-IV тыс. до н. э., имеют отличительные особенности. Вероятно с изменениями, которые начинают происходить в хозяйстве, происходят изменения этих сосудов. Керамика позднего периода не отличается изяществом и качеством изготовления. Изменения наблюдаются и в орнаменте – это в основном налепные ленты с защипами. На одном фрагменте кюпа сохранилось горло с небольшим венчиком, отогнутым наружу. Ниже горла, корпус имеет грубую обмазку. Как правило, подобная керамика относится ко второй половине III тыс. до н. э., ближе к концу эпохи ранней бронзы. К тому же периоду относится и другой фрагмент с высокой горловиной, венчик едва отогнут наружу. Ближе к венчику имеется небольшой шишковидный выступ. Цвет керамики серый. Следующие три фрагмента серого цвета (изнутри с черной подкладкой) поверхность грубая, однако в изломе черепок довольно плотный. Из этой группы кюпов мы выделяем подгруппу так как она имеет довольно большие отличительные черты. Это в первую очередь связано с орнаментом и качеством обжига.

Первый фрагмент черного цвета, венчик небольшой, отогнут наружу, сразу под ним проходит налепная лента с защипами. Следующий фрагмент стенки кюпа имеет отслоение. Этот факт свидетельствует о некачественном лощении поверхности. В этой группе выделяется один фрагмент с высокой горловиной, венчик отогнут наружу и орнаментирован защипами.

Как правило, большие кувшины снабжены большими ручками, которые располагаются на одинаковом удалении в широкой части сосуда. На примере четырех фрагментов можно дать информацию о формах ручек. Первая ручка петлевидной формы с замкнутым валиком, у основания ручки имеется выступающая шишка.

Следующие два фрагмента ручек лентовидной формы. Отдельные ручки имеют широкую лентовидную форму.

Ручки напоминают морду животных – корову, быка, что может свидетельствовать о культ этих животных и о значимости скотоводства период Кура-аракской культуры.

Следующую группу керамических изделий, мы условно назвали кубками. Кубки по форме биконические. Первый кубок имеет высокое горло, венчик небольшой плавно отогнут наружу. В середине горла остались следы от ручки полушаровидной формы, дно плоское, маленького размера - 4 см. Диаметр верхней части 8 см, диаметр корпуса 10 см. Обжиг невысокого качества, цвет розово – серый. Следующий фрагмент кубка, сохранил нижнюю часть сосуда. В отличии от первого кубка, здесь ручка крепится в нижней части корпуса. Ручка петлевидной формы с замкнутым валиком у основания. Следующие три фрагмента, также отличаются от предыдущих и друг от друга. Первый фрагмент представлен ручкой петлевидной формы с усовидными отводами у оснований. Ручка соединена с венчиком и горлом. Цвет темно-серый до черного, отличительная черта второго фрагмента кубка это ребристый уступ в центре корпуса, горло высокое, оканчивается венчиком отогнутым наружу. В центре горла сохранилось место от ручки полушаровидной формы. Ребристый уступ разделяет сосуд на горло и корпус. Цвет черный, обжиг высокого качества. Третий фрагмент отличается от предыдущих тем, что ручка полушаровидной формы крепится сразу же под венчиком. Цвет керамики черный, обжиг высокого качества. Следующий фрагмент представляет кубок большего размера, где лишь сохранившаяся часть имеет высоту 10 см. Довольно большая ручка полушаровидной формы крепится в центральной части высокого горла. Венчик отогнут наружу. Под ручкой сохранился шишкообразный выступ. Подобный орнамент, в основном, характерен для кюпов. Незначительную группу представляют горшки. По форме они напоминают кубки – это их биконическая форма, небольшое дно и отогнутый наружу небольшой венчик. Основным отличием этой группы является отсутствие ручек. Если говорить о самих горшках, то они различаются размерами, формами изгиба в средней части, высотой шейки, цветом. Единственно, что их объединяет это небольшие венчики, отогнутые наружу.

Горшки являются кухонной посудой, вероятно имели индивидуальное предназначение. В этой

группе выделяются два фрагмента большого горшка. Первый отличается тем, что на изгибе корпуса нанесен орнамент, имитирующий ручку в виде глазков. Цвет керамики черный, обжиг высокого качества. На втором фрагменте налепной орнамент нанесен в виде зигзагообразной ленты. Довольно большую группу представляют фрагменты котлов: большие, средние и маленькие.

Почти на всех фрагментах сохранились следы копоти.

Из группы котлов выделяются два фрагмента. Первый сохранил прямой венчик н отделяется от корпуса ребристым уступом. Корпус орнаментирован рисунком ромбовидной формы. Цвет красный. Второй небольшой фрагмент сохранил налепную ленту с насечками .

Одну из самых больших групп составляют блюда с внутренним бортиком (венчик отогнут во внутрь) Эта группа подразделена на несколько типов: по размеру и по наличию ручек. Как правило, данные блюда имеют небольшое плоское дно, стенки заканчиваются внутренним бортиком.

К первому типу мы отнесли блюда небольших размеров. Большая часть блюд черного цвета, отдельные экземпляры красного. Стенки верхней части плавно изгибаются во внутрь, образуя неглубокую чашу, венчик отогнут во внутрь. Подобная форма венчика в археологических находках не является широко распространенной. Венчики в разрезе, в основном, круглой формы. Следующий тип чаш с внутренним бортиком у венчика снабжены ручками. Ручки петлевидные с усовидными отводами у оснований или втульчатой формы. Вазы представляют следующую группу керамических изделий. Вазы являются характерной особенностью и отличительной чертой Северо – Восточного Азербайджана эпохи ранней бронзы. Вазы позднего периода – III тыс. до н.э. имеют высокую ножку, на которой крепится верхнее и нижняя часть имеющие форму чаши.

Вазы позднего периода представлены двумя типами. К первому типу относится фрагмент со сквозным круглым отверстием сверху. Ручка петлевидной формы крепится с корпусом и с серединой верхней части образующий форму воронки. Подобные предметы розового и черного цветов мы отнесли к ритуальным предметам, так как ранее они были найдены в культовом помещении. Подобного типа посуда встречается крайне редко.

Два других фрагмента вазы того периода представлены корпусом цилиндрической ножки. Место соединения верхней и нижней частей имеет форму кольца. Вся поверхность орнаментирована косыми и вертикальными врезными линиями. Вазы раннего периода в подавляющем количестве черного цвета. В отличии от предыдущего периода (мы их относим ко второй половине IV тыс. до н.э.) верхняя часть, имеющая форму чаши, крепится непосредственно с колоковидной формы поддоном. Все поддоны имеют на корпусе отверстия круглой или продолговатой формы. Отдельные поддоны в нижней части имеют уступ, который иногда обозначен врезной линией по всему поддону.

В отдельную группу входят миниатюрные сосуды в виде пиалы. Она черного цвета, дно небольшое, плоские стенки чуть расширяются, венчик прямой. Диаметр верхней части 7 см. диаметр изнутри 5 см.

Следующую группу представляют фрагменты жаровень. Они различаются размерами и цветом. Дно у жаровень ровное, но не сглажено. Поверхность тщательно сглажена, черная, края приподняты имеют форму толстого бортика. Предположительный диаметр больших жаровень достигает 40 см. В изломе тесто зернистое с добавлениями керамики и растительности. Жаровни малых размеров – диаметром примерно 20–25 см., также имеют дисковидную форму. Края толстые, верхняя часть имеет форму бортика.

Фрагменты очагов III и IV тыс. до н.э. по форме, в основном, круглые. Очаги III тыс. до н.э. более грубые, качество изготовления невысокое. Очаги раннего периода более массивные, поверхность и края тщательно сглажены, цвет розовый. Края приподняты, образуют бортик. Можно предположить, что очаги дали начало производству жаровень, так как их форма практически схожа.

Очажные подставки представлены одним фрагментом. Очажная подставка имеет форму четырехугольного кирпича, основание ровное длиной 5 см, толщиной 3 см., сохранившаяся высота 10 см. В верхней части сохранилось сквозное отверстие диаметром 2 см. (табл. 92). Фрагменты очаженых подставок известны почти на всех памятниках Кура–Аракской культуры.

На поселение Серкертепе подобные подставки также встречались не редко.

Очередную группу археологических материалов представляют изделия из кости. В отличие от других памятников эпохи ранней бронзы, на поселении Серкертепе они встречаются очень часто и отличаются разнообразием. Это лощила проколки шилья, иглы, пряслица, украшения и изделия из кости крупного и мелкого рогатого скота и клыков кабана.

Довольно большую группу археологического материала представляют изделия из камня. Первую группу представляют булавы. Как правило, подавляющая часть булав изготовлялась из кремневых пород камня и лишь незначительная из речного камня.

Один из фрагментов булавы, изготовленный из речной гальки имеет грушевидную форму. Основание овальное, верхняя часть отбита. Поверхность ровная – её обрабатывали методом шлифовки. Диаметр в центральной части – 8 см, сохранившаяся высота 7 см., цвет темный. Следующая булава изготовлена из кремневой породы. Цвет светло- серый. Булава имеет шаровидную форму, однако поверхность не отшлифована. Диаметр булавы 6,5 см. Второй фрагмент булавы сохранил выемку от сверления. Вероятно, при сверлении булава раскололась. На сохранившейся поверхности видны следы шлифовки. Диаметр фрагмента булавы составляет 6 см (табл. 63,2).

Если говорить о функциональном назначении булав, то можно предположить, вероятно, что их использовали как боевое оружие в ближнем бою, и как метательное оружие. Булава была и символом власти.

Следующую группу изделий из камня представляют вкладыши составных серпов. Они изготовлялись из кремня пластинчатой формы. Основание имеет форму пилы со следами лощения. Подобные вкладыши серпов были обнаружены и ранее. В количественном отношении, если сравнивать с другими памятниками эпохи ранней бронзы, на поселении Серкертепе их больше. Большое количество вкладышей составных серпов может свидетельствовать и широком распространении земледелия в тот период на Северо – Востоке Азербайджана.

Зернотерки часто встречаются на всех поселениях. Находки зернотерок еще раз подтверждают то, что земледелие было одной из основных форм жизнедеятельности человека в эпоху ранней бронзы. Более девяносто процентов зернотерок изготовлены из речного камня и лишь очень незначительное количество из известковых пород. В основном зернотерки имеют ладьевидную форму с прогибом во внутрь. Вместе с зернотеркой был обнаружен тёрочник диаметром 15 см дисковидной формы из речного галечника.

Весьма интересным является большой речной камень размером 25 х 15 см. На поверхности камня выбита следующая сцена. Справа изображен бегущий человек в движении, руки подняты в верх. В правой руке находится длинный предмет, напоминающий то ли меч, то ли палку. Силуэт человека направлен в сторону «мифического» животного. Данное существо также находится в движении. Одна из лап имеет форму клешни, голова имеет большой, толстый нос и высокий лоб.

Теперь подведем итог и результаты раскопок на поселении Серкертепе. Поселения являются многослойными – это период средневековья IX – XIII в.в., под ним залегает слой эпохи железа I тыс. до н. э., затем идет слой средней бронзы – II тыс. до н.э. и наконец, слой эпохи ранней бронзы – IV – III тыс. до н.э. Объектом нашего исследования является период Кура – Аракской культуры. Общая площадь раскопок достигает 1200 м^2. Слой эпохи ранней бронзы очень насыщен. Исходя из раскопок, поселение Серкертепе является одним из ярко представленных памятников на Кавказе. Одной из отличительной черт является большое количество и разнообразие археологического материала, представленных керамикой, изделиями из камня, кости и металла. Раскопки позволили сделать много выводов по хозяйству, экономике и идеологии того периода. В процессе раскопок были обнаружены культовое здание и жилые постройки из сырцового кирпича круглой формы.

Основу хозяйства в эпоху ранней бронзы представляли земледелие и скотоводство. Все это подтверждается огромным количеством археологического материала. Немаловажное значение имела металлургия и металлообработка. Кроме бронзовых предметов на поселении найдено много литейных форм. Отметим одну из важных деталей металлообработки. Поселение Серкертепе

является лидером по количеству медно – бронзовых предметов. Наличие иголок, проколок, пряслиц, отпечатков тканей и циновок, а также находка ткани свидетельствует о развитии ткачества в период ранней бронзы.

Орнамент на сосудах, камнях и кости говорят об идеологии и искусстве.

О значимости этого памятника свидетельствует и такой не маловажный факт, что с материалами этого поселения знакомы ученые России, Украины, Южного Кавказа, США, Германии, Израиля, Турции, Ирана. Раскопки поселения Серкертепе позволили найти связи племен Северо–Восточного Азербайджана с южными, восточными и западными регионами Азербайджана, а также с северным, южным Кавказом и восточной Турцией. Однако, пожалуй, самым интересным является его связь с племенами Месопотамии во второй половине IV тыс. до н.э.

D.L.Musayev

SƏRKƏRTƏPƏ YAŞAYIŞ YERİNDƏ APARILAN ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİ

XÜLASƏ

Qazıntılar 3 m dərinliyindən davam etdirilmişdir. Bu təbəqə e.ə. IV-III minilliyə aiddir.

Arxeoloji material keramika, daş və sümük əşyalarından ibarətdir.

Keramika məmulatlarını küp, güvəc, vaz, piyalə, kürə fraqmentləri təşkil edirdi. Ayrı-ayrı fraqmentlərin səthi basma və yapma üsulu ilə naxışlanıb.

Sümükdən olan məmulatlar iynə, biz, iybaşı, bəzək əşyalarıdır.

Daşdan olan əşyalar toppuz ucluqları, oraq dişləri, dən daşlarıdır.

Sərkərtəpə yaşayış yerində aparılan qazıntılar təsərrüfat, inşaat ideologiyası barəsində bir sıra nəticələr çıxartmağa imkan verdi.

D.L.Musayev

RESULTS OF ARCHAEOLOGICAL EXCAVATION ON SETTLEMENT SERKERTEPE

SUMMARY

The excavations have been continued in 3 m depth. This layer is about IV-III millennium B.C. Archaeological material is consists of ceramic, stone and bone things. There were organized pitcher, earthenware pot, vase, bowl, ball fragments in ceramic products.

Some fragments ornament with surface, inside pushing manner and doing patterns, swelling tip does.

The products made by bone are needle, awl. needle tip, decoration things. The things of stone are mace tips, sickle teeth, grown stones. The archaeological excavations allowed for take out some results about economy construction ideology in Serkertepe living place.

II KÜLTƏPƏDƏ YENİ TƏDQİQATLAR
(Naxçıvan MR, Babək rayonu)

V.H.Əliyev, A.Ə.Məmmədova

"Naxçıvan" arxeoloji ekspedisiyası (2011-ci ildə 1 avqust – 15 sentyabr) II Kültəpədə arxeoloji qazıntı işləri aparmışdır.

Son illər ekspedisiya II Kültəpədə, qədim şəhərin şimal-qərb qala divarının salamat qalmış hissəsini və qala divarından daxildə, xaricdə mədəni təbəqələri tədqiq etmiş, zəngin materiallar əldə etmişdir.

Şimal-qərb qala divarının qalıqları daha diqqətlə açılaraq, Naxçıvanda qədim qalatikmə memarlığının xüsusiyyətləri öyrənilir. Keçən il qala divarından daxildə aşkara çıxarılan dulusçuluq emalatxanasının bir hissəsi təmizlənmişdir. İndiyədək II Kültəpədə bir neçə dulusçuluq emalatxanaları öyrənilmişdir. Hazırda açılıb öyrənilən emalatxana qədim şəhərin dulusçuluq sənətkarlığı haqqında yeni və daha dolğun məlumatlar əldə etməyə imkan verir. Hər şeydən əvvəl, emalatxanadan əldə edilən qırmızı boya ilə dolu olan sərnic, Naxçıvan boyalı qablar mədəniyyətinin istehsal texnikası və prosesi haqda yeni fikirlər söyləməyə imkan verir.

2011-ci il qazıntıları emalatxananın tamam açılması məqsədilə aparılır. Qazıntıya başlamazdan əvvəl sahə açılmış torpaqdan təmizləndi və yeni tədqiqata başladıq. Şimal-qərb qala divarından daxildə və xaricdə iş aparıldı. Qala divarından daxildə açılmış divar qalıqlarının bünövrə hissəsi hər iki yandan torpaqdan təmizləndi. Qazıntı nəticəsində sadə və boyalı qab qırıqları, xırdabuynuzlu və iribuynuzlu heyvan sümükləri aşkara çıxarıldı. Bunlar küpə və dopu tipli gil qablardır. Emalatxana divarları uçub dağıldığından qablar qırılmışdır. Lakin onların formaları müəyyən edilir.

Emalatxana sahəsində qazıntı işi görüldü. Emalatxananın şimal, qərb və cənub divarları bir qədər də təmizlənib açıldı. Qala divarına bitişik olan qərb dİvarının bünövrəsi çay daşlarından və möhrədən inşa edilmişdir. Bünövrə 35 sm hündürlükdə olub, möhkəm qurulmuşdur. Kürənin, yanacaq kamerası məhz bu hissədə yerləşir. Qazıntı nəticəsində burada kürənin qalıqları aşkara çıxarıldı. Kürənin bir hissəsi güclü yanma nəticəsində qəhvəyi rəng almışdır.

Burada iri həcmli boyalı küpələr aşkar edildi. Kürənin dağılması nəticəsində, uçmuş divarların altında qalan həmin küpələr əzilmişdir. Küpələr monoxrom boyalı (qara rənglə naxışlanmışdır) olub həndəsi motivdə bəzədilmişdir.

Emalatxananın şimal divarı qalıqlarından üstdəki mədəni laylar qazıldı. Burada 35 sm qalınlığındakı mədəni laydan son tunc dövrünə aid sadə (boz, çəhrayı) və monoxrom boyalı gil qab qırıqları aşkara çıxarıldı. Qırmızı rəngli monoxrom boyalı, qalın divarlı gil qab qırığının üzərində simvolik məna daşıyan yapma bəzək (S-vari) var. Digər bir qab qırığı üzərində yapma ilan fiquru verilmişdir. Boz rəngli gil qab qırıqları üzəri cızma naxışlarla bəzədilmişdir.

Emalatxana qalıqlarından üstdəki mədəni laylar bir qədər təmizləndikdə qərb-şərq istiqamətdə uzanan divarın bünövrə qalıqları aşkara çıxarıldı. Divar bünövrəsi (uzunluğu 4 m) çay daşlarından və palçıq məhluldan inşa olunmuşdur. Fundamentin eni 75 sm, hündürlüyü 25 sm-dir. Çay daşları orta tunc dövrünün son mərhələsinə aid mədəni layda qazılmış bünövrə yerinə lazımi səliqə ilə düzüldükdən sonra palçıq məhlulla doldurulmuşdur. Bu sahədə son tunc dövrünə aid divar bünövrəsindən altda 40 sm qalınlığında mədəni lay yerləşir.

Orta tunc dövründən son tunc dövrünə keçid mərhələsinə aid bu mədəni laydan altda isə emalatxana qalığının bir hissəsi yerləşir.

Mədəni təbəqələrin bir-birinə nisbəti bu qazıntı zamanı yaxşı izləndi. II Kültəpədə indiyə qədər aparılan qazıntılar zamanı bu mühüm məsələyə xüsusi diqqət yetirilmişdir.





Yeni qazıntılar vaxtilə II Kültəpənin tunc dövrü mədəni təbəqələrinin qalınlığı, əldə edilən materiallara əsasən burada yaşayış tərzinin müddəti və mədəni səviyyəsi haqda söylənilən eyni fikirlərə bir qədər də dəqiqlik və aydınlıq gətirir.

Bu qazıntılar göstərir ki, II Kültəpədə son tunc və ilk dəmir dövrünə aid 3-3,5 m qalınlığında mədəni təbəqə mövcuddur. Bu mədəni təbəqənin materialları qədim şəhərdə son həyat tərzinin e.ə. VII əsrədək davam etdiyini göstərir.

E.ə. XIV – XIII əsrlərə aid mədəni layların materialları, xüsusilə keramika məmulatında orta tunc dövrü mədəniyyətinin mühüm xüsusiyyətləri boyalı qablarda özünü daha aydın şəkildə göstərir. Mədəni təbəqə 40-50 sm qazılıb, son tunc dövrü mədəniyyəti öyrənildikdən sonra, emalatxanadan şimal-şərqdə (2-ci kvadrat) qala divarının izini – davamını müəyyənləşdirmək mümkün oldu. Qala divarına bitişik sahədə çoxlu çay daşları vardı. Bu inşaat materialları uçmuş tikintilərə məxsusdur. Onlar götürüldükdən sonra 30-40 sm

qalınlıqda kül və torpaq qarışıq lay qazıldı. Buradan sadə (boz, çəhrayı) və monoxrom boyalı gil qab qırıqları əldə edildi. Maraqlı tapıntı daşdan, qapı-dabana altlığıdır. Deməli, təmizlənən çoxlu çay daşları tikintiyə məxsusdur. Ola bilsin ki, Emalatxana sahibinə məxsus yaşayış evi burada yerləşmişdir. Bu fakt bir daha göstərir ki, II Kültəpədə orta və son tunc dövrləri ərəfəsinə məxsus olan dulusçuluq emalatxanası yaxşı istehsal imkanına malik olmuşdur. Bu fikri əldə edilən növbənöv keyfiyyətli keramika məmulatı, xüsusilə, boyalı qablar bir daha əsaslandırır.

Şimal-qərb qala divarının bir hissəsi keçən qazıntılar zamanı 1-2-ci kvadratlarda qismən təmizlənib açılmışdır. Həmin qazıntılarda müəyyən edilmişdir ki, II Kültəpədə e.ə. XVI – XV əsrlərdə basqınlar nəticəsində uçurulmuş şimal və qərb divarları yenidən bərpa olunmuşdur. Bu ikinci qala divarları inşası birinci qala divarı planında aparılmışdır. Baş vermiş tarixi hadisəyə aydınlıq gətirmək üçün şimal-qərb qala divarının açılmamış hissəsi təmizləndi.

Emalatxana sahəsindən şimalda qala divarının üst hissəsi (3-cü kvadratda) təmizlənib açıldı. Divarın ön tərəfində möhrə tikinti qalığı və kül layı götürülərkən orta tunc dövründən son tunc dövrünə keçid mərhələsinə aid lay qazıldı. Buradan qırmızı rəngli, monoxrom boyalı küpə qırıqları, dopu, ellipsvari daş alət, qəhvəyi rəngli çaxmaq daş lövhələri, iri buynuzlu heyvan sümükləri aşkara çıxarıldı.

Monoxrom boyalı qablar qara rənglə, sadə həndəsi motivlərlə naxışlanmışdır. Çaxmaqdaşı lövhələrin bir ağzı hər iki tərəfdən yaxşı cilalanmışdır. Ellipsvari daş alətin hər iki üzü yastı dairəvi çala da ayrılmışdır.

Qala divarı üzərində və önündə (3-4-cü kvadratlarda) qazıntı işi davam etdirildi. Qala divarının bünövrəsi 5 m uzunluqda, içəri tərəfdən təmizləndi. Bünövrə üst-üstə üç cərgə orta həcmli çay daşlarından qurulmuş, araları gil palçıq məhlulla doldurulmuşdur. Bünövrə daşları müəyyən memarlıq üslubunda hörülmüşdür. Daşların hörgüdə bir-birini bağlamasılə bünövrənin monolit möhkəmliyi təmin edilmişdir. İkinci, üçüncü daş düzümündə bu xüsusiyyət aydın görünür. Bünövrənin hündürlüyü 90-95 sm-dir. Bünövrədən üstdə divar iri ölçülü çiy kərpiclərlə hörülmüşdür. İkinci qala divarının bünövrəsi və memarlıq inşa üslubu 15 m uzunluğunda açılmış qala divarı boyunca izləndi. Son tunc dövrü təbəqəsi 1-3-cü təbəqələrdə qazıldı. Bu mədəni laylarda (30 sm qalınlıqda) orta tunc dövrü ilə bağlılıq izlənir. Qala divarından içəridə olan bu mədəni laydan əldə edilən monoxrom boyalı və boz rəngli gil qab qırıqları orta tunc dövrü dulusçuluq sənəti ilə bağlı bir çox elementləri saxlamışdır. Qabların üzərinə tünd qırmızı rəng çəkilmiş və bu fon üzərində qara rənglə həndəsi naxışlar, dalğalı xətlər, bucaqlar çəkilmişdir.

3-cü kvadratda çoxlu çay daşları vardır. Burada bina yerləşmişdir. Planını tam məyyən etmək mümkün deyil. Bu ev yerindən gil qab qırıqları, dən daşı, sürtgəc qırıqları aşkara çıxarıldı. Qala divarından daxildə (2-3-6-cı kvadratlarda) və xaricdə qazıntı davam etdirildi. 3-cü kvadratda son tunc dövrünə aid mədəni laylar qazıldı, orta tunc dövrü təbəqəsinə çatdırıldı. Bu sahədə də tunc dövrünün mərhələləri arasında qırılmaz bağlılıq özünü göstərdi. Qazıntıdan monoxrom boyalı qab qırıqları, daş əmək alətləri qırıqları, heyvan sümükləri əldə edildi. Bir ədəd çaxmaqdaşı nukleus tapıldı. Nukleus dördüzlü qəlpələnmişdir.

3, 6-cı kvadratlarda qazıntı işi görüldü. 3-cü kvadratda qala divarının ikinci inşasına aid enli divar qalığı təmizləndi. Bu qala divarı qalığı bünövrəyə məxsus olub iri daşlardan qurulmuş, arası orta və kiçik həcmli daşlarla, palçıq məhlulla doldurulmuşdur. Bünövrə qala divarının ümumi planı ilə eyni istiqamətdədir. Bu qazıntıdan sadə və boyalı qab qırıqları, dən daşları qırıqları aşkar olundu. Qazıntı işləri orta tunc dövrü təbəqəsinə çatdırıldı. 1-2-ci kvadratlarda mədəni təbəqə 40 sm qalınlığında qazıldı. 2-ci kvadratda keçən ilk qazıntıda bir hissəsi qismən açılan dulusçuluq emalatxanasının digər açılmamış sahəsi təmizləndi. Mədəni lay gil, möhrə tikinti qalığından ibarətdir. Daha doğrusu emalatxananın uçub dağılmış divarlarının qalıqlarından ibarətdir. Emalatxananın divar qalıqları götürüldükdən sonra, kürə qalıqları aşkar olundu.

Tünd qəhvəyi rəngdə yanmış kürənin yanacaq, qızdırıcı kamerası tamam dağılmışdır. Burada çoxlu monoxrom boyalı qablar (əzilmiş vəziyyətdə) aşkara çıxarıldı. Qablar iri həcmli küpələrdən ibarətdir. Qazıntı 2-ci kvadratda, bir qədər də 3-cü kvadratda aparıldı.

Emalatxana sahəsinin uçub-tökülmüş möhrə tikinti qalığı təmizləndi və ehtiyatla aşkar olunan keramika məmulatı götürüldü. 1-2-ci kvadratlarda orta tunc dövrü divar qalıqları açıldı. Bu, divarların

bünövrələrindən ibarətdir.

Birinci kvadratda şərq-qərb istiqamətdə üst-üstə divar qalıqları aşkar olundu. Bu divar qalıqları orta tunc dövrünün son mərhələsinə və son tunc dövrünə keçid mərhələsinə aiddir. Divarların memarlıq inşa texnikası eynidir. Bünövrə çay daşlarından və gil palçıq məhlulla qurulmuşdur. E.ə. XVII – XVI əsrlərə aid layda yerləşən evin divar bünövrəsinə toxunulmamış, birbaşa üzərindən XV əsrdə yeni yaşayış evinin bünövrəsi qurulmuşdur. Evin divarları gil palçıq möhrədən tikilmişdir. Bu sahədə qalın möhrə layı vardır. Evin cənub və şimal divarları qala divarına perpendikulyar planda tikilmişdir. Ev qala divarına bitişik olmuşdur. Görünür bu ev emalatxana sahibinə məxsus imiş. Qazıntı 1-3-cü kvadratlarda davam etdirildi.

Birinci qazıntı sahəsində keçən ilkin qazıntı zamanı izlənilən dördkünc plana malik evin divarlarının qalıqları tamam təmizlənib açıldı. Qərb qala divarına yaxın inşa olunan bu evin qərb və şimal divarlarının bünövrələri açıldı. Bünövrə 3 cərgə çay daşlarından yaxşı düşünülmüş memarlıq texnikası ilə qurulmuşdur. Orta tunc dövrünün mədəni təbəqəsində qazılmış bünövrə yerinə 3 cərgə çay daşları bir-birinə sıx bağlanmaqla, səliqə ilə düzülmüş, aralardakı boşluqlar xırda daşlarla və gil palçıq məhlulla doldurulmuşdur. Bünövrənin möhkəmliyi yüksək keyfiyyətdə təmin edilmiş, üstündən möhrə divar inşa edilmişdir.

Qərb divarının açılan hissəsinin uzunluğu 2,8 m, şimal divarının uzunluğu 2,9 m-dir. Bünövrənin eni 60 sm, hündürlüyü 30 sm-dir. Qərbdəki divar qala divarı ilə xaricdən bağlıdır. Bu bağlılıq evin möhkəmliyi, davamlılığını təmin etmişdir. 3-6-cı kvadratlarda açılmış şimal qala divarı qalığı tamam təmizləndi. Bu bünövrə qalığının uzunluğu 2,5 m, eni 2,1 m, hündürlüyü 80 sm-dir. Bünövrədən daxildə çoxlu gil qab qırıqları, dən daşları və vurma alətlər aşkara çıxarıldı. Emalatxana sahəsi tamam təmizləndi. Kürə yerinin açılmamış sahəsi təmizlənərkən çoxlu yanmış bad-kürə kamerasının qalıqları aşkara çıxarıldı.

Emalatxanadan şimalda açılmış son tunc – ilk dəmir dövrünə aid enli divarın bir hissəsi tamam təmizlənib açıldı. Bu divar şərq-qərb istiqamətdə inşa olunmuş, qərb tərəfdən qala divarına söykənir. Bir növ ikinci dəfə ucaldılan qala divarının möhkəmliyini təmin etmək məqsədilə içəridən dayaq kimi tikilmişdir. Bu divarla eyni zamanda qala divarının üstünə çıxıb düşmənə qarşı vuruşurdular. Divarın yaxınlığında müxtəlif həcmli daş topası vardır. Görünür döyüş zamanı bu daşlar qala divarı üzərinə yığılıb qalaya hücum edənlərə atılırmış.

Bu sahədə (2-ci kvadratda) iri həcmli çay daşları tikinti qalığı vardır. Uzunluğu 3 m, eni 1,4 m, hündürlüyü 70 sm-dir. Bu inşaat daşlarının davamı izlənilir. Gələcək qazıntılar genişləndirilərək açılacaqdır. Tikinti daşları yaxınlığında iri həcmli alt dən daşı aşkar olundu. Ovalvari boz daşdan hazırlanmışdır. Oturacaq hissəsi bir qədər qabarıqdır. İşlədilən üst hissəsi hamardır. Uzunluğu 50 sm, eni 35 sm, hündürlüyü 10 sm-dir. Tikinti qalığı yaxınlığından qapı dabana daşı və kiçik həvəng daşı aşkar olunmuşdur. Burada dairəvi ocaq çalası yerləşmişdir. Ocağın içərisi kül və kömürlə dolu idi. Bütün bu kompleks materiallar yaşayış evinə məxsusdur.

Qala divarı şimal istiqamətdə təmizlənib açıldı. Bu məqsədlə qazıntı sahəsi şimala doğru genişləndirildi. Əlavə olaraq 8 m^2 sahə ayrıldı. Qala divarının aşınmış xarici səthi təmizləndi. Burada çiy kərpic divar qalığı qismən salamat qalmışdır. Bu sahənin qala divarı istiqamətində içəri tərəfdə qazıntı işi aparıldı. Aşınmış torpaq layı təmizləndikdə 1 m dərinlikdə qala divarının şimal hissəsinin bünövrəsi açıldı. Bünövrə bir qayda olaraq iri və orta həcmli daşlardan, düşünülmüş memarlıq planında qurulmuşdur. Bünövrəyə hörülmüş, iri həcmli kənar daşların arasına orta və xırda həcmli çay daşları düzülərək gil palçıq məhlulla doldurulmuşdur. Bu sahədə bünövrə 2,5 m uzunluqda açıldı. Bünövrənin eni 2,15 m, hündürlüyü 1,5 m-dir.

Bünövrə qalığından daxildə qalan sahədən son tunc və ilk dəmir dövrünə aid boyalı, sadə gil qab qırıqları, heyvan sümükləri, dən daşı qırıqları aşkara çıxarıldı.

Qazıntı nəticəsində II Kültəpə (Qədim Naxçıvan) şəhərinin Narınqalasının şimal divarının planı tam müəyyənləşdirildi. Yeni qazıntılar vaxtilə qala divarının düzgün memarlıq planının işləndiyini sübuta yetirdi. II Kültəpənin Narınqalası kamil düşünülmüş memarlıq planında inşa olunmuşdur. Naxçıvanın orta, son tunc və ilk dəmir dövrü qalalarının inşasında II Kültəpə Narınqalası tikinti texnikası ənənələri davam etdirilmişdir.

Son tunc – ilk dəmir dövrü materialları

Keramika məmulatı

Son tunc və ilk dəmir dövrü keramika məmulatı sadə və boyalı qab qırıqlarından ibarətdir. Sadə qab qırıqları küpə və dopu tipli gil qablara məxsusdur.

Küpələr iri və orta həcmlərdə hazırlanmışdır. Küpələr boz, qara, qəhvəyi rəngdə olub, gillərinə narın qum qatılmış, yaxşı yoğrulmuşdur. Qabların divarları bərabər qalınlıqdadır. Buradan görünür ki, sadə gil qablar dulus çarxından istifadə olunaraq istehsal edilmişdir. Qablar simmetrik formaya malik olmuşdur. Divarları daxildə və xaricdə hamardır. Bundan əlavə sadə gil küpələrin üzərinə və ağzının içərisinə anqob çəkilmişdir.

Küpələrin gövdəsi çiyin və gövdənin yuxarı hissəsində qabarıq olub, oturacağa getdikcə tədricən yığılır. Ağız kənarı geniş olub, qırağı xaricə əyilmişdir. Bu tip sadə qabların bütövləri əvvəlki qazıntılarda əldə edilmişdir. Küpələrin oturacağı yastı və genişdir.

Qəhvəyi rəngli küpələrin bəzilərinin gövdəsinin çiyin hissəsində üfüqi istiqamətdə yapma zolağı (kəməri), haşiyəsi var. Bu küpələrin içərisinə nazik gil məhlulu çəkilərək yaxşı suvanmışdır. Bu suvaq küpədəki mayenin sızmasının qarşısını almaq məqsədilə çəkilmişdir.

Dopu tipli boz rəngli gil qablar kiçik həcmdə olub, gillərinə narın qum qatılmışdır. Ağzının kənarı xaricdən üfüqi batıq zolaqla əhatələnmişdir. Gövdəsi boğaz hissədən başlayaraq, çiyinə bir qədər qabarıqdır. Dopular nazik divarlı hazırlanmış, yaxşı keyfiyyətdə bişirilmişdir. Divarı oturacağa doğru yığılır. Oturacaqları kiçik və yastıdır.

Sadə qablara orta həcmli küplər də daxildir. Bu küplərin hazırlanması üçün daha keyfiyyətli gil seçilmiş, tərkibinə narın qum qatılmış, yaxşı yoğrulmuşdur. Gilin sıxlığı yüksək keyfiyyətdə olduğundan küpünün özünün möhkəmliyi təmin olunmuşdur. Küp geniş ağızlı olub, kənarı xaricə əyilmişdir. Ağzının qırağı maili köbəlidir. Üzəri və içərisi yaxşı sığallı olub anqobla örtülmüşdür. Açıq çəhrayı rəngdə yüksək keyfiyyətdə bişirilmişdir. Gövdəsi çiyin hissədə qabarıq olub, üfüqi qabarıq, yapma zolaqla haşiyələnmişdir – xüsusi basma (ştamp) alətlə.

Boğazı yapma zolaqdan yuxarıda iki cərgə dalğavari xətlərlə naxışlanmışdır. Qabarıq zolaqdan aşağıda üfüqi istiqamətdə cızma dalğavari xətlərlə bəzədilmişdir. Bu xətdən aşağıda cızma qısa xətlərlə, çox baxımlı üçbucaqlarla naxışlanmışdır.

Küpənin gövdəsi uzunsov, ovalvari formadadır. Bu tip küplər II Kültəpənin orta və son tunc dövrü təbəqələrində tək-tək təsadüf olunur. Belə yüksək keyfiyyətli məişət qabları görünür xüsusi sifarişlə hazırlanmışdır.

Son tunc və ilk dəmir dövrü keramika məmulatlarının böyük əksəriyyəti boyalı qablardır. Qədim Naxçıvan dulusçuluğu üçün səciyyəvi olan boyalı qablar istehsalı məhz bu dövrdə də davam etdirilmişdir.

Son tunc dövrünə aid boyalı qab nümunələri monoxrom boyalı qablardır. Qablar küpə, badya, xeyrələrdən ibarətdir. Küpələr iri və orta həcmdədir. İri həcmli küpələr qırmızı rəngdədir. Bu qabların hazırlanması üçün daha keyfiyyətli gil seçilmiş, tərkibinə narın qum qatılmışdır, böyük həssaslıqla, yüksək keyfiyyətdə yoğrulmuşdur. Monoxrom boyalı küpələr geniş ağızlı, qabarıq gövdəli, yastı, geniş oturacaqlıdır. Forma etibarilə bu küpələr orta tunc dövründə geniş istehsal edilən küpələrlə tam eyniyyət təşkil edir. Bu küpələrin ağzının içərisi üfüqi batıq xətlə əhatə olunur. Küpələrin üzərinə və ağzının içərisinə qırmızı boya ilə örtülmüşdür. Ağzının içərisinə bərabər ölçülərdə maili qara xətlər (4 cərgə) çəkilmişdir. Küpələrin boğazı xaricdə qara rənglə çəkilmiş dalğavari xətlərlə (5-6 cərgə) naxışlanmışdır. Orta tunc dövrü boyalı küpələrindən fərqli olaraq bu küpələrin üzərində dalğavari xətlər bir qədər açılmış xətlərlə, səliqəli sistem gözlənilmədən çəkilmişdir. Digər tərəfdən xətlər bir qədər qalın və səliqəsiz işlənmişdir.

Küpələrin bəzilərinin ağzının kənarı azca xaricə əyilmişdir. Xaricdə boğazından (ağzının altından) başlayaraq qara rənglə çəkilmiş, bir-birinin içərisində yerləşən bucaqvari xətlərlə naxışlanmışdır.

Bəzi küpələrin boğazının altında bir-birinin içərisində üç bucaqlar çəkilmişdir.

Orta tunc dövrü monoxrom boyalı qablarında dəqiq işlənmiş bucaq rəsmləri, son tunc dövrü monoxrom boyalı küpələrin üzərində sadələşdirilmiş motivdə verilmişdir. Badya tipli monoxrom boyalı

qablar geniş ağızlı, çiyin hissədə azca qabarıq, yastı oturacaqlıdır. Ağız kənarları küpələrdə olduğu kimi, azca xaricə əyilmişdir. Üzərləri və ağız kənarları qırmızı boya ilə örtülmüşdür. Ağzının içəridən kənarına bir neçə bərabər ölçüdə üç paralel qara xətlər çəkilmişdir. Çiyin hissəsi xaricdən, üfüqi istiqamətdə geniş dalğalı xətlə (3 cərgə) naxışlanmışdır. Badyanın ağzının altı ilə çiyninin arasında çəkilmiş xətlər bucaq əmələ gətirir.




Orta tunc dövrü monoxrom naxış motivlərində belə elementlər daha dəqiq işlənmişdir. Bəzi badyaların çiyin hissəsi qara rənglə çəkilmiş üç cərgə bucaqlarla naxışlanmışdır. Burada bucaqların yan xətti bəzən bir-biri ilə kəsişir. Bu isə dulusçunun diqqətsizliyinin nəticəsidir.

Qırmızı rəngli, xeyrə tipli monoxrom boyalı qabların ağzı geniş, qırağı düz, cüzi olaraq xaricə mailidir. Ağzının qırağı xaricdə şaquli istiqamətdə lentvari köbəlidir. Üzəri və ağzının içərisinə qırmızı boya çəkilmişdir. Çiyin hissəsi üfüqi istiqamətdə paralel xətlərlə (5 cərgə) naxışlanmışdır. Xeyrə iri həcmli olduğundan sənətkar ornamentin baxımlı, zövq oxşayan görünməsi üçün xətləri müəyyən ölçüdə çəkdikcə onlar arasında birləşdirici şaquli, qısa düz xətlər çəkilmişdir.

Son tunc dövründən ilk dəmir dövrünə keçid mərhələsində keramika istehsalında müəyyən dəyişikliklər baş vermişdir. Hər şeydən əvvəl qabların forma və hazırlanma texnikasında yenilik nəzərə çarpır.

Bu dövrə aid keramika məmulatı forma etibarilə son tunc dövrü gil qablarının formalarını təkrarlasa da, müxtəlif qabların özünəməxsus elementləri vardır. Qablar formaca küpə, dopu, xeyrə tiplidir. Küpələr əsasən çəhrayı, qırmızı rəngdə olub, gillərinin tərkibində narın qum qatışığı vardır. Küpələr bir qayda olaraq qalın divarlı hazırlanmışdır. Əksəriyyəti orta həcmlidir, yaxşı keyfiyyətdə bişirilmişdir.

Küpələrin çoxu qısa boğazlı, qabarıq gövdəli, yastı oturacaqlıdır. Dulus çarxında səliqəli hazırlanmış, üzəri və içərisi yaxşı sığallı olub, anqobla örtülmüşdür. Üzərlərinə və ağız kənarına, içəridən qırmızı rəng – boya çəkilmişdir. Bəzi küpələrin ağzının içərisinə qara, qəhvəyi rəng çəkilmişdir. Ağız kənarları xaricə əyilmiş, əksəriyyəti lentvari köbə çıxıntılıdır. Bəzi küpələrin boğazı silindrik və qısadır. Gövdələri çiyin hissədə qabarıqdır. Silindrik boğazlı küpələrin bir qisminin üzərinə tünd qırmızı, ağzının kənarına içəridən qəhvəyi rəng çəkilmişdir.




İlk dəmir dövründə monoxrom boyalı badyalar da hazırlanmışdır. Badyalar geniş ağızlı olub, gövdəsi çiyin hissədə azca qabarıqdır. Ağzının kənarı düz olub, xaricə köbəlidir. Üzəri, ağzının kənarı içəridən qırmızı boya ilə örtülmüşdür. Ağzının altı xaricdə beş cərgə paralel xətlərlə əhatələnmiş, bundan aşağıda, çiyin hissəsi həndəsi motivlə (bucaqlarla) naxışlanmışdır.

Badyalardan biri tünd qırmızı rəngdədir. Ağzı geniş və düzdür. Ağzının qırağı xaricə qabarıq köbəlidir. Gövdəsi azca qabarıqdır. Çiyin hissəsində simvolik yapma "S"-vari bəzək var. Bu badyanın üzəri və içərisinə tünd qırmızı rəng çəkilmişdir.

Badyaların bəziləri iri həcmdədir. Forma etibarilə orta və son tunc dövrü badyaları ilə eyniyyət təşkil edir. Əsasən gen ağızlı, düz divarlıdır. Ağzının kənarı xaricdə köbəlidir. Üzəri və içərisi yaxşı sığallı olub, anqobla örtülmüşdür. Üzərinə qırmızı boya çəkilmişdir. Bu fon üzərində ağzının altı xaricdən qara rənglə 5 cərgə üfüqi xətlərlə, gövdəsinin yuxarı hissəsi iki cərgə, bir-birilə paralel şəkildə geniş dalğavari xətlərlə naxışlanmışdır. Dalğavari naxışlar üfüqi istiqamətdə xeyrənin gövdəsini əhatə edir.

İlk dəmir dövrünə aid qalın divarlı badya qırığının üzərində yapma ilan (quyruq) var. Qabın üzəri tünd qırmızı rənglə örtülmüşdür.

İlk dəmir dövrü monoxrom boyalı küpələrin bir qrupu, orta və son tunc dövrü küpələri kimi dar və qısa boğazlı hazırlanmışdır. Küpənin ağız kənarı azca xaricə əyilmişdir. Gövdəsi qabarıq olub, oturacağa getdikcə tədricən daralır. Oturacağı yastı və genişdir. Gilinə narın qum qatılmış, yaxşı bişirilmiş, çəhrayı rəngdədir. Üzərinə və ağzının içərisinə qırmızı rəng çəkilmişdir. Boğazı qara rəngli üfüqi xətlə əhatələnmişdir. Həmin xətdən başlayaraq gövdənin ortasına qədər uzanan qoşa xətlər çəkilmişdir. Hündürlüyü 21 sm, gövdəsinin diametri 20 sm, oturacağının diametri 9,5 sm-dir.

Daş məmulatı.

Son tunc və ilk dəmir dövrü təbəqəsindən aşkar olunan daş məmulatına dən daşları, sürtgəclər, çaxmaqdaşı nukleus, vurma daş alət, kiçik həcmli daş həvənglər, çaxmaqdaşı və obsidian lövhələr daxildir.

Dən daşları ovalvari, uzunsov və dairəvi formaya malikdir. Əsasən çay daşından, boz rəngli bazaltdan hazırlanmışdır. Məişətdə müxtəlif məqsədlər üçün istifadə olunan dən daşları və sürtgəcləri hazırlamaq məqsədilə müvafiq formalı daşlar seçilərək üzərində müəyyən dişəkləmə, hamarlama işi görülmüşdür. Oturacaq hissə daşın təbii vəziyyətindədir. Üzərləri bir qədər dişəklənərək, taxıl və başqa məhsulları töküb əzmək üçün əlverişli yastı səth alınmışdır.





Çaxmaqdaşı nukleus dördkünc formaya malikdir. Çaxmaqdaşı dörd tərəfdən qəlpələnərək lövhə səthləri alınmışdır. Sonra ondan düzbucaqlı, uzunsov lövhələr qoparılmışdır. Hər iki başda ağ rəngli patina layı qalır. Uzunluğu 6 sm, eni iki qarşı-qarşıya olan tərəflərdə 4 sm, digər iki üzdə isə 3 sm-dir.



Vurma daş alət qəhvəyi, bir hissəsi tünd göy rəngli çaxmaq daşından hazırlanmışdır. Ovalvari formaya malikdir. Hər tərəfdən qəlpələnərək yadro formasına salınmışdır. Baş tərəfində dördbucaqlı yastı səth var. Qəlpələmə işi bu tərəfdən aparılmış, istənilən forma alınmışdır. Alətin əksər kütləsi tünd qəhvəyi rəngdədir. Bu daşın tərkibində çoxlu dəmir var. İstənilən qoparma, parçalama, əzmə işi görmək üçün kifayət qədər ağırlığa malikdir. Kütləsi o qədər də iri olmasa da 2 kq-dan ağırdır. Əldə rahat tutulur. Hündürlüyü 9 sm, diametri 7-8 sm-dir.

Qəhvəyi rəngli nukleusla yanaşı tapılan çaxmaqdaşı lövhələr (4 ədəd) sıxma, qəlpələmə və dişəkləmə texnikası ilə yaxşı işlənmişdir. Qəhvəyi rəngli bu lövhələr, dördkünc və uzunsov ovalvari formaya malikdir. Lövhələr hər iki yastı üzdən məharətlə qəlpələnmişdir. Bir ağzı (tili) xüsusi məqsədlə işləndiyindən mişarvari dişlidir. Dişlər hər iki üzdən işlənmişdir. Əks ağız – kəsici tildə hər iki üzdən incə texnika ilə işlənibdir. Görünür, bu dişli lövhələr əkinçilikdə biçin aləti kimi istifadə edilən quraşdırma çərçivəli oraq üçündür. Lövhələrin hər iki kəsici ağzı işləndiyindən sürtülüb cilalanmış, parıltı verir. Bu lövhələr müəyyən ağac və yaxud sümük çərçivəyə düzülərək bıçaq, mişar tipli kəsici alət kimi də istifadə oluna bilərdi. Belə alətdən biçin aləti oraq kimi də istifadə etmək mümkündür. Açıq boz rəngli çaxmaqdaşı lövhə xüsusi kəsici alətdir. Bu lövhə enli, dördkünc formadadır. Bir ağzı nisbətən uzundur. Hər iki tərəfdən yaxşı dişəklənərək iti, kəsici alət düzəldilmişdir. Əks tərəfdəki tili, ağzı da dişəklənərək iti kəsicidir. Hər iki ucları da iki üzdən dişəklənərək itilənmişdir. Beləliklə, lövhənin hər iki ağzı və tilləri kəsicidir. Müxtəlif məişət işlərində, sənət sahələrində, kəsmək, dəri işləmək, ağac, sümük yonma, pardaxlama işlərində istifadə olunmaq üçün əlverişli alətdir. Bu lövhə bıçaq tipli kəsici alətdir. Əldə və yaxud ağac, sümük çərçivəyə bərkitməklə istifadə edilmişdir.

Son tunc, ilk dəmir dövründə obsidian lövhələr və qəlpələrdən müəyyən təmizləmə, qaşıma, hamarlama işlərində istifadə olunmuşdur. Qazıntıdan müxtəlif formalı obsidian qəlpələr əldə edilmişdir. Qəlpələr qara rəngli nukleusdan qoparılmışdır. Onların müəyyən tillərində dişənmə işi aparılmışdır. Əksəriyyətinin uc və kəsici tillərində işlənmə izləri vardır. Daş məmulatlarına dairəvi formalı, kiçik həcmli, tünd boz rəngli həvəng də daxildir. Həvəng daşı hər tərəfdən yaxşı dişəklənərək, üzərində çala oyulmuşdur. Oturacaq hissəsi yastıdır. Həvəngin içərisində məişətdə geniş istifadə olunan duz və müxtəlif ədviyyatlar əzilmişdir. Belə həvənglər üçün kiçik həcmli ovalvari və silindrik formalı dəstəklərdən istifadə olunmuşdur. Diametri 10-11 sm, hündürlüyü 5 sm-dir, çalasının diametri 8 sm, çalanın dərinliyi 2 sm-dir.

Ovalvari formaya malik olan boz rəngli daş alət xüsusi məqsəd üçün hazırlanmışdır. Alət hər tərəfdən yaxşı dişəklənərək hamarlanmışdır. İstifadə zamanı rahat oturdulması üçün oturacağı dişənərək yastılanmışdır. Üzərində çala oyulmuşdur. Diametri 7-9 sm, hündürlüyü 7 sm, oturacağının diametri 1,5-2 sm, çalasının diametri 2,5-3 sm, çalasının dərinliyi 1,5 sm-dir. Ovalvari, boz rəngli daş alətin hər iki yastı üzündə kiçik dairəvi çala oyulmuşdur. Bu alətin oyuqları barmaq yerləşməsi üçün rahatdır. Əldə rahat tutulur, ikitərəfli barmaqlar oyuqlara yerləşdirilir. Beləliklə, müəyyən maddələri əzmək, narınlatmaq mümkün olur. Alətin çalalarında dərinləşmə olduğundan ondan digər məqsədlər üçün də istifadə edildiyini söyləmək mümkündür. Belə çalaya nazik uclu sümük, yaxud ağac aləti söykəyib iş görmək də mümkündür. Bu alətin toxuculuqla (əyricilik), ağac, sümük işləmə sənəti ilə bağlılığı haqda da mülahizə söyləmək olar. Alətin diametri 3-4 sm, hündürlüyü 6,5 sm, çalasının diametri 3 sm, çalanın dərinliyi 1 sm-dir.

Son tunc dövrü təbəqəsindən 1 ədəd badamvari formada hazırlanmış ox ucu əldə edildi. Açıq boz rəngli çaxmaq daşından hazırlanmış, hər tərəfdə yaxşı dişəklənmişdir. Arxası ox çubuğuna bərkitmək üçün qanadı haçadır. Uzunluğu 2,4 sm-dir.

Orta tunc dövrü materialları.

Orta tunc dövrünün mədəni laylarından, xüsusilə dulusçu emalatxanası sahəsindən zəngin arxeoloji material əldə edildi. Buraya keramika, daş məmulatları daxildir. Keramika məmulatı sadə – qara, boz rəngli gil qablardan və monoxrom boyalı qablardan ibarətdir. Monoxrom boyalı qablar faiz etibarilə (80%) böyük üstünlük təşkil edir. Bu keramika məmulatı iri həcmli küpələr, badya, kasa tipli qablardan ibarətdir.

Emalatxana yerindən, xüsusilə kürə sahəsindən aşkar olunan monoxrom boyalı küpələrin əksəriyyəti iri həcmlidir. Kürənin və emalatxananın uçub dağılması nəticəsində küpələrin hamısı ağır uçqun qalığı altında qalaraq qırılmışdır.

Monoxrom boyalı küpələr geniş ağızlı olub, ağız kənarı xaricə əyilmişdir. Ağzının kənarı içəridən üfüqi istiqamətdə batıq xətlə əhatələnmişdir. Küpələrin gövdəsi qabarıq olub oturacağa getdikcə yığılır. Oturacaqları yastı və genişdir. Gilləri çox keyfiyyətlidir. Tərkibinə narın qum qatılmışdır. Yaxşı keyfiyyətdə bişirilmiş çəhrayı rəngdədir. Divarı xaricdə yaxşı sığallanmış, anqobla örtülmüşdür. Həcmcə iri olmasına baxmayaraq, nazik divarlı və simmetrik formada hazırlanmışdır. Üzərləri və ağzının içərisi qırmızı rənglə örtülmüş, qara rənglə həndəsi motivlərdə naxışlanmışdır.

Küpələrdən birinin boğazı və çiyni bir-birinə paralel 5 cərgə dalğavari xətlərlə naxışlanmışdır.

Gövdənin orta hissəsinə üfüqi istiqamətdə 4 cərgə paralel dalğalı xətlər çəkilmişdir. Bu dalğalı xətlər sıx əyintili xətlərlə çəkilmiş, onların arasında qırmızı fonda üçbucaqlar alınmışdır. Sənətkarın bu yaradıcı fantaziyası nəticəsində küpə çox gözəl bədii tərtibat almışdır. Ağzının içərisinə bir neçə yerdə 4 paralel qısa xətlər çəkilmişdir. Hündürlüyü 50-60 sm-dir.

İkinci iri həcmli küpənin boğazı enli, gövdəsi çiyin hissədə qabarıqdır. Ağzının kənarı xaricə əyilmişdir. Üzəri və ağzının içərisi qırmızı rənglə örtülmüşdür. Ağzının kənarı içəridən batıq üfüqi xətlə əhatələnmişdir. Boğazına üfüqi istiqamətdə 6 cərgə qara dalğalı xətlər çəkilmişdir. Bu xətlər fırça ilə işlənmişdir. Çiyin hissəsi üfüqi dalğavari qara xətlərlə naxışlanmışdır.

Üçüncü iri həcmli monoxrom boyalı, qırmızı rəngli küpənin ağzı geniş olub, qırağı xaricə əyilmişdir. Ağzının kənarı içəridən batıq üfüqi xətlə əhatələnmişdir. Üzəri və ağzının içərisi qırmızı rənglə örtülmüşdür. Bu fon üzərində boğazı və çiyni dalğavari (qara rənglə) xətlərlə naxışlanmışdır.

Dördüncü iri həcmli küpənin boğazı, çiyni 6 cərgə, qara rənglə çəkilmiş dalğavari xətlərlə naxışlanmışdır. Gövdəsinin yuxarı hissəsi geniş dalğalı xətlərlə (4 cərgə) naxışlanmışdır.

Beşinci iri həcmli küpə boğazı, çiyni və gövdəsinin yuxarı hissəsi geniş dalğavari xətlərlə naxışlanmışdır. Çiyin və gövdədə çəkilmiş dalğavari xətlər arasında qırmızı fonda üçbucaqlar görünür.

Altıncı iri həcmli monoxrom boyalı küpənin ağzı geniş olub, kənarı xaricə əyilmişdir. Ağzının qırağı içəridən batıq üfüqi xətlə əhatələnmişdir. Ağzının içərisinə 5 paralel qısa xətlər çəkilmişdir. Küpənin boğazı 5 cərgə qara, paralel dalğavari xətlərlə naxışlanmışdır. Dalğavari xətlər müəyyən ölçülərdə şaquli enli xətlərlə kəsilir. Küpənin çiyin hissəsi də qara rənglə çəkilmiş, 6 cərgə paralel dalğavari xətlərlə naxışlanmışdır.

Yeddinci iri həcmli monoxrom boyalı küpənin ağzı daha da genişdir. Ağzının kənarı nisbətən düz olub, xaricdə maili köbəlidir. Ağzının içərisi bir-birinə yaxın ölçüdə 6 cərgə qara maili xətlərlə naxışlanmışdır. Boğaz, çiyin və gövdənin yuxarı hissəsi dalğavari xətlərlə naxışlanmışdır.

Səkkizinci iri həcmli monoxrom boyalı küpənin boğazı paralel qara xətlərlə əhatələnmişdir. Bundan altda çiyin və gövdənin yuxarı hissəsi bir-birinin içərisində çəkilmiş bucaqvari həndəsi motivdə naxışlanmışdır.

Monoxrom boyalı küplərdən biri orta həcmlidir. Küpənin ağzı geniş olub, bir qədər xaricə əyilmişdir. Üzəri və ağzının içərisi qırmızı boya ilə örtülmüşdür. Ağzının içərisi qara rəngli qısa xətlərlə naxışlanmışdır. Boğazı xaricdən geniş dalğavari xətlərlə əhatələnmişdir. Dalğavari xətlərdən yuxarıda boğaz hissədə qırmızı fonda yarımdairəvi naxış alınmışdır. 5 cərgəli dalğavari xətlərdən aşağıda, çiyin hissədə qara rənglə, bir-birinin içərisində bucaqlar çəkilmişdir. Bu bucaqlar arasında qırmızı fonda bucaqlar görünür. Bu ornament motivləri küpənin bədii tərtibatını xeyli zənginləşdirmişdir.

Badya tipli monoxrom boyalı qab geniş ağızı, düz ağızlıdır. Ağzının kənarı xaricə mailidir. Badyanın gövdəsi çiyin hissədə qabarıq olub, oturacağa getdikcə tədricən yığılır. Üzərinə və ağzının kənarına daxildən qəhvəyi boya çəkilərək, baxımlı fon alınmışdır. Badyanın boğazı enli qara xətlə əhatələnmişdir. Gövdənin yuxarı hissəsi əsası aşağıya olan üçbucaqlarla və bitişik qoşa üçbucaqlarla naxışlanmışdır. Naxış kompozisiyası çox gözəl bədii tərtibatda verilmişdir. Üç üçbucaqlar bir-birilə yanaşı çəkildikdən sonra bir bucağı biri-birinə bitişik üçbucaqlar çəkilmişdir. Bundan sonra yenə də yan-yana əsasları aşağıya olan üçbucaq rəsmləri təkrarlanır. Üçbucaqların içərisi paralel düz xətlərlə şəbəkələnmişdir. Üçbucaqların kənar xətləri qalın xətlərlə, içərisindəki xətlər isə nazik, incə işlənmişdir. Bu üçbucaq ornamentlər arasındakı bitişik üçbucaqların içərisi isə qara rənglə doldurulmuşdur. Bir qayda olaraq belə kompozisiyalı ornament qabın orta hissəsinədək davam edir və üfüqi xətlə tamamlanır.

Kasa tipli monoxrom boyalı qabların qırıqları əldə edilmişdir. Kasaların ağzı geniş olub, qırağı xaricə çıxıntılı və nazikdir. Gövdəsi yuxarı hissədə azca qabarıqdır. Kasanın üzəri və içərisi qırmızı boya ilə örtülmüşdür. Ağzının qırağı enli qara xətlə əhatələnmişdir. Bu xətdən altda qara rənglə üçbucaq rəsmləri çəkilmişdir.

Orta tunc dövrü sadə keramika məmulatına qazan, çölmək, kasa, xeyrə, dopu, küpə tipli boz, çəhrayı rəngli qabların qırıqları daxildir. Bəzi qabları qırıqlar əsasında bərpa etmək mümkün olmuşdur. Kiçik həcmli çəhrayı rəngli küpənin ağzı geniş olub, kənarı geri mailidir. Boğazı qısa, gövdəsi qabarıqdır. Oturacağı yastı, kiçikdir. Gilinə narın qum qatılaraq, yaxşı yoğrulmuş, yaxşı bişirilmişdir. Divarları bir qədər kələ-kötürdür.

Orta həcmli sadə küpələr çəhrayı rəngdə olub, dulus çarxında hazırlanmışdır. Yaxşı keyfiyyətli gildən istifadə edilərək, tərkibinə narın qum qatılmışdır. Ağzının kənarı geniş olub, qırağı xaricə əyilmişdir. Üzəri və ağzının içərisi çəhrayı anqobla örtülmüşdür. Gövdəsi çiyin hissədə azca qabarıqdır.

Kasa tipli, kiçik həcmli gil qablar əldə hazırlanmışdır. Bəzi kasaların oturacağı dairəvi dabanlıdır. Ağız hissəsi geniş olub, qırağı düzdür. Gövdəsi çiyin hissədə qabarıqdır.

Qazan tipli gil qablar qara və tünd boz rəngdə olub, divarı kələ-kötürdür. Ağzı geniş, gövdəsi çiyin hissədə qabarıqdır. Gilinin tərkibində qızılı parıltı verən tuf prekçi qatılmışdır.

Çölməklər boz və qara rəngdə olub, ağzı geniş, gövdəsi çiyin hissədə qabarıq, oturacağı yastı və genişdir.

Orta tunc dövrü təbəqəsindən iri həcmli nehrənin qırıqları əldə edilmişdir. Nehrənin gövdəsi qabarıq uzunsov formadadır. Qalın divarlıdır. Nehrə hazırlamaq üçün yaxşı keyfiyyətli gil seçilmişdir. Gilin tərkibinə narın qum qatılmış, yaxşı keyfiyyətdə yoğrulmuşdur. Bişmə keyfiyyəti də yüksək səviyyədədir. Üzərinə anqob çəkilmişdir. Nehrəni oturacağa yaxın hissəsində silindrik-dairəvi deşik açılmışdır.

Xırda buynuzlu və iri buynuzlu heyvan sümüklərinin çox tapılması, II Kültəpə sakinlərinin orta tunc dövründə süd məhsulu emalı ilə məşğul olduğunu sübut edir.

ƏDƏBİYYAT

1. V.Əliyev. “Azərbaycanda tunc dövrü boyalı qablar mədəniyyəti”. Bakı 1977, səh. 58.
2. V.Əliyev. Qədim Naxçıvan. Bakı 1979.
3. V.Əliyev. Tarixin izləri ilə. Bakı 1975.
4. Q.İsmayılov. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı 1981.
5. O.A.Həbibullayev. Kültəpədə arxeoloji qazıntılar. Bakı 1959.
6. A.Məmmədova. Azərbaycanın tunc dövrü mədəniyyətinin öyrənilməsi tarixi və onun problemləri. Bakı 2001.

В.Г.Алиев, А.А.Мамедова

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИИ КЮЛЬТЕПЕ II

РЕЗЮМЕ

Статья посвящена исследовательским работам проведенных в северо-западной части оборонительных стен на поселении Кюльтепе II в культурном слое относящихся эпохе бронзы. В статье нашли отражение исследования мастерской, выявленной археологическими раскопками на поселении.

Здесь найден богатый материально-культурный материал – керамика, каменные орудия труда и множество костей животных.

Образцы материальной культуры играют важную роль в изучении материальной культуры в эпоху ранней бронзы Азербайджана. Производство керамических посуд различной формы и размеров, говорят о высоком развитии земледелия и скотоводства в исследуемый период.

V.H.Aliyev, A.A.Mammedova

RESEARCH WORKS CARRIED OUT IN SETTLEMENT KULTAPA II

SUMMARY

The article deals with the research work carried out in II Kultapa settlement mainly in its Narinqala (sitadel) site and in cultural layer witch is located outside the north-west fortress walls and dates back to late Bronze Ages.

The article deals with the workshop, witch in the local manufacturing place discovered in II Kultapa settlement during excavation work carried out in 2010.

Rich material – cultural findings discovered stone tool, things made of bone and numerous animal bones.

Artifacts found from Bronze Age monuments of Azerbaijan take an important place in the exploration of the trade history. Intensive production of pottery of different forms and sires was connected with the high development of cattle-breeding and agriculture, and directed to meet the demands of economic branches.

ŞİMALİ-QƏRBİ AZƏRBAYCANDA APARILAN TƏDQİQATLAR
(Şəki, Qax, Oğuz, Qəbələ rayonları)

N.M.Muxtarov, İ.N.Bədəlova

2011-ci ildə Şəki, Qax, Oğuz, Qəbələ bölgələrində arxeoloji qazıntı və arxeoloji kəşfiyyat davam etdirilmişdir.

Şəkinin Sarıca və Kiçik Dəhnə, Fazıl kəndləri ərazisində 3 qəbir (Fazıl), 1 sənduqə qəbir (Kiçik Dəhnə), 3 torpaq qəbir (Sarıca) tədqiqata cəlb edilmişdir.

İlk dəfə Fazıl kəndində, Təpəbaşı nekropolunda bütöv heyvan (öküz) dəfn edildiyi qəbir, uşaq dəfn edildiyi küp qəbri aşkar edilmişdir. Maraqlı dəfn adətləri ilə səciyyələnən Fazıl Təpəbaşı nekropolunun ərazisi tam dəqiqləşdirilmişdir (şəkil 1).



Şəkil 1.

Acınohur ərazisində Avqabırrı yaşayış yeri və kurqanlar qrupu qeydiyyata alınmış, ilk dəfə aşkar edilən Nuxa II yaşayış yerindən yerüstü arxeoloji material (keramika) toplanmışdır. Avqabırrı kurqan nekropolu və yaşayış yeri e.ə. III–II minilliyə aiddir. Nuxa II yaşayış yerinin Qax ərazisində olduğu şübhə doğurmur.

Oğuz bölgəsində "Hökmdar məzarlığı" (Qazı yeri adlanan məzarlıqda) 2 saylı kurqanda arxeoloji qazıntı işləri başa çatdırılmışdır. Kurqanın konstruksiyası (şəkil 2) tam dəqiqləşdirilmiş, dəfn çalasında bəzi maraqlı məqamlar qeydə alınmışdır (şəkil 3). Artefaktlar içərisində tunc döyüş yabası, ştandart və gildən ayaqqabı modeli ilk dəfə bu kurqandan aşkar edilmişdir (şəkil 4). Keramika və ayaqqabı modeli boya naxışlıdır və naxışlarda ağ, qırmızı və qara rənglərdən, pasta və oxradan istifadə edilmişdir. Kurqanın 14x4xm olan dəfn kamerası nə vaxtsa talan edilmişdir. Dəfn güclü ocaq, tonqal yandırılması ilə müşayiət edilmişdir. Kurqanın e.ə. II minilliyin ortalarına və II yarısının əvvəllərinə aid olduğu güman edilir.



Şəkil 2.



Şəkil 3.



Şəkil 4.



Şəkil 5.



Şəkil 6.

Oğuzun Dərə Zəmin nekropolunda 5 qəbir abidəsi öyrənilmişdir. Maraqlı dəfn adəti və qəbir avadanlığı ilə müşayiət olunan bu nekropolda üst-üstə 3 qəbrin olması ilk dəfə qeydə alınmış, daş qəlib və ibadət edən insan fiquru qeydə alınmışdır (şəkil 5).

Kərimli kəndinin içərisində də Nəbi adlı kənd sakininin həyətində qəbir qeydiyyata götürülmüşdür. Dərə Zəmin nekropolunda at dəfni ilə müşayiət olunan qəbirlərə daha çox təsadüf edilir (7 saylı qəbir) (şəkil 6). Oğuzda yeni nekropol və yaşayış yeri (Ceyl) qeydə alınmışdır.

Qəbələ rayonunda aeroport ərazisində xilasetmə qazıntıları aparılmışdır. Üç təpəlikdən ibarət olan bu abidə Qala yeri – Qaş kimi qeydiyyata alınmışdır. İlk tədqiqatlar göstərdi ki, yaşayış yeri – xüsusən onun Qala yeri adlanan hissəsi Leylatəpə mədəniyyətinə aiddir. Kürdən yuxarı Azərbaycanda ilk əkinçi-maldar tayfalara aid eneolit dövrünün final mərhələsinə - abidə ilə ilk dəfə qarşılaşırıq. Eyni zamanda Leylatəpə mədəniyyəti dairəsində olduqca unikal, səciyyəvi cəhətlərə malik yaşayış yeri aşkar edilmişdir. Bəzi yerdə 5 m-ə qədər qalınlıqda mədəni qatda divar qalıqları (daş və kərpic) göstərir ki, abidədə 3 tikinti dövrü mövcud olub (şəkil 7). Ərazidə 23 küp qəbri aşkar edilmişdir. Bu qəbirlər müxtəlif dərinlikdə, müxtəlif ölçülü və rəngli küplərdə (şəkil 8) körpələrin dəfn edildiyi küplərdir. Yalnız "Sərdabə" adlandırılan dördkünc kərpic divarlarla əhatələnmiş yaşayış yerində 6 belə qəbir qeydə alınıb (şəkil 9). Zəngin arxeoloji materiallarla səciyyələnən bu abidə bütövlükdə Qəbələnin e.ə. IV minilliyin I yarısı – b.e. IV–VII əsrlərinə aid tarixinə diqqət verməyə imkan verir və bu dövrlərdə dağ keçidləri və dərələrin əlaqə və miqrasiyalarda böyük rol oynadığını göstərir.



Şəkil 7.





Şəkil 8.



Şəkil 9.

Н.М.Мухтаров, И.Н.Бадалова

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ СЕВЕРО-ЗАПАДНОГО АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

Археологические раскопки в 2011 году были продолжены в Шекинском, Гахском, Огузском и Габалинском районах. Обнаружены и изучены три погребения в селе Фазыл, одно погребение в селе Кючюк Дяхна и три погребения в селе Сарыджа.

В некрополе Тепебашы в погребении обнаружен скелет быка. В Азербайджане такое захоронение быка обнаружено впервые.

На территории Аджинохур открыты новые памятники – поселение и курганный могильник Авгабырры бронзового периода и поселение Нуха II.

В могильнике Газы Ери завершены раскопки кургана №2. Курган был ограблен еще в древности. Среди найденных артефактов вызывают большой интерес боевые вилы, штандарт и фигура в форме сапога, украшенная полихромной росписью. Курган №2 относится к середине II тысячелетия до н.э.

Некрополь Дара Зямин находится на территории Огузского района. Среди находок этого некрополя привлекает внимание каменная матрица и фигура молящегося человека.

На территории Габалинского района совместно СЕБА (Ассоциация культурного взаимообмена Сеул – Баку), при организационной поддержке Исполнительной власти Габалинского района, были проведены спасательные археологические исследования на территории строящегося аэропорта. Обнаружен памятник Лейлатепинской культуры, который назван к Гала Ери-Гаш. Этот памятник относится к. В некоторых местах толщина культурного слоя достигает до 5-ти метров. На территории памятника обнаружены 23 кувшинных погребения.

N.M.Mukhtarov, I.N.Badalova

ARCHAEOLOGICAL INVESTIGATIONS OF NORTH-WEST AZERBAIJAN

SUMMARY

In 2011, in the areas of Sheki, Gah, Oguz and Gabala were carried out archaeological explorations and past excavations were continued. Three burials have been discovered and explored in the village Fazil, one burial in the village of Kuchuk Dyahna and three burials in the village Sarydzha. In the necropolis Tepebashi a whole skeleton of bull was discovered in a burial. It is the first time that separate burial of bull is discovered in Azerbaijan. New sites are discovered on the territory of Adzhynohur - the settlement and burial mound Avgabyrry Bronze Age and settlement Nuh II. In the burial Gazi Yeri excavations of kurgan number 2 are completed. Mound was once robbed. Among the found artifacts military pitchforks, standard, and figure, made in the shape of a boot and decorated with polychrome attract great interest. Kurgan number 2 refers to the middle of the II millennium BC. Necropolis Dara Zyamin is in Oguz region. Among the findings of this necropolis a rock matrix and a figure of a man in a praying position attract the attention. On the territory of Gabala region, under the joint collaboration of the Institute of Archaeology and Ethnography and SEBA (Association of cultural exchange Seoul - Baku), with the support of the Executive Power of Gabala region, there were held rescuing archaeological researches in the territory of airport under construction. Monument which is named Gala Yeri-Gash was found. This monument belongs to Leylatapa archeological culture. In some places, the thickness of the cultural layer reaches up to 5 meters. On the territory of the monument 23 burial mounds were found.

QARABAĞ ARXEOLOJİ EKSPEDİSİYASININ ÇÖL-TƏDQİQATLARININ İLKİN NƏTİCƏLƏRİ

(Ağdam rayonu)

H.F.Cəfərov, D.H.Cəfərova, N.H.Əliyev

Ekspedisiya öz işinə birinci növbədə, elə əvvəlki illərdə dağıntılara məruz qalmış abidələrin yoxlanılmasından başladı. Biz, Quzanlı-Sarıçalı-Agcabədi; Quzanlı-İmamqulubəyli-Şahvəllər-Bərdə; Quzanlı-Eyvazlı-Xındırıstan-Sarıçoban-Üçoğlan-Baharlı; Xındırıstan-Kəlbəhüseynli-Dadaşlı; Xındırıstan-Yüzbaşılı I, II; Xındırıstan-Bənövsələr-Mirəşelli-Çıraqlı; Xındırıstan–Mirəşelli–Əhmədağalı–Sarısaçlı-Qaradağlı və s. marşrutları ilə vaxtaşırı yoxlamalar həyata keçirdik.

2011-ci ilin çöl qazıntı işlərinə ilk növbədə planlaşdırıldığı kimi, "Palıdlı" nekropolundan başlanılmışdı. Hələ keçən illər nekropolun ümumi sahəsini, onun sərhədlərini dəqiqləşdirmək məqsədilə aparılan yoxlama işləri bu il də davam etdirildi. Nekropolun yerləşdiyi güman edilən müxəlif yerlərdə aparılan qazıntılar gedişində qəbirlərə təsadüf olunmadı. Onu da qeyd etməyi lazım bilirik ki, bura müxtəlif şəxslərə (Yüzbaşlı kənd sakinlərinə) məxsus xüsusi torpaq sahəsidir. Bəziləri buranı mal örüşü kimi, digəri tərəvəz-bostan, bir qismi isə çoxillik yonca bitgisini becərmək üçün istifadə edirlər. Təbii ki, sahibkarlar, onların əkin sahələrinə müəyyən qədər ziyan dəyməsilə heç vəchlə barışmaq istəmir və işimizə mane olurdu. Müqayisə üçün deyək ki, 2009-2010-cu illərdə burada əkinçilik o qədər də intensiv xarakterə malik deyildi. Bu il müxtəlif boş yerlərdə 100m^2-dən artıq sahədə qazıntı işləri müsbət nəticə vermədi. Əvvəlki illərdə xüsusilə qazıntıların çox uğurlu olduğu 2009-cu ildə nekropolda qəbirlərin sıx yerləşməsi fikri irəli sürülmüşdür. Çünki, aşkar olunmuş qəbir abidələri çox yanaşı yerləşmişdir. Lakin, 2010-cu ildə bu fikrin həqiqətə uyğun gəlməməsi söylənildi. Çünki, bir neçə sahədəki yoxlamalar burada kifayət qədər boşluq olmasını göstərdi. 2011-ci ilin qazıntıları isə axırıncı gumanı təsdiq etdi. Nekropolda qəbirlər heç də sıx yerləşməyib.

2011 ci ilin plan işinə uyğun olaraq ekspedisiya ərazidə mövcud olan tarixi abidələrin mühafizə vəziyyətini də yoxlamışdı. Təəssüflə qeyd olunmalıdır ki, bizim və Ağdam rayonu İcra Hakimiyyətinin Mədəniyyət və Turizm şöbəsinin ciddi səylərinə baxmayaraq abidələrin mühafizəsi vəziyyəti yenə də qənaətbəxş deyil. Bu və ya digər səviyyədə dagıntılara məruz qalmış xeyli abidələr var. Bunlara həm Xındırıstan kəndi ətrafında, həm də qaçqınlar üçün salınmış "Bənövşələr" qəsəbəsində rast gəlinir. Acınacaqlı haldır ki, dağıntılara məruz qalmış abidələr sırasına möhtəşəm "Sultanbud" kurqanı da əlavə olunub.

Vaxtilə Xındırıstan kəndi yığcam bir kənd idi. Onun Paşabəyli, Kəlbəhüseynli, Sarıçoban və s. məhəllələri var idi. Bu məlumat 1980-ci illərin əvvəllərinə əsaslanan faktlara söykənir. Zaman keçdikcə həm Xındırıstan kəndinin özü böyüyüb, həm onun köhnə məhəllələri ayrıca kəndlərə çevrilib. Məsələn, məşhur Sarıçoban kurqanları vaxtilə Sarıçoban məhəlləsindən cənub və qərbdə, kolxoz tarlalarının mərkəzində, kənddən aralıda yerləşirdi. İndi həmin kurqanların bir çoxu tam məhv edilib. Bəzisinin ətrafı yonulub, birinin yarısı qalıb, digərinin yarısından yol keçir, bir neçəsi isə kənd sakinlərinin həyatyanı sahələrinə çevrilib. Musiqi məktəbinin həyətində olan başqa bir kurqan isə müəyyən qədər deformasiyaya uğrayıb.

Vaxtilə kəndin qərb hissəsində olan məşhur Rəsul-təpə abidəsi indi kəndin içərisində qərarlaşır. Yəni onun ətrafı hər tərəfdən yeni (1988-ci ildən sonra) salınmış həyətyanı sahələr və yaşayış binaları ilə əhatələnib.



1950-ci illərdə A.A.İessenin rəhbərlik etdiyi SSRİ Elmlər Akademiyası Arxeologiya İnstitutunun təşkil etdiyi birgə "Azərbaycan Arxeoloji Ekspedisiyası"nın apardığı geniş miqyaslı axtarışlar gedişində qeydə alınmış Rəsul təpə abidəsi (bax:A.A.Иессен. Из исторического прошлого Мильско–Карабахской степи. МИА СССР №125, М-Л,1965) sonralar Hidayət Cəəfərov tərəfindən 1986-1988-ci illərin çöl axtarışları gedişində bir daha yoxlanılmışdır. Həmin vaxt müəyyən olunmuşdur ki, Rəsul-təpədə təkcə orta tunc dövrü deyil (A.İessenin qeyd etdiyi kimi), bütövlükdə Eneolit-Tunc dövrünün mədəni təbəqələrini özündə mühafizə etmişdir. (bax:H.F.Cəfərov. Azərbaycan e.ə. IV minilliyin ikinci yarısı – e.ə. I minilliyin əvvəllərində. Bakı, Elm, 2000, səh 64.)

2008-2009-cu illərin yoxlama araşdırmaları burada, abidənin zirvəsində "Haray çəkən", əsgərləri qəhramanlığa səsləyən "Ana" heykəlinin qoyulduğu müəyyən olundu. 2011-ci ildə buraya yenidən baxış keçirilərkən başqa bir mənzərənin sahibi olduq. Abidənin ətrafı bütün perimetri boyu tikanlı məftillə hasara alınmış, zirvəsinin başqa hissəsi 3 m-ə qədər götürülərək yastılanmış, üzərində hərbi əhəmiyyətli binalar inşa edilmişdir. Burada hərbi postlar yerlədirilmişdir, əsgərlər buranı ciddi qoruyurlar.

Yeri gəlmişkən xatırladaq ki, ərazidə yerləşən, qoşunların təmas xətti qənşərində olan başqa eneolit dövrü abidələri də vaxtilə, 90-cı illərdə hərbi məqsədlər üçün istifadə olunmuşdur. Hesabat ilində ərazidə aparılan yoxlamalar bunu bir daha sübut etdi. Həmin abidələr aşağıdakılardır:

Bu abidələr Ağdam rayonunun Mirəşelli kəndi ətrafında yerləşmişdir:

Çardaxtəpə: (yaxud Çardaxlı təpə) yaşayış yeri. Abidə ilk dəfə İdeal Nərimanov tərəfindən qeydə alınmış və onun yerüstü, vizual təsviri verilmiş, dövrü müəyyənləşdirilmişdir. (bax: И.Нариманов. Культура древнейшего земледелъческо-скотоводческого населения Азербайджана. Баку, 1987)

1990-cı illərin əvvəllərində buralarda qızğın döyüşlər getdiyi dövrdə təpənin üzərində hərbiçilər üçün sığınacaqlar (xəndək, istehkam, qazma, BTR-lər və toplar üçün mühafizə çalaları və s.) tikilmiş, bunlardan intensiv istifadə edilmişdir.



Abidənin Çardax və ya Çardaxlıtəpə adlandırılması burada hələ Sovet dövründə kolxozçuların günorta istirahəti üçün inşa edilmiş çardaxlı binanın varlığı ilə bağlı olmuşdur. İndi burada Qarabağ müharibəsinin qaçqın-köçkün halına saldığı, Ağdamın Abdal kəndindən olan Qara Hüseynovun patriarxal ailəsi müvəqqəti məskunlaşıb. Hərçənd ki, bu müvəqqəti həyat tərzi 20 ildir davam edir. Zəhmətkeş Qara kişi vaxtilə bir otaq və üstü çardaqlı olan binanı müxtəlif istiqamətlərdə eninə-uzununa genişləndirərək oğullarının və qızlarının ailəsi ilə birgə yaşayış mərkəzinə çevirib. Abidənin səthində dağıdılıb qazılmış sahələrdən Eneolit dövrünə aid Çalağantəpə tipli materiallar: müxtəlif tip keramika nümunələri, dən daşı parçası, bina qapısı üçün ortası çalalı daban daşı fraqmenti və s. toplanmışdır.Saxsı qab nümunələrindən qırmızı-sumağı rəngdə olan bir küp fraqmentinin səthi İlanlıtəpə və ya Dalmatəpə tipli “İmpessə” olunmuşdur.

Şomutəpə (və ya Şomulutəpə)


Bu abidə haqqında İdeal Nərimanovun əsərində (bax:И.Нариманов. Культура древнейшего–земледельческо–скотоводческого-населения Азербайджана. Баку,1987), ötəri məlumat verilib.

Bu məlumat XX əsrin 80-cı illərinə aiddir. O vaxt abidə pambıq, bəzən taxıl, yonca və s. tarlalarının ortasında yerləşmişdi. Salamat qalmışdı. 2008-2010-cu illərdə bizim abidəni bilavasitə yerindəcə yoxlamaq cəhdlərimiz hərbçilər tərəfindən qoyulan qadağanlara görə baş tutmamışdı. Məsələ burasındadır ki, bu abidə də, ətrafdan öz hündürlüyü ilə seçildiyi üçün vacib strateji nöqtə sayılır. Özü də bu təpə qarşı tərəfdə yerləşmiş erməni yağılarının hərbi məntəqələri tərəfindən hədəf kimi nəzarətdə saxlanılır. Bunları, biz həmin abidədə yoxlama apararkən özlərini buraya çatdıran zabit və əsgərlərdən öyrəndik.

Şomutəpə Mirəşelli kəndinə aid sahədə, Çardaxlıtəpədən 600m şimalda, Palıdlı nekropolundan o qədər məsafədə qərbdə yerləşən nəhəng, möhtəşəm quruluşlu yaşayış yeridir. Cənubdan 300m aralıda termik suyu fəvvarə vuran arteziyan quyusu var. Quyunun suyu qaynardır. Əhali dərin çala qazaraq onun yaratdığı gölməçədə ağrı–acısını çıxartmaq üçün müalicə vannası kimi istifadə edirlər. İstinin hərarətindən quyunun dəmir konstruksiyası əriyibdir.









Abidənin cənubdan hündürlüyü 10m, şimaldan isə 20 m-dən artıqdır. Çevrəsi ətəyində 640m-dən artıq olub, şimal-qərb – cənub-şərq istiqamətində uzunsov quruluşludur. Çardaxlı təpə abidəsi kimi, Şomutəpə də 90-cı illərin qızğın döyüşləri zamanı hərbi məqsədlə istifadə olunmuşdur. Abidənin zirvəsi və cənub – şərq ətəklərində, müxtəlif yerlərdə vaxtilə əsgərlərin qazma – səyyari kazarması qazılmış, onun üzərini isə palatkalarla örtərək burada yaşamışlar. Elə buradaca iri çaplı toplar üçün, habelə başqa hərbi istehkamlar qurulmuşdur. Şübhəsiz ki, bütün bunlar abidənin ilkin görkəmini xeyli dəyişmişdir. Mirəşelli kəndi sakinlərinin verdiyi məlumata görə burada hərbi məqsədli qurğular üçün qazıntılar zamanı qəbirlər(?), düzbucaqlı, yaxşı qalmış, saman qatışıqlı çiy kərpiclərdən hörülmüş divarlar açılmışdır. Verilən məlumata görə kərpiclər həm divarda, həm də döşəmədə olmuşdur (əgər deyilənlər düzdürsə onda belə tikililərin "Kamil təpə" tipli olmasını güman etmək olar).

Biz əsgərlər özlərini yetirənə qədər yarğanlarda, qazılmış sahələrdə və yer üstündən xeyli materiallar topladıq. Toplanmış materiallar eneolit, son tunc və ilk dəmir, orta əsrlərə aid keramika fraqmentləri, obsidian qəlpələrindən ibarətdir.

Abidənin zirvəsində onun adını göstərən lövhə vurulub. Bu rayon mədəniyyət və turizm şöbəsi tərəfindən, bizim təklifimizlə icra edilmişdir.

Kül-təpə

Yuxarıda haqqında danışılan Şomu-təpə abidəsindən 30-40 metr şərqdə, demək olar ki, hələ Sovet dönəmində tamamilə dağılaraq əkin sahəsinə çevrilmiş eneolit yaşayış yerinin qalığı Toplanmış yerüstü material Çalağantəpə və Çardaqlıtəpə tipli keramika fraqmentlərindən ibarətdir.

BƏNÖVŞƏLƏR TƏPƏSİ

Hesabat ilində ekspedisiyanın yenidən yoxladığı abidələrdən biri də Xındırıstan–Mirəşelli kəndlərini birləşdirən şosse yolunun bilavasitə kənarında yerləşmiş Bənövşələr təpəsi Eneolit yaşayış yeridir.

Bu abidə Ağdam rayonunun işğal altında olan kəndlərindən didərgin düşmüş əhalinin məskunlaşdığı eyni adlı qəsəbənin mərkəzində, yol kənarında (Xındırıstandan Mirəşelliyə gedən yolun sağında) yerləşir. Abidə ilk dəfə 80-cı illərdə İdeal Nərimanov tərəfindən elə bu adla- "Bənövşələr" adı ilə qeydə alınmışdır. O vaxt bura əkin sahələrinin kənarı olub, burada yaşayış məntəqəsi mövcud olmamışdır. Biz hələ 2008-2010-cu illərdə abidənin ciddi mühafizəyə ehtiyacı olmasını lazımi orqanlar qarşısında qaldırmışdıq. Məsələ burasındadır ki, qaçqınlar güzaranlarının pisliyini bəhanə gətirərək təpənin torpağından təndir, kərpic və s. istehsalı üçün istifadə edirdi. Bu azmış kimi, indi də onun səthinin çox hissəsində anbar, mağaza, yeməkxana və s. üçün binalar inşa olunmuşdur. Biz, bununla əlaqədar yerli əhali ilə söhbət etdik , onlara başa saldıq ki, ata-baba yurdlarını erməni faşistləri dağıdıb, əhalini didərgin salib. Bənövşələr qəsəbəsinin sakinləri isə öz əlləri ilə ulu əcdadlarının 7-8 minillik tarixi yadigarlarını dağıdıb məhv edirlər. Ermənilərin torpaqlarımızdan qovulmasından sonra (bu gün gələcək) öz yurdlarınıza qayıdıb evlərinizi yenidən inşa edəcəksiniz. Bənövşələr eneolit yaşayış yerini isə bu dagıntılardan sonra heç vəchlə bərpa etmək mümkün olmayacaq. Doğrudur, söz verdilər. Amma, bu insanlara daha inam qalmayıb. Çünki, onlar üçün indiki halda 3-5 manat qazanmaq istəyi 7-8 minillik tarixi olan abidəni qorumaq istəyindən qat-qat üstündür.

Abidə isə dogrudan da çox bərbad haldadır. Abidənin cənub-qərb hissəsinin bir qismi materikə qədər tam dağıdılmışdır. Cənub hissəsinin yol kənarı boyu çoxsaylı tikililərlə əhatələnmişdir. Bənövşələr təpəsinin cənub-qərbindəki dərin yarğan yerli sakinlərin, buranın torpağından kərpic kəsmək və s. məqsədilə istifadə etməsi nəticəsində əmələ gəlmişdir. Yarğanda, yer səthindən 1 metr hündürlukdə, kəsikdə iri ölçülü küpün en kəsiyi aydın seçilir.

Leyla–təpə haqqında

Ən çox dağıntıya məruz qalmış abidələrdən biri də məşhur Leyla təpə abidəsidir. Leyla təpə təkcə Azərbaycan deyil, bütövlükdə Qafqazın eneolit, ondan əvvəl və sonrakı mərhələləri arasında ilişkənlik və s. baxımından pioner rolunu oynamış bir tarixi mənbədir. Bunu Arxeologiya ilə az-çox məşğul olan hər kəs bilir. Bu haqda ilk dəfə məlumat verən İdeal Nərimanov 1980-ci illərdə burada sistemli arxeoloji tədqiqatlar aparmışdı. O, yeni nəticələrlə Qafqaz Arxeologiyasını zənginləşdirdi. Aşkar olunan fərqli memarlıq nümunələri, qədim küp qəbirləri, formalaşmış keramika nümunələri, metallurgiyanın təşəkkülündə yeni mərhələnin varlığını sübut edən faktlar, orijinal quruluşlu dulus kürələri, dulus çarxının tətbiqi ilə keramika istehsalının qaydaya salınması və bir çox başqaları İdeal Nərimanova özəl bir mədəniyyətin varlığı məsələsini ortaya qoymasına imkan verdi. Paralel olaraq Gürcüstandakı Berikeldebi abidəsində Leyla təpə tipli nazik təbəqənin aşkarlanması Leyla təpə mədəniyyətinin arealı haqqında ilkin fikir söyləməyə imkan verdi. Böyük Kəsik və Soyuqbulaq abidələri Nəcəf Müseyibliyə həmin qrupun Leyla tipə tipli olması ideyasını irəli sürməyə şərait yaratdı. Prof. Rauf Munçayev onun dövrü və əhəmiyyəti probleminə toxundu. Tufan Axundov və başqaları bununla bağlı kitab nəşr etdirdi və s. Yəni bu abidə Azərbaycan və Qafqaz Arxeologiyasında fərqli ideyaların formalaşmasının təməlində dururdu. Onun dövrü (son eneolit, son Obeyd, ilkin Uruk, Kür–Araza keçid, ilk tuncun ilkin təşəkkül mənbələrindən biri və s.) haqqında nə qədər fərqli və oxşar fikirlərin mövcud olması da faktdır. Bunların müxtəlifliyi bu abidəyə olan marağı nəinki azaltmır, əksinə daha da artırır. Belə olan şəraitdə bizim xalqımızın bəzi nümayəndələrinin tarixi abidələrimizə bu cür laqeyd münasibəti başa düşülmür.

Sultan-bud abidəsi

Təkcə Qarabağ deyil, bütövlükdə Azərbaycan və Cənubi Qafqazda ən böyük kurqan abidəsi, Ağdam rayonunun İmamqulubəyli kəndi yaxınlığında, Bərdə-Ağdam (Quzanlı) şosse yolunun sağında yerləşən möhtəşəm kurqan. Hündürlüyü 35m-dən artıq, diametri (kəsilmiş sahələr də nəzərə alınmaqla) 300 m-ə yaxın.

2011-ci ilin avqustunda bizim Sultanbuddakı apardığımız yoxlamalar aşağıdakıları aşkara çıxartdı:

Abidənin ən hündür zirvəsində düzənləmə işi aparılmış , burada dərinliyi bəlli olmayan enli quyu qazılaraq oraya beton özül vurulmuş, özülün üzərində isə Azərbaycan Respublikasının üç rəngli dövlət

bayrağı ucaldılmışdır. Bayrağın ətrafı və kurqanın yamacları terraslara ayrılaraq, buraya cərgələrlə şam ağacları əkilmişdir. Ağaclara qulluq üçün rezin-plastik borularla buraya su kəməri çəkilmişdir. Mütəmadi suvarmalar kurqanın səthini aşılayır. Doğrudur, ilk baxışda bu işəkurqanın məhvi yox, yaşıllıq zolağı yaratmaq təşəbbüsü adını vermək olar. Lakin bunun özü də elə kurqanın tədricən məhv olmasına gətirib çıxara bilər. Bizim dəfələrlə izahımıza, tarixi-arxeoloji abidələr olan sahələrdə heç bir əlavə iş görmək, ağac əkmək, tikinti inşa etmək, torpaq işi aparmaq və s. qadağan olmasını dəfələrlə müxtəlif təşkilatlara, icra nümayəndələrinə çatdırmağa baxmayaraq bu iş yenə davam etməkdədir. Bəzi vəzifəli şəxslərin bu əks inadı təəccüb və təəssüf doğurur. Hələ bu hamısı deyil. Sultanbud təpəsinin şimalında, konusvari mərkəzi təpənin sinəsində mozaik daşlardan Azərbaycan Respublikasının böyük miqyaslı xəritəsi çəkilib. Ən çox təəssüf doğuran isə qərb tərəfdən, təpənin ətəyindən zirvəsinə, bayraq meydanına qədər serpantın şosse yolu çəkilməsidir. Asfalt yol çəkilərkən, şübhəsiz buralar hamarlanmış, bərkidilərək daş döşənmiş və qalın asfalt qatı salınmışdır.

Bütün bunlar bəs deyilmiş kimi abidənin şərq ətəyində avtomobil yumaq üçün qurğu inşa olunmuşdur. Güclü atmosfer təzyiqi altında maşınları yumaq üçün istifadə olunan su axını abidənin ətəyini mütəmadi yuyaraq yarğan əmələ gətirir.

Abidənin şimal ətəyində rəmzi darvaza tikilmiş, onun arxasında isə Qarabağ savaşında həlak olmuş Azərbaycanın Milli Qəhrəmanlarının, habelə, canlarını vətən yolundakı davada qurban vermiş oğullara həsr olunmuş xatirə lövhəsi yaradılmışdır.

Bundan başqa, Sultanbudun qərb hissəsində, İmamqulubəyli kəndinə gedən şosse yolunun sağında yerləşən, diametri 70-80 m, hündürlüyü 5-6 m olan uzunsov-dairəvi planlı kurqanın bir hissəsi yol çəkilərkən zədələnmişdir. Belə getsə bu abidələrin sonrakı taleyi şübhə altında qalacaq.

Çoxtəbəqəli (eneolit, tunc dövrü) Namazlı təpəsi yaşayış yeri də müəyyən qədər dağıntıya məruz qalıb.

Kəlbəhüseyn təpə eneolit dövrü yaşayış yeri

Ekspedisiyanın 2011-ci il çöl-tədqiqatlarında Kəlbəhüseynli təpə eneolit dövrü yaşayış yerində aparılmış mühafizə yönümlü qazıntılar xüsusi yer tutur. Bölgənin abidələrində aparılan sistemli yoxlamalar zamanı məlum oldu ki, Kəlbəhüseynli kəndinin mərkəzində yerləşən eneolit dövrü yaşayış yeri güclü dağıntıya məruz qalmışdır. Dağıntının sonrakı davamının qarşısını almaq, abidə haqqında əhaliyə məlumatlama işi aparmaq məqsədilə dağıntıya daha çox məruz qalmış şərq hissədə təmizləmələr yerinə yetirildi.

Kəlbəhüseyn eneolit dövrü yaşayış yeri Xındırıstan kəndinin Kəlbəhüseynli məhəlləsi əsasında, 80-cı illərin sonunda ayrıca kənd kimi formalaşmışdır. Abidənin qalmış diametri 100-m-dən artıq sahəsi, 1 ha-dan artıq, qalmış hündürlüyü 3,5-4 m-dir. Bu abidə vaxtilə İ.Nərimanov tərəfindən qeydə alınmış (monoqrafiyasında da əks olunub), 1987-1988-ci illərdə Hidayət Cəfərovun ərazinin arxeoloji xəritəsinin tərtib etməsi gedişində bir daha nəzərdən keçirilmiş 2009-2010-cu illərdə yenidən yoxlanılmışdır. 2011-ci ilin yoxlamaları göstərdi ki, son bir ildə, əvvəllər az miqyaslı olan dağıntılar çox böyük vüsət almış, zibilləmə və xarab etmə intensiv xarakter kəsb etmişdir.

Abidənin yarıdan çoxunu əhatə edən şərq hissəsi tamamilə yararsız hala salınmışdır. Buranın torpağı, mədəni təbəqələr yaradan örtük hissəsi yerli əhali tərəfindən təndir, çiy kərpic və s. üçün istifadə məqsədilə daşınmış, yerdə qalan hissəsi isə əsil zibilliyə çevrilmişdir.

Kəlbəhüseyn abidəsinin sonrakı dağıntısının qarşısını heç olmazsa müəyyən qədər almaq məqsədilə təpənin dağıntısı sərhədlənən mərkəzi hissəyə yaxın 5x4 m ölçüdə yoxlama şurfu qoyuldu. Üstdən (bura da başqa sahələr kimi, dağılaraq deformasiyaya uğradığı üçün mütləq hündürlüyü müəyyən etmək çətindir) 1 m dərinlikdə, dağılmış yarıq hissədə iki təsərrüfat küpünün qalıqları izlənildi. Təmizləmələr gedişində həmin iki küpdən cənubda daha bir eyni tip təsərrüfat küpünün salamat qalmış gövdə və alt hissəsi açıldı. Həmin küpün ətrafı təmizlənərkən, üstdən 1,5 m dərinlikdə yanaşı düzülmüş, cənub-şimal istiqamətində yerə basdırılmış daha üç təsərrüfat küpü aşkar olundu. Küplərdən ikisinin ağız kənarı da daxil olmaqla bütövlükdə olduğu kimi qalmışdır. Bu küplər əvvəlkilərə nisbətən ölçucə bir qədər kiçikdir. Bu küpləri təmizləyərək tam açmaq məqsədilə qazıntı sahəsi cənub istiqamətində genişləndirildi. Təmizləmədən sonra qazıntı qoyulmuş sahə 35m^2-ə çatdı (7x5m). Açılmış küplərin çox

orijinal quruluşu var. Xüsusilə, şimaldan cənuba doğru yanaşı qoyulmuş küplərin forması diqqəti cəlb edir. Onların ağız kənarı düz (yastı), divarları şaquli olub, gövdə hissədə içəriyə səkivari əyilərək oturacağa doğru konusvari əyilir və dar, ortası qabarıq oturacaqla yekunlaşır. Bu baxımdan onlar Çaloğlantepe və İlanlıtəpə keramikalarını xatırladır.

Birinci üç küpün təsviri:

1 saylı küpün oturacağı qalın, içəriyə doğru qabarıq, alt hissəyə batıqdır. Bu küp də başqaları kimi, yerə basdırılaraq tərpənməz qalmışdır. Ölçüləri: hündürlüyü 1,5 m; ağzının diametri - 1,2 m; gövdədən aşağı konusvari hissənin eni-65 cm; oturacağın diametri - 27 cm.

2 saylı küpün oturacağı vaxtilə (elə qədim zamanlarda) qırıldığı üçün onun oturacağı elə yerindəcə qabın döşəməyə qoyulan hissəsinə yenidən yerləşdirmiş, ətrafını torpaqla bərkitmişlər. Bu qab da forma və quruluşca, faktura etibarilə 1 saylı küp ilə eyni tiplidir. Ölçüləri: hündürlüyü 1,7 m; ağzının diametri – 1,3 m; konusvarı hissəyə keçən yerdə eni – 1 m; oturacağının diametri - 40 sm.

3 saylı böyük ölçülü küpün də oturacağı 1 saylı küpdə olduğu kimi içəriyə qabarıqdır. Quruluş və faktura etibarilə əvvəlki iki küplə eyni tiplidir. Lakin onun oturacağı sivridir. Ölçü etibarilə də əvvəlkilərdən fərqlənir: Hündürlüyü – 2 m; ağzının diametri 1,4 m-dir. Qabın çöldən divarı bir cərgə çiy kərpiclə hörülərək bərkidilmişdir. Yadaki, görünür əvvəlcə quyu qazılmış, onun divarı çiy kərpiclə hörülmüş, daha sonra iri təsərrüfat küpü onun daxilinə yerləşdirilmişdir. Bəlkə bu üsul qabın içərisində saxlanılacaq ərzaq məhsulunu tez xarab olmaqdan mühafizə etmək məqsədini güdmüşdür. Bu küpün də ağız kənarı düz, gövdəyə qədər dairəvi, gövdədən aşağı hissəsi konusvari qurulmuşdur.

Yuxarıda haqqında danışılan küplərdən cənuba doğru olan sahə təmizlənərkən daha üç küp aşkar olundu. Bu küplər həm ölçüləri, həm də quruluşu etibarilə müəyyən qədər birinci üç küpdən fərqlənirlər. Əgər 4 saylı küp bir qədər əvvəlkiləri xatırladırsa, 5, xüsusilə 6 saylı küp formaca bir qədər fərqlidir. Bundan başqa 4 və 6 saylı küplərin səthi barmaq vasitəsilə, qablar bişməmiş onun səthinə batıq, badam şəklində naxışlar vurulmuşdur. Bu tip qablara Qarabağın İlanlıtəpə eneolit yaşayış yerində təsadüf olunmuşdur.

4 saylı küpün hündürlüyü 1 m-dən artıq, ağzının diametri 70 sm, gövdənin diametri 80 sm. Yəni gövdə bir qədər uzunsov-şarvaridir. Səthi başdan başa İdeal Nərimanovun termini ilə desək barmaq basmaları ilə "impressə" edilmişdir. Rəngi qırmızımtıl - sumağıdır. Bişməsi bir qədər keyfiyyətsizdir.

5 saylı küp 4 saylıdan bir qədər qıraqda, ondan 20 sm aralıda yerə basdırılmışdır. Ağız kənarı düz, gövdəsi bir qədər uzunsov şar şəkilli, oturacağa getdikcə yığılır. Səthi sayadır. Lakin azacıq barmaq izləri var. Divarı əvvəlki qablarda olduğu kimi qalındır. Gilinin tərkibi iri qum dənəlidir. Ölçüləri: Ağzının diametri 75 sm, hündürlüyü 1,3 m-dir. Sumağı-qırmızı rənglidir. Divarı üç qatlı təsir bağışlayır. Orta və kənarlar suvaq təsiri bağışlayır. Cığallanmış və bir qədər cilalanmışdır.

6 saylı küp 5 saylı qabdan 40 sm, şimal–şərqdə yerə basdırılmışdır. Ölçücə əvvəlkilərdən bir qədər kiçikdir. Ağız kənarı düz və içəriyə meyillidir. Gövdəsi müəyyən qədər bərni tipli qabları xatırladır. Gilinin tərkibi qumlu, bişməsi əvvəlki qablar kimi qənaətbəxşdir. Ağzının diametri 43,5 sm-dir. Bu küpləri (4,5,6 saylı) yarıya qədər təmizlədik və yerindəcə saxladıq. Içərisi tam təmizlənmədi. Yalnız, günün təsirindən çatlamış ağız kənarlarından nümunələr götürdük. 6 saylı qabın da səthi 4 saylıda olduğu kimi barmaq batıqlarından yaranmış "impressə" qaydasında naxışlanmışdır. Yeri gəlmişkən qırmızımtıl–sumağı rəngli, səthi "impressə" edilmiş küp fraqmentinə Çardaxlı abidəsində də təsadüf olunub.





Nəticə:

Maraqlıdır ki, qazıntı sahəsində başqa arxeoloji materiallara – sümük, daş və s. alətlərə rast gəlinmədi. Bu fakt, həm də qabların düzülüşü və formaları, ölçü və tutum qabiliyyəti, habelə burada iri ölçülü çiy kərpiclərə rast gəlinməsi buranın vaxtilə yerli sakinlər tərəfindən ambar kimi istifadə etməsi gümanını irəli sürməyə imkan verir. Təəssüf ki, dağıntılar zamanı kərpic divarlar da uçulmuşdur. Çiy kərpiclər "ayı balası" tipli, bir gözlü qəliblərdə tökülmüş, tərkibi saman və üfə qatışıqlı palçıqdan kəsilmişdir. Fraqmentlərin bəziləri yanmış haldadır. Bəlkə bu kərpiclər vaxtilə kürədə bilərəkdən yandırılaraq möhkəmləndirilmişdir. Başqa səbəblər üzündən də bu kərpiclərdə yanıq izi qala bilər. Bunu sonrakı axtarışlar göstərəcəkdir.

Əldə olunan maraqlı nəticələrdən biri, abidədə belə böyük ölçüdə təsərrüfat küplərinin bir yerdə cəmləşməsidir. Yuxarıda qeyd etdiyimiz kimi, burada ərzaq ambarının varlığı ilə qarşılaşırıq. Belə tapıntılara ərazinin başqa eneolit dövrü abidələrində təsadüf olunsa da ilk dəfə küplərin kiçik bir otaqda bu qədər cəmləşməsinin şahidi oluruq.

Küplərin bəzilərinin (4 və 6 saylı küplərdə daha çox) səthində barmaq basmaları ilə, qablar dulus kürəsində bişirilməkdən öncə naxışlar açılması da yeniliklər sırasındadır. Bu haqda İdeal Nərimanov özünün monoqrafiyasında məlumat vermişdir. O, Ağdam rayonu ərazisində, Orta Qərvənd kəndi yaxınlığındakı İlanlıtəpə eneolit yaşayış yerində bu tip qabların varlığını xüsusi qeyd etmişdir. (И.Нариманов. Культура древнейшего... стр.48-49) Çəlləkvari quruluşlu, gövdədən yuxarısı şaquli, gövdədən aşağısı isə kəskin yığılaraq tərsinə konusvari quruluşlu qablara burada çox rast gəlindiyini deyən İ.Nərimanovun misal gətirdiyi ölçülər də Kəlbəhüseynli təpəsinin qabları ilə uyğunluq təşkil edir. Bu tip kermikaya (səthi "impessə" edilmiş), İlanlıtəpə ilə yanaşı, Cənubi Azərbaycandakı Dalmatəpə abidəsində də təsadüf olunmuşdur. (Bax.И.Нариманов. Культура древнейшая..., səh.76-77).

Beləliklə, səthi sumağı–qırmızı rəngli, cilalı qabların səthinə basma badamvari çökük batıqların olduğu abidələrin siyahısına Cənubda Dalmatəpə və Qarabağdakı İlanlıtəpə ilə yanaşı, Kəlbəhüseyn abidəsi də daxil olunur. Sonrakı tədqiqatlar bu tip keramikanın yayılma arealını dəqiqləşdirməyə imkan verəcəkdir. Yuxarıda qeyd etdiyimiz kimi bu tip keramikaya Çardaxlıtəpədə də rast gəlinmişdir.

Г.Ф.Джафаров, Д.Г.Джафарова, Н.Г.Алиев

ПРЕДВАРИТЕЛЬНЫЕ ИТОГИ ПОЛЕВЫХ ИССЛЕДОВАНИЙ «КАРАБАХСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ»

РЕЗЮМЕ

Карабахская археологическая экспедиция Института Археологии и Этнографии НАНА в 2011 году продолжила полевые археологические исследования на территории Агдамского района и прилегающей к нему зоне.

В некрополе «Палыдлы», в ходе раскопок на площади 100 м^2 не были обнаружены погребения и другие материальные остатки. Вероятно, это связано с тем, что в некрополе погребения расположены не так плотно, как казалось нам раньше.

Экспедицией также было проведены разведочно-проверочные работы в поселении эпохи энеолита Кабло Гусейн, разрушенном в ходе земельных работ

Археологическими раскопками на площади 35 м^2, были обнаружены остатки хозяйственного помещения, возведенного из сырцового кирпича, хозяйственная посуда больших размеров (6 экземпляров). По форме и фактуре эти сосуды аналогичны таковым из поселения Чалагантепе и Иланлытепе.

Поверхность некоторых сосудов покрыта сплошной, т.н. «импресированной» орнаментацией.

Экспедиция вела также разведочно-проверочные работы в памятниках Лейлатепе, Намазалытепе, Баширтепе, Расултепе, Юзбашилы, Бановшалар Тепе, Сарычобан, Шомулу Тепе, Кюллитепе, Чардахлытепе, Султанбуд и т.д.

H.F.Jafarov, D.H.Jafarova, N.H.Aliyev

PRELIMINARY FIELD RESEARCHES OF THE GARABAKH ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

Karabakh archaeological expedition of the Institute of Archaeology and Ethnography in 2011 continued the archaeological field research in the territory of Agdam and zone near Agdam.

In the necropolis "Palydly", during excavations in the area of 100 m^2, no burial, and other materials were detected. Apparently, this is due to the fact that in the necropolis burials are not as dense as we thought before.

Exploration and test works in the destroyed during earth works, Eneolithic settlement Kyabla Hussein were also carried by the expedition. By the archaeological excavations in the area of 35 m^2, there were found the remains of utility room, built of mud brick, large household dishes (6 exemplars). By the shape and texture these dishes are similar to those from the settlement Chalagantepe and Ilanlytepe.

The surface of some vessels is covered by solid ornaments. The expedition also carried out exploratory works in monuments Leylatepe, Namazaly Tepe Bashirtepe, Rasultepe, Yuzbashyly, Banovshalar Tepe Sarychoban, Shomulu Tepe, Kyullitepe, Chardahlytepe, Sultanbud etc.

SİTALÇAY KURQANLARI

(Xızı rayonu)

Q.O.Qoşqarlı, V.A.Əsədov, T.D.Babayev

2009-cu ildə Xızı rayonunun ərazisində yerləşən arxeoloji abidələrin yerini müəyyənləşdirərək, həmin rayonun arxeolji xəritəsini tərtib etmək məqsədiylə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən arxeoloji ekspedisiya yaradılmışdı. Axtarış-kəşfiyyat işlərini həyata keçirən Xızı arxeoloji ekspedisiyası 2009-cu ildə Xızı rayonu ərazisində bir çox arxeoloji abidə aşkarlayaraq, tədqiq etmiş və onların dəqiq koordinatlarını müəyyənləşdirib rayonun arxeoloji xəritəsinə köçürmüşdü. Bu abidələrin arasında müxtəlif dövrlərə aid kurqanlar, nekropollar, yaşayış yerləri, müsəlman qəbristanlıqları, pirlər və başqa tip abidələr var idi.

Qeyd edək ki, aşkar edilmiş abidələr içərisində kurqan qəbir abidələri əhəmiyyətli yer tuturdular. Kurqanlar rayonun həm dağlıq, həm də dağətəyi zonalarında qeydə alınmışdılar. Onlar tək-tək və ya qrup şəklində aşkarlanmışlar. Kurqanların ən böyük qrupu Sitalçay kəndinin yaxınlığında aşkar edilmişdi.

Sitalçay kurqan çölü Sitalçay kəndindən 4-5 km qərbdə, hərbi kazarmaların və tədris poliqonunun yaxınlığındakı düzənlik bir ərazini tutur. Kurqan çölünün sahəsi, xırdabuynuzlu mal-qaranın qışlaq yeri olan iki baxımsız fermanın arasında yerləşir. Bu düzənlik dağ yaylasında ilkin olaraq, 20-dən çox kurqan qeydə alınmışdı. Sonrakı tədqiqatlar bu kurqanların sayının daha da çox olduğunu göstərdi.

Kurqanlar müxtəlif ölçüyə və hündürlüyə malik idilər. Onlar yer səthindən əsasən 30-40 sm hündürlükdə ucalırdılar. Qeydə alınmış kurqanlardan ən hündürü, örtüyünün diametri 25 m olmaqla 1,2-1,3 m hündürlüyündə idi. Bir sıra kurqanların daş kromlexləri var idi, lakin çoxusu kromlexsiz idi, çünki, buradakı çobanlar sistematik olaraq, kromlexlərin və kurqan örtüklərinin daşlarını tikinti materialı kimi istifadə etmək məqsədiylə daşıyıb aparmışlar. Bir çox kurqanların mərkəz hissələri, tökmə örtük torpağının qəbir kamerasına çökməsi nəticəsində çökəkliyə malikdirlər. Qeyd etmək lazımdır ki, analoji kurqan çölü 1980-ci ildə Quba rayonunun Noxurlar kəndi yaxınlığında qeydə alınmışdı[1]. O da Xızı rayonundakı kurqan çölü kimi eyni hündürlükdə geniş dağ yaylasında yerləşir.

Kurqan örtüklərinin yerli çobanlar tərəfindən tədricən dağıdılmasını nəzərə alaraq, Xızı arxeoloji ekspedisiyası 2011-ci ildə Sitalçay kurqanlarının geniş miqyaslı tədqiqatını aparmaq qərarına gəldi. Bu məqsədlə kurqan çölünün bütün sahəsinə baxış keçirildi və üzərilərində arxeoloji qazıntı işlərinin aparılması nəzərdə tutulmuş kurqanlar müəyyənləşdirildi. Bunlar 6 kurqan qəbri abidəsindən ibarət idilər. Qeyd edək ki, kurqanların heç birində skelet aşkarlanmadı, bu da ehtimal ki, dəfnin kremasiya yolu ilə həyata keçirildiyinə dəlalət edir. Bu zaman meyidin kremasiyası qəbirdən kənarda icra edilmişdir.

1 saylı kurqan. Kurqanın diametri şimaldan cənuba 13,1m, qərbdən şərqə 15,15 m idi. Kurqan dairəsinin uzunluğu 46 m, hündürlüyü 53 sm idi. Kurqan örtüyü daş qarışıq torpaqdan ibarət idi. Kurqan örtüyü qazılarkən mərkəz hissəyə yaxınlaşdıqca torpaq nisbətən yumşalırdı. Kurqanın şərq hissəsində kurqan örtüyünün səthindən 45 sm aşağıda mərkəz tərəfə yaxın hissədə çürüntü izləri göründü. Qəbir kamerasının cənub divar kəsiyi tərəfdə 50 sm dərinlikdə saxsı parçası aşkar edildi. Saxsı parçası orta tutumlu küpə tipli qaba aid olub, açıq çəhrayı rənglidir. İçərisində nazik qara laydan ibarət təbəqə var. Üzərində yapma düyməcik yerləşir. Eyni dərinlikdə daha bir saxsı qabın ağız hissəsi aşkar edildi. Ağız dar boğazlı, geniş gövdəli qaba aiddir. Nazik divarlıdır (0,5sm). Digər tapıntı saxsı qabın qulp hissəsinə aiddir. Orta həcmli qaba məxsus olan qulp ilgəkvaridir. Rəngi açıq çəhrayıdır (tabl. I, şək.1).

1 Дж.А.Халилов, К.О.Кошкарлы, Р.Б.Аразова. Свод археологических памятников Азербайджана. Баку, 1991, стр.50.



Şəkil 1.




Şəkil 2.

Torpaq təmizləndikcə kurqanın mərkəz hissəsindən 55 sm dərinlikdə qəbir kamerasının döşəmə daşları üzə çıxdı. Bunlar nazik lay daşlardan ibarət olub, olduqca kövrək idilər. Güman ki, bu onların üzərində qalanmış ocağın nəticəsidir (tabl. I, şək. 2). Bunu döşəmə ətrafında aşkarlanmış 60 sm radiuslu kül qatı da təsdiqləyir. Döşəmə daşlarının altında hansısa tunc bir əşyanın izinə rast gəlindi. Burada həmçinin daha bir saxsı fraqmenti də aşkarlandı. Bu, orta tutumlu, şar gövdəli qab gövdəsinin bir hissəsi idi. Çəhrayı rəngdə olub, üzərində yapma bəzək və ya qulp izləri vardır (tabl. II , şək.1,2,3).


Cənub tərəfdən kurqanın kromlex daşlarının altından orta ölçülü ağ daş düzümü, daha doğrusu bərkidici daşlar aşkar edildi.



Şəkil 1



Şəkil 2.




Şəkil 3.

2 saylı kurqan. 1 saylı kurqandan 250 m şərq tərəfdə yerləşirdi. Kurqanın hündürlüyü 25-30 sm, d. 8,5 m idi. Qəbir kamerasının əlamətləri yer üstündən nəzərə çarpırdı. Kamera daş plitələrdən inşa edilmişdi. Qəbrin uzunluğu 195 sm, eni 150 sm, dərinliyi 80 sm idi. Qəbrin içərisində 25-30 sm tökmə torpaq qatından sonra kül qatı aşkarlandı. Bu qəbrin kamerası da nazik plitələrlə döşənmişdi. Qəbirdə heç bir avadanlıq yox idi (tabl. III, şək.1).

Tablo III



Şəkil 1.



Şəkil 2.

Tablo IV



Şəkil 1.



Şəkil 2.

3 saylı kurqan. 2 saylı kurqandan 30 m qərbdə yerləşirdi. Kurqanın d. 8,5 m, hündürlüyü 20-25 sm idi. Kurqan örtüyü daş qarışıq torpaqdan ibarət idi. Kurqanın nisbətən kiçik hündürlüyünü və dairəsinin uzunluğunu nəzərə alaraq, bu kurqan tam götürülmə metodu ilə qazıldı. Kurqanın örtüyü çökmüşdü. Torpaq qatı götürüldükdən sonra kurqanın kromlexinin altından daha bir sıra dairəvi iri daşlardan ibarət düzüm aşkar edildi (tabl. III, şək. 2). Kurqan kamerasının mərkəz hissəsində 20 sm dərinlikdən kül qarışıq torpaq təbəqəsinin içərisindən miniatür ölçüdə dopu tipli qab aşkar edildi. Açıq bozumtul rəngli qabın oturacağı oval formalıdır (tabl. IV, şək.1). Qəbir kamerası 35 sm qazıldıqdan sonra qrunta çatıldı. Kurqan kamerasının şimal-şərq hissəsində tökmə torpağın altında bir topa daş yığımı var idi.

4 saylı kurqan. Bu kurqan da eynilə 2 saylı kurqan tipində idi. Kurqanın tökmə topağı yer səthindən 5-10 sm hündür idi. Kurqanın nisbətən hündür yerindən müxtəlif ölçülü daşlar yer üstündən aydın görünürdü. Torpaq təbəqəsi 10 sm götürüldükdən sonra qəbir kamerasının döşəməsinə düzülmüş nazik plitə daşlar üzə çıxdı. Kameranın şimal divarına yaxın yerdən açıq çəhrayı rəngli dar boğazlı saxsı qabın bir neçə fraqmenti aşkar edildi (tabl. V, şək.1,2). Bu formalı qab ağzına 1 saylı kurqanda da rast gəlinmişdi. Burada daha bir saxsı qabın gövdə hissəsinin qırıqları aşkarlandı. Torpaq qatı 50 sm götürüldükdən sonra bu kurqanın kamerasında da nazik plitələrdən ibarət döşəmə daşları göründülər (tabl. IV, şək. 2).

Tablo V



Şəkil 1.



Şəkil 2.

Tablo VI



Şəkil 1.



Şəkil 2.

5 saylı kurqan. Bu kurqan 4 saylı kurqandan 60-70 m qərbdə yerləşirdi. Kurqan tədqiq olunmuş digər kurqanlardan öz ölçüləri ilə fərqlənirdi. Onun hündürlüyü 80 sm, d. 22 m, dairəsinin uzunluğu 66 m idi (tabl. VI, şək.1). Kurqanın mərkəzindəki kromlexin d. isə 9 m-ə çatırdı. Kurqan örtüyünün tərkibi daş qarışıq torpaqdan ibarət idi. Örtüyün üst hissəsindən 20-25 sm aşağıda, bütün perimetr üzrə müxtəlif ölçülü daşlardan ibarət daha bir düzüm üzə çıxdı (tabl. VI, şək. 2). Çox güman ki, bu düzüm bərkidici sədd rolunu oynayırdı. Onun d. 32 m, zolağının eni 2,2 m idi. Kurqanın şərq tərəfində, mərkəzə yaxın yerdə 20 sm dərinlikdə qalın divarlı, iri həcmli küpə məxsus saxsı fraqmenti aşkar edildi. O, qırmızı rəngdə olub, pis bişirilmişdir. Gilinin tərkibində iri qum və çınqıl qarışığı vardır. Divarının qalınlığı 1,5 sm-dir. Daha bir saxsı parçası eyni dərinlikdən çıxdı. Kiçik ölçülü, nazik divarlı saxsı fraqmenti qırmızı rəngdədir (tabl. VII, şək. 1-4). Gilinin tərkibində narın qum qarışığı vardır.

Kurqanın düz mərkəzində 40 sm dərinlikdən iri sal daşlardan qurulmuş qəbir kamerası üzə çıxmağa başladı. Kameranın ətrafı torpaqdan təmizləndikdən sonra məlum oldu ki, o oval formalıdır. İki ədəd iri sal daşı isə kameranın divarlarına söykənmişdi. Əgər bu daşların kamera örtüyü olduğunu nəzərə alsaq, bu kurqanın qədim zamanlarda qarət olunduğunu ehtimal etmək olar. Kameranın dərinliyi 70 sm, uzunluğu 165 sm, eni isə 80-85 sm idi (tabl. X, şək. 1-2) Kameranın mərkəzində 10-15 sm dərinlikdən iki ədəd çox kiçik ölçüdə, forması müəyyən olunmayan saxsı fraqmentlər aşkar olundular (tabl. VIII, şək.1,2). Elə həmin dərinlikdə 20 sm radiuslu yanıq izləri üzə çıxdı. Kameranın şimal-şərq divarı tərəfdə isə insan skeletinə məxsus olması ehtimal edilən çox xırda, çürümüş sümük fraqmenti aşkar edildi. Həmçinin şimal divarı tərəfdə taxta çürüntüsü aşkarlandı. Uzunluğu 11-12 sm , eni 0,5 sm olan bu çürüntü ox saplağının qabını xatırladırdı. Qəbir kamerasının şərq divarı tərəfdə 60 sm dərinlikdən qırmızı oxra qalıqları üzə çıxdı.

Tablo VII



Şəkil 1, 2.




Şəkil 3.




Şəkil 4.

Tablo VIII



Şəkil 1.



Şəkil 2.

Kurqan örtüyünün müxtəlif dərinliklərindən aşkar edilmiş saxsı fraqmentləri içərisində düz ağızlı, kiçik tutumlu qaba məxsus ağız hissəsi də var idi. Çəhrayı rəngli qab fraqmentinin gilinin tərkibində narın qum qarışığı vardır. Daha bir qabın ağız hissəsi düz və yastıdır. Açıq qırmızı rəngli saxsı fraqmentinin gilinin tərkibində iri çınqıl qarışığı vardır. 40 sm dərinlikdə aşkar olunmuş saxsı fraqmentləri də qırmızı rəngli olub, iri ölçülü küpə məxsusdurlar. Bu dərinlikdən cüzi miqdarda kömür qalıqları da aşkar edildi. Maraqlıdır ki, bu kurqan qazıntısı aparılmış digər kurqanlardan böyük ölçülərindən əlavə həm də qəbir kamerasının döşəməsində nazik lay daşların olmaması ilə fərqlənirdi.

5 saylı kurqandan 100 m cənub-şərqdə daha bir kiçik kurqan **6-cı nömrə** altında qeydə alındı. Kurqanın d.7,5 m, kromlexinin d. 4,0 m idi. Yer üstündən daşları aydın görünürdü. Daş düzümü dairəvi xarakter daşıyırdı. Bunlar iri sal daşlardan ibarət idilər. Lakin burada xarakterik kurqan örtüyü izlənilmirdi.

6 saylı kurqanın kromlexinin d. 3,7 m idi. Üst daşlar götürüldükdən sonra daha bir dairəvi daş düzümünə rast gəlindi (tabl. IX, şək. 1). Bunlar müxtəlif ölçülü və formalı sal daşlar idilər. İkinci daş düzümü təmizləndikdən sonra digər kurqanlarda olduğu kimi burada da nazik lay daşlardan ibarət döşəmə üzə çıxdı (tabl. IX, şək. 2). Burada kül qatı olduğu ehtimal edilən 20 sm radiuslu boz torpaq ləkəsinə rast gəlindi. Döşəmənin uzunluğu 2,1 m, eni 1,55 m idi. Burada heç bir maddi-mədəniyyət nümunəsi aşkar edilmədi. Bu kurqanın strukturu onun qurbangah olması qənaətinə gəlməyə imkan verir.

Beləliklə, Sitalçay kurqanlarında müşahidə olunan qanunauyğunluqlar (kurqanların strukturundakı eynilik, iri sal daşlardan qurulmuş qəbir kameraları, kameraların dibinə döşənmiş nazik plitələr, ikinci daş qatının, bəzi kurqanlarda yanıq izlərinin olması və s.) burada ümumi dəfn adətinin mövcudluğundan xəbər verir. Qəbirlərin olduqca kasıb avadanlığını, və ya ümumiyyətlə avadanlığın olmamasını və burada skeletlərin aşkar edilməməsini də bu sıraya əlavə etmək olar. Lakin qəbirlərdəki kasıb avadanlıq onların vaxtıyla qarət olunması ehtimalını da istisna etmir. Qəbir kameralarında skeletlərin olmaması isə onların kənarda kremasiya edilməsi ilə əlaqədar ola bilər. Bəzi qəbirlərdə kül izlərinə rast gəlinməsi də bu ehtimalı artıran faktorlardandır.

Tablo IX



Şəkil 1.



Şəkil 2.

Tablo X



Şəkil 1.



Şəkil 2.

Sitalçay kurqanlarında izlənilən dəfn adəti və burada əldə olunmuş keramika nümunələrinin təhlili bu kurqanların e.ə.III minilliyin ikinci yarısına aid olmasını ehtimal etməyə əsas verir. Qeyd edək ki, bu kurqanlar Azərbaycanın şimal-şərq zonasında tədqiq olunmuş bu dövrə aid hələlik ilk qəbir abidəsidirlər.

Г.О.Гошгарлы, В.А.Асадов, Т.Д.Бабаев

КУРГАНЫ СИТАЛЧАЯ

РЕЗЮМЕ

В 2009 г. при проведении археологических разведовательных работ в Хызинском районе в 4 км к западу от села Ситалчай на территории обширного горного плато было зафиксировано курганное поле. Земляные курганы различной высоты и диаметра располагались на всей площади горного плато. В общей сложности было зафиксировано более тридцати курганов. У многих курганов была просевшая шапка, что является показателем осыпания грунта в погребальную камеру. На крупных курганах четко прослеживались каменные выкладки кромлехов. Ряд курганов имели следы повреждений. В 2011 г. решено было исследовать шесть курганов, имеющих внешние признаки повреждений. Курганы, несмотря на разные размеры, имели практически одинаковую технику сооружения. Камеры сооружались на дневной поверхности из крупных каменных блоков, а дно камер полностью покрывалось плоскими тонкими каменными плитами. Крупные курганы имели кромлехи. Вероятно, все курганы еще в древности были ограблены. В камерах были выявлены фрагменты отдельных сосудов и один сероглиняный маленький горшочек с шаровидным дном. Костяки практически не сохранились и, ввиду вскрытия курганов, уже в древности полностью сгнили и перемешались с землей. Вследствие этого цвет и состав земли в могильной камере резко отличался от земли вокруг него.

Анализ керамического материала и конструктивные особенности исследованных курганов позволяют датировать их второй половиной III тыс. до н.э.

G.O.Goshgarly, V.A.Asadov, T.D.Babayev

SITALCHAY'S BURIAL MOUNDS

SUMMARY

A field of burial mounds was identified in the territory of a wide mountainous plateau 4 kilometers west of village Sitalchay during the conduct of archeological exploration works in the Khyzy region in 2009. Earth burial mounds with different heights and embankment diameter were located throughout the mountainous plateau. A total of more than thirty burial mounds were discovered. Many of the burial mounds had weak hat, an indication of earth's bedding out into the grave. Stone spreading of cromlechs were detected strictly at large burial mounds. Traces of damage were observed at a number of the burial mounds. In 2011, it was decided to explore six burial mounds bearing apparent signs of damage. Despite different sizes, the burial mounds were constructed practically similarly. The mounds were constructed of large stone blocks on the daylight whereas the bottom of the mounds was covered fully with flat thin stone slabs. Large mounds had cromlechs. To all probability, all the burial mounds were robbed yet in ancient times. Fragments of separate vessels and one small gray earthen pot with a globular bottom were identified in the cells. Skeletons were not actually preserved and, given that the mounds were opened yet in ancient times, were fully rotten and mixed with the earth. As a consequence, the color and the composition of the earth in the burial mound strongly differed from the earth around it.

Analysis of the ceramic material and construction peculiarities of the explored burial mounds allow dating them back to the second half of the 3rd millennium BC.

GÖYGÖL-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ GORANBOY RAYONU ƏRAZİSİNDƏ APARDIĞI TƏDQİQATLAR

(Göygöl, Goranboy rayonları)

B.M.Cəlilov



Şadılı kurqanlarının ümumi görünüşü.

Göygöl-Goranboy ekspedisiyası 2011-ci il arxeoloji tədqiqat işlərinə, Goranboy rayonu, Şadılı kəndi ərazisində yerləşən, İlk tunc dövrünə aid kurqanda başlamışdır.


Kurqan Şadılı kəndi ərazisində, kənddən təxminən 700 metr şərqdə, Kürəkçayın sağ sahilində, çay yatağından 150 metr aralıda, kiçik təbii təpə üzərində müəyyən edilmişdir. Kurqan kamerası təpənin qərb qurtaracağında, onun tam diametrini əhatə edərək, təpənin davamı kimi yüksəldilmişdir. Kurqan örtüyünün diametri 11 metr, hündürlüyü 1 metr idi. Kurqan örtüyünün sonradan 1,4 metrə dərinliyində olan kameraya çökməsini nəzərə alsaq, onun ilkin hazırlandığı dövrdə, 2 metrdən yüksək olmasını söyləmək mümkündür.

Kurqan kamerası dördkünc formada, təpə üzərində, 1,4 metr dərinlikdə qazılmışdır. Kameranın uzunluğu 5,5 metr, eni isə 4,5 metr olmaqla 25 kvadratmetrə yaxındır. Kurqan kamerası qazıldıqdan sonra, onun giriş hissəsi istisna olunmaqla, döşəməsinin kənarlarında, divarları boyunca kiçik xəndək qazılmışdır. Xəndəyin dərinliyi 25-30 sm, eni isə 20-25 sm olmaqla kameranı əhatə etmişdir. Xəndəklərin içərisində, kameranın dörd küncündə və bir neçə orta hissədə, oval formalı, diametrləri 20-30 sm, dərinlikləri 30-35 sm olan kiçik quyular qazılmışdır. Daha sonra isə bu quyuların içərisi kiçik çay daşları və ya çınqılla doldurulmuşdur. Hesab edirik ki, kameranın ətrafının bu formada qazılmasında məqsəd, onun içərisinin daima quru qalmasına hesablanmışdır. Sərdabə uzun müddətli dəfn mərasiminin həyata keçirilməsi üçün nəzərdə tutulmuş və bu müddətlər ərzində yağan yağışlar onun kamerasına dola və müəyyən fəsadlar yarada bilərdi. Yağan yağışların kameraya dolması ehtimalı çox yüksək olmuşdur. Belə ki, kameranın üst örtüyü olan çay daşları və azacıq narın torpağın arasından su asanlıqla süzülə və kameraya dola bilərdi. Yağış sularına qarşı bu tədbirlər istər burada dəfn edilmiş insan sümüklərinin, istərsədə dəfn mərasimi zamanı buraya qoyulmuş taxta və bu kimi nəmişliyə qarşı həssas olan materialdan hazırlanmış

nümunələrin tez bir zamanda çürüməsinin qarşısını almaq məqsədi ilə düzəldilmişdir. Digər tərəfdən dəfn mərasiminin müxtəlif hava şəraitində və müxtəlif fəsillərdə həyata keçirilməsi zərurəti yarana bilərdi ki, bu zamanlarda da kameranın içərisinin daima quru olması təmin edilmiş olardı. Kurqan sərdabəsinin hazırlanmasında tikinti materialı kimi ağac tirlərdən istifadə edilmişdir. Onlar kameranın divarları boyunca şaquli vəziyyətdə bir-birinə bitişik, basdırılmışdır. Ağac tirlər basdırılarkən divardan aralı, qazılmış xəndəkdən içəriyə doğru qoyulmuşdur ki, bu bir daha yuxarıda söylədiyimiz fikirləri təsdiq etməyə imkan verir. Belə ki, kamera divarından süzülən su xəndəyə tökülərək, daha aşağıya çökməklə ağac tirlərlə təması mümkünsüz olmuşdur. Ağac tirlərin qazılmış xəndəklərə deyil, daha içəriyə qoyulması, həm onların çürüməsinin qarşısını almaq üçün, həm də süzülüb gələn suyun qarşısını kəsməmək məqsədi ilə edilmişdir. Nəticədə axan su qazılmış xəndəyə tökülərək, onun içərisindəki çınqılların arasından daha aşağıya süzülmüş və kameranın içərisinin quru saxlanılması təmin edilmişdir.

Sərdabənin üst örtüyünə, şaquli tirlərin üzərinə, üfiqi istqamətdə iri gövdəli ağac tirlər döşənmişdir. Çox six formada döşənmiş bu tirlərin üzərinə müxtəlif ölçülü çay daşları düzülmüşdür. Sərdabənin cənub və və qərb hissəsinə nisbətən xırda çay daşlar döşənmişdir ki, onların diametri 7-10 sm təşkil edirdi. Əksinə, sərdabənin şərq tərəfi daha iri daşları ilə örtülmüşdür. Buradakı çay daşlarının diametri 15-40 sm arasında idi. Sərdabənin dromos hissəsində də bu cür iri çay daşları qoyulmuşdur. Daha sonda sərdabənin üzərinə 30-35 sm qalınlığında torpaq qatı tökülmüşdür.

Sərdabənin tikintisində istifadə olunan ağaclar həm diametrinin həcminə görə böyük olmuş, həm-çinində möhkəmliyi baxımından xüsusi növ ağac olmuşlar. Belə ki, üfiqi vəziyyətdə qoyulmuş ağac tirlərin üzərinə düzülmüş daş örtüyünün qalınlığı təxminən 2 metr təşkil ki, bunun saxlanılması üşün möhkəm və dayanıqlı ağaclara ehtiyac vardır. Kurqandan yanmya və çürüməyə məruz qalmadan aşkar edilən ağac qalıqları əsasında, onların möhkəm və uzunömürlü arçan ağac növü oldugu müəyyənləşdirilmişdir.



1№-li Şadılı kurqanının planı.





1№-li Şadılı kurqanaltı sərdabənin görüntüləri.

Kurqan sərdabəsinin şərq tərəfdən giriş qapısı (dromos) vardır. Dromosun eni 1,4 metr, hündürlüyü 1,2 metr, uzunlugu isə 2,5 metrə yaxındır. Kurqan kamerasının dərinliyi, giriş hissəsinin dərinliyindən 20-25 sm artıq qazılmışdır. Belə ki, giriş hissədən kameranın içərisinə 20-25 sm dərinliyində pillə formasında keçid vardır. Sərdabənin girişi təbii torpaq qatında qazılmış və kənar divarlarının möhkəmləndirilməsində heç bir tikinti vasitələrindən istifadə edilməmişdir. Dromos sərdabənin şərqində olmaqla azacıq şimala meylli qazılmışdır. Lakin dromosun giriş hissəsi yenidən şərqə doğru meyl etmişdir.

Ehtimal etmək olar ki, sərdabə bir tayfaya məxsus olmuşdur. Kurqanda uzunmüddət dəfn mərasimi həyata keçirilmişdir. Tayfadan ölən insanları ilk öncə sərdabənin divarlarına yaxın, kənar hissələrinə qoymuşlar və orta hissə boş saxlanılmışdır. Bu zaman məqsəd sərdabəyə rahatlıqla girib-çıxmaq imkanı əldə etmək olmuşdur. Daha sonra tayfada ölən növbəti insanı kurqan sərdabəsinə qoyarkən, əvvəl buraya qoyulmuş insanın sümüklərini bir kənara yığmışlar. Beləliklə, dəfn mərasimi uzun müddət sərdabənin kənar hissələrində həyata keçirilmişdir ki, nəticədə kameranın bəzi yerlərində 50 sm hündürlüyündə sümük təbəqəsinə rast gəlinirdi. Sərdabənin mərkəzi hissəsinə sonda bir neçə insan dəfn edilmişdir. Sərdabənin giriş hissəsinə qədər insan cəsədləri qoyulmuşdur, hətta sonda bir neçə nəfər girişin icərisində dəfn edilmişdir.

Sərdabəyə qoyulmuş insanların müxtəlif yaşda olmaları müəyyən edilmişdir. Aşkar edilmiş sümüklərin 2-3 yaşlı körpə uşaqlardan, daha yaşlı insanlara qədər bütün yaş kateqoriyasına uyğun gəlmələrini söyləyə bilərik. Sümüklərin analizi göstərir ki, dəfn edilmiş insanların böyük qismi 15-35 yaşları arasında dünyasını dəyişmişdir. Həmçinin ölən insanlar arasında qadınlar və uşaqlar sayca çoxluq təşkil edirlər.

Sərdabə tam dolduqdan sonra dini adət ənənəyə uyğun olaraq ona od vurulub yandırılmışdır. Yandırılma dini dünyagürşlə yanaşı, gələcəkdə sərdabədə baş verə biləcək qarətin qarşısını almaq səbəbindən də bir adətə cevrilə bilərdi. Bütün halda sərdabə dolduqdan sonra onun yandırılması bir adət olmuşdur. Sərdabə yandırılarkən, onun qərb divarı yaxınlığında örtüyünün bir hissəsi açılmış və sonradan alov verilərək yandırılmışdır. Bu zaman giriş hissə açıq saxlanılmışdır. Nəticədə, dromos hissəsindən daxil olan güclü hava axını, alovu daha da gücləndirmiş yuxarıdan açılmış hissədən isə alov bayıra sorulmuşdur. Sərdabə yanma prosesi sanki təndir və ya kürə effekti verəcək bir səviyyəyə gətirilmişdir. Yanma nəticəsində sərdabədə çox yüksək temperatur yaranmışdır ki, nəticədə dəfn edilən insanların sümükləri və sərdabəyə qoyulmuş maddi mədəniyyət nümunələri güclü yanmaya məruz qalmışdır. Sümüklər bəzən külə dönmüş, bəzən isə kömürləşmişdir. Alovun təsirindən torpaq və daşlar qırmızı rəng almış, bəzən çay daşları əriməyə məruz qalmış və şlaklaşaraq bir-birinə yapışmışdır. Alov əsasən sərdabənin qərb hissəsində açıq yerdən çıxdığı üçün, bu hissələr xususən qərb, cənub-qərb və şimal-qərb hissələri daha güclü yanmaya məruz qalmışdır. Bu hissədə olan ağaclar demək olar ki, tamam yanmış, insan sümükləri alovun təsirindən yanaraq tamamilə ağarmış, saxsı nümunələri daha çox yanmaya məruz qalaraq sarımtıl-qırmızı rəng almışdır. Qərb hissədə torpaq qatı və daşlar yanmanın təsirindən qırmızı rəng almışdır. Sərdabənin şərq hissəsindən, dromosdan külək içəri sorulduğu üçün, bu hissələri alov tutmamışdır. Bu səbəbdən burada olan istər insan sümükləri, istər qəbir əşyaları, istərsədə torpaq təbəqə yanmaya məruz qalmamışdır. Digər tərəfdən sərdabənin dromos hissəsində ağac materiallar olmamış və şərq divarında dromosun sağ və sol tərəflərində şaquli vəziyyətdə qoyulmuş tirlər, döşəmədən 60 sm yuxarıda divarda xüsusi yer açılaraq oradan düzülmüşdür. Şərq divardakı dromosdan daxil olan külək, alovu qərbə doğru qovduğu üçün, həmçinin bu hissədə taxta materialının az olduğu və olanların da qəbir avadanlıqlarından və insan sümüklərindən aralı olduğu nədənindən, yuxarıda qeyd etdiyimiz kimi bu hissələr daha az yanmaya məruz qalmışdır. Təsadüfi deyildi ki, yalnız bu hissədən yanmamış insan sümüklərinə rast gəlinirdi. Lakin onlar da dəfn mərasimi və ya yanğın zamanı baş verən çökmənin təsirindən dağılmadan kənarda qalmamışdı. Insan sümükləri uzun illər boyu bir tərəfə yığıldığı və qalın bir təbəqə əmələ gətirdiyi üçün yanma zamanı alovun təsiri az olan hissələrdə yalniz üst qatın sümükləri yanmaya məruz qalmışdır. Təbii ki, alovun təsiri daha güclü olan hissələrdə, alt qatda olan sümükər də, müəyyən qədər yanmışlar. Bununla yanaşı sərdabənin döşəməsi də, alovun təsirindən qırmızı rəng almışdır.

Kurqanda yanma prosesi tam başa çatmamışdır. Belə ki, sərdabənin divarları boyunca düzülmüş və üzərinə döşənmiş iri gövdəli tirlər yanma prosesi zamanı yanaraq çökmüş və yanma prosesi tam başa

çatmamışdır. Nəticədə divar boyu düzülmüş tirlərin yerə yaxın, 20-30 sm uzunluğunda, alt hissəsi yanmamış qalmışdır. Nisbətən yuxarı hissələri isə külə çevrilməyərək, kömürləşmiş halda saxlanılmışdır. Amma təbii ki, agac tirlər çökənədək yanma prosesi xeyli davam etmiş və güclü hərarətdən bir çox ağaclar və digər nümunələr külə çevrilmişdir.

Sərdabədə dəfn olunan insanların sümükləri bir müddətdən sonra, daha doğrusu yeni ölmüş insanın dəfn edilməsi ilə əlaqədar olaraq, bir yerə yığıldıqları üçün, onların ilkin qoyulma vəziyyəti tamamilə dəyişmiş və ilkin vəziyyətinin müəyyən edilməsi mümkün olmamışdır. Artıq bu hal bir neçə dəfə təkrarlanarkən sərdabənin orta hissəsi istisna olunmaqla, digər yerlərində xüsusilə kənar hissələrdə qalın insan sümüyü təbəqəsi əmələ gəlməsinə səbəb olmuşdur. Digər tərəfdən sərdabə yandırılarkən, yanmanın təsirindən və üst örtüyünün çökməsi zamanı qəbirdə olan bütün əşyalar, o cümlədən sümüklər, kül, kömür, ağac parçaları və daşlarla tamamilə qarışmış və qalın bir təbəqə əmələ gətirmişdir. Bu səbəblərdən dəfn olunan insanların qoyulma istiqamətlərini və formalarını müəyyən etmək mümkün olmamışdır. Bununla yanaşı, bu səbəblərdən sərdabədə dəfn olunan insanların sayının dəqiqləşdirilməsi də hələ ki, mümkün olmamışdır. İlkin təxminlərə görə burada dəfn olunanların sayı 70-100 nəfər arasındadır.

Kurqan sərdabəsindən bütöv və dağılmış halda xeyli sayda saxsı qab nümunələri, taxtadan hazırlanmış vaza tipli qabın kömürləşmış qalıqları, ağacdan hazırlanmış taxçanın kömürləşmiş qalıqları, sümükdən hazırlanmış iy başlıqları, pasta muncuqlar, mineral daşdan hazırlanmış möhür və parça qalıqları aşkar edildi. Sərdabədə metal əşyalara rast gəlinmədi.

Keramika.

Sərdabədən xeyli sayda erkən tunc dövrünə aid saxsı qab nümunələri aşkar edildi. Onların böyük qismi yanğın zamanı üst örtüyün çökməsi nəticəsində, tamamilə dağılmış və bərpa edilməsi mümkün olmayacaq həddə çatmışdır. Digər tərəfdən bir çox saxsı parçaları ayrı-ayrı qablara məxsus olmaqla təkdirlər. Ehtimal etmək olar ki, onlar sərdabəyə sınıq halda bir parça olaraq qoyulmuşdur. Bu saxsı hissələri, müxtəlif formalı, kiçik ölçülü, küpə tipli, üzərində qulpları olan, saxsı qabların ağız hissələri və xeyrə tipli saxsı qab hissələridir. Ümumiyyətlə aşkar edilmiş qabların əksər hissəsi küpə və xeyrə tipli qablardır. Belə ki, saxsı qablardan 25 ədədi küpə tipli, 14 ədədi isə xeyrə tipli saxsı qablara məxsusdur. Sərdabədən aşkar edilmiş saxsı qabların 30 ədədini tamamilə bərpa etmək mümkün olmuşdur. Saxsı qab nümunələri küpə, xeyrə, bardaq, dopu, kasa və s. ilə təmsil olunmuşdur.

Saxsı qabların əksəriyyəti kiçik həcmlidir. Hətta onlardan 4 ədədi miniatür formada hazırlanmışdır. Miniatür formada hazırlanan saxsı qablar qara cilalı olmaqla küpə və piyalə formalı nümunələrlə təmsil olunmuşdur. Ümumiyyətlə saxsı qablar qara, boz və açıq sarımtıl-qırmızı cilalıdır. Onların hazırlanmasında istifadə olunan gilin tərkibinə narın qum qatılmışdır. Bəzi xeyrə tipli saxsı qablarda daha iri dənəcikləri olan qum qarışığı vardır.

Küpə tipli saxsı qablar, qulplarının hazırlanma və yerləşmə formasına görə iki tipə ayrılır. Bu saxsı qabların böyük qisminin yanlarında en kəsiyi lentşəkilli olan, iki qulpu vardır ki, onlar bəzilərində bu qulplar çiyin ilə ağız hissəni, bəzilərində isə çiyinlə boğaz hissəni birləşdirir. Birinci tip küpə tipli qabların nəzərə çarpacaq dərəcədə boğaz hissəsi olmadığından və yaxud cox kiçik olduğundan, çiyindən bir başa ağız hissəyə keçid olmuşdur. İkinci tip küpələrin çiyindən ağıza keciddə nisbətən uzun boğazları vardır ki, hətta onlardan bəzilərinin boğazlarının hündürlüyü 7-8 sm çatırdı. Diqqəti cəlb edən məqamlardan biri də, bu tip qablar üzərində vaxtı ilə bərpa işlərinin aparılmasıdır. Belə ki, bəzi küpələrin bir qulpu istifadə edərkən və yaxud, ola bilsin qabların hazırlanma prosesi başa çatdıqdan sonra sınmış və onların yeri kobud formada gil ilə örtülmüşdür. Bərpa işi yüksək ustalıqla aparılmadığından, bu hissədə əvvəl qulpun olması aydın görünməkdədir. Küpə tipli saxsı qabların bəzilərinin oturacaq hissəsi içəriyə doğru batıqdır. Ümumiyyətlə qablar sadə formada hazırlanmışdır. Belə ki, onların üzərində heç bir naxış və ya həndəsi cizgilərə rast gəlinmir.

Kurqandan aşkar edilmiş saxsı qablar içərisində kəmiyyətcə üstünlük təşkil edənlərdən biri də xeyrələrdir. Xeyrələr qablar içərisində həmçinin, nisbətən iri həcmli olmaları ilə nəzərə çarpır. Bu tip qabların hazırlanmasında gilin tərkibinə iri dənəcikləri olan qum qarışığı əlavə edilmişdir. Onlar iri həcmli, qara, boz, və ya bozla qaranın qarışıq rənglərində olmaqla sadə formada hazırlanmışdır. Xeyrələrin bir

qisminin ağız kənarlarında qoşa məməcik formalı, bir qismində düzbucaqlı formalı, digər qismində oval formalı tək çıxıntılar, bəzilərində isə ortasında yandan deşik olan kiçik yapmalar var idi. Qulpu xatırladan bu cür yapmalar, bəzi xeyrələrdə bir tərəfdə, bəzilərində isə hər iki tərəfdə qoyulmuşdur. Xeyrələr formaca eyniyyət təşkil etməklə, əsasən həcmlərinə, hündürlüklərinə və ağız kənarlarının müxtəlifliyinə görə bir-birindən fərqlənir. Onların bir qisminin ağız kənarları düzbucaqlı, oval, nisbətən enli, düz, bir qisminin ki, isə oval nazik formada içəriyə doğru meylli hazırlanmışdır.

Kurqandan aşkar edilmiş saxsı qabların xarakterik xüsusiyətləri və spesifik hazırlanma formasına nəzər yetirdikdə, onların klassik Kür-Araz mədəniyyəti qablarından özünəməxsusluğu ilə seçildiyini söyləyə bilərik. Xüsusi ilə bu fərqlilik qabların qulplarının hazırlanmasında özünü aydın biruzə verir. Demək olar ki, bu qablarda yarımşarvari, həmçini öküz burnunu xatırladan qulplara rast gəlinmir. Xüsusi ilə klassik Kür-Araz qabları qulplarının kənarlarında olan, qulpla bir komleks təşkil edən qabarıq çıxıntılı naxışlar qoyulmamışdır. Sərdabədən aşkar edilmiş saxsı qabların en kəsiyi oval olan, sadə formalı qulpları vardır. Digər tərəfdən klassik Kür-Araz qablarının çiyin hissələrində, gövdədən boğaza keçidin sərt şəkildə ayrılması diqqəti çəkdiyi halda, bu qablarda bunu hiss etmək mümkün deyildir. Həmçini gövdənin quruluşundada bu qabların özünəməxsus formaları vardır.







Taxta vaza. Sərdabədən bir ədəd taxtadan hazırlanmış, vaza kömürləşmış halda aşkar edildi. O, oval formada olub, uzunlugu 55 sm, eni isə 38 sm idi. Vaza 1,5-2 sm qalınlığı olan taxtadan qayıqvari formada hazırlanmışdır. Onun uzunlugu 5 sm olan, 4 ədəd ayağı vardır. Ayaqlarının en kəsiyi dairəvi, özləri isə uzunsov formalıdır. Ayaqların eni uca doğru nazilir.









Ağac taxca. Sərdabənin cənub-qərb küncündən bir ədəd taxtadan hazırlanmış taxcanın kömürləşmiş qalıqları aşkar edildi. Taxca qalınlığı 4-5 sm, eni 15 sm olan taxtalardan hazırlanmışdır. Taxcanın dörd küncündə, təxminən uzunluğu 25-30 sm olan ayaqları vardır. Ayaqların en kəsiyi dairəvidir. Taxcanın baş və ayaq tərəflərində eyni qalınlıqda və hündürlükdə ağacdan başlıqlar vurulmuşdur. Ağac taxcanın eni 125 sm, uzunluğu isə 135 sm idi.

Taxcanın üst hissəsində bir neçə ədəd saxsı qab və insan sümükləri aşkar edildi. Məhz taxtadan hazırlanmış, vaza tipli qab da taxcanın yanından ağzı üstə aşkar edilmişdir. Taxcadan 30-40 sm aralı daha bir neçə ədəd saxsı qab yanı və ya ağzı üstə aşkar edilmişdir. Ehtimal ki, onlar taxcanın üzərində olmuş və yanğın zamanı yanı və ya ağzı üstə yerə düşmüşdür. Taxca üzərində olan sümüklərin tayfanın nüfuzlu şəxsinə aid olduğunu söyləmək olar. O, dəfn edilərkən taxca üzərində, sərdabənin ən mötəbər hissəsində qoyulmuş və yanına qablar düzülmüşdür.

İy başlıqları. Sərdabədən 11 ədəd, sümükdən hazırlanmış iy başlıqları aşkar edidi. Onlar konusvarı formada hazırlanmışlar. İy başlıqları formaca eyniyyət təşkil edir. Onların diametrləri 3,5-4 santimetrdir. İy başlıqlarından bir neçə ədədi nisbətən hündürlüyü və baş hissəsinin nisbətən uca doğru yığılması ilə fərqlənir. Maraq doğuran məqamlardan biri də, demək olar ki, bu tip sərdabələrdən eyni sayda iy başlıqlarının aşkar edilməsidir. Sərdabədən əmək aləti olaraq, yalnız çoxsaylı iy başlıqlarının və xeyli miqdarda bükülü formada parça qalıqlarının aşkar edilməsi, bu tayfaların əsasən toxuçuluq sənəti ilə məşğul olmalarını söyləməyə imkan verir.

Daş möhür. Sərdabədən bir ədəd tünd qırmızı mineral daşdan hazırlanmış möhür aşkar edildi. Möhür konusvari formada hazırlanmışdır. Onun baş hissəsində ip keçirilməsi üçün deşik açılmışdır. Möhürün diametri 3,5 sm dir. Möhürün üzərində dörd hissəyə simmetrik bölünmüş olan, həndəsi naxışlar vardır.

Parça qalıqları. Sərdabədən aşkar edilmiş maraq doğuran tapıntılardan biri də, parça hissələridir. Onlar sərdabədə bəzən bükülü halda, bəzən isə sümüklərin üzərində rast gəlinirdi. Parçalar nisbətən yanmaya məruz qalmış, bəzi hissələri isə kömürləşmişdir.

Uzun müddətli dəfn üçün istifadə olunan sərdabənin tədqiqi əsasında, Azərbaycan ərazisində yaşamış, qədim dövr insanlarının müxtəlif dini dünya görüşə, fərqli yaşam tərzinə malik və müxtəlif peşə fəaliyyətləri ilə məşğul olmalarını söyləmək mümkündür.

Maraq doğuran məqamlardan biri isə, demək olar ki, bu tip sərdabələrdə metal əşyalara rast gəlinməməsidir. Sərdabədən aşkar edilmiş maddi mədəniyyət nümunələrinin xarakterik xüsusiyyətləri və klassik Kür-Araz mədəniyyəti nümunələri ilə qarşılıqlı müqayisəsi zamanı, onların nisbətən fərqli əlamətlərə malik olduğu qənaətinə gəlmək mümkündür. Aparılan tarixi-analitik tədqqiqatlara əsasən, bu mədəniyyətin Kür-Arazla eyni dövrə aid edilməklə, fərqli mədəniyyət olması və yaxud Kür-Araz mədəniyyətindən, Orta tunc dövrünə keçid mərhələsi olması qənaitinə gəlinmişdir. Bu fikirlərin qətiləşdirilməsi üçün yetərli elmi faktlara ehtiyac vardır. Bunula əlaqədar olaraq, Sərdabədən götürülmüş kömür nümunələrinin C 14 analiz edilməsi və bu kimi digər laborator tədqiqatların aparılması və əldə edilən nəticələr əsasında yekun fikir söyləmək mümkündür.



Daş möhür.



Pasta muncuqlar.



Sümük iy başlıqları.



İlk tunc dövrünə aid parça qalıqları.


2 №-li Şadılı kurqanı.

Kurqan 1№-li İlk tunc dövrü sərdabə tipli kurqandan 9 metr aralı, təbii təpənin orta hissəsində yerləşmişdi. Kurqan örtüyünün diametri 6 metr, hündürlüyü 0,5 metr idi. Kurqan kamerası təpə üzərində oval formada qazılmışdır. Kameranın diametrı 1,9 metr, dərinliyi 1,6 metr idi. Kurqan örtüyü kimi, 150 metr aralıda yerləşən, Kürəkçaydan gətirilmiş çay daşlarından istifadə edilmişdir. Daş düzümünün üstündən, 20-30 sm qalınlığında torpaq qatı əlavə edilmişdir. Kurqanın üst örtüyü götürülərkən, 20 sm dərinlikdən bir insana məxsus skelet aşkar edildi. İnsan sümükləri yaxşı saxlanılmamışdır. O, sağ yanı üstə, üzü cənub-qərbə doğru dəfn edilmişdir. Onun ayaqları dizdən geriyə doğru qatlanmaqla, bədənə doğru bükülmüşdür. Həmçinin qolları dirsəkdən bükülərək, əlləri üzünə doğru qatlanmışdır. Skeletin yanında maddi mədəniyyət nümunələrinə rast gəlinmədi. Ehtimal ki, bu sümüklər kurqan üzərinə bir müddət sonra salınmış sallama qəbirə məxsus ola bilər. Digər tərəfdən kurqan kamerasının tədqiqi göstərdi ki, onun qarət olunması ehtimalı vardır. Belə ki, kameranın mərkəzi hissəsində aşkar edilmiş üç ədəd saxsı qablar hissələrə parçalanmış, iki ədədinin isə yalnız bir neçə ədəd sınıq hissələri qalmışdır. Yalnız kameranın cənub küncündə bir ədəd iri həcmli və mərkəzi hissədə bir ədəd miniatür formalı bütöv saxsı qablar toxunulmamış qalmışdır. Qəbirdə insana məxsus bir neçə ədəd qabırğa sümüklərinə rast gəlindi ki, onlarda pərakəndə şəkildə aşkar edilirdi. Digət tərəfdən, qəbirdən aşkar edilən bəzək əşyalarının nizamsız və müxtəlif səviyyələrdən sınıq halda aşkar edilməsi də, kurqanın vaxtı ilə qarət edilməsini göstərən faktlardandır.

Kurqan kamerasından üç ədəd saxsı qab hissələrə parçalanmış, iki ədəd isə bütöv halda aşkar edildi. Bunlarla yanaşı iki ədəd saxsı qaba məxsus parçalara rast gəlindi. Kurqandan müxtəlif ölçülərdə altı ədəd tunc düymə, iki ədəd tunc üzük, iki ədəd müxtəlif ölçülərdə tunc sırğa, və üç ədəd tunc üzüyün sınıq hissələri, bir ədəd bikonik formalı kiçik tunc muncuq, 10 ədəd əqiqdən hazırlanmış mineral muncuq aşkar edildi.



Son tunc dövrü 2№-li Şadılı kurqanının görüntüləri.



Saxsı qab.



Metal bəzək əşyaları.

Keramika.

Kurqandan aşkar edilmiş saxsı qabların dörd ədədi küpə tipli, bir ədədi isə xeyrə tiplidir. Küpə tipli qablarda iki ədədi tamamilə dağıldığı və bərpa edilməsi mümkünsüz olduğu üçün onların, ölçü və formalarını dəqiq müəyyən etmək mümkün olmadı. Bütöv halda aşkar edilən qab, iri həcmli, şar gövdəli, boz rəngli, kupə tiplidir. Onun ağız kənarları geriyə qatlanmışdır. Sadə formalıdır. Yalnız gövdədən yuxarı hissədə çızma nazik xətt onu əhatə etmişdir. Küpənin çiyin hissəsində, 5 sm diametri olan, oval formalı, üst hissəsi düz olan, yapma çıxıntı vardır. Küpənin gövdəsinin diametri 23 sm, hüdürlüyü 20 sm, ağzının diametri 10 sm, oturacağının diametri 9 smdir.

Kurqandan aşkar edilmiş digər saxsı qab miniatür formalı küpə tipli qabdır. Onun yanından qapağıda aşkar edilmişdir. Miniatür qab, sadə formalı, düz ağızlı olmaqla boz rəngdədir. Onu gövdədən yuxarı hissəsində bir ədəd çızma üsuli ilə çəkilmiş xətt əhatə etmişdir. Qabın ağız hissəsində, iki tərəfdən kiçik çıxıntı formasında qulpları vardır. Qulpların ortasında deşik açılmışdır. Onun gövdəsinin diametri 9 sm, hündürlüyü 5,5 sm, ağzının diametri 4,5 sm, oturacağının diametrı 4 smdir. Miniatür qabın konusvarı formada qapağı vardır. Qapağın üst hissəsində çıxıntı formasında qulpu vardır ki, onunda ortasında deşik açılmışdır. Nəticədə qapaq qabın ağzına qoyulduqdan sonra, iplə onu daha etibarlı şəkildə qaba bərkitmək olardı. Ola bilsin ki, qabda daha qiymətli ədviyyat və ya bu kimi yeyəcək şeylərinin saxlanılması nəzərdə tutulmuşdur.

Aşkar edilmiş digər qab iri həcmli, boz rəngli xeyrə tiplidir. Onun xeyli hissəsinin parçaları tamam dağıldığı və erroziyaya uğradığı üçün, bərpa edilməsi mümkün deyildi.

Metal məmulatı.

Kurqandan aşkar edilmiş metal məmulatı tunc düymələr, tunc üzüklər, tunc sirğalar və tunc muncuqla təmsil olunur.

Aşkar edilmiş metal muncuqlar altı ədəd olmaqla eyni formada hazırlanmışdır. Onlar yalnız bir birindən ölçülərinə görə fərqlənir. Düymələr konusvari formada hazırlanmışdır. Onların ilgəkləri lentşəkilli formadadır. Aşkar edilmiş tunc düymələrdən bir ədədi daha kiçik olmaqla 1 sm, üç ədədi nisbətən böyük 1,3-,1,5 sm, iki ədədi isə 2 sm diametrində hazırlanmışdırlar.

Metal əşyalardan iki ədədi tunc sırğadır. Onlar en kəsiyi dairəvi olan metal çubuqdan hazırlanmışdır. Sirğaların sonluqları bir birindən azacıq aralı olmaqla qarmaq formasında geriyə doğru qatlanmışdır. Onlardan birinin diametri 2sm, digərinin diametri isə 4,5 smdir.

Aşkar edilmiş metal əşyalardan digərləri tunc sırğalardır. Onlar altı ədəd olmaqla eyniyyət təşkil edirlər. Tunc sırğalar en kəsiyi dairəvi olan tunc çubuqlardan hazırlanmışdır. Onların sonluqları bir biridən aralı formadadır. Sırğaların diametri 2,3-2,5 smdir.

Kurqandan aşkar edilmiş metal əşyalardan biri tökmə üsulu ilə tuncdan hazırlanmış silindirik formalı tunc muncuqdur. En kəsiyi dairəvi olan muncuğun diametri 0,6 smdir.

Muncuqlar

Kurqan kamerasından əqiqdən hazırlanmış, on ədəd muncuq aşkar edildi. Muncuqlar formaca eyniyyət təşkil etməklə bikonik formada hazırlanmışlar. Onlardan bir ədədi nisbətən böyük olmaqla diametri 1 sm, digərlərinin diametri isə 0,5-0,6 sm arasındadır.

2 №-li Şadılı kurqanından aşkar edilmiş qəbir hədiyyələrinin xarakterik xüsusiyyətləri, onların analoji oxşarları ilə qarşılıqlı müqayisəsi əsasında kurqanı Son tunc-erkən dəmir dövrünə aid edə bilərik.

Б.М.Джалилов

ОБ ИССЛЕДОВАНИЯХ ГЁЙГЁЛЬ-ГЕРАНБОЙСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

Исследованный курган зафиксирован в 700-х метрах восточнее от села Шадылы, Геранбойского района, на поверхности невысокого холма. Диаметр курганного покрытия составлял 11 метров, высота 1 метр. Курганная камера четырехугольной формы была выкопана на глубину 1,4 метра. Кроме входной части по краю всей камеры, вдоль стенок был вырыт маленький ров. В возведении курганного склепа в качестве строительного материала использованы бревна, вдоль стенок камеры впритык друг к другу. Поверх вертикальных бревен горизонтально расставлены большие бревна. С восточной стороны курганного склепа имеется входная дверь. Дромос, который находится на восточной стороне склепа, вырыт с небольшим уклоном на север. Предполагается, что этот склеп принадлежал одному племени. На кургане проводился долговременный обряд погребения.

Было определено, что покойники, уложенные в склепе, имели разный возраст. После полного заполнения склепа, по религиозной традиции, склеп поджигался.

Кости погребенных со временем, а вернее в связи с погребением нового покойника, собирались в одном месте, и поэтому их изначальное положение полностью изменено. По предварительным предположениям число погребенных здесь колеблется от 70 до 100.

В курганном склепе обнаружены многочисленные образцы целых керамических сосудов и их черепки, обугленные остатки деревянного сосуда типа вазы, обугленные остатки деревянной ниши, костяные пряслица, бусы из пасты, печать, изготовленная из минерала и остатки ткани.

Курган №2 находился на расстоянии 9 метров от кургана со склепом №1, в середине холма. Диаметр курганного покрытия составлял 1,9 метров, глубина 1,6 метров. Курганная камера с диаметром камеры 1,9 метров, глубиной 1,6 метров имеет овальную форму. В качестве курганного покрытия использовался булыжник, поверх которых насыпан земляной слой толщиной 20-30 см.

В курганной камере обнаружены три разбитых, два целых сосуда и черепки керамических сосудов. В курганах также были обнаружены шесть бронзовых пуговиц разного размера, части трех бронзовых колец, одна маленькая бусина биконической формы, 10 агатовых бусинок. На основании сравнения аналогичных материально-культурных образцов исследуемый курган можно отнести к периоду поздней бронзы-раннего железа.

B.M.Jalilov

STUDIES CONDUCTED BY THE GEYGEL-GERANBOY TEAM OF ARCHEOLOGISTS

SUMMARY

The investigated barrow is found 700 meter east of village Shadili, on the right bank of the Kurakchay, on a small natural hill. The diameter of the cover of the barrow of 11 meter and the height of 1meter. The barrow chamber has been dug out to a depth of 1,4 meters on the quadrangular hill. After the digging of the chamber of a barrow, except the entry part, on the edge of the floor, along the walls, a small ditch has been dug out. Bars of woods has been used as a construction material in the preparation of the barrow tomb. They have been buried adjacent to each other along the chamber walls in the vertical direction. There have been laid large wood bars to the upper cover of the tomb, on the vertical bars, in the horizontal direction. The barrow tomb has an entrance door in the east. Dromos has been drug out in the east of the tomb, slightly inclined to the north. It may be assumed that, tomb has belonged to the tribe. A long time funeral ceremony has been implemented in the tomb.

There have been determined that, people put into the tomb are of different ages. In accordance with the religous traditions after the filling full the tomb has been set fire and burnt.

After a while bones of the buried people in the tomb, to be more precise, due to the funeral of a dead person, for getting together, their initial state has been changed and it was impossible to determine their initial state. According to the preliminary supposition the number of the buried are among 70-100 people.

The barrow № 2 was situated of 9 meter distance from the Early Bronze Epoch of tomb style barrow № 1, in the middle of the natural hill. The diameter of the barrow cover of 6 meter and the height was 0,5 meter. The chamber of the barrow has been dug out in the oval shape, on the natural hill. The diameter of the chamber of 1,9 meter and the depth was 1,6 meter. There have been used river stones as a cover of the barrow. There has been added 20-30 cm layer of soil to the stones.

Three potteries divided into parts, two unbroken potteries was found from the chamber of the barrow. Besides them, pieces of two potteries were found.

Six bronze buttons of different sizes, two bronze rings, two bronze earrings of various sizes, and the broken pieces of three bronze rings, one biconic shaped small bronze beads, 10 mineral beads made from agate have been unearthed from the barrow. On the basis of the comparison with analogous similiar of the patterns of the material culture of the barrow have been attributed it to the Last Bronze-Early Iron epoch.

ŞAHTAXTI ABİDƏLƏR KOMPLEKSİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Naxçıvan MR, Kəngərli rayonu)

Q.H.Ağayev, Z.H.Rzayev



Hələ 1936-cı ildə ilk dəfə olaraq Ə.Ələkbərov tərəfindən ekmi ictimaiyyətə tanıdılan Şahtaxtı abidələr kompleksi arxeoloji ədəbiyyatda uzun müddət son tunc və dəmir dövr abidəsi kimi qeydiyyatdan keçmişdir. Lakin, son illər ərazidə aparılan tədqiqatlar bu nəticələrin qənaətbəxş olmadığını göstərdi. Əldə edilmiş arxeoloji materiallara əsasən sübut olundu ki, Şahtaxtı ərazisində hələ erkən tunc dövründən qədim tayfalar məskunlaşmağa başlamışlar.

2011-cu ildə arxeoloji ekspedisiyanın qarşısında duran əsas məqsəd abdənin stratiqrafiyasını müəyyən etməkdən ibarət olmuşdur.

Qazıntı sahəsində əvvəlki illərdə aşkar edilmiş tikinti qalıqlarının sıxlığını və buna görə də stratiqrafiyanın izlənilməsənin çətinliyini nəzərə alaraq şərq və cənub istiqamətlərində qazıntı sahəsi genişləndirilərək 400 kv.m-ə çatdırıldı.

Müəyyənləşdirilmiş ərazidə qazıntılar 5 metr dərinliyə qədər davam etdirildi. Ərazidə yaşayışın hələ erkən tunc dövründən başladığı və intensiv sürətdə orta əsrlərə qədər davam etməsi bir daha dəqiqləşdirildi. Bu cür faktlar ərazidə yaşamış qədim tayfaların müasir əhali ilə müəyyən etnogenetik əlaqələrinin olması ehtimallarını artırır.

Ərazidə aparılmış kəşfiyyat xarakterli tədqiqatlar göstərir ki, Şahtaxtı ərazisində təkcə maldarlıq və əkinçilik deyil, eyni zamanda sənətkarlıq yüksək səviyyədə inkişaf etmişdir. Xüsusilə, keramika sənətkarlığı hələ erkən tunc dövründən təşəkkül tapmış və bu sənətkarlıq sahəsi təkcə tayfadaxili tələbatın ödənilməsinə deyil, eyni zamanda tayfalararası iqtisadi-mədəni əlaqələrin yaranmasında mühüm rol oynamışdır. Bunu əldə edilmiş keramika məmulatları üzərindəki ornamentasiyanın Muxtar Respublika ərazisindəki digər yaşayış məskənlərindən tapılmış dulusçuluq məmulatları üzərində rast gəlinməsi də sübut edir.





Tədqiqat üçün seçilmiş ərazidə aparılmış qazıntılar zamanı maraqlı faktlarla üzləşdik. Qazıntılar zamanı müəyyən edildi ki, seçilmiş ərazi qalanın Narınqala adlanan hissəsinə aid olub, əsasən, yaşayış otaqlarından və qapalı təsərrüfat sahələrinin qalıqlarından ibarətdir. Aşkar edilmiş 5 mədəni təbəqənin 3-də, ilk orta əsr, antik və son tunc-ilk dəmir dövrlərinə aid təbəqələrdən təndir və ocaq qalıqları aşkar edildi. Əldə edilmiş heyvan sümükləri təkcə iri və xırdabuynuzlu ev heyvanlarına aid olmamış, qaban, dağ keçisi və s. kimi vəhşi heyvan sümükləri də əldə edildi. Çoxlu sayda əldə olunmuş fərqli mineral və daş parçaları ərazinin relyefindən kəskin fərqlənir. Bunların yerli tayfaların dini inancları ilə bağlı olması təsdiqləndi. Qazıntı sahəsində aşkar

edilmiş tikili qalıqları bir-birlərinin üzərində salınmışdır. Eyni tikinti materiallarından istifadə olunsa da, tikililər memarlıq cəhətdən fərqlənirlər. Xüsusilə də, son tunc və dəmir dövrünə aid tikililər sahə etibarilə böyük olub, təsərrüfat və ya emalatxana kimi istifadə oluna bilərdi.

Şahtaxtı yaşayış yeri haqqında müfəssəl məlumat söyləmək çətindir. Çünki hər il yeni-yeni tapıntılara rast gəlinir ki, bunlarda ərazinin tarixi cəhətdən daha qədim dövrlərə aid edilməsinə səbəb olur. Bu səbəbdən də ərazidə arxeoloji qazıntılar intensiv olaraq davam etdirilməlidir.

Fikrimizə görə, qala tipli tikililər əhalininin və onun əmlakının təhlükəsizliyinini təmin etmək məqsədi ilə tikilmişdir. Toqquşmalardan sonra təhlükəsizliyin tam təmin olunması, bu münaqişələrin ilin fərqli fəsillərində olması, əhalinin daldalanması üçün tikililərin yaradılması ehtimalı daha inandırıcıdır. Əhali bu qalalardan mal-qarasını uzun sürməyən toqquşmalardan qorumaq üçün istifadə etmişdir. Bu da onu söyləməyə əsas verir ki, Şahtaxtı ərazisində tayfadaxili tələbatı ödəyəcək səviyyədə olan heyvandarlıq xırdabuynuzlu heyvanlardan ibarət olmuşdur. Eyni zamanda çox güman ki, qala ərazisindəki tikililər sənətkarlıq fratriyalarının emalatxanası rolunu oynamışdır. Digər tərəfdən ikinci əmək bölgüsündən sonra sənətkarlığın inkişafı sənətkarlıq üçün təhlükəsiz və rahat tikililərin yaranmasını zəruri edirdi.

Eramızdan əvvəl III-II minillikdə, tunc dövrünün orta mərhələsində, əkinçilik və maldarlıq yerli tayfaların həyatında mühüm rol oynamışdır. Bu dövrdə dulusçuluq, metallurgiya, toxuculuq, daşişləmə və başqa sənətlər inkişaf edirdi.

Arxeoloji tədqiqatlar sübut edir ki, Şahtaxtı ərazisində eramızdan əvvəl IV minillikdən başlayaraq qədim insanlar məskunlaşmağa başlamışdır. Şahtaxtı yaşayış yeri nekropolla birlikdə ərazisinə görə təkcə Naxçıvan Muxtar Respublikasında deyil, ümumiyyətlə Yaxın Şərqdə ən böyük abidələrdən biridir. Qeyd edək ki, Şahtaxtı nekropollarının ümumi sahəsi 15 hektardan artıqdır.

Şahtaxtı yaşayış yeri 3 hektardan artıq bir ərazini əhatə etməklə, dairəvi planda salınmışdır. Bu da əsasən yüksək təpənin kənarlarından keçən qalın divarla və bürclərlə əhatələnmişdir. Narınqala adlanan mərkəzi hissəsi bir hektardan artıq olub, ikinci bir müdafiə divarı ilə əhatələnmişdir. Tunc və dəmir dövrlərində Naxçıvan ərazisində çox təsadüf olunan bu tip siklopik tikililəri, şəhərsalma mədəniyyətinin ilkin formaları hesab etmək olar. Doğrudur, həmin dövr üçün vahid arxitektura və memarlıq üslubunun olmamasına baxmayaraq, salınmış bu tip şəhərsalma mədəniyətində ərazinin relyefi ön planda olmuşdur. Yaranmış qalaların quruluşlarında yerli tayfaların xüsusi rahatlığı və ehtiyatlığı nəzərə alınırdı ki, qala daxilində ərzaq və su probleminin həllində sadəlik və asanlaşdırma tədbirlərini həyata keçirmək mümkün olsun.

Dağətəyi tikililərin xarakterik cəhətlərindən biri iri qaya və daş parçalarından tikilməsidir. Onları bir-birlərinə bağlamaq üçün bərkidici məhlul kimi yerli gilli torpaqdan istifadə edilmiş, divarlar iri qaya parçalarından inşa edilmişdir. Şahtaxtı qala divarının qismən salamat qalan hissəsinin təxmini uzunluğu 25 metr, eni 2,5 metr dairəvi divarla çevrələnib. Qalanın qərb və şimal tərəfi torpaq sürüşməsi nəticəsində iri yarğanlara parçalanaraq iri terraslar yaratmışdır. Şərq tərəfi nekropollarla birləşmişdir. Ehtimal olunur ki, qala ərazisində bütün dövrlərdə şəhərsalma mədəniyyətinin ənənələri saxlanılmış, qala ərazisində təkcə yaşayış məskənləri deyil, sənətkarlıq mərkəzləri də olmuşdur. Dairəvi divarlar daxildəki yaxın yerləşən və bir-birinə söykənən daş tikintilər müdafiə məqsədi üçün yaradılmışdır. Şahtaxtı ərazisində qədim tayfalar kiçik yerdəyişmə etmədən belə uzun müddət yaşamışlar.

Qazıntı zamanı tapılmış ox ucluğu 8 sm uzunluğunda olub, bir tərəfi ağac saplağa taxmaq üçün sivri hazırlanmışdır. Uc hissəsi üçbucaq formalı olmaqla, orta hissəsi möhkəmliyini artırmaq üçün qabardılmış, ağaca keçən hissədə dördbucaq şəklində yastılanmışdır. Bu da taxtaya keçən hissənin sınmamasına xidmət etmək məqsədi daşıyır.

Tapılmış tunc əşyalar içərisində 12 sm uzunluğunda olan və getdicə nazikləşən sancaq öz unikallığı ilə seçilir. Sancağın yuxarı hissəsi spiral formada burulmuşdur. Ancaq bu əllə deyil, tökmə üsulu ilə edilmişdir. Sancaq çox güman ki, qadın bəzək əşyasının elementlərindəndir.

Bundan əlavə olaraq tapılmış bəzək əşyaları içərisində boğaz zəncirinn bir halqası və onunla birlikdə korroziyaya uğrayaraq formasını itirmiş kiçik tunc lövhələrdə əldə olunmuşdur.

Orta tunc dövrü qazıntı sahəsində təqribən üç metr dərinliyə qədər davam edir. Bu dövr tikinti qalıqları qeyd etdiyimiz kimi bir qədər dairəvi formada olmaqla qalanın iç hissəsinə aiddir.

Tikinti qalıqlarının alt qatları kül və osteoloji qalıqlarla, o cümlədən yanmış iri və xırdabuynuzlu heyvan sümüklərindən ibarətdir. Cox güman ki, təbii fəlakət güclü yanğınlara səbəb olmuşdur. Bu da yaşayış yerində və təsərrüfat sahələrində saxlanan tez alışan yağ məhsullarının alovlanmasına səbəb olmuş və nəticədə yaranmış yanğınlar qısa müddətdə yaşayış yerini tutmuş və kütləvi zərərlərə səbəb olmuşdur.

Bundan başqa aparılmış araşdırmalar göstərir ki, məhz orta tunc dövründə baş vermiş təbii fəlakət başqa dövrlərdəkindən daha təsirli olmuşdur. Belə ki, əldə olunmuş balıqqulağı və ondan hazırlanmış amuletlər və bəzək əşyaları Şahtaxtı yaşayış yerinin çayların qovuşduğu yerdə olduğunu göstərir. Çox ehtimal ki, bu zəlzələ Araz və Asnı çaylarının məcrasının dəyişməsinə səbəb olmuşdur. Şahtaxtı yaşayış yeri qərb tərəfi iri bir vadiyə baxır. Ərazidəki iri çay dərələri nə zamansa burada çay yatağı olmasını göstərir. Araz çayının Şahtaxtıya aid hissəsində isə çay yatağı genişlənir və iri ölçülü bataqlıqlar yaradır. Ehtimal etmək olar ki, təbii fəlakətə qədər Araz çayı Şahtaxtı yaşayış yerinə bir qədər yaxın olmuş və həmin ərazidə Asnı çayı ilə birləşmişdir. Vadidəki düzən ərazi Asnı çayının sürətini azaltmış və Araza töküldüyü yerdə delta yaratmışdır. Bu təkcə ərazidə əkinçilik və maldarlıq üçün əlverişli şəraitin və münbit torpaqların olmasına deyil, balıqçılığında inkişafına təkan vermişdir. Muxtar Respublika ərazisində Şahtaxtı, balıqçılıq təsərrüfatının əsas mərkəzlərindən biri olması şəksizdir.

Şahtaxtı yaşayış yerinin orta tunc dövrü mədəni təbəqəsindən sümükdən, müxtəlif minerallardan hazırlanmış kəsici alətlərlə, daş əmək və məişət avadanlıqları ilə də zəngindir. Ərazidən tapılmış obsidiandan hazırlanmış ox ucluqları öz hazırlanma texnologiyasına görə bir birlərindən fərqlənirlər. Bu tip ox ucluqları tunc ox ucluqlarından fərqli olaraq ağac çubuqlara yarılaraq keçirilmiş və bağlanmışdır. Ox ucluqlarının uc hissəsinin qırıq olması onlardan istifadə edildiyini göstərir. Şahtaxtı yaşayış yerinin orta tunc dövr mədəni təbəqəsindən tapılmış keramika nümunələri əsasən monoxrom boyalı və qara inkrustasiyalı qab parçaları ilə zəngindir. Əldə olunmuş keramika nümunələri göstərir ki, hələ e.ə. II minilliyin əvvəllərindən başlayaraq ərazidə yaşamış tayfalar keramika sənətkarlığında yüksək ixtisaslaşmaya başlamışlar. Bunun nəticəsində isə istehsal səviyyəsini artıraraq keramika sənətkarlığını elə bir səviyyəyə çatdırmışlar ki, bu da digər tayfalarla iqtisadi mədəni əlaqələrin güclənməsinə səbəb olmuşdur. Sonda əlaqələrin genişlənməsi Şahtaxtı tayfalarının yerləşdiyi ərazinin şöhrət tapmasına və ərazidə şəhərsalma mədəniyyətinin inkişafına gətirib çıxarmışdır. Tapılmış keramika nümunələrinin üzərindəki ornamentlər qədim tayfaların məişət və təsərrüfat həyatlarının, dini-ideoloji görüşlərinin öyrənilməsi baxımından çox zəngindir.




Bir faktı qeyd etmək istəyirik ki, Şahtaxtı keramikasının gil və digər komponentlərinin hamısı lokal xüsusiyyətlərə malikdir. Belə ki, Şahtaxtı yaşayış yeri ilə üzbəüz vadidə müxtəlif rəngli gil yataqlarına rast gəlmək olur. Böyük fəlakətdən sonra yaranmış bu vadidə torpaqların əksər hissəsi qumsallıqlardan və tərkibində mineral parçaları olan şoranlıqlardan ibarətdir. Ehtimal etmək olar ki, hələ çox-çox qədimdən bu minerallar Kiçik Qafqaz dağlarından başlayan Asnı çayının yuyub gətirməsi ilə yaranmışdır.

Şahtaxtı ərazisində keramika sənərkarlığı təkcə hazırlanma texnologiyasına deyil, eyni zamanda rənglənmə texnologiyasına görə də lokal əhəmiyyətlidir. Qazıntı zamanı əldə edilmiş süxur və mineralların əksər hissəsindən rəng almaq mümkündür. Fikrimizə görə təkcə sənətkarlıq baxımından deyil, eyni zamanda əlverişli coğrafi mövqedə yerləşməsi də Şahtaxtı keramikasının uzaq ərazilərə yayılmasına səbəb olmuşdur.

Sonda bu fikrə gəlmək olar ki, orta tunc dövründə Şahtaxtında yaşayan qədim tayfalar sənətkarlığın bütün sahələri üzrə ixtisaslaşmış fratriyalar yaratmağa nail olmuşlar. Hərtərəfli inkişaf və ərazidə yüksək şəhərsalma mədəniyyətinin olması onun qonşu tayfalar arasında tanınmasına və iqtisadi bir mərkəz halına gəlməsinə səbəb olmuşdur.

«Şahtaxtı 2011» arxeoloji ekspedisiyasının 2 ay ərzində apardığı araşdırmalar zamanı əldə edilmiş bütün maddi-mədəniyyət nümunələri göstərir ki, Şahtaxtıda tayfalar intensiv yaşayışla bərabər, bütün dövrlərdə özlərindən əvvəlki mədəniyyətlərə də hörmətlə yanaşmışlar. Qəbir abidələrinin talan olmaması, yaşayış yerlərindəki ocaq və təndirlərin salamat qalması bu faktları təsdiqləyir.

















Г.Г.Агаев, З.Г.Рзаев

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА АРХЕОЛОГИЧЕСКОМ КОМПЛЕКСЕ ШАХТАХТЫ

РЕЗЮМЕ

Шахтахтинская археологическая экспедиция в 2011 году проводила раскопки на поселении Шахтахты, увеличив раскопочный участок предыдущих лет в напрвалении север-запад.

В результате многолетних археологических исследований определено, что территория была заселена еще в эпохе энеолита.

Площадь поселения расширялась и уменьшалась в зависимости от периодов развития и упадка.

Дальнейшее исследование археологического комплекса Шахтахты поможет разрешить многие проблемы изучения эпохи поздней бронзы и раннего железа не только Азербайджана, но и всего южного Кавказа.

G.H.Agayev,Z.H.Rzayev

ARCHAEOLOGICAL INVESTIGATIONS IN SHAKHTAKHTI MONUMENTS' COMPLEX

SUMMARY

The archaeological excavations taken away in Shakhtakhti monuments complex in 2011 was in previous excavation area joint to antique living and increased on North and West sides. The archaeological excavations results taken in new area affirmed again that, native ancient kin's settled in area from Eneolith Age and never changed their area and live that area till today.

Because of some causes there is not possible follow strategy of living place as a previous years.

The archaeological excavation works would be taken away in future will reveal unopened mysteries one of unique monuments Shakhtakhti archaeological complex therefore grandiose some sides in Azerbaijan, Caucasus and Near East.

PLOVDAĞ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTI İŞLƏRİ

(Naxçıvan MR, Ordubad rayonu)

B.İ.İbrahimli, H.İ.Qədirzadə,
T.F.Xəlilov, T.Q.Qədirzadə

Xaraba-Gilan arxeoloji ekspedisiyası 2011-ci ildə İkinci Plovdağ nekropolunun mərkəzi hissəsində və şərq tərəfində arxeoloji qazıntı işlərini davam etdirmişdir. Bu hissədə, 2010-cu ildə 7 kurqan götürülmüş və onlardan altdakı mədəni təbəqədə yerləşən ilk tunc dövrünə aid yaşayış yerinin tədqiqinə başlanmışdı. Aparılan arxeoloji tədqiqatlar göstərir ki, qəbirlər yaşayış yerinə tərəf daha sıx yerləşmişdir. Burada qəbirlərin üzərindən və ətrafından yaşayış yeri üçün xarakterik olan tapıntılara rast gəlirik. Tapıntılar çox güman ki, buraya kurqanlar qurularkən dağıdılmış yaşayış yerinə aid alt mədəni təbəqədən düşmüşdür.

Əvvəlki illərin qazıntıları zamanı nekropolun mərkəzi hissəsində, kurqanların arasında dairəvi plana malik bəzi tikili qalıqları aşkar edilmişdi. Bu tikililər ehtimal ki, ciy kərpicdən və ya möhrədən işlənmiş evlərin özülüdür. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Plovdağda yaşayış evlərinin planı son tunc dövrünədək dəyişməmişdir. Evlər diametri 25-30 m olan daş hasarın içərisində özülü daşdan, yuxarısı isə möhrə və ya çiy kərpicdən işlənmiş, diametri 1,5-3,0 m olan kiçik otaqlardan ibarətdir.



Qəbir 41. Kenotaf.

Nekropolun şimal tərəfində - mədəni təbəqələrin bir-birinə yaxın yerləşdiyi ərazidə son tunc dövrünün kurqanları qurularkən bu evlərin bir çoxu özülünə qədər dağıdılmışdır. Çünki, dağın ətəyinə yaxın yerlərdə kurqanların bəziləri altdakı mədəni təbəqədən də dərinə - materikə qədər düşmüşdür. Arxeoloji qazıntılar zamanı müxtəlif dövrlərə - ilk, orta və son tunc dövrlərinə aid materiallar bir-birinə qarışmış şəkildə aşkar edilir. Keçən illərin qazıntı təcrubəsi göstərir ki, kurqanlar tədqiq edilərkən olduqca diqqətli olmaq lazımdır. Belə ki, 2010-cu il qazıntıları zamanı 38N-li torpaq qəbirli kurqan təmizlənərkən ölünün ətrafına səliqə ilə düzülmüş və toxunulmamış şəkildə aşkar edilmiş gil qabların yanında iri həcmli gil qab fraqmentlərinin nə məqsədlə qoyulduğunu və ya buraya nə vaxt, necə və haradan düşdüyünü heç cür aydınlaşdıra bilməmişdik. Qazıntıdan sonra planlar nəzərdən keçirilərkən 38N-li qəbrin özündən əvvəlki, dairəvi kromlexi olan torpaq qəbirli kurqan üzərində qurulduğu müəyyən edildi.

Yaşayış yerində, divarların arasına dağın zirvəsindəki tikililərdən müxtəlif materialların düşməsi, sonradan uçmuş divarların onların üzərində qat əmələ gətirməsi və onların torpağın aıtında müxtəlif səviyyədə yayılması mədəni təbəqələri tutmaqda çətinlik törədir. Bu səbəbdən də otaqların içərisindəki mədəni təbəqənin nisbətən toxunulmamış hissələrinin dəqiq fiksasiyasını aparmağı qərara aldıq. Arxeoloji qazıntılar bir-birindən eni 1 m olan arakəsmə ilə ayrılan sahələrdə aparılmışdır.

1. Birinci qazıntı sahəsi. Bu sahənin eni 9 m, uzunluğu 15 m-dir. Nisbətən çökəklik olduğundan dağdan axan yağış və qar suları nəticəsində sahənin şimal tərəfi yuyulub dağılmışdır. 2005-ci ildə, birinci qazıntı sahəsinin şimal-şərq küncünə yaxın, quruluşuna və materialına görə digər qəbirlərdən fərqlənən bir daş qutu qəbir (10N-li) aşkar etmişdik. Bu tip qəbirlərə birinci qazıntı sahəsində yenə də rast gələcəyimizi güman edirdik. Lakin, qeyd etmək lazımdır ki, keçən illər ərzində Plovdağda tədqiq olunmuş qəbirlərin sayı 50-ni ötsə də 10N-li qəbir öz quruluşuna görə nekropolda yeganə qəbirdir.

10N-li qəbirdən 4,2 m cənub-qərbə tərəf dairəvi planda işlənmiş iki tikilinin qalıqları aşkar edildi. Onlardan kiçiyinin diametri 1,8 m, böyük tikilinin diametri isə 4 m-dir. Böyük diametrli tikilinin cənub-şərq tərəfi yoxdur. Maraqlıdır ki, bundan 1m cənub-şərq tərəfdə aşkar edilmiş diametri 4,6 m olan tikilinin də cənub-şərq tərəfi yoxdur. Qeyd etmək lazımdır ki, Plovdağın şimal ətəyində yerləşmiş kurqanların və tikililərin cənub tərəfləri dağın zirvəsinə tərəf olduğundan bu tərəflərin təbii qüvvələrin təsirindən dağılma təhlükəsi yoxdur. Əksinə, ola bilsin ki, dağın zirvəsinə tərəf olduğundan tikililərin bu tərəfləri məqsədyönlü çəkildə daşla işlənməmişdir. Dairəvi planlı tikililərin içərisindən və ətrafından çəhayı və qara gilli keramika qalıqları aşkar edilir. Mədəni təbəqənin toxunulmamış hissəsi yalnız yaşayış yerinə aid divarların özülüdür.

Birinci qazıntı sahəsinin cənub-qərb tərəfində yarımşar formalı, Kür-Araz mədəniyyəti tipli qulplar başqa yerlərə nisbətən daha çox aşkar edilir. Dən daşlarının qırıqlarına və sürtgəclərə də təsadüf olunur.

Birinci qazıntı sahəsinin mərkəzi hissəsində, qrup halında, nizamsız şəkildə tökülmüş dağ daşları vardır. Bu qədər, təqribən, eyni ölçülü dağ daşları bir yerə təsadüfən toplana bilməz, güman ki, onlar hansısa dağıdılmış tikilinin qalıqlarıdır. Onların içərisində bir xətt üzrə düzülmüş, üç iri həcmli daşı dördbucaqlı planda olmuş bir tikilinin divarının qalığı hesab etmək olar.

Birinci qazıntı sahəsinin relyefindən asılı olaraq cənub-şərq tərəfində qazıntı 1,7 m dərinliyə qədər, cənub-qərb tərəfində 1 m dərinliyə qədər, şimal tərəfində isə 0,8 m dərinliyə (materikə) qədər çatdırıldı. Plovdağın relyefi elədir ki, burada qazıntı bütün kvadratlarda eyni səviyyədə aparılmalıdır. Ayrıca götürülmüş bir kvadratda qazıntını materikə qədər çatdırmaq olmaz. Ona görə ki, elə ilk yağışda və ya gələn mövsümə qədər həmin kvadrat ətrafla bir səviyyədə olacaqdır. Bu səbəbdən də qazıntı geniş sahədə götürülərək arada yağış və qar sularının axması üçün xüsusi yerlər buraxılır. Bu zaman qazıntının dağın zirvəsinə tərəf olan hissəsində qazıntı sahəsinə paralel kanallar açılaraq yağış və qar suları istiqamətləndirilir. Məhz bu sistem sayəsində uzun illərdir geniş qazıntı sahəsini dağılmaqdan qoruya bilmişik.

2. İkinci qazıntı sahəsi. İkinci qazıntı sahəsi Birinci qazıntı sahəsindən qərb tərəfdə yerləşir və yuxarıda qeyd etdiyimiz kimi onları bir-birindən 1 m enində arakəsmə ayırır. Sahənin eni (şərq-qərb) 9 m,

uzunluğu (şimal-cənub) 20 m-dir. Burada tikililər və qəbirlər Birinci qazıntı sahəsinə nisbətən sıx yerləşmişdir. İkinci qazıntı sahəsində aşkar edilmiş qəbirlərin biri (41N-li qəbir) toxunulmamış qalmışdır, birinin dörddən üç hissəsi, üçüncü qəbirin isə üst hissəsi və kamerası dağıdılmışdır. Qəbirlər birinci mədəni təbəqəyə aiddir. Onlar qurularkən yaşayış yerinin tikililəri dağıdılmış və daşlarından istifadə olunmuşdur. İkinci qazıntı sahəsinin cənub tərəfinin mərkəzi hissəsində dairəvi planda işlənmiş bir otaq aşkar edildi. Otaq yarımqazma şəklindədir. Aşkar edilmiş divar qalıqları otağın yeraltı hissəsinə aiddir. Belə ki, burada divarların otağın içərisinə tərəf olan hissəsi seçmə dağ daşları ilə səliqə ilə düzülmüş, bayır tərəfi isə müxtəlif həcmli daşlarla doldurulmuşdur. Bəzi yerlərdə iri həcmli daşlar divara maili şəkildə söykədilmişdir. Bu tikinti texnikası, adətən kurqanların kromlexində izlənir. Kurqanların kromlexi qurularkən iri həcmli (daha çox uzunsov, plitə formalı) daşlar xaricdən kromlex daşlarına maili şəkildə söykədilirdi ki, kurqan təpəciyinin yağıntı suları nəticəsində yuyulmasının qarşısını bir müddət alsın. Yaşayış evlərinin divarlarına söykədilən daşlar isə divarın möhkəmliyini artırmaq üçün idi. Dairəvi tikilinin diametri 3,0-3,2 m-dir, divarları 70-80 sm hündürlüyündə salamat qalmışdır. Şimal divarı iri həcmli daşlarla hörülmüşdür. Yuxarıda qeyd etdiyimiz kimi, bütün tikililərin dağın ətəyinə tərəf olan hissələri belə işlənmişdir. Aşkar edilmiş dairəvi tikilinin qazıntısı başa çatdırılmadığından onun haqqında fikir söyləmək çətindir. Qazıntı göstərdi ki, bu tikilinin yanında məişət və təsərrüfat əhəmiyyətli heç bir tikili yoxdur. Həm bu tikililər, həm də aşkar edilmiş qəbirlər Plovdağın son dövrünə - e.ə. XV-XII əsrlərə aiddir. Bütün əlamətlər bu dövrün tənəzzül dövrü olduğunu göstərir. Dairəvi tikilinin içərisindən və ətrafından keramika və daş alətlərdən başqa material əldə olunmadı.

Bu tikilinin şimal-şərq tərəfində, ondan 80 sm aşağı səviyyədə, dördbucaqlı planda, eni 1,2 m, uzunluğu 2,4 m olan daha bir tikili aşkar edildi. Bu tikili ikinci tikinti dövrünə aiddir. Onun qərb divarının iri həcmli bir daşı çıxarılaraq ondan dairəvi tikilinin şərq divarında istifadə olunmuşdur. Qeyd etmək lazımdır ki, tikinti dövrlərini, hələlik, yalnız ikinci və üçüncü qazıntı sahələrinin cənub tərəflərində - dağın zirvəsinə yaxın izləmək mümkündür. İkinci qazıntı sahəsinin mərkəzi hissəsində müxtəlif həcmli daşlarla işlənmiş bina qalıqları aşkar edildi. Onlardan birinin diametri 1,5 m-dir, divarları 30-40 sm hündürlüyündə salamat qalmışdır. Təyinatını müəyyən etmək çətin olsa da onun təsərrüfat əhəmiyyətli tikili olduğunu ehtimal etmək olar.



44 N-li Qəbrin tapıntıları.





49 N-li Qəbir.



49 N-li Qəbir. Saxsı məmulatı.

Başqa bir tikili qalığı ondan qərb tərəfdə yerləşir, diametri 4 m-ə yaxındır. Tikilinin şərq tərəfinin divarı tamamilə dağıdılmışdır. Ehtimal ki, onlar qəbirlər qurularkən dağıdılmış və daşlarından istifadə olunmuşdur. Bu tikililərdən 2,5 m şimalda daha bir tikilinin cənub-qərb küncü salamat qalmışdır. Tikili dördbucaqlı planda olub, iri həcmli daşlarla işlənmişdir.

İkinci qazıntı sahəsinin şimal-şərq küncündə 40x60 sm ölçülərində tonqal yeri aşkar edildi. Tonqal oval formalı çökəklikdən ibarət olub dərinliyi 30 sm-ə qədərdir, kül qatı ilə doludur və külün içərisindən yanmış heyvan sümüklərinin qalıqları tapılır. Şimal-şərq tərəfində daşla işlənmiş divar qalığı vardır. Tonqal açıq yerdədir, heç bir tikili ilə əhatə olunmamışdır. Çox güman ki, bu son kurqanları quranların isinmək üçün qaladıqları tonqaldır.

İkinci qazıntı sahəsinin şimal-qərb küncündə daş qutu qəbirli kurqan aşkar edildi. Kurqanın üstü, kromlexinin çox hissəsi və qəbirin kamerası tamamilə dağıntıya məruz qlmışdır. Qəbrin kamerasının yalnız bir cərgə daşı salamat qalmışdır. Kurqan təmizlənərkən heç bir arxeoloji material əldə edilmədi.

Ümumiyyətlə, İkinci qazıntı sahəsində aparılmış tədqiqatlar bir sıra yeni faktlar aşkara çıxardı. İlk dəfə olaraq Plovdağda tikinti dövrlərini tutmaq, kurqanaltı daş qutu qəbirlərin yeni xüsusiyyətlərini aşkar etmək mümkün oldu. Qəti şəkildə müəyyən edildi ki, mədəni təbəqələr Plovdağın zirvəsinə tərəf olan sahələrdə daha yaxşı saxlanmışdır, təbəqələr bir-birinə az qarışmışdır. Ona görə də bu hissənin qazıntısı daha diqqətlə aparılır. Qeyd etmək lazımdır ki, Kür-Araz mədəniyyəti dövründə geniş yayılmış, yarımşar formalı qulplara da bu sahədə daha tez-tez rast gəlinir.

İkinci qazıntı sahəsinin tapıntıları əsasən qara, boz və çəhrayı rəngli gil qab fraqmentlərindən, daş alətlərdən və octeoloji qalıqlardan ibarətdir.

3. Üçüncü qazıntı sahəsi. Bu sahə İkinci qazıntı sahəsindən qərb tərəfdə yerləşir və onları bir-birindən 1 m enində arakəsmə ayırır. Üçüncü qazıntı sahəsinin eni 9 m, uzunluğu 20 m-dir. Qazıntı eyni zamanda bütün sahə boyu aparılır. İki bel boyu qazıldıqdan (bir bel boyu= 25 sm) sonra əldə edilən tapıntılar kvadratlar üzrə yuyulub təmizlənir, nömrələnir, qablaşdırılır və qazıntının yaxınlığında yerləşən müvəqqəti bazaya aparılır.

Üçüncü qazıntı sahəsində, üst qatda qəbir aşkar edilmədi. Ümumiyyətlə, Plovdağ nekropolunun qərb tərəfində qəbirlər seyrəkdir, olan qəbirlər də birbaşa yaşayış evlərinin qalıqları üzərində yerləşir. Nekropolun mərkəzi hissəsində isə qəbirlər üç qat bir-birinin üzərində aşkar edilir. İkinci və Üçüncü qazıntı sahələrində past gəldiyimiz qəbirlər Plovdağ nekropolunun ən son qəbirləridir. Bu qəbirlər qurulan dövrdə yaşayış yerinin sahəsi xeyli kiçilmiş və onun şərq tərəfi qəbristanlığa çevrilmişdir.

Üçüncü qazıntı sahəsində diqqəti cəlb edən, az-çox yaxşı saxlanmış, bir tərəfi (şimal) dairəvi, bir tərəfi (cənub) isə düzbucaqlı planda inşa edilmiş tikilidir. Tikilinin divarlarının içəriyə tərəf olan hissələri iri həcmli daşlarla, eşiyə tərəf olan hissəsləri isə kiçik həcmli daşlarla işlənmişdir. Onun cənub-şərq tərəfində, 1,4 kv.m. sahəyə kiçik həcmli daşlar dördbucaqlı şəklində döşənmişdir. Tikilinin şimal tərəfdəki (dağın ətəyinə tərəf olan) divarının eni 1 m-ə yaxındır və hər iki üzü nisbətən səliqə ilə işlənmişdir. Dağın zirvəsinə tərəf olan cənub divarının isə otağın içərisinə tərəf olan üzü işlənmiş, eşik üzü isə (İkinci qazıntı sahəsindəki tikililərdə rast gəldiyimiz kimi) müxtəlif həcmli daşlarla və gil məhlulu ilə doldurulmuşdur. Bu zaman nisbətən iri həcmli daşlar divara maili şəkildə söykədilmişdir.

Tikilinin cənub divarı 65-70 sm, şimal divarı isə 20-30 sm hündürlükdə salamat qalmışdır. Sahəsi 4,3x3,0 m-dir. Bu tikilidən cənuba və şimala tərəf daha iki tikilinin qalıqları aşkar edildi. Şimaldakı tikilinin yalnız divarlarının alt cərgəsindəki daşlar salamat qalmışdır. Cənubdakı tikili isə ona nisbətən yaxşı saxlanmışdır. Tikililərin içərisindəki torpaq qatının rəngi ətrafdakı torpaq qatından fərqlənir. İçərisində çınqılı yoxdur. Təmiz torpaq qatında material az tapılır və mədəni təbəqəyə aid deyil. Onlar buraya yağış və qar sularının axması nəticəsində düşmüşdür. Görünür dağıdıldıqdan sonra bu tikililər bir daha bərpa olumamış və uzun müddət açıq havada qaldıqlarından divarları tədricən uçulub dağılmışdır. Üçüncü qazıntı sahəsinin bəzi yerlərində sonradan dolmuş çuxurlar vardır. Ehtimal ki, onlar son əsrlərdə dəfinə axtaranlar tərəfindən qazılmışdır. Qeyd etmək lazımdır ki, Plovdağ abidəsinin çox hissəsi bu cür dağıntıya məruz qalmışdır. Yaşayış yerinə nisbətən qəbir abidələri daıntıya daha çox məruz qalmışdır. Məsələn, iniyə qədər öyrənilmiş 51 qəbirdən yalnız 5-i toxunulmamış vəziyyətdə aşkar edilmişdir.

Üçüncü qazıntı sahəsinin cənub-şərq küncünə yaxın aşkar edilmiş, eni 60 sm olan, dağ daşları ilə işlənmiş bir divar İkinci qazıntı sahəsinin cənub-qərb küncünə qədər uzanır. Bu divarın aid olduğu tikilinin əsas hissəsi cənub tərəfdə - qazıntı sahəsindən kənarda yerləşdiyindən onun plan quruluşu və təyinatı haqqında həmin sahənin qazıntısından sonra bəhs ediləcəkdir.

Üçüncü qazıntı sahəsinin cənub tərəfində, dağın zirvəsinə doğru getdikcə çınqıl qatı qalınlaşır. Bu qat ehtimal ki, əvvlki tikililərin divarları sökülərkən əmələ gəlmişdir. Belə ki, tikintiyə yararlı, iri həcmli daşlar götürülmüş, çınqıllar isə qalmışdır. Qazıntı zamanı müəyyən edildi ki, İkinci və Üçüncü qazıntı sahələrindəki tikililərin bəziləri bu çınqıl qatının əmələ gəldiyi dövrdən sonraya aiddir. Tikililərin özüllərinin çınqıl qatında yeri və divar daşlarının düzülüşü bunu aydın göstərir.

Üçüncü qazıntı sahəsindən əldə edilən tapıntılar, əsasən, qara, boz və çəhrayı gilli qab fraq-mentlərindən, daş alətlərdən və osteoloji qalıqlardan ibarətdir. Osteoloji qalıqlar içərisində xırdabuynuzlu heyvanlara aid sümüklər çoxluq təşkil edir. Birinci, İkinci və Üçüncü qazıntı sahələrində əldə edilən tapıntılar əsasən keramikadan və daş alətlərdən ibarətdir.

Keramika. Plovdağ yaşayış yerindən aşkar edilən keramika qəbirlərdən əldə edilən keramikadan çox fərqlənir. Tək-tük qəbirlərdəki qablara oxşar qab qırıqlarına rast gəlinir ki, onlar da çox güman ki, dağıdılmış qəbirlərdən oraya düşmüşdür. Yaşayış yerinin keramikası əsasən qara, boz, cəhrayı və az bir qismi də qəhvəyi rənglidir. Çəhrayı gilli keramika çoxluq təşkil edir. Onlardan bəzilərinin üzəri qırmızı, bəzilərinin üzəri isə boz anqobla örtülmüşdür. Qablara son tunc dövründə vurulan qırmızı anqob ilk tunc dövrünün sonlarında və orta tunc dövründə vurulmuş anqobdan rənginin nisbətən açıq olması ilə fərqlənir. Digər tərəfdən orta runc dövrünün qırmızı anqoblu qablarının üzərində qara boya ilə naxışlar vardır.

Boz anqoblu gil qabların böyük əksəriyyəti geniş ağızlı küp və küpələrdən ibarətdir. Plovdağın tunc dövrü gil qablarının tərkibinə narın və orta ölçülü qumdan (ən çox narın əzilmiş daş qırıntılarından) başqa ovulmuş qarğa duzu da qatılmışdır. Süfrə qablarının gilinin tərkibinə narın qum, təsərrüfat və məişət qablarının gilinin tərkibinə isə iri dənəli qum qatılmışdır. Bu qatqını qum deyil, daha çox dağ daşlarının ovuntusu adlandırmaq daha düzgün olardı. Boz anqoblu qabların üzərində naxışa rast gəlinmir. Daha əvvəlki dövrlərə aid olan tund qırmızı anqoblu qabların üzərinə qara boya ilə dalğalı və parallel düz xətlərlə nazik fırça vasitəsilə sadə həndəsi naxışlar vurulmuşdur. Orta tunc dövrünün bu tip qabları düz oturacaqlı, ən çox şar və bəzən yumurta gövdəli, yuxarısı getdikcə daralan və silindrik boğazlı formaya malikdirlər. Çəhrayı gilli keramika içərisində uzunburun, axırımlı lüləsi olan çaydan tipli qab fraqmentlərinə (ən çox lülə hissələrinə) də rast gəlinir. Çəhrayı gilli keramika içərisində yarımşar formalı qulplara da rast gəlinir. Fraqmentlər kiçik olduğundan qulpların hansı kateqoriyadan olan qablara aid olduğunu müəyyən etmək çətindir. Divarlarının qalınlığı onların orta həcmli küplərə aid olduqlarını ehtimal etməyə əsas verir.

Qara gilli qablar, əsasən çölmək və qazanlardan ibarətdir. Qəhvəyi gilli orta həcmli küplərə də rast gəlinir ki, onların da çoxu aşağı keyfiyyətdə bişirilmişdir, qulpsuz və naxışsızdırlar. Qara və qəhvəyi gilli qabların gilinə daş ovuntusu və narın döyülmüş qarğa duzu qatılmışdır. Formasına görə bu qablar geniş oturacaqlı, şar gövdəli, kənarları azca xaricə qatlanmış, geniş ağızlı olurlar. Plovdağ keramikası içərisində qaramtıl-boz gilli qablar xüsusi qrup təşkil edirlər. Arxeoloji ədbiyyatda onların bir kateqoriyası "camış dərisi rəngli keramika" adlanır. Onların bəzilərinin formasını fraqmentlər əsasında bərpa etmişik. Bu qabların çoxunun ağzı kəsikdə üçbucaqdır və üçbucağın iti bucağı ağzının kənarına tərəfdir. Qabların ağzının belə formada olması maye məhsulların qabdan boşaldılması üçün əlverişlidir. Bizə elə gəlir ki, bu qablardan südün sağılmasında və saxlanmasında istifadə olunmuşdur. Onların qulpları da formasına görə "oküz burnu" və ya "kəl burnu" adlanır. Bu qulpların arxeoloji ədəbiyyatda geniş yayılmış daha bir adı "şar şəkilli" və ya "yarımşar şəkilli" Naxçıvan qulplardır. Belə qulplar ilk tunc dövrünün Kür-Araz mədəniyyəti dövründən başlayaraq geniş yayılmışdır. "Camış dərisi rəngli keramika" Giyan, Mussiana və Suzda geniş yayılmışdı. Qeyd edək ki, Mərkəzi Asiya abidələrində qazıntı aparan tədqiqatçılar boz rəngli keramikanın son tunc dövründə Qabaq Asiyaya məhz həmin ərazidən yayıldığı fikrini irəli sürürlər.

Əgər nəzərə alsaq ki, vaxtilə Naxçıvan boyalı qabları ilə Suz (Elam) boyalı qablarının oxşarlığı arxeoloqların diqqətini cəlb etmişdir, onda Naxçıvan və Elam arasında ilk və orta tunc dövrlərində iqtisadi-mədəni əlaqələrin olması ehtimalı daha da güclənmiş olur.

Plovdağda tapılan gil məmulatı içərisində nəfis hazırlanmasına və ornamentlərinin zənginliyinə görə boyalı qablar xüsusi bir qrup təşkil edirlər. Plovdağda boyalı qablar öz inkişafının bütün mərhələlərini keçmişdir. Orta tunc dövrünün monoxrom boyalı qabları ayrıca bir qrup təşkil edir. Bu qablarda tünd qırmızı anqob üzərindən qara boya ilə həndəsi naxışlar salınmışdır. Naxışlar, əsasən qabların çiyin və boğaz hissələrindədir. Təkamülün sonrakı mərhələsində, qabların çiyin hissəsində ət rəngində enli zolaq buraxılmış və həmin fonda qara və qırmızı boya ilə müxtəlif naxışlar salınmışdır. Qabların qalan yerləri – gövdənin aşağısı və boğaz hissəsi isə tund qırmızı boya ilə örtülürdü. Üçüncü mərhələdə qabın hər tərəfi açıq rəngli anqobla örtülərək qzərindən qara, qırmızı və qəhvəyi boyalarla müxtəlif ornamentlər salınırdı ki, bu qablar da polixrom qabların ayrıca bir qrupunu təşkil edirdi.

Plovdağda boyalı qab istehsalının tənəzzül dövrünə aid də bütün qablar və qab fraqmentləri aşkar edilmişdir. Bu qablarda boya naxışlar səliqəsiz vurulmuş, qabın gövdəsinin bir tərəfinə heç vurulmamış, bəzi yerlərdə isə boya, hətta qabın oturacağına qədər axıb getmişdir. Diqqəti cəlb edən bu qabların çoxunun asimmetrik hazırlanması – bir tərəfinin hündür, qarşı tərəfinin nisbətən alçaq olması, divarlarının əyri olması və qabın hər tərəfinin bərabər bişirilməməsidir. Lakin, bütün bu əlamətlər – boyalı qab istehsalındakı geriləmələr, onların istehsalının tam dayanmasına gətirib çıxarmamışdır. Boyalı qab istehsalı Naxçıvan bölgəsində uzun zaman, hətta orta əsrlər dövrünədək davam etmişdir. Boyalı süfrə qablarını məişətdən yalnız şirli qablar sıxışdırıb çıxara bilmişdir.

Daşdan hazırlanmış əşyalar. Plovdağ nekropolunda aşkar edilən materiallar içərisində keramikadan sonra ən çox tapıntı müxtəlif daşlardan hazırlanmış əşyalardır. Onların içərisində çay daşlarından

(qranitdən, bazaltdan) və qonur rəngli məsaməli daşlardan hazırlanmış alətlər çoxluq təşkil edir. Alətlər əsasən dən daşlarından, sürtgəclərdən, dübəyin üst (əl daşı) daşından, çapacaqlardan, diskşəkilli ortası deşikli əşyalardan ibarətdir. Daşdan hazırlanmış tapıntılar içərisində təyinatı bilinməyən əşyalar da vardır. Əslində yuxarıda adını qeyd etdiyimiz diskşəkilli, ortasında deşiyi olan əşyaların da təyinatı mübahisəlidir. Arxeoloji ədəbiyyatda onların toxuculuqda, ovçuluqda, köküyeməli bitkilərin qazılıb çıxarılmasında istifadə olunan, ağacdan hazırlanan alətin bir hissəsi kimi və s. məqsədlər üçün istifadə olunduğu qeyd olunur. Hesabatda bu alətlər və onlar haqqında mülahizələr üzərində geniş dayanmaq istəmirik, bircə onu qeyd etmək istəyirik ki, onlar Plovdağda kütləvi şəkildə tapılır, onların haqq-hesab işlərində və ya toxuculuqda istifadə olunması daha ağlabatandır.

Tətinatı bilinməyən alətlərdən biri də boz rəngli, xırda məsaməli daşdan hazırlanmışdır. Alətin hündürlüyü 12 sm, eni 6 sm, qalınlığı isə 4,8-5,0 sm-dir. Yuxarıdan, üçdən bir hissəsinin bir tərəfi (yarısı) götürülmüş, yarısında isə 1 sm dərinliyində kanalcıq açılmışdır. Kanalcığın varlığı bu alətin ağaca və ya başqa bir əşyaya bərkidildiyini ehtimal etməyə əsas verir. Daş alətin ortasında 1,2 sm enində təbii zolaq vardır ki, o ilk baxışda bəzək effekti yaradır. Bu daş alətin təyinatını müəyyən etmək çətindir. Çox da böyük olmaması, nəfis hazırlanması ondan sənətkarlıq emalatxanalarında istifadə olunduğunu ehtimal etməyə əsas verir. Daş alətlər içərisində formasına görə bu daşa oxşar, lakin, ölçülərinə görə ondan kiçik (6 sm) olan daha bir daş alət vardır. Bu daşın da yuxarı hissəsində kanalcıq qazılmışdır.

Maraqlı formaya malik daha bir daş alət diqqəti cəlb edir. Boz rəngli bərk daşdan konus formasında hazırlanmış bu alətin də təyinatını müəyyən etmək çətindir. Alətin hündürlüyü 4,7 sm, düz tərəfinin diametri 3,5 sm-dir. Konusvari formaya malikdir, iti tərəfinin işləndiyi bəlli olur. Enli tərəfində 0,8 mm dərinliyində ovalvarı batığı vardır. Aparılan təcrübə göstərdi ki, iş prosesində bu alət əlin baş, şəhadət və orta barmaqları arsında rahat tutulur ki, bu zaman şəhadət barmaq daşın oval çuxurunda olur. Belə vəziyyətdə bu daş alətdən döymə üsulu ilə işləyən zaman və ya dəvəgözü daşından ox ucluqları hazırlanmasında istifadə oluna bilərdi.

Daş tapıntılar içərisində göyümtül rəngli daşdan hazırlanmış bir qabın ağız və divarından fraqment də vardır. Qabın divarının qalınlığı 1,2-1,4 sm-dir.

Plovdağda tapılan daş alətlər içərisində çoxluq təşkil edən dən daşlarıdır. Onlar müxtəlif tərkibli daşlardan hazırlanmışdır. Uzaqdan gətirilmiş qonur və boz rəngli məsaməli daşlardan hazırlanmış dən daşları da vardır. Dən daşlarının çoxu yaxınlıqdakı Gilan çay vadisindən gətirilmiş göyümtül-qara rəngli və içərisində qara nöqtələr olan boz rəngli daşlardan hazırlanmışdır. Böyük əksəriyyətinin uzunsov formada hazırlandığı dən daşlarının demək olar ki, hamısı üzün müddət işlənmişdir, çoxu iş prosesində nazilərək ortadan qırılmışdır.

Dən daşlarının az bir hissəsini dübək daşları təşkil edir ki, onların da ən çoxu bir tərəfləri sınıq şəkildə olan üst (əl daşı) daşlarıdır. Maraqlıdır ki, dübək daşları Gilan çay vadisinin ilk dəmir dövrü abidələrində (Sumbatan-Dizə, Rəsul dərəsi) çox tapılır. Plovdağda isə başqa daş alətlərin kütləvi şəkildə aşkar edilməsinə baxmayaraq dübək daşları azlıq təşkil edir.

Daş alətlər içərisində ən çox diqqəti cəlb edən baltalardır. Onlar həm formalarına, həm də ölçülərinə görə fərqlidirlər. Baltaların baş tərəflərinə yaxın 1,5 sm eni və 0,8 sm dərinliyi olan kanalcıq qazılmışdır. Daha bir oxşar kanalcıq daşın baş tərəfinin ortasından keçərək yuxarıda təsvir etdiyimiz kanalcığın yan tərəflərini birləşdirir. Daş baltanın işlək hissəsi uzun müddət fəaliyyətdə olmuşdur, ağzının az bir hissəsi də sınmışdır. İkinci qrup daş baltalar formalarına görə birincilərdən fərqlənirlər. Onların uzunluğu 16-18 sm olub yuxarı hissəsi aşağı hissəsindən böyük hazırlanmışdır və işlək hissəsi getdikcə itiləşir. Bu daş baltanın forması ondan həm kəsmək, həm də yonmaq işlərində istifadə olunduğunu göstərir. Bu baltalar sayca o biri balatalardan azdır. Bəzi daş baltaların böğazları çox dərin yonulmuşdur.

Daş alətlər içərisində çox rast gəlinən tapıntılardan bir qrupu da çapacaqlardır. Onların ələ yerləşən hissəsi hamardır, işlək hissəsi isə dişəklənərək itilənmişdir.

Daş alətlərin bir qrupunu da kürə formasında hazırlanmış daşlar təşkil edir. Onlar fərqli ölçülərdə olub müxtəlif cinsli daşlardan hazırlanmışdır. Kürə formasında hazırlanmış daşların da təyinatı haqqında

müxtəlif fikirlər vardır. Onların sapand daşı, oyun daşı və ya çəki daşı olduğu ehtimal olunur. E.ə. I minilliyə aid yazılı mənbələrdə qoşunların tərkibində xüsusi daş atan dəstələrin olduğu haqqında məlumatlar vardır. Bu daşların bir qisminin sapand daşı kimi istifadə olunduğuna şübhə etməmək olar. Lakin bəzilərinin iki əks tərəfində oval formada çökəklik vardır. Bu çökəkliklər yəqin ki, barmaqların rahat oturması üçündür. Ona görə də kürə formalı daşların bir qisminin əllə atıldığını da ehtimal etmək olar.

Daş tapıntılar içərisində yuxarısı kəsilmiş konus formasında hazırlanmış daşlar da vardır. Onların da təyinatı haqqında dəqiq bir fikir söyləmək çətindir. Ola bilsin ki, bu alət axıra qədər hazırlanmamışdır.

Qazıntı zamanı dəvəgözü (obsidian) və çaxmaqdaşından hazırlanmış alətlərə də rast gəlinir. Dəvəgözü daşından ən çox yarpaq formalı (bəzən onlar ürək formalı da adlandırılır) ox ucluqları və bıçaq ağızları hazırlanmasında istifadə edilmişdir. Çaxmaqdaşları isə qəlpələr halında tapılır ki, onları da daha çox oraq dişlərinə oxşatmaq olur.

İkinci və Üçüncü qazıntı sahələrində aparılan arxeolji qazıntılar yaşayış yeri ərazisinin zaman-zaman böyüyüb kiçildiyini müəyyən etməyə imkan verdi. Tədqiqatlar göstərir ki, yaşayış yeri son tunc dövründə dəfələrlə dağıntıya məruz qalmış və təqribən e.ə. XII əsrdə tərk edimişdir.

Б.И.Ибрагимли, Г.И.Гадирзаде,
Т.Г.Гадирзаде, Т.Ф.Халилов

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА ПОСЕЛЕНИЕ ПЛОВДАГ

РЕЗЮМЕ

Хараба-Гиланская археологическая экспедиция в 2011 году проводила раскопки в центральной и восточной части некрополя Пловдаг. В этой части памятника снят верхний культурный слой эпохи поздней бронзы. При сооружении верхнего слоя курганов были частично разрушены и нижние слои, поэтому материалы слоев перемешаны.

В восточной части некрополя курганы находятся на расстоянии друг от друга. На площади между ними сохранились остатки жилищ. Фундамент жилых домов Пловдага, как и на всей территории Нахчывана в эпоху бронзы возведен из камня, а верхняя часть глинобитная. Дома круглые в плане, окружены каменным забором. Интересно, что в этих маленьких домах не обнаружены очажные места. Вероятно, в этих однокомнатных домах использовали переносные очажные подставки, а основной костер или очаг находился во дворе.

В раскопках поселения обнаружены, в основном, керамика, каменные и костяные изделия. Керамика представлена фрагментами сосудов из черной и розовой глины. Хорошо сохранились полушаровидные ручки сосудов, относящиеся к концу III тыс. до н.э.

B.I.Ibragimli, H.I.Qadirzadeh,
T.Q.Qadirzadeh, T.F.Khalilov

THE ARCHAEOLOGICAL EXCAVATIONS TAKEN AWAY İN PLOVDAGH LIVING PLACE

SUMMARY

Archaeological excavations in Plovdagh living place continued monument's North East side in year 2011. Two excavation area one of 300 m^2 and other 200 m^2 was taken there. These excavation areas departed each other with one strip. Excavation area of last year investigations continued. As a result of archaeological excavations was determined that Plovdagh living place was undergone destruction repeatedly in the Last Bronze Age, time from time, its area has grew and diminished.

The area of living place has diminished and remained only South side of mountain XII century B.C. This affirms found out The Last Bronze Age remains investigated ruins on the living place of Plovdagh's North hem.

BƏRDƏ ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİNƏ DAİR
(Bərdə rayonu)

A.M.Məmmədov, M.İ.Rəcəbov

Erkən orta əsrlər dövründə Qafqaz Albaniyasının paytaxtı səviyyəsinə qədər yüksələ bilmiş Bərdə şəhərinin ərazisi müxtəlif dövrləri əhatə edən arxeoloji abidələrlə zəngindir. Bu cür abidələrin əksər hallarda yaxın məsafələrdə yerləşməsi və dövr etibarı ilə bir-birini izləməsi, arxeoloji materiallardakı varislilik onların eyni bir xalqa, Qafqaz albanlarına mənsub olduğunu sübut edir. Belə abidələr içərisində müasir Bərdə şəhərindən 6-7 km şimal-qərbdə, Şatırlı kəndindən 3 km şərqdə, hündür torpaq təpə üzərindəki Balatəpə yaşayış yeri fərqlənir. Balatəpə və Şortəpə əslində bir kompleksə (Şortəpə abidələr kompleksi-A.M., M.R.) aid olsalar da sonralar təbii qaynama nəticəsində əmələ gələn gölün böyüməsi nəticəsində bir-birindən ayrılmışlar. Onların arasında əmələ gələn yarğanın eni 150-200 metrdir. Balatəpə abidəsi son eneolit ilk tunc dövründən başlayaraq son tunc-ilk dəmir dövrü də daxil olmaqla böyük bir mərhələni əhatə edir.

2011-ci ildə Bərdə arxeoloji ekspedisiyası əsas arxeoloji qazıntı işlərini Balatəpə abidəsində aparmışdır (1-ci şəkil). Balatəpə yaşayış yerinin ölçüləri şimaldan cənuba doğru 180 metr, şərq-qərb istiqamətində isə 170 metr olmaqla sahəsi təqribən 4 hektardır. Sovet hakimiyyəti illərində təpənin xeyli hissəsi düzlənərək əkin sahəsinə qatıldığından dağıntılara məruz qalmışdır. Balatəpədə ilk arxeoloji tədqiqatlar A.B.Nuriyev tərəfindən aparılmışdır. O, burada qala divarlarının aşkarlandığını bildirmişdi. XX əsrin 80-ci illərində həmin ərazidə arxeoloji tədqiqat işlərini davam etdirən H.Cəfərov buradan orta və son tunc dövrünə aid təssərüfat və məişət qabları, həmçinin metal qəlib aşkarlamışdır. 2010-cu ilin iyul-avqust aylarında Bərdə arxeoloji ekspedisiyası Balatəpədə arxeoloji tədqiqat işlərini davam etdirmişdir. Arxeoloji qazıntı işləri 450 kv. metr sahədə aparılmışdır. Qazıntı sahəsi hər biri 5x5 metr ölçüdə olmaqla 18 kvadrata bölünmüşdür.

I kvadratda arxeoloji qazıntı işləri 4,2 metrə qədər davam etdirilmişdir. Bu kvadrat abidənin cənub tərəfində yerləşir. Həmin hissədə həm də möhrə ilə düzəldilmiş qala divarının qalıqları aydın görünür. Bu kvadratda müxtəlif istehsalat tullantıları, ocaq və təndir yerləri, ilk və orta tunc dövrünə aid bütöv və sınıq halda saxsı qablar və onların hissələri tapılmışdır. Sınıq materiallar içərisində iri təssərüfat küplərinin qulpları çoxluq təşkil edir. Bir ədəd, ağzının diametri 1m 20 sm, ağız hıssədə divarının qalınlığı 10 sm olan təndir diqqəti cəlb edir. Ağzının kənarına yapışmış ərintilər bu təndirdən çörək bişirmək üçün deyil, saxsı qabların bişirlməsi və qurudulması məqsədilə istifadə olunduğunu söyləməyə əsas verir. Ağzının diametri 15 sm, oturacağının diametri isə 20 sm olan qazan tipli qab da bütöv halda qalmışdır. Ondan əsasən ocağa qoyularaq sənətkarlıqda istifadə edilmişdir (2-ci şəkil).

II və III kvadratlar I kvadratdan şimala doğru yerləşir. Burada arxeoloji tədqiqat işləri 3 metrə qədər davam etdirilib. II kvadratda əldə edilən arxeoloji materiallar əsasən saxsı qabların tullantılarından və bizim eranın əvvəllərinə aid bir ədəd dəmirçi kürəsindən ibarətdir. III kvadratda isə əsas arxeoloji tapıntı bir ədəd sallama qəbirdən ibarətdir. İstiqamətindən onun müsəlman qəbri olduğu məlum oldu. Qəbri heç bir əşya müşaiyət etmirdi. Bu qəbir III kvadratın şimal-şərq tərəfində yerləşirdi.

IV kvadratın arxeoloji tapıntıları iri təsərrüfat küpünün ağzını örtmək üçün bir ədəd diametri 20 sm olan gil qapaqdan, gil döşəmədən, yanmış buğda qalıqlarından və s. ibarətdir. V kvadratdan 10 ədəd qayıqvari dən daşı, onların sürtgəcləri, buğda qalıqları, bir ədəd iri təsərrüfat küpünün sınmış qalıqları, iki ədəd şüşə qabın hissələri tapılmışdır. Şüşə qab hissələrinin sonradan bu əraziyə düşdüyü ehtimal edilir. Taxıl və dəyirman daşlarının eyni ərazidən tapılması həmin əraziyə məhsulun hazır vəziyyətə gətirildiyini söyləməyə əsas verir.

VI kvadratda toxuculuqda istifadə edilən iy başlıqları, küpün ağzını örtmək üçün diametri 30 sm olan daş qapaq, bir ədəd kobud daş balta, bütöv və sınmış halda sapand daşları və s. əldə olunub. VII kvadratın əsas tapıntıları ibadət yeri hesab edilən, ətrafına daş düzülmüş, ortasında isə yanıq izləri və deşikləri olan daş lövhə olan guşə,onun ətrafında isə beş ədəd biri böyük, dördü isə kiçik vəhşi pişik kəllələrindən ibarətdir. Pişik kəllələrinin bu cür düzülüşü hansısa dini ayinlə bağlı ola bilər.

VIII kvadratdan aşkarlanan təndir və ocaq yerləri, gil öküz fiqurları, IX kvadratdan misdən toxucu alətləri, daş qəlib, bir ədəd kiçik həcmli məişət qabı, X kvadratdan bir ədəd çörək bişirmək üçün təndir, kiçik kürə, osteoloji qalıqlar, XI kvadratdan ocaq yerləri, heyvan sümükləri, döşəmə, möhrə divar, XII kvadratdan istehsal tullantıları, gil keçi fiquru, naməlum metal əşyanın qırıntısı, XIII kvadratdan saxsıdan hazırlanmış orta həcmli gil qəlib, XIV kvadratdan iki ədəd öküz fiquru, bir ədəd boyalı qab hissəsi, XV kvadratdan iki ədəd boyalı qabın hissəsi, tunc düymələr, XVI kvadratdan ocaq yerləri, təsərrüfat quyuları, müxtəlif təyinatlı saxsı tullantıları, XVII kvadratdan iri təsərrüfat küpünün qalıqları, iri və orta həcmli təsərrüfat küplərinin qulpları və ağız hissələri, XVIII kvadratdan yenə də qaralmış buğda qalıqları, hündürlüyü 10 sm olan mətbəx qabı və buraya təsadüfən düşmüş, bir tərəfində fil şəkli olan, çox güman ki, XVIII əsrdə Nadir şah dövrünə aid mis sikkə aşkarlanmışdır. Arxeoloji qazıntı işləri – IV, V, VI kvadratlarda 2.5-3 metr, VII, VIII, IX, X kvadratlarda 3.5 metr, XI, XII, XIII, XIV kvadratlarda 3.3metr, XV, XVI, XVII, XVIII kvadratlarda isə 3.6 metrə qədər davam etdirilmişdir. Ümumilikdə abidədə mədəni təbəqənin qalınlığı 4.2 metrdir. Mədəni təbəqə 3 qatdan ibarətdir. I mədəni təbəqənin qalınlığı 1.3 metr, II mədəni təbəqədəki qatın qalınlığı 1.7 metr, III mədəni təbəqənin qalınlığı isə 1.2 metrdir. I mədəni təbəqə son eneolit-ilk tunc dövrünə, II mədəni təbəqə orta tunc dövrünə, III üst mədəni təbəqə isə son tunc-ilk dəmir dövrünə aiddir.

Ümumilikdə kvadratlardan əldə olunmuş qaralmış buğda qalıqları 60-70 kq-dan çoxdur. Qayıqvari dən daşları 30-35 ədəd, sürtgəclərin sayı 20 ədəd, boyalı qabların hissələri 5 ədəddir.

Yaşayış yerindən daşdan hazırlanmış çoxlu əmək alətlərinin, dən daşlarının, dəvəgözü qəlpələrinin, tikinti materialı kimi işlədilmiş çay daşlarının tapılması onlardan eneolit dövründən başlamış əkinçi qəbilələrin təsərrüfatında geniş istifadə olunmasını təsdiq edir. Bu cür materialların saxsı nümunələri ilə eyni təbəqələrdən tapılması onların dövrünün müəyyənləşdirilməsini asanlaşdırır.

Abidədən əldə edilmiş təsərrüfat küplərinin bəziləri boz rəngli olub, yaxşı bişirilmişdir. Onlar qum qatışıqlı gildən hazırlanmışlar. Üzərlərində kəmərvari yapma qurşaqlar vardır. Bəzi küplərin divarlarına yapışmış maddə qalıqları vardır. Onların daşlaşmış çaxır çöküntüsü olduğu ehtimal edilir.

Abidənin saxsı məmulatı içərisində gil qulplar çoxluq təşkil edir. Onlar qulaqcıq və ilgək formalıdır. Bəzi qulplarda qulaqcığın üzəri bir-birinin içərisinə keçən və bucaqlar əmələ gətirən cızma xətlərlə naxışlanmışdır. Qulaqcıq maili vəziyyətdə qabın çiyin hissəsinə yapışdırılmışdır. Qulaqcığın çölmək tipli qaba aid olduğu güman edilir. İlgək formalı qulplar isə əsasən bardaq tipli qablara aiddir.

Balatəpədə aparılan arxeoloji qazıntıların nəticələri, buradan əldə edilən maddi-mədəniyyət qalıqlarının müxtəlifliyi, ətrafının divarla və xəndəklə əhatələnməsi, ibadət yerinin mövcudluğu, istehsal tüllantılarının, sənətkar alətlərinin və sənətkarlıq ocaqlarının, boyalı qab nümunələrinin olması və s. xüsusiyyətlər bu ərazinin iri bir tayfa ittifaqının cəmləşdiyi mərkəz olduğunu söyləməyə əsas verir. Ərazidə arxeoloji tədqiqat işlərinin davanı etdirilməsi nəzərdə tutulur.

Bərdə arxeoloji ekspedisiyası həmçinin Tərtər çayının yatağında Bərdə-Ağdam yolunun kənarındakı "Qarı körpü" adı ilə tanınan abidənin yaxınlığında təsadüfən aşkarlanmış sahədə də arxeoloji kəşfiyyat işləri aparmışdır (3-cü şəkil). Buradan əsasən iki ədəd daş kapitel və üzərində qədim Şərq mədəniyyətini özündə əks etdirən təsvirlər olan daşlar aşkarlanmışdır. Bəzi daşların üzərində onların bir-birinə geydirilməsini asanlaşdırmaq məqsədilə əlavə işlər görülmüşdür (4-cü şəkil).

İlkin müşahidələrə əsasən bu daşların körpünün dayağını möhkəmləndirmək və dalğaqıranlar düzəltmək məqsədilə kənardan, çox ehtimal ki, Şortəpədən gətirildiyi ehtimal edilir.



1-ci şəkil. Balatəpədə arxeoloji qazıntı sahəsi.



2-ci şəkil. Balatəpədən aşkarlanmış maddi-mədəniyyət qalıqları.



3-cü şəkil. Qarıkörpü yaxınlığından tapılmış sütun altlığı.



4-cü şəkil. Bərdədən tapılmış tikintidə istifadə edilən daş məmulatı.

А.М.Мамедов, М.И.Раджабов

О РЕЗУЛЬТАТАХ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК БАРДИНСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2011 году Бардинская археологическая экспедиция основные археологические раскопки проводила на памятнике Балатепе. Раскопки работы охватили участок площадью в 450 кв.м. Раскопочный участок был разбит на 18 квадратов, каждый размером в 5х5 метров.

Во время археологических раскопок был найден уголок, считающийся местом поклонения. Вокруг этого уголка были расставлены камни, а в центре прослеживались следы кострища. Вокруг находились один большой и четыре маленьких черепов дикой кошки. Такое расположение черепов диких кошек может быть связано с каким-то религиозным ритуалом. На раскопочном участке были обнаружены остатки обгорелого зерна, весом больше 60-70 кг, 35 ладьевидных зернотерок и пестики, 5 черепков крашенной керамики.

Находки на поселении многочисленных каменных орудий труда, осколков обсидиана, булыжников, используемых в качестве строительного материала, связано с тем, что, начиная с энеолита они широко использовались в хозяйстве земледельческих племен.

При раскопках вблизи памятника «Гары кёрпю» (Старушечий мост) выявлены две капители. Предполагается, что эти камни были доставлены сюда позже, с целью украшения устоев моста и создания волнорезов.

A.M.Mammadov, M.I.Rajabov

ABOUT THE RESULTS OF THE ARCHAEOLOGICAL EXCAVATIONS OF BARDA ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

The members of Barda archaeological expedition were done scientific researches in the territory of Balatepe monument in Barda. It has founded significant materials during the excavations. The type of ceramics, metal ware, bone remains and etc. gave an opportunity for the research. The excavation area surrounds the east part of the Balatepe monument. On the basis of materials we can say that this layer belonged to the Early Bronze Age period.

SUMBATAN-DİZƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Naxçıvan MR, Ordubad rayonu)

B.İ.İbrahimli, T.F.Xəlilov,
H.Q.Qadirzadə, L.N.Əhmədova



Sumbatan-dizə yaşayış yeri. III qazıntı sahəsi. Məbədin qalıqları.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Xaraba-Gilan arxeoloji ekspedisiyası Gilan çay vadisində üç abidədə arxeoloji tədqiqat işləri aparır. Bunlardan biri e.ə. I minilliyə aid Sumbatan-Dizə şəhər yeridir. Şəhər yeri 20 hektardan artıq bir ərazini əhatə etsə də onun çox hissəsi müasir Sabir kəndinin tikililəri və bağları altında qalmlşdır. Ona görə də son üç ildə narınqalada və yaşayış yerinin, dağların yamaclarında slamat qalmış (müasir tikililər və əkin üçün yayarsız olan) hissələrində arxeoloji qazıntılar aparılmış və nəticədə, qədim şəhərin narınqalası, yaşayış evləri və nekropolunun sərhədləri təqribi də olsa müəyyən edilmişdir.

2011-ci ildə narınqalada və yaşayış məhəllələrinin yerləşdiyi ərazidə arxeoloji qazıntı işləri davam etdirildi. Sumbatan dağının üzərində kənd məscidinin tikintisi ilə əlaqədar abidənin bir neçə yeri dağıdılmışdı. İlk növbədə həmin yerlər nəzərdən keçirildi və müəyyən edildi ki, burada 80 sm enində, dağ daşları ilə işlənmiş divarlar olmuşdur. Dağın yamacına tərəf bu divarların qalıqları aydın izlənir.

Keçən ilin hesabatında qeyd etmişdik ki, məbəd qalıqlarının şərq tərəfində e.ə. III minilliyə aid keramika nümunələri tapılır. Bu il həmin yerdə, rizalitlərin arasındakı sahədə arxeoloji qazıntı işləri davam etdirildi. Döşəmənin altı nizamsız şəkildə tökülümüş müxtəlif həcmli dağ daşlarından ibarət idi. Bu daşlar çox güman ki, əvvəlki tikililərin qalıqlarıdır. Onlardan yaxşıları seçilərək tikintidə istifadə olunmuş, qalanları isə döşəmənin altında qalmışdır.



Sumbatan-dizə yaşayış yeri. I qazıntı sahəsi.




Sumbatan-dizə yaşayış yeri. III qazıntı sahəsi. Məbədin qalıqları.

Sumbatan-Dizə abidəsi əsrlər boyu dəfələrlə dağıntılara məruz qalsa da, öz möhtəşəmliyiyni qoruyub saxlamışdır. Ona görə də abidənin qalan hissələrinin qorunub saxlanması üçün müəyyən tədbirlər görmək lazım idi. Qazıntı zamanı çıxan daş və torpağı məbədin şərq və qərb tərəflərinə, divar qalıqlarının qarşısına tökməklə onların təbii qüvvələrin təsiri nəticəsində dağılmasının qarşısını almağa çalışdıq. Arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş yaşayış evlərinin, məbəd və müdafiə divarı qalıqlarının dağılmasının qarşısını almaq üçün onların birinci növbədə konservasiya olunması vacıb məsələlərdən biridir. Sumbatan-Dizə yaşayış yeri və Rəsul dərəsində (burada qazıntılar ekspedisiyanın İkinci dəstəsi tərəfindən aparılır, rəhbəri professor Qüdrət İsmayılzadədir) aparılan arxeoloji tədqiqatlar qədim şəhəri kompleks şəkildə öyrənməyə imkan verəcəkdir.

Birinci qazıntı sahəsi. Bu sahə Sumbatan dağının şimal-şərq tərəfində, çökəklikdə yerləşir. 2008-2010-cu illərdə burada aparılmış qazıntı işləri nəticəsində müdafiə divarının 29 m uzunluğunda olan hissəsini və ondan qərb tərəfdə nəhəng dağ daşları ilə yarımdairəvi planda (aypara formasında) işlənmiş tikilinin qalıqlarını aşkar etmişdik. Lakin, Birinci qazıntı sahəsinin mərkəzində 12 kv. m yerin qazıntısı başa çatdırılmamışdı. Səbəbi burada yüksək gərginlikli elektrik dirəyinin olması idi. 2010-cu ilin payızında elektrik dirəyinin yeri dəyişdirilmişdi. Ona görə də 2011-ci ildə qalan sahənin də qazıntısını başa çatdırdıq. Yarımdairəvi (aypara) tikilinin altından dördbucaqlı planda, iri həcmli dağ daşları ilə hörülmüş bir tikili aşkar edildi. Bu tikilinin divarlarının bəzi yerlərində daşlar yoxdur. Müəyyən edildi ki, həmin daşlar sökülərək ondan üst qatdakı tikilidə istifadə olunmuşdur. Ətrafında heç bir tikili olmayan bu binanın nə məqsədlə tikildiyini müəyyən etmək çətindir. Qalanın şərq tərəfdən əsas giriş qapısına yaxın olduğunu nəzərə alaraq onun qalaya giriş-çıxışla əlaqədar olduğunu ehtimal etmək olar.

Müdafiə divarının şimal tərəfində yerləşən giriş qapısının qərb tərəfi də təmizləndi. Müəyyən edildi ki, müdafiə divarı tikilərkən dağın yamacı daş qatına qədər qazılmış və onun üzərində divar işlənmişdir. Müdafiə divarının saxlanmış səviyyəsindən dağın zirvəsinə qədər hündürlük 8-10 m-dir. Eni 3m olan müdafiə divarının hündürlüyü, görünür, dağın zirvəsindən də bir qədər yüksəkdə olmuşdur. Giriş qapısından 8 m şimalda, dağın zirvəsində, sıldırım qayanın kənarında yerləşən bürc də çox ehtimal ki, müdafiə divarı ilə əlaqədar olmuşdur.

Birinci qazıntı sahəsində əldə edilən keramika qara, boz, çəhrayı və açıq qəhvəyi rəngli qab qırıqlarından ibarətdir ki, onların içərisində polixrom boyalı qablara da rast gəlinir. Keramikadan başqa müxtəlif daş alətlər də tapılır.



Sumbatan-dizə yaşayış yerindən tapılmış boyalı qab fraqmentləri.

İkinci qazıntı sahəsi. 2011-ci ildə əsas qazıntı işləri sahənin şərq tərəfində aparıldı. Keçən ilki hesabatda abidənin bu hissəsinin ətraflı təsvirini verdiyimizdən onun üzərində çox dayanmırıq. Qeyd etmək lazımdır ki, burada ilk tunc dövrünün sonlarına aid də keramika əldə etmişdik. İlk tunc dövrünə aid mədəni təbəqənin qalıqları kompleksin şərq divarının cənubdan ikinci kontrforsunun altında 2 m^2-lik sahədə aşkar edilmişdi. Həmin yerdə qazıntı həm eninə, həm də dərininə davam etdirildi. Kür-Araz mədəniyyəti üçün xarakterik olan qulpların aşkar edilməsi, təbii-coğrafi cəhətdən olduqca əlverişli mövqedə yerləşmiş Sumbatan dağının hələ erkən tunc dövrünün sonlarından məskunlaşdığını göstərir.



Sumbatan-dizə yaşayış yeri. Daş alət.

Bu ilki qazıntılar nəticəsində müəyyən edildi ki, Sumbatan dağının zirvəsindəki rizalitlərin hamısının arası 1,0-1,2 m hündürlüyündə işlənərək doldurulmuşdur. Beləliklə, rizalitlər arasında meydança alınmışdır. Qazıntını bu səviyyədə saxlamağa məcbur olduq, ona görə ki, bu hissənin dərinə salınması kompleksin şərq divarlarının dağılmasına səbəb ola bilər. İkinci qazıntı sahəsində olduqca az tapıntı əldə edilir.

Tapıntıların qısa xarakteristikası. İkinci qazıntı sahəsində aşkar edilmiş tapıntıların böyük əksəriyyətini qara, boz və çəhrayı gilli keramika təşkil edir. Qablardan bir hissəsinin üzəri boz anqoblu, bir hissəsinin üzəri isə boya naxışlıdır. Onların naxışlanmasında ən çox qırmızı boyadan istifadə olunmuşdur. Bu keramika boyalı qablar mədəniyyətinin son mərhələsi üçün xarakterikdir. Qara və qəhvəyi rəngli boyalara qırmızı boyadan az rast gəlinir. Bəzi çəhrayı gilli qabların üzəri xaricdən bütünlüklə qırmızı boya ilə örtülmüşdür. Qara gilli qablardan bəzilərinin üzərində relyef naxışlar vardır.

Daşdan hazırlanmış tapıntılar iki ədəd daş qab fraqmentindən, bir ədəd kürə formasında yonulmuş daşdan və bir ədəd qəhvəyi rəngli daşdan hazırlanmış fiqurdan və ya alətdən ibarətdir. Bu alətin uzunluğu 10 sm, eni 6 sm-dir. Yuxarı hissəsində 1 sm dərinliyində kanal yonulmuşdur. Eynilə bu cür formaya malik daş tapıntı Plovdağın son tunc dövrü təbəqəsində aşkar edilmişdi. Onların təyinatını dəqiq müəyyən etmək çətindir.

Sumbatan-Dizə yaşayış yerindən əldə edilən tapıntılar içərisində dini xarakterli əşyalar da vardır. Bu əşyaların müxtəlif mədəni təbəqələrdə aşkar edilməsi ibtidai dini inancların cəmiyyətdə uzun zaman davam etdiyini göstərir.

Ümumiyyətlə, Sumbatan-Dizə və Plovdağ yaşayış yerlərindən əldə edilən atxeoloji materialların bir hissəsinin, xüsusən də keramikanın və daş alətlərin oxşarlığı bu abidələr arasında xronoloji əlaqənin olduğunu, başqa sözlə, Plovdağ sakinlərinin yaşayış yerini tərk etdikdən sonra (təqribən e.ə. II minilliyin sonlarında) Sumbatan dağında məskən saldıqlarını göstərir. Məlumdur ki, Naxçıvan ərazisində son tunc və ilk dəmir dövrünə aid yaşayış yerləri, hələlik, çox az müəyyən olunub tədqiq edilmişdir. Ona görə də Plovdağ və Sumbatan-Dizə yaşayış yerlərinin tədqiqi bu dövrü öyrənmək üçün mühüm əhəmiyyətə malikdir.

E.ə. I minilliyə və eranın əvvəllərinə aid Sumbatan-Dizə yaşayış yerinin narınqalasında arxeoloji qazıntıları yekunlaşdırmağı qərara aldıq. Narınqalanın cənub-şərq hissəsində qazıntıları davam etdirmək olardı, lakin, hələlik abidə haqqında kifayət qədər məlumat topladığımızdan bu hissəni gələcək nəsillərin tədqiqatları üçün saxladıq. Arxeoloji tədqiqatlar nəticəsində əldə edilən məlumatlar Gilançay vadisində şəhərlərin yaranmasını və inkişaf mərhələlərini ardıcıl izləməyə imkan verir.

E.ə. II minilliyin sonlarından başlayaraq müharibələr vaxtaşırı davam etmiş, şəhər və kəndlər dəfələrlə dağıntıya məruz qalmış, yenidən bərpa olunmuşdur. Bütün bu dağıntılar və bərpa izləri arxeoloji qazıntılarda dəqiqliklə izlənilir. Aşkar edilən müxtəlif qəbir tipləri baş vermiş konfessional dəyişikliklərin nəticəsidir.

Gilançay vadisində aşkar edilərək tədqiq olunmuş arxeoloji abidələr burada e.ə. III minillikdən başlayaraq dövrümüzədək fasiləsiz həyat olduğunu sübut edir. Bütün dövrlərə aid abidələrin mövcudluğu arxeoloji mədəniyyətlərin genezisinin və etnik mənsubiyyət məsələlərinin müəyyən edilməsində də mühüm rol oynayır.

İlk tunc dövründən antik dövrün sonlarına qədər mövcud olmuş Sumbatan-dizə şəhər yerinin arxeoloji tədqiqi Naxçıvanın qədim şəhərlərinin plan quruluşunu, memarlığını, sənətkarlığını və məişətini öyrənmək üçün çox mühüm nəticələr verir.

Б.И.Ибрагимли, Т.Ф.Халилов,
Г.И.Гадирзаде, Л.Н.Ахмедова

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИИ СУМБАТАН-ДИЗА

РЕЗЮМЕ

Хараба-Гиланская археологическая экспедиция НАН Азербайджана в 2011 году завершила археологические раскопки на городище Сумбатан-диза. Раскопки были проведены на двух участках. На первом участке, исследуемого с 2008 года, рядом с оборонительной стеной, в центре участка (площадью 12 м^2) не было возможности провести раскопки. В 2010 г. появилась возможность завершить раскопки на этом участке. Здесь в 2009-году, к западу от оборонительной стены, было обнаружено полукруглое строение из довольно крупных камней (некоторые весом более тонны). Дальнейшие раскопки показали, что под этим же строением находится ещё одно строение круглое в плане.

Раскопки были продолжены в восточной части храмового комплекса. Здесь, в 2010-году был обнаружен кусок культурного слоя эпохи ранней бронзы. Дальнейшие раскопки не дали значимых результатов, поскольку фундаменты ризалитов храма, срезая этот культурный слой, уходят вглубь материка. В результате археологических раскопок было выяснено, что площади между ризалитами перегорожены каменными стенами высотой 1,0-1,2 м и заполнены камнем, перемешенным с землёй. В результате восточная сторона храмового комплекса получила ступенчатый вид. Кстати, этот архитектурный приём характерен для многих оборонительных сооружений городов Манны и Мидии.

B.I.Ibragimli, T.F.Khalilov,
H.I.Gadirzade, L.N.Akhmedova

THE LAST INVESTIGATIONS IN THE LIVING PLACE SUMBATAN-DIZA

SUMMARY

Archaeology and Ethnography Institute's Kharaba Gilan expedition of ANAS has finished archaeological excavations in year 2011 in the living place Sumbatan-Diza. Excavations have been taken awat in the three area in investigation time beginning in year 2008.One of them is surrounds 500 m^2 area in the East hem of the mount Sumbatan-Diza. There have been learnt and found out defense wall width is 3,5 m, length is 29 m and it's West side quadrangular building. Second excavation area is taken on the mount Sumbatan-Diza, mounts on the protuberance towards the East. There is found out and investigated the wall width 1,2 m, the way stone has been spread,5 pitcher grave about beginning and during our century and some stone box grave about I century B.C. in this excavation area. The most interesting building complex which found out living place Sumbatan-Diza is a temple surrounding over 300 km area in the pic of the mountain or social building remainders. This building's walls with 3m width, contrphorst and rizalits is shows that it was significant in its era. Settle of complex in the centre of living place and pic of mount is affirms this idea again. Living place Sumbatan-Diza's build plan, architecture style and construction technique is shows that its same with Manna and Midiya towers. The investigation of archaeological findings of this city place is gives ground to suppose that population moved to Sumbatan-Diza after disintegrating Plovdagh living place in the last The Bronze Age. The archaeological investigation of living place Sumbatan-Diza will allow comprehensive study of one more ancient city of Nakhchivan.

QAZAX ARXEOLOJİ EKSPEDİSİYASININ SARVANTƏPƏ YAŞAYIŞ YERİNDƏ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR

(Qazax rayonu)

Ş.N.Nəcəfov



Sarvantəpə yaşayış yerinin görüntüsü.

Qazax arxeoloji ekspedisiyası 2011-cu ildə Qazax rayonunun Çaylı kəndi ərazisində yerləşən Sarvantəpə (Rustəpə) son tunc-ilk dəmir dövrünə aid yaşayış yerində arxeoloji qazıntıları davam etdirmişdir.

Abidə Çaylı kəndindən 250-300 m cənubda alçaq təpə üzərində salınmışdır *(Наджафов Ш.Н., 2011, с. 292).* Abidə ilə kənd arasında Qazax-Ermənistan (Qazax-İcevan) avtomobil yolu keçir. Abidə bu şosse yolundan (İcevana tərəf gedərkən) solda – yəni cənubda qalır. Şosse yolu ilə abidənin arasındakı məsafə 45-50 m-dir. İnzibati baxımdan yaşayış yeri Çaylı kəndi ərazisinə düşür. Uzunsov olan abidənin şimal hissəsindən dəmir yolu xətti keçir. Dəmir yolu xətti Aveydağın ətəyindəki gil zavodu (Daş Salahlı kəndi ərazisində) ilə Qazax dəmir yolu stansiyası arasında çəkilmişdir *(Nəcəfov Ş.N., 2010, s.143).*

Sarvantəpə abidəsinin ümumi uzunluğu 110-115 m (şimal-cənub istiqamətində) eni isə 45-50 m-dir (şərq-qərb istiqamətində), hündürlüyü 4,60 və bəzi yerlərdə 4,80 m-dir. Beləliklə, abidənin ümumi sahəsi 1 ha-ya yaxındır. Amma vaxtilə abidə 1,5-2 ha-ya yaxın bir sahəni əhatə etmişdir. Zaman-zaman abidənin sahəsi təsərrüfat və əkin məqsədilə kəsilib götürülmüşdür *(Nəcəfov Ş.N., 2010, s.143).*

Sarvantəpə yaşayış yerində əsaslı arxeoloji qazıntılar 2009-cu ildən aparılır. 2009-2010-cu illərdə Sarvantəpə yaşayış yerində qazıntı üçün ayrılmış ümumi sahəsi 125 m^2 olan ərazinin 75 m^2-lik hissəsində -daha dəqiq desək I, II, IIA kvadratlarında qrunta qədər qazıntını aparmaq mümkün olmuşdur. 2011-ci ilin qazıntıları zamanı isə III və IV kvadratların əhatə etdiyi 50 m^2-lik sahədə arxeoloji qazıntı işləri həyata keçirilmişdir. Arxeoloji qazıntılar zamanı yaşayış yerinin 180 sm qalınlığında mədəni təbəqəsi öyrənilmişdir *(Наджафов Ш.Н., 2011, с.296-297).* 2011-ci ilin arxeoloji qazıntılar kompaniyasında əvvəlki illərdə olduğu kimi Sarvantəpə yaşayış yerindən xeyli sayda maddi mədəniyyət nümunələri aşkarlanmışdır.



Tikinti qalıqlarının görünüşü.

Arxeoloji qazıntılar zamanı hər iki kvadrat üzrə müəyyən dərinliyədək tədqiqat işləri aparılmışdır. Tədqiqatlar zamanı Sarvantəpə yaşayış yerindən son tunc-ilk dəmir dövrünün müxtəlif mərhələlərini xüsusilə də inkişaf etmiş və son mərhələlərini özündə ehtiva edən (e.ə.XIII-IX əsrlər) xarakterik maddi mədəniyyət qalıqları aşkar edilmişdir. Bu tapıntılar yarımdağılmış vəziyyətdə aşkarlanmış möhrə tikililərin (yaşayış evləri və təsərrüfat məqsədli tikililərin) qalıqları, təsərrüfat quyuları, ocaq qurğuları, daş və keramika nümunələri, metaldan və sümükdən hazırlanmış müxtəlif məzmunlu və təyinatlı artefaktlardan ibarətdir.

Yaşayış evləri. III və IV kvadratların kəsişməsində aşkarlanan yaşayış evinin bünövrə qalıqlarından məlum olur ki, o dairəvi formalıdır. Onun cənub və qərb divarlarının cox az bir hissəsi salamat qalmış, qalan hissələri isə tamamilə dağılmışdır. Divar qalıqları olan yerlərdə bir-birindən 1-1,2 m aralıda dərinliyi təxminən 25-30 sm olan dirək çalaları var idi. Qərb divarının slamat qalmış hissəsinin uzunluğu 4 m, hündürlüyü 40 sm, eni isə 25-30 sm idi. Əsas tikinti materialı kimi möhrə və kiçik həcmli çay daşlarından istifadə olunmuşdur. Bəzi yerlərdə divarın üzərinə suvanmış saman qarışıqlı palçığın izləri qalmışdır. Evin döşəmə hissəsində saman qatışıqlı çoxlu suvaq qalığına təsadüf olunmuşdur. Suvanmış divar qalıqlarının bəzi yerlərdə qızarması və his bağlaması isə bu hissədə ocaq qalanmasından və suvağın güclü yanğına məruz qalmasından xəbər verir. Evin döşəmə hissəsindən yuxarıda təxminən 3 sm-lik qalınlıqda kömür və küləş külü qatının müşayiət olunması isə burada baş verən güclü yanğın nəticəsində yaşayış evininn dağılmasının göstəricisidir.

Azərbaycanda, xüsusilə də Gəncə-Qazax bölgəsinin son tunc-ilk dəmir dövrü abidələrində aşkar edilən yaşayış evlərinin formasını, quruluşunu təyin etmək üçün Sarvantəpədə aşkar edilən tikili qalıqları böyük elmi əhəmiyyətə malikdir. Sarvantəpədən aşkar edilən yaşayış evlərinin daxilində çox maraqlı və materiallarla zəngin təsərrüfat quyuları və ocaq qurğuları olmuşdur *(Nəcəfov Ş.N., 2010, s.12).* Təsərrüfat quyuları əsasən yaşayış evlərinin ətraflarında və daxilində qazılmışdır. Sarvantəpə yaşayış yerindən tapılan bu tipli tikililərin oxşarları eynilə Babadərviş və Sarıtəpədən aşkar edilmişdir *(Nərimanov İ.H., 1963, s.81-83; Najafov Sh.N., 2010, p.73-75).*



Təsərrüfat quyuları.

Ocaq qurğuları. Ocaq qurğularının əksəriyyəti yarımdairəvi formada olub bilavasitə evlərin döşəməsində qurulmuşdur. Bəzi ocaq qurğuları isə evin döşəməsində qazılmış dairəvi çala formasındadır. Çalanın içərisi kül qatı ilə dolmuşdur. Ocağın qab qoyulmaq üşün üst hissəsi yastı formadadır. Onlar yanlardan və arxadan dördkünc formada qurulmuş möhrə divarlarla əhatə olunmuşdur.

Təsərrüfat quyuları. Qazıntılar zamanı III və IV kvadratlardan 6 ədəd təsərrüfat quyusu aşkar edilmişdir. Qeyd etdiyimiz kimi, təsərrüfat quyuları əsasən yaşayış evlərinin ətraflarında və daxilində qazılmışdır. Onların hamısı mədəni təbəqə yatımında qazılmışdır, yəni heç biri xam torpaqda qazılmamışdır. Aşkar edilmiş təsərrüfat quyularının demək olar ki, hamısı çay daşlarından hazırlanmış, iti ağızlı, toxa şəkilli alətlərə qazılmışdır. Cox nadir hallarda olsa da belə alətlərə yaşayış yerində və bəzi quyuların içərisində təsadüf olunmuşdur. quyuların divarında belə alətlərin izləri aydın görünür. Təsərrüfat quyularının divarları qazıldıqdan sonra azca hamarlanmışdır. Silindrik və oval formalı təsərrüfat quyularının bəziləri təsərrüfat əhəmiyyətini itirdikdən sonra zibil tökmək üçün istifadə olunmuşdur. Quyuların içərisi yaşayış yerində baş vermiş dağıntı və yanğın nəticəsində möhrə, çay daşları, kül, torpaq və müxtəlif ev avadnlığı qırıqları ilə dolmuşdur.

Keramika. Arxeolji qazıntı işləri zamanı əldə edilən artefaktların əksəriyyəti keramika nümunələridir. Müxtəlif təyinatlı və formalı gil qab qırıqlarının əksəriyyəti əsasən boz, tək-tük sarımtıl rəngli, keyfiyyətli gildən formalaşdırılaraq dulus çarxında hazırlanmış xeyrə, küpə, sini, çölmək, cam, kasa, kuzə, bardaq tipli qablardan ibarətdir. İri təsərrüfat küpü, qazan, çölmək, sac və təknəvari qablar da dulus çarxında hazırlansalar da gilinə iri qum və kiçik çınqıl qarışığı qatıldığından görkəmcə kobud görünürlər. Gil manqallar və stəkan tipli gil qablar isə əldə kobud hazırlanmışdır. Sarvantəpə yaşayış yerinin gil qabları batıq, sınıq, qabarıq xətlər, şaquli paralel qabarıq xətlər arasında alt-alta yapışdırılmış gil düyməciklərlə, küpənin boğaz hissəsinə şaquli şüyrəli zolaqlar və s. naxış nümunələri ilə bəzənmişlər. Boz rəngli qablara en kəsiyi dairəvi, üstü dirsəkli və lentvari qulplarla təsadüf olunur.

Sarvantəpə yaşayış yerindən əldə edilmiş məişət əşyaları içərisində birinci yeri saxsı qablar tutur ki, bunlar da müxtəlif ölçülü və məzmunludurlar.

Məişət qabları hazırlanma texnologiyasına əsasən iki qrupa bölünürlər:

-dulus çarxında formalaşdırılan qablar;

-əldə kobud hazırlananlar.

Ümumiyyətlə, son tunc-ilk dəmir dövrünə aid gil qabların əksəriyyəti dulusçu dəzgahında düzəldilmiş qablar olub yalnız müəyyən bir qismini isə əldə düzəldilmişlər təşkil edir. Sarvantəpə yaşayış yerindən tapılmış gil məmulatının uzun inkişaf yolu keçdiyi aydın nəzərə çarpır *(Nəcəfov Ş.N., 2010, s.145-146).*



Təsərrüfat küpü.





Gil manqalın hissələri.



Bardaq tipli saxsı qabın qulp hissəsi.

Az sayda keramika nümunələrini çıxmaq şərtilə saxsı qabların böyük əksəriyyəti dulus çarxında hazırlanmışdır. Təsərrüfat qablarından fərqli olaraq mətbəx-məişət qabları daha incə və ustalıqla hazırlanmışdır. Saxsı qab nümunələri müxtəlif ölçülü və təyinatlı olub, zərifliyi, özünəməxsusluğu və naxışların üslubuna və təyinatına görə bir-birindən fərqlənir. Yaşayış yerindən tapılan keramika qalıqlarının saxlanma səviyyəsi eyni deyildir. Onların bəzilərinə çox keyfiyyətli və bütöv halda rast gəlindiyi halda, bəzilərinə dağılmış və torpaqdan götürülə bilməyəcək dərəcədə keyfiyyətsiz qalmış vəziyyətdə rast gəlinmişdir. Sarvantəpə yaşayış yerindən tapılan birinci qrupa aid məişət keramikası dulusçuluq dəzgahında hazırlanmış əsasən qara və

tünd boz rəngli gil qablardan ibarətdir. Bu qablar yaşayış yerindən əldə edilmiş avadanlığın əsas hissəsini təşkil edirlər. Buraya əsasən enli və ya şarvari gövdəyə malik qulplu və qulpsuz, bəzən isə qulp əvəzinə qabın boğaz və çiyin hissəsində göbələkvari çıxıntısı olan (belə çıxıntılar bir və bir neçə ədəd olur) qablar, dopular və küpələr, kasa və çölməklər, təkqulplu kuzələr, xeyrələr və s. daxildir. Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinin yayıldığı ərazilərə diqqət yetirsək, onda birinci qrupa aid olan qabların da çox geniş areala malik olduğunun şahidi olarıq. Bu tip qablar bütün Şərqi və Mərkəzi Qafqazı əhatə edirlər *(İsmayılov Q.S., 1962, s.97-98)*. Bu qabların üzəri yaxşı cilalanaraq hamarlanmış, çox vaxt batıq xətlər və zolaqlarla, kəndirvari, sünbülvari naxışlarla və novlarla bəzədilmişdir. Sarvantəpə yaşayış yerindən aşkar olunan keramika məmulatı içərisində *xeyrələr* say etibarilə üstünlük təşkil edirlər. Xeyrələr həcmlərinə görə boşqablardan böyükdür. Bunların ağız kənarını çox vaxt bir basma xətt əhatə edir. Dulus çarxında hazırlanmış xeyrələr digərlərinə nisbətən çox səliqəli hazırlanmış və simmetrik formalara malikdirlər. Bu xeyrələrin xarici səthi hamardır. Oturacaqdan başlayaraq yuxarı qalxdıqca gövdəsi genişlənir, ağız hissədə bir qədər daralır və kənarları xaricə doğru qatlanır. Sarvantəpə yaşayış yerindən tapılan xeyrələr əsasən tünd boz rəhgli, bəzi hallarda isə qara rəngli olub yaxşı bişirilmişdir. Onların səthi sığallanmış və cilalanmışdır. Xeyrələrin böyük bir qismi ağız kənarına və çiyin hissəyə üfüqi və ya şaquli birləşdirilmiş qulaqcıq formalı qulpa malikdirlər. Xeyrələrin bəzilərinin ağızdan oturacağa doğru həm xaricdən, həm də daxildən cızma xətlər çəkilmişdir. Xeyrələrin bir qismi son tunc-ilk dəmir dövrü üçün səciyyəvi olan, cilalanma üsulu ilə çəkilmiş, qabın oturacağı ilə çiynini birləşdirən paralel xətlərlə və zolaqlarla bəzədilmişdir. Sarvantəpənin xeyrələrinin oxşarlarına Şəmkirçay və Gəncəçay hövzələrində, Qobustanda, qədim Quşçu qəbristanlığında, o cümlədən Sarvantəpədə, Qazaxbəyli qəbristanlığında, Mingəçevirdə, Vardanlıda aparılan arxeoloji qazıntılarda geniş rast gəlinmişdir *(Нариманов И.Г., 1962, с.96-98).*









Qazan tipli gil qablara aid fraqmentlər.

Qazanlar yaşayış yerinin materialları içərisində sayca ikinci yerdə durur. Əsasən tünd boz, bəzən isə qonur və qara rəngdə hazırlanan qazanlar içərisində ağız kənarı köbəli olanlar sayca çox deyil. İri dənəli qum qatışıqlı gildən hazırlanmış qazanlar zəif bişirilmiş və daha çox aşılanmaya məruz qalmışlar. Səthi qeyri-hamar olub, bəzi hallarda daraqvari alətlə işlənmiş qazanların naxışlanmasında başlıca olaraq düz və dalğavari kəsmə xətlərdən, kanalvari xətlərdən, çərtmələrdən, yapma və burma naxışlardan istifadə edilmişdir. Əsasən çiyin hissəni əhatə edən naxış komponentlərinin olmadığı qazanlara təsadüfi hallarda rast gəlinir. Sarvantəpənin gil qazanları əsasən düz oturacaqlı, qalın divarlıdır. Onların bəzilərinin ağız kənarı xaricə azca qatlanmışdır. Bəzən onların gövdəsini batıq paralel xətlər əhatə edir.



Təsərrüfat küplərinə məxsus ağız fraqmentləri.



Xeyrə tipli saxsı qaba aid qulaqcıq formalı qulplar.





Üzəri cilalnmış və şüyrələnmiş saxsı qab fraqmentləri.

Küpələr əsasən tünd boz, qonur və qara rənglidirlər. Nisbətən səliqəli hazırlanmış qara rəngli küpələrin səthi sığallanaraq yaxşı hamarlanmış, bəzən isə zəif cilalanmışdır. Dar və geniş ağızlı, şar gövdəli, bəzən isə bikonik formalı olub, dar oturacağa malik küpələrin səthi, xüsusilə də onların çiyin hissəsi torşəkilli, üçbucaqşəkilli, dalğavari ornamentlərlə içəridən basmaqla qabartmalarla bəzədilmişdir. Bikonik formalı küpələrin bir qayda olaraq yapma üsulu ilə düzəldilmiş dördkünc formalı çiyinvari çıxıntısı vardır. Çiyinlərində quş və ilan başı fiqurlarından ibarət yapmalara da rast gəlinən küpələrdə belə çıxıntılar dairəvi formalıdır. Tədqiqatçıların fikrincə daha çox süd və süd məhsullarının saxlanılmasında istifadə edilən küpələrə Mingəçevirdə və Şəmkirçay hövzəsində geniş rast gəlinir *(Muradova F.M., 1965, s.53; Nərimanov İ.H., 1963, s.94-95).*

Yaşayış yerindən tapılan *kuzələr* müxtəlif ölçülərə malik olub uzunsov və şargövdəlidirlər. Əsasən tünd boz, bəzən isə qara rəngli kuzələrin səthi anqoblanaraq sığallanmış, bəzən isə zəif cilalanmışdır. Ağız kənarları bir qayda olaraq xaricə qatlanmış kuzələrin böyük əksəriyyətinin səthində naxış komponentlərinə rast gəlinmir. *Bardaqlar* da əsasən şar gövdəlidirlər. Narın qum qarışıqlı gil tərkibli bardaqlar yaxşı bişirilmiş tünd boz, qonur və qara rəngdədirlər. Onların bəziləri zəif bişirildiyindən səthində qonur ləkələr əmələ gəlmişdir. Ağız kənarları ilə çiyini birləşdirən dairəvi kəsikli qulpların yuxarı hissəsi bəzən dirsəkvari çıxıntı şəklində düzəldilmişdir. Onların səthi sığallı və ya zəif cilalı olub, kəsmə və cilalama üsulu ilə bəzədilmişdir.

Nehrələr boz rəngdə olub, ölçü etibarilə bir-birinə çox yaxındırlar. Çiyin hissələrində üfüqi birləşdirilmiş qulp ilə yanaşı bir ədəd deşik vardır. Onların çiyin hissəsi müxtəlif üsullarla üçbucaq şəkilli və dalğavari ornamentlərlə bəzədilmişdir. Sayı az olan nehrələrin bəzilərinin səthi yuxarıdan aşağı cilalama üsulu ilə çəkilmiş ornamentlə örtülüdür. Son tunc-ilk dəmir dövrünə aid Sarvantəpə yaşayış yerinin gil nehrələrinin analoji nümunələrinə Mingəçevir, Ağcabədi, Gəncə, Qəbələdə daha çox rast gəlinmişdir *(Muradova F.M., 1965, s.52-53; Nərimanov İ.N., 1963, s.94-95).*

Sarvantəpə yaşayış yerindən tapılan *kasalar* iki tipə ayrılır: birinci tipə aid olanlar düz ağız kənarına, oturacaqdan yuxarı qalxdıqca yana açılan gövdəyə, kiçik düz oturacağa malikdirlər. İkinci tipə aid olanlar isə düz və azca içəriyə yığılan ağız kənarına, qabarıq gövdə və kiçik düz oturacağa malikdirlər. Kasaların qulpları demək olar ki, yoxdur, naxışları isə çox sadədir. Kasalar sayca çox azdır. Tünd boz rəngdə hazırlanan kasaların ornament komponentləri olduqca zəifdir.

Dopular tünd boz rəngdə olub, gilinin tərkibi qum qarışıqlıdır. Ağız kənarları azacıq xaricə qatlanıb, oturacaqları düzdür. Dopuların sığallanmış və ya zəif cilalı səthində naxışlar azdır. Təsadüfi hallarda çiyin hissəsinin kəsmə xətlərlə əhatələndiyi dopulara rast gəlinir. Qara və tünd boz rəngli *çölməklər* çox az saydadırlar. Çölməklərin üzərində his qalıqlarına rast gəlinməsi onların məişətdə çox işlədilməsinin nümunəsidir. İri dənəli qum qarışıqlı çölməklər zəif bişirilmiş, geniş və düz oturacağa malikdirlər. Onlar müxtəlif dərəcədə bişirildiyindən üzərində müxtəlif rəngli ləkələr nəzərə çarpır. Çölməklər ağız kənarı yüngülcə yana açılaraq düz və ya çəpinə vəziyyətdə kəsilən qabarıq gövdəli, gen ağızlı qablardır. Yaşayış yerinin çölmək tipli qablarında əsasən zəif cilalar səciyyəvidir *(Nəcəfov Ş.N., 2010, s.12).*

Sarvantəpə yaşayış yerindən *sərnic, parç, dolça, sini* tipli saxsı qablar çöx nadir hallarda olsa da tapılmışdır.

Yaşayış yerinin ikinci qrupa aid olan keramikasına çox az sayda xeyrələr, qazanlar, küpələr, çölməklər aiddir. Bu qablar əldə çox kobud formada hazırlanmışdır. Belə qabların tərkibində qum qarşığı da çoxluq təşkil edir.

Sarvantəpə yaşayış yerinin əksər keramika məmulatı yaxşı bişirilmişdir. Lakin bəziləri sabit olmayan tempraturda qeyri-bərabər bişirilmiş və eneolit dövrü qablarında olduğu kimi "astarı" vardır. Yaşayış yerinin keramika nümunələri əsasən həndəsi naxışlı qablardır. Gil qabların üzərindəki naxışlar əsasən cızma, çərtmə, yapma üsulu ilə çəkilən xətli naxışlardır. Geometrik təsvirlər olan qablar daha çoxdur. Onlar əsasən üçbucaqlardan, lentvari və dalğavari, xaçvari, rombvari, torşəkilli naxışlardan ibarətdir. Sarvantəpə yaşayış yerinin gil məmulatı əsasən kəsmə, cızma, şüyrələmə və s. naxışlanmışdır.

Daş məmulatı. Daş məmulatına dən daşları, sürtgəclər, bülöv daşları, dəstəklər, sapand daşları. Dən daşları qayıqvari və oval formadadır. Oval formalı dən daşları müxtəlif böyüklükdədir. Dən daşlarının hissələrinə hər bir kvadratda rast gəlinirdi. Bu nümunələr 2009-cu il qazıntıları zamanı əldə edilən daş məmulatını tamamilə təkrarlayırlar. Onların əksəriyyəti qırıq vəziyyətdə idi. Döyüm alətləri nisbətən daha çox olub, müxtəlif formalı (yumru, uzunsov, kələ-kötür, lakin bir tərəfi işlənmiş və s.) idilər *(Наджафов Ш.Н., 2011, с.294-295).*

Sürtgəclər isə uzunsov və oval formalıdır. Yaşayış yerində ən çox rast gəlinən daş məmulatı bülöv daşlarıdır. Üzləri yaxşı hamarlanmış dəstəklər isə uzunsov və şar şəklindədirlər. Əksəriyyətində işlənmə izləri müşahidə olunur. Sarvantəpə yaşayış yerindən tapılan bu daş alətlər Gəncə-Qazax bölgəsinin qədim sakinlərinin əkinçilik mədəniyyətini öyrənmək üçün böyük əhəmiyyət kəsb edirlər *(İsmayılov Q.S., 1962, s.95-98).*

Həvənglər orta ölçülü olub parçalanmış vəziyyətdədir. Onların dəstələri boz rəngli çay daşından ibarətdir. I kvadratda iki ədəd bütöv qalmış dəstə (kiçik ölçülü) tapıldı. Daş məmulatı içərisində bülövlər də üstünlük təşkil edirlər. Bülövlər boz və qara rəngli çay daşından hazırlanmış, yastı və qabarıq formalıdırlar. Onların böyük əksəriyyəti bütöv halda tapılmışdır. Həm böyük, həm də ölçücə kiçik bülövlərə də rast gəlinir. Sapand daşları çox az aşkar edilmişdir. Aşkar edilən sapand daşlarının hər ikisi salamatdır, üzərilərini ərp örtmüşdür.



Dən daşları.

Obsidian hazırlanan əmək alətlərinin də sayı azdır. Obsidian qəlpəsinin 1-i yaxşı işlənmişdir. Qara rəngli obsidian daşları formaca sadə, həcmcə kiçikdirlər.

Digər tapıntılar. Bundan əlavə Sarvantəpə yaşayış yerindən gil möhürlər, nazik tunc məftildən hazırlanmış iynə və biz qalıqları, sırğalar, sümükdən hazırlanmış əyircəklər, sümük bizin qalığı, oval formalı qəhvəyi, qara və boz rəngli daş asmalar, müxtəlif formalı əqiq və pasta muncuqlardan ibarət bəzək əşyaları da tapılmışdır.



Sürtgəclər.



Dəstələr, döyüm alətləri.

Sarvantəpə yaşayış yerində 2011-cu il qazıntıları mövsümündə aparılan arxeoloji tədqiqatlar maraqlı tapıntıların aşkarlanması ilə nəticələnmiş və bu artefaktların elmi təhlili bizə bölgənin son tunc-ilk dəmir dövrü sakinlərinin yaşayışı, təsərrüfat həyatı, mədəni-iqtisadi əlaqələri barədə dərin bilgi verir.

Sarvantəpə yaşayış yerində son tunc-ilk dəmir dövrünə aid bir mədəni təbəqə qeydə alınmış və sona qədər öyrənilmişdir. Yaşayış yerində qazıntı nəticəsində ümumi qalınlığı 170-180 sm olan mədəni təbəqə aşkar edilmiş və müxtəlif dərinliklərdə ocaq qalıqları, tikinti qalıqları, təsərrüfat quyuları, təndir qalıqları qeydə alınmışdır. O, yer səthindən başlayaraq müxtəlif sahələrdə müxtəlif dərinliklərə qədər davam edir. Mədəni təbəqə əsasən qara və bəzən də sarıya çalan çürüntülü torpaqdan ibarətdir. Arxeoloji qazıntılar zamanı aşkar edilmiş mədəni təbəqənin stratiqrafik quruluşu və verdiyi maddi-mədəniyyət qalıqlarının təhlili yaşayış yerini e.ə.XIII-IX əsrlərə aid etməyə imkan verir. Bu isə o deməkdir ki, arxeoloji dəlillər burada yaşayışın daha çox son tunc-ilk dəmir dövrünün inkişaf etmiş və son mərhələlərində mövcudluğunu əks etdirir.

Belə ki, çox nadir hallarda öz xüsusiyyətlərinə görə son tunc-ilk dəmir dövrünün daha erkən dövrünə aid daş məmulatı və kobud gil qab qırıqları aşkar olunmuşdur. Müasir yerüstü səviyyədən başlayaraq mədəni təbəqənin materikə qədərki qatlarında ən çox qeyd etdiyimiz dövrün arxeoloji materialları izlənilir. Sarvantəpə yaşayış yerindən xeyli miqdarda müxtəlif gil qabların qırıqları, daş məmulatı, metal məmulatı və az miqdarda heyvan sümüyü əldə olunmuşdur.

Yaşayış yerinin gələcəkdə davam etdirilən arxeoloji qazıntısı mədəni təbəqəni bir neçə əlavə kvadrat boyunca kompleks şəkildə izləməyə imkan verəcək və yeni elmi nəticələrə gəlməyə əsas verəcəkdir.

ƏDƏBİYYAT

1. İsmayılov Q.S. Qazax rayonunda arxeoloji axtarışlar //Məruzələr Azərb. SSR EA, XVIII cild, №1. Bakı, 1962, s.93-98.
2. Muradova F.M. Qazax rayonunda tunc dövrü abidəsi (Nadirbəy təpəsi) //Azərbaycanın Maddi Mədəniyyəti, VI cild. Bakı, 1965, s. 51-58.
3. Nəcəfov Ş.N. Sarvantəpə (Rustəpə) yaşayış yerində arxeoloji qazıntılar (Qazax rayonu) //Azərbaycanda arxeoloji qazıntılar -2009. Bakı, 2010, s. 143-149.
4. Nəcəfov Ş.N. Qazax rayonu ərazisində yeni arxeoloji tədqiqatlar //"Elm" qəzeti, 28 yanvar 2010 il, (№1-4 (941-944), s.12.
5. Nərimanov İ.H. 1960-ci ildə Sarıtəpədə arxeoloji qazıntılar //Tarix İnstitutunun Əsərləri, XVI cild. Bakı, 1963, s. 81-98.
6. Najafov Sh.N. The new archaeological investigations in the territory of Gazakh region //Azerbaijan & Azerbaijanis. Baku, №3-4 Vol. 107-108, 2010, p.72-79.
7. Наджафов Ш.Н. Археологические раскопки на поселении Сарван-тепе (Рус-тепе) в 2009-2010 гг. // История и её проблемы №2, 2011 (1997-056). Баку, 2011. стр. 291-300.
8. Нариманов И.Г. Археологические материалы из сел. Даш-салахлы Казахского района //Доклады АН Азерб. ССР, том XVIII, №3. Баку, 1962, стр.95-99.

Ш.Н.Наджафов

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ КАЗАХСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ НА ПОСЕЛЕНИИ САРВАНТЕПЕ

РЕЗЮМЕ

В последние годы (2009-2011) Казахской археологической экспедицией в западном регионе республики был обнаружен ряд поселений Ходжалы-Кедабекской культуры. Одно из них – поселение Сарвантепе расположенное недалеко от село Чайлы, в левобережной зоне реки Акстафачай.

В 2011 году раскопки на поселении Сарвантепе были продолжены.

Толщина культурного слоя в центральной части холма около 180 см. По стратиграфии этот слой делится на два пласта. Различать каждый слой по материалам не представляется возможным. Однако, выявленные с обоих слоев большие хозяйственные кюпы находились один над другим.

На площади раскопок выявлены остатки нескольких помещений. По использованному строительному материалу дома можно разделить на две группы: сооруженные из речного камня и скрепленные глиняным раствором в смеси с соломой, дома с плетенными стенами, смазанными глиной в смеси с соломой.

Значительную часть материалов составляют керамические сосуды и орудия труда: хозяйственные кюпы, миски, кувшины и др. Они изготовлены как на гончарном круге, так и от руки. Характерными орнаментальными мотивами сосудов данного поселения являются вдавленные, врезные и выпуклые линии, а также налепные пуговки.

Характерно для поселения обилие обломков зернотерок и терочников, указывающих на оседло-земледельческое хозяйство. Встречаются зернотерки с одним приподнятым концом и с ровной поверхностью овального очертания.

Весь комплекс добытых материалов находит себе близкие аналогии из памятников Ходжалы-Кедабекской культуры, конца II - начала I тыс. до н.э.

Sh.N.Najafov

ARCHAEOLOGICAL RESEARCH CONDUCTED KAZAKH ARCHAEOLOGICAL EXPEDITION IN SETTLEMENT OF SARVANTEPE

SUMMARY

In recent years (2009-2011) of the Kazakh archaeological expedition of the Institute of Archaeology and Ethnography in the western part of the country observed a number of settlements of Khojaly-Gadabay culture. One is- village Sarvantepe located near the village of Chayli, on the left bank of the river area Akstafachay.

In 2011, excavations were continued in exile Sarvantepe.

The thickness of the cultural layer in the central part of the hill up to about 180 cm in stratigraphy this layer is divided into two layers. Distinguish each layer material is not possible. We highlighted the fact that the big economic jug top layer is directly over poll lower layer.

On the area of the excavation revealed the remains of several buildings. On construction materials of the house are divided into two groups. Home of the first group were made of river stones held together with clay mortar mixed with straw. The second group is the house with wicker walls smeared with clay mixed with straw.

Much of the material make pottery and tools of agricultural nature. These include fragments of economic jugs, bowls, pitchers, etc. They were made as a potter's wheel and by hand. Ornamental motifs characteristic of vessels of this settlement are depressed, rifled and convex lines and molded buttons.

There were many in the settlement debris carry grain, rumpling and pointing and pointing to a settled agricultural nature of neo-identified ancient settlement. There graters to one end and a raised flat surface with an oval shape.

The entire complex of the extracted material finds its closest analogy of the monuments of Khojaly-Gadabay culture covering the end of the II and the beginning of the I millennium BC.

RƏSUL DƏRƏSİ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTI İŞLƏRİ

(Naxçıvan MR, Ordubad rayonu)

Q.S.İsmayılzadə, B.İ.İbrahimli, T.F.Xəlilov

Rəsul dərəsi Sumbatan-Dizə qədim şəhər yerinin yaşayış evləri yerləşən hissəsidir. Burada arxeoloji qazıntı işlərinə 2009-cu ildə başlanmışdır. Dəyirman dağının ətəyində bir yaşayış evi, həyəti və yardımçı binalar ilə birlikdə kompleks şəkildə öyrənilmiş, yaşayış yerinin cənub-qərb sərhədləri müəyyənləşdirilmişdir. Qazıntı işlərini çətinləşdirən yaşayış yerinin bütünlüklə müasir kənd evlərinin, həyətlərin və qəbristanlığın altında qalmasıdır. Ona görə də qazıntı işləri yaşayış yerinin kənarlarında aparılır. Bu baxımdan yaşayış yerinin cənub-qərb tərəfləri, Dəyirman dağının sıldırım ətəklərində yerləşən hissəsi qismən salamat qalmışdır. Yerüstu müşahidələr zamanı Dəyirman dağının cənub-şərq ətəklərində, bir neçə yerdə dağ üçün xarakterik olmayan çay daşlarına rast gəlinirdi. Bəzi yerlərdə, təqribən eyni ölçüdə olan çay daşları xırda komalar şəklində izlənirdi. Onları qəbirlərin yerüstü hissəsi hesab etmək olardı. Çay daşlarının nə məqsədlə istifadə olunduğunu müəyyən etmək üçün burada, iki yerdə qazıntı sahəsi götürdük. Onlardan biri Dəyirman dağının cənub tərəfdən zirvəsinə yaxın, ikincisi isə ondan 8 m aşağıdadır. Burada aşkar eriləcək abidələrin xarakterindən asılı olaraq yaşayış evlərinin nə qədər ərazini əhatə etdiyini təqribi də olsa müəyyənləşdirmək mümkün olacaqdır.

2009-2010-cu illərin qazıntı sahəsi ilə bu ilki qazıntı sahəsi arasında eni 40-50 m olan bir çökəklik vardır. Bu çökəklikdə yerüstü baxış zamanı antik dövrə aid gil qab qırıqları tapılırdı. Yerüstü əlamətlər yaşayış yerinin bu dərəni də əhatə etdiyini göstərir. Dərədə arxeoloji qazıntılar aparılarsa Sumbatan-Dizə şəhər yerinin cənub-qərb tərəfinin öyrənilməsi başa çatmış olur və narınqalada aparılmış arxeoloji qazıntıların nəticələri ilə ümumi təhlillər aparmaqla qədim şəhərin plan quruluşu, yaşayış evləri, müdafiə sistemi və s haqqında müəyyən fikirlər yürütmək mümkün olacaqdır.

Birinci qazıntı sahəsi. Burada arxeolji qazıntılar 2009-cu ildə başlanmışdır. Yaşayış evi kompleksinin şimal-qərb tərəfində qazıntını davam etdirdik. Birinci təbəqənin tikinti kompleksi haqqında əvvəlki illərin hesabatlarında məlumat vermişdik. İkinci təbəqənin binaları dairəvi planda işlənmiş iki tikilidən ibarətdir ki, onlardan qazıntı sahəsinin cənub-qərbində olan tikili ikinci təbəqədə də istifadə olunmuşdur. Bu zaman uçmuş divarlar bərpa olunmuş və arakəsmə işlənərək tikilinin planında dəyişiklik edilmişdir. Bizi maraqlandıran altdakı – üçüncü təbəqənin tikililəri, tikinti materialı və tikinti texnikasına görə nisbətən fərqlidirlər. Onlar daş və çiy kərpiclə işlənmişdir. Yuxarıda bəhs etdiyimiz yaşayış evi kompleksinin şimal-qərb tərəfində şərq-qərb istimətində işlənmiş (uzunluğu 4,3 m, eni 60 sm olan), şimal tərəfində isə çiy kərpicdən yarımdairəvi planda işlənmiş, üst tərəfi tağ şəkilli tikili vardır. Tikilinin düz tərəfinin diametri 50 sm, hündürlüyü 35 sm-dir. Ondan 55-60 sm qərb tərəfdə bütünlüklə uçmuş kərpic divar aşkar edildi. Bu kərpiclər əvvəl aşkar etdiyimiz divara aid deyildir. Birinci, onların itiqaməti kərpiclərin qərb tərəfdən buraya düşdüklərini göstərir. İkinci, əvvəlki daş divar təmizlənərkən üzərindən kərpic və ya qalıqları aşkar edilmədi. Çiy kərpicdən yarımdairəvi planda işlənmiş tikili isə, ehtimal ki, daş divarın aid olduğu tikilinin içərisində olmuşdur. Kələcək tədqiqatlar onun kult və ya məişət təyinatlı tikili olduğunu müəyyən etməyə imkan verəcəkdir.

Yuxarıda qeyd etdiyimiz kimi Rəsul dərəsinin cənub-şərq ətəyində iki yerdə qazıntı sahəsi götürdük. Məqsədimiz bu ərazidə yaşayış yerinin sərhədlərini müəyyən etmək və tez-tez rast gəlinən çay daşlarının nə məqsədlə istifadə olunduğunu aydınlaşdırmaq idi. Ona görə də İkinci qazıntı sahəsi Dəyirman dağının cənub-şərq yamacında, çay daşlarının səpələnmiş şəkildə rast gəlindiyi ən hündür yerdə götürüldü.



Rəsul dərəsi yaşayış yeri. I qazıntı sahəsi.

İkinci qazıntı sahəsi. Qazıntıya ölçüləri 4X4 m olmaqla dörd kvadratda başladıq. Üst qat təmizləndikdən sonra 10-15 sm dərinlikdə dağ daşlarıyla işlənmiş divarın bir hissəsi aşkar edildi. Divar cənub-qərb şimal-şərq istiqamətində olub, cənub tərəfdə daha bir divarla birləşir. Bu divarın cənub tərəfində diametri 1 m-ə yaxın olan tonqal yeri aşkar edildi. Şimal tərəfində 20 kv. m sahəyə çay daşları döşənmiş, bəzi yerlərdə onlar koma şəklində tökülmüşdür. Daş döşənmiş yerlərin hansısa tikilinin həyəti olduğunu ehtimal etmək olar, lakin yer səthi burada 45^{o}-li bucaq altındadır və çay daşlarındansa, yaxınlıqda kifayət qədər olan dağ daşlarından istifadə etmək daha məqsədəuyğun olardı. Deməli çay daşları başqa məqsəd üçün, ehtimal ki, hansısa bir sənətkarlıq ocağının tikintisində istifadə olunmuşdur. Ola bilər ki, döşənmiş çay daşlarının üstündə meyvə və üzüm qurudulmasında istifadə olunmuşdur. Yuxarıda deyilənləri aydınlaşdırmaq üçün qazıntı sahəsini, aşkar edilmiş divardan şərqə tərəf genişləndirdik. Burada dağ daşları ilə işlənmiş bir divar və yanında plitə dağ daşları döşənmiş 2,2 kv. m-lik sahə aşkar edildi. Beləliklə, məlum oldu ki, yuxarıda təsvir etdiyimiz divarın şimal tərəfinə çay daşları, cənub tərəfinə isə dağ daşları döşənmişdir. Bu tikililərin diqqəti cəlb edən cəhəti odur ki, onların səviyyəsi dağın sərt yamacına uyğundur, otağın içərisi və həyət qazılaraq tarazlaşdırılmıamışdır. Dağın relyefinin olduğu kimi saxlanması da tikililərin yaşayış evinin deyil, istehsalat və ya təsərrüfat təyinatlı oldüğünu göstərir. Qazıntı zamanı buradan çox az tapıntı əldə edildi.

Üçüncü qazıntı sahəsi. Bu sahə Dəyirman dağının cənub-şərq yamacında, İkinci qazıntı sahəsindən 10 m aşağıda yerləşir. Burada diametri 2,3 m olan dairəvi plana malik bir tikili aşkar edildi. Tikilinin divarlarının içəri tərəfi dolmadır və bu səbəbdən də son tunc dövrü qəbirlərinin kromlexini xatırladır. Tikilinin cənub və şimal tərəflərində iki böyük daş qoyulmuşdur. Divarın xarıcı perimetri üzrə dağ daşları işlənsə də icərisində çay daşlarına da rast gəlinir. Şimal-qərb tərəfinin daşları yoxdur. Qazıntı bu mərhələdə dayandırıldı.

Qeyd edək ki, dəyirman dağının bu hissəsində tikililər nisbətən salamat qalmışdır. Ona görə də burada arxeoloji qzıntı sahəsini genişləndirmək lazımdır. Qazıntı zamanı dairəvi tikilinin üstündən və ətrafından keramika və daş alətlər aşkar edildi.



Rəsul dərəsi yaşayış yeri. II qazıntı sahəsi.





Rəsul dərəsi yaşayış yeri. III qazıntı sahəsi.

Arxeoloji tapıntıların qısa xarakteristikası. Arxeoloji tapıntılar müxtəlif qab fraqmentlərindən və daş alətlərdən ibarətdir. Birinci qazıntı sahəsində, çiy kərpiclərlə işlənmiş tikilidən üst qatda bir ədəd gil qab bir neçə yerə bölünmüş şəkildə aşkar edildi. Yalnız gövdəsinin az bir parçası əldə edilmədi. Qabın hündürlüyü 24 sm, ağzının diametri 28 sm, gövdəsinin diametri 26,5 sm, oturacağının diametri isə 15 sm-dir. Ağzının kənarı ilə çiynini birləşdirən iki ədəd qulpu vardır. Çəhrayı gillidir, üzəri boz anqobla örtülmüşdür. Bu qablar antik dövr üçün xarakterik qablardır.

Çiy kərpiclə işlənmiş tikilinin ətrafı təmizlənərkən aşkar edilmiş gil qab qırıqları içərisində qırmızı gilli bir qab fraqmenti diqəti cəlb etdi. Bu qabın gilində qızılı rəngli parıldayan zərrəciklər vardır. Bu zərrəciklərin hansı mineralın (pirit, qızıl, titan və s.) qalıqları olduğunu kimyəvi analiz nəticəsində müəyyən etmək olar. Xatırladaq ki, Plovdağda da gilinin tərkibində gümüşü zərrəciklər olan gil qab fraqmentləri aşkar edilmişdi. Bu əlamətlər yerli metallurgiya ocaqlarının olduğunu göstərir.

İkinci qzıntı sahəsinin tapıntıları içərisində qara gilli miniatür qab və çəhrayı rəngli daşdan yonulmuş, dabanlı oturacağa malik kasa diqqəti cəlb edir. Kasa yerli daşdan məharətlə yonularaq hazırlanmış qabın ağız, gövdə və oturacağını əhatə edən bir fraqmentdən ibarətdir. Qeyd edək ki, Gilan çay vadisində ilk dəfədir ki, yerli daşdan hazırlanmış qaba (ümumiyyətlə, əşyaya) rast gəlinir. Çəhrayı rəngli vulkanik daşlardan, əsasən tikinti materialı kimi istifadə olunmuşdur. Qabın hündürlüyü 6,2 sm, divarının qalınlığı 1,2-1,5 sm-dir. Formasına görə orta əsrlərin gil qablarına oxşayır. İkinci qab qara gilli, sferik gövdəli, düz oturacaqlı və ağzının qırağı azca kənara açılan miniatür qabdır. Hündürlüyü 6,5 sm, diametri 6,5 sm-dir. Üzərində müxtəlif istiqamətlərdə sıra ilə basma naxışlar vardır. Bu sıralar bəzi yerlərdə kəsişirlər. Onların semantik mənasını müəyyən etmək çətindir. Onların təkcə naxış kimi salındığını da düşünmək çətindir. Çünki keramika üzərindəki bu tip həndəsi naxışlarda adətən bir simmetriklik olur, burada isə tamamilə əksinədir. Hər iki tapıntı məişətdə işlənən qabdan daha çox kult xarakterli əşyaya oxşayır.

Üçüncü qazıntı sahəsindən tapılan əşyalar da, əsasən müxtəlif gil qab fraqmentlərindən və daş alətlərdən ibarətdir. Gil qablar qara, boz və daha çox çəhrayı gillidir. Qara gilli fraqmentlər çölmək və qazan tipli qablara aiddir. Boz gilli keramika küpə, təknə və ləyən tipli qabların fraqmentləridir. Çəhrayı gilli keramika kəmiyyətcə çoxluq təşkil etdiyi kimi çeşidinə görə də olduqca müxtəlifdir. Çəhrayı gilli keramika içərisində müxtəlif formalı süfrə, mətbəx və təsərrüfat qablarının fraqmentlərinə rast gəlinir. Qalın divarlı və iri həcmli qab fraqmentləri üfüqi düz ağızlı, şar gövdəli təsərrüfat küplərinə məxsusdur. Süfrə qabları içərisində yarımsferik gövdəli və ağzı geniş şəkildə kənara açılan kasalar da vardır ki, onların da Naxçıvan ərazisində yayılması son əhəmənilər dövründən başlayır. Bu tip kasa bütün şəkildə Sumbatan-Dizə narınqalasında, küp qəbirdə aşkar edilmişdir. Qəbirlərdə rast gəldiyimiz kasalarla yaşayış yerinin eyni tip kasaları arasında müəyyən fərqlər vardır. Bu fərqlər onların bişirilməsində, simmetrik formada hazırlanmasında və naxışlanmasında nəzərə çarpır. Yaşayış yerində aşkar edilmiş kasalar içərisində ağzının kənarı içəri tərəfdən az, bayır tərəfdən isə çiyninə qədər qırmızı boya ilə örtülmüşdür.

Bəzi boyalı qabların yalnız gövdə hissəsindən fraqmentlər əldə edilmişdir. Keramika içərisində yəqin ki, bu qabların başqa fraqmentləri də vardır, lakin, boyanmayan hissələrin hansı qablara aid olduğunu müəyyən etmək çətindir. Monoxrom və polixrom boyalı qablara aid fraqmentlər vardır. Monorom boyalı qablar tund qırmızı rəngli boya ilə naxışlanmışdır. Polixrom boyalı qab fraqmentlərinin çoxu kiçik həcmli süfrə qablarına aiddir. Onların üzəri qara, qırmızı və bəzən də qəhvəyi rəngli boya ilə naxışlanmışdır. Üzəri tünd qəhvəyi rəngli anqobla örtülmüş mətbəx küpələrinə də rast gəlinir. Bu küpələr şar gövdəli, silindrik boğazlı olub ağzı qatlanmış şəkildədir. Bəzi qab fraqmentlərinin üzərində dalğavari cızma naxışlar da vardır.

Rəsul dərəsi yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı müxtəlif daş alətlər də əldə edilmişdir. Daşdan hazırlanmış əşyaların çox hissəsi mətbəxdə işlənən əşyalardır. Onların içərisində müxtəlif çay daşlarından hazırlanmış, bir-birindən həcminə görə fərqlənən dübəklər vardır. Həcmcə iri və çəkisi 30-40 kq-ya qədər olan dübək daşları da vardır. Dübəklərin əl daşı – döyəcləri qara rəngli bərk çay daşlarından (qranitdən) hazırlanmışdır. Rəsul dərəsində aparılan arxeoloji qazıntılar zamanı metal əşyalara və bəzək əşyalarına çox nadir hallarda rast gəlinir.

Sumbatan-Dizə yaşayış yerinin yaşayış evləri və sənətkarlıq məhəlləsi yerləşən Rəsul dərəsində aparılan arxeoloji qazıntı işləri nəticəsində qədim şəhərin müxtəlif dövrlərinə aid tikililər aşkar edilmişdir. Təəssüf ki, tikililərin əsas hissəsi müasir kənd evlərinin və həyətlərin altında qalmış və onların da çox hissəsi dağıntıya məruz qalmışdır. Yaşayış yerinin Dəyirman dağına tərəf olan hissəsi nisbətən salamat qalmışdır. Burada üç tikinti dövrü aydın izlənir. Üst qatdakı tikililər yaşayış evi kompleksinə aiddir ki, onlar da əvvəlki illər tədqiq edilib öyrənilmişdir.

Bu ilki qazıntılar göstərdi ki, yaşayış evi kompleksinin cənub-qərbində müxtəlif təyinatlı tikililər vardır. Onların bəzilərinin sənətkarlıq ocaqları olması ehtimalı böyükdür. Rəsul dərəsində kiçik həcmli arxeoloji qazıntılar aparıldığından tikililərin xarakterini, təyinatını bir mövsümdə müəyyən etmək mümkün olmur. Gələcək arxeoloji tədqiqatlar ilk dəmir dövründən antik dövrün sonlarınadək mövcud olmuş Sumbatan-Dizə şəhərinin tarixi və mədəniyyəti haqqında ətraflı məlumat əldə etməyə imkan verəcəkdir. Naxçıvanın antik dövr abidələri başqa dövrlərə nisbətən zəif öyrənilmişdir. Ona görə də Sumbatan-Dizə və Rəsul dərəsində aparılan arxeoloji tədqiqatların mühüm əhəmiyyəti vardır.



Rəsul dərəsi yaşayış yeri.. Saxsı məmulatı.

Г.С.Исмаилзаде, Б.И.Ибрагимли, Т.Ф.Халилов

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ПОСЕЛЕНИЕ РАСУЛ ДАРАСИ

РЕЗЮМЕ

Второй отряд Хараба-Гиланской археологической экспедиции проводил раскопки в центральной и южной частях поселение Расул дереси с целью изучения границы памятника. Для определения площадь памятника это имеет существенное значение и ещё потому, что поселение является частью городища Сумбатан-диза, где расположены её жилые кварталы. Раскопки велись на трёх участках. Первый участок расположен в центральной части Расул дереси, где раскопки ведутся с 2009 года. Здесь полностью изучен жилой комплекс с 9-ю помещениями античного периода. В северо-западном углу комплекса обнаружен культурный слой эпохи раннего железа. Раскопки были продолжены на участке 25 м^2. Обнаружены кирпичная стена и рядом с ним круглое кирпичное строение диаметром 50 см, высотой 35 см. По остаткам невозможно определить его (культовое или бытовое) назначение.

Второй (разведочный) участок расположен на склоне Дайирман даг. Здесь на поверхности земли были видны следы, круглого в плане, каменного строение. При расчистке, кроме фрагментов керамики ничего не было обнаружено.

Третий раскопочный участок расположен ближе к вершине Дайирман даг. Раскопки велись в четырёх квадратах, размерами 4х4 м (общая площадь 64 м^2). На глубине 20-30 см обнаружена часть строительного комплекса. Стены, шириной 75-80 см, сложены из каменных плит горной породы. К северу от этой стены, на расстоянии 1,2-1,5 м обнаружено место скопления речной гальки. На южной стороне этой же стены обнаружено место кострище, толщиной пепла 25 см. Вероятно, это следы какой-то производственной мастерской.

G.S.Ismailzadeh, B.I.Ibragimli, T.F.Khalilov

ARHAEOLOGIAL INVESTIGATIONS IN SETTLEMENT OF VALLEY RASUL

SUMMARY

Archaeological excavations in Valley Rasul had been continued in year 2011 of West and South part of monument. In the beginning years investigating first excavation area's North-West part was found out one miniature building has 50 sm diameter round structured with raw brick and found out some raw brick buildings. These buildings are about first building era in the lower layer of living place. In the South side of valley Rasul in the East slope of The Mount Dayirman has taken two excavation area one of them found out round building used with mount stones, in the second area found out building remainders have been spread stones of river to its northern yard. There is bonfire place with thick ashes layer in the buildings central wall's South side. The archaeological investigations found out valley Rasul in year 2011 are show that the area of living place is continued till the mount Dayirman.

The buildings have been built suitable to sloping relief mount here. It is interesting that there is not found out grave monument in the South side of living place. The valley Rasul's living place's architecture systematic buildings. Area and finding show that it is kind of city. This living place existed from beginning I millenium B.C. till the first Middle Age (III century) and it is one part of the city Sumbatan-Diza.

YASTITƏPƏ SON TUNC-İLK DƏMİR DÖVRÜ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILARIN YEKUNLARI

(Ağstafa rayonu)

Ş.N.Nəcəfov, Z.C.Hacılı



Yastıtəpə yaşayış yerindən ümumi görünüş.

Yastıtəpə yaşayış yerində 2011-ci ildə arxeoloji qazıntıları davam etdirən Qazax arxeoloji ekspedisiyası ümumi sahəsi 75 m^2 olan əlavə 3 kvadrat (IIA, V, VI) da artıraraq 200 m^2 sahəni əhatə edən 8 kvadratda arxeoloji tədqiqatlar aparmışdır. Qazıntılar bitənədək daha iki kvadratda –I və IIA kvadratlarında, ümumilikdə isə 4 kvadratın (IA, I, IIA, II) əhatə etdiyi 100 m^2-lik qazıntı sahəsində mədəni təbəqəni materikə qədər izləmək mümkün olmuşdur. Yaşayış yerində mədəni təbəqə yatımının qalınlığı 220-240 sm arasındadır. Bundan sonra, yalnız, yaşayış yerinin nə vaxtsa üzərində salındığı xam torpaq qatı gəlir ki, bu qatda da heç bir material izlənilmir *[Muradova F.M., Nərimanov İ.H., 1973, s.46].*

Arxeoloji qazıntılar zamanı yaşayış yerindən iki yaşayış evinin bünövrə hissəsinin qalıqları, yarımqazma tipli yaşayış yeri, təsərrüfat quyuları, ocaq qurğuları, təndir qalığı, xeyli sayda daş alətlər və gil qabların müxtəlif fraqmentləri aşkar edilmişdir.

Tikinti qalıqları. Qazıntılar zamanı aşkar edilən hər iki yaşayış evinin qalığı formaca dairəvidir. Döşəməsi xam torpaqdan olub, bir neçə dəfə saman qatılmış gillə suvanması aydın hiss olunur. *Möhrə divar qalığının* h=45 sm olub, ehtimal ki, bünövrə hissəni təşkil edirdi. Dairəvi formada olub, III və I kvadratların altına doğru uzanırdı. Yaşayış evinin möhrə divarının qalığının şimal hissəsində çox mürəkkəb planda qurulmuş *ocaq qurğusu* aşkar edilmişdir. Burada ön hissədə gil ocaq, arxada isə möhrədən düzəldilmiş dördkünc tikinti yerləşirdi. Yaşayış yerindən aşkar edilmiş digər ocaq qurğularının hamısı ya yaşayış evlərinin möhrə divarlarının dibində, ya da evin orta hissəsində qurulmuşdur. Yaşayış üçün tikilmiş möhrə və palçığına kiçik çay daşı qarışdırlan evlərin hər ikisi güclü yanğın nəticəsində dağılmışdır. Döşəmədə təxminən 8-10 sm-lik kül qatının olması burada şiddətli yanğının baş verməsinin əyani sübutudur.



Qazıntı sahəsinin umumi görünüşü.

İkinci yaşayış evini daha çox yanğının izlərinə görə və dirək çalalarının yerlərinə görə müəyyən etmək mümkün oldu. Çox böyük ehtimalla həm möhrə evlərin, həm də yarımqazma tipli yaşayış yerinin üstünü örtmək üçün dirəklərdən istifadə olunmuşdur. Ümumiyyətlə, Qazax bölgəsində aşkar edilən son tunc-ilk dəmir dövrü yaşayış evlərinin damları küləş və qamış materialı ilə örtülürdü *[Əliyev V.H., 1976, s.105].*

160 sm dərinlikdə III kvadratın şimal-şərq küncündə dairəvi divar qalığının ortasında ***ocaq kompleksi*** aşkar edildi. Onun diametri təxminən 50x70 sm-ə bərabər olardı. Kvadratın həm şimal, həm də şərq divarlarının en kəsiyindən məlum olurdu ki, burada uzunmüddətli yanmanın izləri vardır. Belə ki, kül və kömür, saralmış gil qalıqlarının qarışığından ibarət olan hissənin qalınlığı 25 sm idi. Ondan aşağıda isə təxminən 3 sm qalınlığında tamamilə küldən ibarət qat gəlirdi. Bu onu göstərir ki, tikili daxilində yanma baş vermişdir və ya sadəcə olaraq evin bu hissəsində ocaq kompleksi qurulmuş, uzun müddət bu ocaq yerindən istifadə edilmişdir. İkinci mülahizə fikrimizcə daha düzgündür. Çünki, evin daxilində hər hansı yanğın baş vermiş olsaydı, onda yanıq qatı bütün divar daxilində, döşəmə üzərində yayılmış olardı. Qeyd edək ki, bu yanıq qatı kvadratın küncündən qərbə tərəf -230 sm, cənuba tərəf isə 80 sm uzanır. Kvadratın küncündə kömür parçaları daha çoxdur.

II kvadratın IV kvadratla bitişdiyi yerdə d=75 sm olan, dairəvi formalı formalaşdırılmış digər ocaq kompleksi aşkar edildi. Onun içərisindən heyvan sümükləri, keramika nümunələri tapıldı.

Yarımqazma. Tədqiqatlar nəticəsində II kvadratdan *yarımqazma tipli yaşayış yeri* aşkar edildi.Yarımqazma tipli yaşayış yerinin quruluşu çox mürəkkəb olub, sahəsi böyükdür. Onun dərinliyi 95 sm olub, kənarları oval formadadır. Divarları daş alətlə çox yaxşı yonularaq şirlənmiş və suvanmışdır. Yarımqazmanın üstü çox ehtimal ki, ağac konstruksiya ilə örtülmüşdür. Yarımqazma tipli yaşayış evinin döşəməsindən ağac çürüntüləri və kömür qalıqları tapıldı. Bu onu göstərir ki, onun üstü ya uçub dağılmış, ya da yanğın zamanı yanmışdır. Divarlarından da yanğın izləri görünürdü. Yarımqazmanın sahəsi böyük olub, demək olar ki, bütün kvadratı əhatə edirdi. Onun uzunluğu (şərq-qərb istiqamətində) 5 m 20 sm, eni isə (şimal-cənub istiqamətində) 2 m 90 sm olub, kənarlarda oturmaq üçün yerlər düzəldilmiş və ocaq qurğusu formalaşdırılmışdır. Yarımqazma təmizlənərkən onun ortasında kiçik ölçülü təsərrüfat quyusu da aşkarlandı. Onun d=45 sm olub, dərinliyi 40 sm idi. Yarımqazmanın içərisindən xeyli miqdarda sümük məmulatı, keramika və daş alətlər tapıldı. O, kənarlarında yarımdairələr açılan böyük dairə formasını xatırladır. Yarımqazmanın içərisində kənarlarında oturmaq üçün xüsusi yerlər düzəldilmişdir. Ortada isə ocaq yeri vardır ki, bu da döşəmədə quyu formasında qazılaraq düzəldilmişdir. Yarımqazma tipli yaşayış evinin künclərində də tikili formasında ocaq qurğuları aşkarlanmışdır.



Yarımqazma tipli yaşayış evi.

Təsərrüfat quyuları. Aşkar edilən təsərrüfat quyularının hamısı xam torpaqda qazılmışdır. Arxeoloji qazıntılar zamanı *10 təsərrüfat quyusu* tapıldı ki, onların hamısının divarları suvanmışdır. Qazıntılar zamanı müşahidə olunmuşdur ki, təsərrüfat quyuları çay daşlarından hazırlanmış, iti ağızlı, toxa şəkilli alətlərlə qazılmışdır. Lakin belə alətlərə çox nadir hallarda rast gəlinmişdir. Təsərrüfat quyularının divarlarında belə daş alətlərin izləri qalmışdır. Bəzi quyuların divarları qazıldıqdan sonra azacıq hamarlanmışdır. Oval, təndirvari və silindrik formalı quyuların forması eyni olsa da ölçüləri müxtəlifdir. 2 təsərrüfat quyusu pilləvari formadadır. Təsərrüfat quyularının birində xeyli gil və daş materialla birlikdə yarıçürümüş odun parçalarına da təsadüf edildi. 8-ci quyudan tapılan bir ədəd kvadrat formalı gil möhürün bir hissəsi qırılmışdır. İşlək üzündə mürəkkəb svastika işlənmiş, qısa dəstəyi vardır.



Qazıntı sahəsindəki təsərrüfat quyularının görünüşü.

III kvadratın mərkəzində tikili qalığının cənub tərəfindən ona bitişik təsərrüfat quyusu (№1) aşkar olundu. Quyu tikili qalığına bitişik təsərrüfat küpünün əksi tərəfindən tapıldı. Onun ölçüsü çox kiçik olub, dərinliyi 45 sm, ağzının diametri isə 50 sm idi. Quyunun içərisindən dən daşının kiçik hissəsi, dairəvi yonulmuş keramika, bardaq və xeyrə tipli gil qabların hissələri tapıldı.

IA kvadratında bu səviyyədə, yəni 180-200 sm dərinlikdə qruntda – yəni materikdə qazılmış təsərrüfat quyuları (2,3,4,5,6,7№-li) aşkarlandı. Onların bəziləri belədir:



3№-li təsərrüfat quyusu.



4№-li təsərrüfat quyusu.



8№-li təsərrüfat quyusu.

2-ci təsərrüfat quyusu şimal divarından 60 sm aralı olub, dairəvidir, divarları yaxşı yonulmuşdur, sonra isə suvanmışdır. Ağızda və oturacaqda (dibində) diametrləri eynidir. Divarı yaxşı suvanmışdır. Ölçüləri: H=60 sm; D(ağızda)=120 sm; D(dibdə)=110 sm;

3-cü təsərrüfat quyusu pilləlidir. Yəni iki təsərrüfat quyusu biri-digərinin birləşən hissəsində salınmışdır. Yuxarıdan 1-ci quyunun h=65 sm, ağızda d=105 sm, dibində d=95 sm olub, divarları daş alətlə yaxşıca yonulmuş, sonra isə torpağının aşınmaması üçün suvanmışdır. 1-ci quyunun ağzı 2-ciyə düşür. 2-ci də eynilə birinci kimi olub, dairəvidir. Divarları yaxşı qazılmış və şirlənmişdir – torpaq və gil qarışıq suvaqla suvanmışdır. Formaca bankaşəkillidir. Ümumiyyətlə, tapılan bütün quyular hamısı eyni formalıdır. Ölçüləri: H=90 sm; D(ağızda)=80 sm; D (dibdə)=80 sm;

1-ci quyu 2-cidən 25 sm hündürlükdədir.

4-cü təsərrüfat quyusu da digərləri kimi eyni formaya və quruluşa malikdir. Divarlar çox yaxşı yonulmuş və qaşınmış, sonra isə palçıqla suvanmışdır. Ölçüləri: H=75 sm; D (ağız)=85 sm; D (dibdə)=85 sm. Bu təsərrüfat quyusundan da digərləri kimi heç bir şey aşkar edilmədi. Bütün quyuların içərisindən yalnız kül qarışıq narın torpaq aşkar edildi.

5-ci təsərrüfat quyusu da formaca əvvəlkiləri təkrarlayır. Onun dibindən 1 ədəd əhəngdaşından hazırlanmış dən daşının qalığı tapıldı. Ölçüləri: H=100 sm; D (ağız)=105 sm; D (dibdə)=95 sm;

6-cı təsərrüfat quyusu nisbətən yumurta formalı olub, divarları dibə doğru endikcə maili forma alır və quyu boşqab və ya yalaq formalıdır. Divarları yaxşı suvanmışdır. Ölçüləri: H=95 sm; D (ağız)=185 sm; D (dibdə)=175 sm;

7-ci təsərrüfat quyusu I kvadratın şimal divarında aşkar edildi. O, divarın altına uzandığından qazıntısı hələlik mümkün olmadı. Təxminən quyunun bir hissəsi qazıldı və məlum oldu ki, bu quyu da formaca digərlərini təkrarlayır. Onun ölçüləri belə idi: H=60 sm; D (ağız)=150 sm; D (dibdə)=145 sm;


VI kvadratda yer səthindən 140 sm dərinlikdə 3 ədəd təsərrüfat quyusu aşkar edildi. Onlardan birinin ölçüləri böyük, qalan ikisinin ölçüləri isə kiçik idi. Hər üç quyunun divarları yaxşı formalaşdırılmışdır. Sayına görə 8-ci quyu daha yaxşı qazılmış, kənarları xüsusi gil məhlulla və ya palçıqla suvanmışdır. Qalan 9-cu və 10-cu quyuların divarları isə bir qədər dağınıq olmuşdur. 10-cu quyu isə əvvəlcə yalaqvari formada olub, sonra isə divarları daralır və yığcam forma alır. Hər üç quyu dairəvi formalıdır.

8-ci quyunun ölçüləri: H=70 sm; D (ağız)=180 sm; D (dibdə)=160 sm;
9-cu quyunun ölçüləri: H=95 sm; D (ağız)=85 sm; D (dibdə)=55 sm;
10-cu quyunun ölçüləri: H=60 sm; D (ağız)=140 sm; D (dibdə)=50 sm;

Daş məmulatı. Yaşayış yerindən xeyli sayda daş məmulatı bütöv və qırılmış halda tapıldı. Onlar dən daşları, sürtgəclər, həvəng və dəstələr, bülövlər, sapand daşları, döyüm alətləri, kəsicilər və s. idi. Bundan əlavə əl tutmaq üçün qısa dəstəyi olan daş alətlər, ərsini xatırladan boz rəngli çay daşından hazırlanmış alətlər, uzunsov və oval formalı sürtgəclər də tapılmışdır. Əldə edilmiş çoxçeşidli və formalı daş alətlər sübut edir ki, Azərbaycanda, xüsusilə də Gəncə-Qazax zonasının digər qədim yaşayış yerlərində olduğu kimi tunc dövrünün axırları və xüsusilə də dəmir dövrünün əvvəllərində Yastıtəpə sakinlərinin təsərrüfat həyatında daş alətlər öz əhəmiyyətini itirməmişdir *[Nəcəfov Ş.N., 2009, s.147].*

III kvadratda 160 sm-da xeyli arxeoloji material əldə edildi. Onlar içərisində daş məmulatı böyük maraq doğururdu. Daş məmulatı alt və üst dən daşlarının hissələrindən, sapand daşları və kiçik ölçülü sürtgəclərdən, döyüm alətlərindən ibarət idi.

Buradan tapılan *sürtgəclər* böyük maraq doğurur. Onlar çay daşından hazırlanmış, açıq boz və qonur rəngdədirlər. Əsasən uzunsov və oval formalı sürtgəclərin orta hissələri nisbətən enli, ucları getdikcə nazilir. Uzunluqları 25-15 sm arasında, enləri isə 12-6 sm arasında dəyişir.



Daş balta.



Sürtmədə və dənin əzilməsində istifadə olunan kiçik ölçülü daş alətlər.



Bıçaq formalı kəsici alət.



Dən daşları.



Bülövlər.



Dəstələr və döyüm alətləri.



Dairəvi formalı kiçik sürtgəclər.

III kvadratda 160 sm dərinlikdə tapılan təsərrüfat küpünün yanından uzunsov formalı, üçtilli, *çarpanaq daşından hazırlanmış alət* tapıldı. Alətin ucu şiş olub, dəstə hissədə qırıqdır. Yanları yaxşı formalaşdırılmışdır. Fikimizcə bu alət torpaq işləri zamanı, təsərrüfat quyuları divarlarının formalaşdırılmasında istifadə edilmşidir. Çünki, bu kəsici alətin funksiyasından çox uzaqdır.

Dən daşlarının xeyli hissəsi bərk cinsli çay daşlarından hazırlanmışdır. Onların demək olar ki, hamısı qırıq vəziyyətdə olub, forma və məzmun baxımından bir-birini təkrarlayırlar. Dən daşlarının hamısı qayıqvari formadadır. Üst dən daşları isə bir tərəfi düz, digəri isə qabarıq formalıdır.

Bülövlər müxtəlif böyüklükdə olub, boz və göy rəngli çay daşından hazırlanmışdır. Oval, uzunsov və qövsvari formalı bülövlərin hər iki üzü yastıdır. Əksəriyyətinin üzərində işlənmə izləri vardır. Uzunluqları 12-6 sm, qalınlıqları isə 4-3 sm arasındadır.

Dəstəklər və ya döyüm alətləri uzunsov və şar şəkillidir. Səthləri yaxşı hamarlanmışdır. Əksəriyyətində işlənmə izi müşahidə olunur. Uzunluqları 10-18 sm, diametrləri isə 6-8 sm-dır. Şar şəklindəki dəstəklərin diametrləri 6 sm-dır. Bütöv halda dəstəklər tapılsa da həvəng nümunələrinə çox az və tamamilə yararsız halda rast gəlinmişdir. Fraqmentlərdən müəyyən etmək olur ki, həvənglərin oturacaqları azca qabarıqdır. Dairəvi və uzunsov formalı həvənglərin çalaları çox dayazdır. Hündürlükləri 6-12 sm, diametrləri isə 10-14 sm arasında dəyişir. Ortasındakı çalaların diametrləri 4-8 sm arasındadır.

Keramika. Keramika məmulatı boz və qonur rəngli iri və orta həcmli təsərrüfat küplərinin fraqmentlərindən, qara rəngli qazan tipli gil qabların ağız və gövdə hissələrindən, açıq-sarı və açıq-qırmızı rəngli manqalların hissələrindən, qonur və boz rəngli gil tərkibi təmiz olan kiçik həcmli küpə, bardaq, fincan, parç, sini və xeyrə tipli gil qabların hissələrindən ibarət idi.

Arxeoloji qazıntılar zamanı yaşayış yerindən iri ölçülü *təsərrüfat küpləri* aşkarlandı. Təsərrüfat küplərinin əksəriyyəti qalın divarlı olub (2,5 sm), pis saxlanmışdır. Onların gil tərkibi torpaq və kiçik çınqıl qarışıqlıdır. Təsərrüfat küplərinin bəzilərinin üzəri üçbucaqlar və sünbülü xatırladan naxışlarla bəzədilmişdir. Çox az sayda təsərrüfat küplərinin qulplarının üstündə düyməşəkilli yapma naxışları vardır. Küplərdə çaxır, taxıl və s. məhsulları saxlamaq üçün istifadə edirlərmiş. E.ə.II minilliyin sonu-I minilliyin əvvəllərində Azərbaycanda iri təsərrüfat küplərindən geniş istifadə olunmuşdur. Belə təsərrüfat küplərinə Sarıtəpədə, Mingəçevirdə, Sarvantəpədə də geniş rast gəlinmişdir *[Muradova F.M., 1965, s.52-53; Наджафов Ш.Н., 2011, с.295-297].*

III kvadratın şimal divarından tapılan təsərrüfat küpünün içərisindən daha bir küp, onun da içərisindən yenə də əlavə bir küp aşkar edildi.

160 sm dərinlikdə III kvadratın qərb divarına bitişik orta həcmli təsərrüfat küpünün (1-ci) ağız hissəsi aşkarlandı. Təmizləndikdən sonra məlum oldu ki, o yerdə basdırıldıqdan sonra ətrafına xüsusi kül qatılmış gil məhlulla torpaq qatı çəkilmişdir. Bu yəqin ki, küpün yerinin torpağının dağılmamasına xidmət edirdi. Küpün ətrafından xeyli sümük (qabana, qoyuna məxsus) və keramika nümunələri tapıldı. Küpün ağzının qapanması məqsədilə, ağ rəngli əhəngdaşından qismən dairəvi formada yonularaq hazırlanmış ağızlıq qoyulmuşdur. Ağızlıq iki yerə bölünmüşdür. Küpün içərisi narın torpaqla dolmuşdur. Onun içərisindən və ətrafından xeyli sayda daş məmulatı – sürtgəclər, bülövlər və alt dən daşları da aşkar edildi. Ağzının d=52 sm olan küpün 7 sm h=də boğazı vardır. Ağız kənarı xaricə 6 sm enində köbəli çıxıntılı olub, cızıqlarla müşayiət olunur. Çiyindən 1 ədəd köbəli kəmər qurşaqlayır. Çiyindən 1 ədəd çıxan (hələlik görünən) qulp çıxıntısı 5 sm hündürlüyündə olub, üstü yuxarı meyllənir. Qismən təmiz gil tərkibə malik təsərrüfat küpü yaxşı qalmışdır.

III kvadratın düz mərkəzində köhnə divara bitişik daha bir təsərrüfat küpü aşkar edildi. O, gövdə hissədən ağıza qədər tamamilə dağılmış, yalnız gövdədən aşağıya doğru hissəsi torpaqda salamat qalmışdır. Divarının qalınlığı 2,5 sm olan təsərrüfat küpü (sayca 2-ci) çox pis vəziyyətdə qalmışdır. Bunun səbəbi isə odur ki, çox qarışıq tərkibə malik küp, torpaqda aşınmışdır. Qeyri sabit tempraturda bişirilməsi aydın hiss olunur. Gövdə hissənin diametri 75 sm olub təxminən yuxarıya doğru şarvari formada qalxır. Təsərrüfat küpünün içərisindən xeyli sayda keramika qalıqları (dopu, küpə, manqal qalıqları) və daş məmulatının hissələri tapıldı.

III kvadratda daha 2 ədəd təsərrüfat küpü tapıldı ki, onların da hər ikisinin ağız və gövdələri dağılmış, yalnız gövdədən aşağı hissələri salamat qalmışdır (№3 və 4). 3-cü təsərrüfat küpü nisbətən böyük ölçülü olub, qalan hissədən gövdənin d=95 sm, 4-cünün gövdəsinin d=50 sm idi. Onların hər ikisinin qalan hissəsi torpağa basdırılmışdır. Hər ikisinin torpağa basdırılan hissəsi təxminən 80-90 sm (3-cünün) və 40-50 sm (4-cünün) olardı. Küplərin hər ikisi qeyri-sabit tempraturda bişirilmişdir. Gil tərkibləri çox qarışıq olub, xırda çınqıl, qum və torpaq qarışığından ibarət idi. 4-cü küpün hissəsindən heç bir şey tapılmadısa da, 3-cünün içərisində 3-4 ədəd bazalt cinsli çay daşından hazırlanan əmək aləti tapıldı.

IV kvadratın I kvadratla kəsişməsində daha 1 ədəd kiçik ölçülü küp aşkarlandı. Onun torpaqda yuxarıdan görünən hissəsi – gövdədən yuxarı olub, ağız hissəsi tamamilə dağılmışdır. Ağız hissənin formasını müəyyənləşdirmək mümkün olmadı. Görünən hissənin h=25 sm olub, nisbətən yaxşı qalmışdır. Çiyin hissədə bir-birinə paralel 2 ədəd çərtmə sünbülvari naxış vardır. Naxışlar kəmər kimi küpü qurşaqlayır. Divarı nazik olub (0,6 sm), üzərinin çox hissəsini ərp örtmüşdür. 3 yerdən gövdəsi çatlamışdır. Küpün ağız hissəsindən 1 ədəd qabana məxsus diş, 1 ədəd nehrə tipli gil qabın fraqmenti tapıldı.

IV kvadratın cənub divarından 120 sm aralı (şimala tərəf) orta ölçülü, üstü romblarla və ziqzaqlarla naxışlanmış, qəhvəyi rəngli gildən bişirilmiş, çiynində bir ədəd qulpu olan keyfiyyətli hazırlanmış küpə tapıldı. Tamamilə dağılmış olsa da, hiss olunurdu ki, torpağın ağırlığından dağılmışdır. Üzərinin bəzi yerlərini ərp örtmüşdür. Nazik divarlıdır.



Dairəvi yonulmuş keramika.





Müxtəlif təyinatlı gil qab fraqmentləri.



Zoomorf qulplar və qulp çıxıntıları.



Gil manqallar.

Yaşayış yerindən tapılan xeyrə, sərnic, küp, küpə, qazan, çölmək, tava, manqal, dopu, kuzə, parç tipli gil qablar və onların fraqmentlərinin böyük əksəriyyəti keyfiyyətli hazırlanaraq sabit tempratur rejimində bişirilmiş və dulus çarxında hazırlanmışdır. Üzəriləri şüyrələmə, cızma və çərtmə üsulu ilə əsasən həndəsi motivlərlə naxışlanmışdır. *Kuzələr* şar gövdəli, dar boğazlı, yastı oturacaqlıdırlar. Bəzi kuzələrin qulpu yapma düyməciklərlə, ilan təsvirlərilə və cızma xətlrələ naxışlanmışdır. Bir neçə kuzə fraqmentinin çiyin hissəsi və gövdəsi üfüqi qabarıq və cızma zolaqlarla əhatə edilmiş, şüyrəli xətlərlə naxışlanmış, bəzilərinin səthi isə üçbucaqlarla bəzədilmişdir. *Parç* tipli qablar boz rəngli, gen ağızlı, qabarıq gövdəli olub hündür oturacağa malikdirlər. Səthləri yüngülcə şüyrələnmişdir. *Çölmək və qazan* tipli qablar qara və boz rəngli olub, böyük əksəriyyəti naxışsızdır. *Xeyrə* tipli qablar boz və qara rəngli, gen və düz ağızlı, gen gövdəli, dar oturacaqlıdırlar. Onların böyük əksəriyyəti dulüs çarxında hazırlanmışlar. Xeyrələrin naxışları demək olar ki, yoxdur, üzəriləri yaxşı şüyrələnmişdir. Oturacaqdan yuxarı qalxdıqca divarları genişlənir. Əsasən mətbəx avadanlığı rolunu oynayan xeyrə tipli gil qablar müxtəlif həcmdə olsalar da məzmun baxımından eynidirlər. Xeyrələrin bəzilərinin qulaqcıq şəkilli qulpları vardır. Xeyrələrdən nisbətən daha böyük həcmə malik olan *sinilər* çox az tapılmışdır. Onların hamısı qara rəngli olub, keyfiyyətli hazırlanmış, səthləri yaxşıca cilalanmışdır.

Gil manqallar müxtəlif formalıdır. Onların demək olar ki, hamısının içərisində kül qalığı aşkar edilmişdir. Formaca müxtəlif olmalarına baxmayaraq onların hamısı bir məqsədlə istifadə olunmuşdur. Manqallar əsasən kvadrat formalı, oval formalı, ağız kənarı üçbucaq şəkilli çıxıntısı olan manqallardır. Birincilərin ortası oval formada kəsikdir və oval hissənin kənarları çəp batıqlarla naxışlanmışdır. İkinci qrupa aid olan bəzi manqalların divarının yuxarısından kiçik, dairəvi deşik açılmışdır. Üçüncü qrupa aid olan manqalların ağız kənarlarının üçbucaq şəklində düzəldilməsində məqsəd onların ağızlarının kənarına qab qoymaq olmuşdur. Son tunc-ilk dəmir dövrünün inkişaf etmiş və son mərhələlərində əsasən manqallar dördkünc və oval formalarda olmuşdur. Onların ortasında rast gəlinən deşik isə manqala yığılan külü asanlıqla təmizləməyə xidmət edirdi. Bu cür gil manqallara Sarıtəpədə *[Nərimanov İ.H., 1963, s.90]*, Sarvantəpədə *[Nəcəfov Ş.N., 2009, s.145-147]*, Üçtəpədə *[Иессен А.А., 1965, с.117-118, рис.15]* və Ağdam ərazisindəki e.ə. II minilliyə aid olan Üzərliktəpə yaşayış yerində *[Кушнарева К.Х., 1965, с.85, рис.15]* də rast gəlinmişdir. V.Əliyev qeyd edir ki, Azərbaycanın ilk tunc dövrü abidələrində alçaq divarlı, dairəvi formalı (tava şəkilli) gil qablara təsadüf olunmuşdur ki, bunlar da çox böyük ehtimalla gil manqal kimi istifadə olunmuşdur *[Əliyev V.H., 1976, s.120].* Tədqiqatçı Babadərvişdə son tunc-ilk dəmir dövrünə aid yaşayış yerində aşkar edilmiş bəzi manqalların nə məqsədlə istifadə edilməsi haqqında maraqlı mülahizələr irəli sürür. Onun qənaətincə iri ocaq qurğusu olan evlərin içərisində və onlardan kənarda təsadüf edilən gil manqallar qış fəslində evin içərisindəki ocağın üzərinə qoyulurmuş. Onların ortasındakı deşik isə alovun yuxarıya qalxması üçün imiş. Ocaqda köz yarandıqdan sonra isə belə manqalların üzərinə içərisində xörək olan qab qoyulur və isti hala gətirilirdi. İsti aylarda isə belə manqallar həyətlərdə ocaqlarla birlikdə istifadə olunurdu. V.S.Sorokin və K.X.Kuşnaryova *[Кушнарева К.Х., 1965, с.83, рис.16]* bu manqallardan çörək bişirmək, A.A.İessen *[Иессен А.А., 1965, с.118]* isə ocaq və kürəsiz evləri isitmək üçün düzəldildiyini yazırlar. Fikrimizcə, gil manqalların hazırlanmasında əsas məqsəd onların təyinatı üzrə istifadə olunması –yəni burada yemək isitmək, ət bişirmək olmuşdur. Amma, onlardan evləri qızdırmaq üçün istifadə olunması faktı da istisna deyildir.

Yastltəpə yaşayış yerindən aşkar edilmiş gil qab məmulatının böyük əksəriyyəti *məişət qablarına* aiddir. Əldə edilmiş bu gil qab fraqmentlərinə əsasən həmin qabların formaları haqqında danışmaq bir qədər çətindir. Amma, qab qırıqlarında müşahidə olunan ümumi əlamətlərə görə onların Gəncə-Qazax zonasının bəzi abidələrindən tapılmış qablarla oxşar olduğunu müəyyən etmək mümkündür *[İsmayılov Q.S., 1962, s.94-97; Nərimanov İ.H., Xəlilov C.Ə., 1962, s. 35-39]*. Məhz bu analogiya əsasında Yastıtəpə abidəsinin dövrünü müəyyən etməkdə tutarlı faktlara söykənmiş oluruq. Kiçik həcmli küpələrin və parç tipli gil qabların divarı nazik olub (0,6 sm) təmiz gil tərkiblidir. Lentvari en kəsiyə malik qulpları ağızla çiyninin qurtaracağını birləşdirir. Qulpun ağıza birləşdiyi yerdə bəzən qulpun üstündə yapma düyməciklərə rast gəlinir. Parç tipli qabların ağız kənarı daxilə əyintilidir. Onların divarı ağıza doğru nisbətən qalınlaşır.

Bəzi qırmızı və açıq boz rəngli qab qırıqları *nehrə* tipli qabların fraqmentləridir. Onların gilinin tərkibi çox təmiz olub, yaxşı bişirilmişlər. bəzilərinin çiyin fraqmentlərinin üzərində h=3 sm, d=2,5 sm olan lüləşəkilli çıxıntı vardır ki, bu da nehrənin çalxalanması prosesində havanın çıxarılmasına xidmət etmişdir. Üzərində qısa lüləşəkilli çıxıntısı olan belə nehrələrin analoji nümunələrinə Sarıtəpə, Sarvantəpə, Boztəpə, Mingəçevir, Qazaxbəyli, Nadirbəytəpə yaşayış yerlərindən də rast gəlinmişdir *[Nərimanov İ.H., 1963, s.94-95; Nəcəfov Ş.N., 2009, s.147; Muradova F.M., 1965, s.53; Rüstəmov C.N., Nərimanov İ.H., 1965, s. 44-47]*. Belə formalı nehrələrdən üzərində heç bir dəyişiklik edilməmək şərtilə indinin özündə də istifadə edilir.

Tapılmış keramika məmulatı içərisində Xocalı-Gədəbəy mədəniyyətinin bir çox xüsusiyyətlərini özündə əks etdirən qara və boz rəngli, müxtəlif həcmli və formalı qabların gövdə hissəsindən qırıqlar da vardır. Onların üzəri çərtmələr, batıq nöqtələr, düz və dalğalı xətlər, cilalama üsulu ilə çəkilmiş naxışlarla bəzədilmişdir.

Digər tapıntılar. III kvadratda 160 sm dərinlikdə aşkar edilən təsərrüfat küpünün yanından 1 ədəd göy rəngli *şüşə muncuq* tapıldı.

VI kvadratın 120-140 sm dərinliyindən isə maral buynuzundan hazırlanmış alət tapıldı. Ucu nazik, şiş formalı, digər ucu isə kəsik boruşəkillidir. Üzərində bir-birinə paralel en boyunca kəsmə naxışlar vardır. Çox böyük ehtimalla *qaşıyıcı, daraqlayıcı alət* kimi istifadə olunmuşdur.

Metal əşyalara yaşayış yerində çox az təsadüf edilmişdir. Onlara daha çox mədəni təbəqənin orta dərinliyində (1 m-dən sonra) rast gəlinmişdir. Çox cüzi sayda olmalarına baxmayaraq abidənin dövrünü müəyyən etmək üçün böyük əhəmiyyət daşıyırlar. Buraya tuncdan və dəmirdən hazırlanmış iynələr, bizlər və sırğaların qırıqları və tək-tək dəmir məmulatları daxildir. *İynələr* nazik tunc məftildən hazırlanmış, formaca müasir iynələrlə eyniyyət təşkil edirlər. Ellipsvarı deşikləri vardır. Uzunluqları 3,5-7,5 sm arasındadır. Dəmirdən hazırlanmış iynələr çox pis vəziyyətdə qalmışlar. *Sırğalar* da nazik tunc məftilfən hazırlanmış, oval formalıdırlar. Diametrləri 2-3 sm arasındadır.

Yastıtəpə yaşayış yerinin maddi mədəniyyət qalıqları tunc dövrünün axırları və dəmir dövrünün əvvəllərinə aid olan Sarvantəpə, Sarıtəpə, Nadirbəy təpəsi, Mingəçevir abidələrinin materialları ilə tamamilə eyniyyət təşkil edir. Bu xüsusiyyətlər qeyd etdiyimiz dövrdə Azərbaycan ərazisində vahid yerli mədəniyyətin mövcudluğu haqqında təkzibedilməz sübutlardır. Stratiqrafik göstəricilər və yaşayış yerindən əldə edilmiş artefaktların xüsusiyyətləri və tipologiyası əsasında fikirlərimizi ümumuləşdirərək Yastıtəpə yaşayış yerini son tunc-ilk dəmir dövrünün inkişaf etmiş və son mərhələsinə *(e.ə. XII-XI və e.ə.X-IX əsrlər)* aid edə bilərik. Yəni Yastıtəpədə e.ə.XII əsrdən başlayan həyat fasiləsiz şəkildə e.ə.IX əsrə qədər davam etmişdir.

ƏDƏBİYYAT

1. Əliyev V.H. Babadərvişdə son tunc-ilk dəmir dövrü yaşayış yerləri //Azərbaycanın Maddi Mədəniyyəti, VIII cild. Bakı: "Elm", 1976, s.104-130.
2. İsmayılov Q.S. Qazax rayonunda arxeoloji axtarışlar //Azərb.SSR EA-nın Məruzələri, №1, 1962, s.93-98.
3. Muradova F.M. Qazax rayonunda tunc dövrü abidəsi (Nadirbəy təpəsi) //Azərbaycanın Maddi Mədəniyyəti, VI cild. Bakı: Azərb.SSR EA-nın nəşriyyatı, 1965, s.51-58.
4. Muradova F.M., Nərimanov İ.H. Yastıtəpə qədim yaşayış yeri //Azərbaycanın Maddi Mədəniyyəti, VII cild. Bakı: "Elm", 1973, s.46-55.
5. Nəcəfov Ş.N. Sarvantəpə (Rustəpə) yaşayış yerində arxeoloji qazıntılar (Qazax rayonu) //Azərbaycanda arxeoloji qazıntılar -2009. Bakı: 2010, "Xəzər Universiteti" nəşriyyatı, s.143-149.
6. Nərimanov İ.H., Xəlilov C.Ə. Sarıtəpə arxeoloji qazıntıları (1956-cı il) //Azərbaycanın Maddi Mədəniyyəti, IV cild. Bakı: Azərb.SSR EA-nın nəşriyyatı, 1962, s.6-67N.
7. Nərimanov İ.H. 1960-cı ildə Sarıtəpədə arxeoloji qazıntılar //Tarix İnstitutunun Əsərləri, XVI cild. Bakı: Azərb. SSR EA nəşriyyatı, 1963, s.81-98.
8. Rüstəmov C.N., Nərimanov İ.H. Avey dağında qədim yaşayış yerləri və kurqan qəbirləri //Azərbaycanın Maddi Mədəniyyəti, VI cild. Bakı: Azərb.SSR EA-nın nəşriyyatı, 1965, s.44-50.
9. Иессен А.А. Поселение Уч-тепе (1958-1960 гг) //Материалы и исследования по археологии СССР, 125, 1965.
10. Кушнарева К.Х. Новые данные о поселении Узерлик-Тепе около Агдама //МИА, 125, 1965
11. Наджафов Ш.Н. Археологические раскопки на поселении Сарвантепе (Рустепе) в 2009-2010 гг. //История и её проблемы, №2, 2011, (1997-056). Баку, 2011, «Адильоглу», с.291-300.

Ш.Н.Наджафов, З.Дж.Гаджили

ИТОГИ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК НА ПОСЕЛЕНИИ ЯСТЫТЕПЕ ЭПОХИ ПОЗДНЕЙ БРОНЗЫ-РАННЕГО ЖЕЛЕЗА

РЕЗЮМЕ

Казахская археологическая экспедиция в 2011 году продолжила археологические раскопки на поселении эпохи поздней бронзы и раннего железа Ястытепе, близ города Акстафа.

Здесь выявлены остатки двух помещений. В строительстве сооружений был использован, в основном, речной булыжника и глина. Особый интерес представляют очажные сооружения, из глины в смеси с рубленной соломой. Они занимали большую площадь внутри помещений.

Значительную часть материалов составляют керамические сосуды и орудия труда: большие хозяйственные кюпы, миски, кувшины и др. Сосуды изготовлены ручным способам и на гончарном круге; цвет сосудов черный и серый, во многих случаях они подвергнуты лощению и орнаментированы.

Много было в поселении обломков зернотерок и терочников, указывающих на оседло-земледельческий характер древнего поселения. Зернотерки в поселении найдены в большом количестве. Они представлены целыми экземплярами или в многочисленных обломках. Основная часть их выявлена в хозяйственных ямах. Зернотерки из поселения Ястытепе по своим формам делятся на три типа: овальные, прямоугольные, ладьевидные. Терочники изготовлены главным образом из слегка обработанного речного булыжника продолговатой формы. Круглые камни, вероятно, использовались в качестве крышек для сосудов.

Весь комплекс добытых материалов находит близкие аналогии из памятников Ходжалы-Кедабекской культуры конца II - начала I тыс. до н.э.

Sh.N.Najafov, Z.J.Hajili

RESULTS OF ARCHAEOLOGICAL EXCAVATIONS IN YASTYTEPE SETTLEMENT WITHIN THE LATE BRONZE-EARLY IRON AGE

SUMMARY

Kazakh archaeological expedition of the Institute of Archaeology and Ethnography in 2011 continued the excavations in the settlements of the late Bronze and early Iron Yastitepe, located near the town of Akhstafa.

It identified the remains of two buildings. In the construction of buildings were used in the main river gravel and clay. Of particular interest are the hearth building erected from clay mixed with chopped straw. They occupied a large area indoors.

Much of the material make pottery and tools of agricultural nature. These are fragments of larger economic bowls, jugs and other vessels made manual way and the potter's wheel, the color of blood vessels, black and gray, in many cases, they are subjected to the streamlined and ornamented.

There were many in the settlement debris carry grain, rumpling and pointing and pointing to a settled agricultural nature of neo-identified ancient settlement. Graters in the settlement are found in large numbers. They are presented in whole or in multiple fragments. The majority of them found in household wells. Yastitepe graters from the settlement in its forms are divided into three types: oval, rectangular, boat-shaped. Carry grain settlements consist primarily of lightly processed river stones, elongated shape. Round stones were probably used as closures for receptacles.

The entire complex of the extracted material finds its closest analogy of the monuments of Khojaly-Gadabay culture covering the end of the II and the beginning of the I millennium BC.

ABŞERON ARXEOLOJİ EKSPEDİSİYASININ TƏDQİQATLARI
(Abşeron yarımadası)

İ.N.Əliyev, C.İ.Əliyev

2011-ci ildə Abşeron arxeoloji ekspedisiyası yarımadanın şərqində yerləşən Dübəndi yaşayış yerində tədqiqat işləri aparmışdır. Abidə Dübəndi dəmir yolundan 800 metr aralı, təxminən Dübəndi d/yol stansiyasından 1 km şimal istiqamətindədir. Abidənin ərazisi 1 ha-dan artıqdır. Onun yer səthindən ən hündür hissəsində (mərkəzdən şimal istiqamətində) üzə çıxan daş sıraları müşahidə olunur. Abidənin cənubunda vaxtilə "Sadıx" qışlağı kimi tanınan yaşayış məntəqəsi və cənub-qərbdə köhnə qəbiristanlıq yerləşir. Abidənin GPS koordinatları: N 0402,656`; E 5018,399`-dur. Abidə dəniz səviyyəsindən 10 metr yüksəklikdə yerləşir.

Abidənin şimal sahəsi hündür (150-180 sm), qum-daşlıq olub cənub, cənub-qərb sahəsi isə qayalıq idi. Ilkin müşahidələr nəticəsində abidənin son sərhəddi şimal tərəfdə olan daş hörgü ilə bitdiyi. Burada daş hörgü tam aydınlıqla müşahidə olunurdu. Yer səthindən hündür olan hörgü şərqdən qərbə düzülmüş iri daşlardan tikilmişdir. Bu hasar demək olar ki, yaşayış yerinin şimal həddini təşkil edirdi. Buna görə də hasarın cənub hissəsində qazıntıların aparılması məqsədəuyğun hesab edildi.

Qazıntı sahəsinin uzunluğu 80 metr, eni 20 m. ölçülərində təyin edildi. Qazıntının ümümi sahəsi 1600 m^2 idi.



I qazıntı sahəsinin görünüşü

Abidənin şərq hissəsi bitki örtüyündən təmizləndi və daş hasarların böyük bir hissəsi üzə çıxarıldı. Qum qatında az təsadüf edilən xırda saxsı fraqmentləri və çaydaşından kəsici alətlər müşahidə olunurdu. Qum qatı bütövlüklə qazıntı sahəsində müşahidə olunurdu. Relyefdən asılı olaraq qum qatının hündürlüyü 30-60 sm.-ə çatırdı. İlk mərhələdə yaşayış yerinin şimalını əhatə edən daş hörgünün divarları təmizləndi. Hörgünün mərkəzindəki daşlar nisbətən böyüklüyü ilə fərqlənir. Bunların daxili səthində bir neçə təsvir çəkilmişdir.



A2, A3 və A4 kvadratlarının görünüşü.

Hörgünün son hissəsi şərq tərəfdə yarımkürə formasındadır və daxilində ocaq və kül yerlərini müşahidə etmək olar.

A-3 kvadratında daş üzərində heyvan təsviri (keçi) və ayrılıqda buynuz rəsmi çəkilmişdir. Daş hörgünün qalıqları yaşayış yerinin mərkəzində də əsas divardan müşahidə olunurdu. Daxili hörgü əsas divardan perpendikulyar xətlə yaşayış yerinin mərkəzinə istiqamətlənir. Bu hörgünün daşları əsas divardan fərqli olaraq yastı vəziyyətdə düzülmüşdür. Hörgünün qalıqları A-5,B-14,C-24 kvadratlarda qeyd olunmuşdur, onların hündürlüyü 30-50 sm.-ə qədərdir. Perpendikulyar hörgünün mərkəzində yerləşən yastı daşın səthində maraqlı sujetli təsvir çəkilmişdir. Təsvir olunan sujetdə iki üz-üzə dayanan kişi fiquru torla keçini ovlayır. Bu növ ov səhnəsi Abşeron abidələrində ilk dəfə aşkar olunan nadir sujet hesab olunur. Torlar oval şəkildə dairənin daxili ilə bərabər xətlərə bölünmüşdür.

B-12,13,14 kvadratlarda 50-60 sm. dərinliyində qaya təbəqəsi müşahidə edilməsinə baxmayaraq mərkəzi hissədə eni 110 sm., uzunluğu və dərinliyi 4 metr olan boşluq açıldı. Boşluğun şərq ətrafında ilan və kvadrat təsviri qeydə alındı.



B15 kvadratında aşkarlanmış küp.

Boşluqda qazıntını davam etdirərək onun dərinliyinin 3 metr olduğunu müəyyən etdik. Buradan maddi-mədəniyyət nümunələri aşkar olunmasa da onun təsərrüfatla bağlı olduğunu ehtimal etmək olar.

Bütövlükdə qazıntı sahəsinin qum qatı təmizləndikdən sonra mədəni təbəqənin üst səthi təyin olundu. Mədəni təbəqənin qalınlığı müxtəlif yerlərdə 20-40 sm. arasındadır. Mədəni təbəqənin rəngi boz-kül rəngdə olub, tərkibində orqanik qarışıqlar aydın görünür. Maddi-mədəniyyət qalıqları böyük təsərrüfat küplərinin qırıqlarından və xırda saxsı fraqmentlərindən ibarətdir.

B-16,18 kvadratlarda daşdan dördkünc formalı tikinti aşkar olundu. Orta ölçülü daşların düzülmə qaydası bu tikililərin heyvandarlıqla bağlılığını sübut edir. Güman etmək olar ki, bu tikililər heyvanları yemləmək məqsədilə istifadə olunmuşdur Digər tərəfdən bu tikililərin açıq ocaq yeri kimi istifadəsi də istisna olunmur. Bu məsələnin araşdırılmasının çətinliyi ondadır ki, Abşeronda meşə ağacı olmadığından kül qatını müəyyən etmək çətinlik yaradır. Ümumiyyətlə Abşeron abidələrində kömür qalıqları nadir hal kimi hesab olunur. Dördkünc tikilidən şimal-qərbə hörgü daşları böyüklüyü ilə fərqlənir. Belə bir daşın üst səthində A-8 kvadratda keçi təsviri həkk olunub. Digər daşlarda təsvirlər pozulduğundan çəkilən süjeti təyin etmək çətindir. Bu abidədə təsvirlər kobudluğu ilə yanaşı sayca da azlıq təşkil edir. Maraqlıdır ki, bəzi təsvirlər başı aşağı, yəni sistemsiz qaydada düzülmüşdür. Bu yalnız onunla izah oluna bilər ki, burada məskunlaşan tayfaların ideologiyasında ənənəvi dəyişiklik başlayır. Buna əlavə etməliyik ki, A-3 kvadratda hörgü daşı üzərində təsvir olunan keçi rəsmi icrasına görə primitiv çəkilmiş və bir nümunə kimi Abşeronda e.ə II minilliyin II yarısına xas olan təsvirləri xatırladır. Bu dövrdən başlayaraq Abşeronda sujet-səhnə təsvirlərinin tənəzzül mərhələsinin başlanması kimi qəbul etmək olar. Primitiv kobud keçi və ümumiyyətlə ayrılıqda təqdim olunan təsvirlər yüksək bədii və texniki səviyyədə həkk olunan rəsmləri əvəz edir. Bu prosesi saxsı materiallarının tərkibində də müşahidə etmək olar. Dübəndi yaşayış yerində aşkar edilən saxsı məmulatının tapıntılarında boz, qara cilalı keramikanın faizi artır. Abşeron abidələrinə xas olan qırmızı rəngli keramikanın əvəzinə keyfiyyətilə fərqlənən boz rəngli saxsı məmulatının faizi artır. Bu ümumiyyətlə Abşeron ərazisində yaşayan qədim tayfaların Azərbaycanın qərb bölgələrilə əlaqələrinin olmasını təsdiq etməklə yanaşı, e.ə.II minilliyin ortalarından başlayaraq mədəni təsirin artması ilə izah olunur.

II qazıntı sahəsi.

II qazıntı sahəsi yaşayış yerinin cənub-qərbində qoyuldu. Onun ölçüləri 5x10 m, dərinliyi 1 m.-dir. İlk işlər nəticəsində burada daş hasardan ibarət düzbucaqlı tikili aşkar edildi. Daşlar dik vəziyyətdə düzülmüş, mərkəzdə isə iki kvadrat formalı qurğu aşkar olundu. Bu qurğunun ölçüləri 1x1 m. olub yastı vəziyyətdə düzülmüş xırda daşlardan tikilmişdir. Onun daxilində kül qatı müşahidə edilir və bəzi daşlar yanma nəticəsində qırmızı rəng almışdır. Ümumi tikilinin qərb divar daşlarının birində çətin izlənən keçi təsviri qeydə alındı. Düzbucaqlı tikilinin daxilində heyvan sümükləri, daş (kobud) alətlər, çaxmaq daşı qəlpəsi ilə yanaşı bir neçə saxsı fraqmenti də aşkar olundu. İlk növbədə qara rəngli, tərkibi kobud, iri qabın boğaz və oturacaq hissələri tapıldı. 1,1-1,5 sm. dərinlikdən başlayaraq geoloji təbəqə müşahidə edildi.

Beləliklə, yaşayış yerinin 3 hissəsində qazıntı işləri görüldü. Əldə olunan materiallar az miqdarda saxsı nümunələrindən, daş alətlərdən və aşkarlanan tikili qalıığından ibarətdir. Qeyd edilməlidir ki, Abşeron abidələrinə xarakterik cəhətlərdən biri də odur ki, yaşayış yerlərində saxsı məmulatı cox az miqdarda tapılır. Ümumiyyətlə, Abşeron abidələrindən arxeoloji materiallar az təsadüf olunur. Abşeron yaşayış yerlərinin özünəməxsus memarlığı, qədim dövrlərdə məskunlaşma, həyat tərzi və təsərrüfat sisteminin araşdırılmasında dəyərli mənbə hesab olunur. Belə ki, Dübəndi yaşayış yerinin qədim sakinlərinin təsərrüfatında heyvandarlıq mühüm və əsas istiqamətlərdən biri sayılır. Bu baxımdan aşkar edilmiş şimal tərəfdəki hasar nəinki bu yaşayış yeri üçün, hətta, Abşeronun bir çox qədim yaşayış məskənlərinin əsas memarlıq elementi kimi xarakterikdir. Abşeronun bir cox yaşayış tipli abidələrində daxili tikinti bölmələri oldugu kimi, burada da tədqiqat zamanı həmin memarlıq ənənələrini müşahidə etmək olur. Bu bölmələrin heyvandarlıq təsərrüfatının tələblərinə uygun qurulması, qazıntılar nəticəsində aşkar edilmiş tikinti qalıqlarının aşkarlanması ilə təsdiq edilir. Ən əsas arqumentlərdən biri odur ki, yaşayış yeri şimaldan hasarlanmışdır və daş divarla əhatə edilib. Yaşayış yerinin daxili ayrı-ayrı hissələrə bölünərək, heyvandarlıq təsərrüfatı məqsədlərinə uyğun planlaşdırılmışdır.




II qazıntı sahəsinin görünüşü.



Saxsı qab fraqmenti.



Daş alətlər.



I qazıntı sahəsinin planı.

Əldə olunan saxsı məmulatının təsviri: ümumiyyətlə yaşayış yerində müxtəlif növ saxsı, daş alətlərin tapılmasını qeyd etmək lazımdır. Bu tapıntılar abidənin dövrü və xüsusiyyəti barəsində əsas mənbə kimi birinci yer tutur. Ona görə də qazıntılar zamanı aşkar olunan materialların ayrıca təsviri təqdim olunur.

1. Saxsı qablar. İri həcmli olub, gilinin tərkibində kobud qarışıqlar var. Rəngi boz-açıq qara olub, səthi lentvari qurşaqdan aşağı kobud palçıqla suvanmışdır. Bu növ keramika çoxluq təşkil edir.
2. Qara-boz saxsı qabların fraqmentləri. Fraqmentlər bogaz, oturacaq, gövdə hissələrdən ibarətdir. Kobud hazırlanmış qabın gilinin tərkibində daş, şamot (əzilmiş daş) qum qarişıgı müşahidə edilir. Bu növ saxsı qabların daxili təmiz gil qatı ilə cilalanmış, xarici divarları kobud gil qatı ilə örtülmüşdur.
3. Boz-qara rəngli keramika fraqmentləri. Gilinin tərkibində narın qum qarışıqları olub yaxşı bişmişdir. Səthi cilalanmışdır. Bu növ keramikanın yarımada abidələrində e.ə II minilliyin ortalarından başlayaraq yayılmasını müşahidə etmək olar. Abidələrin növündən asılı olmayaraq, boz rəngli saxsı numunələri tapıntılar arasında əsas yer tutur.

Nəticədə demək olar ki, Dübəndi yaşayış yeri e.ə II minilliyin II yarısından başlayaraq Abşeronun mədəni-tarxi inkişafında yeni mərhələ dövrünü əks etdirən unikal abıdələrdən biridir.

Məhz bu dövrdə Abşeron özünün yerli mədəniyyətə xas olan əsas elementlərini itirərək yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu prosseslərin göstərici amilləri özünü əsasən təsviri sənətin tənəzzülündə və saxsı nümunələrinin dəyişməsində biruzə verir. Bu dövrdə istər dəfn abidələri, istərsə də məişət tipli yaşayış abidələrində Azərbaycanın qərb bölgələrində yayılmış keramika məmulatının yayılması müşahidə olunur. Bunların ilk göstəriciləri əsasən e.ə. II – I minilliklər dövrünə aid abidələrdə bəhs olunan xronoloji dövrü əks etdirir.

Tədqiq olunan Dübəndi yaşayış yerinin xronologiyası e.ə II minillikdən başlayaraq e.ə. II minilliyin ortalarına qədərki dövrlər cərcivəsində təyin edilir.

И.Н.Алиев, Дж.И.Алиев

АРХЕОЛОГИЧЕСКИЕ РАБОТЫ АПШЕРОНСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2011 году археологические работы велись на поселении Дюбенди. Поселение, расположенное в 1 км севернее железнодорожной станции Дюбенди, представляет слабо возвышающийся холм диаметром около 100 метров. С северной стороны отчетливо просматривались каменные строения в виде ограды длиной более 80 метров. Раскопки памятника были проведены в пределах каменной ограды, площадь раскопа доведена до 300 кв. метров. Поверхностный слой песчаный, толщиной, местами, до 40-60 см, образовавшийся в результате наносов. Культурный слой однороден, представлен сероватопепельным грунтом, по-видимому органическими примесями с содержанием, незначительного по количеству, керамическими предметами, рубилами из булыжника и редкими осколками обсидиана и кремния. Строительные сооружения представлены двумя квадратными строениями (100х100 см) в квадратах В-16,18, а также прямоугольной ямы (160х360 см) в квадрате В-13. Керамика представлена фрагментами различных сосудов с обмазанной поверхностью, ряд сосудов имеют рельефные орнаменты по корпусу. Отдельную группу составляют керамические изделия серого цвета качественной обработки. Аналогичный материал был выявлен и из второго раскопа, площадью 50 кв. метров в центре поселения. Здесь на глубине 60 см выявлено строение прямоугольной формы, стены строения сложены из каменных плит. На отдельных камнях просматриваются изображения человеческих фигур и козлов. Примечательны глубокие гравированные вырезы на поверхности выступающих каменных плитах. В результате проведённых исследований можно сказать, что поселение Дюбенди, одно из значительных памятников восточной части Апшерона, является важным источником для освещения хозяйственного уклада, культуры и связей племен, населяющих полуостров во 2 тысячелетии до н.э. В 2012 году Министерством культуры этот памятник включен в список туристического маршрута на востоке полуострова.

I.N.Aliyev, J.I.Aliyev,

ARCHEOLOGICAL WORKS OF ABSHERON EXPEDITION

SUMMARY

In 2011, the archaeological work conducted at the settlement Dubendi. Settlement is located about 1 km north of the railway station, Dubendi is slightly raising hill with diameter about 100 meters. On the north side, structures in the form of stone fences longer than 80 meters are clearly visible.

The excavations of the monument were held within a stone fence, the area of the excavation was increased to 300 square meters. The surface layer is sandy, thick up to 40-60 cm in some places, formed as a result of alluvium. The cultural layer is uniform, presented by grayish ash soil, apparently organic impurities containing small ceramic objects by the number of chopped stone gravel and rare fragments of obsidian and flint.

Building construction are presented as two square buildings (100x100cm) in squares V-16, 18 as well as a rectangular pit (160x360 cm) squared B-13. Pottery fragments are presented by various vessels with plastered surface, a number of vessels have relief patterns on the body. A separate group is ceramic products of high-quality of gray color. Similar material has been extracted from the second excavation, an area of 50 square meters in the center of the settlement. Here, at depth of 60 cm a rectangular building had been identified, the walls of buildings were made of stone slabs. Images of human figures and goats are viewed on individual rocks.

Engraved deep cuts on the surface of the protruding stone slabs are remarkable. In the result of the studies can be said that the settlement Dubendi, one of the significant monuments of Eastern Absheron, is an important source to illuminate the economic structure, culture and relationship of tribes inhabiting the peninsula in the 2nd millennium BC.

In 2012, the Ministry of Culture included the monument to the list of objects on the tourist trail to the east of the peninsula.

QƏBƏLƏ ARXEOLOJİ EKSPEDİYASI ANTİK QƏBƏLƏ DƏSTƏSİNİN ÇÖL-TƏDQİQAT İŞLƏRİ HAQQINDA

(Qəbələ rayonu)

İ.A.Babayev, E.Ə.İskəndərov, N.Ə.Alışov,
L.X.Mustafaev, R.İsmayılov

2005-ci ildən başlayaraq Qəbələ arxeoloji ekspediyası SEBA-Seul-Bakı-Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası İctimai Birliyi ilə birgə qədim Qəbələ şəhər yerində arxeoloji qazıntılar aparır.

2009-cu ildən Qəbələdə aparılan arxeoloji qazıntılara Koreya Respublikasının müxtəlif universitet və elmi idarələrini təmsil edən arxeoloqların böyük bir qrupu da qoşulmuşdur. Hazırda beynəlxalq arxeoloji ekspedisiya Qəbələlə arxeoloji tədqiqatları davam etdirir.

2011-ci ildə Qəbələ arxeoloji ekspediyası İlyas Babayevin ümumi rəhbərliyi ilə mart ayının 28-dən iyun ayının 30-dək beynəlxalq tərkibdə fəaliyyət göstərmişdir.

Bu dövr ərzində ekspedisiya erkən antik şəhər yerində, son antik və ilk orta əsrlər dövrünə aid Səlbir sahəsində qazıntı işlərini aparmışdır.

Səlbir sahəsində 25 nəfərdən ibarət Koreya qrupu (onların sayı vaxtaşırı dəyişilmişdir) və onlarla birlikdə Azərbaycan nümayəndəsi tarix üzrə fəlsəfə doktoru Ceyhun Eminli (ayrıca sahədə qazıntı aparmaqla) işləmiş, tədqiqatlara ümumi nəzarət ekspedisiya rəisi İ.Babayev tərəfindən həyata keçirilmişdir. Səlbir sahəsində 2011-ci ildə aparılan arxeoloji qazıntılar haqqında Koreya arxeoloqları və Ceyhun Eminli məlumat verirlər.


2011-ci ildə Antik Qəbələ dəstəsi aşağıdakı tərkibdə fəaliyyət göstərmişdir:

İlyas Babayev-ekpedisiya rəisi, AMEA-nın müxbir üzvü, tarix elmlər doktoru, professor, İradə Nəcəfova-böyük elmi işçi, tarix üzrə fəlsəfə doktoru, Emil İskəndərov-kiçik elmi işçi (1-30 iyun), Natiq Alışov-kiçik elmi işçi, Laçın Mustafayev-aspirant, Rüstəm İsmayılov-aspirant, Azad Zeynalov- elmi işçi (1-30 iyun), Bədircahan Əmrullah qızı-elmi işçi (28 mart-30 aprel), Aygün Məmmədova- Azərbaycan Milli Tarix Muzeyinin elmi işçisi (28 mart-30 aprel).


Dəstəmizin tərkibinə daxil edilən Azad Zeynalov paleolit dövrü üzrə mütəxəssis kimi ətraf ərazidə həmin dövrə aid abidələrin axtarışı ilə məşğul olmuşdur.

Antik şəhər yerində qazıntı işləri III və IV qazıntı sahələrində davam etdirilmişdir. III qazıntı sahəsində əvvəlki illərdə qazıntılar zamanı oval planlı 3 böyük ictimai binanın qalıqları aşkar edilmişdi. Bu vaxta qədər bütün Qafqaz, Yaxın və Orta şərqdə antik dövrə aid belə tikili qalıqları tapılmamışdır. Qəbələdə e.ə. III - b.e. I əsrlərə aid olan bu binalar bir qədər Qədim Yunanıstanın ippodromlarını, Romanın anfiteatrlarını və Misirdə İskəndəriyyə şəhərindəki məktəb binalarını xatırladır. Bu tikililərin tədqiqinin xüsusi elmi əhəmiyyəti vardır. Onlardan ən böyüyü, üzü Şərq tərəfə olmaqla Şimal-Cənub istiqamətində yerləşmişdir. Əvvəllki illərdə bu binanın ümumi ölçüləri müəyyənləşdirilmiş, onun şərq tərəfdə iki qapı yerinin olduğu məlum olmuşdur. 2011-ci ildə əlavə təmizləmə işləri aparılarkən bu binanın qərb tərəfə açılan bir ehtiyat qapısının yeri də aşkar edildi. Əvvəlki illərdə burada divarın dağıllığı güman olunurdu. Beləliklə, hazırda demək olar ki, binanın tam planı müəyyənləşdirilmişdir. Bu binanın içəridən ölçüləri 19,5x71 m-dir. Çay daşından hörülən bünövrəsinin eni 1,8 m, bu bünövrənin üzərində hörülən çiy kərpic divarın eni isə 1.6 m-dir.

Binanın 11 sütunu olmuşdur. Sütun yerləri binanın mərkəzində, cənub-şimal istiqamətində çay daşı topaları şəklində qalmışdır. Bu bünövrələr üzərində sütunlar, görünür, çiy kərpiclərlə hörülmüşdür.



Şəkil 1. 1-ci oval tikintinin planı.



Şəkil 2. 2-ci və 3-cü oval tikintilər, onlardan aldakı təbəqələrdəki tikintilərin çaxır anbarının planı.

İçəri tərəfdən binanın bütün divar boyu ona bitişik 2,2 m enində 1 qat çay daşı ilə hörülən səkisi vardır. Səkinin ümumi sahəsi 363 m^2-dir. 11 sütunu olmuşdur. Müəyyən mərasimlər zamanı təkcə bu səkinin üstündə 500-dən çox adam otura bilərdi (şək. 1). Bu bina qazıntının stratiqrafiyasına əsasən e.ə. I- b.e. I əsrlərinə aid edilir.

İkinci oval planlı tikili bu binadan şimal tərəfdə yerləşir. Onun çay daşından hörülən divar bünövrəsinin eni 2m, çiy kərpic divarının eni isə 1.8 m-dir. Bu binanın cənub tərəfə açılan yalnız bir qapısı olmuşdur. Binanın içəridən ölçüləri 8,1x38m-dir. Binanın sütunları olmamışdır. Bu bina, görünür e.ə. II-I əsrlərə aiddir. Bu binanın bütün qalıqları əvvəlki illərdə açılmışdır. Qazıntılar prosesində məlum olmuşdur ki, bu binadan cənubda daha qədim dövrə aid 3-cü oval planlı tikintinin qalıqları yerləşir. Əvvəlki illərdə bu binanın yalnız Şərq tərəfinin bir hissəsi aşkar edilmişdi. Bu il isə həmin binanın qalıqlarının bütünlüklə aşkar edilməsi üçün qazıntı sahəsi xeyli genişləndirilmişdir. Məlum olmuşdur ki, bu bina təxminən 2-ci oval planlı bina böyüklüyündədir (şək. 2).

Mədəni təbəqənin stratiqrafiyası və tapıntılara əsasən 3-cü oval tikintinin 1 və 2-ci oval tikintilərdən daha qədimə - e.ə. III əsrə aid olduğu müəyyənləşdirilmişdir. 3-cü oval planlı tikinti sonrakı tikintilər və təsərrüfat quyularının qazılması nəticəsində daha çox dağıntılara məruz qalmışdır. Görünür, bu binalarda dini mərasimlər, dövlət və şəhər əhəmiyyətli yığıncaqlar keçirilirmiş və tamaşalar göstərilirmiş. Bu binaların hər ikisinin qapısının yanında divarda bir adamın dura bilməsi üçün xüsusi kəsik düzəldilmişdir. Ehtimal olunur ki, burada binaya daxil olanları yoxlamaq üçün nəzarətçi dayanırmış, yalnız icazəsi olanlar içəri buraxılırmışdır.

2011-ci ildə III qazıntı sahəsində ən alt təbəqələrin qazıntısı davam etdirilmişdir. Antik şəhər yerində başqa sahələrdə aparılan qazıntılar zamanı aşkar edildiyi kimi burada da şəhərin e.ə. IV-I əsrlərinə aid təbəqələrində çox intensiv həyatın olduğu müşahidə olunur. Belə ki, qazıntının bütün sahəsində çoxlu tikinti qalıqları vardır. Bu tikintilərin davamı hər tərəfdə qazılmayan sahələrə doğru uzanır. Bu tikintilərin əksəriyyətinin bünövrəsi çay daşı, divarları isə kvadrat və uzunsov formalı çiy kərpiclə hörülmüşdür.

Üst təbəqələrdə aşkar edilən oval planlı unikal tikinti qalıqlarını saxlamaq zərurəti alt təbəqələri bütünlüklə qazmağa imkan vermir. Ona görə də sahədə alt təbəqələrdə imkan olan yerlərdə qazıntı işləri aparılır.

Qazıntı zamanı 1-ci oval tikintinin mərkəzi hissəsində kiçik bir sahədə (100 kv.m.) alt təbəqənin qazılmasına başlanmışdır. Bu qazıntı həm oval tikintinin çay daşları ilə hörülən sütunaltığının quruluşunu müəyyənləşdirmək, həm də bu sahədə mədəni təbəqənin alt qatlarının stratiqrafiyasını müəyyənləşdirmək məqsədi daşımışdır.

Burada oval planlı tikintiyə qədər bir neçə tikinti qatının olduğu müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, III-II əsrlərdə şəhərin bu hissəsində dulusçu kürələri yerləşmişdir.

Qazıntı zamanı bu sahədə bozumtul-qara rəngli tək ayaq vazalar bişirilən kürə qalıqları aşkar edilmişdir. Belə qab bişirilən kürə qalıqları da Azərbaycanda birinci dəfə aşkar edilir. Bu kürənin qalıqları hələlik bütünlüklə açılmamışdır. Maraqlıdır ki orada bişirilən qabların əksəriyyəti yerindəcə çoxusu əzilmiş və bəziləri salamat halda qalmışdır. Bu da böyük maraq doğurur. Həmin yerdə yeni binalar tikilmək üçün qab bişirmə kürələri tamamilə dağılmış, onların yalnız od yandırma kamerasının odun təsirindən yanıb şlaklaşmış döşəməsi qalmışdır. Kürələrdən altda və üstdə oval tikintiyə qədər tikinti qatları izlənir. Bu qalıqları bütünlüklə üzə çıxartmaq üçün burada qazıntını bir qədərdə genişləndirmək lazım gələcək. Lakin bu zaman üst təbəqədəki oval tikinti qalıqlarına zərər dəyməməlidir.

III qazıntı sahəsində alt təbəqədə ən maraqlı tikinti qalıqları e.ə. IV-III əsrlərə aid çox böyük ərzaq anbarının qalıqlarıdır. Bu anbarda çoxsaylı iri həcmli təsərrüfat küpləri sıralarla bir qədər yerə basdırılmışdır. Müəyyən vaxt keçdikdən sonra küplərin bir çoxu çatlamış, parçalanmışdır. Bu anbarın hələlik bütün sahəsi qazılmamışdır. Anbar yerinin qazılmış sahəsində 200-ə qədər təsərrüfat küplərinin sınmış alt hissələri və ya onlar üçün qazılan çuxurlar aşkar edilmişdir. E.ə. III əsrdə bu anbarda istifadə üçün hələ yararlı olan təsərrüfat küpləri götürülmüş, yararsız küplərin qalıqları yerində saxlanaraq sahə

hamarlanmış və burada digər binalar tikilmişdir. Küplər üçün qazılmış çuxurların içərisində götürülən küplərin izləri yaxşı izlənir. Alt hissələri qalmış küplərin içərisindən götürülən 4 nümunə və təsərrüfat quyularından 2 nümunə palinoloji analiz üçün Tbilisi şəhərinə professor Eliso Kvavadzeyə göndərilmişdir. Analizlər göstərmişdir ki, bu küplərdə əvvəlcə çaxır, çatlar əmələ gəldikdən sonra isə başqa məhsullar (qoz, fındıq, taxıl) saxlanmışdır. Anbarın döşəməsində küplərin ağzını örtmək üçün istifadə olunan yastı daş qapaqların parçalarına, küplərdən çaxır götürmək üçün istifadə olunan ağzı əyməli və qulplu dolçalara rast gəlinir (şək. 3). Bir çox hallarda bu dolçaların ağzının kənarında süzgəci olur (şək.3, şək. 5, 1). Bu küplərdən və 2 təsərrüfat quyusundan götürülən nümunələrin palinoloji analizi göstərmişdir ki, 2400 il bundan əvvəl qəbələlilər indi olduğu kimi taxılçılıq, heyvandarlıq, bağçılıq, üzümçülük və şərabçılıqla məşğul olmuşlar.



Şəkil 2. Anbardakı çaxır küpünün yanında tapılan oynoxoya tipli gil qab.

Analizlər şəhərin yaxınlığında meşələrin olduğunu da göstərmişdir. Bir sözlə, o zaman da Qəbələnin iqlim şəraiti indiki kimi olmuşdur. İndiyə kimi nə Azərbaycanda, nə də bütün Qafqazda qədim dövrə aid bu böyüklükdə çaxır və digər ərzaq məhsulları saxlanan anbar aşkar edilməmişdir. Qəbələdə e.ə. IV əsrdə belə böyük ərzaq məhsulları anbarının olması oranın hələ o zaman böyük şəhər olduğunu göstərir. Belə anbar dövlət və ümumşəhər əhəmiyyəti daşıya bilərdi.


Qazıntı sahəsində aşkar edilən tikintilərin qədim tariximizi öyrənmək üçün misilsiz elmi əhəmiyyətini nəzərə alaraq onların konservasiyası vacibdir. Ancaq orada üst qatlarda olan mühüm tikinti qalıqlarını saxlamaqla imkan olan yerlərdə alt təbəqələridə qazılaraq üzə çıxarılan daha qədim tikintiləri də saxlamaq lazımdır. Bu abidələrin arxeoloji turizmin inkişafı üçün xüsusi əhəmiyyəti vardır.

IV qazıntı sahəsi. Şəhər yerində hələ 1983-cü ildə III sahədə qazıntıya başlayarkən, bu sahədən bir qədər şərqdə yerin relyefinə və bəzi digər əlamətlərə görə digər böyük binanın olduğu güman edilirdi. Bunu yoxlamaq üçün həmin vaxt orada kiçik yoxlama xəndəyi qazaraq doğrudan da böyük bina qalıqlarının olduğunu müəyyənləşdirmişdik. Bu bina 1-ci oval tikintiyə paralel olaraq ondan təxminən 60 m aralıdadır. Güman edirik ki, burada yerləşən binalar bir-biri ilə əlaqədardır, onların arasında olan sahə isə həmin binaların arasında yerləşən geniş həyətdir. Hələ o zaman yoxlama zamanı həyətə çınqıl döşənməsi müəyyən olmuşdur.

Antik şəhər yerində aparılan qazıntılar zamanı müəyyən olunmuşdur ki, 2 min il bundan əvvəl şəhərin küçə və meydanlarına yağıntılar zamanı palçıq olmaması üçün yaxınlığdakı çaydan çınqıl gətirib səpmişlər.

Güman edirik ki, qazıntı apardığımız III və IV qazıntı sahələri yerləşən ərazi antik Qəbələnin «Temenosu» (dini binaların yerləşdiyi müqəddəs ərazi) olmuşdur. Ona görə də hələ 2009-cu ildə bu sahədə də qazıntıya başlamışdıq. O zaman 500 m^2 sahədə qazıntı aparılaraq ən üst təbəqə götürülmüşdü. Lakin yerüstü əlamətlər göstərir ki, burada üst təbəqədə yerləşən binanın uzunluğu 80 m-ə yaxındır. 2011-ci ildə burada qazıntı sahəsi xeyli genişləndirilərək 1500 m^2 çatdırıldı. Ətraf əkin sahəsi olduğu üçün daha geniş sahədə qazıntı aparmaq mümkün deyildi.

Qazıntı zamanı ən üst təbəqədə antik dövrə aid maddi-mədəniyyət qalıqları tapılırdı. Bu tapıntılar müxtəlif saxsı qablara aid fraqmentlərdən, tikinti materiallarından və digər məişət qalıqlarından ibarətdir. Burada ən üst təbəqədə bir oval planlı tikintinin və digər binaların bəzi qalıqları aşkar olunmuşdur (şək. 4, plan). Burada da qazıntıların davam etdirilməsi nəzərdə tutulur.



Şəkil 1. 4-cü qazıntı sahəsinin planı.

Qazıntılar zamanı sahələrin bütün təbəqələrində oval və slindrik təsərrüfat quyularına, təkcə ərzaq anbarında deyil, ondan kənarda da müxtəlif yerlərdə aşağı hissələri torpağa basdırılan iri təsərrüfat küplərinin qalıqlarına, müxtəlif tip və ölçülü qara, açıq qırmızı rəngli gil qabların parçalarına və s. qalıqlara tez-tez rast gəlinmişdir. Bunların böyük əksəriyyəti e.ə. IV-b.e. I əsrlərinə aiddir (şək. 5, 6). Lakin ara bir daha qədim dövrlərə aid obsidian, çaxmaq daşı qəlpələrinə, onlardan hazırlanan alət hissələrinə rast gəlinir.

Antik şəhər yerində qazıntılar zamanı bizə 4 ədəd tunc bilərzik verdilər. Məlum oldu ki, bu bilərziklər antik şəhər yerinin cənubi-şərqində torpaq işləri zamanı dağılan torpaq qəbirlərindən götürülmüşdür. Orada bu qəbirlər ekskavatorla kərpic bişirmək üçün torpaq qazıyarkən dağıdılmışdır. Bilərziklərin üçünün ortası batıqdır. Belə bilərziklər Azərbaycanda bu vaxta qədər ellinizmin ilk dövrlərinə aid qəbirlərdə tapılmışdır. Gürcüstanda isə bu kimi bilərziklərdən eramızın əvvələrinə qədər istifadə etmişlər.

Bizə verilən bilərziklər tapılan yerdə qəbirlər bir-birindən çox aralı yerləşmişlər. Keçən əsrin 70-ci illərində də bu sahədə bir neçə qəbir qazılmışdır. O qəbirlər də bu yerdə yerləşən antik şəhərin mövcud olduğu dövrə aid olmuşdur. Lakin şəhərin əsas qəbiristanlığının yeri hələlik tapılmamışdır.




Şəkil 5. 1 - Ağzı əyməli və süzgəcli oynoxoyanın hissəsi; 2 – Gil üç ayaq vazaların ayaqları.

Qəbələnin antik şəhər yerində aşkar edilən tikinti qalıqlarının konservasiyası çox vacibdir. Qəbələ respublikamızın ərazisində yaranan ilk müstəqil Albaniya dövlətinin paytaxt şəhəri olmuşdur. Orada aşkar edilən abidələr hələ 2400 il bundan əvvəl Azərbaycanda yüksək şəhər mədəniyyətinin olduğunu göstərir. İndiyə kimi Azərbaycanın antik dövrə aid digər şəhər yerlərində bu möhtəşəmlikdə bina qalıqları, bu dərəcədə intensiv şəhər həyatını göstərən tikintilər aşkar edilməmişdir. Qazıntılar zamanı aşkar edilən digər tapıntılar da o dövrün paytaxt şəhərinin statausuna uyğundur. Ola bilsin həmin dövrə aid belə abidələr Azərbaycanın başqa yerlərində heç olmayıb.



Şəkil 6. 1 – Qara rəngli küpə hissəsi; 2 – Təkayaq vaza.



Şəkil 5. Tunc bilərziklər.

И.А.Бабаев, Э.А.Искендеров, Н.А.Алышов, Л.Х.Мустафаев, Р.Исмаилов

О ПОЛЕВЫХ ИССЛЕДОВАНИЯХ ОТРЯДА АНТИЧНОЙ ГАБАЛЫ ГАБАЛИНСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2011 г. Габалинская археологическая экспедиция, как и в предыдущие годы, вела полевые исследования при финансовой поддержке СЕБА (Сеул-Баку). Азербайджано-Корейской Ассоциации по культурному обмену.

В 2011 г. в экспедиции участвовала большая группа корейских археологов. При участии азербайджанского представителя они продолжали раскопки на позднеантичном раннесредневековом городище Сельбир.

Отряд по изучению античной Габалы продолжал раскопки и на раннеантичном городище.

Здесь в предыдущие годы были выявлены остатки 3-х больших, овальных в плане сооружений. Самое древнее из них датируется III в. до н.э., а самое позднее I в. до н.э. – I в. н.э. Фундаменты этих зданий сложены из булыжниками, а стены из сырцового кирпича. Общие размеры двух овальных сооружений были установлены в предыдущие годы. Овальное сооружение под номером 1 самое большое и датируется I в. до н.э. – I в.н.э. Его внутренняя длина 71 м, а ширина 19,5 м. По середине в продольном направлении имеются бульжниковые фундаменты колонн из булыжника, которые, вероятно, были обложены сырцовым кирпичом. На фасаде этого здания с восточной стороны обнаружены 2 дверных проема.

При дополнительной расчистке установлено, что это здание имело еще один запасной вход с западной стороны.

Внутри помещения по всему периметру стены имеется булыжниковая вымостка шириной 2,2 м., общей площадью 363 кв. м, предназначенная, вероятно для зрителей. 2-ое овальное сооружение несколько меньше по своим размерам. Его ширина внутри 8,1, длина – 38 м. Оно имело один дверной проем. Точные аналогии таких зданий античного периода нам не известны. Вероятно, эти здания были предназначены для проведения религиозных церемоний, зрелищных мероприятий и собраний общегородского или государственного значения.

На раскопе III в слое IV-III в. до н.э. была продолжена расчистка большого винного склада, где в больших хозяйственных кувшинах хранили вино и другие продукты. Пока склад полностью не исследован. В исследованной части выявлены остатки или углубления около 200 кувшинов.

При раскопках под первом овальном сооружении в слое III-II вв. до н.э. были выявлены остатки гончарных обжигательных печей.

Сохранились лишь полы топочных камер, которые покрыты слоем шлака. На полу одной печи сохранились черепки и целые экземпляры ваз черного цвета на одной ножке.

Недалеко от раскопа III расположен раскоп IV, где на площади 1500 кв. м. раскопан лишь верхний слой. Здесь также выявлениы остатки одного овального и других прямоугольных зданий, сооруженных полностью из сырцового кирпича, частично сохранившийся булыжниковых фундамент из булыжника стен других зданий.

Раскопки показывают, что здесь за все время существования города строительство велось очень интенсивно, на местах снесенных зданий строили новые.

При раскопках, кроме остатков различных зданий, выявлено много артефактов, подавляющее большинство которых представлено обломками различных глиняных сосудов.

I.A.Babayev, E.A.Iskendarov, N.A.Alyshov,
L.Kh.Mustafayev, R.Ismailov

ABOUT FIELD RESEARCHES OF UNIT OF ANCIENT GABALA GABALA ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

In 2011, the Gabala archaeological expedition, as in previous years, conducted field research with sponsorship of SEBA (Seoul-Baku) Azerbaijan-Korean Cultural Exchange Association. Institute of Archaeology and Ethnography pay only travel expenses of its scientific staff and a small amount of business expenses.

Since 2009, archaeologists of Republic of Korea are involved in excavations in Gabala. In 2011, a large group of Korean archeologists participated in the expedition. They and our representative continued excavations in the Late Early Medieval settlement Selbir.

The commander of expedition I.Babayev frequented their excavations. Squad for the study of ancient Gabala early Antique continued excavation on a mound that belongs to early Antique, III and IV centuries. Here in previous years revealed the remains of 3 large ovals in terms of facilities. The oldest of them dates back to III BC and the latest in I century BC-I century AD.

The foundations of the buildings stacked boulders and walls are made from brick. General values of the two oval structures were established in previous years. Oval structure at number 1, the largest and dates in I century BC-I century AD. Its internal length is 71m and width is 19.5 m. On the middle in the longitudinal direction there are cobblestone foundation pillars, which were probably built brick. On the facade of the building on the east side discovered two doorways.

This year, with additional excavations is established that the building had another back door to the west. Inside, the walls around the perimeter of a bouldering paving width of 2.2 m, a total area of 363 square meters. intended probably for the audience. Second oval structure is somewhat smaller in size. Its width is 8, 1 m, and the length is 38 meters. It has a single door. Exact analogues of such buildings of the ancient period are not known. In all likelihood, these buildings were intended for religious ceremonies, entertainment and meetings of city or state significance. At the excavation site III in the layer IV-III BC continued to clear large wine store. At this warehouse the wine and other food were stored in big jars.

This store is not fully excavated. It identified the remains of the approx. 200 pitchers. Excavations under the first oval in layer III-II centuries BC identified the remains of pottery kilns. Preserved only floors of combustion chamber, which are covered with slag. On the floor of one furnace crushed and whole specimens of vases in black on one leg remained. Not far from the excavation is excavation III there is excavation IV, where an area of 1500 square meters. Only the top layer is excavated. Here, as the identification of the remains of one other oval and rectangular buildings, constructed entirely from mud bricks, some partially preserved foundations of the bouldering walls of other buildings.

Excavations show that here since the inception of construction was very hard and on the site of the demolished buildings there were built new. Besides the remains during the excavation of various buildings there were revealed many household finds, most of which represented different fragments of pottery.

MEYDANTƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Naxçıvan MR, Babək rayonu)

Ə.H.Bədəlov, A.A.Əsədov

Antik Naxçıvan arxeoloji ekepedisiyası 2011-ci ildə Meydantəpə yaşayış yerinin şimal-qərb tərəfində arxeoloji qazıntı işlərini davam etdirdi. Əvvəlki illərin qazıntıları zamanı yaşayış yerinin bu hissəsində qala divarı və ondan kənarda yerləşmiş tikililər aşkar edilib öyrənilmişdi. Müəyyən edilimişdi ki, qala divarlarından kənarda aşkar edilmiş tikililər müxtəlif tikinti dövrlərinə aiddirlər. Qala divarına bitişik və o qədər də keyfiyyətlə işlənməmiş divarlar, qala divarı öz əhəmiyyətini itirdikdən bir müddət sonra işlənmiş müxtəlif təyinatlı tikililərin qalıqlarıdır. Lakin, sonrakı – orta əsrlərə aid divarlar artıq müstəqil tikililərdir və onların qala divarı ilə heç bir əlaqəsi yoxdur. Əksinə, bu tikililər dövründə qala divarları qismən dağıntıya məruz qalmışdır. Belə ki, onların tikintisində qala divarından sökülüb çıxarılmış daşlardan istifadə olunmuşdur.

Meydantəpə yaşayış yerinin mərkəzi hissəsindən Naxçıvan – Şahbuz avtomobil yolu keçir və yolun inşası zamanı bu hissədə mədəni təbəqələr materikə qədər dağıdılmışdır. Ona görə də qazıntı sahəsini, əvvəldə nəzərdə tutulduğu kimi yalnız yaşayış yerinin cənubuna tərəf genişləndirmək mümükndür. Bu sahə qala divarından içəridə yerləşir və aparılan arxeoloji tədqiqatlar qalanın daxilindəki tikililərin plan quruluşunu, tikinti texnikasını və memarlıq üslubunu müəyyənləşdirməyə imkan verir.



Qala divarından içəridə, hələ keçən il kiçik bir sahədə arxeoloji qazıntı işləri aparılmışdı. Tədqiqatlar zamanı müəyyən edilmişdi ki, tikinti kompleksinin qərb divarı başqa divarlardan daha enli və daha möhkəm işlənmişdir. Ölçülərinə və tikinti üslubuna görə müdafiə divarına oxşayır. Aşkar edilmiş divar tikinti kompleksinin qərb tərəfdə axırıncı divarıdır və ona görə də, ola bilsin ki, bu divarlar da müdafiə xarakteri daşımışdır.







Yaşayış yerində arxeoloji qazıntı işləri iki istiqamətdə davam etdirildi. Birinci, müdafiə divarının şimal – qərb küncündən başlayaraq 8 m eni və 20 m uzunluğu olan sahədə (10 kvadratda - hər kvadratın sahəsi 16 kv.m olmaqla) arxeoloji qazıntıları davam etdirdik. Qazıntıları 50 sm-lik yaruslarla aparırdıq. Əsas məqsəd müdafiə divarına şimal – cənub istiqamətində birləşən divarın cənuba tərəf davam edib-etmədiyini müəyyən etməkdən ibarət idi. İlk 50 sm götürüldükdən sonra divarın cənuba tərəf davam etdiyi məlum oldu. Divarın eni 60 sm-dir. Müxtəlif ölçülü çay daşlarından gil məhlulu ilə işlənmişdir. Divarın bəzi yerlərində qalın suvaq izləri aşkar edildi. Binaların tikinti texnikası, ilk dəmir və antik dövrlərə aid müdafiə tikililərinin enli divarlarının tikinti texnikasına uyğundur. Belə ki, divarın eşik və içəri üzlərindəki daşlar nisbətən səliqə ilə işlənmiş, aralarında qalan boşluq isə müxtəlif ölçülü daşlarla və gil məhlulu ilə doldurulmuşdur. Divarın bütünlüklə işlənməsinə səbəb ehtimal ki, tikinti materiallarının azlığı və işçi qüvvəsinin çatışmaması olmuşdur.

Meydantəpədə indiyə qədər aparılmış arxeoloji tədqiqat işləri nəticəsində aşkar edilmiş tikililərin və tapıntıların vəziyyəti, üst qatdakı tikililərin tələm-tələsik, əl altında olan materiallardan istifadə olunmaqla inşa edildiyini söyləməyə əsas verir. Bu tikintilərdə nə tikinti üçün çox əlverişli olan plitə daşlar, nə də antik dövrün xarakterik çiy kərpicləri aşkar olunmur. Tək-tək rast gəlinən dağ daşları da kanalcıqların və pəncərə yerlərinin üstünü örtmək üçün istifadə olunan iri həcmli dağ daşlarından ibarətdir.

Şimal-cənub istiqamətindəki yuxarıda təsvir etdiyimiz divarın qərb tərəfindəki sahə 1,5- 1,8 m dərinliyə qədər təmizləndi. Qazıntı zamanı təmizlənən təbəqənin hündürlüyündəki fərq təpənin şimala tərəf yamac olması ilə əlaqədardır. Burada 20 m uzunluğunda, 8 m enində olan sahədə divar qalığı aşkar edilmədi, lakin, torpağın içərisində tez-tez rast gəlinən çay daşları burada vaxtilə tikililərin olduğunu və sonradan dağıdıldığını göstərir. Kompleksin bu hissəsinin dağıdılmasına səbəb, ola bilər ki, burada salınmış yüksək gərginlikli elektrik xətti olmuşdur. Elektrik xətti salınarkən ətraf plantaj olunmuş, tikililər sökülərək daşlarından güllənin özülünün tikilməsində istifadə olunmuşdur.

Qazıntı zamanı əldə edilən tapıntılar, əsasən çəhrayı gilli keramika fraqmentlərindən ibarət idi. Tapıntılar içərisində məişətdə işlədilən daş alətlərə də rast gəlinirdi. Bu alətlərin əksəriyyəti yerli çay daşlarından hazırlanmışdır.

Qala divarından içəridə aparılan arxeoloji qazıntılar nəticəsində burada müxtəlif təyinatlı tikililərin olduğu müəyyənləşdirildi. Maraqlıdır ki, aşkar edilmiş tikililərin hamısı müdafiə divarına bitişik işlənmişdir. Çay daşları və gil məhlulu ilə işlənmiş bu divarların eni 60 sm-dir.

Qazıntı müdafiə divarından içəridə 1 m dərinliyə qədər aparıldı. Divarların uçulub tökülmüş daş-torpağı altından gil qab parçaları tapılırdı. Qazıntı zamanı müəyyən edildi ki, müdafiə divarı içəri tərəfdən nisbətən fərqli işlənmişdir. Belə ki, divar 75-80 sm dərinliyə qədər çay daşları, ondan aşağı hissədə isə möhrə ilə hörülmüşdür. Möhrənin içərisinə tək-tək yastı çay daşları düzülmüşdür. Qeyd edək ki, adətən əksinə olur, çay daşları ilə işlənmiş özülün üzərində möhrə divar ucaldılır. Ona görə ki, divarın möhrə hissəsi yerə yaxın olduqda rütubətin təsirindən daha tez korroziyaya uğrayır. Naxçıvan memarlığının ənənələrinə görə divarın daşla işlənmiş hissəsi yerdən ən azı 30-40 sm hündürlüyə qədər qaldırılır. Etnoqrafik müşahidələr göstərir ki, bu ənənə Naxçıvan kəndlərində indi də qorunub saxlanmışdır. Yuxarıda qeyd olunanları nəzər alaraq qala divarından içəridə işlənmiş tikililərin üzərinin örtüldüyünü ehtimal etmək olar. Çünki, üstü örtülmüş binalarda möhrə divarların korroziyaya uğrama ehtimalı olduqca azdır. Buradakı tikillilər kompleks şəkildə açılmadığı üçün aşkar edilmiş binaların təyinatını müəyyən etmək hələlik çətindir. Növbəti mövsümdə, bu sahədə qazıntı materikə qədər çatdırılacaqdır.

Qazıntı sahəsinin cənub-şərq tərəfində, müdafiə divarından içəridə eni 1,2 m olan divar qalığı aşkar edildi. Divar 70 sm hündürlüyündə salamat qalmışdır. Bu divar da yuxarıda təsvir etdiyimiz divar kimi çay daşları və gil məhlulu ilə işlənmişdir. Divarın istiqaməti müdafiə divarına perpendikulyardır və əsas hissəsi qazıntı sahəsindən kənarda qalmışdır. Bu divarın və bundan əvvəl aşkar etdiyimiz divarların gilindən saxsı qab parçaları tapılır. Müdafiə divarına bitişik işlənmiş bu divarda aşkar edilən əvvəlki dövrə aid saxsı qab qırıqları divarın sonradan işləndiyini sübut edir. Kompleksin bəzi yerlərində aşkar görünən bərpa izləri də Meydantəpə yaşayış yerinin dağıntıya məruz qalıb sonradan bərpa olunduğu fikrini təsdiq edir. Eyni zamanda aydın olur ki, bərpa zamanı kənardan tikinti materialları gətirilməmiş, əvvəlki tikililərdən uçulub tökülmüş materiallardan təkrar istifadə olunmuşdur. Abidənin şərq tərəfində arxeoloji qazıntılar zamanı əldə edilən tapıntılar əsasən gil qab qırıqlarından və daş alətlərdən ibarətdir. Keramika nümunələri içərisində təsərrüfat küplərinə aid fraqmentlər çoxluq təşkil edir. Maraqlıdır ki, metal əşyalara çox nadir hallarda rast gəlinir. Əldə edilən osteoloji tapıntılar isə xırda və iribuynuzlu heyvan sümüklərindən ibarətdir.







Meydantəpə yaşayış yerində 2011-ci ildə aparılmış arxeoloji qazıntılar nəticəsində müəyyən yeni faktlar əldə edildi. Müəyyən edildi ki, əvvəlki illərdə tədqiq olunmuş, kontrforslu müdafiə divarına, qərb tərəfdə, cənub-şərq istiqamətində işlənmiş eyni tipli bir divar birləşir. Bu divardan qərb tərəfdə tikililər aşkar edilmədi. Müdafiə divarından yaşayış yerinə tərəf olan divarlar ensiz olub (60 sm) ona bitişik işlənmişdir və tikinti texnikasına görə də nisbətən fərqlənirlər. Qazıntı sahəsinin cənub-şərq tərəfində eni 1,2 m olan daha bir divar aşkar edildi. Bu divar cənuba tərəf qazıntı sahəsindən kənarda da davam edir. Ehtimal ki, müdafiə divarına şərq və qərb tərəfdən ona perpendikulyar olaraq işlənmiş divarların cənub tərəflərini birləşdirən daha bir enli divar olmalıdır. Aşkar edilmiş divar qalıqlarının yaşayış evi kompleksinə aid oldüğünü ehtimal etmək çətindir. Çox güman ki, bu hansısa bir inzibati binanın qalıqlarıdır.

Arxeoloji qazıntılar zamanı Meydantəpənin qədim əhalisinin təsərrüfat həyatını, sənətkarlığını və məişətini xarakterizə edən çoxlu maddi-mədəniyyət nümunələri aşkar edilmişdir. Tapıntılar, əsasən tikinti qalıqlarından, müxtəlif saxsı məmulatından, osteoloji qalıqlardan, daşdan hazırlanmış əmək alətlərindən və müxtəlif materiallardan hazırlanmış bəzək əşyalarından ibarətdir.

Osteoloji qalıqlar, əsasən ev hayvanlarına məxsus onurğa, qabırğa və ətraf sümüklərindən ibarətdir.

Saxsı qablar içərisində orijinal formalı və yüksək keyfiyyətlə hazırlanmış kasa, bardaq, küpə, bokal və s. qablar da vardır. Keramika məmulatı içərisində, xaricdən gətirilmə qırmızı və çəhrayı gilli, bəzilərinin üzərində boya ilə naxışları olan nümunələrə də rast gəlinir.

Arxeoloji tədqiqatlar göstərir ki, Meydantəpə yaşayış yeri dəfələrlə dağıntıya məruz qalmış, lakin bir müddət sonra yenidən bərpa olunmuşdur.

А.Г.Бадалов, А.А.Асадов

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ НА ПОСЕЛЕНИИ МЕЙДАНТЕПЕ

РЕЗЮМЕ

В 2011 году археологические раскопки проводились на северо-восточной части поселения Мейдантепе. Здесь обнаружены помещения, пристроенные к северной оборонительной стене. Стены сложены из речного камня на глиняном растворе, и относятся ко второму строительному периоду. В некоторых местах под этими стенами обнаружены остатки построек более раннего периода.

Привлекает внимание тот факт, что во все периоды существования поселения Мейдантепе, при строительстве оборонительной стены и жилых построек использовали только речной камень, при наличии плиточных камней горных пород.

При раскопках найдены, в основном, фрагменты керамических изделий.

A.H.Badalov, A.A.Asadov

ARCHEOLOGICAL RESEARCH ON SETTLEMENTS MEYDANTEPE

SUMMARY

In 2001, there were carried out archaeological in the north-eastern part of the settlement Meydantepe. Here are found the room, attached to the northern defensive wall. The walls are made of river stones on a clay solution. These walls belong to the second building period. In some places, remains of early period buildings are found under these walls. The fact that attracts attention is that in all periods of the Meydantepe settlements, in the construction of defensive walls and houses there were used only river stones, but, there were present tile stone rocks. Mainly, there were found fragments of pottery.

QALATƏPƏ ANTİK ALBAN ŞƏHƏR MƏSKƏNİ VƏ NEKROPOLUNDA TƏDQİQATLAR
(Ağcabədi rayonu)

T.R.Əliyev, F.İ.Babayev, T.T.Hüseynova,
G.İ.Əliyeva, V.B.Abbasov, V.T.Əliyev



Şəkil 1. Qalatəpənin şimal-qərbdən görünüşü.


Mil-Qarabağ arxeoloji ekspedisiyasının II dəstəsi 22 saylı vəkalətnamə əsasında 2011-ci ilin iyul – avqust aylarında Ağcabədi rayonunun Salmanbəyli kəndi yaxınlığındakı Qalatəpə adlı antik və orta əsr şəhər yerində tədqiqat işlərini davam etdirmişdir.

Qalatəpənin yerləşdiyi Mil-Qarabağ düzənliyi bəhs olunan dövrdə qədim Azərbaycan dövləti - Qafqaz Albaniyasının Uti və Paytakaran vilayətlərinin tərkibinə daxil idi. Antik müəlliflərdən Strabon burada Ayniana və Anariaka adlı iki şəhərin adını çəkir. Orta əsr müəllifləri isə (İbn Hövqəl, əl-İstəxri, Yaqut əl-Həməvi və b.) Beyləqan və Bərdə şəhərlərinin arasında "Yunan" adlı yerin olduğunu qeyd edirlər. Qalatəpədə 2008-ci ildən başlanan tədqiqatlar bu abidənin Ayniana və ya Yunan adlı şəhərin qalıqları olmasını söyləməyə əsas verir. Qafqaz Albaniyasının ictimai-siyasi həyatını, mədəni-iqtisadi əlaqələrini, bütövlükdə Azərbaycan arxeologiyasında antik şəhər problemini araşdırmaq baxımından Qalatəpənin tədqiqi mühüm əhəmiyyət kəsb edir.

2011-ci ildə Ağcabədi rayonundakı tədqiqatlar üç istiqamətdə aparılmışdır: 1. Qalatəpə şəhər məskəninin antik dövr təbəqəsində arxeoloji qazıntılar; 2. Antik nekropolda tədqiqatlar; 3. Rayon ərazisində kəşfiyyat işləri.

Cari ildə Qalatəpə şəhər yerində aparılan qazıntı işlərinin ilkin mərhələsində müəyyən edilmişdir ki, hələ əvvəlki illərdə I və II kvadratlarda açılan və "böyük otaq" adlandırdığımız tikilinin bünövrəsi abidənin 6,5 m dərinlikdə yerləşən mədəni təbəqəsində qoyulmuşdur. Otaqda təmizləmə işləri zamanı çay daşından iki ədəd sürtkəc tipli alət, boya naxışlı saxsı qab nümunələri və s. aşkar edilmişdir. Artıq 56 kv.m sahəsi olan həmin otağın ümumi görünüşü və inşa olunma xüsusiyyətləri haqqında danışmaq mümkündür. Bu tikilidə istifadə olunmuş çiy kərpiclərin ölçüləri çox böyük olub bir sıra hallarda hətta 55-58 x 46-47 x 16-19 sm-ə çatır. Kərpiclər bir-birinə palçıq məhlulla bənd olunmuşdur. Narın gildən keyfiyyətli şəkildə hazırlanmış kərpiclərin tərkibində saman qarışığı, demək olar ki, yoxdur. Maraqlıdır ki, bəzi kərpiclərin içində sümük, saxsı, hətta obsidian qəlpələrinə rast gəlinir. Otağın yan divarlarında iki səviyyədə hər 10-12 kərpic cərgəsindən bir divarboyu hörgü arasına üfüqi şəkildə düzülmüş ağac tirlərin

qalıqları diqqəti çəkir. Bunlar, eləcə də şimal-qərb divarda açılan iki oyuq (ağac tirləri keçirmək üçün) və döşəmədəki dirək yerləri antik dövrdə Qalatəpə şəhər məskənində iki, hətta üç təbəqəli tikililərin olduğunu göstərir. Digər tərəfdən, tir və dirək izləri divar və ya tikili önündə qızmar günəş şüalarından qorunmaq məqsədilə inşa edilən portikin – talvarın olması anlamını da verə bilər. Lakin bir məqam bu fiki inkar etməyə əsas verir: qazıntı aparılan sahə yaşayış məskəninin qərb – günbatan tərəfindədir və bura günəş şüaları zəifləydiyi saatlarda düşür.



Şəkil 2. Qalatəpə. CORONA - 24 may 1970.



Şəkil 3. "Böyük otağ"ın cənub divarının görünüşü.



Şəkil 4. Daş sütun altlığı və kəsikdə yanıq izləri (dərinlik 8 m).

Qalatəpə akropolundakı tikililərin bir hissəsi birbaşa qala divarlarına söykənmişdir. Başqa söslə, akropolu əhatəyə alan qala divarlarının ikinci – iç qatı həm də qala divarı boyunca uzanan tikililərin (ehtimal ki, ictimai, müdafiə sistemi ilə bağlı binaların) yan divarlarından birini təşkil etmişdir. Açılan otağın divarlarının hündürlüyü (5,8 m) və eni (1,5 m) artıq bəlli olduğundan bu tikilinin inşasında istifadə edilmiş çiy kərpiclərin ümumi sayını da təxmini hesablamaq mümkündür. Məsələn, cənub-qərb divarda hər bir cərgədə yan-yana üfüqi şəkildə 12, şaquli şəkildə üst-üstə 32 cərgə kərpic düzülmüşdür. Divarların eni isə üç sıra yan-yana kərpic düzümündən ibarətdir. Deməli, 12 x 32 x 3 = 1152 (kərpic). Bu rəqəmi isə dördə (divarların sayına) vurduqda "böyük otağın" divarlarının hörgüsündə 4600-dən artıq kərpicin işlədildiyini görmək olar. Qeyd edək ki, həmin otağın şimal-şərq hissəsindəki 3 x 4 m ölçülü kontrfosun ("gözətçi məntəqəsinin"?) inşasında 600-ə yaxın, cənub-qərb divara bitişik dalanın yan divarlarının tikintisində isə 1500-dən çox çiy kərpicdən istifadə edilmişlir. Burada hazırkı vəziyyətdə bizi təəccübləndirən bir məqamı da vurğulamağı lazım bilirik: haqqında danışılan və qazıntı prosesində yan divarları tam açılan otağın qapısı yoxdur. Otağa giriş-çıxışın döşəmədə - divar altından olması haqqında ehtimalın doğru olub-olmamasını isə gələcəkdə aparılacaq qazıntı işləri göstərəcəkdir.

Cari ildə Qalatəpədə mədəni təbəqənin xarakterini müəyyən etmək məqsədilə bəhs etdiyimiz otağın yalnız I və II kvadratlara daxil olan qərb hissəsində 3 x 4 m sahədə qazıntını davam etdirdik. Bu qatda dirək yerləri, bir ədəd bıçaq tiyəsi, çəhrayı rəngli saxsı qab qırığı və c. aşkar olundu. 6,6 m dərinlikdə 1,5-2,0 sm qalınlığında olan və kəsikdə - qazıntı sahəsinin yan divarları boyunca izlənilən yanıq və kül qatına rast gəlindi. Bu qatdan 0,4 m altda (dərinlik 7 m) qalınlığı 2,5-3 sm olan və kəsikdə aydın görünən daha güclü yanğın izi diqqəti çəkir.

7,1–7,7 m dərinlikdə mədəni təbəqədən seyrək halda kömür parçalarına, daş əmək alətlərinə və saxsı fraqmentlərinə təsadüf olunmuşdur. Onlardan biri qara cilalı qaba məxsusdur. Çəhrayı rəngli başqa bir fraqmentin üzərində isə qırmızı boya ilə ərəb qrafikasına bənzər naxışlar çəkilmişdir.

2011-ci ildə Qalatəpədə aparılan tədqiqatlar zamanı ən çox maraq doğuran tapıntı qazıntı sahəsinin şimal-qərb küncündə 7,8 m dərinlikdə aşkarlanan, əhəngdaşından səliqəli və simmetrik hazırlanmış, güclü odun - yanğının təsirinə məruz qalmış sütunaltlığı oldu. Onun hamar, düz səthində çox güman ki, uzun müddət tonqal yandırılmışdır. Bu sütunaltlığı Albaniyanın ağac sütun qoymaq üçün ortası oyulmuş son antik dövr daş sütunaltlıqlarından (məsələn, Qəbələdə Çaqqallı sahəsindən tapılan) fərqlənir. Qalatəpədən açılan sütunaltlığı bütöv

əhəngdaşından yonulmuş və iki komponentdən ibarətdir: yuxar hissəsində üç pillə olan düzbucaqlı postament və onun üzərində səliqə ilə yonulmuş yastı dairəvi altlıq (balış). Postamentin yuxarı tilinin uzunluğu 75, orta tilinin uzunluğu 78, alt tilinin uzunluğu isə 83 sm-dir. Formaca bu sütunaltlığı Bərdənin antiq təbəqəsindən və Qaracəmirlidə Qurbantəpədən tapılan altlıqlara yaxındır. Qalatəpədə sütunaltlığının ətrafındakı sahə təmizlənərkən gildən suvaq çəkilmiş döşəmənin bir hissəsi aşkar edilmişdir. Mərkəzində sütunaltlığı olan bu döşəmə daimi ocaq yeri kimi istifadə olunduğundan keramik rəng almışdır. Güman etmək olar ki, məşəl yeri kimi əsasən sütunaltlığının üstündən istifadə olunmuşdur. Onun ətrafı, demər olar ki, təmiz idi, burada hər hansı maddi qalıq yox idi. Kül isə şimal-şərq küncdəki oyuqda toplanmışdır. Sütunaltlığından 2 m şimal-şərqdə açılan ocaq yerlərinin kənarlarına iri, kələ-kötür, yanıqdan qızararaq bişmiş kərpicə çevrilən gil parçaları düzülmüşdür. Burada diametri 25-30 sm-ə çatan iri ağac gövdələrinin yanmış qalıqlarına rast gəlinir. Döşəmənin bəzi hissələrində də iri kömür qalıqları müşahidə olunur. Ocaq yerindən götürülən kömür nümünələrindən bir qismi analiz üçün Berlinə göndərilmişdir. Qeyd edək ki, sütunaltlığından 1,1 m şimal-şərqdə çiy kərpic və möhrə izləri, o cümlədən diametri 20 sm-ə yaxın olan ağac dirəyin yeri diqqəti cəlb etmişdir.



Şəkil 5. Dəmir nizə ucu.



Şəkil 6. 9 saylı küp qəbir.

İlkin qənaətimizə görə, təsvirini verdiyimiz bu memarlıq kompleksi qədim atəşpərəst məbədinin bir hissəsidir. Mərkəzi Asiyada və Cənubi Qafqazın digər yerlərində aşkar edilmiş oxşar daş sütunaltlıqlarına e.ə. IV-III əsrlərdən başlayaraq təsadüf edilir. Əminik ki, gələcəkdə bu kompleksin tam açılaraq tədqiq edilməsi Azərbaycan tarixinin öyrənilməsinə mühüm töhfə verəcəkdir.

Cari tədqiqat mövsümündə Qalatəpədə qazıntı sahəsinin 6,4 – 8,1 m dərinlikdə yerləşən mədəni təbəqəsindən xeyli maddi-mədəniyyət nümunəsi də toplanmışdır. Onların arasında cəmi bir neçə daş məmulatı və metal əşya vardır. Sonuncuya II kvadratda 6,8 m dərinlikdən aşkar edilən dəmir bıçağın pas qatı ilə örtülmüş tiyəsi aiddir. Onun uzunluğu 7,6 sm, dəstəyə yaxın yerdə eni 1,7 sm-dir.

Qazıntı zamanı əldə olunan keramika nümunələrinin hamısı fraqment halındadır. Küp, küpə və bardaq tipli qablara məxsus bu nümunələri ağız, qulp, gövdə və oturacaq hissələrdən ibarət olmaqla dörd qrupa ayırmaq olar. Bardaq tipli qabların qırıqlarına daha çox rast gəlinir. Onların qulpları bir qayda olaraq ya lentvari, ya da çubuqvari şəkildədir. Bəzilərinin üzərində qırmızı boya ilə çəkilmiş naxışlar var. Qalatəpə nekropolunun küp qəbirlərindən oxşar ornamentli qablara tez-tez təsadüf olunur.

Əvvəlki illərdə olduğu kimi, bu il də Qalatəpədə qazıntılarla yanaşı, 26 ha-dan artıq sahəni əhatə edən şəhər məskəninin ərazisinə baxış zamanı diqqəti çəkən bir çox nümunələr toplanmışdır. Bu tapıntıların əksəriyyəti (qazan tipli qabların ağız hissəsi, gil qapaq, şirli boşqab qırıqları və s.) yaşayış yerinin orta əsr təbəqəsinə məxsusdur.


2011-ci ildə Qalatəpə yaxınlığındakı antik nekropolda da qısamüddətli qazıntı işləri davam etdirilmiş, nəticədə daha üç küp qəbir (9-11 saylı) açılmışdır. Küp qəbirlərin üstündəki torpaq qatı götürülərkən 0,3–0,4 m dərinlikdən sistemsiz səpələnmiş halda artefaktlara rast gəlinmişdir. Bunlar üzərində dişək izləri olan obsidian qəlpələrindən, müxtəlif tipli saxsı qab qırıqlarından və dəmir silahlardan ibarətdir. Keramika nümunələrindən birinin üzəri tərkibində bitki qalığı olan gillə kobud şəkildə suvanmışdır. O, 1,8 sm qalınlığındadır, iri qum qarışığı olan gildən hazırlanmış, içərisi çəhrayı rəngdədir. Saxsı qab ağızına məxsus başqa bir fraqment isə

eneolit dövrünün keramikasını xatırladır. O, düz ağızlı, səthi çəhrayı, içərisi isə yaxşı şüyrələnmiş və açıq boz rəngdədir. Qum qarışıqlı gildən hazırlanmış saxsının kəsiyində qara rəngdə qat görünür. Nekropol sahəsindən dəmir qılınc və xəncər parçaları ilə yanaşı, demək olar ki, bütöv halda qalmış bir ədəd dəmir nizə ucu da tapılmışdır. 0,4 m dərinlikdə və üfüqi vəziyyətdə rast gəlinən bu dəmir nizə ucunun uzunluğu 22 sm-dir.


Nekropolda əvvəlki illərin qazıntı sahəsi təmizlənərkən hələ 2010-cu ildə açılmış 8 saylı küp qəbirin yerində daha dərin qatda qalmış iki saxsı qab aşkar olunmuşdur. Onlardan biri üzəri boya naxışlı bardaq tipli təkqulp qabdır. Çəhrayı rəngdə olan bu qab narın gildən hazırlanmış və pis bişirilmişdir. Buna görə də onu fraqment halında toplamaq mümkün olmuşdur. Digər möhkəm divarlı qoşaqulp qab isə qırıq halda götürülsə də Azərbaycan-Almaniya Beynəlxalq ekspedisiyasının üzvü, keramika üzrə mütəxəssis Yoşida Maruççi tərəfindən tam bərpa edilmişdir. Üzərinə qırmızı boya ilə zəngin naxışlar çəkilmiş bu qabın hündürlüyü 44 sm-dir. Onun enli lentvari qulplarının üzəri nərdivanşəkilli ornamentlə bəzədilib.

2011-ci ildə açılan 9 saylı küp qəbirə nekropoldakı qazıntı sahəsinin şimal şərq küncündə rast gəlinmişdir. Küp təsərrüfat işləri və üzərində bitmiş yulğunun dərinə uzanan köklərinin ucbatından xeyli deformasiyaya uğramışdır. Dəfn küpü üfüqi vəziyyətdə ağız hissəsi şimala tərəf olmaqla qoyulmuşdur. Onun qarşısına iki, oturacağa yaxın hissəsinə isə bir ədəd saxsı qab düzülmüşdür. Diametri 47 sm olan ağız hissə 5 sm geriyə qatlanmış və kənarları kəndirvari naxışlanmışdır. Küpün hündürlüyü 1,35 m-dir. Ölçülərinə görə bu dəfn küpü dağıdılmış 5 saylı, eləcə də ötən il açılmış 7 saylı dəfn küpləri ilə tam eynidir.

9 saylə küp qəbirin içərisinə dolan torpaq təmizlənərkən bir ədəd dəmir qarmağa və dəmir xəncərin qalıqlarına təsadüf edilmişdir. Küpün içərisinə uzanan yulğun kökləri isə skeletin vəziyyətini dəyişdiyindən onun istiqamətlərini müəyyən etmək mümkün olmamışdır.



Şəkil 7. Qalatəpə nekropolunun boyanaxışlı qabları.




Şəkil 8. Dolçalar.



Şəkil 9. Dəmir əşyalar.



Şəkil 10. Tuncdan bəzək əşyaları (10 saylı küp qəbir).



Cari ildə açdığımız 10 saylı küp qəbir də ölçülərinə görə yuxarıda təsvir olunan küpə yaxındır. İri gövdəli bu dəfn küpünə üfüqi vəziyyətdə ağız hissəsi cənub-şərqə olmaqla rast gəlinmişdir. İçərisi torpaqla dolmuş küpün aşağı hissəsi qazıntı aparılan yerin səthindən 1,7 m dərinlikdə yerləşirdi. Mərhum sağ böyrü üstə bükülü vəziyyətdə, kəlləsi küpün oturacağına (şimal-qərb istiqamətində) tərəf qoyulmaqla dəfn olunmuşdur. Küpün ağız hissəsinə yaxın yerdə boya naxışlı gözəl bir küpə qoyulmuşdur. Dəfn küpünün oturacağının ətrafında isə iki ədəd iri saxsı qaba və bu qablardan birinin içərisinə qoyulmuş kiçik tayqulp dolçaya təsadüf edilmişdir. Küpün içərisində - mərhumun əl və diz sümükləri üzərində dəmir xəncərə və bıçağa aid qrıntılar, tunc zınqrovlar, sikkəni xatırladan bir ədəd tunc lövhəcik (hələlik təmizlənməyib), dəmirdən toqqa elementləri – halqa, toqqa başı və s., dəridən (?) düymələr, müxtəlif daşlardan hazırlanmış muncuq-lar və keramika nümunələri əldə edilmişdir. Ümu-miyyətlə bəhs olunan küp qəbir dəmir və tunc əşyalardan ibarət metal məmulatının zənginliyinə görə diqqəti cəlb etmişdir.

Qalatəpə nekropolunda açılan 11 saylı küp qəbirin üst hissəsi ərazidə aparılan təsərrüfat işləri zamanı dağıdılmışdır. Dəfn küpünün ağızına yaxın iki qab qoyulmuşdur. Onlardan biri çəhrayı rəngli, boya naxışlı bardaqdır. Ağız hissənin yaxınlığında qoyulan başqa bir küpə xüsusi zövqlə hazırlanmışdır. O, açıq çəhrayı rəngdədir. Çox nəfis şəkildə düzəldilib. Ağız və çiyin hissəsinə qırmızı boya ilə gözəl naxışlar vurulub. Mərhum küpün

içərisində sağ böyrü üstə bükülü vəziyyətdə, sağ əli çiyninin və başının altında, sol əli isə qarşıya uzadılmış halda, üzü cənub-qərbə doğru olmaqla dəfn olunmuşdur. Sümük və dişlərinə görə onun iri gövdəli şəxs olduğunu, 35-40 yaşlarında vəfat etdiyini ehtimal etmək olar. Skeletin yanından – bel nahiyyəsindən bir ədəd dəmir ox ucu aşkar edilmişdi. Bu isə mərhumun ox yarasından həlak olduğunu güman etməyə əsas verir.

Mil-Qarabağ ekspedisiyasının II dəstəsi Qalatəpə şəhər yerində və nekropolunda qazıntı işləri ilə yanaşı, Ağcabədi rayonu ərazisində arxeoloji kəşfiyyat işləri də aparmış, ayrı-ayrı tarixi dövrlərə aid bir sıra abidələr haqqında yeni materiallar toplamış, GPS vasitəsi ilə onların kordinatlarını dəqiqləşdirmişdir. Rayonun arxeoloji xəritəsinin tərtibi istiqamətində görülən bu işlər ərazinin maddi-mədəniyyət abidələri ilə zənginliyini bir daha ortaya çıxarmışdır. Muğanlı, Köyük, Hüsülü, Rəncbərlər və Hindarx kəndlərinin ətraflarında müxtəlif dövrlərə aid abidələr arasında tunc və erkən dəmir dövrünə aid kurqanlar (Qoşatəpə, Qazantəpə, Görüştəpə, Qasımtəpə, Adsız kurqanlar və s.) çoxdur. Axtarışlar zamanı Ağdam rayonu ilə həmsərhəd olan Boyat kəndi ətrafında tunc, antik və orta əsrlərə aid yerüstü materialı ilə zəngin üç yaruslu möhtəşəm Solaxaytəpə haqqında, onunla üzbə-üzdə yerləşən eneolit dönəminə aid Qoşatəpə haqqında, tunc, dəmir, antik və orta əsr materiallarının səpələndiyi, vaxtilə dağıdılaraq əkin yerlərinə çevrilmiş, əvvəlki görkəmindən bir əsər-əlamət qalmasa da əzəli adını saxlamış Boyatqala haqqında ətraflı məlumat toplanmışdır. Boyat kəndindən cənubda, Ağdama gedən yolun sol kənarındakı Qonşu və ya Qışalıtəpənin (“Balacatəpə” adlandıranlar da var), hazırda kənd qəbiristanlığı kimi istifadə olunan ətrafı hasarlı Qəbiristanlıqtəpənin yerüstü materialları bu abidələrin neolit-eneolit dövrlərinə aid olduqlarını göstərir. Ağcabədi rayonunun Hacılar kəndi ətrafında da bu dövrə aid bir neçə abidə vardır. Keşalıtəpə, Cəfərqulutəpə, Əhənglitəpə (və yaxud Sarıtorpaqtəpə), Xanlıqtəpə belə abidələrdəndir. Boyat və Hacılar kəndlərinin arasındakı abidələr sırasında Xanlıqtəpə xüsusi yer tutur. Hacılar kəndindən 1 km şərqdə, Qaraxanlı kəndinə gedən yolun sağında yerləşən bu abidənin hündürlüyü 6-7 m-dir. Dəniz səviyyəsindən hündürlüyü isə 159,5 m-dir. Yaxınlığında artezan quyusu var. Abidə 713 saylı inventar nömrəsi altında ölkə əhəmiyyətli eneolit və tunc dövrünə aid arxeoloji abidə kimi qeydiyyatdadır.

Xanlıqtəpənin üstü və ətrafında, xüsusilə onun torpaq işləri nəticəsində dağıdılmış qərb hissəsində eneolit dövrünə aid obsidian və çay daşından əmək alətləri, saxsı nümunələri səpələnmiş vəziyyətdədir. Çay daşından olan alətlərdən biri daş dövrünün klassik çopperlərin xatırladır.



Şəkil 11. Solaxaytəpə. Ağcabədi rayonu, Boyat kəndi.



Şəkil 12. Daş məmulatı (Xanlıqtəpə).



Şəkil 13. Xanlıqtəpənin keramika nümunələri.

Çöl tədqiqatlarının sonuna yaxın ekspedisiya üzvləri Füzuli rayonu ərazisindəki Babı türbəsini də nəzərdən keçirmişlər. Biz orada olarkən X. Almənmədovun rəhbərliyi ilə 2011-ci ildə abidədə aparılan tədqiqatlar artıq başa çatmışdı. Bu mükəmməl orta əsr memarlıq kompleksində tədqiqatların davam etdirilməsi və paralel olaraq konservasiya-bərpa işlərinin aparılması zəruridir. Babı türbə kompleksi turizm məqsədli obyekt kimi də böyük əhəmiyyət kəsb edir.

Beləliklə, Mil-Qarabağ arxeoloji ekspedisiyasının II dəstəsi 2011-ci ildə apardığı tədqiqatlar zamanı aşağıdakı nəticələri əldə etmişdir:

1. Qalatəpənin antik dövr təbəqəsində açılan möhtəşəm tikililərin özülü üzə çıxarılmış, buradakı ictimai binanın divarlarının 5,8 m hündürlüyündə olduğu müəyyənləşdirilmişdir. Divarların bünövrəsindən altda antik dövrün daha erkən çağlarına (e.ə. I minilliyin sonlarına) aid yeni mədəni təbəqə aşkar olunmuşdur. Bu təbəqə qalın kül qatı, ocaq yerləri və yanıq izləri ilə müşayiət olunur;

2. Qazıntı sahəsinin II kvadratında 7,8 m dərinlikdə ətrafındakı tikililərlə birlikdə aşkar olunan daş sütunaltlığı antik məbəd qalığı kimi cari tədqiqat ilində böyük və əhəmiyyətli tapıntı, yenilik olmuşdur;

3. Küp qəbirləri nekropolunda daha üç qəbir açılmış və tədqiq olunmuşdur. Bu qəbirlər və onların avadanlığı qədim Azərbaycan əhalisinin – alban tayfalarının dəfn adətlərini, gündəlik həyat tərzini, məişət və təsərrüfat həyatını, bədii zövqünü, mədəni-iqtisadi əlaqələrini öyrənməyə imkan verir;

4. Mil-Qarabağ düzündə aparılan arxeoloji qazıntı və kəşfiyyat işləri ərazinin neolit-eneolit, tunc və erkən dəmir, antik və orta əsrlərə aid abidələrlə zənginliyini, bölgədə yaşayan qədim Azərbaycan əhalisinin etnik-mədəni tarixində ənənə və varisliyi bir daha təsdiq edir.

Т.Р.Алиев, Ф.И.Бабаев, Т.Т.Гусейнова, Г.И.Алиева, В.Б.Аббасов, В.Т.Алиев

ИССЛЕДОВАНИЯ В АНТИЧНОМ АЛБАНСКОМ ГОРОДИЩЕ И НЕКРОПОЛЕ ГАЛАТЕПЕ

РЕЗЮМЕ

II отряд Миль-Гарабахской экспедиции в 2011 г. продолжил исследования на территории Агджабединского района в городище Галатепе.

Миль-Гарабахская равнина, где расположено Галатепе, в античность и раннее средневековье входила в состав областей древнего азербайджанского государства Кавказской Албании - Ути и Пайтакаран. Страбон сообщает о городах Айниана и Анариака в области Ути. Средневековые авторы (Ибн Хаукаль, аль-Истахри, Ягут аль-Хамави и др.) сообщают о местечке «Юнан» между Бейляганом и Бардой. Исследования, начатые в 2008 г. в Галатепе, дают основание считать этот памятник остатками древнего города Айниана или Юнан. Для изучения общественно-политической жизни, культурных и экономических связей Кавказской Албании и, в целом, проблемы античных городов в археологии Азербайджана, исследование Галатепе имеет весьма важное значение.

В результате раскопок в 2011 г. было выявлено основание грандиозного строения, открытого в античном слое Галатепе. Определилась высота стен общественного здания – «большой комнаты» в 5,8 м. Под основаниями стен был обнаружен новый культурный слой, относящийся к более раннему периоду античности (конец I тысячелетия до н.э.). Этот слой насыщен толстым слоем пепла, следами очагов и пожара.

Большой интерес представляет обнаруженная во II квадрате раскопок на глубине 8 метров, известковая база колонны. Ее поверхность долгое время использовалась как место для очага. Пол вокруг базы колонны был обмазан глиняным раствором, который под воздействием сильного огня получил керамические оттенки. Данный комплекс, вероятно, является частью храма огня.

В текущем году в некрополе кувшинных погребений были открыты и изучены еще три могилы (№ 9-11). Эти могилы и их инвентарь позволяют изучить традиции захоронения древних албанских племен, их образ жизни, быт, эстетический вкус и культурно-экономические связи.

Раскопки и разведочные работы, проведенные в Миль-Карабахской степи еще раз подтверждают насыщенность данной территории памятниками периода от неолита по средневековье, а также соответствующую преемственность в этническо-культурной истории населения древнего Азербайджана.

T.R.Aliyev, F.I.Babayev, T.T.Huseynova, G.I.Aliyeva, V.B.Abbasov, V.T.Aliyev

RESEARCHES AT ANCIENT ALBANIAN CITY AND NECROPOLIS GALATEPE

SUMMARY

In 2011 the brigade II of the Mil-Karabakh expedition continued researches in Galatepe.

Miles-Karabakh plain, where Galatepe is situated, in antiquity and the early Middle Ages was a part of the old Azerbaijani state of Caucasian Albania - Ooty and Paytakaran. Strabo reports about the cities Ayniana and Anariaka in Ooty. Medieval authors (Ibn Haukal, al-Istakhry, Yagut al-Hamavy, etc.) report place "Yunan" between Beylakan and Barda. Researches started in 2008 at Galatepe give reason to consider this monument the remains of the ancient city Ayniana or Yunan. To study the socio-political life, cultural and economic relations of Caucasian Albania and the whole problem of the ancient cities in the archaeology of Azerbaijan, research of Galatepe is very important.

During the excavations in 2011, there was revealed a base of the immense structure discovered in the ancient layer of Galatepe. Was determine the height of the walls of public buildings - the "big room" at 5.8 m. There was found a new cultural layer below the base of the walls, referring to an earlier period of antiquity (the end I millennium BC). This layer is saturated with a thick layer of ash, traces of furnace and fire.

The great interest presented found in the square II of excavation on depth of 8 meters the limy base of a column. Its surface has long been used as a place for furnace. The floor round base of a column was covered with clay mortar which under the influence of strong fire received ceramic shades. This complex, possibly, is a part of the temple of fire.

This year, in the necropolis of jug burials were discovered and studied three graves (№ 9-11). These graves and their inventory enable to study the ancient burial traditions of Albanian tribes and their way of life, aesthetic taste and cultural - economic relations.

Excavation and exploration work carried out in the Mil-Karabakh steppe once again confirm the richness of the area with monuments from the Neolithic period to the Middle Ages, as well as appropriate continuity in ethnic and cultural history of the population of ancient Azerbaijan.

V SANDIQTƏPƏ ABİDƏSİNDƏ TƏDQİQATLAR
(Quba rayonu)

M.C.Xəlilov



Şəkil 1. V Sanıqtəpə.

Cari mövsümdə stasionar arxeoloji qazıntı işləri Sandıqtəpə abidələr kompleksinə (Quba rayonu) daxil olan V Sandıqtəpə abidəsində aparılmışdır. Hələ 2009-cu ildə ilk dəfə olaraq V Sandıqtəpədə kəşfiyyat xarakterli, kiçik miqyaslı qazıntı işləri icra olunmuşdu. Bu ilki tədqiqatların əsas məqsədi abidənin tipini, xarakterini, stratiqrafiya və xronologiyasını, habelə abidələr kompleksində tutduğu mövqeyini müəyyənləşdirməkdən ibarət olmuşdur.



Şəkil 2. V Sanıqtəpə. Qazıntı sahəsi.



Şəkil 3. Xaç təsvirli saxsı küpə parçası.

Bundan başqa ekspedisiya Quba rayonunun Alpan və Qaladüz kəndlərinə, habelə Azərbaycan Televiziyasının Mədəniyyət kanalının apardığı televiziya filmi çəkilişləri ilə əlaqədar olaraq Qusar rayonunun Əniq kəndinə kəşfiyyat səfərləri etmişdir.



Şəkil 4. Metal cam.



Şəkil 5. Dəmir biçaq.




Şəkil 6. Süni deformasiyalı insan kəlləsi.




Şəkil 7. Saxsı məmulatı.

V Sandıqtəpə Ağçayın sol sahilində, I Sandıqtəpədən qərbdə, VI Sandıqtəpədən şərqdə, onların arasında yerləşmişdir. Beləliklə, bu təpələr çayın sahili boyunca uzanaraq bir silsilə əmələ gətirirlər. Qazıntı üçün 64 m²-lik bir sahə təpənin şimal kənarında seçilərək yoğun köklü kollardan təmizləndi. Uzunluğu 54 m, eni 18 m olan təpənin üst sahəsi 1000 m²-ə çox yaxındır. Təpənin hündürlüyü cənubda daha çox olub təqribən 35 m-ə bərabərdir, ən alçaq qərb və şərq tərəflərdə isə 20 m-ə çatır. Təpənin üstündə çoxlu miqdarda geniş çalalar qeydə alınmışdır. Tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, bu çalalar abidənin yuxarı xronoloji zaman kəsiyinə aiddir. Belə ki, təqribən VI-VII əsrlərdə təpənin üstündə məhdud miqyaslı təsərrüfat fəaliyyətinin gedişində torpağın qazılması nəticəsində II-V əsrlərə aid torpaq qəbirləri böyük dağıntılara məruz qalmışlar. Bu qəbirlər 2 qrupa bölünür. Bunların bir qismi II-III əsrlərə, digərləri isə IV-V əsrlərə aiddir. IV-V əsrlərə aid qəbir kameraları həmin dövrdə qazılarkən II-III əsrlərə aid qəbirlər ciddi zədələnmişdir. Qəbirlərin məhz qədim dövrdə dağıntıya məruz qalmasını saxsı qabların bir çox hallarda ağızlarının kənarlarındakı köhnə qırıq yerləri və qırılmış hissələrin tapılmaması da müəyyən dərəcədə təsdiq edir. II-V əsrlərdə meyidlərin qəbirlərə kürəyi üstündə düz uzadılmış vəziyyətdə qoyulduğu, II-III əsrlərdə skeletin kəlləsinin əsasən qərbə, IV-V əsrlərdə isə şimala istiqamətləndirildiyi müəyyənləşdirilmişdir. IV-V əsrlərə aid skeletlərin kəllələrinin zəif səviyyədə süni deformasiyaya məruz qaldığı qeydə alınmışdır. Tədqiqat üçün seçilmiş sahə 1,35 m dərinliyədək qazılmışdır. Sonuncu qəbirlər məhz bu dərinlikdə qeydə alınmışdır. Daha üzdə yerləşmiş qəbirlər isə 0,25 m dərinlikdə aşkar olunmuşlar. Qazıntı sahəsinin 0,10-0,15 m dərinliyə malik ən yuxarı qatında yaxşı izlənilən tikinti qalıqları qeydə alınmasa da, nizamsız halda az miqdarda orta ölçülü çay daşlarına təsadüf olunmuşdur. Bu daşlarla eyni səviyyədə VI-VII əsrlərə aid saxsı qab parçaları tapılmışdır. Bunların arasında bir küpənin oturacaq hissəsi diqqəti daha çox cəlb edir. Divarlarının həm daxili, həm də xarici səthi üfüqi istiqamətli kannelür naxışlarla örtülmüş bu küpənin oturacağının iç səthində iri ölçülü xaç işarəsi cızılmışdır. Ümumiyyətlə, burada keramika istehsalında 2 ənənə özünü göstərir. Yüksək ustalıqla hazırlanmış, gilinin rəngi qəhvəyi olan qablarla yanaşı qara və boz çalarlı gilə malik kobud hazırlanmış keramika nümunələrinə də təsadüf olunmuşdur, lakin bütün keramika məmulatı dulus çarxından istifadə olunmadan əldə formalaşdırılmışdır. II-V əsrlərə aid keramika nümunələrində bölgə üçün yeni olan bəzi əlamətlər qeydə alınmışdır. Sinəsinə və boyun nahiyəsinə düymə formasında məməciklər yapılmış II-III əsrlərə aid oluna bilinən saxsı bardaqlar bu qəbildəndirlər. Keramika üzərindəki yeni tipli hörmə naxış, qulpun gövdəyə birləşən hissəsinin yan tərəfinə düyməcik yapılması IV-V əsrlər keramikasının yeni əlamətləridir. Ümumiyyətlə, düyməciklərin qabların ağzının kənarındakı yerinə görə II-III və IV-V əsrlərə aid olan saxsı qablar bir-birindən fərqlənir. Belə ki, əgər II-III əsrlərdə düyməcik daha kiçik ölçüyə malik olub qabın ağzının tilinin üstünə yapılmışdırsa, IV-V əsrlərdə daha iri ölçülü düyməcik, adətən, nisbətən aşağıya yapılır. Aşkar olunmuş metal əşyalar tunc, mis, dəmir və ehtimalla gümüşdən hazırlanmışdır. Tapıntılar arasında sırğa, boyunbağı, qolbaq, üzük, müxtəlif asmalardan ibarət bəzəklər, cam, yığma kəmər dəsti, sancaqlar, zəncirlər, zınqırovlar, qaşıq parçası, əyri və düz tiyəli bıçaqlar diqqəti cəlb edir. Daş məmulatı asmaq üçün deşiyi olan kiçik bülöv daşından, habelə müxtəlif muncuqlardan ibarətdir. Muncuqların bəziləri qliptika nümunələri formasındadır, lakin yastı qaş yerində heç bir təsvir yoxdur. Güman etmək olar ki, bunlar üzərində iş tamamlanmamış, adi muncuq kimi istifadə olunmuş daş möhürlərdir. Muncuqların sırasında uzunsov, sivri it və ya qurd dişlərinə də təsadüf olunmuşdur. Dişlərdən kiçik deşik açılmış və onlar zəncirli tunc məftilə keçirilmişlər. Bu dişlərin müəyyən inamla bağlı olduğu şübhə doğurmur. Muncuq kimi istifadə olunmuş digər əşyalar kaurilərdən (qarnıyarıqlardan) ibarətdir. Cari mövsümdə cəmi 481 ədəd arxeoloji material aşkar edilərək qeydiyyata alınmışdır.

Alpan və Qaladüz kəndlərinə səfərlərin məqsədi indiyədək elmi dövriyyəyə daxil edilməmiş Seyfiqala abidəsinin parametrlərini imkan daxilində müəyyənləşdirməkdən ibarət olmuşdur. Bu abidənin mövcudluğu yerli əhalidən alınmış məlumat əsasında bəlli olmuşdur. Gələcəkdə imkan olarsa burada bir daha tədqiqat işləri aparıla bilər.



1 2 3 4



5



6



7



8



9



10

Tablo. Tunc əşyalar:
1 – bəzək əşyaları; 2-3 – sancaqlar; 4 – qaşıq parçası; 5 – muncuqlu sırğalar; 6 – baş sancağı; 7 – bəzəklər; 8 – sırğa; 9 – zınqırov; 10 – kəmər dəsti.



Şəkil 8. Muncuqlar.

Çəkilməkdə olan film Əniq qalasına həsr edildiyi üçün bu müdafiə tikilisi yenidən müşahidə edildi. Məlum oldu ki, qalanın hələ 1960-cı ildə qeydə alınmış 2 fraqmenti, demək olar ki, olduğu kimi qorunub saxlanılmışdır. İri fraqment metal torla əhatəyə alınmış, lakin təəssüflər olsun ki, qalanın hər iki yanındakı sahələrdə kələm və kartof əkilmişdir. Tamamilə şübəsizdir ki, bu təsərrüfat işləri nəticəsində abidənin mədəni təbəqəsinin üst layı dağıdılaraq məhv edilmişdir. Bu hal gələcəkdə qalanın xronologiyasının dəqiqləşdirilməsi üzrə aparılmalı olan tədqiqat işlərini xeyli çətinləşdirəcəkdir. Əniq qalası ilə yanaşı kəndin kənarında torpaq aşınması nəticəsində üzə çıxmış daş qutu qəbrinə baxış həyata keçirilmişdir. Vaxtilə kəndlilərin buradan tapdıqları əşyalar daş sərdabə tipli qəbirə aiddir. Belə ki, qəbrin yanları çay daşlarından hörüldüyü halda üstü yastı sal qaya parçaları ilə örtülmüşdür. Düz səthli relyefə malik ərazidə daş sərdabələrin yeni nümunələrinin aşkar ediləcəyinə ümidlər çoxdur.

М.Дж.Халилов

ИССЛЕДОВАНИЕ ПАМЯТНИКА САНДЫГТЕПЕ V

РЕЗЮМЕ

В 2011 году было продолжено изучение комплекса памятников Сандыгтепе на окраине города Губа. Для стационарного исследования был выбран холм Сандыгтепе V, где ещё в 2009 году впервые были проведены разведовательные раскопки. Холм имеет высоту 20-35 м. Длина плоской части поверхности 54 м, ширина 18 м.

Стационарные раскопки велись до глубины 1,35 м. На глубине 0,10-0,15 м были выявлены в небольшом количестве булыжники средних размеров, а также фрагменты керамических сосудов, датированных VI-VII веками. На дне одного из них был вырезан крест. На глубине 0,25 м были обнаружены грунтовые погребения IV-V веков, где скелеты были расположены вытянуто на спине с ориентировкой головы на север. Черепа были подвергнуты слабой, искусственной деформации. Ниже этих погребений были выявлены грунтовые погребения II-III веков, где скелеты были уложены на спине. Голова была направлена на запад. Погребальный инвентарь захоронений II-V веков состоял из керамических сосудов, металлических, каменных изделий.

Наряду со стационарными раскопками были проведены разведовательные исследования в селах Алпан, Галадюз (Губинский район), а также в крепости и могильнике Аниг (Гусарский район).

M.J.Khalilov

INVESTIGATIONS OF SANDYGTEPE SITE V

SUMMARY


In 2011 year studying of the complex sites Sandygtepe surrounding of Guba region was continued. Sandygtepe hill was selected for the stationary investigation which excavation as a survey character was held in 2009 year. The hill's has 20-35 meters high. The lengths of the flat surface 54 m, width 18 m.

Stationary excavation was held till the 1,35 m depth. On the 0,10-0,15 m were found some river stones middle size, ceramics fragments which dating 6-7 centuries. Cross description have been given on the top of them. On the 0,25 m depth were found soil graves dating 4-5 centuries, which skeleton had been lengthened on shoulder, head to the north direction. Cranial had been a little artificial deformation. On the down layer were found soil graves dating 2-3 centuries which skeletons had been lengthened straight on shoulder. Heads of skeletons were put to the west. Burial stock of the 2-5 centuries consist of ceramics vessels, metal, stones products.

Stationary excavation, investigations like survey character were held Alpan, Galaduz (Guba region) also castles and graves Anig (Gusar region) by name.

GÜLÜSTAN QALASINDA APARILAN ARXEOLOJİ TƏDQİQATLAR
(Şamaxı rayonu)

A.A.Quliyev




2011-cı ilin iyun ayından AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Şamaxı-Ağsu arxeoloji ekspedisiyası Gülüstan qalasında tədqiqat işlərinə başlamışdır.

Gülüstan qalası Şamaxı şəhərindən 3 km. şimal-qərbdə, Böyük Xınıslı kəndindən 200 m. yüksəklikdə, Gülüstan dağının üzərində yerləşir. Əlcatmaz yerdə inşa edilən qala öz möhtəşəmliyi və memarlıq xüsusiyyətlərinə görə unikal bir abidədir. Şirvan-Abşeron memarlığı üslubunda inşa edilmiş qala divarları və bürcləri əhəng daşı və gəc məhlulu ilə tikilmiş, aqlay daşı ilə üzlənmişdir. Qalaya gedən yeganə yol, dağın cənub-qərb hissəsindən keçir. Qalaya çıxan bütün cığırların qarşısı keçilməz qala divarları ilə kəsilmişdir. Gülüstan qalası yerli əhali arasında Qız qalası kimi tanınır. Gülüstan əsrlər boyu Şirvan hökmdarlarının iqamətgahı olmuş və şahın xəzinəsi burada qorunurdu. Orta əsrlərdə Gülüstan qalasında zərbxana da fəaliyyət göstərirdi. Düşmən hücümları zamanı hökümdar və onun ailə üzvləri bu qalada müdafiə olunurdular. Azərbaycan hərb tarixində şanlı iz buraxmış Gülüstan qalası, əsrlər boyu düşmən hücumlarına mərdliklə sinə gəlmişdir. Müharibələr və dağıdıcı zəlzələlər Gülüstan qalasına təsirsiz ötüşməmiş, orta əsrin möhtəşəm memarlıq abidəsi dağıntılara məruz qalmış və zəmanəmizə kimi qalanın qalnız iki bürcü və qala divarlarının bir hissəsi qorunmuşdur.

Yazılı mənbələrdə Gülüstan qalası haqqında ilk məlumata, ərəb tarixçisi Təbərinin əsərində rast gəlinir. Belə ki, 733-ci ildə ərəb sərkərdəsi Müslim ibn Əbdülməlikin Şirvana hücumu zamanı "Qaleyi Duxteran"-ı (Qız qalası) tutaraq dağılması haqda məlumat verilir.

Digər bir mənbədə, 1025-ci ildə Şirvanşah Yəzid ibn Əhmədin oğlunun atasına qarşı üsyan qaldırması və üsyan yatırıldıqdan sonra onun Gülüstan qalasına sığınmasından xəbər verilir.

"Mücmal ət-tavarix valqisas" əsərində, 1123-ci ildə səlcuq sultanı Mahmudun (1118-1131-ci illər) Gülüstan qalasını tutması haqqında məlumat verilir. Bir qədər sonra qala Şirvanşah II Mənüçöhrin (1120-1149-cu illər) bacısı Şahbanu tərəfindən bərpa edilmişdir. 1027-ci ildə Şahbanu öldükdən sonra Gülüstan qalasında dəfn edilmişdir.





XII əsr dahi Azərbaycan şairi Xaqani Şirvani qəzəllərinin birində Gülüstan qalasını Kəəbə yaxınlığında Buqbeys dağına bənzədir.

1222-ci ildə Cəbə və Subutayın başcılığı ilə monqol dəstələri Şamaxıya hücum edərkən Şirvanşah I Gürşasb (1203-1225-ci illər) öz ailəsi ilə Gülüstan qalasında sığınacaq tapmışdır.

1225-ci ildə Xarəzmşah Cəlaləddinin, 1260-cı ildə Hulaku xanın, 1347-1349-cu illərdə cobani məlik Əşrəfin, 1366-cı ildə cəlairi sultanı Şeyx Üveysin Şamaxıya hücumu zamanı Şirvan hökmdarları Gülüstan qalasında müdafiə olunurdular.

XIV əsr Azərbaycan şairi Arif Ərdəbili özünün "Fərhadnamə" əsərində Gülüstan qalasını İrandakı Ruindez qalasından daha möhtəşəm olduğunu qeyd edir. Şair Gülüstanı "Axsitanın qalası" adlandırır.

XV əsrin əvvəllərində paytaxt Şamaxıdan Bakıya köcürüldükdən sonra da, Gülüstan qalası öz əhəmiyyətini itirməmişdir.

1488-ci ildə Ərdəbil hakimi şeyx Heydər Şamaxıya hücum edərkən, Şirvanşah Farrux Yasar (1465-1500-ci illər) öz yaxınları ilə Gülüstan qalasında müdafiə olunurdu. Gülüstan qalasını mühasirəyə almış qızılbaşların qalanı tutmaq cəhləri boşa cıxmışdır.

1500-ci ildə şeyx İsmayılın Gülüstan qalasını tutmaq cəhdləri müvəffəqiyyətsizliyə dücar olmuşdur. Hətta, Şirvanşah Fərrux Yasarın Cabanı döyüşündə öldürülməsindən sonra da, Gülüstan müdafiəciləri qalanı təslim etməmiş və uğursuzluğa düçar olmuş qızılbaş qoşunu mühasirədən əl çəkməyə məcbur olmuşdur.

XVI əsrin əvvəllərində, Şirvanşah Fərrux Yasarın ölmündən sonra onun varisləri Sultan Mahmud (1501-1502-ci illər) və II İbrahim (Şeyxşah) (1502-1524-ci illər) arasında hakimiyyət uğrunda gedən müharibə zamanı Gülüstan qalası ikincinin iqamətgahı idi.

XVI əsrin əvvəllərindən başlayaraq Gülüstan qalası öz əvvəlki əhəmiyyətini itirir və Şirvan hakimləri təhlükə zamanı Buğurd qalasında müdafiə olunurlar.

1509-cu ildə I İsmayılın Şamaxıya ikinci yürüşü və 1537-ci ildə Şirvan üsyanı zamanı Şirvanşah II İbrahim Şeyxşah Buğurd qalasında müdafiə olunurdu. Həsən bəy Rumlunun məlumatına görə 1538-ci ildə qızılbaş qoşunu Buğurd qalasını tutduqdan sonra, Gülüstan qalasını da mühasirəyə almışdır.

1562-ci ildə Şamaxıda olmuş Antoni Cenkinson Gülüstan qalasının I Təhmasib tərəfindən dağıdılmasını bildirir.







XVI-XVII əsrlərdə səfəvi-osmanlı müharibələri zamanı Şamaxını tutmuş osmanlılar Gülüstan qalasını bərpa etdirərək, burada qarnizon yerləşdirmişdilər. XV-XVII əsrlərdə Şamaxıda olmuş türk, rus və avropa səyyahları Afanası Nikitin, Antoni Cenkinson, Adam Oleari, Övliyyə Çələbi, Fedor Kotov, Kempfer və s. Gülüstan qalası haqqında maraqlı məlumatlar verirlər.

Gülüstan qalasının arxeoloji baxımdan tədqiqi XX əsrin 30-cu illərindən başlamışdır. Burada arxeoloji tədqiqat işləri ilk dəfə 1938-cı ildə professor Y.A.Paxomov tərəfindən aparılmışdır. O qalanın su təhcızatı, müdafiyə sistemi, gizli yolları haqqında maraqlı mülahizələr irəli sürmüşdür.

1967-ci ildə arxeoloq H.Ciddi Gülüstan qalasında tədqiqat işlərini davam etdirmiş və qalanın Narınqala hissəsində dörd otaq və dəhlizin divarlarını üzə cıxartmışdır.

Qeyd edildiyi kimi, 2011-ci ilin iyun ayında Şamaxı-Ağsu arxeoloji ekspedisiyası Gülüstan qalasında arxeoloji tədqiqatları bərpa etmişdir. Tədqiqatlar İç qaladan cənub-şərqdə aparılırdı və 300 м^2 ərazini əhatə edirdi. Qazıntı işləri zamanı qala divarının və evlərin bünövrələri, 17 ədəd təndir, çoxlu sayda şirli və şirsiz qab fraqmentləri, müxtəlif ölçülü və təyinatlı küplər, bardaqlar, dolçalar, nimçələr, kasalar, qazanlar, çıraqlar, su tüngləri, kərpiclər, müxtəlif formalı kaşılar, daş kitabələr, ox və nizə ucluqları, əl dəyirmanları, daş mərmilər, əmək və məişət əşyaları, şüşə və tunc bilərziklər, mis və sümükdən hazırlanmış üzüklər, mis sırğalar, əqiq və pastadan hazırlanmış muncuqlar, kaurilər, gümüş və mis sikkələr və s. aşkara cıxarılmışdır.

Qəbirlər: Ia kvadratında, təndirin yaxınlığından, 0,8 m. dərinlikdən, 11-13 yaşlı uşağın skeleti müəyyən edildi. Skelet islam dininin qaydalarına uyğun (cənub-şərq və şimal-qərb istiqamətində, sol böyrü üstə, üzü cənub-qərbə), üzü Kəbəyə dəfn edilmişdir. Skeletin üzərindən beş ox ucluğu aşkar edilmişdir. Onurğa sümüyünə batmış ox ucluğunun ətrafında yanıq izləri müşahidə edilirdi. Belə ehtimal etmək olar ki, bu qətrana batırılmış yanar oxun izləridir. Uşağın iç qalada dəfn edilməsi onun Şirvanşahlar sülaləsinə mənsub olması etimalı yaradır.

Id kvadratında, cavan insana mənsub, qismən yanmış skeletin fraqmentləri aşkara cıxarıldı. Skelet cənub-şərq və şimal-qərb istiqamətində dəfn edilmişdir. Skeletin başının üzərində üc saxsı qab aşkar edilmişdir.

IIb-IIc kvadratlarında, 0,8 m. dərinlikdən, təndirin şimal-qərbində orta yaşlı kişiyə mənsub skelet aşkara cıxarıldı. Skelet islam dininin qaydalarına uyğun, cənub-şərq və şimal-qərb istiqamətində, sol böyrü üstə, üzü cənub-qərbə, Kəbə istiqamətində dəfn edilmişdir.

Silahlar: Qazıntı zamanı **I** və **II** kvadratlardan dörd daş top mərmisi aşkara cıxarıldı. Bu mərmilərin hamısı eyni diametrə (15 sm.) malik, düzgün, kürə formadadırlar. Cox güman ki, onlardan qalaya hücum zamanı istifadə edilib.


Bundan başqa qazıntı sahəsindən coxlu sayda IX-XVI əsrlərə aid, dəmir ox və nizə ucluqları, xəncər, qılınc və bıcaq tiyələrinin fraqmentləri aşkar edilmişdir.




Əmək alətləri: Qazıntı sahəsindən müxtəlif əmək alətlərinin hissələri; bıcaqlar, baltalar, bizlər, üsküklər, qayçılar, dəhrələr, nehrə daşları, daraqlar, dəyirman daşları, at və qatır nalları, dulus çarxı, ağac kotan və s. aşkar edilmişdir.

Bəzək əşyaları: Tədqiqat zamanı coxlu sayda şüşə qolbaqlar, tunc, şüşə və sümükdən hazırlanmış üzüklər, sümükdən hazırlanmış və üzərində işləmələr olan müxtəlif bəzək əşyaları, əqiq, kauri və pasta muncuqlar, misdən hazırlanmış sırğalar, asmalar, boya və s. aşkara cıxarılmışdır. Aşkar edilmiş şüşə qolbaqlar tünd yaşıl və qara rəngdə olub, spiral formalı və cilalı səthlidirlər.

Saxsı qablar: Qazıntı sahəsindən coxlu sayda şirli və şirsiz qab fraqmentləri aşkar edilmişdir. Aşkar edilmiş şirli qabların cox hissəsi Gülüstan qalasında istehsal edilmişdir. Bu qabların üzərində nəfis nəbati, həndəsi və epiqrafik naxışlar, insan, balıq, quş və heyvan təsvirləri var idi. Şirli qablar əsasən göy, mavi, qəhvəyi, sarı və yaşıl rənglərlə boyanmışdır. Onların üzərində kufi, nəstəliq və süls xətti ilə olan yazılar var. Qazıntılar zamanı yerli istehsalla yanaşı coxlu sayda Çin, Kaşan və Təbriz istehsalı olan qabların fraqmentləri də, aşkara çıxarılmışdır. Əldə edilən materiallar Şamaxının hələ qədim zamanlardan dünyanın müxtəlif ölkələri ilə geniş ticarət əlaqələrinin olmasından xəbər verir.











Tədqiqat zamanı coxlu sayda şirsiz qablar və onların fraqmentləri aşkar edilmişdir. Əsasən boz və narıncı rəngdə olan saxsılarla yanaşı, qara cilalı miniatür qablara və qazanlara da rast gəlinirdi. Tədqiqatlar zamanı üzərində cızma naxışları olan keramika nümunələrinə də təsadüf edildi. Bunların birinin üzərindən səggiz guşəli ulduz təsvir edilmişdir.

Su tüngləri: Tədqiqat zamanı coxlu sayda su tüngləri aşkar edilmişdir. Bütöv və sınmış vəziyyətdə olan su tüngləri forması və olçülərinə görə üc tipə bölünür. Dar, orta və iri ölçülü su tünglərindən su-konalizasiya sistemi ilə yanaşı, təndirlərin külfürəngisi kimi də istifadə edilmişdir.

Təndirlər: 2011-ci ildə aparılan arxeoloji tədqiqatlar zamanı 17 ədəd təndir aşkar edilmişdir. Üst hissəsi dağılmış təndirlərin əksəriyyəti kicik ölcüyə malik olub, diametri 0,6-1,2 m. təşkil edirdi. Təndirlərin icərisi təmizlənərkən oradan müxtəlif dövrlərə aid mis sikkələr, saxsı parcaları, heyvan, quş və balıq sümükləri, dəmir mıxlar aşkar edilmişdir. **IIb** kvadratında aşkar edilmiş təndirin diametri 1,5m. təşkil edir. Təndirin ətrafı yastı daşlarla döşənmişdir. Təndirlərin külfürəngisi müxtəlif formalı su tünglərindən düzəldilmişdir və əsasən cənub istiqamətində qoyulmuşdur.





Kitabələr: IIIa kvadratından üzərində kufi xətti ilə ərəb yazısı olan daş kitabə aşkara edildi. Kitabədə: - " Bismillah rəhmani rəhim... " sözləri yazılıb. Bundan başqa, tədqiqatlar zamanı, üzərindəki epitafiyası qəsdən pozulmuş baş daşının fraqmenti aşkar edilmişdir.

Kaşılar: Qazıntı sahəsindən müxtəlif formalı və rəngli kaşılar aşkar edilmişdir. Onların əksəriyyətini kvadrat və romb formalı tünd ğöy və firuzəyi kaşılar təşkil edir. **IIIb** kvadratından üzərində suls xətti ilə yazılmış, ğöy və mavı rəngli kaşı aşkar edildi. Bu tip kaşılardan Pir Hüseyn xanəgahı, Təbrizdəki Ğöy məscid və Ərdəbildəki Şeyx Səfi xanəgahında rast gəlinir.

Sikkələr: Tədqiqatlar zamanı coxlu sayda gümüş və mis sikkələr aşkara cıxarılmışdır. Aşkar edilmiş sikkələrin ən qədimi Bizans imperatoru I Konstantinin (306-337-ci illər) adından zərb edilmiş 4 nüsxə bənzətmə mis felslərdir. Sikkələrin aversində (əsl üzü) I Konstantinin üzü sola baxan təsviri, reversində (tərs üzü) qala təsviri verilmişdir. Təsvirin ətrafında latın yazısı verilib. Zərb ili və zərb yeri oxunmur. Bundan başqa Şamaxı, Gülüstan və Dərbənd zərbxanalarında zərb edilmiş coxlu sayda anonim gümüş və mis sikkələr tapılmışdır. Aşkar edilmiş sikkələr əsasən XIII-XV əsrləri əhatə edir.

Gülüstan qalasında zərb edilmiş sikkələrin aversinda (əsl üzü) altı ləçəkli ğül, reversində (tərs üzü) "fulus" sözü zərb edilib. Bu sikkələr XIV əsrin sonlarına aiddir. Qazıntı sahəsindən cəkisi 3,5 q., gümüşə salınmış mis dirhəm aşkar edilmişdir. Sıkkə Şirvanşah III Mənucöhrin (1120-1160-ci illər) adından Şamaxıda zərb edilmişdir. Bundan başqa qazıntılar zamanı Şirvanşah Fəribürz (1200-1209-ci illər) və Ğürşasbın (1204-1225-ci illər) mis sikkələridə aşkara cıxarılmışdır.

Şamaxıda zərb edilmiş sikkələrin aversində (əsl üzü) Şirvanşahların gerbı; - üzü sola baxan, belinin üzərindən günəş boylanan şir təsviri verilmişdir.

Ərazidə aprılan kəşfiyyat işləri zamanı qalaya gedən yeraltı yolda da tədqiqat işləri aparılmışdır. Qala bürclərinin birinin altından başlayan yer altı yol, Gülüstan və Pirdirəyi dağlarının arasından kecən Zoğalavay cayına cıxır. Yeraltı yolun girişi cayın sahilindən 15 m. hündürlükdə, sərt yoxuşlu, sıx ağac və kolların arasından keçir. Hündürlüyü 1,5 m, eni 2,5 m. olan yarım dairəvi giriş qalın toz təbəqəsi ilə örtülüdür. Qismən yoxuşlu olan yeraltı yolun girişi, bir qədər irəllədikdən sonra sərt yoxuşla əvəz olunur. Şimal-qərb istiqamətindən qalaya qalxan yolun, təqribən 30m.-də iri qaya parcası dar kecidi tamamilə tutmuşdur.

Ərazidə aparilan kəşfiyyat işləri zamanı Pirdirəyi və Gülüstan qalaları arasında, Zoğalavay cayı üzərində mövcud olmuş daş körpünün qalıqları aşkar edilmişdir. Əhəng daşı və gəc məhlulu ilə inşa edilmiş körpünün qalıqları 5,5-6,5m. hündürlükdə qayaya bərkidilmiş halda inşa edilmişdir.

Ekspedisiyanın fəaliyyəti, aşkar edilmiş son tapıntılar barədə məlumatların yayılması ücün Şamaxı-Ağsu arxeoloji ekspedisiyası öz elektron saytını "Shamakiagsuexpedition.org" yaratmişdir.

А.А.Кулиев

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ КРЕПОСТИ ГЮЛИСТАН

РЕЗЮМЕ

В июне 2011 года начался новый этап широкомасштабных археологических исследований в крепости Гюлистан. Исследования были проведены внутри крепости и охватывали площадь в 300 кв. м.

В первом раскопе, на кухне, рядом с тендиром, на глубине 0,8 м были обнаружены несколько скелетов. Один из скелетов принадлежит ребенку в возрасте 11-13 лет. В области его тела и черепа найдено множество наконечников стрел. Вокруг скелета, в области позвоночника, заметны ожоги. Судя по всему, в него стреляли стрелами, обмакнутыми в горящую смолу. По нашим предположениям, факт захоронения ребенка внутри крепости служит доказательством того, что он принадлежал династии Ширваншахов.

На частично кремированных костях второго скелета поставлены три различных фаянсовых сосуда. Тело захоронено по доисламским обычаям. Это свидетельствует о том, что крепость Гюлистан возник не в VIII веке, как это ранее предполагалось, а намного раньше.

В первом раскопе, в фундаментах крепостной стены и домов было обнаружено 17 тендиров, значительное количество фрагментов глазурованной посуды и большие кувшины, жбаны (для хранения воды), тарелки, чаши, котлы, чыраги (светильники), ручные жернова.

Во втором раскопе было обнаружено большое количество каменных орудийных снарядов. Все они одного диаметра и правильной шарообразной формы. Кроме того, на площади раскопа было обнаружено большое количество наконечников стрел и копий, фрагменты клинков кинжалов, мечей и ножа, обломки орудий труда, подков лошадей и мулов, гончарных колес, деревянных плугов, стеклянных браслетов, агата, раковины каури и бисера, краски и т.д.

Во время раскопок наряду с многочисленной местной продукцией были обнаружены и фрагменты посуды, произведенной в Китае, Кашане и Тебризе.

Кроме того было найдено и много серебряных и медных монет. Среди медных монет самыми древними являются – местные подражания древнеримским монетам Константина Великого. На аверсе (лицевой стороне) монет изображено лицо правителя, смотрящего направо, а на реверсе (обратная сторона) – крепость.

На чеканенной в крепости Гюлистан монете на аверсе отчеканен цветок с шестью лепестками, а на реверсе – слово «фельс» (название медной монеты). Эта монета относится к концу XIV в. На участке раскопа был обнаружен и посеребренный медный дирхем весом 3,5 г. Монета чеканилась в Шамахы от имени ширваншаха Манучехра III (1120-1160 гг.). Среди находок имеются также медные монеты времен правления ширваншахов Фарибурза II (1200-1204) и Гуштасп (1204-1225). На аверсе этих, чеканенных в Шамахы монет герб Ширваншахов – лев, смотрящий налево, за спиной которого восходит солнце.

На участке третьего раскопа обнаружены также многочисленные образцы керамики с чертежными узорами. Большой интерес вызывает то, что на одной из них изображена восьмиконечная звезда, напоминающая ту, которая украшает герб Азербайджанской Республики.

Разведывательные работы были проведены и в подземной галерее под крепостью Гюлистан. Один из потайных путей начинается под башней крепости, проходит под горой Гюлистан и выходит к реке Зогалавай. В целом крепость Гюлистан служила важной частью оборонительной системы Государства Ширваншахов.

A.A.Guliyev

ARCHAEOLOGICAL INVESTIGATION OF FORTRESS GULUSTAN

SUMMARY

In June 2011, a new phase of large-scale archaeological researches in the fortress of Gulistan started. Studies have been done inside the fort and covered an area of 300 square meters. In the first excavation in the kitchen, next to tendir, several skeletons were found at a depth of 0.8 m. One of the skeletons belongs to a child at the age of 11-13. Many arrowheads were found in the area of his body and skull. On the skeleton, near to spine, there are visible burns. Apparently, he was shot with arrow dipped in a burning tar. According to our assumptions, the burial of the child inside the fort is the evidence that he belonged to the dynasty of the Shirvan Shahs. On the partially cremated bones of the second skeleton there were three different pottery vessels. The body is buried on pre-Islamic customs. This indicates that the fortress of Gulistan wasn`t built in the VIII century, as previously expected, but much earlier. In the first excavation in the foundations of the fortress wall and houses were found 17 tendirs, a significant number of pieces of glazed ware and large jars, jugs (water storage), plates, bowls, pots, chirags (lights) and hand mills. During the second excavation a large number of stone cannon shells was found. They are of the same diameter and spherical in shape. In addition, in the area of the excavation a large number of arrowheads and spears, fragments of daggers, swords and knives, fragments of tools, hooves of horses and mules, pottery wheels, wooden plows, glass bracelets, agate, cowry shells and beads, paint and etc was found. During the excavations, along with numerous local products, fragments of dishes made in China, Kashan and Tabriz were found. In addition a lot of silver and copper coins are found. Among the most ancient copper coins are local imitations of ancient Roman coins of Constantine the Great. The obverse (front) of coins is the person of the ruler, looking to the right, and the reverse (back) – the image of the fortress. On the coin that minted in the Gulistan palace, on the obverse is a flower with six petals, and on the reverse – the word “Fels” (the name of copper coin). This coin belongs to the end of the fourteenth century. On the site of the excavation was found a silvered copper dirham weighing 3.5 g. The coin was minted in the Shamakhi in name of Shirvanshah Manouchehr III (1120-1160). Among the findings there are copper coins of the reign of Shirvanshakhs Fariburz II (1200-1204) and Gushtasp (1204-1225). The obverse of the coins minted in Shamakhi there is Shirvanshah`s ensign – a lion looking to the left, behind which the sun rises. On the third part of the excavation numerous examples of pottery from the drawing patterns are revealed. The fact that one of them shows the eight-pointed star, which resembles the one that adorns the flag of Azerbaijan, is attracting interest. Exploration activities were conducted in the underground gallery under the fortress of Gulistan. One of the hidden ways starts under fortress tower, passes under the mountain of Gulistan and goes to the river Zogalavay. Overall Gulistan fortress serves as an important part of the defensive system of the State Shirvanshah.

ŞƏMKİR ŞƏHƏR YERİNDƏ APARILAN ARXEOLOJİ QAZINTILAR
(Şəmkir rayonu)

T.M.Dostiyev, R.Y.Bəşirov, N.N.Hüseynli, R.H.Mirzəyev

2011-ci ildə AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Regionların İnkişafı İctimai Birliyinin birgə layihəsi üzrə Şəmkir şəhər yerində stasionar, geniş sahəli arxeoloji qazıntılar davam etdirilib. Arxeoloji tədqiqat işləri IV – VIII qazıntı sahələrində beş sahədə aparılıb. Hər il olduğu kimi 2011-ci ildə də aparılan çöl tədqiqatlarında şəhər istehkamlarının öyrənilməsinə xüsusi önəm verilmişdir. Ekspedisiyanın qarşıya qoyduğu diğər hədəf şəhər yerinin şəhristan sahəsində şəhərin plan quruluşunu müəyyənləşdirməyə imkan verən strukturların üzə çıxarılması, mədəni təbəqə yatımının geniş sahəli arxeoloji qazıntılarla tədqiq etməkdən və bu əsasda şəhərin müxtəlif inkişaf mərhələlərində sosial-iqtisadi, hərbi-siyasi və mədəni-dini durumunu araşdırmaqdan ibarət olmuşdur. Şəmkir arxeoloji ekspedisiyasının fəaliyyətinin mühüm istiqamətlərindən biri də arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan, uçmaq təhlikəsi altında olan tikinti qalıqlarında möhkəmləndirmə və konservasiya işlərinin aparılmasına yönəlmişdir. Qarşıya qoyulan məqsədə müvafiq olaraq IV qazıntı sahəsində Narınqalanın şimal divarının içəri tərəfdən açılıb öyrənilməsi, IX-X əsrlərə aid monumental binanın tədqiqi diqqət mərkəzində olub. Bu məqsədlə IV qazıntı sahəsi 28 m uzunluqda olmaqla 12 m şimala genişləndirilmişdir. Hazırda onun ümumi sahəsi 2000 m^2 artıqdır və şimalda o V qazıntı sahəsi ilə birləşir.. Narınqalanın şimal-şərq sektorunda da, IV qazıntı sahəsinin digər kvadratlarında olduğu kimi, üst mədəni təbəqə XIX əsrə aiddir. Qalınlığı 25-30 sm-dən 80 sm-ə qədər olan bu təbəqədə tikinti qalıqları aşkarlanıb. Həmin tikintilərin bünövrələri orta əsr təbəqəsinin yatımını pozmuşdur. Xüsusilə XIX əsrə aid şərq tərəfdə narınqalanın bürcünə birləşən çaydaşından adi palçıqla hörülmüş tikinti XI-XII əsrlərin kompleksinə ciddi ziyan vurmuşdu. Onun əsas divarı şərq-qərb istiqamətində olmaqla uzunluğu 13,7 m-dir və şərqdə Narınqalanın şimal-şərq bürcünə birləşir. Divarın eni 1,48 m, salamat qalmış qalıqlarının hündürlüyü 48-70 sm-dir. Bünövrə divardan 30-40 sm enli olub iri çaydaşından adi palçıqla qurulmuşdu. Onun hündürlüyü 80 sm-dən artıqdır.

Tikintinin qərb divarı narınqalanın şimal divarının çiy kərpic hörgüsünə qədər davam edir və uzunluğu 4,68 m-dir. Üst mədəni təbəqənin tikililəri çaydaşından və orta əsr tikililərindən sökülmüş bişmiş kərpiclər və onların fraqmentlərindən inşa olunub. Diqqəti çəkən əksər hallarda kvadrat formalı kərpiclərin daha çox yarıya bölünərək istifadə olunması faktıdır. Tikili qalıqlarının əksəriyyəti bünövrəyədək dağıldığından onların plan quruluşunu və təyinatını müəyyənləşdirmək çətindir. Nisbətən salamat qalmış bir tikili dördbucaqlı biçimdə olub çaydaşından və bişmiş kərpic parçalarından tikilmiş, divarlarının eni 70 sm idi. Hörgünün 2-3 cərgəsi salamat qalmışdı. Digər tikililər əsasən ayrı-ayrı divarlardan ibarətdir. Belə divarlardan biri şimal-cənub istiqamətli olub çaydaşı və bişmiş kərpic parçalarından hörülmüşdü və eni 1,1 m idi. Onun bünövrəsi iri və orta ölçülü çay daşlarından qoyulmuş, eni 1,3 m, hündürlüyü 70 sm-ə çatırdı. Üst təbəqədə üzə çıxarılan, bişmiş kərpicdən hörülmüş sütun qalıqlarının birinin hündürlüyü (1x1m) 30sm, digərinin(1,08 x 1,08 m) isə 1,1 m idi. Bişmiş kərpic və ağ daşdan inşa olunmuş, uzunluğu 1,58 m, salamat qalmış hündürlüyü 90 sm-ə çatan dördbucaqlı tikinti qalığı IX-X əsrlərə aid monumental binanı dövrələyən qəsrin şimal divarının üzərində tikilmişdi. Arxeoloji qazıntılarla müəyyən edilmişdir ki, XIX əsrdə Narınqalanın şimal-şərq bürcündə bişmiş kərpicdən soba qurulmuşdu. Onun uzunluğu 1,9 m, eni 1,4 m olmuşdur. Sobanın şərq divarı nisbətən yaxşı qalmışdı və hündürlüyü 70 sm -ə çatırdı. Sobanın içərisi və ətrafı bişmiş kərpic parçaları ilə zəngin yanmış torpaqla dolu idi.



Şəkil 1. 3-saylı otaq.



Şəkil 2. Bəzəkli divar.


Qalınlığı 4 m-dən artıq olan alt, orta əsr təbəqəsində istehkam qalıqları, monumental bina qalıqlarının davamı, təsərrüfat və məişət təyinatlı tikililər üzə çıxarılmışdır. İlk növbədə qeyd etmək lazımdır ki, IV qazıntı sahəsində Narınqalanın şimal divarı içəri tərəfdən bünövrəyədək öyrənilib. Çaydaşından əhəngli məhlulla qoyulmuş bünövrə IX-X əsrlərin mədəni təbəqə yatımını kəsir. Bünövrənin hamarlanmış

səthi üzərində bişmiş kərpicdən əhəngli məhlulla hörgü başlanır və həmin hörgünün qalıqlarının hündürlüyü 17H, 18F, 18E kvadratlarında 108-118 sm arasında dəyişir. Daha sonra hörgü çiy kərpiclə davam edir. IV qazıntı sahəsinin 17F, 17E və 18C kvadratlarında çiy kərpicdən hörgü nisbətən yaxşı qalıb. 18D kvadratında hörgü, xüsusilə onun üst cərgələri daha çox dağıntıya məruz qalıb. Divar qalıqlarının bünövrədən ümumi hündürlüyü isə 2,9 m-ə çatır. Narınqalanın şimal divarının içəridən də açılması nəticəsində onun qalınlığının 3,6 – 3,8 m olduğu müəyyən edilmişdir.



Şəkil 3. IV qazıntı sahəsindən görünüş.

IV QAZINTI SAHƏSİNİN PLANI



Narınqalanın şimal divarından 10,7 m cənubda yerləşən, monumental binanı dövrələyən qəsrin şimal divarının qalıqları bayır tərəfdən 28,6 m məsafədə üzə çıxarılıb. Həmin divar qalıqlarının təmizlənmiş hündürlüyü 4 m-dən artıqdır. Şimal divarında daş hörgünün hündürlüyü şərq divara nisbətən azdır. Mərkəzi bürc hissədə daş hörgünün təmizlənmiş hündürlüyü isə 1,4 m-ə çatır. Mərkəzi bürcdə həm də sonradan çiy kərpic hörgünün bişmiş kərpiclərlə təmir olunması faktı müəyyənləşdirilib.

Monumental binanın şərqində yerləşən 2 və 3 saylı otaqlar tədqiq edilib. 2 saylı otağının təmizlənməsinə başlanıb. O dördbucaq biçimli olub uzunluğu 6,25 m, eni 6,05 m-dir. Üzə çıxarılan divarlar çiy kərpicdən hörülüb və təmizlənmiş hündürlüyü 1,8 m-ə çatır. 3 saylı otaq döşəməyədək tədqiq edilib. Bu otaq düzbucaq biçimdə olub uzunluğu 8,25 m, eni 6,3 m-dir. Salamat qalmış divar qalıqlarının hündürlüyü 3,6 m-ə çatır. Divar hörgüsünün alt cərgələri çaydaşından kirəcli məhlulla, üst cərgələri çiy kərpiclərlə hörülüb. Daş hörgünün döşəmədən hündürlüyü, əsasən 48-54 sm, şərq divarında isə 90 sm-ə çatır. Daş hörgüdən ciy kərpic hörgüyə keçiddə antiseysmik təyinata malik ağac qurşaq olmuş, burada diametri 14-16 sm olan tirlər yerləşdirilmişdi. Döşəmə torpaqdan olub üzərinə əhəngli suvaq çəkilmişdir.

Qəsr və narınqala divarları arasında üzə çıxarılmış tikili qalıqları orta əsrlərin ayrı-ayrı mərhələlərinə aid olub müxtəlif təyinatlıdır. Bişmiş kərpicdən hörülmüş IX əsrə aid tikili qalıqlarının təyinatı hələlik tam aydın deyil. Onlar düzbucaq və dördbucaqlı biçimdədirlər. Bişmiş kərpicdən adi palçıqla hörülmüş, 25 sm hündürlükdə salamat qalmış düzbucaq biçimdə 144,5 sm uzunluqda, 112 sm enində tikili qalığının bünövrəsi çaydaşındandır. Kərpic hörgünün 4 cərgəsi qalıb. Ona şimaldan 67 x 40 sm ölçüdə çıxıntı şəklində hörgü birləşir. Tikili 23,5 x 23,5 x 6 sm ölçüdə kvadrat formalı kərpiclərdən inşa edilmişdir. Bu tikilidən 2,65 m şərqdə, digər oxşar bir tikinti qalığı aşkarlanıb. O dördbucaq formada olub 80 x 78 sm ölçüdədir. Dördbucaq biçimli, uzunluğu 114 sm, eni 95 sm olan üçüncü oxşar tikinti qalığı birincidən cənubda yerləşir. Onun bünövrəsi qeydə alınmayıb, bişmiş kərpic hörgünün isə 5 cərgəsi salamat qalıb.

Qəsrin divarına şimaldan bir neçə divar birləşir. 15H kvadratında qəsr divarına birləşən divarın qalıqları 8,1 m məsafədə təmizlənib. Onun alt çərgələri çaydaşından adi palçıqla hörülmüş, üstü isə çiy kərpiclə inşa olunmuşdur. Üzə çıxarılan qalıqların hündürlüyü 4 m-dən artıqdır. Həmin divardan 8,7 m şərqdə ikinci bir divar qəsrin şimal divarının mərkəzi bürcünə birləşir. Onun uzunluğu 6,7 m-dir. Qəsrin şimal divarının mərkəzi bürcü planda yarımdairəvi formada olmuş, sonradan qarşısında çiy kərpiclə, onun görünüşünü pozan şərq-qərb istiqamətli, eni 1m olan divar ucaldılmışdı. Həmin divara paralel, 1,32 m məsafədə ikinci bir divar yerləşir. Bu divarlar narınqala və qəsrin şimal divarları arasında yerləşən XI-XII əsrlərə aid kompleksə məxsusdur. Belə ki, IV qazıntı sahəsinin şimalında üzə çıxarılmış, eni 1,23-1,32 m, uzunluğu 14,8 m olan dar küçə boyunca, onun şimal və cənub tərəflərində çiy kərpicdən və çaydaşından inşa olunmuş tikililərin qalıqları aşkarlanmışdır. Küçə qərbdə qəsrin mərkəzi bürcü ilə Narınqalanın şimal divarına birləşən, cənub- şimal istiqamətli, eni 1,05 m olan divar qarşısında şimala dönür və kiçik, düzbucaq biçimli dar tikili ilə tamamlanır. Kompleksin çiy kərpicdən hörülmüş, qəsr divarına birləşən dördbucaq biçimli kiçik tikilinin içərisində güclü yanğın olmuşdu. Bu tikilidən qərbdə daha bir tikili vardı. Küçənin şimal tərəfindəki tikililərin üzərində XIX əsrin binasının dərin qazılmış bünövrəsi, həmin dövrün tikinti qalıqları yerləşirdi. Bu isə XI-XII əsrlərin konpleksinin görünüşünə ciddi ziyan vurmuşdur.

Qəsrin şimal-şərq bürcündən 1,7 m şimalda, narınqalanın şimal-şərq bürcünün içərisində dördbucaq biçimdə tikili qalıqlarının üzə çıxarılmasına hələ 2009-cu ildə başlanılmışdır. Hesabat ilində isə o tamamilə təmizlənib. Bu tikintinin qapısı yuxarıda qeyd edilən dar küçəyə açılırmış. Qapı açırımının eni 1,05 m-dir. Tikilinin divarlarının bünövrəsi çaydaşından qoyulub. Divarlar çaydaşı və bişmiş kərpiclə hörülüb. Qeyd etmək lazımdır ki, hörgüdə 24 x 24 x 6 sm, 23 x 23 x 6 sm ölçülərdə bişmiş kərpiclərlə yanaşı, həm də 46 x 46 x 7 sm, 45 X 45 X 7 sm ölçülərdə böyük kərpiclər də işlədilib. Görünür, böyük ölçülü bişmiş kərpiclər erkən orta əsrlərə aid olub təkrar istifadə edilmişdir.

2011-ci ildə V qazıntı sahəsində arxeoloji qazıntı işləri qısa müddətli olmuş, narınqalanın şimal divarının mərkəzi bürcünün ətrafında, yuxarı yarusdan aşağı yarusa keçiddə və aşağı yarusdakı mühəndis qurğusunda tədqiqat aparılıb. V qazıntı sahəsində yuxarı yarusdan aşağı yarusa keçiddə şəhər divarına birləşən düzxətli divarın qalıqları üzə çıxarılıb. Onun eni 52-68 sm- dir. Üzə çıxarılan qalıqların uzunluğu isə

12 m-dir. Hörgünün beş cərgəsi salamat qalıb. Divar qalıqlarının hündürlüyü 50-60 sm-dır. V qazıntı sahəsinin 9F kvadaratında qala divarının qapı bürcündən 242 sm məsafədə bişmiş kərpicdən inşa olunmuş tikilinin şimal-şərq küncü üzə çıxarılıb. Onun şərq divarının uzunluğu 2,27 m-dir. Şimal divarının qalıqları isə yalnız 1,29 m salamat qalmışdı. Divarın eni 52 sm-dır. Divar qalıqlarının hündürlüyü 30 sm-ə çatır. Bu tikintinin təyinatı hələlik müəyyənləşdirilməyib.

V qazıntı sahəsinin 8H-10H kvadratlarında mühəndis qurğusunun qalıqlarının öyrənilməsi uğurla başa çatmışdır. Məlum olmuşdur ki bu qalıqlar drenaj xəttidir. O çaydaşlarından və ağ, yastı daşlardan hörülmüşdür. Drenaj qurğusunun üstü yastı, ağ daşlarla örtülmüşdü. Daşların ölçüləri aşağıdakı kimidir: 65x38x25 sm; 68x44x28 sm; 66x22x27 sm; 65x28x22 sm və s. Müəyyən edilmişdir ki, qərbdən şərqə istiqamətlənmiş drenaj xətti şəhər qapısının altından keçmişdir. Bayır qala divarında isə eni 44 sm, hündürlüyü 48-49 sm olan xüsusi açırım düzəldilmişdi. Yeri gəlmişkən qeyd edək ki, drenaj xəttinin eni də 43,5 – 44 sm, dərinliyi isə 48-49 sm-dır.

2011–ci ildə şəhristanın mərkəzində və şimal-şərq sektorunda aparılan qazıntılar da uğurlu olmuşdur. 2010-cu ildə şəhristanın şimal-şərq sektorunda, VI qazıntı sahəsində üzə çıxarılmış XI əsrə aid yaşayış kompleksinin tədqiqini davam etdirmək məqsədi ilə bu qazıntı sahəsi şimala genişləndirilib. Nəticədə onun sahəsi 640 kv.m. çatdırılıb (uzunluğu 40 m, eni 16 m). Qalınlığı 40-50 sm olan üst təbəqə yeni dövrə, yəni XVIII-XIX əsrlərə aid edilir. Bu təbəqədə 2F-1C kvadratlarında yaşayış evlərinin bünövrəsinin qalıqları aşkarlanıb. Şimal-şərqdən cənub – qərbə uzanan divarın bünövrəsi 12,9 m məsafədə izlənilib. Həmin divarın cənub – qərbə uzanan bünövrəsinin qalıqları 2008-2010-cu il qazıntılarında öyrənilmiş, orta əsr təbəqəsinin tədqiqi ilə əlaqədar götürülmüşdü. Görünür, bu divardan qərbdə otaqların arakəsmə divarları və qərb divarı kənd təsərrüfatı işləri ilə əlaqədar dağıdılmışdır. Şimal-şərqdən cənub – qərbə uzanan divardan 2,2–2,4 m şərqdə 2009-2010-cu illərdə üzə çıxarılmış çoxotaqlı binanın qalıqlarının davamı aşkarlanaraq təmizlənmişdir. Çoxotaqlı binanın iki otağı əvvəlki qazıntılarla üzə çıxarılaraq öyrənilmişdi. Yeni kvadratlarda isə həmin kompleksin daha iki otağı aşkarlanaraq öyrənilib. Onlardan biri kiçik olub, planda düzbucaq biçimli, digəri dördküncülü biçimdədir. 3F, 3H qismən də 4H kvadratlarında planda oval olan, diametri 4,7 – 4,8 m döşəmə qalıqları aşkarlanıb. Döşəmə sarımtıl rəngdə gil ilə suvanmışdı. Suvaqın qalınlığı 5-8 sm idi. Döşəmənin şimal kənarında ocaq qalıqları var idi. Daha bir ocaq VI qazıntı sahəsinin 1İ kvadratında üzə çıxarılaraq təmizlənmişdir. Onun yerliyi bişmiş kərpiclə döşənmişdi. Ocağın divarı isə səkkiz kərpicin dikinə qoyulması ilə qurulmuşdur. Cənubdakı kərpic düşmüşdü. Şimal tərəfdəki kərpicdə deşik açılaraq tünglə külbə quraşdırılmışdı. Ocağın cənub-qərb tərəfi açıq idi. Ocağın nalvarı ucları arasında məsafə 74 sm, radiusu 53 sm idi. Ocağın içərisi küllə dolu idi.

Üst, XIX əsrə aid mədəni təbəqədən əldə olunmuş tapıntılar arasında şüşə qədəh diqqətəlayiqdir.

Orta əsr mədəni təbəqəsinin tədqiqi daha maraqlı nəticələr vermişdir. Bu təbəqədə XII əsrə aid mühəndis qurğusu, XI əsrə aid yaşayış kompleksinin davamı, IX-X əsrlərə aid təsərrüfat quyuları, təndirlər, ocaqlar aşkarlanıb. XII əsrin mühəndis qurğusu - kanalizasiya xətti 18,3 m uzunluqda tədqiq edilib. Görünür, bu qurğu V qazıntı sahəsində öyrənilmiş ümumşəhər kanalizasiya sistemi ilə bağlı olmuşdur. Üzə çıxarılan mühəndis qurğusu çay daşlarından inşa olunmuş, ağ yastı daşlarla üstü örtülmüşdür. Suyun axıdıldığı kanal ensiz olub 14-20 sm, dərinliyi isə 22-25 sm-dir.

VI qazıntı sahəsinin yeni kvadratlarında qazıntısına 2010-cu ildən başlanılmış XI əsrə aid kompleksin davamı, yeni otaqların qalıqları üzə çıxarılmışdır. Yeni üzə çıxarılmış otaqların divarlarının alt cərgələri çaydaşından hörülüb, eni 60-70 sm-dir. XI əsrə aid kompleksin 2H-3H kvadratlarında yerləşən otaq böyük maraq doğurur. Bu otağın divarlarının hörgüsünün üç cərgəsi salamat qalıb. Otağın qərb yarısı 23x23x5,5 sm, 23x23x5 sm ölçülərdə bişmiş kərpiclərlə döşənib. Döşəmənin ortasında onu iki hissəyə bölən möhrə arakəsmənin qalıqları qeydə alınıb. Nəticədə döşəmə cənub tərəfi 2,1 x 1,5 m, şimal tərəfi isə 2,1 x 2,03 m olmaqla iki hissəyə ayrılıb. Cənub hissənin cənub-qərb küncündə ocaq qalığı qeydə alınıb. Kərpic döşəmədən şərqdə uzunluğu 2,03 m, eni 1,93 m olan qurğunun qalığı yerləşir. Bu qurğu dördbucaq biçimli, çuxurda yerləşən, döşəmə və divarları bişmiş kərpiclə hörülmüş və sarımtıl məhlulla suvanmış hovuz qalığını xatırladır. Hörgünün bir cərgəsi salamat qalıb. Şimal divarında hörgünün ikinci cərgəsinin qalıqları izlənilir.



Şəkil 4. VI qazıntı sahəsindən görünüş.



İlk dəmir dövrünə aid torpaq qəbri.




VI qazıntı sahəsi: kanalizasiya xətti.

VI qazıntı sahəsinin 2F kvadratında 1,1 m dərinlikdə, XI əsrə aid kompleksin divarının üstündə bəsit divar qalığı aşkarlanaraq öyrənilmişdir. O bir qatlı olub eni 22-24 sm, hündürlüyü 50 sm-dir. Hörgünün beş cərgəsi qalmışdır. Bu qalıqlar kompleksin XII əsrin ortalarında və ya ikinci yarısında sıradan çıxdığını, onun qalıqları üzərində yeni tikililərin inşa edildiyini göstərir.


XI əsrə aid kompleksin qalıqlarının altında, IX-X əsrlərə aid inşaat qatında təsərrüfat quyuları, ocaq qalıqları, tikinti qalıqları və s. aşkar edilmişdir. IX-X əsrlərə aid altı təndir qalığı aşkarlanaraq təmizlənmişdir. Onlar, əsasən, kiçik ölçülüdür. Ən kiçik təndirin diametri 27 sm, ən böyüyünün isə 52 sm-dir. Böyük təndirlərin divarına içəri tərəfdən cızma şaquli xətlər çəkilib. Arxeoloji qazıntı işləri nəticəsində üzə çıxarılan maddi mədəniyyət qalıqları arasında 2L kvadratında üzə çıxarılan uzunluğu 1,38 m, eni 30 sm, hündürlüyü 28 sm olan monolit daş maraq doğurur. Onun üstündə eni 5 sm, dərinliyi 4,5 sm olan kanal oyulub.

VI QAZINTI SAHƏSİNİN PLANI




VI QAZINTI SAHƏSİ. KƏSİKLƏR


A-A KƏSİYİ



B-B KƏSİYİ



C-C KƏSİYİ



0 1 2 3 4 5metr

3D kvadratında, IX-X əsrlərə aid mədəni təbəqə yatımının altında, 2,5-2,7 m dərinliklərdə dəmir dövrünə aid torpaq qəbir aşkarlanıb. Qəbirdə skelet bükülü vəziyyətdə, kəlləsi qərb istiqamətində idi. Skeletin kəlləsindən şimalda saxsı qablar qoyulmuşdu. Qolunda tunc qolbaq vardı. Boyun nahiyyəsində serdalik və trevartindən çoxlu muncuq və asmalar səpələnmişdi. Mis təbəqədən asma, görünür, sinəsində olmuşdu. Qəbir gənc qadına məxsus idi.

2011-ci ildə dəmir dövrünə aid artefaktlar təkcə qəbir avadanlığı ilə məhdudlanmır. VI qazıntı sahəsinin 4L kvadratında torpağa basdırılmış küp qalıqları aşkarlanıb.

Şəhər yerində mədəni təbəqə yatımının daha dərindən öyrənilməsi məqsədi ilə 2011-ci ildə abidənin şəhristan hissəsinin mərkəzində 20x20 m ölçüdə olmaqla, 400 m^2 sahədə VII qazıntı sahəsi qoyulmuşdur. Bu sahədə aparılan arxeoloji tədqiqatlar uğurlu olmuşdur. Abidənin həmin sahəsi kənd təsərrüfatı işləri üçün istifadə olunduğundan və burada yonça əkildiyindən mədəni təbəqənin üst yatımı 40-50 sm dərinliyədək dağıdılmışdır. 50 sm dərinliklərdən başlayaraq güclü dağıntıya məruz qalmış tikililərin qalıqlarının izlənməsinə başlanıb. 0,9-1 m dərinliklərdə böyük bir kompleksin divarlarının bünövrə qalıqları aşkarlanıb. Bünövrə qalıqlarının eni 60-80 sm olub, orta və kiçik çay daşlarından qoyulub. Qalıqlar əsasında binanın başlıca tikilisinin qazıntı sahəsində 200 km.m-ə yaxın sahəni əhətə edərək dördbucaqlı biçimdə olduğunu və ona cənubdan, şərqdən və şimaldan digər tikililərin birləşərək mürəkkəb quruluşlu komleksi təşkil etdiyini müəyyənləşdirmək mümkündür. Əsas binaya şərqdən, cənub-şərqdən, şimaldan birləşən tikili qalıqları kompleksin qazıntı sahəsindən kənara çıxdığını, otaqlarının sayının 10-dan artıq olduğunu düşünməyə əsas verir. Otaqların sıra sayı qazıntı sahəsinin cənub-şərq küncündə yerləşən, qalıqları ilk olaraq açılmış otaqdan başlanır və ardıcıllıqla şərqdən qərbə aparılıb. Sözü gedən otaq dördbucaq biçimdədir, onun yalnız çaydaşından bünövrəsi salamat qalmışdı. Bu otaqdan şimalda daha üç otaq və bir dəhliz yerləşirmiş və onlar şərqdən əsas binaya birləşirdi. 1 saylı otağa bitişik, ondan şimalda, qazıntının şərq divarı boyunca 1B-4D kvadratlarında yerləşən otağın qərb tərəfinin qalıqları zolaq şəklində üzə çıxarılıb. Onun əsas hissəsi qazıntı sahəsindən kənarda, şərqdə qalır. Otağın içərisində, 1C saylı kvadratda dörd təndir qalıqları aşkarlanıb. Üzə çıxarılan təndirlərdən ikisi ayrı-ayrılıqda, ikisi isə biri-digərinin içərisində yerləşir. Təndirlərdən şimal-şərqdə bişmiş kərpic parçalarından, yastı çay daşlarından və tava daşlardən döşəmə qalığı qeydə alınıb. 2 saylı otaqdan şimalda qazıntı sahəsinin şimal-şərq küncündə, 1E kvadratında yerləşən 3 saylı otağın şimal və şərq divarları qazıntı sahəsindən kənardadır. Otağın təmizlənmiş hissəsi dördbucaq biçimdədir, şimal tərəfində bişmiş kərpicdən döşəmə zolaq şəklində, 1,1 m enində qalıb. Kərpiclərin ölçüsü 20 x 20 x 5 sm, 21 x 21 x5 sm. Otağın qərb divarı yaxınlığında təndir və ocaq qalıqları üzə çıxarılıb. Təndirin diametri 46-48 sm, salamat qalmış divarlarının hündürlüyü 32 sm-dir. Ocaq bişmiş kərpicləri dikinə qoymaqla beşkünclü qurulub.

1 saylı otaqdan vaxtilə kiçik qapı açırımı ilə dar dəhlizə və digər otaqlara keçmək olurmuş. Qapı yerinin eni 78 sm-dir. Dəhlizin eni isə 1,1 m idi. Dəhlizin cənubunda kiçik, dördbucaqlı otağa qapı vardır. Bu otağın uzunluğu 2,65 m, eni 1,9 m olub divarları bişmiş kərpic və çaydaşından konbinə üsulu ilə hörülüb. Otağın şərq divarında eni 84 sm olan qapı açırımı vardır. Otağın divarlarının hörgüsünün dörd cərgəsi salamat qalıb. Diqqəti çəkən məqamlardan biri otağın şimal-şərq küncünün dördkünc çıxıntı şəklində həll edilməsidir. Otağının şimal divarı əvvəlki dövrə, görünür, XII əsrin əvvəlinə aid təndirin cənub tərəfinin üzərində yerləşir. Həmin təndirin diametri 63-65 sm-dir. 4 saylı otaqdan şimalda yerləşən 5 saylı otaq daha çox dağıntıya məruz qaldığından onun plan quruluşunu müəyyənləşdirmək mümkün olmayıb. Dördbucaq biçimli əsas binanın içərisi arakəsmə divarlarla müxtəlif ölçüdə, böyük və kiçik ölçülü otaqlara bölünmüşdü. 5 saylı otaqdan qərbdə yerləşən dördbucaqlı biçimdə otaq bişmiş kərpiclə döşənmişdi. Ondan cənubda yerləşən otaq isə arakəsmələrlə daha kiçik yerləşgələrə bölünmüşdü. Bu otaqlardan qərbdə yerləşən 8 və 9 saylı otaqlardan sonuncu bişmiş kərpiclə döşənmişdi. Bişmiş kərpiclərin ölçüləri 21 x 21 x 4 sm, 22x22x4 sm, 23x23x5 sm. Otaqların arasındakı divarın qalığı isə bəzəkli olması ilə fərqlənir. Divara düzbucaq, üçbucaq, trapes, rombşəkilli kiçik ölçülü kərpiclərlə həndəsi naxış salınmışdır. Bəzəkli divarın qalığının uzunluğu 4 m, hündürlüyü isə 60 sm-dir. 9 saylı otağın cənub-qərb küncündə təndir və ona birləşən, kərpiclərdən qurulmuş düzbucaq biçimli ocaq aşkarlanıb. Bu otaqlardan qərbdə düzbucaq biçimli uzunluğu

11,4 m, eni 3,6 m olan 10 saylı otağın qalıqları yerləşir. Onun içərisində səviyyələri fərqlənən müxtəlif hündürlüklərdə olan bişmiş kərpicdən döşəmələr vardır. Cənub-qərb küncündə təndir qalıqları və yerə basdırılmış təsərrüfat küpünün aşağı hissəsi (diametri 74 sm) aşkarlanıb. 10 saylı otaqdan şimalda, qazıntı sahəsinin şimal-qərbində daha bir otağın qalıqları üzə çıxarılıb. Onun şimal və qərb divarları qazıntı sahəsindən kənarda qalır. Bu otaqda iki təndir aşkarlanıb. Qazıntı sahəsinin şimalında, 2-4 E kvadratlarında yerləşən tikili qalıqları da, görünür, bu kompleksə daxildir. Burada bişmiş kərpicdən döşəmə, onun mərkəzində kiçik, silindrik təndir, döşəmənin kənarlarında daha iki təndir, yerə basdırılmış (gövdəsinin diametri 80 sm) küpün aşağı hissəsi aşkarlanıb.


Qazıntı sahəsinin cənub tərəfində, 3A kvadratında uzunluğu 46 sm olan tünglərdən quraşdırılmış cənub-şərqdən şimal-qərbə istiqamətlənmiş su kəmərinin qalıqları aşkarlanıb. Kəmər qalığının uzunluğu 2,03 m-dir.

VII qazıntı sahəsində aparılan arxeoloji tədqiqatların ilkin nəticələri şəhərin şəhristan hissəsində çox-otaqlı, mürəkkəb plan quruluşuna malik, yüksək bədiiliyi ilə fərqlənən monumental binaların mövcudluğunu, şəhər memarlığında bişmiş kərpicin dekorativ imkanlarından yaradıcılıqla istifadə edildiyini nümayiş etdirir.



Şəkil 5. VII qazıntı sahəsindən görünüş.


Şəhər istehkamlarının tədqiqini dərinləşdirmək məqsədi ilə abidənin şəhristan hissəsinin cənub-qərb küncündə 40 x 20 m olmaqla VIII qazıntı sahəsi qoyulmuşdur. Arxeoloji qazıntılar nəticəsində şəhristanın qərb, cənub divarlarının, cənub-qərb künc bürcünün tədqiqinə başlanıb. Üzə çıxarılmış şəhərin qərb divarının qalıqlarının uzunluğu 38 m, hündürlüyü 1,35-1,6 m-dir. Cənub-qərb künc bürcünün diametri 14,6 m, radiusu 1,7 m, qövsü 29,2 m-dir. Cənub-qərb künc bürcündən 13,5 m şimalda qərb divarında yarımdairəvi planda, kəsikdə yarımsilindr formalı kiçik divaradayaq üzə çıxarılıb. Onun divar xəttindən çıxıntısı 1,5 m, diametr 2,1m, qövsü isə 3,3 m təşkil edir. Götürülən mədəni təbəqə bişmiş kərpic parçaları, çaydaşları ilə zəngin torpaqla səciyyələnir. Qazıntı sahəsinin 8A və 9A kvadratlarında, qala divarından 4,6 m qərbdə şimaldan cənuba istiqamətlənmiş çaydaşından divar qalıqları üzə çıxarılıb. Həmin qalıqların uzunluğu 5,8 m, eni 60 sm-dir.




VII QAZINTI
SAHƏSİNİN PLANI


2011-ci ildə arxeoloji qazıntılardan aşkar edilmiş tapıntılar əmək alətlərindən və silah nümunələrindən, şirli və şirsiz saxsı, fayans qab-qacaqdan, memarlıq bəzəyindən, metal məmulatından, şüşə qab fraqmentlərindən, bəzək əşyalarından və sikkələrdən ibarətdir. Əmək alətləri oraq, kərki, qələm, qarmaq, bıçaq, kirkirə, bizlərlə təmsil olunub. Tapıntılar arasında saxsı məmulatı tam üstünlük təşkil edir. Şirsiz saxsı məmulatı küp, səhəng, küpə, qazan, qapaq, bardaq, dolça, lüləyin, aftafa, sferokonus, çıraq və piydanlarla təmsil olunub. Şirli saxsı məmulatı arasında həm IX-X əsrlər üçün səciyyəvi erkən şirli saxsı qab nümunələri, həm də XI-XIII əsrin əvvəlinin şirli qab tipləri vardır. XI-XII əsrlərin polixrom şirli saxsı qab nümunələri yüksək bədiiliyi ilə fərqlənir. Fayans qab nümunələrindən halqavari oturacağı, armudvari aşağıya doğru daralan gövdəsi, gen silindrik boğazı, kənarı yana qatlanmış ağzı, boğaz və gövdənin yuxarısına yapışdırılmış qulpları olan vaza tipli qab böyük maraq doğurur. Boğaz və qulpları qismən sınmışdır. Bayır tərəfdən göy,

içəridən boz şirlə şirlənmişdir. 2011-ci ilin maraqlı tapıntıları sırasında başlığı quş fiquru formasında sancağı, iki lüləli tunc çırağı, mis nimçənin 2/3 hissəsini də qeyd etmək olar. Şüşə qab qırıqları əvvəlki illərdə olduğu kimi əsasən məişətdə işlədilən süfrə qabların və flakonların fraqmentlərindən ibarətdir. Numizmatik materiallar əsasən mis sikkələrdən ibarətdir. Bununla yanaşı VI qazıntı sahəsindən Bizans hökmdarı X Konistantin Dukanın adından zərb olunmuş qızıl sikkə, Şəddadilərin gümüş dirhəmləri vardır. Monimental binanın üç saylı otağından tapılmış gümüş sikkələr dəfinəsi xüsusi qeyd edilməlidir. Dəfinədə olan 11 sikkədən dördü professor Əli Rəcəbli tərəfindən təyin edilib. Bu gümüş sikkələr Şəddadi hökmdarı Fəzil İbn Məhəmmədin adından zərb olunub. Diqqəti çəkən onların kobud toxunmuş parcadan tikilmiş pul kisəciyində tapılmasıdır. Kisəciyin yalnız alt hissəsi salamat qalıb.



VIII QAZINTI SAHƏSİNİN PLANI





2011-ci il qazıntıları zəngin memarlıq bəzəyinin – bəzək kərpiclərin aşkarlanması ilə əlamətdar olmuşdur. Onlar düzbucaq, üçbucaq, trapes, rombşəkillidir. İnşaat keramikası içərisində şirli kirəmitlər, kaşı nümunələri də vardır.

2011-ci ildə Şəmkir şəhər yerində aparılmış arxeoloji qazıntıların başlıca nəticələri aşağıdakılardan ibarətdir:

1. Şəhərin erkən dəmir dövrünə aid yaşayış yeri və onun qəbiristanlığı üzərində salındığı müəyyənləşdirilib;
2. Şəhərin narınqalasının şimal divarının içəri tərəfdən tədqiqi nəticəsində bu istehkam tikilisi haqqında daha dolğun məlumat əldə olunub, onun inşa dövrü dəqiqləşdirilib;
3. Tədqiqinə 2008-ci ildən başlanılan monumental binanın plan quruluşu və konsruktiv xüsusiyyətləri ilə bağlı çox mühüm dəqiqləşdirmələr aparılıb;
4. Abidənin şəhristan hissəsində, VII qazıntı sahəsində XII-XIII əsrin əvvəllərində şəhərin memarlıq simasında özünə məxsus rol oynamış binanın qalıqları üzə çıxarılaraq tədqiqinə başlanılıb.

Arxeoloji qazıntılar nəticəsində üzə çıxarılan şəhərin qala divarlarında və bürclərində mövcud vəziyyətindən asılı olaraq konservasiya-möhkəmləndirmə işləri aparılıb. Narınqalanın şimal-şərq bürcünə paralel, III və V qazıntı sahələrinin sərhədində yerləşən şəhristanın bürcü təcili konservasiya işlərinin aparılmasını tələb edən memarlıq elementlərindən idi. Bürcün hörgüsünün orta hissəsində dərinliyi 2,5-2,6 m, səthi sahəsi 2 m^2 çatan uçqunlar var idi. Bu bürcdə konservasiya işləri iki mərhələdə aparıldı. İlk növbədə uçmaq ehtimalı böyük olan dərin, səthi geniş dağıntı hissələrində divarın strukturuna uyğun müvafiq möhkəmləndirmə işləri aparıldı, dərin oyuqlar dolduruldu. İkinci mərhələdə xüsusi dəzgahın köməyi ilə bürcdəki şaquli maililik müəyyənləşdirildi. Uçqun dərinlikləri dəqiq hesablanıldı. Dağıntının sxemi və hesablamalar əsasında bu memarlıq elementində konservasiya-möhkəmləndirmə işlərinin

qismən bərpa ilə birgə aparılmasının məqsədəuyğunluğu ortaya çıxdı. Müvafiq olaraq bu bürcdə konservasiya-möhkəmləndirmə işləri ilə yanaşı, həm də qismən bərpa işləri görüldü və üzlük qata qədər divar möhkəmləndirildi.

Konservasiya işləri V qazıntı sahəsində üzə çıxarılmış şəhər divarlarında da aparılıb. Narınqalanın şimal divarına paralel şəhər divarı şimala döndükdən sonra onun yuxarı hörgüsü daha çox dağıntıya, uçquna məruz qalmışdı. Dağıntının dərinliyi bu hissədə 1,5 m çatırdı. Divar qalıqlarının üzə çıxarılması və təmizlənməsindən sonra aşınmasının, dağıntının dərinləşməsinin qarşısının alınması məqsədi ilə burada konservasiya və qismən bərpa işləri aparıldı.

IV və V qazıntı sahələrinin sərhədində üzə çıxarılmış narınqalanın şimal divarının qalıqlarının ciy kərpic hörgüsü qaneedici vəziyyətdə olmayıb, güclü dağıntıya və deformasiyaya uğramışdı. Dağıntı şimal tərəfdə xüsusilə böyük miqyasda idi. Çiy kərpic hörgünün salamat qalmış qalıqlarının bəzi hissələrdə qalınlığı 25-50 sm təşkil edirdi. Çiy kərpic hörgünün dağılma sxemi çəkildikdə aydın oldu ki, şimal tərəfdən hörgünün dağılma dərinliyi 90 sm-dən 2, 78 m-dəkdir. IV qazıntı sahəsində narınqalanın şimal divarının içəri tərəfdən təmizlənməsindən sonra təcili konservasiya işlərinin aparılması zərurəti daha da artdı. Belə ki, təbii təsirlər – yağış, qar, şaxta və s. nəticəsində çiy kərpic hörgünün dağılması təhlükəsi olduqca böyük idi. Bunu nəzərə alaraq eyni tərkibli, 30x30x8 sm ölçüdə çiy kərpiclər kəsilərək quruduldu, dağılmış sahə orta əsr inşaat texnikasına uyğun hörülərək divar möhkəmləndirildi. Konservasiyanın gedişatında hörgünün hər kubu üçün 133 çiy kərpic işlədildi.

Narınqalanın qərb divarı giriş bürcündən cənubda, divaradayaq qarşısında içəri tərəfdən güclü dağıntıya məruz qalaraq deformasiyaya uğramış, ilkin görünüşünü itirmişdi. Dağıntı divarın dayanaqlığını təmin edən hörgünün özək qatına qədər nüfuz etmiş, dərinliyi 2,5 m-dən artıq olan oyuq əmələ gəlmişdi və oyuğun ətrafında müxtəlif istiqamətli çatlar izlənilirdi. Divarın bu hissəsinin kiçik bir təkan və ya qar, şaxta təsiri altında dağılaraq tanınmaz hala düşməsi təhlükəsi vardı. Xoşa gəlməz hadisəni qabaqlamaq məqsədi ilə zəruri konservasiya-bərpa işləri aparıldı. İlk olaraq hörgünün özək qatı möhkəmləndirildi, dağıntının dərinliyi 2,5 m-dən 1,7 m-ə endirildi. Daha sonra dağıntının sxeminə və hesablamalara əsasən səthi 35,2 kv.m təşkil edən sahədə konservasiya, qismən bərpa işləri görüldü.

Т.М.Достиев, Р.Ю.Баширов,
Н.Н.Гусейнли, Р.Г.Мирзаев

АРХЕОЛОГИЧЕСКИЕ РАСКОПКИ НА ГОРОДИЩЕ ШАМКИР

РЕЗЮМЕ

В 2011 году на городище Шамкир велись стационарные, широкомасштабные археологические раскопки, которые охватили пять участков (раскопы IV-VIII). На раскопе IV большое значение имело изучение северной стены цитадели и остатков монументального здания, окруженного замком. Северная стена цитадели изнутри изучена до фундамента. Фундамент заложен из речного камня и срезает культурные напластования IX-X вв. Нижние ряды стены высотой 1,08-1,18 м, выложены из обожженого кирпича, затем идет сырцовая кладка. В 10,7 м к югу от северной стены цитадели выявлены и изучены остатки северной стены замка, окружающего монументальное здание. Высота остатков стены более 4 м. В восточной части монументального здания были раскопаны комнаты № 2 и 3. Строительные остатки, выявленные в пространстве между стенами цитадели и замка, относятся к различным периодам средневековья и имеют различное назначение.

В нижнем ярусе раскопа V археологическими раскопками изучено инженерное устройство. Вероятно, здесь мы имеем дело с канализационным сооружением общегородского характера.

Раскоп VI был расширен на север и ныне его площадь составляет 640 кв.м. Верхний культурный слой толщиной 40-50 см, относится к XVIII-XIX вв. В этом слое были выявлены руины жилых помещений. Большой интерес представляют результаты исследования средневекового слоя. Выявлены и исследованы остатки канализационной линии XII века. Остатки канализации были изучены на протяжении 18,3 м. Успешными были исследования жилого комплекса XI века. В новых квадратах раскопа VI вскрыто продолжение этого комплекса. Заслуживают внимания остатки помещения этого комплекса, расположенные в квадрате 2H-3H. Сохранились три ряда кладки. В строительном горизонте IX-X вв. средневекового культурного слоя выявлены и изучены хозяйственные ямы, тендиры, очаги, фундаменты строений и т.д.

В квадрате 3D раскопа VI под слоем IX-X вв. выявлена и исследована грунтовая могила раннего железного века. Скелет лежал в скорченном положении головой на запад. К северу от черепа лежали керамические сосуды. На руке был бронзовый браслет. В области шеи разбросаны бусы и подвески из сердолика и травертина.

Для дальнейшего изучения культурного слоя городища в центральной части шахристана заложен раскоп VII, размером 20 х20 м. Установлено, что строительные остатки, обнаруженные на раскопе VII, принадлежат большому комплексу. На глубине 0,9-1,1 м были вскрыты руины здания, вероятно общественного характера. Первичные результаты археологического исследования раскопа VII свидетельствуют о функционировании в центральной части шахристана многокомнатных монументальных зданий с высокохудожественным оформлением.

С целью углубления изучения фортификации средневекового Шамкира, в юго-западном углу крепостной стены шахристана был заложен раскоп VIII. На раскопе VIII началось исследование остатков западной и южной стен и юго-западной башни шахристана. Вскрыта юго-западная угловая башня.

Находки из археологических раскопок представлены орудиями труда, оружием, неполивной и поливной керамикой, архитектурным декором, металлическими изделиями, фрагментами стеклянных сосудов, предметами украшения и монетами.

В 2011 году одним из направлений деятельности Шамкирской археологической экспедиции была работа по консервации сооружений, выявленных при археологических раскопках. В соответствии с этим продолжалась работа по консервации на крепостных стенах цитадели и шахристана.

T.M.Dostiyev, R.Y.Bashirov,
N.N.Huseynli, R.H.Mirzayev

THE ARCHAEOLOGICAL EXCAVATIONS IN SHAMKIR TOWN

SUMMARY

Stationary, wide-skale archaeological researches, covered five excavations (the 4-th - 8-th sites) were conducted in Shamkir town in 2011. In the 4-th excavation site the studying of the citadel northern wall and the monumental building remains, surround by the castle, was very significant.

The remains of the fortified buildings, the agricultural and everyday life constructions, and the continuation of the monumental building remains were uncovered in the low 4m power medieval layer. The northern wall of the citadel has been studied up to the foundation. The foundation was set by river pebble and it gets into the 9-10th centuries cultural stratification. The low rows of the 1.08-1.18m high wall were set by the fired brick, followed by the mud-brick setting. 10.7m to the South from the citadel northern wall there have been found and studied the northern wall remains of the castle, surrounding the monumental building. The height of the wall remains is more than 4m. The rooms No2 and No3 were uncovered in the eastern part of the monumental building. The construction remains, found between the citadel and castle walls, refer to the different periods of the Middle Ages and have different appointments.

The archeological excavations included the studies of an engineering construction in the lower circle of the 5th site. Perhaps, we have got a total town sewerage system.

The 6th site was enlarged to the North in order to continue the researches of the 11th century residential complex and now the area of this site is 640 m. The upper cultural layer with its 40-50cm thickness refers to the 18-19th centuries. The ruins of the residential places were determined in this layer.

The results of the medieval layer researches are of great interest. The remains of the sewerage system have been defined and studied. The studied part of the sewerage system is 18.3m. The studies of the 11th century residential complex were satisfying. The continuation of this complex was uncovered in the new squares of the 6th site. The room remains of this complex in the squares 2H-3H deserves attention. Three setting rows have been preserved.

In the 9-10th centuries constructing horizon of the medieval cultural layer there have been studied the agricultural holes, tandirs, fireplaces, foundations of constructions and so on. The soil grave of an Early Iron Age has been uncovered and studied in the square 3D of the 6th site under the 9-10th centuries layer. The skeleton was in position with its head to the West. The ceramic vessels were to the North from the skull. There was a bronze bracelet on its hand. Cornelian and limestone beads and necklaces were thrown around the neck. The copper necklace was, probably, on the chest.

For the further studies of the town cultural layer there was set a 20x20m 7th site in the central part of shahristan. It has been defined that the construction remains, found in the 7th site, refer to a large complex. The ruins of a public building were uncovered at the depth of 0.9-1.1m. The first results of the 7th site archeological researches prove functioning of the highly designed multi-roomed monumental buildings in the central part of shahristan.

For the further studies of the medieval Shamkir fortification the 8th site was set in the south-western corner of the shahristan tower wall. The studies of the western and southern walls and the south-western tower of shahristan were started in the 8th site. The south-eastern corner tower was uncovered.

The archeological excavation finds include tools, weapons, glazed and simple pottery, architectural ornaments, metallic products, fragments of the glass vessels, decorations and coins.

One of the ways of the activity of the Shamkir archeological expedition in 2011 was the conservation of the constructions. The conservations of the citadel and shahristan tower walls were continued alongside with it.

GƏNCƏDƏ ARXEOLOJİ TƏDQİQATLAR
(Gəncə şəhəri, Goranboy rayonu)

A.M.Məmmədov, T.V.Əliyev

Gəncə arxeoloji ekspedisiyası 2011-ci ilin iyul – avqust aylarında Gəncəbasarda, Goranboy rayonunda arxeoloji qazıntı işləri aparmışdır. Arxeoloji tədqiqatlar 2011-ci ilin fevral ayında aparılmış arxeoloji kəşfiyyat işinə əsasən müəyyən edilmiş ərazidə davam etdirilmiş və əsaslı elmi faktlar üzə çıxarılmışdır. Ekspedisiya üzvləri tərəfindən Goranboy rayonunun Kələk kəndi ərazisində yerləşən orta əsr kərpic kürəxanası aşkar olunmuş və burada arxeoloji qazıntı işləri aparılmışdır.

Arxeoloji qazıntı sahəsi Kələk kəndinin şimal tərəfində yerləşmişdir. Qazıntı sahəsi şimaldan cənuba doğru 8 metr, şərqdən qərbə doğru 10 metrdir (arxeoloji qazıntı sahəsi 80 m^2) (1-ci şəkil).

Aparılan arxeoloji tədqiqatlar dulus kürəsinin IX–XII əsrlərdə istifadə olunduğunu göstərmişdir. Kürəxana oval formalıdır. Onun orta hissəsində 3 düz formalı yarus, həmin düz formalı yarusların şimalında, yəni kürəxananın girəcək hissəsində və cənubunda yarımdairə formalı yaruslar mövcuddur. Kürəxananın içərisində yarusların alt hissəsində sütunlar yerləşir. Sütunların yan hissəsindən tunel formalı keçid var. Arxeoloji qazıntılar zamanı keramika nümunələrinin oturacaq hissələri aşkar olunmuşdur.

Kərpic kürəxanasının hər bir yarusunun uzunluğu 5 metr, eni isə 1 metrdir. Yarımdairəvi yarusların eni isə 0,4 metrdir.

Arxeoloji qazıntı zamanı tədqiq olunan kərpic kürəxanasının ətrafı obyektin quruluşuna uyğun olaraq 1 metr dərinliyində qazıldı. Şimal hissədəki yarusun orta hissəsi təmizləndi.

Kürəxananın içəri hissəsində 4 yarusun altı təmizləndi, 2 metr dərinlikdə döşəməyə rast gəlindi. Kürəxananın girişində diametri 0,5 metr olan boru (bad) aşkar olundu (2-ci şəkil).

Kürəxananın tikintisində istifadə olunan kərpiclərin uzunluğu 20 sm, qalınlığı 5 sm, eni 10 sm-dir. Kərpic kürəxanasının yaruslarının eni aşağı hissədə 1,5 metr, orta hissədə 1 metr, yuxarı hissədə 0,5 metrdir. Yaruslar arasındakı məsafə 0,5 metrdir. Sütunun hündürlüyü 1 metrdir. Eni kvadrat formalıdır, 0,5 x 0,5 metr ölçüdədir.

Aşkar olunmuş borunun (bad) diametri 0,5 metrdir. Bad formalı boru şimala doğru uzanır. Yarusların (kürəxananın mərkəzində yerləşən düz formalı yarusların tağ hissəsində) eni 2,5 metrdir. Bu ölçü onların aşağı hissəsinə aiddir. Orta hissədə bu ölçü 2 metr, yuxarı hissədə 1,5 metrdir. Yarusların arka hissəsində qalınlığı 0,5 metrdir. Sütunun hünlürlüyü 1 metr olduğundan arkaların da maksimum hündürlüyü 1 metrdir. Yarusların tağ hissəsi istisna olmaqla kənar hissəsinin uzunluğu yuxarı hissədə 1,2 metr, orta hissədə 1 metr, aşağı hissədə 0,8 metrdir. Tağların arası 0,5 metr, kənar hissələrinin arası 0,3 metrdir.

Arxeoloji tədqiqatlar göstərir ki, kərpic kürəxanasında yaxınlıqda yerləşmiş kənd tipli və şəhər tipli yaşayış yerlərinin təminatı üçün kərpic istehsal olunmuşdur.

Tədqiq olunan kərpic kürəxanasında istehsal edilən materiallardan orta əsr Gəncə və Şutur şəhərlərinin tikintisində də istifadə edilmişdir. Görünür, Kələk kəndinin ərazisində xammal ehtiyatının bolluğu, su və yanacaq mənbəyinin, işçi qüvvəsinin olması kürəxananın burada tikilməsinə imkan vermişdir. Kürəxana həm də iki böyük orta əsr şəhərləri olan Gəncə və Şuturdan təxminən eyni məsafədə yerləşir. Görünür, hazır məhsulun daşınması xammalın daşınmasından daha ucuz başa gəldiyi üçün kürəxananın tikilməsi üçün belə bir yer seçilmişdir. Gəncə və onun ətrafında kərpic kürəxanalarının mövcudluğu ilə bağlı Nizami Gəncəvinin «Kərpickəsən kişinin dastanı» əsərində də məlumat verilir.

Gəncə arxeoloji ekspedisiyasının üzvləri tərəfindən 2011-ci ildə qədim Gəncənin ərazisi hesab edilən Şəhər burnunda aparılan arxeoloji tədqiqatlar şəhərin salınmasına dair yeni məlumatlar üzə çıxardı. Kür çayının Mingəçevir su anbarına töküldüyü yerə yaxın məsafədə, Kürün köhnə yatağının sağ sahilində

gəmilərin dayanması üçün «Buxta» və onun yaxınlığında yüklərin yerləşdirilməsi və müsafirlərin gecələməsi üçün nəzərdə tutulan müsafirxana olduğu müəyyənləşdirildi (4-cü şəkil). Buxtanın dayanacağının eni 7m 20 sm, hər qolun qalınlığı 1m 60 sm-dir. Sütunlar yonulmamış daşdan kirəc məhlulu ilə hörülmüşdür. Bu bir daha sübut edir ki, antik müəlliflərdən Strabon, Yuli Solin, Böyük Plini və s. söylədikləri kimi Kür çayı eramızdan əvvəlki dövrlərdə gəmiçilik üçün yararlı olmuşdur. Arxeoloji tədqiqatlar sübut edir ki, məhz buna görə də qədim iri yaşayış məskənləri Kür çayı boyunca salınmışdır.

Şəhər burnu yaşayış yerində 5x20 metr ölçüdə götürülmüş sahə dörd kvadrata bölünərək tədqiq olunmuşdur. Burada əsasən iki mədəni təbəqənin olduğu müəyyənləşdirilmişdir. I mədəni təbəqə III-IX, ikinci mədəni təbəqə isə e.ə III - b.e II – III əsrlərini əhatə edir. I mədəni təbəqədən əsasən iri və orta həcmli təsərrüfat küpləri və onların hissələri (3-cü şəkil), iri xeyrə tipli qablar, kirkirə daşları, səntkarlıqda istiadə edilən daş və gildən hazırlanmış alətlər rəng vurmaq üçün möhürlər, II mədəni təbəqədən isə əsasən e.ə III – b.e. II əsrlərinə aid saxsı qablar, metal qırıntıları, b.e I əsrinə aid şüşə qabın hissələri və s. əldə edilmişdir. Tədqiqatların nəticələri e.ə V-IV əsrlərdə bu ərazidə yüksək dərəcədə inkişaf etmiş həm liman, həm də ticarət mərkəzi kimi mövcud olmuş bir şəhərin olduğunu söyləməyə imkan verir. Bu şəhər antik Gəncə olmuşdur. Beləliklə, Gəncə bölgəsində aparılan arxeoloji tədqiqatların nəticələri burada yaşayışın hələ daş dövründən başlandığını, tarixin sonrakı mərhələlərində ardıcıl olaraq davam etdiyini, e.ə II minilliyin sonu – I minilliyin başlanğıcında burada yaşayışın daha da intensivləşdiyini və ərazidə şəhər tipli yaşayış məskənlərinin yarandığını, antik dövrdə onların ticarət, sənət və mədəniyyət mərkəzləri kimi öz inkişafının ən uca zirvəsinə yüksəldiyini söyləməyə əsas verir.

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu İlk orta əsrlər arxeologiyası şöbəsinin əməkdaşları Goranboy rayonunun Nərimanlı kəndində həyətyanı sahədə təsəruffat quyusu qazılarkən aşkarlanmış küp qəbirlər və avadanlıqları qeydə almışlar. Onlardan biri uşaq qəbridir. Qəbrin içərisindən kiçik ölçülü antik dövrə aid şamdan, qənddan tipli qablar, duzqabı və digər məişət qabları və bir ədəd gözmuncuğu hesab edilən qara rəngli muncuq tapılmışdır. Şöbə əməkdaşları arxeoloji kəşfiyyat işlərini davam etdirərək həmin qəbristanlığa aid yaşayış yerini qeydə almışlar. Yerli əhali arasında İsgəndər təpəsi adlanan bu abidə antik və ilk orta əsrlər dövrünə aiddir. Onun bir hissəsi 1963-cü ildə təsərrüfat işləri ilə əlaqədar dağıdılsa da, qalan ərazilərdə arxeoloji tədqiqat işlərinin aparılması nəzərdə tutulur. Küp qəbirlər e.ə IV-III əsrlərə aid edilir.

Gəncə arxeoloji ekspedisiyasının üzvləri təsadüfi tapıntılarla əlaqədar olaraq Ağdaş rayonunun Aşağı Nemətabad kəndi ərazisində arxeoloji kəşfiyyat işləri aparmışlar. Kənd Bakı-Mingəçevir yolunun 275 km-də, yolun sol hissəsində, Orta əsr Ərəş şəhər yerindən təxminən 3-4 km cənub-şərqdə, Əlicançayın sol sahilində yerləşir.

Aşağı Nemətabad qəbristanlığında apardığımız arxeoloji kəşfiyyat işi zamanı ərazidə orta əsrlərə məxsus qəbir abidələrinin və epiqrafik abidələrin olduğu müəyyənləşdirilmişdir. Qəbristanlığın cənub-qərb hissəsi, demək olar ki, tamamilə orta əsr qəbirləri ilə seçilir. Ola bilisin ki, burada daha qədim qəbirlər də mövcuddur. Lakin onların baş daşları taxtadan olduğundan və üzərində heç bir yazı olmadığından əsaslı bir məlumat söyləmək mümkün deyil. Qeyd edək ki, görünən qəbir abidələrinin hamısı müsəlman qəbirləridir. Qəbristanlıq böyük bir ərazini əhatə edir.

Bir ədəd övliya qəbrinin üzərində mövcud olan ərəbcə yazının oxunması nəticəsində həmin qəbrin XII əsrə, daha dəqiq desək, hicri 538-ci (miladi 1145/46) ilə aid olduğunu söyləmək mümkün olmuşdur. Yazıdakı məlumatlara görə, bu övliyanın adı Şeyx Seyyid Həsən Gah olmuşdur. Daha sonra yazılır: «Bu dünyada nə qədər yaşasan fanidir, əbədi dünyamız axirətdir». Axund Hacı Əfəndinin məlumatlarına görə, Şeyx Seyyid Həsən Gah Hz.Hüseynin nəslindəndir. O, XI əsrdə Ərəbistan yarımadasından bu əraziyə gəlmiş və ömrünün sonuna qədər burada yaşamışdır. Əhali arasında Babalar ziyarətgahı kimi tanınan bu yerdə həmin övliya ilə yanaşı, onun nəslindən olanlar da dəfn olunmuşdur. Məlumatlara görə, yaşadığı dövrdə Şeyx Seyyid Həsən Gah bu ərazidə torpaqları suvarmaq üçün su olmadığından əhaliyə kömək məqsədi ilə Əlicançaydan su gətirmək istəmiş, lakin su verilməmişdir. Bu gün kəndə gələn su, maraqlıdır ki, həqiqətən yaxınlıqda yerləşən Əlicançaydan yox, Türyançaydan axır. Həmin qobunun uzunluğu 30-35 km-dir. Suyu isə heç vaxt qurumur.



1-ci şəkil. Kələk kəndindəki kürəxananın ümumi görünüşü.



2-ci şəkil. Kələk kürəxanasının daxildən görünüşü.



3-cü şəkil. Şəhərburnundan aşkarlanmış təsərrüfat tipli qab.



4-cü şəkil. Şəhərburnunda hücrə qalığı.

А.М.Мамедов, Т.В.Алиев

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ГЯНДЖЕ

РЕЗЮМЕ

Гянджинская археологическая экспедиция в июле – августе 2011 года провела археологические исследования в Гянджабасаре, на месте средневековых кирпично - обжигательных печей на территории Геранбойского района. Было установлено, что обжигательные печи относятся к IX-XII вв. Кирпичи, изготовленные в этих печах, использовались при возведении крепостных стен средневековых городов.

Постройка печей на территории села Келеек, в первую очередь связана изобилием здесь сырьевых ресурсов, а также с тем, что перевозка готовой продукции обходилось дешевле, чем перевозка самого сырья.

Археологические исследования, проведенные на городском мысе показали, что в V-IV вв. до н.э. здесь функционировал высокоразвитый город, являющийся как портовым, так и торговым центром.

Экспедицией зафиксированы кувшинные погребения IV-III вв. до н.э. в селе Нариманлы Геранбойского района, а также некоторые средневековые памятники на территории села Ашагы Нематабад Евлахского района.

A.M.Mammadov, T.V.Aliyev

THE ARCHAEOLOGICAL EXCAVATIONS IN GANJA

SUMMARY

There were done the scientific researches by the members of Ganja archaeological expedition in Ganja and Goranboy (Kelek village) in the current year. It has found the bloomer place in the territory of Goranboy (Kelek village). The bloomer place is concerning to the IX–XII centuries. There were done important researches in the territory of the Antique and Early Middle Age city of Ganja. It was situated in the Samukh region.

ŞƏHRƏRGAHDA ARXEOLOJİ TƏDQİQATLARIN YENİ NƏTİCƏLƏRİ

(Kürdəmir rayonu)

Q.C.Cəbiyev, E.İ.Abbasova

Ağsu arxeoloji ekspedisiyası iki ay ərzində (16 iyul - 14 sentyabr) Ağsu və Kürdəmir rayonları ərazisindəki ilk orta əsr, orta əsr və son orta əsr abidələrində tədqiqat işləri aparmışdır. Arxeoloji axtarışlar əsasən Kürdəmir rayonunun Ərəbqubalı kəndi yaxınlığındakı "Şəhərgah" adlı orta əsr şəhər yerində aparılmışdır. Daha doğrusu tədqiqat işləri 2009–cu ildə öyrənilməsinə başlanılmış sahədə davam etdirilmişdir.

Qeyd edək ki, tədqiq olunan abidə təqribən 50 hektara qədər olan bir ərazini əhatə edir. Kənddə torpaq islahatları aparılan zaman "Şəhərgah" ərazisi də pay torpağı olaraq yerli sakinlər arasında bölüşdürülüb. Bu səbəbdən də ekspedisiya heyəti qazıntı işlərinə başlayarkən müəyyən çətinliklərlə üzləşdi. Belə ki, tədqiq etdiyimiz sahənin sahibi inadla bizi sahəni tərk etməyə təhrik etdi. O, ərazini şumlayaraq orada soğan əkmək niyyətində idi. Lakin bizim səylərimiz nəticəsində rayon rəhbərliyinin işə müdaxiləsindən sonra həmin vətəndaşa başqa ərazidə pay torpağı verilməsi qərara alındı. Ləkin bu da məsələnin tam həlli deyil. Çünki abidənin digər əraziləri də sahibkarlar tərəfindən mütəmadi olaraq həm şumlanır, həm də becərilir. Beləliklə, abidə fasiləsiz olaraq dağıntıya məruz qalır. Bundan əlavə, gələcəkdə abidənin digər yerlərində tədqiqat aparmaq zəruriyyəti yarananda yenidən sahibkarların etiraz və müqavimətləri ilə rastlaşmalı olacağıq. Odur ki, aidiyyatı dövlət qurumları məsələnin həlli yolunu tapmalı və problemi birdəfəlik həll etməlidirlər.

Xatırladaq ki, ötən ilki qazıntılarda öyrənilən sahə 160 kvadratmetr olmaqla Şirvan memarlıq üslubunda inşa olunan XII əsrə aid hamam – sağlamlıq kompleksi aşkara çıxarılıb. Kompleks 9 vanna, 2 buxarı, 1 ocaq-kürə və 3 qapı yeri və 5 otaqdan ibarətdir. Tikintinin şərq-qərb istiqamətində olan şimal divarının uzunluğu 11,5 m, dağıdılmış hissədə divarın hündürlüyü 1,6 m, şimal-cənub istiqamətində olan şərq divarının hündürlüyü isə 2,1 metrdir. 2010-cu il mövsümündə qazıntının sahəsi genişləndirilərək şərq-qərb istiqamətində olan şimal–şərq divarının uzunluğu 5 m, şimal-cənub istiqamətdə 3,30 m, kənarlara doğru isə 2 metr artırıldı. Beləliklə, şimal-şərq divarı 15,5 m, şimal-cənub istiqamətində divarın uzunluğu 12 m, eninə isə 4 metr genişləndirildi. Divarın bünövrəsi töküntü torpaqdan təmizləndi və həmin hissədə dərinlik 2 -2,5 metrə çatdırıldı. Torpaq töküntü tam təmizləndikdə hamam kompleksinin bünövrə hissəsinin yonulmuş mədən daşlarından inşa edildiyi məlum oldu. Divarların hörgüsündə müxtəlif ölçülü bişmiş kərpiclərdən (22 x 22 x 4; 24 x 24 x 5; 26,5 x 27,5 x 6,5: 27,5 x 27 x 7; 34,5 x 37,5 x 9 sm, tək-tək hallarda isə 40,5 sm), suvanmasında isə kirəc məhlulundan istifadə olunub. Divar suvağının qalınlığı 4-6, vannaların suvaqlarının qalınlığı isə 7-8 sm-dir.

Qazıntı işləri dərinə doğru davam etdirilərkən keçən il aşkar olunmuş hamam – sağlamlıq kompleksinin döşəməsi altında mükəmməl isitmə sistemi olduğu aşkara çıxarılmışdır. İsitmə sistemi cənub tərəfdəki otaqda olan ocaq-kürə vasitəsi ilə həyata keçirilmişdir. Ocaq-kürədən istilik digər otaqlara bişmiş kərpiclə səliqə ilə hörülmüş novlar vasitəsi ilə ötürülmüşdür. 1 saylı otaqda belə nov ötürücülərdən 4 ədədi qeydə alınmışdır. İstiliyin ötürülməsinə xidmət edən nov-ötürücülər şimal-cənub istiqamətindədir. Nov-ötürücülərdən bir-birinə xüsusi keçidlər var. Bu isə istiliyin eyni zamanda həm şimal-cənub, həm də şərq-qərb istiqamətində paylanmasına xidmət edir. Nov-keçidlərin içərisində güclü yanıq izləri qeydə alınıb. Kompleksdəki ocaq-kürə yandırılarkən onun tüstüsü 1 və 3 saylı otaqlar arasındakı divardakı qapı yerinin sağında və solunda olan bacalar vasitəsilə bayıra çıxıb.





Təbiidir ki, ictimai binaların döşəmə altında qurulmuş istilik şəbəkəsi vasitəsi ilə qızdırılması praktikası XII-XIII əsrlər dövrü üçün çox ciddi texniki-texnoloji yenilik idi. Bu, hər şeydən əvvəl binanın daxilində havanın sistemli olaraq təmiz saxlanılması, otaqların normal qızdırılması baxımından olduqca əhəmiyyətli idi.

Qazıntılar davam etdirilərkən sahənin cənub-şərq tərəfində daha bir neçə kiçik vanna yeri aşkar olundu. Şərq tərəfə doğru yeni artırılan sahədə isə bir neçə ədəd insan skeletinin qalıqları və kəllə sümükləri qeydə alındı. Skeletlər dəfn olunmayıb və ətrafa səpələnmiş vəziyyətdə idi. Diqqəti cəlb edən tapıntılardan biri də hamam-kompleksin şərq və cənub divarları altında səliqə ilə yonulmuş mədən daşından hörülmüş divar qalıqlarının aşkara çıxarılmasıdır. Divarın qalınlığı bəzi yerlərdə 1 m təşkil edir. Bu divar hamam – sağlamlıq kompleksi ilə müqayisədə daha erkən dövrə aiddir. Ətrafdan tapılan maddi mədəniyyət nümunələri abidənin həmin tikinti qalıqlarının X-XI əsrlərə aid olduğunu deməyə əsas verir.

Tədqiqatlar zamanı çoxsaylı digər maddi mədəniyyət nümunələri də aşkar olunub. Hazırda tapıntıların laboratoriya şəraitində öyrənilməsi davam etdirilməkdədir.

Şəhərgah abidəsindən başqa ekspedisiya Kürdəmir rayonu ərazisindəki bəzi digər orta əsr abidələrinə də baxış keçirmişdir. Belə ki, Girdimançayın sol sahilində və Muradxan kəndi yaxınlığında orta əsr yaşayış yerləri qeydə alınıb. Bunlardan əlavə, Ağsu rayonu ərazisindəki Mehrəvan şəhər yerində və Xəzinədağda müşahidə və yerüstü axtarışlar aparılıb. Ağsu son orta əsr şəhər yerində isə şəhərsalma məsələlərinin bəzi məqamlarını öyrənmək məqsədilə qazıntılar davam etdirilib.

Bir il əvvəl olduğu kimi 2010 – cu il tədqiqatları zamanı da olduqca zəngin və müxtəlif çeşidli maddi mədəniyyət qalıqları aşkar edilərək öyrənilib. Bu tapıntılar istifadə yerlərinə görə gildən hazırlanmış sadə məişət əşyaları, forma və dekor zənginliyi baxımından yüksək səviyyədə istehsal olunmuş şirli saxsı qablar, onların fraqmentləri, habelə əmək alətləri, yarımfabrikatlar, çıxdaşlar və s. aşkar edilmişdir.

Şəhərgah orta əsr yaşayış yerindən aşkar edilən şirsiz saxsı məmulatı forma və ölçüləri baxımından fərqlənən qazanlar, qapaqlar, qulplar, su qabları, küplər, bardaqlar, çıraqlar, gil çubuqlardan ibarətdir.

Qazanlar. Qazıntı sahəsində xörək bişirmək üçün istifadə olunan bir neçə qazan fraqmentləri aşkar edilib. Onlardan ikisi həcmcə nisbətən iri gövdəli qazanlara aid edilə bilər (14,15 1\2). Çiyin hissələrində yapma yolu ilə işlənmiş diş-diş bəzəkləri var. Nümunələrdən birinin çubuqvari (14), digərinin isə qulaqvari(15) qulpları olduğu güman edilir və hər ikisi qalındivarlıdırlar. Digər qazan nümunəsi nisbətən nazik divarlı olub çiyin hissədən ağzına doğru konusvari genişlənir (16). Gili qırmızımtıl rənglidir. Daxili və xarici səthləri his təbəqəsi ilə örtülüb və onların gilinin tərkibində irili - xırdalı qum qatışığı vardır.

Qapaqlar. Tədqiq olunan nümunələrin içərisində iki ədəd qapaq var. Onlardan birinin üst hissəsində tutmaq üçün yumru çıxıntısı və mərkəz hissədən ağzının kənarına doğru bərabər olmayan cızıqlarla bölünüb. Cızıqların üzəri dişəmə formasında bəzədilmiş, bir qədər enli hissələr arasında dörd batıq var. Gilinin rəngi qırmızımtıldır (inv.95). İkinci qapaq formaca nisbətən iri və bozumtul rəngdədir. Üzəri 4 ədəd batıq təsvir ilə kobud bəzədilib (17).

Təsərrüfat küplərinin Şəhərgah sakinlərinin məişətində xüsusi yeri olduğundan xəbər verir. Bu nümunələrdən birinin divarının qalınlığı 2, oturacağının hündürlüyü 10 sm olan qaramtıl (26).


Tapıntılar içərisində şirsiz saxsı qabların qulpları çoxluq təşkil edir. Onlar daha çox məişətdə istifadə edilən iri və orta həcmli qazanlara məxsusdur. Qazanlar forma və həcm baxımından fərqli olduqları kimi, onların qulpları da bir-birindən fərqlənirlər. Qulpların formalarına görə onları aşağıdakı kimi qruplaşdıra bilərik:

1) üçbucaq formalı, 2) lentvari formalı, 3) üçbucaqvari formalı, 4) halqavarı formalı.

Üçbucaq formalı qulplar əsasən qazanların ağzına yaxın, nisbətən iri qulplar isə çiynə yaxın hissədə bir qədər maili yapışdırılır. Kiçik qulpların uzunluğu 3, nisbətən iri olanların uzunluğu isə 5,5 sm, en kəsiyinin qalınlığı isə 2,7 – 3 sm-dir. Onların üzəri nöqtəvari, habelə batıqlarla (barmaq basmaqla) bəzədilib və qara his təbəqəsi ilə örtülüb. Belə qazan qulpları digər orta əsr yaşayış yerlərində aparılan arxeoloji qazıntılardan da məlumdur.

Nümunələrin bir qismini **lentvari** qulplar təşkil edir. Onların bir çoxlarının üstü qabırğavari, bir çoxu isə çubuqvaridir. Qulpların qazana birləşən enli hissəsində batıq naxışlar var. Belə qulplar qazanların daha çox çiyn hissəsinə yaxın olmaqla şaquli istiqamətdə bərkidilir. Tədqiqatçıların fikrincə, bu cür qazanlar ocağın üstünə qoyularkən qulpları çubuğa keçiriblər.

Digər qulplar üçbucaqvari və halqavarı qulplardır. Belə qulplar daha çox nehrələrə aiddir.



Qulpların gilinin rəngi qırmızımtıl olmaqla məsaməlidir və qara his təbəqəsi ilə örtülüb. Qulpların gilinin məsaməli olması onunla izah olunur ki, gili yad ünsürlərdən yaxşı təmizlənməyib.

Dulusçu ustalar saxsı qabların bişirilməsində bir çox ləvazimatlardan, üçayaq, dayaq, qarmaq və gil çubuqlardan istifadə edirdilər. Qazıntı zamanı tapılan ləvazimatlar içərisində gil çubuqlar çoxluq təşkil edirlər. Bu da onu deməyə əsas verir ki, saxsı qabların kürədə yerləşdirilməsi və bişirilməsində onlardan geniş istifadə edilmişdir.

Tapıntılar içərisində Orta əsrlərdə Azərbaycan əhalisinin məişətdə gündəlik istifadə etdikləri küpə, dopu, habelə müxtəlif formalı və müxtəlif həcmli su qabları çoxluq təşkil edir. Orada aşkar edilən səhənglərdən daha çox içməli su gətirmək üçün istifadə edilib. Məlum olduğu kimi saxsı səhənglərdə su həm sərin qalır, həm də süzülür. Tapılan nümunələr əsasən səhənglərin gövdə, (inv.1- 5; 63-65), ağız və

çiyin (inv.7,10) hissələrindən ibarətdir. Onlar həcm etibarı ilə iri və kiçik həcmlidirlər. Məlum olduğu kimi orta əsrlərdə dulusçular səhəngləri həm ailə üzvlərinin say tərkibinə görə, həm də yaşlarına uyğun olaraq hazırlayırdılar. Əgər cavan və orta yaşlılar iri səhənglərdən istifadə edirdilərsə, qoca, uşaq və yeniyetmələr nisbətən kiçik həcmli səhənglərdən istifadə edirdilər. İri həcmli səhənglərin hündürlüyü 30-50, oturacaqlarının diametri 6-12, ağız hissələrinin diametri 4-6, gövdələrinin təqribi diametri isə 20-22 sm arasındadır.

Şəhərgah orta əsr yaşayış yerində tapılan maddi mədəniyyət nümunələri içərisində bardaqlar da xüsusi yer tutur (inv.55-58).

Həcmlərinə və formalarına görə müxtəlif olan bardaqlardan əsasən süfrəyə su, şərab, meyvə şirəsi, şərbət, və s. maye verilib. Əkinçiliklə və maldarlıqla məşğul olanlar isti aylarda çöl işlərinə gedərkən bardaqlarda ayran və su ehtiyatları götürərdilər.

Bardaqlar forma etibarı ilə bir-birindən fərqlənən iki əsas yarımqrupa - enliboğaz və darboğaz, habelə ağızları süzgəcli və süzgəcsiz olmalarına görə iki tipə ayrılırlar. Şəhərgah qazıntıları zamanı daha çox tapılan nümunələr enliboğaz və süzgəcsiz bardaqlardır. Dabanlı oturacağının diametri 7, hündürlüyü 17, silindirvari gövdəsinin diametri 14,ağzının diametri 4,5 sm olan süzgəcli bardağın boğazı ilə gövdəsini birləşdirən çubuqvari qulpu var. Boğazının kənarı dairəvi, çiyin hissəsi isə gövdəyə doğru daraqvari alətlə şaquli cızıqlarla bəzədilib (inv.94). Digər bardaqların uzun və dar boğazları var. Çubuqvari qulpları qabın ağzının kənarı ilə gövdəsini (inv.58), bəzi hallarda isə qabın ağzından aşağı, boğaza yaxın (inv.57) hissədə gövdə ilə birləşir.

Şəhərgahdan tapılan aftafa tipli qablar forma etibarı ilə darboğazlı bardaqlara bənzəsə də lüləyə malik olmaları, habelə onların boğazlarının bardaq boğazlarından daha orjinal olmaları ilə fərqlənirlər (inv55). Qazıntı zamanı tapılan bir ədəd aftafanın gili bozumtul və məsaməlidir. Aftafalardan əsasən əl-üz yumaq, dəstəmaz almaq və s. məqsədlər üçün istifadə ediblər.

Şəhərgahda aparılan arxeoloji qazıntılar zamanı aşkar edilən şirsiz saxsı nümunələr içərisində məişətdə geniş istifadə olunan dolça və küpə tipli qablara da tez-tez təsadüf olunur. Küpələr formaca nehrə və iri təsərrüfat küplərinə, həcmcə sərniclərə oxşasalar da, onlardan fərqli olaraq qulpları və ağızlarında deşik olmur (inv.6,8). Küpələrin də ağzı nehrə ağızları kimi xaricə doğru yastı formada hamarlanıb. Bu da onların ağızlarının rahat bağlamağa yardım edir. Boğaz və çiyin hissələri qoşa nazik dalğavari xətlə sadə bəzədilib. Etnoqrafik müşahidələrə əsasən deyə bilərik ki, dağlıq ərazilərdə belə küpələrə yağ, ət qovurması yığılaraq qış aylarına tədarük görülərdi. Bundan əlavə, küpələrdə, həmçinin pendir, turşu - şoraba, bal və s. saxlanılırdı.

Digər şirsiz saxsı nümunələri kiçik həcmli dolça tipli qablardır. Həmin nümunələrdən birinin gövdəsinin diametri 13,5, hündürlüyü 14, oturacağının diametri 10 sm-dir. Dolçaların enli qulpu boğazı ilə gövdəsini birləşdirir (inv.62). Daha bir dolça tipli qabın ağzının və gövdəsinin bir hissəsi qırılıb. Oturacağının diametri 8,5, gövdəsinin diametri 13,5, hündürlüyü isə 14,5 sm-dir. Məişətdə geniş yayılmış dolçalardan su götürmək və maye içmək üçün istifadə edildiyi şübhəsizdir.

Şəhərgah orta əsr yaşayış yerində aşkar edilən şirsiz saxsı məmulatının bir qrupunu əhalinin gündəlik məişətində geniş istifadə edilən saxsı çıraqlar təşkil edir. Məlum olduğu kimi orta əsrlərdə Azərbaycan dulusçuları müxtəlif formalı çıraqlar istehsal etmişlər. Saxsı çıraqlardan evlərin işıqlandırılmasında istifadə olunurdu.

Çubuqvari qulpları çırağın uzunsov lüləklərinin əks istiqamətində olmaqla çırağın boğaz və gövdə hissəsini birləşdirir. Çıraqların saxsısı qırmızımtıl, bozumtul, qaramtıl rənglidir, gilləri məsaməlidir. Əksər nümunələrin lülək və ağızlarının üzəri qara his təbəqəsi ilə örtülüb. Onların ağzının diametri 3,3- 5, oturacaqlarının diametri 4- 6,5, gövdəsinin diametri 4-6, hündürlüyü 6-9, gövdəsinin diametri 8, lüləyinin qalan hissələri 10-12 sm. arasında dəyişilir.

Şəhərgahın şirli saxsı məmulatını şirlənmə və bəzədilmə xüsusiyyətlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar.

I-Birrəngli şirlə örtülmüş qablar;

II. Anqobüstü cızma naxışlı qabıar;

III. Marqansla bəzədilmiş qablar;

IV. Çoxrəng naxışlı qablar.

V. Zoomorf təsvirlərlə bəzədilmiş qablar;

VI. Epiqrafik elementlərlə bəzədilmiş qablar.

Şirli qablar əsasən kasa və boşqab tipli qabların oturacaq hissələri, habelə müxtəlif fraqmentləridir.

Məsələn, dabanvari oturacağının diametri 12 sm olan qabın dib hissəsinə anqob təbəqə üzərindən marqans boya ilə nazik dairə çəkilib. Dairənin içərisində marqansla yerin hərəkətdə olmasını bildirən cızıqlar və onların ətrafında dövr edən ulduzlar çəkilmişdir. Planetlərin hərəkətini bildirən təsvirin ətrafı şabalıdı və yaşıl boya ilə şirlənib. (Inv.30) Kiçik həcmli şirli kasanın oturacağının dib hissədə anqob üzərindən sarı, yaşıl və marqans boya ilə mərkəzə doğru yayğın xətlər çəkilib. (inv.38) Nazik divarlı şirli boşqabın daxili səthi ağ anqob təbəqə ilə örtülüb. Gövdə ilə ağzının kənarı arasında üç sıra olmaqla dairələr çəkilmişdir. Dairələr bütövlükdə qabı qurşayır. Qabın içərisi yaşıl və qəhvəyi rənglərdən istifadə olunaraq sxematik bəzədilib. Oturacağının diametri 6,5 sm olan şirli boşqabın üzərində mərkəzdən kənarlara doğru şüavari xətlər çəkilib. Xətlər arası sarı, yaşıl və qəhvəyi rənglərlə rəngdə ləkə formasında bəzədilib (inv.84).

Oturacağının diametri 12,5 sm olan digər bir şirli boşqabın da daxili səthi anqob üzərindən qəhvəyi rəngdən istifadə edilməklə rombvari işlənmiş və yaşıl, qəhvəyi rənglərlə ləkə formasında bəzədilib (inv.90)

Dabanvari oturacağının diametri 11,5 sm olan, nisbətən qalın divarlı şirli boşqabın daxili səthi anqob üzərindən yaşıl rənglə şirlənib. Dib hissədə marqansla dörd nöqtə verilmiş və nöqtələrin hər birinə qoşa olmaqla kənarlara doğru şüavari cızıqlar çəkilmişdir (inv.91).

Oturacağının diametri 8 sm olan qalın divarlı şirli kasanın dib hissəsində anqob üzərində yaşıl dairənin kənarı boyunca marqans boyadan istifadə olunmaqla yayğın şəkildə altı guşəli ulduz işlənib (Inv.31).

Oturacağının diametri 11 sm olan qalın divarlı kasanın da daxili səthi anqob üzərindən qəhvəyi və yaşıl rəngdə günəş təsviri, onların içərisində ərəb əlifbasının hərflərinə bənzər yazı ilə işlənib (Inv. 34).

Oturacağının diametri 17, 3 sm olan qalın divarlı şirli kasanın isə daxili səthi qəhvəyi rəngdən istifadə olunmaqla buta və butanın kənarı boyunca yaşıl rəngdə ərəb əlifbasının hərflərinə bənzər naxışlar işlənib. Qabın oturacağında damğası olduğu ehtimal olunur (Inv.29).

Oturacağının diametri 8 sm olan şirli kasanın səthi ağ anqob üzərindən qəhvəyi dairə içərisində firuzəyi fonda pambıq, habelə qabın kənarı boyunca firuzəyi və qəhvəyi rənglərdən istifadə olunmaqla yayğın nöqtəvari təsvirləri var. Qabın altında yarpağa bənzər damğası var (Inv.33).

Tapıntılar içərisində bir neçə ədəd duzqabı var. Nisbətən iri, şirli saxsı duzqabı ağız hissədən xaricə doğru enlənir. Daxili və xarici səthi yaşımtıl şirlə rənglənib. Ağzının kənarı sınmışdır və gili məsaməlidir. Ağzının diametri 5,5, oturacağının dm- 5,8, gövdəsinin dm-10,5, hündürlüyü isə 1,5 sm-dir (Inv.89).

Tapıntılar içərisində hündür dairəvi oturacağının diametri 8, ağzının diametri 22,8, hündürlüyü 5,5 sm olan şirli dörə də maraq doğurur. Qabın daxili səthi ağ anqob təbəqə üzərində qara və yaşıl rənglərdən istifadə edilməklə meyvə, dib hissədə qara rəngdə dairə içərisində qara və qəhvəyi rənglə paralel xətlər çəkilib. Ağzının kənarı boyunca qəhvəyi rənglə bir-birinə əks olaraq paralel xətlər çəkilib. (Inv.36).

Tapıntılar içərisində bir neçə ədəd sferakonus nümunəsi də var. Ümumiyyətlə, Şəhərgahda bu tip nümunələr çoxluq təşkil edir. Onlardan bir ədədi yastı oturacaqlıdır, gövdəyə doğru enlənir, çiyin hissədən yığılaraq daralır və göbələkvari papaqla tamamlanır. Qab bütövlükdə tünd yaşıl boya ilə şirlənib. Qabın üzəri itiuclu alətlə sxematik, gövdəsi isə dairəvi, üçbucaq, dalğalı, paralel düz xətlərdən və nöqtələrdən ibarət təsvirlərlə bəzədilib (Inv.96).

Şəhərgah abidəsində arxeoloji qazıntılar zamanı aşkar olunan şirli qabların bir qismini zoomorf təsvirli qablar təşkil edir. Onlar təyinatına görə boşqab və kasa tipli qablardan ibarətdirlər. Ümumiyyətlə,

Azərbaycan keramikasında zoomorf təsvirli şirli qablar istehsalı orta əsrlərdə geniş yayılmışdır. Zoomorf təsvirlər ev quşları, ürkək baxışlı maral, ceyran, insanın sadiq dostu olan at, xeyir-bərəkət rəmzi balıq və ilan olmuşdur.

Zoomorf təsvirlər anqob təbəqə üzərindən yaşıl və qəhvəyi şirlə çəkilmişdir. Yaşıl şirlə nəbati, qəhvəyi şirlə isə zoomorf təsvirlər işlənib (inv. 27,28, 35,39, 40, 44, 46, 47, 48, 59, 60, 81) .

Şəhərgah ərazisindən təsadüfi olaraq tapılan şirli qab nümunəsi də olduqca maraq doğurur. Şirli qabın daxili səthi anqob təbəqə ilə örtülüb və at üstündə əyləşən döyüşçü təsviri verilib. Süvari təsviri orta əsrlərdə döyüşçünün hərb sənətinə yüksək səviyyədə hazırlığını göstərir. Habelə, təsvirdə döyüşçünün geyimi, silahı və ona gözlənilmədən atılan ox çəkilib.

Şəhərgah qazıntıları bir daha təsdiq edir ki, qeyd olunan ərazidə X – XII əsrlərdə möhtəşəm şəhər olub. Həmin şəhər XII əsrin sonunda, ola bilsin ki, XIII əsrin ilk illərində dağıdılaraq yandırılıb, bununla da orada həyat əbədi olaraq sönüb.

Tədqiqatların daha bir mühüm nəticəsi ondan ibarətdir ki, Şəhərgah materialları, xüsusən də oradan tapılan keramika nümunələri bir sıra özəllikləri ilə digər şəhər və rayonların materiallarından fərqlənir. Bu lokal variantdır, yoxsa xüsusi bir məktəb və ya mərkəzdirmi?! Bu suallara gələcək tədqiqatlar aydınlıq gətirməlidir.

Г.Дж.Джабиев, Э.И.Аббасова

АРХЕОЛОГИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ СРЕДНЕВЕКОВОГО ГОРОДИША ШЕХЕРГАХА

РЕЗЮМЕ

Городище «Шехергах» расположен в селении Арабгулагы Курдамирского района. Здесь выявлен банно-оздоровительном комплекс XII века. Это первая находка памятника социально-бытового назначения. В результате исследований была выявлена отопительная система комплекса, а также остатки стен XI века.

G.J.Jabiev, E.İ.Abbasova

NEW RESULTS OF ARCHAEOLOGICAL RESEARCHES IN SHAHARGAH SITE (KURDEMIR REGION)

SUMMARY

This report is dedicated to the archaeological researches of medieval Shahargah site nearby village Arabgubali of Kurdemir region. It is informated about bathroom and health complex related to XII century. It has been noted that there is no analogue like this type grandiose sosial monument in medieval Azerbaijan towns. During the investigations of excavations in 2010, mainly researched heating system and remains of wall related to XI century.

As a result of these investigations it has been discovered remains of reach material culture with unique specific characteristics.

QƏBƏLƏ (SƏLBİR) ŞƏHƏR YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR

(Qəbələ rayonu)

C.T.Eminli




Şəkil 1. 3-cü qazıntı sahəsinin ümumi görünüşü.

2011-ci ilin aprel-iyun aylarında Qəbələ arxeoloji ekspedisiyası prof. İlyas Babayevin rəhbərliyi ilə Antik şəhər yerində, prof. Kim Jong-İlin rəhbərliyi ilə koreyalı arxeoloqlar tərəfindən Səlbir yaşayış yerinin 1-ci və 2-ci qazıntı sahələrində, Ceyhun Eminli tərəfindən Səlbir yaşayış yerinin 3-cü qazıntı sahəsində arxeoloji tədqiqat işləri aparılmışdır.

Təqdim olunan məqalədə müəllif tərəfindən 3-cü qazıntı sahəsində aparılmış arxeoloji tədqiqatlardan bəhs ediləcəkdir. Antik şəhər yeri və Səlbirin 1-ci və 2-ci qazıntı sahələrindən fərqli olaraq 3-cü sahədə tədqiqat işlərinin müddəti artırılaraq aprel-noyabr aylarını (ümumilikdə 8 ay) əhatə etmişdir[1].

Xatırladaq ki, Səlbir ərazisinin relyefi şərq və qərb tərəflərdən hündür, mərkəz hissədə isə çökəkdir. 3-cü qazıntı sahəsi də məhz Səlbir yaşayış yerinin şimal-qərbindəki hündür hissəni təşkil edir. 3-cü qazıntı sahəsi yaşayış yerinin şimal divarı və darvazasından 90 m., qərb divarından isə 70 m. məsafədə yerləşməklə şimal və şərq tərəfə 5m., qərb tərəfə 3m. enişlidir.

1 Ekspedisiyanın aprel-avqust aylarında ezamiyyə xərcləri Arxeologiya və Etnoqrafiya İnstitutu tərəfindən, digər xərclər SEBA, Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası tərəfindən, sentyabr-noyabr aylarında isə bütün xərclər SEBA, Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyası tərəfindən ödənilmişdir.



Plan 1. 3-cü qazıntı sahəsinin planı.




Şəkil 2. Çiy kərpicdən tikilmiş evin qalıqları.

3-cü qazıntı sahəsində arxeoloji tədqiqatlara hələ 2010-cu ildə başlanılmış və qazıntı mövsümünün başa çatması ilə əlaqədar yalnız 5x10m. (50m^2) ölçüdə üst qat öyrənilmişdi. Beləliklə, 2011-ci ildə həmin hissə şərq və qərb istiqamətlərə 2.5m. genişləndirilərək 1-ci kvadrat kimi qeydə alınmışdı. Ümumiyyətlə, kvadratlar qazılma ardıcıllığına görə nömrələnmişdir (**plan**). 2011-ci il qazıntı mövsümündə ümumilikdə 12 kvadrat olmaqla 1070m/kv sahə tədqiqata cəlb olunmuşdur (1070m/kv sahəyə kvadratlar arası qazılmayan yerlər də daxildir).

1-ci kvadrat:

Bu kvadrat aşkar olunmuş obyektlərdən asılı olaraq 0.25-1.5m dərinlikdə tədqiq olunmuşdur. Nəticədə, yer səthindən 0.25-0.50m. dərinlikdə divarları çiy kərpicdən hörülmüş evin qalıqları qeydə alındı. Ümumi sahəsi təxminən 25m/kv olan evin divarlarının bünövrə hissələri aydın izlənilməkdədir. Bu divarlar müəyyən dağıntılara məruz qalsa da, şimal-cənub istiqamətdə uzanan divara əsasən eni 70 cm. olmuşdur. Bəzən divarların bünövrə yerlərində bişmiş kərpicdən də istifadə olunmuşdur. Evin iç divarları gil məhlulu ilə suvanmışdır. Ev 1 iri və ondan cənubda yerləşən kiçik otaqdan ibarət olmuşdur (**şəkil 2**). Əsas hissəni təşkil edən otağın içərisinin yarıdan çoxunu yanakı düzülmüş çiy kərpiclər təşkil edir. Kərpiclərin belə vəziyyətdə aşkar olunması müəyyən fikirlər irəli sürməyə əsas verir. Qeyd olunan çiy kərpiclərin qərb divarından tökülməsi fikri ilə yanaşı, onların xüsusi məqsədlə döşənməsi fikiri də hələlik qüvvədə qalır. İri otağın içərisində təndir, ocaq yeri və təsərrüfat quyusu, kiçik otaqda isə yalnız ocaq yeri (kiçik otağın cənub-qərb divarı dibində) və təndir aşkar edilmişdir. Bu təndirin şərq kənarı bişmiş kərpic fraqmentləri və digər təndir qırıntılarından ibarət hörgü ilə bağlanmışdır. Ümumiyyətlə, evin içərisindən xeyli sayda saxsı fraqmentləri, xüsusən də iri təsərrüfat qablarının hissələrinə rast gəlindi. Evin giriş qapısı şərq istiqamətdə olmuşdur ki, bunu əsaslandırmağa bir neçə dəlillər vardır. İlk olaraq şərq divarının mərkəzində üst-üstə qoyulmuş 3 cərgə bişmiş kərpic (ehtimal ki, qapı yeri olmuşdur), həmin kərpiclərin şərq istiqamətə doğru xaricində çay daşından döşənmiş yolun olması və bütün bunların günçıxana istiqamətlənməsidir. Xatırladaq ki, hələ 2010-cu ildə qeyd edilən bişmiş kərpic hörgüsünün içərsinidən sümük bıçaq da aşkar olunmuşdur (**şəkil 3**).



Şəkil 3. Evin giriş hissəsində aşkar edilmiş sümük bıçaq

Yuxarıda qeyd edildiyi kimi, evin qarşısında çay daşından döşənmiş kiçik yol vardır ki, onun cənub kənarları müəyyən dağıntıya məruz qalmışdır. Yolun eni 80-107 cm.(bəzi hissələrindəki dağıntılara əsasən), uzunluğu 280cm. olmaqla ev ilə istehsalat qurğusunu birləşdirir. Qeyd edilən istehsalat qurğusunun qabaq hissəsi çiy kərpiclərlə döşənmiş, ortada 50-60 cm. hündürlükdə ikiqat kirəc məhlulundan divar, arxa hissəsi isə kənarlarından mərkəzə doğru çökəklikdən ibarətdir. Bu çökəkliyin orta hissəsi içərisi yanmış və kömürlü torpaq, sümük, saxsı, bişmiş kərpic və kirəmit fraqmentlərindən ibarət quyu, kənarları isə yanıq qatdan ibarətdir. Kvadratın şimal profilində yanıq qat aydın izlənilməklə qurğunun müəyyən hissəsinin qazılmayan istiqamətdə davam etdiyini göstərir. Qeyd olunan boşluğun içərisindən inşaat tullantıları ilə yanaşı bikonik formada üzərində göy rəngdə şüşə ərintilərindən ibarət pasta gözmuncuğu aşkar olunmuşdur. Bu istehsalat qurğusunun içərisindən heç bir istehsal çıxarlarına təsadüf olunmadığından onun nə məqsədlə istifadə olunduğu barədə fikir söyləmək çətindir. Qurğunun kənarında yerə basdırılmış iki qulplu qazan və təndir də vardır. Həmin qurğunun, qazan və təndirin qeyd edilən evin həyətyani sahəsində olmasını guman etmək olar.

Kvadratın cənub profilindən 2-2.7 m. aralıda şərq qərb istiqamətində 40-50 cm. diametrində 5 paya yeri müəyyən edildi. Paya yerlərindən birinin kənarları bişmiş kərpiclərlə əhatələnmişdir. Digər paya yerlərinin izlənilməsi bir qədər aşağıdan mümkün olmuşdur ki, onların da ağzının kənarlarının vaxtilə bişmiş kərpiclərlə əhatəli olduğunu guman etmək olar. Bunu paya yerlərinin dibində bişmiş kərpic fraqmentlərinin varlığı da təsdiq edir. Paya yerlərinin, aşkar edilmiş evin ölçüsündən daha çox məsafəni əhatə etməsi onların həmin evlə heç bir əlaqəsi olmadığını göstərir. Ehtimal ki, həmin paya yerləri cənub istiqamətdə digər bir tikiliyə məxsus olmuşdur ki, həmin hissə qazılmayan sahəyə düşür. Eyni istiqamətdə davam edən paya yerlərinin ardıcıllığı ikinci kvadratda izlənilməkdədir.

Aşkar olunmuş materiallara əsasən qeyd edilən evi və tapıntıları VIII əsrin sonları və IX əsrə aid etmək olar. Kvadratın şimal-şərq küncündən üzü qibləyə istiqamətlənmiş qəbir də aşkar olunmuşdur ki, bu ərazidə yaşayışın tərk olunmasından sonrakı dövrlərə aid edilir.

2-ci kvadrat:

Bu kvadrat 1-ci kvadratın qərbində yerləşir. Kvadratın şərq və cənub-şərq hissələrini yer səthindən 0.25-0.50 m. dərinliyə qədər xeyli miqdarda şirsiz və şirli saxsı fraqmentləri və qarışıq-küllü torpaq qatı təşkil edir. Əsas tikinti qalıqları kvadratın mərkəzi hissələrini əhatə edir. Burada şimal-cənub istiqamətdə 5.8 m uzunluqda və 0.4-0.5 m. enində divar və şimaldan həmin divara çarpaz olan 5.9 m uzunluqda, 0.6-0.8m. enində digər divar qalığı aşkar olundu (**şəkil 4**). Divar üzəri bişmiş kərpic və kirəmit qırıqlarından, həmçinin şirsiz və şirli saxsı fraqmentlərindən ibarət olmaqla sistemsiz tikilmişdir. Şimal-cənub istiqamətdə olan divarın qərb kənarı boyu üç yerdə, biri-birindən təxminən 120 cm. aralıqda, dərinliyi 100 cm. və daha çox olan, diametri 20-30 cm.-lik boşluqlar vardır. Şimal-cənub istiqamətdə olan divarın mərkəz hissələrində çökəklik və divarın qərb istiqamətə doğru nisbətən əyilməsi onun qərb dibi boyu olan paya yerlərinin divarın möhkəmliyini artırmağa xidmət etdiyini guman etməyə əsas verir. Həmçinin bu dirək yerləri divarın yanında olub onu kəsmədiyi üçün onunla həmdövr olmasını göstərir. Şimal-cənub istiqamətdə 5.8 m, ona çarpaz olan şərq-qərb istiqamətdə 5.9 m. uzunluqda olan divarın döşəməsini yalnız qazıntı kvadratının

profillərində izləmək mümkün olmuşdur. Qeyd edilən divar qərb istiqamətə davam edərək üçüncü kvadratda da dağınıq vəziyyətdə izlənilməkdədir. Üzərində bişmiş kərpic, kirəmit fraqmentləri ilə yanaşı, üzəri yaşıl şirlə örtülmüş və marqansla dairəvi-spiral naxışlarla bəzədilmiş, həmçinin üzərində səliqəsiz tünd sarı şirlə bəzədilmiş və qəhvəyi şirlə örtülmüş saxsı fraqmentlərinə əsasən divarın IX əsrin sonlarından tez olmayaraq qurulduğunu söyləmək olar. Divarın şərqdən qərbə doğru olan 2.9m.-lik hissəsi bir qədər fərqlidir. Bu hissədəki divarın bünövrəsi yalnız kənarları bişmiş kərpicdən olmaqla, içərisi çiy kərpic və gil məhlulu ilə doldurulmuşdur. Bu divar quruluşuna görə fərqləndiyindən onun nisbətən qədim dövrəaid olub və birinci kvadratdakı evin şimal divarı ilə əlaqəli olduğunu göstərir. Qeyd olunan divarın cənub kənarında iki dağılmış təndir aşkar olundu. Bu təndirlərdən birinin şimal kənarı həmin divar tərəfindən dağılmışdır. Təndirin dağılmış kənarı bişmiş kərpic fraqmentləri ilə bağlanılmışdır ki, onun sonradan da istifadə olunduğunu göstərir. Təndir quruluşuna və naxışlanmasına görə digərlərindən fərqlənir. Belə ki, ayrı-ayrı hissələrdən hazırlanaraq üst-üstə qoyulmuş (dörd dairə salamat qalmışdır) və bu hissələrin üçü batıq və çıxıntılarla bəzədilmişdir.



Şəkil 4. 2-ci kvadratda aşkar edilmiş divar qalığı

Şərq-qərb istiqamətdə olan divara paralel iki cərgə çay daşından 0.20m. enində və 2.5m uzunluqda digər bir divar da qeydə alındı. Divar bəzən iki cərgə eninə və bir cərgə uzununa düzülsə də, eyni enliyi təşkil edir. Bu divar qərb istiqamətdən şimala uzanan bir divara, şərq istiqamətdə isə diametri 1.03m. olan təndirə birləşir. Təndirin üst hissələri dağılmış olsa da, onun bişmiş kərpicdən döşənmiş bünövrəsi aydın izlənilir. Təndirin və ona birləşən ensiz divarın bir qədər əvvəl qeyd edilən divarla heç bir əlaqəsi yoxdur. Ensiz divarla ona şimal-cənub istiqamətdə birləşən 50cm. enində və 1.9m. uzunluğunda olan divarın içərisində 57cm. diametrində dağılmış təndir vardır. Qeyd edilən 1.03m. diametrində olan təndirdən şimal-şərqdə şimal profilinə bitişik uzəri bişmiş kərpiclərlə döşənmiş ocaq yeri də qeydə alındı. Ensiz divar, təndirlər, ocaq yeri ikinci kvadratdan şimalda yerləşən dördüncü kvadratda aşkarlanmış bişmiş kərpiclərdən qurulmuş ocaq qurğusu, təsərrüfat və tullantı quyuları ilə əlaqəli olaraq hər hansı bir yaşayış evinin mətbəxt hissəsi olmasını göstərir ki, bu barədə dördüncü kvadratdan bəhs edilərkən ətraflı yazılacaq.




Şəkil 5. Gil möhrədən tikilmiş divar qalıqları.

Ümumiyyətlə, şimal-cənub və şərq-qərb istiqamətdə olan divarların iç hissəsindəki sahə bütünlüklə çınqıl qatına qədər öyrənilmişdir. Çınqıl qatına qədər bu hissənin torpaq qatında kütləvi dağınıqlıq müşahidə olunur. Çınqıl və onun üzərindəki qatda şirli saxsı fraqmentlərinə nadir hallarda təsadüf olunurdu. Bəzi yerlərdə çınqıl qatının dağıldığı və həmin yerlərdə son antik (I-III əsrlər) dövrünə aid kirəmit (solen) fraqmentləri aşkar edildi. Bundan əlavə kvadratın mərkəz, şərq və qərb profilləri dibində quyulara təsadüf olundu. Şərq (quyu N3) və qərb (quyu N1) profilləri dibindəki quyuların yarısı qazılmayan torpaq altında olduğundan onların qazıntısı bitməmişdir. Qərb profili dibindəki quyunun diametri nisbətən kiçik (d=77 cm), lakin dərindir. Quyunun aşağısına doğru genişlənmə hiss olunur. İçərisindən şirsiz və şirli saxsı fraqmentləri, həmçinin sümüklərə təsadüf olundu. Şərq profili dibindəki quyunun diametri böyük olmaqla boşluqlar kənarlara doğru genişlənir. Ehtimal ki, alt qatda digər bir quyu da var ki, həmin quyular biri-birini kəsmişlər.

3-cü kvadrat:

Üst qat yoxlanılarkən burada yan-yana iki dağılmış təndir (biri yarımçıq, digəri isə dağınıq vəziyyətdə), bişmiş kərpic və çay daşı qalıqları qeydə alındı. Eni 50-60 cm., uzunluğu 2 m. olan həmin qalıqlar 2-ci kvadratda şərq-qərb istiqamətə uzanan divarın qərb tərəfə olan pərakəndə vəziyyətdə davamıdır. 3-cü kvadratda yer səthindən 30-50 cm. dərinlikdə müxtəlif istiqamətlərə uzanan gil möhrədən tikilmiş divar qalıqları aşkar olundu **(bax planda kv 3)**. Bu divar qalıqlarının izləri, hələ qazılmamışdan qabaq, torpağın rəngi və tərkibinə görə aydın seçilirdi (**şəkil 5**). Qeyd olunan divarlar bəzi yerlərdə təndir və quyular səbəbindən dağılmışdır. Divarların hazırki vəziyyətdə eni 80cm. olmaqla şərq-qərb istiqamətə 6.9 m., qərb istiqamətdən 3 m. uzunluqda cənuba dönərək kvadratın cənub profili altına keçir. Divarın cənub profili altına keçməsini dəqiqləşdirmək məqsədi ilə Kv3 və Kv6-nın arakəsməsindən 3 m.-lik hissə götürüldü. Nəticə özünü doğrultsa da divarın 6-cı kv-da izlənilməməsinə səbəb dağıntı ilə təsdiqlənir. Divarın şərqdən qərbə doğru təxminən 3.3 m.-lik hissəsi dağınıq və qarışıqlıqla müşahidə olunur. Şərq-qərb istiqamətdə olan divara çarpaz şimaldan və cənubdan da digər divarlar birləşir. Kvadratın şimal-şərq hissəsində yanıq qatı ilə müşahidə olunan döşəmə izlənildi. Yanıq qatı yer səthindən 70 cm. dərində izlənilməklə, kvadratın şimal-qərb hissəsinin bir çox yerlərində eyni səviyyədədir. Döşəmə üzərində insitu vəziyyətdə üst hissələri dağılmış və üzərində torpaqla birlikdə iki ədəd bişmiş kərpic olan təsərrüfat küpü aşkar olundu. Küp bərpa olunduqdan sonra, onun qabarıq gövdəli, yuxarı hissəsində vertikal vəziyyətdə iki qulplu olması müəyyənləşdi. Bu cür küplər X əsr üçün səciyyəvidir.



Plan 2. 3-cü kavadratda aşkar edilmiş quyunun planı.



Şəkil 6. Sanitar-gigenik qurğu

Kvadratın cənub-qərb hissəsində, gil möhrədən olan tikilinin içərisində (şərqdən qərbə doğru olan divarla cənuba dönən divarın içərisində) diametri 0.95 m., dərinliyi 5.1 m. olan quyu aşkar edildi (**plan 2**). Quyu yer səthindən 66cm. dərinlikdən başlayır. Quyunun 70 cm. dərinliyindən 143 cm. dərinliyinə qədər çay daşı və çınqıl qatı vardır. Çınqıllığın altından quyunun divarları boyu bərk gilli qat izlənilməkdədir. Quyunun divarlarında dairəvi və oval boşluqlar vardır ki, bu rahat düşüb-qalxmağı təmin edirdi. Quyu olduqca zəngin materialla müşahidə olunurdu. Quyunun müxtəlif dərinliklərində xeyli sayda saxsı fraqmentləri, o cümlədən 2 ədəd yaşıl şirli çıraq, altında qara mürəkkəblə monoqram olan fayans kasa fraqmentləri aşkar olundu (**tablo 3, 1-3**). Quyunun dib hissəsinə yaxın yerlərdə 4 ədəd ensiz və uzunsov, həmçinin bir tərəfi nisbətən dar çay daşları aşkar edildi. Bu daşların nə məqsədlə istifadə olunması maraq doğursa da, quyunun dib divarlarında aşkar olnumuş çay daşlarının eni və uzunluğu ölçülərinə uyğun gələn şaquli vəziyyətdə çapılma

izlərinə görə bu daşlarla məhz quyunun qazılması və ya onun aşağı hissələrində divarın dairəviliyi düzəldildiyi ehtimal edilir.

Quyunun müvəqqəti su ehtiyyatı saxlamaq üçün nəzərdə tutulmasını ehtimal etmək olar. Quyu və gil möhrə divar həmdövr olmaqla aşkar edilmiş materiallara əsasən gil möhrədən olan tikilinin X əsrin sonlarına aid edilməsi mümkündür.

4-cü kvadrat:

Bu kvadrat 2-ci kvadratın şimalında yerləşməklə olduqca zəngin və maraqlı tapıntılarla müşahidə olundu. Kvadratın mərkəz hissəsində sanitar qurğu aşkar olundu (**şəkil 6**). 7 növ ölçüdə bişmiş kərpiclərdən işlənmiş qurğu şimal-cənub istiqamətlərdən mərkəzə doğru maili olmaqla, mərkəz hissəsində suyun axıdılması üçün kanalizasiyası da vardır. Xatırladaq ki, kanalizasiya hissəsi bu günümüzə qədər əhəmiyyətini itirməmişdir. Qeyd edilən qurğunun şimalında puç daşdan yonulmuş iki ədəd sütun altlığı da aşkar edildi. Sütun altlıqlarından biri iki pilləli hazırlanmışdır. Kvadratın cənub kənarına yaxın yerində mətbəx və təsərrüfat yeri aşkar edildi. Burada bir cərgədə bişmiş kərpiclərdən qurulmuş ocaq yeri qeydə alındı (**şəkil 7**). Ocaq yeri yanakı qoyulmuş bişmiş kərpiclərdən ibarət olmaqla 3 kameralı hazırlanmış, onlardan bir qədər aşağıda yarımdairəvi formada ocaqdan götürülən qazanları qoymaq üçün altlıqlar aşkar olundu. Qurğunun qarşısında hərəkət üçün çiy kərpic və gil möhrədən düzəldilmiş döşəmə də qeydə alındı. Döşəmənin ətəyində içərisi kül və kömür qatışıqlı dayaz quyuya təsadüf olundu ki, bu ocaq yernidən çıxan külün tullantısı üçün nəzərdə tutulub. Ocaq yerindən qərbə doğru, kvadratın cənub-qərb dibində 2.1m. dərinliyi olan quyu aşkarlandı (**şəkil 8**). Quyunun içərisində düşüb qalxmaq üçün nəzərdə tutulan ayaq yerləri də vardır. Quyu şirsiz və şirli saxsı qabları və onların fraqmentləri ilə müşahidə olundu. Ocaq yeri və quyu 2-ci kvadratın şimal hissəsində aşkar olunmuş ensiz divar və təndirlə əlaqəli olmaqla bir kompleksə aiddir. Digər maraq doğuran tapıntılardan biri də kvadratın şimal kənarında şərq-qərb boyu 9m. uzunluqda bir-birinə keçirilmiş saxsı boruları (tüng) qeyd etmək olar. Dar hissələrin enli hissəyə keçirilməsi ardıcıllığına görə qeyd edilən borunun qərbdən şərqə doğru istiqamətləndiyini göstərir (**şəkil 9**). Saxsı tünglər kənarları çınqıllı torpaqdan olan dar bir boşluqda yerləşdirilmiş, sonra çınqıllı-gilli torpaqla örtülmüşdür. Kəmər boyu müxtəlif yerlərdə dayaz quyular da qeydə alındı ki, bunların kəmərin tikintisi və ona nəzarətlə əlaqəli olmasını ehtimal etmək olar.



Şəkil 7. Ocaq qurğusu.



Şəkil 8. 4-cü kvadratda aşkar edilmiş təsərrüfat quyusu.



Şəkil 9. 1-ci su xətti.

5-ci kvadrat:


Bu kvadrat 2-ci kvadratın cənubunda olmaqla, yalnız 5x9 m. ölçüdə qazılmışdır. Hələ yer səthindən 0.25-0.50 m. dərinliyə qədər kvadratın şərq hissəsi qarışıq torpaq və zəngin saxsı fraqmentləri ilə müşahidə olunurdu ki, bu cür vəziyyətə 2-ci kvadratın da eyni istiqamətində təsadüf edilmişdir. Burada mühüm tikili qalıqlarına təsadüf olunmadığından 1.2 m. dərinliyə qədər qazıldı. Kvadratın cənub, şimal-qərb və mərkəzində müxtəlif dərinliklərdə quyular qeydə alındı. Qeyd edək ki, bu kvadratdan son antik dövrə aid xeyli sayda saxsı fraqmentləri aşkar edildi.

6-cı kvadrat:

3-cü kvadratın cənubunda, 5-ci kvadratın qərbində yerləşən bu hissə əvvəlcə 5x9m. ölçüdə qazılmış, aşkar olunmuş tapıntılara görə 9x9 m. genişləndirilmişdir. Burada 3-cü kvadratda aşkar olunmuş gil möhrə divarın cənuba dönən bir hissəsi izlənildi. Bundan əlavə kvadratın şimal-qərb hissəsində yanyana qoyulmuş iri puç daşlara təsadüf olundu ki, yer səthinə yaxın olduğunuda müxtəlif vaxtlarda əkin üçün şumlanan zaman texnika vasitəsilə aşırdılmışdır. Gil möhrə tikilinin içərisindən puç daşdan yonulmuş səkkizgüşəli sütun altlığı da aşkar edildi. Bu tapıntılara əsasən, həmin hissədə inzibati bina qalıqlarının varlığını göstərir.



Şəkil 10. Səggizguşəli sütün altlığı.



Şəkil 11. Gil möhrədən tikili qalığı və iri təsərrüfat küpü (*insitu*).



Şəkil 12. Bişmiş kərpicdən qurulmuş hovuz.

7-ci kvadrat:

4-cü kvadratın şərqində qoyulmuş 7-ci kvadratın tədqiqində məqsəd saxsı boruların istiqamətini müəyyənləşdirməkdən ibarət idi. Həmin kvadratda borulara təsadüf olunmasa da, orada gil möhrədən tikilmiş bina qalıqları, təsərrüfat quyuları və iri təsərrüfat küpü aşkar edildi. İri təsərrüfat küpü 1.55m. hündürlükdə olmaqla boğaza qədər torpağa basdırılmış vəziyyətdə istifadə olunmuşdur (**şəkil 11**). Kvadratın şimal-şərq hissəsində mühüm tikili qalıqlarına təsadüf olunmadığından orada alt qatların öyrənilməsinə başlanıldı. Həmin yer 2.9m. dərinliyə qədər qazılaraq xam torpağa çatdırıldı. Kvadratın şərq kənarı boyu üzü qiblə istiqamətə olan dörd qəbir qeydə alındı ki, bunlar ərazidə yaşayışın tərk olunmasından sonrakı dövrə aiddir. Tədqiqat zamanı küpün saxsı boruları dağıdıb-dağıtmaması faktı da qeydə alınmadı. Lakin, 7-ci kvadratın şimalında enişə doğru qoyulmuş 12-ci kvadratda boruların ardı izlənilir. Ümumiyyətlə boru kəmərəində 6 fərqli tünglərdən istifadə olunmuşdur. Saxsı borularla iri təsərrüfat küpü həmdövr, yəni VIII-IX əsrlərə aiddir.


8-ci kvadrat:

Saxsı boruların istiqamətlərini izləmək üçün qərbə doğru 8 və 9-cu, şimala doğru 10-cu kvadratların tədqiqinə başlanıldı. 8-ci kvadratda boruların ardını izləməklə yanaşı, burada müxtəlif istiqamətdə digər iki saxsı boru xətti aşkarlandı. Hələ 4-cü kvadratda şərq-qərb istiqamətdə izlənilən boru şərq tərəfə doğru, 8-ci kvadratda həmin xətti kəsən şimal-şərq və cənub-qərb istiqamətdə digər bir boru ilə toqquşur. Bu borunun su axımı istiqaməti cənub-qərbdən şimal-şərqədir. Həmin istiqamətdə olan boru kvadratın şimal-qərbində olan bişmiş kərpicdən hörülmüş hovuzun kənarından keçir (**şəkil 12**). Hovuzun dibi bişmiş kərpicdən döşənmişdir. İçərisində bardaq və bu kimi digər su qablarının fraqmentlərindən ibarət olan hovuzun şimal kənarı qazılmamış hissədə olduğundan onun tam ölçüsü müəyyənləşdirilməmişdir (**plan 3**).


8-ci kvadratın cənub-qərb küncündə də şimal-qərbdən cənub-şərqə istiqamətlənən digər su kəməri də aşkar edildi. Bu kəmər əvvəlkilərdən 0.8m. dərində yerləşir. Əvvəlkilərdən fərqli olaraq bu kəmərin üzəri və ətrafı gil məhlulu ilə örtülmüşdür. Həmin hissədən VIII əsrə aid bir ədəd mis pul da aşkar olunmuşdur[1].

9-cu kvadratda dağınıqlıq və qarışıqlıq çox olduğundan buradakı işlərin növbəti mövsümdə davam etdirilməsi nəzərdə tutulub.

1 Sikkənin təyinatı prof. Əli Rəcəbli tərəfindən verilmişdir



Profildə hövzü inşası.




Plan 3. Bişmiş kərpicdən qurulmuş hovuzun planı

10, 11 və 12-ci kvadratlar təpənin şimal istiqamətinə doğru enişli hissədə yerləşir. Bu kvadratların yalnız 4x9m.-lik hissələri qazılaraq mühüm nəticələr əldə olundu. 10-cu və 12-ci kvadratlarda əvvəlki kvadratlardan aşkarlanmış saxsı boruların istiqamətləri izlənildi. Qeyd edilən sonuncu üç kvadratda son antik dövrə aid xeyli sayda küpə, tək və üçayaqlı vaza, dolça və digər qab fraqmentləri qeydə alındı (**tablo 1**).


3-cü qazıntı sahəsində ümumi uzunluğu 50 metr olan 4 saxsı boru xətti qeydə alındı. Bu kəmərlərdən birində eyni forma və naxışlı tünglər, digər xəttlərdə isə 6 fərqli borulardan istifadə olunmuşdur (**tablo 7**).

Növbəti qazıntı mövsümündə şimal-şərq istiqamətdə və qərb divarına yaxın hissədə tədqiqatların davam etdirilməsi nəzərdə tutulub.

2011-ci il qazıntı mövsümündə 302 (inv.№150-452) ədəd artefakt inventarlaşdırılmış, 200 ədəd tapıntı nümunə kimi götürülmüşdür.




Tablo 1. Son Antik dövr saxsı məmulatı.




Tablo 2. Şirli saxsı məmulatı.



Tablo 3. Fayans məmulatı.



Tablo 4. Sümük məmulatı.



Tablo 5. Bıçaq və ox ucluqları.



1 (inv. № 425)



2 (inv. № 426)



3 (inv. № 427)



4 (inv. № 428)



5 (inv. № 429)



6 (inv. № 430)



7 (inv. № 431)



8 (inv. № 432)




9 (inv. № 433)



10 (inv. № 434)

Tablo 6. Mis sikkələr (VIII-IX əsrin əvvəlləri).



Tablo 7. Saxsı tünglər.

302 ədəd inventar aşağıdakı kimi qruplaşdırılıb:

Saxsı məmulatı:	*216 ədəd*
Şüşə məmulatı:	*18 ədəd*
Sümük məmulatı:	*8 ədəd (tablo 4)*
Metal əşyalar:	*21 ədəd*
Daş məmulatı:	*12 ədəd*
Sikkələr:	*28 ədəd (tablo 5)*

Aşkar edilmiş maddi mədəniyyət nümunələri içərisində saxsı məmulatı üstünlük təşkil edir. Bunlar şirsiz və şirli olmaqla, süfrə, məişət və təssərrüfat qablarından ibarətdir. Şirsiz saxsı məmulatına çıraqlar, qazanlar, küp və küpələr, kasalar, bardaq və süddan formalı qablar daxildir. Şirli saxsı məmulatı əsasən şərti adlandırılan duz qabıları, kiçik və iri həcmli kasalarla təmsil olunurlar. Şirli qabların naxışlanmasında marqans, mis və dəmir oksiddən geniş istifadə olunmuşdur (**tablo 2**). Saxsı qablar içərisində fayans nümunələrinə də təsadüf olunmuşdur (**tablo 3**).

Tapıntılar içərisində sümük məmulatı da diqqət çəkir (**tablo 4**). Sümük məmulatı cızma və pərgar üsulu ilə bəzədilmiş tutacaq, düymələr və üzükdən ibarətdir. Üzərinndə oyma ilə insan təsviri verilmiş üzük də vardır ki, hazırlanma texnikasına və formasına görə V-VI əsrlər üçün səciyyəvidir (**tablo 4, 2**).

Aşkar olunmuş tapıntılar içərisində dəmir bıçaqlar və ox ucluqları da vardır (**tablo 5**). Ox ucluqları iki, üç və dördtilli formasına görə seçilirlər.

Arxeoloji qazıntılar zamanı müxtəlif qatlardan xeyli sayda mis sikkələr aşkar edilmişdir. Laborator təmizlənmədən sonra pulların bir qismi təyin olunmuş və onlar VIII-IX əsrin əvvələrinə aid edilmişdir (**tablo 6**). *Pullar prof. Əli Rəcəbli tərəfindən təyin edilmişdir.*

Beləliklə, 2011-ci il tədqiqatları zamanı Səlbirin 3-cü qazıntı sahəsinin ən alt qatında I-III əsrlərə aid seyrək Son Antik dövr təbəqəsi, daha sonra V-VI əsrlərə aid təbəqə müəyyənləşdirilmişdir. Burada daha intensiv yaşayış və təbəqə VIII-X əsrin ikinci yarısına aiddir. X əsrin sonları və XI əsrin əvvəllərinə aid maddi mədəniyyət nümunələrinə təsadüf olunsa da bu olduqca azlıq təşkil edir.

Дж.Т.Эминли

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ГАБАЛЫ (СЕЛЬБИРА)

РЕЗЮМЕ

В результате археологических раскопок, проведенных в апреле-ноябре 2011 года исследовано 12 квадратов общей площадью 1070 кв.м (**план**). исследована стратиграфия и особенности культурных напластований. Самый нижний слой относится к эпохе поздней античности и датируется I-III вв. В этом слое обнаружены, характерные для поздней античности, фрагменты черепицы и керамики. Во втором, верхнем слое VIII-X вв. выявлены образцы материальной культуры и строительные остатки из сырцового и обожженного кирпича, а также водопроводная сеть и другие бытовые объекты. Внутри и вне поселения выявлены тендиры, очажные сооружения, вкопанные в землю кюпы. Обнаруженнs материалы представлены глазурованными и не глазурованными глиняными изделиями, строительной керамикой, изделиями из стекла, камня и металла, а также медными монетами.

J.T.Eminli

ARCHAEOLOGICAL INVESTIGATIONS AT GABALA (SALBIR)

SUMMARY

This short report based on archaeological investigations at 3rd excavated site of Salbir settlement. During April-November 2011, there were investigated 12 squares with total area 1070 sq/m (**plan of excavated site**).

During the excavations there were detected cultural strata of the settlement and their characteristic features established.

The lowest layer of the settlement consists of the Late Antique period dated back to the 1-3rd centuries AD. There were revealed different kind of pottery and roof tiles typical to the Antique period.

The second (upper layer) layer is rich of artifacts and constructions belong to the 8-10th centuries AD. There were unearthed the remains of buildings constructed of mud and burnt bricks, a water-supply network and numerous household and production objects. Sometimes the tendirs and pitcher buried in the ground revealed in the yards of the houses.

Artifacts consist of simple and glazed pottery, building ceramic, glass, bone, stone and metal objects as well as copper coins.

QƏBƏLƏDƏ (QALA) ARXEOLOJİ TƏDQİQATLAR
(Qəbələ rayonu)

Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova

Ekspedisiya 2011 –ci ildə qazıntı işlərini 2008-2009-cu illərdə şəhərin Qala ərazisində öyrənilməsinə başlanmış VIII sahədə davam etdirmişdir. 600 kvadratmetrlik ərazini əhatə edən həmin sahədə IX-XI əsr təbəqəsi öyrənilmişdir. Tədqiqat zamanı bir neçə iri təsərrüfat quyusu təmizlənmiş, 5 ədəd dulus kürəsi və onun qalıqları aşkara çıxarılaraq tədqiq olunmuşdur. Onlardan birində kirəmit və su tüngləri, digərlərində isə məişət keramikası bişirildiyi müəyyən edilib. Kürələr bəzi yerlərdə bir-birini kəsir. Bu isə o deməkdir ki, həmin ərazi ən azı 100-150 il ərzində şəhərin dulusçular məhəlləsi olub. Bununla paralel olaraq qazıntı sahəsi şimala doğru daha 54x24 m (1404 m^2), bəzi yerlərdə isə 54x30 m genişləndirilməklə ümumilikdə 2004 kvadratmetrə çatdırılmışdır. Genişləndirilmiş yeni ərazidə XIV-XVII əsr təbəqəsi tam şəkildə, XII-XIII əsr təbəqəsi isə qismən öyrənilmişdir.



Tədqiqata yeni cəlb olunan sahə hər biri 6 m x 6 m olmaqla kvadratlara bölünərək öyrənilmişdir. Əvvəllər öyrənilmiş digər sahələrdə olduğu kimi, bu sahədə də ərazinin vaxtı ilə şumlanması nəticəsində üst qata aid mədəni qalıqlar demək olar ki, tam şəkildə dağıdılmışdır. Odur ki, təqribən 25-30 sm dərinliyədək sistemsiz şəkildə dağılmış, səpələnmiş daş, kərpic tikililəri və digər maddi mədəniyyət qalıqları qeydə alınmışdır. Dağıdılmış qat götürüldükdən sonra tədricən tikinti və istehsalat qalıqları üzə çıxmışdır. Tədqiqat davam etdirilərkən qazıntının şimal-qərb tərəfində nisbətən uzun bir küçə-yol aşkar olunaraq öyrənilmişdir. Küçə - yol cənub-qərb – şimal-şərq istiqamətindədir. Küçənin hər iki tərəfi boyunca daş hasar uzanır. Şimal tərəfdə küçə-yol qərb və şərq istiqamətində olmaqla haçalanır. Küçə-yolun qərb tərəfində bir-birinin yaxınlığında olmaqla iki dulus kürəsi üzə çıxdı. Küçə - yolun şərq tərəfində isə iki otaqdan ibarət ev qalığı qeydə alındı. Qazıntının mərkəzi hissəsində XII-XIII əsrlərə aid

bişmiş kərpicdən hörülmüş möhtəşəm divar qalığı üzə çıxdı. Divar şərq-qərb istiqamətdə davam edir. Ondan şimal tərəfdə həmin divara paralel istiqamətdə uzanan sahədə daha bir daş divar aşkar olundu. Hansı ki, həmin divar da şərq tərəfdə qazıntıdan kənara çıxır. Qazıntının şimal–şərq küncünə yaxın ərazidə iri bir çökəkliyin qalıqları olduğu müəyyənləşdirildi. Orada geniş sahəni əhatə edən yanıq izləri diqqəti cəlb etdi. Görünür, həmin əraziyə ətraf evlərdə yaşayan insanlar məişət və istehsalat tullantıları atıb, sonra da zaman-zaman həmin tullantılar yandırılıb. Yanıq sahədən bir qədər şimal tərəfdə iri bir nohur - gölməçə yeri olduğu da müəyyən edildi. Orada lil təbəqəsi altında qalmış çoxsaylı və müxtəlif çeşidli maddi mədəniyyət qalıqları, o cümlədən 2 ədəd insan kəlləsi, heyvan sümükləri və s. qeydə alındı. Fikrimizcə, vaxtı ilə həmin ərazini sel basıb. Gilli-lilli təbəqə də məhz bu cür düşünməyə əsas verir. Nohur-gölməçədəki insana aid kəllələr oraya ya sel suları nəticəsində düşüb, yaxud da kriminal zəminində kimlərinsə boynu vurularaq oraya tullanmışdır.



Tədqiqatlar davam etdirilərkən nohur-gölməçə yerindən şimal tərəfdə kərpic döşəmə və onun yanında iki ədəd vanna-trap tipli qurğu aşkar olunmuşdur. Düşünmək olar ki, həmin yerdə şəhər qəssablarından kiminsə dükanı olub. Ətrafda qeyd alınmış çoxsaylı xırdabuynuzlu heyvanlara aid ostoloji qalıqlar da bundan xəbər verir.

Qazıntı davam etdirilərkən orada XIV əsrin sonu – XV əsrə aid 2 ədəd açıq tipli dulus kürəsi aşkar olunaraq tədqiq olunub. Bundan əlavə XII-XVII əsrlərə aid çoxsaylı iri və xırda tikililər, küçə və yol ayrıcları, şəhər əhalisinin təsərrüfat həyatı, məişət və sanitariya mədəniyyəti, ölkənin və dünyanın ayrı-ayrı sahələri ilə ticarət və mədəni əlaqələri barədə geniş təsəvvür yaradan çoxsaylı maddi mədəniyyət nümunələri aşkara çıxarılmışdır.


Son vaxtlar Türkiyə kitabxanalarında Qəbələ tarixinə dair daha bir çox mühüm mənbə aşkar edilərək ekspedisiya üzvü, tarix üzrə fəlsəfə doktoru F.S.Xəlilli tərəfindən "Miras" jurnalında nəşr olunmuşdur. Söhbət 1582-ci ildə Osmanlı ordusunun Qəbələ qalasında mühafizəçisi olmuş şair Asəfinin 6982 beytdən ibarət "Şücaətnamə" əsərindən və onun mötivləri əsasında işlənmiş 4 miniatürdən gedir. Xatırladaq ki, əsərdə və miniatürlərdə Qəbələ qalasının təsviri və qala uğrunda gedən döyüşlərdən bəhs olunur. Asəfi Qəbələ qalasını belə təsvir edir:

...Qələdir namı, vəli divarı yok
Küçə, yok divarı, amma darı çok...

...Alur imiş qələnin su çevrəsin
Qələ ortada alur su devrəsin

Böylə yazmışlar bilənlər ol dəmi
Şəhrə sandalla varırmış adəmi...

Virmədik ol qələnin bir taşını
Düşmənin taşilə yardıq başını...










Qəbələ antik dövrdə olduğu kimi, orta əsrlərdə də çox mühüm sənətkarlıq mərkəzi olaraq qalmaqda idi. Arxeoloji qazıntılar zamanı tapılmış zəngin maddi mədəniyyət nümunələri orada daşişləmə, metalişləmə, sümükişləmə, ağacişləmə, dulusçuluq, şüşə istehsalı, zərgərlik, boyaqçılıq, dabbaqlıq, toxuculuq və bir sıra digər sənət sahələrinin geniş inkişafından xəbər verir. Görünür, Qəbələ regionun mərkəzi kimi, həm də ətraf yaşayış məntəqələrinin əhalisinin sənətkarlıq məhsullarına olan ehtiyaclarını ödəyirmiş.

Qəbələdə tikinti-abadlıq işlərinin miqyası həmişə böyük olub. Təbiidir ki, bu məqsədlə istifadə olunan kərpic, əhəng, kirəmit, üzlük material, metal və xarratlıq məmulatı şəhərin özündə və yaxud da ətrafında istehsal olunurdu.

Qəbələnin sənətkarlıq məhəlləsinin yeri barədə Ö.İsmizadə, Q.Əhmədov və F.Qədirov tərəfindən müxtəlif mülahizələr söylənilib. Məsələn, Q. Əhmədovun fikrincə, şəhərin sənətkarlar məhəlləsi Govurlu çayın sol sahilində "Yanıq yer» adı ilə bəlli olan ərazidə yerləşib. F.Qədirov isə sənətkarlar məhəlləsinin "Yanıq yerdən» bir qədər şərqdə yerləşən "Şərif açığı» adı ilə tanınan ərazidə olduğunu güman edir. Əlbəttə, bu mülahizələrlə qeydşərtsiz razılaşmaq qeyri-mümkündür. Yəni "Yanıq yer»də və "Şərif açığı»nda sadəcə olaraq saxsı məmulatı istehsal olunub. Şəhərin dulusçuluq məmulatı istehsalının bütünlüklə həmin yerdə cəmləşdiyini də söyləmək doğru olmazdı. Çünki digər yerlərdə, o cümlədən qala divarları daxilində, yəni həm Səlbirdə, həm də Qala ərazisində bir neçə yerdə kürə qalıqları, istehsal ocaqları, çoxsaylı istehsal çıxarları tapılıb. Bu o deməkdir ki, dulusçuluq məmulatı istehsalı həm şəhərin içərisində, həm də ətraf ərazilərdə mövcud olub. Ehtimal ki, kərpic, kirəmit və su tüngləri qala divarlarından kənarda, daha doğrusu, bilavasitə gil ehtiyatlarına yaxın ərazilərdə cəmləşib. Məişət keramikası isə daha çox məhz şəhərin içərisindəki emalatxanalarda istehsal olunub və elə oradakı kürələrdə də bişirilib. Məlumat üçün bildirək ki, indiyədək Qala ərazisində 1960-cı ildə 2 ədəd, 1986-cı ildə 1 ədəd, 2011-ci ilin tədqiqatlar zamanı isə 7 ədəd, ümumilikdə 10 ədəd dulus kürəsi aşkar edilib. Bütün bunlar isə dulusçuluq istehsalı sahəsində həm də dərin ixtisaslaşma olduğundan xəbər verir.

Bu cəhətdən 2011-ci il tədqiqatların nəticələri xüsusi əhəmiyyət kəsb edir. Qalanın cənub tərəfində, həm də bir-birinin yaxınlığında 7 ədəd dulus kürəsinin olması ondan xəbər verir ki, məhz həmin ərazi xeyli müddət şəhərin dulusçular məhəlləsi olub. Xatırladaq ki, şəhərin Qala hissəsində indiyədək aşkar edilmiş 10 dulus kürəsinin 8-i məhz həmin ərazidə qeydə alınmışdır. Yəni uzun müddət həmin ərazidə dulusçuluq məmulatı bişirilib və kürələrdən biri köhnəlib sıradan çıxdıqda onun yerində, yaxud da yanında yeni, növbəti kürə tikilib. Aşkar olunmuş kürələrdən birində əsasən kirəmit bişirildiyi, digər kürələrdən isə məişət keramikası bişirilməsi məqsədi ilə istifadə olunduğu müəyyən edilib.







Dulus kürələrindən 2 ədədi içərisi bişirilmiş məmulatla dolu vəziyyətdə aşkar olunub. Onlardan birində çoxlu miqdarda enliboğazlı süzgəcli bardaqlar, digərində isə lüləkli çıraqlar tapılıb. Hər iki kürədəki məmulat demək olar ki, bütünlüklə yanaraq ötüb və deformasiyaya uğrayıb. Görünür, məmulat bişirilərkən şəhərdə hansısa fövqəladə hadisə baş verib və bu səbəbdən də ustalar kürəyə nəzarəti unudublar.

Fikrimizcə, kürələrdən birində ancaq enliboğzalı süzgəcli bardaqların, digərində isə lüləkli çıraqların bişirilməsi Qəbələdə dulusçuluq istehsalında dərin ixtisaslaşma olduğuna dəlalət edir.







Diqqəti cəlb edən məqamlardan biri də budur ki, tapılan saxsı məmulatına aid bir çox nümunələr üzərində yazı olduğu müəyyən edilib. Bu isə öz növbəsində şəhər əhalisinin, hətta dulusçu ustaların belə savadlı olduğundan xəbər verir.

Əldə olunmuş maddi mədəniyyət qalıqlarının elmi-tədqiqat üçün əhəmiyyət kəsb edən nümunələri çöl-qeydiyyat kitabı əsasında inventarlaşdırılaraq götürülmüş, qalan bütün digər tapıntılar isə abidənin turizm perspektivi nəzərə alınaraq statistik uçotu aparılmaqla xüsusi olaraq hazırlanmış dəmir qutulara yığılaraq bilavasitə qazıntı yerində nümayiş üçün saxlanılması təmin olunmuşdur.

Yeri gəlmişkən Qəbələ ekspedisiyası ilk dəfədir ki, bu təcrübədən istifadə edir. Ekspedisiya çöl tədqiqatlarının sonunda aşkar edilmiş 4 dulus kürəsinin və təbii təsirlər nəticəsində dağılmaq ehtimalı olan tikinti qalıqlarının üstünün polietlen örtüklə müvəqqəti olaraq örtülməsini təmin etmişdir.

Ekspedisiya başlanmış sahədə tədqiqatların gələcəkdə də davam etdirilməsini məqsədəuyğun hesab edir. Bu, Azərbaycanda şəhər mədəniyyəti probleminin daha dərindən və daha ətraflı şəkildə öyrənilməsi baxımından çox vacibdir.

Г.Дж.Джабиев, Ф.С.Халили, Е.И.Аббасова

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ГАБАЛЕ (КРЕПОСТЬ)

РЕЗЮМЕ

Археологические раскопки 2011 года средневекового городища Гала были продолжены. В результате археологических раскопок культурного слоя IX-XI вв. исследованы остатки 5 обжигательных печей. Было установлено, что одна из печей предназначалось для обжига керамических труб, другие для обжига бытовой керамики.

В результате раскопок были очищены датируемые остатки стены XII-XIII вв. из обожжённого кирпича, а также 2 обжигательные печи, датируемые концом XIV-XV вв.

Обнаруены 4 миниатюры, сделанные на основе мотивов «Сючаэтнаме» поэта Асефи.

G.C.Jabiev, F.S.Khalilli, E.I.Abbasova

ARCHAEOLOGICAL RESEARCHES IN GALA SITE OF MEDIEVAL GABALA

SUMMARY


Archaeological researches in medieval Gala site of Gabala in 2011, is a continuation of studies conducted in 2008 and 2009. As a result of archaeological excavations in the cultural layer was 5 pieces of land Potter and his remains related to IX-XI centuries. It has been found tiles and water pipes from a land Potter.

As a result of excavation it has been investigated remains of wall built from baked bricks related to XII-XIII centuries and 2 pottery goods related to XIV-XV centuries.

It has been added to report 4 miniatures from the poem “Shujaatnameh” of poet Asefi.

NEFTÇALA RAYONUNA ELMİ EZAMİYYƏTİN NƏTİCƏLƏRİ
(Neftçala rayonu)

A.M.Ağalarzadə



Son orta əsrlərdə Azərbaycanda yaşayış məskənlərinin böyük əksəriyyətini kəndlər təşkil edirdi. Bəzi müasir kəndlərin ərazisində mədəni təbəqə yatımının varlığı onların bünövrəsinin son orta yüzilliklərdə qoyulduğunu və bu günədək həmin yaşayış məskənlərində fasiləsiz həyatın davam etdiyini söyləməyə əsas verir. Lakin son orta əsr kənd tipli yaşayış yerləri arxeoloji cəhətdən zəif öyrənilmişdir[1, 356].

Ezamiyyət müddətində son orta əsrlər dövrünə aid bir neçə kənd tipli yaşayış məskənləri qeydə alınmış və onlarda kəşfiyyat xarakterli ilkin qazıntılar aparılmışdır. Bunlardan biri də Dirovdağdır.

Dirovdağ yaşayış məskəni Ələt-Astara yolunun sol tərəfində, Şirvan Milli Parkının ərazisindədir. Şərqdən 10 km məsafədə Xəzər dənizindən aralı olan yaşayış yeri eyniadlı dağın ətəklərindədir. Tutduğu ərazi təxminən 6-7 ha yaxındır. Dağın ətəkləri bütün ətrafı boyunca orta əsrlərə məxsus maddi mədəniyyət nümunələri ilə zəngindir. Üzəri isə aktiv və sönmüş kiçik palçıq vulkanlarından ibarətdir. Demək olar ki, bütün ətraflarda bişmiş kərpic qalıqlarına təsadüf edilir. Şimal və şimal-qərb tərəflərdə metallurgiya istehsalı ilə bağlı ocaq izləri, metal qırıntı və ərintiləri aşkar edilmişdir. Dağın bütün ətraf və səthi boyu insana məxsus kəllə, ayaq və qol sümüklərinə rast gəlinir. 2008-ci il qazıntıları zamanı (Arxeoloji ekspedisiyanın rəisi: t.e.n. B.İ.İbrahimli olmuşdur) şimal tərəfdə bir neçə yerdə qəbirlər aşkar edilmişdir. Bunlar müsəlman qəbirləri olub üzü cənub istiqamətində dəfn edilmişlər. Vulkan püskürmələri zamanı qəbirlərin əksəriyyəti dağılmış və sümüklər ətrafa yayılmışdır. Cənub-şərq tərəfdə bir neçə yerdə kərpic qalıqlarının sıx olduğu yerlər müşahidə olunur. Bişmiş kərpicdən hörülmüş 1,50x1,30 m ölçülü tikili qalıqlarından biri salamat qalmışdır. Tikilinin hündürlüyü 0,50 m olub yer səthindən 20 sm dərinlikdədir. Otaq, tikintisində istifadə olunmuş 22x12 sm, 15x20 sm-li bişmiş kərpiclərdən hörülmüşdür. Döşəməsinə nizamsız halda kərpic qalıqları düzülmüşdür. Tikilinin içərisində xeyli sayda saxsı qablara məxsus fraqmentlər – bardaq və səhəng qulpları, şirli və şirsiz saxsı məmulatı və s. aşkar edilmişdir. Ehtimal ki, bu dulusçuluq emalatxanası ilə bağlı olan qabların saxlanc otağı olmuşdur.





Tikilidən 0,50 m şimalda 60x40 sm diametrində, 22x22 sm ölçülü bişmiş kərpiclərdən üst-üstə 3 sırada düzümlü düzbucaq formalı yer vardır. Altlıq formalı yerin ətrafında saxsı qırıqları və altında isə ocaq izi müşahidə edilmişdir. Azərbaycan ərazisində arxeoloji tədqiqatlar zamanı son orta əsrlərə aid tam salamat qalmış dulusçu emalatxanası aşkarlanmasa da, ayrı-ayrı abidələrdən dulus kürələri, kürə ləvazimatı, qəlib, gil quyusu, istehsal çıxarları məlumdur. Etnoqrafik tədqiqatlardan məlumdur ki, hər bir dulusçu emalatxanasında gil quyusu olurdu [3, 146].

Mütəmadi olaraq palçıq vulkanlarının püskürməsi və yerdəyişməsi zamanı abidənin çoxlu sayda saxsı və metal məmulatı ətrafa səpələnmişdir. Toplanmış arxeoloji materiallar şirli və şirsiz saxsı məmulatından, dəmir mismarlardan və mis bəzək əşyalarından, şüşə məmulatından – xüsusilə, məişət və ətriyyat qablarından, dulusçuluqda naxış vurulması üçün istifadə olunan sümükdən, məsaməli tuf daşlarından hazırlanmış dən və su daşlarından ibarətdir. Ən maraqlı tapıntılar ərazidən aşkarlanmış 4 ədəd ərəbdilli mis sikkələr və üzərində ərəb dilinin nəsx xəttilə yazılmış daş kitabənin qalığıdır.


Saxsı məmulatı şirli və şirsiz olub müxtəlif ölçülü və təyinatlıdırlar. Məişətdə və təsərrüfatda istifadəsi aydın müşahidə edilir. Şirli saxsı qablar kasa, vaza, boşqab və miniatür biçimli qablara məxsus fraqmentlərdir(şəkil 7-8).


Şirli dayaz boşqablardan biri qırmızı rəngli qum qatışıqlı gildən yaxşı bişirilmişdir. Içərisi əvvəlcə ağ rəngli anqob qatı ilə örtülmüş, daha sonra isə yaşıl şirlə kənarları boyunca cızma üsulu ilə 4 cərgədə dairəvi konsentrik xətlər çəkilmişdir. Xətlərdən biri iç tərəfdən dalğavari naxışlanmışdır (inv. 1/2011). Digər boşqab nisbətən dərin olub


qırmızı rəngli gildən yaxşı bişirilmiş saxsı qabdır. Ağız kənarı enli və yastı olub xaricə çıxıntılıdır. Daxildən əvvəlcə ağ rəngli anqob qatı ilə örtülmüş üzərindən tünd yaşıl rəngli şir çəkilmişdir. Şirlənməzdən əvvəl qabın ağız kənarı həndəsi formalı düz xətlərlə paralel və şaquli naxışlanmışdır. Orta hissəsində dairəvi-konsentrik xətlərin də forması qalmışdır (inv. 2/2011). Ağ rəngli fayans boşqablardan birinin ağ anqob astarı üstündən tünd göy rənglə nəbati təsvirli ornament çəkilmişdir. Yarpaq və güllərdən ibarət olan təsvirlər ortada olub ətrafı konsentrik xətlərlə tamamlanır. Dabanlı hündür oturacağa malikdir (inv. 3/2011). Dayaz boşqablardan biri enli və yana çıxıntılı olan ağız kənarına malikdir. Boşqabın içərisi ağ rəngli anqob astarı ilə örtülmüş, ağız kənarı isə əvvəlcə anqob qatı üstündən həndəsi xətlər çəkilmiş, açıq yaşıl rənglə boyandıqdan sonra üzəri şəffaf şirlə örtülmüşdür (inv. 4/2011). Eyni formalı boşqablardan biri də daxildən ağ anqob qatı üstündə dairəvi konsentrik xətlərdən ibarət cızıqlar çəkilib. Ağız kənarı üstündə bir-iki xəttin içərisində ərəb dilinin "vav" hərfini xatırladan naxışlar da vurulmuşdur. Açıq-yaşıl rəng üzərindən şəffaf şirlə örtülmüşdür (inv. 5/2011). Bu tipli qablardan biri nazik anqob qatı üstündən tünd yaşıl rənglə boyanmış və şirlə örtülmüşdür. Ağız kənarı bişirilməzdən əvvəl dalğavari bəzənmişdir. Üstündə bir-birindən nisbətən aralı halqavari naxışlar, bu naxışların da birinin içərisində nəbati, digərində paralel yanaşı xətlər çəkilmişdir (inv. 6/2011). Şirli qablardan biri dayaz qaba məxsusdur. Daxildən nəbati elementli naxışlarla bəzədilmiş və yaşıl rəng üzərindən şəffaf şirlə örtülmüşdür. Dabanlı oturacağa malikdir (inv. 7/2011). Qonur rənglənmiş və şirlə örtülmüş boşqablardan biri ağız kənarı həndəsi naxışlıdır. Içərisində bəzən yaşıl rəngin ləkələrinə də rast gəlinir (inv. 8/2011). Eyni formalı boşqabda ağ anqob astarı üzərində tünd yaşıl rəng yalnız kənarlarda çəkilmişdir (inv. 9/2011). Bu tipli qabın birinin içərisində həm həndəsi naxışlar (dalğavari, düz xətlər), həm də nəbati təsvirlər çəkilmişdir (inv. 10/11). Dayaz boşqablardan biri ağ anqob qatı üstündən daxildən ağ rənglə, ağız kənarları yaşıl rənglənmişdir. Bu hissəni cızma üsulunda müxtəlif xətlər bəzəyir (inv. 11/2011). Boşqaba məxsus ağız kənarlarından birinin üzəri qazma üsulunda dalğavari ornamentlə bəzədilmişdir (inv. 12/2011).




























Miniatür formalı çaynik tipli şirli qablardan biri narın tərkibli qum qatışığından olub yaxşı bişirilmiş saxsıdır. Üzəri açıq göy rəngdə rənglənmiş və zəif şirlənmişdir. Qabın şarşəkilli gövdəsi yastı və enli oturacaqla tamamlanır. Gövdə hissəsində balaca dairə formalı naxış vardır. Lüləyi çiyindən nisbətən aşağıdadır (inv. 13/2011). Vaza tipli qablardan biri boz rəngli, qum qatışıqlı gildən yaxşı bişirilmiş şirli saxsı qabdır. Qabın daxilində ağ anqob astarı üzərindən müxtəlif həndəsi – torşəkilli, düz xətlərdən ibarət naxış çəkilmiş və tünd yaşıl rənglə örtülmüşdür (inv. 14/2011). Eyni tipli qablardan biri daxildən həndəsi formalı konsentrik xətlərdən ibarət naxışlanmış və açıq-yaşıl rənglənmiş, şirlə örtülmüşdür (inv. 15/2011). Qonur-sarı rənglə örtülmüş vazalardan birinin daxilində gövdədən nisbətən yuxarı tərəfdə düz və halqavari xətlərdən ibarət naxış çəkilmişdir (inv. 16/2011). Fraqmentlərindən biri hər hansı bir qabın gövdə hissəsinə məxsusdur. Daxildən və xaricdən anqob astarı üstünə yaşıl rəng çəkilmiş və şəffaf şirlə örtülmüş qab fraqmentinin üstündə şam ağacının təsviri qalmışdır (inv. 17/2011).

Balaca fraqmentlərdən biri nəlbəki tipli qaba məxsusdur. Fayans qabın içərisinə açıq-göy rəng çəkilmiş, nəbati ornamentli təsvirlər tünd qara rənglə ayrılmışdır (inv. 18/2011). Tünd qonur rəngli və şəffaf şirlə örtülmüş qablardan birinin ağız kənarından aşağıda balaca deşik açılmışdır. Bu çox güman ki, qabın divardan asılması üçündür (inv. 19/2011). Ağ rəngli, iri ölçülü, dayaz formalı fayans qablardan biri ağ anqob astarı üzərindən tünd-göy rəngli, nəbati ornamentli boşqabdır (inv. 20/2011).

Aparılan geniş miqyaslı arxeoloji tədqiqatlar şirli saxsı məmulatının da şirsiz saxsı məmulatı kimi son orta əsrlərdə Azərbaycan əhalisinin məişətində mühüm yer tutduğunu söyləməyə imkan verir. Əsasən əvvəlki əsrlərə məxsus sənət ənənələrinin yaşadılması, zamanın sınaqlarından çıxmış və praktiki cəhətdən özünü doğrultmuş formaların davam etdirilməsi ilə yanaşı, bir sıra fərqləndirici əlamətlərin meydana gəlməsi, ayrı-ayrı detallardakı dəyişikliklər, tətbiq olunan yeni texnoloji üsullar və digər xüsusiyyətlər bu dövrün şirli saxsı məmulatını səciyyələndirən başlıca əlamətlərdir. Tədqiqatlar göstərir ki, Azərbaycanın şirli qablarının gili tərkib etibarı ilə şirsiz qabların gili ilə eyniyyət təşkil edir. Belə ki, son orta əsrlərə aid şirsiz qablar kimi, şirli qablar hazırlanması üçün də bişirildikdən sonra əsasən çəhrayı, açıq-qırmızı və ya bozumtul rəng alan gildən istifadə edilmişdir [1, 390].

Dirovdağın şirsiz saxsı məmulatı – qazan fraqmentləri, qapaqlar, səhəng tipli qablara məxsus qulplar, küpə və aftafa tipli qabların lüləyindən və çıraqlardan ibarətdir.

Qapaqlar iri ölçülü olub ağız kənarları yuxarıya qatlanmışdır. Tutacaq hissəsi disk formalıdır. Üstündə yan tərəflərdə buxarın çıxması üçün balaca deşiklər açılmışdır. Qırmızı rəngli gildən yaxşı bişirilmiş qapaq dulus çarxında hazırlanmışdır (inv. 21/2011). Son orta əsr dulusçuları əvvəlki dövrdə olduğu kimi, təndir, küp, tava, güvəc, küpə, sərnic və s. qabların ağzını qapamaq üçün müxtəlif ölçülü və formalarda çoxlu qapaqlar istehsal edirdilər. Müvafiq olaraq qapaqlar formasına, ölçülərinə, naxışlanma xüsusiyyətlərinə və təyinatına görə tiplərə ayrılır [1, 388].

Aftafa tipli qablara məxsus lüləyin fraqmentləri uzunsov və boruşəkilli olub ağız hissəsinin qırağında kanalvari xətlə qurşaqlanmışdır. Qonur rəngli, nisbətən kobud qatışıqlı gildən yaxşı bişirilmiş qablara məxsusdurlar (inv. 22/2011).

Səhəng tipli qaba məxsus olan bir fraqment uzun və dar boğaza malikdir (şəkil 9). Boğazın ağıza yaxın yerində daraqvari alətlə çəkilmiş dalğavari formalı naxış vurulmuşdur. Narıncı rəngli, təmiz tərkibli gildən keyfiyyətli bişirilmiş qab dulus çarxında formalaşdırılmışdır (inv. 23/2011). Qulp fraqmentləri də lentvari, dairəvi en kəsikli olub narıncı, qırmızı rəngli gildən bişirilmiş səhəng tipli qablara məxsusdur (inv. 28-31/2011). Son orta əsrlərdə su daşınmasında ənənəvi olaraq səhənglər üstün mövqeyə malik idi. Arxeoloji qazıntılar aparılmış bütün abidələrdən qırıqlar və ya bütöv hallarda səhəng nümunələri tapılmışdır. Səhənglərin adətən yastı oturacağı, yumurtavari və ya uzunsov gövdəsi, dar, qısa boğazı, lentşəkilli qulpu olurdu. Tutumlarından asılı olaraq bəhs olunan dövrün səhənglərinin hündürlüyü 35-45 sm arasında dəyişirdi. Bu cür səhənglər 10-18 litr su tutumuna malik olurdu [1, 387].

Küpə tipli saxsı qaba məxsus bir fraqment boz rəngli, qum qatışıqlı gildən yaxşı bişirilmiş hissədir. Qabın şarşəkilli gövdəsi qalmışdır. Gövdənin üzərində cızma üsulunda müxtəlif həndəsi, nəbati formalı naxışlar və bu naxışların arasında şaquli olaraq 5 cərgədə ulduz formalı düyməşəkilli yapma naxışlar vurulmuşdur (inv. 24/2011). Küpə tipli qablardan biri qara rəngli, kobud qatışıqlı gildən bişirilmişdir. Ağız kənarı nsibətən köbəli olub xaricə qatlanmışdır. Çiyin hissəsində bişirilməzdən əvvəl çəngəl şəkilli alətlə batıqvari naxışlanmışdır (inv. 27/2011). Küpələr forma etibarı ilə küplərə, həcminə görə isə sərniclərə oxşayırdılar. Lakin onların qulpu olmurdu. Bir qayda olaraq küpə tipli qabların çiyin və boğaz hissələri əsasən cızma və ya qazıma üsulu ilə salınmış sadə naxışlarla bəzədilmişdir [1, 387].

Tapıntılar arasında qazan firamenti də vardır. Belə ki, qonur rəngli, kobud qatışıqlı gildən zəif bişirilmiş qazan şarşəkilli gövdəyə məxsusdur. Bişirilməzdən əvvəl ağız kənarı daraqvari alətlə naxışlanmış, çiyin hissəsinə sünbülvari formalı naxış çəkilmişdir. Səthində his qatı vardır (inv. 25/2011). Bir ədəd üzəri nəbati təsvirli ornamentlə bəzədilmiş fraqmentin hansı qaba məxsusluğu aydın deyildir. Boz rəngli, qum tərkibli gildən yaxşı bişirilmişdir (inv. 26/2011). Gil qazanlar (güvəclər) mətbəx qabları kimi əhalinin məişətində xüsusilə geniş yayılmışdı. Bu tip qabların əksəriyyəti fraqmentlər halında aşkar edilir. Oda davamlılıq onların gilinin tərkibini və quruluşunu müəyyənləşdirirdi [4, 56]. XV-XVII əsrlərin gil qazanları qulplu, qulpsuz və lüləkli qazanlar olmaqla üç başlıca qrupa ayrılırdı [2, 55].

Sümük məmulatı bir ədəd iri buynuzlu heyvana məxsusdur. Qabların naxışlanmasında alət kimi istifadəsi ehtimal edilir. Əldə uzun müddətli istifadə nəticəsində cilalanmışdır (inv. 32/2011). Azərbaycanın orta əsr sənətkarlığında sümükişləmə müstəqil sənət sahəsi kimi fəaliyyət göstərirdi. Zəngin xammal mənbəyinin mövcudluğu bu sənət sahəsinin inkişafını sürətləndirmişdir [1, 397]. Sümükişləmə sənətkarlığı ilə əlaqədar olan alətlərin, xammalın və sümük məmulatının öyrənilməsi bu sahədə istehsal prosesini izləməyə imkan vermişdir.


Şüşə məmulatı açıq qonur rəngli, şəffaf olub müxtəlif təyinatlı ətriyyat qablarına məxsusluğu ehtimal edilir. 2 ədəd şüşə qolbaqlar tutqun qara rənglidir. Burma üsulu ilə hazırlanmışdır. 1 ədədində ağ zolaqlı haşiyə vardır (inv. 33-37/2011). Arxeoloji qazıntılar zamanı əldə olunan materiallar son orta əsrlərdə yerli sənətkarların süfrə qabları, əczaçılıq və kimya laboratoriya qabları, ətir qabları, bəzək əşyaları istehsal etdiklərini təsdiqləyir [10, 250]. Bəzək əşyaları əsasən müxtəlif tipli muncuq və asmalardan, bilərziklərdən ibarətdir. Şüşə məmulatının istehsalında müxtəlif texniki üsullardan – sərbəst üfürmə, qəlibdə üfürmə, tökmə, dartma, burma, qatlama, qaynaqetmə və s. istifadə olunmuşdur [1, 395].

Metal tapıntılar 4 ədəd mis puldan ibarətdir. 1-1,2 sm diametrə malik sikkələrin üzərində ərəb dilinin nəsx xəttilə yazılar pis saxlanmışdır. Sikkələrdən birinin üzərində "Şamaxı" sözü yazılıb. Digərləri anonim mis fəlslərdir (inv. 38-41/2011). T.e.d., professor Ə.Rəcəbli bu sikkələri Azərbaycanın orta əsr şəhərlərinin muxtar mis fəlsləri adlandırır. Digər metal nümunələr 5 ədəd müxtəlif bəzək əşyalarından ibarətdir. Bunlar zınqırov, açar və nəbati formalı asma bəzək nümunələridir (inv. 42-46/2011). 4 ədəd dəmir mıx nisbətən çürümüşdür. Papaqvari formalı başlıqları vardır (inv. 47-50/2011). İnşaatda, məişətdə işlənən dəmir mıxlara arxeoloji qazıntılar zamanı daha çox rast gəlinir. Onların başlığı dairəvi, ellipsvari formalı olub, bir tərəfə və ya hər iki tərəfə çıxıntılıdır. Ölçüləri müxtəlif, en kəsikləri dairəvi və ya dördtillidir [1, 411].









Daş alətlər – dən daşları, bülöv və daş kitabə qalıqlarıdır. Dən daşlarından biri nazik və yastı məsaməli qum daşındandır. Yanları yaxşı yonularaq dairəvi formaya salınmışdır. Daşın ortasında dən tökülməsi (d- 6 sm), kənar tərəfində ağac dəstək keçirilməsi üçün dairəvi (d- 3 sm) deşiklər açılmışdır. Əşyanın tən yarı hissəsi salamat qalmışdır (inv. 51/2011 – şəkil 20). Digər dən daşı fraqmenti məsaməli balıqqulağı daşından hazırlanmışdır. Ortasındakı dairəvi deşiyi (d- 5 sm) qalmışdır (inv. 52/2011 – şəkil 21). Bir ədəd çaydaşından bülöv tipli alətin üzərində uzunmüddətli istifadə izləri müşahidə edilir. Uzunluğu- 12 sm-dir(inv. 53/2011). Abidənin cənub-qərb tərəfində iri tutumlu su daşı da aşkar edilmişdir. Hündürlüyü – 0,70 m, ağzının diametri 0,50 m olan su təmizləmək məqsədilə düzəldilmiş əşya ağ rəngli məsaməli tuf daşındandır. Daşişləmə sənəti ənənəvi olaraq daşçıxarma, daşyonma və daşoyma kimi istehsal sahələrini əhatə edirdi [7, 68]. Daşişləmə sənətində xammal əsasən, xüsusi mədən-yataqlarda, karxanalarda tədarük olunurdu. Arxeoloji qazıntılardan çoxlu miqdarda təsərrüfat və məişətin müxtəlif sahələrində istifadə olunmuş daş alət və vasitələr məlumdur [1, 398].

Bir ədəd məsaməli balıqqulağı daşı üzərində ərəb dilinin nəsx xəttilə yazılmış kitabənin sınmış hissəsi qalmışdır (inv. 54/2011). Qeyd edilən dövrdə daşişləmə sənətkarlığının mühüm sahəsi olan həkkaklıqda böyük nailiyyətlər olduğunu çoxsaylı sənət əsərləri təsdiq edir. Həkkaklar müxtəlif tipli alətlərdən istifadə etməklə, qabartma və ya oyma texnikasında nəzərdə tutulan həndəsi, nəbati naxışları və yaxud ərəb əlifbasının kufi, nəsx və süls xətlərilə kitabələri daş üzərinə həkk edirdilər [1, 399].

Toplanmış materiallar müqayisəli təhlillər əsasında XV-XVII əsrlərə aid edilir.

Dirovdağ yaşayış yerindən bir neçə km qərbdə orta əsrin şəhər yeri məlumdur. Bu Qırxçıraq şəhər yeridir. Sahəsi təxminən 16000 kv.m-ə yaxın olan abidə hələ XX əsrin əvvəllərində bu ərazidə olmuş səyyahlar tərəfindən qeyd olunmuşdur. Onlar yazırdılar ki, Qırxçıraqda bişmiş kərpic və daşdan hörülmüş binalar, köşklər, karvansara, məscid və minarələr mövcud olub. Ötən əsrin 70-ci illərində ərazidə aparılan irriqasiya və torpaq işləri ilə əlaqədar mədəni təbəqə açılmış və zəngin arxeoloji maddi mədəniyyət nümunələri aşkar edilmişdir. 1969-cu ildə Qırxçıraqda elmi kəşfiyyat məqsədilə arxeoloji axtarışlar aparılmaqla bu şəhərin XIV-XVI əsrlərdə iqtisadi, mədəni həyatının mövcudluğu sübut edilmişdir. Vaxtilə bu ərazidə bürc və hərbi istehkamların olduğu da müəyyənləşdirilmişdir [9, 7-10].

Qırxçıraq şəhər yeri haqqında tarixi ədəbiyyatda müxtəlif fikirlər var. Arxeoloji araşdırmalar göstərir ki, Qırxçıraq əsasən Elxani hökmdarı Qazan xan (1295-1304) tərəfindən qoyulmuş Mahmudabad şəhərinin qalığıdır. Tarixi mənbələrə görə, Elxani hökmdarı Qazan xanın göstərişi ilə Muğanda, Xəzər dənizinin yaxınlığında, Kür çayının sahilində, Salyandan bir qədər aralı Mahmudabad adlı şəhər salınmışdır. Bu şəhər sonralar inkişaf etdi. A.A.Bakıxanov "Gülüstani-İrəm" əsərində yazır: "Mahmudabad dərya kənarında Kür çayının iki qolu arasında salınmışdır". Təsadüfi deyildir ki, Mahmudabadın adı tarixi mənbələrdə çox vaxt Salyanın adı ilə birgə çəkilir. Bu da şəhərin Salyana yaxın yerdə olduğunu göstərir. Bəndovan XIII əsrin sonu – XIV əsrin əvvəllərində Xəzərin sularına qərq olduqdan sonra Qırxçıraq (Mahmudabad) şəhəri yüksəlməyə başlamışdır[9, 8]. Tarixçi-arxeoloqlar Xəzər dənizinə yaxın olan Mahmudabadı (Qırxçıraq) söyləyirlərsə, əslində Xəzərə yaxın və vaxtilə Kürün mənsəbi olmuş ərazi məhz Dirovdağdır. Dağın şərq tərəfində, düzənlik ərazidə qədim çay yatağının izləri aydın müşahidə olunur.

Dirovdağ yaşayış yeri ilə Qırxçıraq yaşayış yerinin eyni vaxtda salınmış yaşayış yerləri olduğu ehtimal olunur. Hər iki abidənin tikili qalıqları və maddi mədəniyyət nümunələri eyniyyət təşkil edir.

Muğan bölgəsində, Kür çayının sağ və sol sahilində salınmış şəhər yerləri inkişaf etmiş orta əsrlərin qüdrətli dövlətlərinin zamanında yüksəliş dövrünü keçirmiş, lakin monqolların amansız hücumları qarşısında tab gətirməyərək məhv olmuşdur. Bu yaşayış məskənlərinin monqollar dövrünə təsadüf etməsi ərazidən aşkarlanmış sikkə nümunələrindən aydın müşahidə olunur. Misal üçün, Qırxçıraqda tədqiqatlar zamanı mis sikkələr tapılmışdır ki, bunlar da monqol ulusu olan Cuci hökmdarları adından zərb edilmiş pullar idi [8, 46-48 ; 11, 52-53].

Dirovdağda aparılan arxeoloji tədqiqat işlərinin nəticələri aşağıdakılardır:

1. Dirovdağın şimal-qərb və cənub yamaclarında aparılmış arxeoloji qazıntılar və qoyulmuş şurflar gostərir ki, burada XV-XVII və sonrakı əsrlərdə müvəqqəti yaşayış yerləri olmuşdur. Yerli əhalinin verdiyi məlumata görə, Sovet Ordusunun poliqonuna çevrilənə qədər Dirovdağ qışlaq yeri olaraq qalırdı.

2. Qazıntı zamanı dəmir filizi əridilən kürənin aşkar edilməsi və Dirovdağın cənub və qərb tərəflərində dəmir filizi yataqlarının mövcudluğu burada orta əsrlərdə dəmir istehsal olunduğunu ehtimal etməyə əsas verir[6, 9].

Dirovdağın hər tərəfindən tapılan şirli və şirsiz saxsı qab nümunələri, su daşı, bişmiş kərpiclər və arxeoloji qazıntı sahəsindən əldə edilən keramika, mis cam, mis sikkələr, dəmir filizi əritmək üçün kürə və təndirlər burada XV-XVII əsrlərə aid zəngin mədəni təbəqənin olduğunu göstərir. Gələcəkdə Dirovdağın arxeoloji tədqiqi Azərbaycanda, xüsusən Aran rayonlarında yerləşən müvəqqəti yaşayış yerlərinin xarakteri, burada məskunlaşan insanların məişəti və təsərrüfatı haqqında ətraflı məlumat əldə etməyə imkan verəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan arxeologiyası. Orta əsrlər, altı cilddə, VI cild. Bakı, Şərq-qərb – 2008.
2. Cəbiyev Q.C. Azərbaycan keramikası (XIV-XVII əsrlər). Bakı, 2003.
3. Dostiyev T.M. Şimal-şərqi Azərbaycan XI-XV əsrlərdə. Bakı, 2001.
4. Dostiyev T.M. Azərbaycanın orta əsr şəhərləri// Azərbaycan arxeologiyası, 1999, 1-2.
5. Əhmədova V.Q. Azərbaycan təndirləri// Azərbaycan arxeologiyası, 2000, №1-2.
6. İbrahimli B.İ. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu əməkdaşlarının Neftçala rayonu ərazisində yerləşən Dirovdağda insan sümükləri aşkar edilmiş ərazidə apardığı arxeoloji tədqiqat işlərinin nəticələri. Bakı, 2008, 9 səh. (əlyazması hüququnda).
7. Mustafayev A.N. Azərbaycanda sənətkarlıq (tarixi-etnoqrafik tədqiqat). Bakı, 1999.
8. Müseyibov N.Ə. Qırxçıraqda arxeoloji tədqiqatlar// 2000-2001-ci illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya (çöl tədqiqatları və nəzəri problemlər). Tezislər. Bakı, Elm, 2002.
9. Məmmədov Ə. "Xərabə şəhər"in sirri// Elm və həyat, 1968, №1-2.
10. Novruzlu Ə.İ. Azərbaycanın orta əsr sənətkarlığı (XIV-XVII əsrlər). Bakı, 1997.
11. Пиркулиева Г.А. Монеты из Гырхчырара// 2000-2001-ci illərdə aparılmış arxeoloji və etnoqrafik tədqiqatların yekunlarına həsr olunmuş elmi sessiya (çöl tədqiqatları və nəzəri problemlər). Tezislər. Bakı, Elm, 2002.

А.М.Агаларзаде

РЕЗУЛЬТАТЫ НАУЧНОЙ КОМАНДИРОВКИ В НЕФТЧАЛИНСКИЙ РАЙОН

РЕЗЮМЕ

В статье описано средневековое поселение сельского типа Дировдаг, обнаруженное на территории Нефтчалинского района. Исследования, проводившиеся в 70-80-х годах XX века на побережье Каспийского моря, на Дировдаге и Гырхчыраге дали богатый материал для изучения средневековых поселений.

Как продолжение археологических раскопок, проводившихся на Дировдаге в 2008 году, в 2011 году здесь возобновлены исследования. Собранный археологический материал, состоящий из поливных и неполивных сосудов, стеклянных и металлических изделий и т.д., дал представление об образе жизни населения в XV-XVII веках.

A.M.Agalarzadeh

RESULTS SCIENTIFIC MISSION TO THE NEFTCHALA

SUMMARY

This article is about Dirovdagh (Dirovdağ) middle age settlement, which is located in the area of Nefhtchala district. The researches of 1970- 1980s in the area of Caspian coasts, Dirovdagh and Qirxchiraq provide rich information in order to learn Middle age settlements.

As a continuation of archeological excavations in 2008, in 2011 initial investigates were being continued. Founded archeological materials; stained and unstained earthenware potteries, glass and metal products and etc. give opportunity to create imaginations about life-view of XV-XVII age country style settlement.

AĞSUDA ARXEOLOJİ TƏDQİQATLAR
(Ağsu rayonu)

Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova



Ekspedisiya 2011-ci ilin çöl-tədqiqat mövsümündə əvvəlcə 2010-cu ildə IV qazıntı sahəsində üzə çıxmış və tədqiqi yarımçıq qalmış hamam kompleksinin arxeoloji cəhətdən öyrənilməsi işini tam şəkildə başa çatdırmışdır. Qazıntıların davam etdirilməsi nəticəsində hamam-kompleksin giriş qapısı, hamama düşən pilləkən, hamama gələn daş döşənmiş yol, hamama bitişik yardımçı otaqlar, həmin otaqlar qarşısındakı daş döşənmiş geniş meydan və çarhovuz aşkar olunaraq tədqiq edilmişdir. Qazıntının planından da göründüyü kimi, hamam kompleksi mərkəzində çarhovuzu, kənarlara doğru hücrələrə bənzər bölmələri olan istirahət otağından, soyunub-geyinmə otağından və vanna-otaqlardan ibarətdir.

Hamam döşəməsinin altı boyunca işlənmiş mükəmməl isitmə sisteminə malikdir. Tüstü və istiliyin hərəkəti-dövr etməsi üçün səliqə ilə yonulmuş mədən daşlarından və bişmiş kərpicdən nov-şəbəkə işlənmişdir. Başlanğıcını hamamın şərq kənarında yerləşən və üstü tağvarı formada bağlanan ocaqdan götürən isitmə şəbəkəsi hamam otaqlarının döşəməsinin altı ilə soyunub-geyinmə otağının qərb divarınadək uzanır və oradan iki ədəd baca ilə binanın üstünə qalxır.

Hamam-kompleksin istilik kanalları və bacalarının tikintisində müxtəlif ölçülü bişmiş kərpiclərdən geniş istifadə olunmuşdur.

Hamamın üstü demək olar ki, bütünlüklə çöküb. Yalnız bəzi yerlərdə qalan tikinti hissələri binanın üstünün bişmiş kərpicdən tağvari formada hörülmüş örtüklə bağlandığını deməyə əsas verir. Hamam-kompleksin digər hissələrinin, xüsusən də istirahət otağındakı çarhovuzun dövrəsində olan hücrə-mərtəbələrin də üstü bişmiş kərpiclə tağvari formada bağlanmışdır. Soyunub-geyinmə otağından istirahət otağına keçidin üstünün də məhz bişmiş kərpiclə tağvari formada bağlandığı aydın müşahidə olunmaqdadır.

Hamamın içərisinin işıqlandırılması onun üstündəki daş günbəzlərdə oyulmuş gözlük-pəncərələr vasitəsi ilə həyata keçirilmişdir. Tədqiqatlar zamanı hamamın içərisindən bir ədəd iri, daha bir ədəd isə nisbətən kiçik ölçülü daş günbəz aşkar olunmuşdur.





Axtarışlar zamanı hamama girişi və çıxışı olan bir neçə su və kanalizasiya xəttinin qalıqları da aşkara çıxarılaraq tədqiq olunmuşdur. Həmin xətlərdən biri, həm də nisbətən daha tutumlusu şimal-cənub istiqamətində olmaqla hamamın soyunub-geyinmə otağı ilə şəhərin şimal qala divarları boyunca olan xəndəyi birləşdirir. Bu xəttin altı və yanları yonulmuş çay daşı ilə səliqə ilə hörülüb, üstü isə sal daşlarla bağlanıb. Hamamdan şimal istiqamətindəki xəndəyə doğru getdikcə maillik əldə etmək məqsədi ilə nisbətən daha dərinə salınan bu xətdən hamamın çirkab sularının axıdılması üçün istifadə olunduğu güman edilir.

Aparılan tədqiqatlar, müşahidə, müqayisə və təhlillər özünün mükəmməl memarlıq həlli, daxili strukturu, xüsusilə oradakı çarhovuz, istirahət otağı, habelə ətrafdakı nisbətən elitar binalar və meydan IV sahədə aşkar edilən hamam-kompleksin şəhər elitasına aid məişət obyekti olduğunu söyləməyə əsas verir.

Ekspedisiya 2011-ci ilin çöl-tədqiqat mövsümündə IV qazıntı sahəsində axtarışları yekunlaşdıraraq coğrafi koordinatları etibarilə şəhərin mərkəzinə yaxın hissədə şərti olaraq V qazıntı adlandırdığımız ərazidə nisbətən daha geniş tədqiqatlara başlamışdır. Əvvəlcə şəhərin mərkəzi hissəsində şimal-cənub istiqamətində olmaqla uzunluğu 100 metr, eni 2 metr olan sahə kəsilmişdir. Məqsəd nisbətən geniş ərazini əhatə edən fundamental binaları aşkar etmək idi. Orada aşkar olunan tikinti qalıqlarına uyğun olaraq qazıntını şərqə və ya qərbə doğru davam etdirmək nəzərdə tutulurdu. Tədqiqatlar zamanı iri tikinti əlamətləri və nisbətən mükəmməl kommunikasiya şəbəkəsinin qazıntıdan daha çox qərb istiqamətdə olduğu hiss edilməkdə idi. Odur ki, sonda qazıntının sahəsini tədricən qərbə genişləndirilməli olduq.

Qazıntı hər biri 8 x 8 metr ölçüdə olmaqla 78 kvadratı, ümumilikdə isə 4992 kvadrat metr sahəni əhatə edir. Təbii ki, belə geniş ərazinin eyni zamanda tədqiq olunması şəhərin topoqrafiyasını, onun daxili strukturunu, məhəllələrini, küçə və meydanlarını, sanitariya və abadlıq məsələlərinin həlli səviyyəsini, tikinti və memarlıq xüsusiyyətlərini daha dərindən və ətraflı öyrənmək baxımından əhəmiyyətli idi. Xatırladaq ki, geniş əraziləri açmadan orta əsr şəhər mədəniyyəti ilə bağlı qarşıya çıxan bu kimi suallara mükəmməl və əhatəli cavab vermək çətindir. Məlumat üçün onu da qeyd edək ki, ayrı-ayrı ölkələrdə, o cümlədən MDB respublikalarının bir qismində bu kimi tədqiqatlar artıq uzun illərdir ki, davam etdirilməkdədir. Novqorod, Pəncikənd və Otrarda aparılan və bu gün də aparılmaqda olan genişmiqyaslı kompleks tədqiqatlar deyilənlərə sübutdur.

V sahədə elə ilk vaxtdan diqqəti cəlb edən əsas məqamlardan biri bu oldu ki, III və IV qazıntı sahələrində olduğu kimi, burada da şəhərin əsas küçələri hesab edilən enli və uzun küçələr əsasən şərq-qərb istiqamətindədir. Çay daşı ilə səliqə ilə döşənmiş bu küçələr şəhərin baş və nisbətən kiçik olan digər meydanlarına çıxır. Fikrimizcə, Ağsuda baş küçələrin istiqamətini müəyyənləşdirən əsas amil şəhərin əsas giriş qapısının məhz qərb istiqamətindən olmasıdır. Yəni, şəhərin bütün baş küçələri əsas giriş qapısı istiqamətinə yönəlib.

Baş küçələr özünün bütün parametrləri, o cümlədən daha uzun olmaları ilə kiçik və ikinci dərəcəli küçələrdən fərqlənirlər. Təbiidir ki, ərazinin mailliyi çox olan şəhərin baş küçələrində leysan yağışları zamanı güclü sel əmələ gəlmək ehtimalı yüksəkdir. Bu isə hər zaman şəhər üçün əlavə problemlər yaradır. Görünür, Ağsu şəhəri salınarkən, həm də bu amili nəzərə alaraq əsas küçələrin məhz şərq-qərb istiqamətində olmasına xüsusi diqqət yetirmişlər.

V sahədə aparılan tədqiqatlar göstərir ki, Ağsuda əsasən şərq-qərb istiqamətində olan baş küçələr bir neçə yerdə şimal-cənub istiqamətində olan nisbətən kiçik küçələrlə kəsilir. Əsas küçələr kimi kiçik küçələrə də səliqə ilə çay daşı döşənib. Kiçik küçələrin hamısı baş küçələrə perpendikulyar istiqamətdədir.

V sahədə aşkar olunan tikinti qalıqları sırasında su anbarları, su quyuları, su xətləri və kanalizasiya xətlərini xüsusi olaraq qeyd etmək lazımdır. Qazıntı sahəsini təqribən orta hissədən bölən əsas küçədən cənub tərəfdə bir neçə ədəd su quyusu açılıb. Onlardan iki ədədi daha yaxşı qalıb. Ətrafı yonulmuş çay daşı ilə hörülmüş bu quyular en kəsiyi etibarı ilə kvadrat şəkillidir. Onların konkret məhəllə sakinlərinin içməli su ilə təchizinə xidmət etdiyi ehtimal olunur. Su quyularına su əsasən şimal və şimal-şərq istiqamətindən daxil olan kəhriz tipli su xətlərindən daxil olur. Bu xətlərin öz mənbəyini şəhərin başlıca təbii su təchizatı mənbəyi olan Ağsuçaydan şəhərə daxil olan ana xətdən və şəhərin müxtəlif yerlərində inşa olunmuş iri tutumlu su anbarlarından götürdüyü şəksizdir. Hansı ki, belə su anbarlarından birisi də elə V qazıntı sahəsində aşkar olunub.




12b,12c, 13b, 13c kvadratlarında aşkar olunan və əsasən çay daşından tikilərək içərisi gəclə səliqə ilə suvanmış bu iki kameralı nəhəng su anbarının üzərinin tağvari şəkildə bağlandığı ehtimal olunur. Anbarın uzunluğu 10,25, eni 5,26, dərinliyi isə 2,80 metrdir. Su anbarının böyük kamerasının ölçüsü 5,85x5,26x2,80 metr, kiçik kamerasının ölçüsü isə 3,70x5,26x2,80 metrdir. Ümumilikdə, hovuzun su tutumu 140,65 kubmetrdir. Kameralar arasındakı divarın qalınlığı 0,70 metrdir. Ehtimal ki, aşkar olunan su anbarı şəhərin cümə məscidinə və məscid ətrafında yaşayanların içməli su ilə təchizatına xidmət etmişdir.


V sahədə daha bir su anbarı qeydə alınmışdır. 1 №-li su anbarının yaxınlığında, 13a kvadratında aşkar olunan bu anbarın ölçüləri 2,90x2,10x1,20 metr olmaqla ümumi su tutumu 7,31 kubmetrdir. Sadalananlar onu deməyə əsas verir ki, Ağsuda şəhərin əhalisinin su təchizatında kifayət qədər mükəmməl texniki qurğulardan istifadə olunub. Yəni şimal istiqamətdən şəhərə daxil olan Ağsuçayın suyu çaydaşı ilə kəhriz formasında tikilmiş su xətləri vasitəsilə məhəllələrdəki su quyularına gəlirdi. Su quyularının dörd bir tərəfi səliqə ilə yonulmuş çay daşından hörülmüşdür. Aşkar olunmuş su quyularının hamısı çox yaxşı vəziyyətdə qalmışdır. Su xətləri bəzən evlərin döşəməsinin və divarların altından keçirdi. Həmin yerlərdə su xətlərinin üstünü bağlamaq məqsədi ilə iri ağac tirlərdən və daş plitələrdən istifadə olunubdur.


Qazıntının 7a, 7b, 7c, 7d, 7e, 8a, 8b, 8c, 8d, 8e, 9a, 9b, 9c, 9d, 9e kvadratlarında aşkar olunan və şərti olaraq şəhərin Cümə məscidi adlandırdığımız nisbətən iri ölçülü binanın ümumi sahəsi 576 kvadratmetrdir (36 x 16 m). Bu, hələlik Ağsuda aşkar edilən ən möhtəşəm tikinti qalığıdır.

Məscidin divarlarının bünövrə hissəsi çay daşından, divarları isə çiy kərpicdən inşa edilmişdir. Tikintidə istifadə olunan çiy kərpiclərin ölçüsü 20 x 20 x 5 sm-dir.

Məscidin tikintisində həmçinin çoxlu sayda ağac materialdan da istifadə olunmuşdur. Axtarışlar zamanı məscidin ağac sütunlarının, qapı altlıqlarının, kətillərin qalıqlarından ibarət olan çoxsaylı ağac materiallarının qalıqları qeydə alınmışdır. Ağac materiallar bir-birinə əsasən iri dəmir mismar və qarmaqlar vasitəsilə bərkidilmişdir. Məscid binası möhtəşəm divarlarla yanaşı, həm də bir-birindən 2,5 m məsafədə yerləşən ağac sütunlar üzərində ucaldılıb. Bunu məscidin içərisində aşkar olunmuş daş sütun altlıqları da təsdiq edir. Xatırladaq ki, orada mədən daşından səliqə ilə yonulmuş 56 ədəd sütun altlığı aşkar olunmuşdur. Sütun altlıqları əsas hissə, ağac sütunun bütün dairəsi boyunca oturduğu hamar hissə və sütunların çıxıntısının oturduğu kiçik yuvacıqdan ibarətdir. Mütəxəssislərin təyinatına əsasən məscidin sütunlarının palıd ağacından olduğu müəyyən edilib. Şirvan bölgəsində elə indinin özündə də sakinlər fərdi evlər inşa edərkən sütun kimi daha çox palıd materialından istifadə edirlər.









Məscidin döşəməsinin torpağı yaxşıca döyülmüş, səliqə ilə suvanmışdır. Məscidin cənub divarları boyunca olmaqla 3 mehrab yeri aşkar edilmişdir. Xatırladaq ki, Ağsuda bu cür üçminarəli məscidlərin mövcudluğuna dair məlumata Cəmil Aleksandroviç Nasifinin 1926-cı ilə aid qeyidlərində də rast gəlinir. Məscidin pəncərələri və mehrabları tağvari formada olub, əsasən bişmiş kərpic və gəclə tikilmişdir.

Qazıntılar davam etdirilərkən tikintinin xarici divarları boyuca çoxlu miqdarda kirəmit qalıqları aşkar olunub. Kirəmitlərin hamısı novvari formalıdır. Kirəmitlər məscid dağılarkən binanın ətrafına tökülmüşdür. Aşkar olunan bütöv kirəmit nümunələri azlıq təşkil etsə də, sınıq vəziyyətdə olan nümunələrin sayı minlərlədir. Kirəmitlərin çəkisi orta hesabla 800-950 qram, uzunluğu 30 sm, eni enli hissədə 12, dar hissədə 8 sm, qalınlığı isə 2 sm-dir. Qeyd edək ki, məscid binası hələlik Ağsu şəhər yerində tapılan və üstü kirəmitlə örtülmüş olan ilk binadır.

Təqribi hesablamalara görə, Ağsu cümə məscidinin üstünün örtülməsi məqsədilə təqribən 60 min ədəddən çox kirəmit istifadə olunmuşdur. Bu isə təqribən 50 tona yaxın yük deməkdir. Göründüyü kimi, belə bir möhtəşəm tikintini inşa etmək mühəndis-texniki baxımından o qədər də asan bir iş deyildir. Əlbəttə, belə bir tikintinin mövcudluğu XVIII əsrdə Ağsuda tikinti mədəniyyətinin mühəndis-texniki həllinin kifayət qədər yüksək səviyyədə olduğundan xəbər verir.

V sahədə qazıntı davam etdirilərkən 9a, 9b, 9c, 9d, 9e, 9v, 10a, 10b, 10c, 10d, 10e, 10v, 11a, 11b, 11c, 11d, 11e, 11v, 12a, 12b, 12c, 12d, 12e, 12v kvadratlarında məscidin şimala açılan geniş həyəti

aşkar olunub. Maraqlıdır ki, həyət çox yerdə əhəngdaşından yonulan iri həcmli plitələrlə döşənmişdir. Məscidin həyəti qərb tərəfdə əhəngdaşı və bişmiş kərpiclə, şərq və şimal tərəfdə isə çaydaşı ilə hörülmüş hasarla əhatə edilmişdir. Həyətin ortasında məscidə gələnlərin dəstəmaz almaları üçün xüsusi su quyusu olduğu müəyyənləşdirilmişdir. Məsciddən bir qədər şimal tərəfdə, daha doğrusu, 11c kvadratında isə Molla Əli Hüseyn oğluna məxsus qəbir daşı aşkarlanmışdır. Onun ətrafında isə bir neçə uşaq qəbiri qeydə alınmışdır.

Məsciddən cənubda şərq-qərb istiqamətində uzanan əsas küçələr boyunca (2a, 2 b, 2c, 2d, 2e, 2v, 6a, 6b, 6c, 6d, 6e, 6v kvadratları) şəhərin yaşayış məhəllələrinə aid bina qalıqları aşkara çıxarılıb. Binaların bünövrə hissəsi çay daşından, divarları isə çiy kərpicdən hörülmüşdür. Yaşayış binalarının qarşısında məhəlləyə açılan kiçik həyəti, həyətlərdə isə bir qayda olaraq təndirxanası, bəzilərində isə su quyusu, təndirlər və ocaqlar aşkar olunmuşdur. Bütün bunlar isə bütövlükdə Orta əsr müsəlman şəhərlərinin məhəllə və küçələri üçün çox xarakterikdir.

Arxeoloji tədqiqatlar zamanı zəngin və rəngarəng çeşidli maddi mədəniyyət nümunələri – dəmir və mis əşyalar, fayans və saxsı məmulatı, mis və gümüş sikkələr Çin və Avropa istehsalı olan çini qablar, İngiltərədə istehsal olunmuş şüşə məmulatı aşkar olunmuşdur. Bu cəhətdən məscidin qərb divarının kənarında yuyularaq səliqə ilə yığılmış vəziyyətdə tapılan və üzərinə parça örtük çəkilmiş çoxlu sayda qab-qacaq xüsusilə diqqəti cəlb edir. Məsciddə istifadə olunduğu güman edilən çox nəfis saxsı, fayans və şüşə məmulatından ibarət olan bu qablar tam salamat vəziyyətdə aşkar olunmuşdur. Qeyd olunan tapıntılar Ağsu sakinlərinin XVIII əsrdə kifayət qədər elitar həyat səviyyəsi və məişətindən xəbər verir.

Ağsu ətrafında orta əsrlər dövrünə aid bir neçə qəbristan olduğu bildirilir. Onlardan hamısı şəhərdən kənarda yerləşir. 2011-ci ilin tədqiqatları zamanı şəhərin şimal, qərb və şərq tərəfindəki qəbristanlarda qəbirlərin baş və sinə daşlarının təmizlənərək ilkin vəziyyətdə bərpa olunmasına başlanılıb. Bununla paralel olaraq epiqraf Həbibə Əliyeva tərəfindən 200-dən çox qəbir daşı tədqiq olunmuşdur. Hazırda həmin tədqiqatın nəticələrini əhatə edən "Orta əsr Ağsu şəhərinin epiqrafikası" kitabı nəşrə hazırlanır.

Tədqiqat mövsümü boyunca abidəni çox sayda yerli və xarici mütəxəssislər ziyarət etmişlər. 2011-ci il iyul ayının 1-də Milli Azərbaycan Tarixi Muzeyinin keçirdiyi "Muzeylərin müasir durumu və inkişaf perspektivləri" beynəlxalq konfransının iştirakçıları akademik Nailə Vəlixanlı və Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru Maisə Rəhimovanın rəhbərliyi ilə Ağsuda aparılan arxeoloji qazıntılarla tanış olmuşlar.

İsveçin İntercult Təşkilatının Avropa Şərq Tərəfdaşlığı çərçivəsində CONNERS layihəsinin təşkil etdiyi Qafqaz ekspedisiyasının üzvləri (Avropanın 9 ölkəsindən 28 sənətşünas) orta əsr Ağsu şəhərindəki arxeoloji tədqiqatların gedişi və orada aparılmaqda olan konservasiya işləri ilə tanış olmuşlar.

Ağsuda aparılan arxeoloji tədqiqatlar MİRAS tərəfindən nəfis şəkildə nəşr etdirilən "Ağsu şəhəri orta əsrlərdə" kitab-albomunun I-III buraxılışlarında, həmçinin çoxsaylı digər elmi məqalələrdə öz əksini tapmışdır. Ekspedisiyanın üzvləri Bakı, Milan (İtaliya), Ramat-Qan (İsrail), Madrid (İspaniya), Dəmirçi, Konya, Uşak (Türkiyə) şəhərlərində keçirilən beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmişlər. 2010-cu ildə Ağsu və Bakıda təşkil olunan "Ağsu möcüzəsi" sərgisi 2011-ci ildə Türkiyənin Amasiya, Trabzon, Muğla və Uşak şəhərlərində nümayiş etdirilmişdir.

Ekspedisiya arxeoloji tədqiqatları davam etdirməklə yanaşı, həmçinin Ağsu tarixinə dair yazılı mənbələri toplamış, şəhərin adı ətrafında yaranmış fikir ayrılıqlarına aydınlıq gətirmişdir. Məlum olduğu kimi, Ağsu rayonu ərazisindəki orta əsr şəhər yeri uzun müddətdir ki, elmi-kütləvi ədəbiyyatda və dövlət qeydiyyat sənədlərində yanlış olaraq üç ayrı inventar say altında göstərilir. Həmin inventar sənədlərində göstərilən "Xaraba şəhər" və "Yeni Şamaxı" abidələri əslində eyni abidədir. Bu, Ağsu rayonunun Ülgüc kəndi yaxınlığında yerləşən və 40 hektara qədər sahəni əhatə edən orta əsr Ağsu şəhəridir. Xatırladaq ki, Ağsu adlı yaşayış məntəqəsi hələ XVI-XVII əsrlərdən bəllidir. 1735-ci ildə isə Nadirqulu xan (1736-cı ildən sonra Nadir şah) zəlzələ və ara müharibələrindən zərər çəkmiş və yararsız hala düşmüş Şamaxı şəhərinin əhalisini Ağsuya köçürmüş, ciddi plan əsasında şəhəri yenidən tikdirmişdir. Həmin dövrdə və sonralar yaşamış yerli müəlliflər - Haşimi Şirvani, Zülali Şirvani, Ağa Məsih Şirvani, Şakir Şirvani, Hacı Zeynalabdin Şirvani, Abbasqulu ağa Bakıxanov, Seyid Əzim Şirvani və başqaları öz əsərlərində bir qayda olaraq bu şəhəri Ağsu adlandırıblar.

Daha çox ruslar, xüsusilə də rus tacirləri əvvəllər Şamaxıda olduqlarına və ticarət etdiklərinə görə şəhər köçürüldükdən sonra gəldikləri yeni şəhərə "Yeni Şamaxı" demişlər. Çünki, "Yeni Şamaxı" və "Köhnə Şamaxı" ifadələri məhz rus mənbələrində, o cümlədən onlardan təsirlənən Avropa və sonrakı Azərbaycan müəlliflərinin əsərlərində səslənir.

Şəhərin rəsmi adı istər Nadir şah, istər Hacı Məhəmmədəli xan, istər Məhəmmədsəid xan, istərsə də Mustafa xan dövründə Ağsu olmuşdur. "Xaraba şəhər" şəhərin əsil adı deyil, dağıldıqdan sonra bu cür adlanıb. "Yeni Şamaxı" adı isə heç bir rəsmi əhəmiyyət daşımır, Şamaxıya nisbətdə istifadə olunmuş qurama addır.

Ağsu adı isə şəhərin rəsmi adı olub, tarixi əhəmiyyət daşıyır. Zülali demişkən:

Qürbətdə deyirdin ki, Zülali vətənim var,
Ensin gözünə qarə su, Ağsu vətən oldu…

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu Ağsu arxeoloji ekspedisiyasının son tədqiqatları da imkan verir ki, yeni qeydiyyat sənədləri hazırlanarkən əvvəllər səhvən "Xaraba şəhər" və "Yeni Şamaxı" inventar sayları altında qeydə alınan bu abidənin tarixi adı dəqiqləşdirilərək orta əsr Ağsu şəhəri kimi qeydiyyata alınsın.

Г.Дж.Джабиев, Ф.С.Халилли, Э.И.Аббасова

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В АГСУ

РЕЗЮМЕ

В 2011 г. экспедиционный состав завершил свою работу по полному археологическому изучению банного комплекса (IV площадь раскопок), обнаруженного в 2010 г. на территории Агсуинского района. В результате продолжения археологических раскопок обнаружены и исследованы нижеследующие части банного комплекса: входная дверь, ступеньки, ведущие в баню, дорога, ведущая к помещению бани, вспомогательные комнаты, широкая площадь перед комнатами бани и бассейн (водохранилище).

В строительстве стало известно, что отопительных каналов и дымоходов этого банного комплекса широко использованы обожжённые кирпичи различных размеров.

Исследования, проведенные на археологической площади №5, свидетельствуют о том, что основные улицы в городе Агсу, находящиеся в основном на восточном и западном направлениях, пересекаются в некоторых местах со сравнительно маленькими улицами, находящимися на южном и северном направлениях. Как и главные улицы города, маленькие улицы города аккуратно устланы речными камнями. Маленькие улицы почти перпендикулярны главным улицам.

В числе обнаруженных строительных фрагментов следует отметить нижеследующие: водохранилища, колодцы, водопроводы, канализационные линии. На южном направлении основной улицы, разделяющей эту археологическую площадь, на две части, обнаружено несколько колодцев. Два колодца остались невредимыми. Вода поступала в эти колодцы из водопроводных линий кягризного типа с северного и северо-восточного направлений.

Ещё одним грандиозным строением, обнаруженным на квадратах 7–а,б,с,д,е; 8 – а,б,с,д,е и 9 – а,б,с,д,е , является Джума-мечеть квадратного плана. Общая площадь этой мечети 576 кв.м. (36мх16м). Фундамент стен мечети построен из речных камней. А стены построены из обожжённых кирпичей. Размеры кирпичей: 20х20х5 см. Обнаружены 56 опор колонн. Они аккуратно обтесаны из промысловых камней. По южным стенам мечети обнаружены три мехраба (молитвенных мест).

Во время археологических исследований в городище Агсу обнаружены богатые и различные образцы материальной культуры; изделия из железа и меди, полированная и неполированная керамика, фрагменты фаянсовой и фарфоровой посуды, изделия из кости и стекла.

Часть этих образцов – китайского и европейского производства фаянсовых, а большая часть стеклянной посуды произведена в Англии.

Напомним, что городище Агсу, привлечённая к археологическим исследованиям, известно с XVI-XVII вв.

G.J.Jabiyev, F.S.Khalilov, E.I.Abbasova

ARCHAEOLOGICAL INVESTIGATIONS IN AGHSU

SUMMARY

The expedition staff from the archaeological view point has fully completed the 2011 year's exploration works in the field, in a bath-house complex discovered in Aghsu region (the IV site) in 2010. As a result of the continuation of the excavations the entrance of the bathroom complex, the stairs going down to the bath-house, the cobbled floor leading to the bath, rooms attached to the bathrooms, stone-paved large square in front of the bathrooms and man-made pond were discovered and investigated.

It appeared that in the construction of heat canals and smoke-ducts of the bath-house complex baked bricks of different sizes were used.

Investigations carried out in site V showed that, mainly the streets in the east-west direction are crossed with relatively small streets in the north-south direction. As in the main streets the small streets were also neatly cobbled. Almost all the small streets are perpendicular to main streets.

Among the construction remains revealed there the water reservoirs, water wells, water lines and sewer lines should be noted. To the south from the main street which divides the excavation area in the middle, a few water wells were revealed. Two of them have remained intact. Water enters to the wells in the north-east direction mainly from the underground water-supply type water lines.

One of the large complexes which was discovered in the 7-a, b, c, d, e, 8 - a, b, c, d, e and 9 - a, b, c, d, e squares of the excavation site is the Jumah (Friday) mosque. The total area is 576 square meters (36X16 m). The foundation of the mosque complex was built of cobble stones, but the walls of mud bricks. the bricks' size is 20X20X5sm.

56 items of the column stands found in the site are carefully cut pit stones. Along the southern wall of the mosque, 3 alters were revealed.

During the archaeological investigations carried out in the site of Aghsu city rich and diverse range of material culture examples – iron and copper items, glazed and unglazed faience and porcelain ware (china) and their fragments, bone and glass products were revealed.

Most of the examples are China and the European-made porcelain; many of them are glassware produced in England.

It should be mentioned that Aghsu settlement drawn to the archaeological study is known from the XVI-XVII centuries.

ARXEOLOJİ KƏŞFİYYAT

АРХЕОЛОГИЧЕСКАЯ РАЗВЕДКА
ARCHAEOLOGICAL SURVEY



SAHDƏNİZ–2 İNFRASTRUKTUR LAYİHƏSİ İLƏ BAĞLI SƏNGƏÇAL TERMİNALININ GENİŞLƏNDİRİLƏCƏYİ ƏRAZİDƏ APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİNİN YEKUNLARI

(Qaradağ rayonu)

Q.O.Qoşqarlı, Ş.N.Nəcəfov, V.A.Əsədov,
A.M.Ağalarzadə, Ə.İ.Əbdürəhmanov, T.D.Babayev



Şahdəniz-2 infrastruktur layihəsi ilə bağlı Səngəçal terminalının genişləndirilməsi proqramına uyğun olaraq arxeoloji işlər müəyyənləşdirilmişdir. Arxeologiyaya dair proqramın əsasını Səngəçal terminalının genişləndirilməsi, yeni neft-qaz təmizləyici və ayırıcı qurğularının inşası ilə əlaqədar tikinti işlərindən əvvəl həmin tikintinin əhatə edəcəyi ərazidə arxeoloji axtarışla bağlı çöl tədqiqatları təşkil etmişdir. 2011-ci ilin 27 sentyabr-4 oktyabrında yerinə yetirilən vizual arxeoloji kəşfiyyat işləri inşaası nəzərdə tutulan obyektlərin əhatə edəcəyi 400 ha-dan bir qədər artıq olan ərazidə aparılmışdır.

Düzənlik və yarımsəhra tipli torpaqlardan ibarət olan, müəyyən yerlərdə isə dağlıq sahələrlə əhatələnən ərazi dəniz səviyyəsindən 15-22 metr çökəklikdə yerləşir. Zonanın çox sahələri yarımsəhra tipli olub, əsas bitki örtüyü yovşan, qaratikan, yulğun, dəvədabanı bitkiləridir. Dağlar çılpaqdır və bitki örtüyü yoxdur. Amma yazın əvvəlində güclü yağışlar yağan zaman dağlar yaşıl örtüyə bürünür və tanınmaz olur. Bu dağlar Böyük Qazfqaz sıra dağlarının qurtaracağıdır. Çox böyük ehtimal ki, ərazinin təbii çoğrafi şəraitində uzun zamanlar ərzində ciddi təbəddülatlar olmuş, bu ərazilər orta əsrlərin başlanğıcından insanların daimi yaşayışı üçün əhəmiyyətli olmamışdır.



Arxeoloji axtarış üçün ayrılmış sahələr.

İlk öncə arxeoloji kəşfiyyat zonası üçün 400 ha-dan bir qədər çox ümumi axtarış sahəsi seçilmiş və bu sahə 10-dan çox müvafiq kvadratlara bölünmüşdür *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.5).* Terminalın genişləndiriləcək ərazisində arxeoloji dəstə qrup halında olmaqla ayrı-ayrı axtarış zolaqları seçmiş və burada kəşfiyyat işləri aparmışlar. Hər birinin eni 50 metr, uzunluğu 250 metr olan sahələr götürülmüş, bir arxeoloqun ixtiyarına verilmişdir. Beləliklə, hər bir belə sahədə arxeoloqlar axtarış aparmışlar. Gəzinti zamanı kompasdan geniş istifadə edilmiş, axtarış zonaları seçilərkən müəyyənləşdirilmiş oriyentir və müvafiq bucaq altında hərəkətə üstünlük verilmişdir. Əvvəlcə gəzinti zolağında axtarış aparılaraq yerüstü materiallar aşkar edilmiş, həmin yerlərə bayraqlar sancılmışdır. Sonra isə təkrar həmin sahə üzrə geri axtarış aparılmışdır. Bütöv sahə axtarıldıqdan sonra tapıntıların yerindəcə qeydiyyatı aparılmış, GPS koordinatları götürülmüş, artefaktların təsviri yazılmışdır.

Aşkar olunmuş artefaktların ilkin və yerindəcə təhlili ilə yanaşı onların cəmləşmə sahəsi və yayılma arealı təhlil edilmişdir. Arxeoloji kəşfiyyat işləri zamanı tipoloji və fiziki metodlardan istifadə edilmiş, ümumi sahə konteksində əldə edilmiş artefaktların müqaisəli təhlili aparılmış, eyni zamanda tapıntıların ümumi və xüsusi cəhətləri, onların vəzifəsi tam aydınlaşdırılmışdır.

Arxeoloji tapıntıların aşkar olunduğu lokal sahələrin təsviri:

Mövcud terminalın genişləndirilməsi üçün ayrılmış və çəpərlənmiş zonadan tapılan artefaktların cəmləşmə sahəsinin təsviri. Bu sahə əsasən ümumi axtarış sahəsi olduğu üçün arxeoloqlar ən çox bu əraziyə diqqət yetrimiş, tapılan materialların elmi təhlilinə böyük üstünlük vermişlər. İlk öncə qeyd edək ki, bu sahə təxminən 400 ha-dan bir qədər artıq olub, hazırki terminal ərazisindən 2 dəfə böyükdür. Burada gələcəkdə neft-qaz hasilatının artırılması üçün əlavə infrastrukturun qurulması, təmizləyici-ötürücü qurğuların inşaası nəzərdə tutulur.

Ərazi yarımsəhra və quru çöl iqliminə malik olub, dəniz kənarı boyunca uzanan, qeyri-münbit səhra mənşəli torpaq örtüyünə malikdir. Sahənin bitki örtüyü yalnız seyrək bitmiş kiçik kol bitkilərindən və şirin su qalıqlarının yığıldığı çox da sıx olmayan ot bitkilərindən ibarətdir. Bəzən ümumiyyətlə heç bir bitki örtüyünə rast gəlinmir. Ayrı-ayrı yerlərdə yağışın çox yağması səbəbindən sular torpağa hopmur –bu zaman yeraltı qrunt suları da üzə çıxaraq bir-birinə qarışırlar. Çox nadir hallarda hündür bitki örtüyünə - şoran torpaqlara (qeyri-münbit) məxsus yulğun kollarına rast gəlinir. Onlar əsasən yağış sularının dayanmadığı nisbətən hündür yerlərdə (ümumi ərazidən 0,1-1 metr yuxarıda) bitir. Belə kollara yarğan kənarlarında daha çox rast gəlinir. Daimi olaraq burada dənizdən əsən şimal küləyi –xəzri mövcuddur. Külək həmin ərazinin üst torpaq örtüyünü daimi olaraq sovurur və kolların bitdiyi yerlərə toplayaraq barxanlar (kiçik təpəliklər) əmələ gətirir. Barxanların bəzən diametri 1x1 metrə, hündürlüyü isə 0,5-0,8 metrə çatır. Sahənin şimal və şimal-qərb hissələrində alçaq dağlar mövcuddur. Bu dağlar Böyük Qafqaz silsiləsinin qurtaracağıdır. Yalın, heç bir bitki örtüyü olmayan bu dağlar terminalın şimal-şərq hissəsinə doğru aypara formasında əhatələnir.

Bu sahədə aparılan arxeoloji axtarış işləri zamanı xeyli maddi mədəniyyət qalıqlarına rast gəlindi. Bunların demək olar ki, hamısı keramika nümunələrindən ibarət idi ki, onlar da ayrı-ayrı gil qabların

əsasən ağız, boğaz, çiyin, oturacaq və qulp hissələrini təşkil edir. Sahədə gil qabların hissələrinə bəzən tək-tək, bəzən isə geniş radiusda dağılmış və səpələnmiş halda rast gəlinir. Eyni əhatə radiusundan tapılan keramika nümunələri bəzən ayrı-ayrı qabların, bəzən də eyni bir qabın tərkib hissələri olmaqla xarakterizə olunurlar. Müəyyən sahələrdə daha çox səpələnmiş keramika nümunələri bəzən bir küpənin, bardağın və ya kuzənin hissələri olub, onun forma və məzmununu əks etdirirlər *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.7-8).* Bu hissələrin bəziləri laborator şəraitdə bərpa edilmişdir.

Karvansara ətrafının təsviri. Arxeoloji kəşfiyyat çərçivəsində dəniz sahilindəki XV əsrə aid olan möhtəşəm maddi mədəniyyət abidəsi Səngəçal karvansarasına baxış keçirdik. Karvansara Azərbaycanın orta əsrlər dövrü memarlığının nadir sənət incilərindən olmaqla Bakı-Abşeron memarlıq məktəbinin bir nümunəsidir. Karvansara Şirvanşah I Xəlilüllahın (1417-1465) əmri ilə inşa olunmuş, müasir günümüzədək bir neçə dəfə bərpa edilmişdir *(Усейнов М., Бретаницкий Л., Саламзаде А. 1963)*. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin xətti ilə (inv.170) dövlət tərəfindən qorunsa da dağılmaq təhlükəsi qarşısında olan binanın təmirə çox böyük ehtiyacı vardır. Abidənin üzərindəki lövhə hələ də Azərbaycanda sovet hakimiyyəti illərində vurulmuş lövhə olaraq qalmaqdadır. Karvansarada vaxtilə kafe-restoran fəaliyyət göstərmiş, hazırda isə buradan heyvandarlıqla məşğul olan çobanlar sığınacaq kimi istifadə edirlər. Buraya gəlişimizin məqsədi terminalın genişləndiriləcək sahəsinə çox yaxın olan karvansara ətrafını arxeoloji baxımdan nəzərdən keçirmək, digər tikili qalıqlarının olub-olmaması məqsədilə vizual kəşfiyyat aparmaq və ətrafdan tapılacaq keramikanın sahədən tapılmış keramika nümunələri ilə birgə müqaisəli təhlilini həyata keçirmək idi. Terminalın genişləndiriləcək sahəsindən tapılan keramika nümunələrinin ticarət yollarının üzərində yerləşən karvansara materialları ilə oxşarlıq təşkil etməsi və dövrün araşdırılması baxımından bu axtarış vacib əhəmiyyət daşıyırdı.



Səngəçal karvansarası.



Səngəçal karvansarasının kitabəsi.

Qeyd edək ki, XIV əsrin axırlarından başlayaraq monqol işğalından sonra şəhərlərin inkişafı və bununla əlaqədar ticarətin yüksəlməsi getdikcə aydın hiss olunurdu. Karvan ticarətinin genişlənməsi ilə əlaqədar olaraq şəhərlərdə və ticarət yolları üzərində xeyli karvansara tikilmişdi. Məhz bu dövrdə tikilmiş ticarət obyektlərindən Təbrizdəki Zübeydə karvansarasını, Culfa, Salyan (XIV əsr) Bakıdakı (İçərişəhərdə) Buxara, Multanı və Qaradağdakı mövcud olmuş karvansaralar göstərilə bilər. Ticarət yolları kənarında karvanları qaçaq və quldurların basqınından qorumaq üçün karvansalar adlanan xüsusi keşikçi dəstələri qoyulurdu. Karvansaralar təksə karvan dəstələrinin dayanacaq və dincələcək yeri yox həm də alış-veriş və ticarət mərkəzi kimi də tanınırdı *(Усейнов М., Бретаницкий Л., Саламзаде А. 1963).*

Səngəçal terminalının genişləndiriləcəyi sahədən arxeoloji materiallar içərisində şirli qab nümunələri diqqət cəlb edir. Şirli qabların bəzi nümunələri İranın Rey, Kaşan, Sultanabad şəhərlərində istahsal olunmuş saxsı qab qalıqları ilə eyniyyət təşkil edirlər. Səngəçala yaxın olan bəzi yerlərdən – Bəndovan, Qobustan və Qırxçıraqdan da belə formalı yüksək keyfiyyətli saxsı qablar tapılmışdır *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.9).* Bu isə onu göstərir ki, karvan ticarəti ilə daşınan belə qablar yerli istehsalın məhsulu olmamış, XIII-XV əsrlərdə Orta Asiya, İran, yaxud Hind okeanı, Fars körfəzi və Bağdad yolu ilə Azərbaycana gətirilmişdir. Mənbələrin verdiyi məlumatlardan aydın olur ki, əvvəlcə Hülakülər, daha sonra isə Şirvanşahlar, Qaraqoyunlular və sonra isə Ağqoyunlular və Səfəvilər dövlətlərinin əhatə etdiyi ərazidən keçən ticarət yollarının bir sıra mühüm qolları Azərbaycan ərazisindən keçirdi. əsas şimal yolu Təbrizdən və Mərəddən keçərək Araz çayı sahillərinə qədər çatırdı. Digər bir yol isə Sultaniyyə, Zəncan, Xunəc, Miyanə, Ucan, Təbriz, Sərab, Ərdəbil, Biləsuvar, Mahmudabad, Bakı, Şamaxı və Dərbəndədək uzanırdı. Səngəçal karvansarası məhz bu karvan yolunun üstündə salınmış, Bakı istiqamətində gedən karvanların dayanacağı rolunu oynamışdır. Burada karvan yolu ikiyə ayrılır, biri Bakı-Dərbənd istiqaməti ilə düz şimala, digəri isə Şamaxı istiqamətində düz qərbə tərəf istiqamətlənirdi. Yenə də mənbələrin dili ilə qeyd etsək, onda göstərə bilərik ki, Çin və Hindistandan gələn ticarət yolu Orta Asiya və İrandan keçərək Azərbaycana çatır, Xəzər dənizi sahili boynca şimala doğru yönəlirdi və Qara dəniz sahillərinə qədər uzanırdı.



Karvansaranın daxili həyəti.



Karvansara həyətindəki ovdanlar.

Karvansara ətrafındakı sahə bir qədər yaşıllıq olub, ətrafda iydə və söyüd ağacları nəzərə çarpırdı. Amma torpaq yenə də yarımsəhra və quru-çöl iqliminə məxsus torpaqlar idi və bəzi yerlərdə yağış sularının dayandığı gölməçələr görünürdü. Arxeoloji axtarışlar zamanı buradan 1 ədəd yaxşı işlənmiş və kənarları dişəklənmiş obsidian parçası, 1 ədəd göy rəngli şüşə muncuq və bir-neçə ədəd keramika tapıldı. Əldə edilmiş keramika nümunələri ayrı-ayrı gil qabların fraqmentləri olub, yaxşı hazırlanmış və sabit tempraturda bişirilmişdir. Obsidian parçası isə daha qədim dövrlərin məhsulu olub, çox ehtimal ki, karvan ticarəti ilə kənardan gətirilmişdir *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.9-10).* Keramika nümunələrinin bəziləri indinin özündə də məişətimizdə piti xörəyinin bişirilməsi üçün nəzərdə tutulan kiçik həcmli dopuların qırıqlarından ibarətdir.

Dəniz kənarı cəmləşmə sahəsinin təsviri. Bu sahədə relyef dəniz sularının yuduğu çılpaq qayalıqdan, təxminən Xəzər dənizinin səviyyəsindən 25-30 metr yuxarıda yerləşən əhəngdaşı tərkibli hündürlrk massivindən ibarətdir. Bu hündürlrkdən dənizə eniş doyunca tədricən düşmək mümkündür. Qayalıqdan aşağıya doğru yenidən çökəklikdir və düzənlik başlayır. Bu düzənlik magistral yola qədər davam edir. Belə demək olar ki, qayalıqdan ibarət hündürlük dəniz sahili ilə düzənlik arasında bir sərhəd təşkil etmişdir. Sahildə relyef qeyd etdiyimiz kimi dəniz sularının yuduğu çılpaq daşlardan ibarətdir. Zaman-zaman dəniz suları sahili yuyaraq daşları müxtəlif formalara salmışdır. Yuxarıya doğru qalxdıqca bitki örtüyü nisbətən artır və kolluqlar mövcuddur. Düzənlik hissədə də yenə belə kolluqlar vardır. Torpaq yarımsəhra və quru çöl iqliminə malik qeyri-münbit torpaqlardır.

Dəniz kənarındakı cəmləşmə sahəsi qərarlaşdırılacaq ixrac boru kəmərlərinin dənizdən sahilə çıxışı üçün nəzərdə tutulmuş sahil zolağıdır ki, bunun üçün də mövcud olan boru kəmərlərinin (BTC və CQBK kəmərlərinin) sahil çıxış məntəqəsindən solda olmaqla təxminən 150-200 metr enindəki axtarış zolağı ayrılmışdır. Bu da mağistral yoldan dənizə qədər uzanır.

İlk öncə sahildə böyük maraq doğuran qumdaşı mağarasına baxış keçirildi. Arxeoloqların böyük marağına səbəb olan mağarada axtarış aparıldı və maraq doğuran artefaktlar tapılmadı. Bizi maraqlandıran əsas məsələ ola bilsin ki, tarixin müəyyən dövründə burada müvəqqəti və ya mövsümü yaşayış tərzi keçirən icmanın müəyyən qalıqlarının olub-olmaması və tapılacaq arxeoloji tapıntıların hansı dövrə aidliyinin olması idi. Çünki, ümumi ərazi konteksində götürdükdə Səngəçal terminalının genişləndiriləcək sahəsində və ona qonşu sahələrdə əksər artefaktların XVI-XVIII əsrlərə aid edilməsi faktı artıq bizə məlum idi. Mağarada müəyyən bir keramika nümunəsinin və digər materialın tapılması bizə keramikanın və bunun əsaında isə yaşayışın yayılma arealı haqqında informasiya verə bilərdi. Qumdaşı mağarasında təxminən 1 metrdən də çox çöküntü qatı vardır *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.10-11).*. Hər halda bunun qazıntısı –yəni mağaranın içərisinə dolmuş torpaq-qum qatının qazılması zamanı müəyyən materialların aşkarlanması şübhəsizdir. Çöküntü qatının yaşının müəyyən edilməsinin mağaranın özünün yaşının müəyyən edilməsində açar rolunu oynadığını nəzərə alsaq bu mağarada qısamüddətli də olsa arxeoloji kəşfiyyat şurfunun qoyulması məqsədəuyğun olardı. Nə qədər təbii olsa

da mağara daxilindəki sütunların forması və mağara tavanına birləşən hissələrin quruluşu burada antropogen amilin rolunu bizə bu faktoru həmişə diqqətdə saxlamağa məcbur edir. Sütunların və mağara divarlarının daima aşınmaya məruz qaldığını və balıqçılqla məşğul olan insanların daima buradan sığınacaq kimi istifadə etdiklərini nəzərə alaraq qədim izlərin itməsi təbii bir hal kimi izah olunmalıdır. Fikrimizcə qumdaşı mağarası təbii proseslə nəticəsində yaranmış, formalaşmış sonralar isə insanların yardımı və fəal müdaxiləsi nəticəsində daha da böyüyərək müasir görkəmini almışdır. Bu prosesin nə vaxt baş verdiyini isə tapılacaq artefaktlar təsdiqləyə bilərlər. Mağaranın nə məqsədlə böyüdülməsinin səbəbləri isə çox ola bilər. Buradan ən çox sığınacaq kimi istifadə edənlər balıqçılar, sahil gözətçiləri və dənizdə hərəkət edən qayıqlara və gəmilərə yolgöstərənlər ola bilərdi.

Dəniz sahilində apardığımız arxeoloji axtarış işləri zamanı bütün sahil zolağı gəzildi və bu sahədə maraqlı keramika nümunələri aşkar edildi. *N40^{0}11$'$01.942; E49^{0}29$'$40.637 koordinatlarında* yerləşən sahədən tapılan keramikalar məzmun və forma baxımından xüsusilə maraq doğurur.

-artefaktların təsviri və müqaisəli təhlili:

Səngəçal terminalının genişləndiriləcəyi sahədə arxeoloji kəşfiyyat qrupunun əsas tapıntılarını keramika məmulatı təşkil edir. Onlar başlıca olaraq müxtəlif tip saxsı qablarıdır. Qabların gilinin tərkibinə görə iki qrupa bölmək olar: 1-cisi iri qum, xırda daş, kvars qatışıqlı gildən və 2-cisi təmiz tərkibli və ya narın qum qatışıq gildən hazırlanmış qablar. Birinci qrupa aid qablar say etibarilə üstünlük təşkil edir. Bunlar əsasən küpə, qazan, kasa, dopu tipli qablardır. İkinci qrupa aid qabların gili yaxşı yoğrulmuşdur. Onlar daha səliqəli hazırlanmış , bəzən isə anqoblanaraq cilalanmışdır. Belə qabların sayı çox deyil. Onlar əsasən kasa və küzə tipli qablardır. Onlar konusvari, bikonik, armudvari və s. formalara malikdirlər. Ərazidən saxsı qabların demək olar ki, hamısının yalnız fraqmentləri aşkar olunmuşdur. Ərazidən gil qablarla yanaşı obsidiandan hazırlanmış kəsici alətlərin qalıqlarına və dən daşı qalığına, daha sonra isə 1 ədəd mavi rəngli şüşə mucuğa da rast gəlinmişdir. Lakin əsas üstünlük keramika məmulatınındır *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.12).*



Qumdaşı mağarası.

Arxeoloji kəşfiyyat işləri zamanı əldə edilmiş keramika nümunələrini iki qrupa aid edə bilərik: şirsiz (yəni boyasız) və şirli (yəni boyalı) gil qab fraqmentləri. Bu fraqmentlər də digərləri kimi gil qabların əsasən gövdə, ağız, çiyin və oturacaq hissələrindən ibarət olub, aid olduqları gil qabların forma və məzmunu baxımından müəyyən məna kəsb edirlər. Arxeoloji axtarış iləri zamanı şirsiz saxsı məmulatı kütləvi halda aşkar edilmişdir. Aşkar edilmiş şirli və şirsiz saxsı məmulatı təsərrüfat və məişətlə əlaqəli olaraq müxtəlif məzmunlu və formalı qablardan ibarətdir. Onlar bəzən bir yerdə müxtəlif qırıqlardan

ibarət halda, bəzən isə tamamilə müxtəlif məzmunlu fraqmentlərdən ibarət halda aşkar edilmişdir. Arxeoloji kəşfiyyat işləri zamanı tapılmış həm şirsiz, həm də şirli saxsı qab nümunələrini hazırlanma texnologyasına əsasən iki qrupa aid edə bilərik:

-əldə kobud formada hazırlananlar

-dulus çarxında mükəmməl hazırlanan gil qablar

Arxeoloji axtarış işləri zamanı əldə olunan gil qab fraqmentləri əsasında tapılmış saxsı qab nümunələrini aşağıdakı kimi qruplaşdıra bilərik:

Bardaqlar. Keramika məmulatının müəyyən qismini bardaq formalı qablar təşkil edir. Onların gil tərkibli bəzən təmiz, bəzən isə narın qum qarışıqlı olub, yaxşı yoğrulmuş, keyfiyyətli hazırlanaraq sabit temperaturda bişirilmişdir. Qabların səthi cilalanaraq anqoblanmışdır. Ağ, qonur, qırmızı rəngli bardaqlar müxtəlif üsulla müxtəlif cür naxışlanmışlar. Bəzilərinin üzərində boğazdan gövdəyədək qırmızı boya ilə bir-birinə paralel naxışlara rast gəlinir. Ağızla çiyini birləşdirən qulpların sayı bəzən bir, bəzən də ikidir. Qulplar dairəvi en kəsikli və lentşəkillidirlər. Açıq boz rəngli, qabarıq gövdəli bəzi bardaqların oturacağı dabanlıdır. Tapıntılar içərisində bardaq qulpları da vardır. Bunların bəziləri orta tutumlu, nazik divarlı bardaqlara məxsusdur *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.13).*



Bardağın oturacaq hissəsi.





Küpə tipli saxsı qabın fraqmentləri.

Küpələr. Sahədən xeyli sayda küpə qırıqları aşkar edildi. Küpələr əsasən boz, çəhrayı və qırmızı rəngdə olub müxtəlif forma və ölçülərə malikdirlər. Kəmiyyətcə üstünlük təşkil edən küpələr narın qum qarışıq gillə yoğrularaq keyfiyyətli hazırlanmışlar. Bəzilərinin tərkibində kiçik əhəngdaşı qırıqlarına da rast gəlinir. Əksəriyyəti əldə incə hazırlanmış, sabit temperaturda bişirilmişdir. Cilalama izləri vardır. Küpələrin qulpu dairəvi en kəsiyə malik olub yarımdairəvi formadadır. Küpələrin bəzilərinin üzərində heç bir naxış elementi yoxdur. Küpələrin səciyyəvi cəhəti təmiz, yaxşı yoğrulmuş gildən hazırlanması, sabit tempratur rejimində bişirilməsi, saxsısının boz və çəhrayı rəngdə olmasıdır.

Kuzələr. Bu tip gil qablar çox az sayda təmsil olunurlar. Müxtəlif ölçülərə malik olub, uzunsov və şargövdəlidirlər. Arxeoloji axtarışlar zamanı bir kuzənin dar boğazı aşkar edilmişdir. Əsasən tünd boz, bəzən isə qəhvəyi rəngli kuzələrin səthi anqoblanaraq sığallanmış, bəzən isə zəif cilalanmışdır. Onların üzərində naxış elementinə rast gəlinmir.



Kuzənin boğaz fraqmenti.

Dopular. Bu tip gil qablar əsasən çox cüzi sayda fraqmentlərlə təmsil olunurlar. Nazik divarlı olub, dulus çarxında mükəmməl hazırlanıblar. Gilinin tərkibində qum və kiçik çınqıl qarışığı vardır. Kiçik tutumlu dopu fraqmenlərinin üzəri cilalanmışdır. Dəyirmi gövdəsi, yuxarıya doğru daralan boğazı olan dopu qırıqlarının üzərində cızma naxış çəkilmişdir.

Qazanlar. Yaşayış yerindən əldə olunmuş saxsı məmulatları içərisində qazan tipli qab fraqmentləri də çox az saydadır. Aşkar olunmuş qazan fraqmentlərinin təhlili göstərir ki, onlar əsasən eyni formalı olub, yalnız öz həcmlərinə və müəyyən bəzək ornamentlərinə görə bir-birindən fərqlənir. Gil tərkibləri qumlu, çınqıllı, əhəngdaşı dənələri qarışıqlı olub, əksəriyyəti əldə keyfiyyətsiz və kobud hazırlanmışlar *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.14)*.

Kasalar. Bu tip nümunələri fraqmentlər halında bəlkə də ən çox rast gəlinəndir. Süfrə qabları olan kasaların əksəriyyətinin gil tərkibli təmizdir və ya az miqdarda qarışığı vardır. Onlar əsasən sabit temperatur rejimində bişirilmiş, saxsısı sıx, rəngləri çəhrayı, qırmızı, qonur, ağdır. Kiçik və orta tutumlu kasaların bəzilərinin daxili səthində marqans çəkilmişdir. Divarlarının qalınlığı 0,4-0,7 sm arasında daşıyır. Bəzi kasa fraqmentlərin boğazı içəriyə daralmışdır, bəzilərinin isə ağız kənarı dəyirmi olub içəri meyllidir. Bir ədəd ağız kənarı enli və düz olan kasa fraqmentinin daxili səthi tünd yaşıl rəngdə şirlənmişdir. Kasalara və onların fraqmentlərinə daha çox rast gəlinməsi onların məişətdə çox geniş istifadə olunmasına dəlalət edir.

Piyalələr. Çox az sayda fraqmenlərlə təmsil olunurlar. Onlar yastı oturacağa, yuxarıya doğru genişlənən divarlara malikdirlər. Bəzilərinin qalınlaşaraq üstü yastılaşdırılmış ağzında dərin olmayan şırım salınmışdır. Gİl tərkibi bəzən təmiz, daha çox hallarda narın qum qarışıqlı, incə hazırlanmış, sabit temperaturda bişirilmiş piyalələrin əlksəriyyətinin üzəri anqoblanaraq cilalanmış, cızma, çərtmə və kanalvari naxışlarla naxışlanmışdır *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.15)*.

Dolçalar. Bu tip qab fraqmentləri də azlıq təşkil edir. Ağız kənarları xaricə qismən əyintili olub, boğazları içəriyə doğru batıqdır. Kiçik və orta tutumlu olub, gilində narın qum qarışıqları vardır. Əldə kobud hazırlanmışlar. Bu tip qab fraqmentlərinə daha çox açıq qırmızı rəngdə rast gəlinir.

Xeyrələr. Bu tip qabların daha çox ağız və gövdə hissələrindən ibarət olan fraqmentləri tapılmışdır. Bu fraqmentlərə əsasən xeyrələrin nisbətən səliqəli hazırlandığını, narın qum qarışıqlı gildən yaxşı bişirildiyini söyləmək mümkündür. Açıq qırmızı, qəhvəyi, boz rəngdə olan xeyrələr keyfiyyətli hazırlanmış, sabit temperatura bişirilmişdir. Xeyrələrin üzəri cızma, çərtmə, formasında naxışlanmışdır. Bəzi xeyrələrin daxili səthi oturacaqdan ağıza doğru cızma xətlərlə, onların arası isə qalın boya və ya şirlə boyanmışdır *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.16).*

Şirli saxsı məmulatı küpə, kasa, nimçə, duzdan və s. qabların ağız, gövdə və çiyin hissələrinin fraqmentlərindən ibarətdir. Şirli qabların bir qrupu monoxrom boya ilə çoxləçəkli gül təsvirləri, spiralvari, şüaşəkilli ornamentlərlə naxışlanmışdır. Naxışlanmada müxtəlif çalarlı göy, mavi, yaşıl və firuzəyi rənglərdən istifadə edilmişdir. Şirli qab fraqmentləri çox az sayda olub, əsasən ağız və gövdə hissələri əks etdirirlər. Şirli qabların ikinci qrupu polixrom naxışlı keramikadan ibarətdir ki, bunlar da cəmi iki-üç ədədddir. Tədqiqatlar nətiçəsində müəyyən edilmişdir ki, polixrom naxışlı şirli keramika Abşeronda və Qobustan ətrafında IX əsrdən meydana gəlmişdir. Qabların naxışlanmasında əvvəlcə iki, sonra isə bir neçə rəngdən istifadə edilmişdir. Ümumilikdə müqaisə üçün qeyd edə bilərik ki, Azərbaycanın orta əsr abidələrindən əldə edilmiş polixrom şirli qabların təhlili onu deməyə əsas verir ki, bu tip gil qabların naxışlanmasında əsasən həndəsi və nəbati ornamentlərdən geniş istifadə edilmişdir. Bu qablar əsasən firuzəyi, göy və mavi rənglərlə naxışlanaraq bəzən rəngsiz, bəzən isə rəngli şirlə örtülmüşdür. X-XIII əsrlərdə şirli qablar istehsalı yüksək səviyyəyə çataraq sənətkarlığın müstəqil sahəsinə çevrilmişdir. Şirli qablar istehsalının yüksək tərəqqisi qabların hazırlanmasında, bişirilməsində, bədii tərtibatında, gilinin, anqobun və boyanın keyfiyyətində özünü göstərirdi. Son orta əsrlər dövründə isə, yəni XVI-XVIII əsrin birinci yarısında isə əvvəlki dövrlərin bəzi texnoloji üsulları aradan çıxmış, bəziləri isə təkmilləşərək yüksək səviyyəyə çatmışdır. Qravirovka ilə naxışlanmış, birrəngli şirlə örtülmüş qablar XVI-XVIII əsrin birinci yarısında geniş yayılmışdır. Arxeoloji kəşfiyyat sahəsindən bəzən rəngli və rəngsiz şirlə örtülmüş gil

qab qırıqlarına da rast gəlinmişdir. Orta əsr sənətkarları qabların naxışlanmasında müxtəlif kompozisiyalı həndəsi və nəbati ornamentlərdən istifadə edərək nadir incəsənət əsərləri yaratmışdır. XIV-XVII əsrlərdə şirli qabların naxışlanmasında müxtəlif kombinasiyalı göy, firuzəyi, yaşıl, mavi, sarı və qəhvəyi rənglərdən istifadə edilmişdir. Qablar naxışlandıqdan sonra rəngli və rəngsiz şirlə örtülmüşdür. Abşeron və Muğanın orta əsr yaşayış yerlərindən tapılan polixrom şirli qablar əsasən rəngli şirlə örtülmüşdür ki, bu da həmin bölgələrin keramikasının özünəməxsus xüsusiyyətlərindən biridir. Muğan, Qobustan, Səngəçal son orta əsr keramikasının yerli xüsusiyyətlərindən biri də qabların naxışlanmasında kobaltdan istifadə edilməsidir *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.17).*



Müxtəlif təyinatlı və məzmunlu şirsiz keramika nümunələri.



Şirli saxsı nümunələri.

<u>N40^{0}11′01.942; E49^{0}29′40.637 koordinatlarında Dəniz sahili cəmləşmə sahəsində</u> tapılan keramika nümunələri müxtəlif təyinatlı və xarakterli olub əsasən məişət avadanlığı ilə təmsil olunurlar. Tapılmış keramika nümunələrinin əksəriyyətinin sabit hərarət rejimində bişirilməsi, saxsısının sıx, şirinin (yəni boyasının) yüksək keyfiyyətli olması diqqətimizi cəlb edir. Artefaktlar arasında şirsiz (yəni boyasız) saxsı məmulatı üstünlük təşkil edir. Şirsiz saxsı məmulatı təyinatına görə təsərrüfat, mətbəx, süfrə qabları qruplarına bölünür. Qırmızı boyalı qabların, xüsusilə də küpələrin və kiçik həcmli küplərin daha çox olması diqqət çəkir. Şirli saxsı qabların erkən nümunələrindən anqob naxışlı qablar üstünlük təşkil edirlər. Onlar əsasən qırmızı və qəhvəyi rəngli şirlə şirlənmişlər. Rəngsiz şir altından anqob və marqans zolaqlarla bəzədilmiş, bəzən qəhvəyi şirlə canlandırılmış nümunələrə də rast gəlmək mümkündür. Bir-iki keramikaya da rast gəlindi ki, onların yalnız içərisinə qırmızı boya çəkdikdən sonra onu anqobla naxışlayıb, rəngsiz şirlə şirləmişdilər. Saya və zolaqlı marqans şiri ilə şirlənmiş kasa tipli gil qab fraqmentlərinə rast gəlinmişdir. Monoxrom (birrəngli və yaxud birşirli) saxsı qablar bədiilikdən

uzaqdırlar. Onların naxışlanması demək olar ki, yox dərəcəsindədir. Yalnız üzərilərindən saya və zolaqlarla şir çəkilmişdir ki, bu da sadə anqob üstündən həyata keçirilmişdir *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.18).*

Yerüstü materiallar əsasən çəhrayı rəngdə bişirilmiş sadə və şirli qabların qırıqlarından ibarətdir. Onların bir qismi qum qatılmamış gildən, bir qismi isə narın qum qarışığı olan gildən hazırlanaraq yaxşı bişirilmişdir. Fraqmentlərdən aydın olur ki, qablar hər iki tərəfdən yaxşı sığallanmışdır. Sadə qabların bəzilərinin oturacağından məlum olur ki, onlar dabanlıdır, yəni hündürdür. Bəzi oturacaqlar yastı və diskşəkillidir. Gövdəsinin yuxarı hissələri içəriyə doğru yığılan gil qab fraqmentlərinə də rast gəlinir.

-arxeoloji tapıntıların dövrü:

Əldə edilən arxeoloji materiallar ümumi sahə üzrə və tapıldıqları ayrı-ayrı lokal yerlərin xüsusiyyətləri üzrə dövrlərinə görə qruplaşdırılmışdır. Tapılmış gil qab nümunələrinin dövr baxımından təhlilinə keçməzdən öncə qeyd edək ki, arxeoloji kəşfiyyat sahəsindən əldə edilən keramika nümunələri ilk orta əsrlərdən başlayaraq ta son orta əsrlərədək – yəni orta əsrlər dövrünün hər üç mərhələsini özlərində ehtiva edirlər. Amma buradan aşkar edilmiş ilk orta əsr, inkişaf etmiş orta əsr və son orta əsrlərin gil qabları arasında tarixi-xronoloji ardıcıllıq və irsilik yoxdur. Yəni bu sahə uzunmüüdətli yaşayış yerinin qalığı kimi götürülməməli və tapılan maddi mədəniyyət qalıqları isə həmin yaşayış yerinin izlərini əks etdirən artefaktlar kimi qəbul edilməməlidir. Fikrimizcə ərazidə yalnız tarixin müəyyən dövrlərində yalnız mövsümü və ya müvəqqəti yaşayış mövcud olmuşdur ki, bu da köçəri –yaylaq-qışlaq maldarlığı ilə məşğul olan elat çobanlarına və onların ailələrinə mənsub olmuşdur. Ən azından ərazinin relyefi və iqlimi burada tarixin hansısa dövründə daimi yaşayışın mövcudluğunu şübhə altına alır. Ərazidən tapılan artefaktlar da məhz onların məişətini və təsərrüfatının müəyyən sahəsini əks etdirirlər. Amma bu şübhəsiz ki, gələcəkdə arxeoloji monitorinqlə bir daha aydınlaşacaqdır. Belə ki, sahədə gələcəkdə texniki işlər həyata keçirilərkən mütləq arxeoloqlardan ibarət qrupun iştirak edəcəyi monitorinq vacib əhəmiyyət daşıyır. Çünki, bu sahədən çox böyük elmi dəyəri olan artefaktların tapılması və ya hansısa tarixi tikili qalığının aşkarlanması şübhəsizdir. Ən azından yerüstü arxeoloji materiallar bunu deməyə imkan verir. Yenə də qeyd edirik ki, bu sahədə hansısa qalınlığa malik qədim yaşayışın izlərini özündə əks etdirən mədəni təbəqənin olması fikrini söyləmək əlbəttə ki, düzgün olmazdı. Lakin, tapılacaq hansısa maraqlı tapıntı və təsadüfi əşya orta əsr tariximizin öyrənilməsinə xidmət göstərmiş olar və tarixi karvan yollarının üstündə yerləşən bu ərazi böyük ehtimal ki, zəngin tapıntıları özündə gizlədir *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.19).*

Arxeoloji kəşfiyyat sahəsindən aşkar edilmiş keramikaların müəyyən bir qrupu ilk orta əsrlərin sonunu və inkişaf etmiş orta əsrlərin başlanğıc dövrünü, yəni daha konkret götürsək XI-XII əsrləri xarakterizə edirlər. Xüsusilə də buraya gil tərkibinə narın qum qarışdırılmış lakin sabit tempraturda bişirilərək üzərinə anqob çəkilmiş yaşıl və mavi şirlə şirlənmiş, üzərində müxtəlif nəbati təsvirlər olan monoxrom gil qab fraqmentlərini göstərə bilərik. Keramika nümunələrinin bəzilərinin üzərində ilk orta əsr Şərq miniatürçülüyünü özündə ehtiva edən naxış elementlərinə rast gəlinir.

Bildiyimiz kimi, Yaxın və Orta Şərqdə eləcə də Azərbaycanda mövcud olmuş məşhur mərkəzlərin monqol işğalçıları tərəfindən viran edilməsi dulusçuluq məmulatı istehsalının tənəzzülünə səbəb olmuşdur. Lakin məişət təyinatlı dulusçuluq məmulatı istehsalının azalmasına baxmayaraq, inşaat üçün zəruri olan keramika məmulatının hazırlanmasında canlanma müşahidə edilirdi. XII-XIII əsrlərdə əsas dulusçuluq mərkəzləri Azərbaycanın cənub şəhərlərində yerləşirdi. Lakin Şirvanda və Bakının özündə də belə mərkəzlər var idi. Səngəçal terminalının genişləndiriləcəyi sahədə aşkar edilmiş bu dövr keramikalarının əksəriyyəti zona baxımından məhz Şirvan və Bakı mərkəzlərinin istehsalı idi *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.19).*

Arxeoloji axtarış sahəsindən tapılan şirli qablar əsasən kasa və nimçə tipli qabların ağız, gövdə hissələrinin qırıqları ilə təmsil olunmuşdur. Kasa tipli qabların birinin tərkibinə ələnmiş qum qatılmış, keyfiyyətli bişirilmişdr. Gili çəhrayı rəngdədir. Oturacağı diskşəkilli olub, azacıq içəriyə doğru batıqdır. Həm oturacağında, həm də gövdəsində dulus çarxının fırlanma nəticəsində konsentrik izlər saxlanmışdır.

Ağzının kənarı düz, ağzı bir qədər içəriyə doğru yastılanmış və dəyirmilənmişdir. Gövdəsi konusvaridir. İçərisi yarımşəffaf şirlə örtülmüşdür. Şir (yəni boya) bəzən sarı, bəzən isə qabın öz rəngindədir. Belə qablar orta əsr şirli qablarının ilk nümunələrindən olub, əsasən XI-XIII əsrlərə aid edilirlər *(Новрузлу А.И. 1993).*

Müəyyən olunmuşdur ki, XIII-XIV əsrlərdə Azərbaycan ərazisində bir neçə saxsı istehsalı mərkəzi vardı. Bu mərkəzlərdə həm məişət təyinatlı məmulatlar, həm də binaların üzlənməsi üçün yüksək keyfiyyətli kaşılar hazırlanırdı. Bu dövrdə Azərbaycan dulusçuluq sənətinin ən zəngin sahəsini maye tutumlu saxsı istehsalı təşkil etmişdir. Bu dövrdə digər Şərq ölkələrində olduğu kimi, Azərbaycanda da dulusçuluq məmulatı minalanırdı. Bu əməliyyat anqoblanma adlanırdı ki, bu da məhsulların möhkəmləyini artırmaq məqsədilə aparılırdı. Arxeoloji kəşfiyyat işləri zamanı sahədən tapılmış üzəri cilalanmış və anqoblanmış monoxrom saxsı qab fraqmentlərinin bəziləri və eləcə də sadəcə anqoblu və sığallı təmiz gil tərkibə malik keramika nümunələrinin əksəriyyəti də məhz XIII-XIV əsr nümunələridir *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.20).*

Şirli qablar həndəsi və nəbati ornamentlə yüksək zövqlə naxışlanmışdır. Naxışlar şüaşəkilli xətlərdən ibarətdir. Naxışlar yaşıl, göy, mavi rənglərlə çəkilmişdir. Qab fraqmentlərinin bəzisinin üzəri tamamilə yaşıl, bəzən isə göy şirlə örtülmüşdür. Səngəçal terminalının genişləndirilməsi üçün nəzərdə tutulan arxeoloji axtarış sahəsindən tapılmış artefaktlar Muğan və Abşeron, eləcə də Qobustanın orta əsr keramikası üçün xarakterikdir. Buradan əldə edilmiş materialları ümumilikdə XI-XVII əsrlərə aid edə bilərik.

Bəzi axtarış zonalarının – yəni lokal sahələrin keramika məmulatı forma verməyən gil qab qırıqlarından ibarətdir. Şirli qabların üzəri yaşıl, qəhvəyi, firuzəyi rənglərlə nəbati və həndəsi ornamentlərlə naxışlanmışdır. Aşkar olunmuş materiallar son orta əsrlər üçün xarakterikdir. Arxeoloji istinadlara əsasən analoji təhlillər və müqaisələr əsasında keramika nümunələri XVI-XVII əsrlərə aid edilir *(Новрузлу А.И. 1993, с.68).*

Son orta əsrlərdə maddi mədəniyyət nümunələri içərisində dulusçuluğun bərpa olunduğunu və inkişaf etdiyini göstərən arxeoloji materiallara Səngəçal terminalının arxeoloji axtarış zonasında daha çox rast gəlinir. Bu onu göstərir ki, ərazinin hər hansı məqsədlə istifadəsi məhz son orta əsrlərdə müntəzəm hal almışdır. Arxeoloji kəşfiyyat işləri zamanı terminalın genişləndiriləcəyi sahədən tapılan zəngin və çoxçeşidli keramika nümunələri dulusçuluq sənətinin nəinki özündən əvvəlki inkişaf səviyyəsinə çatdığını, hətta onu ötüb keçdiyini nümayiş etdirir. Dulusçuluğun saxsı qab istehsalı sahəsində baş verən dəyişikliklər tədricən qabların çeşid müxtəlifliyinin bərpa olunması və keyfiyyətinin yaxşılaşdırılması ilə nəticələnirdi. Arxeoloji kəşfiyyat zamanı son orta əsr gil qablarının müxtəlif forma və məzmun daşıması hallarının çoxalması ilə yanaşı onların təmiz gil tərkibə və həm də sıx gil tərkibə malik olması, dulus çarxında mükəmməl hazırlanması və sabit tempratur rejimində bişirilməsinin şahidi oluruq. Qazan, küp, səhəng, bardaq, dolça, aftava, nehrə, sərnic, küpə, dopu, çıraq kimi ənənəvi istifadə olunan qabların istehsalının davam etdirilməsi kəşfiyyat zamanı tapılan həmin gil qab fraqmentləri ilə təsdiqini tapır. Arxeoloji kəşfiyyat zamanı tapılmasa da elmi ədəbiyyatdan və digər çöl qazıntılarından məlumdur ki, bu qabların özlərinə -daha doğrusu ağız ölçülərinə uyğun qapaqları da düzəldilirdi. Məlumdur ki, dövrün sonlarında XV-XVI əsrlərdə şar-konusvari qablar sıradan çıxmağa başlayır. XII-XVIII əsrlərdə isə şirsiz qabların forma və naxışlarında bəzi dəyişikliklər baş verir *(Джабиев Г.Дж. 1985).* Qazanlar dayazlaşır, qulpları üçbucaq forma alırdı. Küplərin çiyin hissəsi daha qabarıq, boğazı nisbətən uzun düzəldilir, çıraqların qıfvari boğazı nisbətən hündür və genağız olurdu. Şirsiz qabların istehsalında və naxışlanmasında da ənənəvi üsullardan –cızma, həkketmə, möhürbasma kimi üsullardan istifadə olunurdu. Arxeoloji kəşfiyyat işləri zamanı Səngəçal terminalının genişləndiriləcəyi ərazisindən üzərində basma və daraqlama üsulu ilə müxtəlif çızma naxışları olan gil qab fraqmentləri tapılmışdır. Sahədən tapılan son orta əsrlrə aid –yəni XVII-XVIII əsrlərə aid marqans şirlə örtülmüş bəzi qablar bədii cəhətdən böyük ustalıqla hazırlanmışdır. Bəzi şirli qab nümunələrinin oturacağında isə qalın şir –yəni boya qalığına rast gəlinir ki, bu da orta sərlər dövründə sənətkarlar arasında uzun müddət davam etmiş möhürbasma

ənənəsinin az da olsa qalığıdır.

-arxeoloji kəşfiyyat işləri zamanı əldə olunmuş nəticələrin müzakirəsi və təhlili:

Sahdəniz-2 infrastruktur layihəsi ilə bağlı Səngəçal terminalının genişləndiriləcəyi ərazidə aparılan arxeoloji axtarış işləri zamanı axtarış sahəsi ərazisində tapılan və orta əsr yaşayışının izlərini təsdiq edən arxeoloji materialların həmin dövrün iqtisadi həyatındakı bəzi məqamların aydınlaşdırılması baxımından olduqca əhəmiyyətlidir. Aparılan arxeoloji tədqiqatlar axtarış sahəsindəki yaşayışın daimi olmadığını, mövsümü və müvəqqəti xarakter daşımasını, heyvandarlıqla məşğul olan elat çobanlarının bu ərazidən geniş istifadə etməsini sübut edir. Ona görə də bu ərazidə müxtəlif dövrlərə aid mədəni təbəqənin olmasını iddia etmək qeyri-düzgündür. Əldə edilən nəticələr ərazidən tapılan artefaklların burada xüsusilə son orta sərlərdə mövsümü kənd tipli yaşayış məskəninin fəaliyyətinin nəticəsi olaraq formalaşdığını göstərir. Ərazinin mədəni təbəqəsinin olmaması, tapılan artefakların dövrünün fərqli olması, dövrlər arası əlaqənin pozulması, zəngin və seyrək tapıntılı cəmləşmə sahələrinin biri-digərinindən fərqli radiusa malik olması, yayılmış keramika məmulatının kompakt deyil, sərbəst olmas gəldiyimiz elmi nəticə və yekun qənaətdir *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.22).* Əvvəlcədən onu da qeyd edək ki, arxeoloji cəmləşmə sahələrində mədəni təbəqə qatının olması çox şübhəlidir. Bu ərazinin plansız yaşayış yeri olmasına dəlalət etmir. Əslində yaşayış yerinin mövcudluğu üçün ərazinin nə münbit torpaq sahəsi, nə daimi şirin su ehtiyatı, nə də mülayim iqlimi vardır. Burada torpaqlar yarımsəhra və şoran tipli olub, iqlimi daim küləkli, yayı yandırıcı istidir. Ətrafda heç bir çay yatağına rast gəlinmir. Torpaq boş olduğu üçün leysan yağışlar bəzən torpağı yuyaraq dərin yarğanlar açır və bu yarğanlar genişlənərək böyük dərələr əmələ gətirirlər. dərələrin bəziləri dəniz istiqamətinə doğrudur. Bu da yəqin ki, yığılan suların dənizə axması üçündür. Torpağın müxtəlif yerlərində çökəkliklər vardır ki, burada da yağış suları müəyyən qədər qalır və hopmur. Buranın təbiəti qeyd etdiyimiz kimidir və şübhə yoxdur ki, ilk orta əsrlərdən üzü bəri ərazinin təbii coğrafiyasında heç bir dəyişiklik ola bilməzdi.

Əldə edilmiş şirli saxsı məmulatın təhlili onların forma, naxışlanma və şirlənmə texnikasına görə X–XII əsrlər üçün səciyyəvi olan erkən şirli saxsı qablara mənsubluğunu təsdiqləyir. Belə ki, sahədən aşkar olunmuş şirli qabların analoqları Beyləqanda aparılan arxeoloji qazıntılardan daha geniş şəkildə tapılmışdır. Onların Beyləqandan aşkar olunmuş analoqlarının təsnifatını verməklə yanaşı bəzi tədqiqatçılar bu tip şirli qabların IX-XI əsrlərə aid olduğunu əsaslandırmışdır *(Yakobson A.L. 1959, s.224-226).* Bu tip qabların digər analoqlarını Leviatov Bakı şəhərində aparılan qazıntılardan aşkar etmiş və onların IX-X əsrlərə aid etmişdir *(Leviatov V.N. 1946, s.37-39).* Ərazidən tapılan orta əsrlərin müxtəlif dövrlərinə aid arxeoloji materiallar BTC neft və SCP qaz ixrac boru kəmərləri marşrurtunun 302 km-dəki III Hacıalılı yaşayış yerinin, 316 km-dəki Seyidlər yaşayış yerinin orta sər təbəqəsinin materialları ilə, 342 km-dəki Daşbulaq orta əsr yaşayış yerindən tapılan arxeoloji materiallarla *(Nəcəfov Ş.N., Hacılı Z.C. 2005, s.538)* analoji oxşarlıq təşkil edir. Aparılan tədqiqatlar nəticəsində daha erkən yaşayışın alamətləri aşkar edilməmışdir. Artefaktların xronoloji çərçəvəsinin müəyyənləşdirilməsi müşahidələrə və əldə olunmuş maddi mədəniyyət nümunələrinin müqayisəli təhlilinə əsaslanır. Maddi mədəniyyət qalıqları yüksək mədəni-iqtisadi inkişafın nümunələrini özündə əks etdirir. Maddi-mədəniyyət nümunlərində yüksək inkişaf etmiş orta əsr Bakı sənətkarlığının xüsusiyyətləri izlənilir. Şübhəsiz ki, qazıntılar nəticəsində tapılan və çox nəfis hazırlanan bəzi maddi-mədəniyyət nümunələri yerli istehsalın məhsulu olmamış buraya Bakı və digər inkişaf etmiş yaxın şəhərlərdən mübadilə yolu ilə gətirilmişdir. Məhz bu tapıntılarla Azərbaycanın Abşeron və Qaradağ bölgələrinin orta əsrlər maddi mədəniyyətinin bəzi məsələlərinin öyrənmək mümkündür. Orta əsrlərə aid basma üsulu ilə bəzədilmiş oranamental qurşaqlı qırmızı boyalı küpələr ən yaxın oxşarlığını orta əsr Gəncə, Beyləqan, Dəbil şəhərlərinin XI-XII əsrlərə aid saxsı məmulatında tapır *(Vahidov R.M. 1957. s.9-10; Dostiyev T.M. 1990; Əhmədov Q. 1962, s.36-38).* İstər naxışlanma texnikasına, istərsədə təsvir motivlərinə görə vahidlik ərazidən tapılan keramikanın Arran keramika məktəbi üçün səciyyəvi olduğunu göstərir. Heç şübhəsiz ki, bəhs edilən dövrdə ərazisi dulusçuluğun əsas mərkəzlərinə yaxın imiş.

Tapılan artefaktlar əhalinin məşğuliyyətində sənətkarlığın aparıcı sahə olduğunu, sakinlərin

müəyyən dərəcədə sənət istehsalı ilə məşğul olduğunu, köçəri həyat tərzi keçirdiyini təsdiqləyir. Sənət istehsalı məhdud, bəsit olub yerli əhəmiyyət daşımaqla, insanların saxsı qab-qacağa olan ehtiyacını ödəməyə yönəlmişdi. Məişətdə dulus çarxından hazırlanmış müxtəlif təyinatlı şirsiz saxsı qablardan geniş istifadə olunurdu. Eyni zamanda şirli süfrə qablarından istifadə olunmuşdur. Yerli sakinlərin bəzək məmulatı arasında şüşə muncuqlar geniş yayılmışdı. Hər halda tapılan 1 ədəd mavi şüşə muncuq bunu təsdiqləyir *(Qoşqarlı Q.O., Nəcəfov Ş.N. 2011, s.24).*

Ümumiyyətlə, Şahdəniz-2 infrastruktur layihəsi ilə bağlı ayrılmış arxeoloji axtarış zonasında aparılmış kəşfiyyat işləri miqyas etibarı ilə qane edici olub ərazinin arxeoloji səciyyəsinə imkan verir. Hesab edirik ki, toplanılan materialların elmi təhlili nəticəsində ərazi haqqında məlumatımızı qənaətbəxş hesab etmək olar.

ƏDƏBİYYAT

1. Dostiyev T.M. Orta əsr kənd tipli yaşayış yerləri //Elm və həyat, №8, 1990.
2. Əhmədov Q. Örənqala. Bakı, 1962.
3. Qoşqarlı Q.O., Nəcəfov Ş.N. Şahdəniz -2 infrastruktur layihəsi ilə bağlı ayrılmış ərazidə arxeoloji kəşfiyyat işlərinin nəticələrinə dair yekun hesabat. AMEA AEİ, YTSAT şöbəsi. Bakı, 2011.
4. Nəcəfov Ş.N., Hacılı Z.C. Daşbulaq orta əsr yaşayış yerinin şirsiz saxsı məmulatı haqqında //Elmi axtarışlar, XV toplu. Bakı, 2005.
5. Vahidov R.M. Mingəçevir orta əsr yaşayış yeri //Azərb. SSR EA Tarix İnstitutunun əsərləri. XI cild. Bakı, 1957.
6. Джабиев Г.Дж. Позднесредневековая керамика Азербайджана (XIV-XVII). Автореф. дисс. канд. ист. наук. Киев, 1985.
7. Левиатов В.Н. О типах глазурованной керамики Азербайджана в VII-XV вв. //Изв АНАз ССР, № 7. Баку, 1946.
8. Новрузлу А.И. Средневековая керамика Азербайджана (IX-XVII вв.). Баку, 1993.
9. Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. М., 1963.
10. Якобсон А.Л. Художественная керамика Байлакана (Оренгала) //МИА, № 67. М-Л, 1959.

Г.О.Гошгарлы, Ш.Н.Наджафов,
В.А.Асадов, А.М.Агалар-заде,
А.И.Абдурахманов, Т.Д.Бабаев

ИТОГИ АРХЕОЛОГИЧЕСКИХ РАЗВЕДОЧНЫХ РАБОТ, ПРОВЕДЕННЫХ НА ТЕРРИТОРИИ РАСШИРЕНИЯ САНГАЧАЛСКОГО ТЕРМИНАЛА В СВЯЗИ С ИНФРАСТРУКТУРНЫМ ПРОЕКТОМ ШАХДЕНИЗ -2

РЕЗЮМЕ

Статья посвящена археологическим разведочным работам, проведенным на территории Сангачалского терминала, соответсвующим программе расширения этой территории. Основу программы, касающейся археологии составляют полевые исследовательские работы, связанные с археологическими поисками, предшествующим строительным работам по расширению территории Сангачалского терминала и возведению новых нефте-газоочистительных сооружений. 27 сентября – 4 октября 2011 года были проведены визуальные археолого-разведочные работы на площади свыше 400 га, на которой предусмотрено строительство разных объектов.

В результате разведочных работ на этой территории были обнаружены и зафиксированы многочисленные фрагменты керамических сосудов, хронологически относящихся к продолжительному периоду истории – начиная с раннего средневековья и до поздних средних веков.

G.O.Goshgarly, Sh.N.Najafov,
V.A.Asadov, A.M.Agalar-zadeh,
A.I.Abdurahmanov, T.D.Babayev

RESULTS OF ARCHAEOLOGICAL PROSPECTING HELD IN TERMINAL EXPANSION SANGACHAL REGARDING INFRASTRUCTURE PROJECT SHAHDENIZ -2

SUMMARY

The article is devoted to archaeological exploration work carried out on the territory of Sangachal terminal by appropriate program to expand the territory. The basis of the program relating to the field of archeology are research work connected with archaeological searches, previous construction work, which contacts to the expansion of the territory Sangachal terminal and construction of new oil and gas treatment facilities. September 27 - October 4, 2011 were conducted archaeological and visual exploration in an area of over 400 hectares, which was provided for the construction of various objects.

As a result of exploration activities in the area have been discovered and documented numerous fragments of pottery vessels, chronologically related to a long period of history - from the early Middle Ages until the late Middle Ages, inclusive.

LERİKDƏ ARXEOLOJİ TƏDQİQATLAR
(Lerik rayonu)

A.İ.Ələkbərov, A.M.Mirabdullayev
T.H.Əzizov, S.K.Kərimov

2011-ci ildə "Cənub-şərqi Azərbaycanın arxeoloji tədqiqi" ekspedisiyası cənub bölgəsinin Lerik rayonu ərazisində arxeoloji tədqiqat və axtarış işlərini davam etdirmişdir. Arxeoloji ekspedisiyanın Lerik rayonu ərazisində tədqiqat aparması zərurəti hələ keçən əsrin əvvəllərində Morqan qardaşlarının bu rayon ərazisində apardığı arxeoloji tədqiqatların 100 illiyi ilə əlaqədar arxeoloji tədqiqatlar aparılması layihəsinin həyata keçirilməsi ilə bağlı olmuşdur. Ekspedisiyanın qarşısına qoyulan əsas məqsəd hələ XIX əsrin axırlarında Fransadan gəlmiş həvəskar arxeoloqlar Morqan qardaşlarının Lerik rayonunun Mistan, Mastayil, Rəzqov, Qosmalion, Coni, Tüli Veri, Hiveri, Loda Kaqoy və başqa kəndləri ərazisində apardıqları arxeoloji tədqiqatlar və törətdikləri dağıntıların yerini müəyyənləşdirmək və hazırlanmaqda olan Lerik rayonu arxeoloji xəritəsini yeni abidələrlə zənginləşdirməkdən ibarət olmuşdur. "Cənub Şərqi Azərbaycanın arxeoloji tədqiqi" ekspedisiyası hər iki istiqamətdə geniş iş aparmış Yuxarıda göstərilən yaşayış məntəqələrində arxeoloji kəşfiyyat işləri apararaq Morqan qardaşlarının arxeoloji qazıntı işləri apardıqları yerləri qeydə almış, eyni zamanda Lerik rayonunun arxeoloji xəritəsi üçün onlarla yeni arxeoloji abidə qeydə almışdır.

Ümumiyyətlə, Lerik rayonu arxeoloji abidələrlə çox zəngindir. Yüz ildən artıq bir müddətdə bu rayon ərazisində aparılan arxeoloji tədqiqatlar nəticəsində burada uzaq poleolit dövründən başlayaraq son orta əsrlərə qədər müxtəlif təyinatlı abidələr, o cümlədən şəhər və kənd tipli yaşayış yerləri, kurqanlar , daş qutu, torpaq və küp qəbir nekropolları, qalalar, karvan yolları və ziyarətgahlar qeydə alınmışdır. Keçən əsrin səksəninci illərində genişmiqyaslı arxeoloji tədqiqatlar aparılmasına baxmayaraq hesabat ilində Lerik rayonu ərazisində müxtəlif dövrlərə aid onlarla yeni abidə üzə çıxarılmış və onların əksəriyyətində ilkin arxeoloji tədqiqatlar aparılmışdır.

2011 ci ilin çöl tədqiqatları zamanı Cənub Şərqi Azərbaycanın arxeoloji tədqiqi ekspedisiyası XIX əsrin 90 cı illərində Morqan qardaşlarının axtarışlar və qazıntılar apardığı bütün abidələri gəzmiş, onların dağıntılara məruz qalma dərəcəsi, saxlanma vəziyyəti ilə tanış olmuş və gələcək tədqiqatların yerini müəyyən etmişdir.

Bundan sonra ekspedisiya Lerik rayonunun arxeoloji xəritəsinin hazırlanması ilə məşğul olmuş və aşağıda göstərilən abidələrdə arxeoloji tədqiqat işləri aparmışdır:

Çuxur məhəllə yaşayış yeri abidə Lerik rayonu Çayrud kəndinin girəcəyində, Çayrud çayının sağ sahilində yerləşir. Qərbdən Çayrud çay ilə cənub və cənub-şərqdən kiçik dərə və bulaq ilə şimaldan və şərqdən isə kənd yolu ilə həmsərhəddir. Abidənin ümumi ərazisi üç hektardan çoxdur. Yerli əhali bu ərazini "Çolaçüjə" adlandırır. Hal-hazırda ərazi kənd evləri kənd əhalisinin təsərrüfat tikililəri həyətyanı sahələri ilə örtülmüşdür. 2010-cu ildə Çayrud kənd sakini Şəmşir Mirzəyev öz həyətyanı sahəsində təsərrüfat damı üçün özül qoyarkən yaşayış kompleksinin bir hissəsi üzə çıxarılmışdır. O, dərhal işi dayandırmış və bizə müraciət etmişdir. Abidədə 2 yerdə qazıntı sahəsi seçilmiş və arxeoloji tədqiqat aparılmışdır.

1-ci qazıntı sahəsi üzə çıxarılmış yaşayış kompleksində seçildi. 5x4 ölçüdə kvadratda qazıntı işlərinə başlanıldı. Mədəni təbəqənin ilk üst qatından təxminən XVIII-XIX əsrlərdə inşa edilmiş yaşayış evinin divarlarının qalıqları aşkar olundu. Aydın oldu ki, hələ iki əsr bundan qabaq bu ev tikilərkən qədim yaşayış yerinə ciddi ziyan dəymişdir. Mədəni təbəqənin 20 sm dərinliyindən başlanaraq, müxtəlif dövrlərə aid sadə və şirli qabların fraqmentləri aşkar olunmağa başladı.





Çuxur məhəllə yaşayış yer. II qazıntı sahəsi.

Mədəni təbəqənin 50 sm dərinliyində anqob və marqansla işlənmiş şirli keramika nümunələri, gildən hazırlanmış fiqurun bir hissəsi və yumuru çaylaq daşlarından hazırlanmış çəki daşları aşkar olundu. Fiqurun yalnız baş hissəsi salamat qalmışdır.


İkinci qazıntı sahəsi üçün yer birinci qazıntı sahəsindən 22 metr cənub-qərbdə məhəllə bulağına gedən yolun üstündə seçildi. Burada qazıntı sahəsinin seçilməsi təsadüfi deyildi çünki əraziyə baxış keçirilərkən yolun içərisində, kənd sakini Kərim Kərimovun həyətyanı sahəsinin cənubunda qoz ağaclarının dibində iri təsərrüfat küplərinin ağız hissəsi görünürdü. Bu ərazi xeyli dar olduğuna görə qazıntı sahəsi 4x2 metr ölçüdə götürüldü.




II qazıntı sahəsi. Təndir.




II qazıntı sahəsi. Buxarı.



I qazıntı sahəsi. Bıçaq tiyəsi.



I qazıntı sahəsi. Metal əşya.



I qazıntı sahəsi. Xəncər tiyəsi.

Təsərrüfat küplərindən azacıq aralıda iri yonulmamış daşlardan tikilmiş divar qalığının bünövrə hissəsinin qalıqlarına rast gəlindi. Divarın eni 1 metr hündürlüyü isə 50 sm salamat qalmışdır. Divar palçıq məhlulu ilə çox primitiv şəkildə hörülmüşdür. Bu divarlar qonşunun hasarının altına doğru istiqamətləndiyindən bu divarları axıra qədər açmaq mümkün olmadı.

Birinci qazıntı sahəsində tədqiqat işləri nəticəsində, qazıntı sahəsinin cənub-şərq divarında təxminən 50 sm dərinlikdə təndir külbəsi aşkar olundu. Bu qurğunun təyinatını müəyyənləşdirmək üçün qazıntı sahəsi 1x2 metr ölçüdə şərqə doğru genişləndirildi. Nəticədə salamat qalmış iki külbəli təndir aşkar olundu. Təndirin dibində qalın kül qatı var idi. Burada yonulmamış daşlardan iki külbə qurulması aydın olurdu. Çox güman ki, bu külbələr təndirdə istiliyi tənzimləmək üçün nəzərdə tutulmuşdur. Birinci qazıntı sahəsində təxminən 1 metr dərinlikdə şimaldan cənuba doğru istiqamətlənən daha bir divar qalığı aşkar olundu. Birincidən fərqli olaraq bu divar əsasən çiy kərpic və möhrədən tikilmişdir. Hər iki divar qalığı müəyyən nöqtədə bir-biri ilə kəsişdiyindən onların eyni bir yaşayış kompleksinə aid olduğunu söyləmək olar.

Çuxur məhəllə yaşayış yerində aparılan tədqiqatlar aşkar olunan yaşayış kompleksində müəyyən edilən mədəni təbəqələr, maddi-mədəniyyət nümunələri, divar qalıqları və təsərrüfat tikililəri burada uzun müddət intensiv yaşayışın olduğunu söyləməyə imkan verir. Belə ki, əvvəllər ümumiyyətlə dağlıq ərazilərdə uzun müddətli yaşayış yerlərinin olmadığı, yaşayış yerlərinin müvəqqəti olduğu və müəyyən zaman keçəndən sonra öz sakinləri tərəfindən tərk olunduğu haqqında fikirlər vardır. Çuxur məhəllədə aparılan tədqiqatlar isə bunun əksinə olaraq sübut edir ki, dağlıq ərazi olmasına baxmayaraq burada b.e. VII-VIII əsrlərindən başlanmış həyat X-XI əsrlərə qədər davam etmişdir.

Kurqan. Kurqan Çayruddan Veriyə gedən torpaq yolun 7-ci km-də yolun sağında qeydə alınmışdır. Bunun diametri təxminən 22 m, hündürlüyü 3 m-ə yaxındır. Kurqanın gün çıxan tərəfə olan yamacında iri daşlardan örtük vardır.

Gülzar ziyarətgahı. Abidə Veri – Əliabad şose yolunun üstündə, Veri kəndinin şərqində qeydə alındı. Yerli əhalinin verdiyi məlumata görə burada VII imam Museyi Kazımın vərəsələrindən biri Gülzar adlı qadın dəfn olunmuşdur. Türbədə qəbir yeri olmasına baxmayaraq sinə daşının aparıldığı, qəbrin isə yerinin dəyişildiyi müşahidə olundu. Gülzar türbəsindən bir qədər aralıda, Veri – Əliabad şose yolunun solunda daş qutu qəbirlərindən ibarət böyük bir qəbiristanlıq qeydə alındı.

Ulon türbə yaşayış yeri Yaşayış yeri Veri – Əliabad yolundan 3 km cənub şərqdə, Susuz çayın sağ sahilində, Qaladiki adlanan dağın ətəyində yerləşir. Abidənin ərazisi hal-hazırda əkin yeri və örüş kimi istifadə olunur. Abidənin ərazisində bir – birindən iyirmi m aralı iki yoxlama şurfu qoyuldu. Hər iki yoxlama qazıntısı nəticəsində orta əsrlərə aid zəngin mədəni təbəqə yatımı aşkar olundu. Qazıntı sahələrindən toplanan sadə və şirli saxsı məmulatının fraqmentləri, kömür – kül qalıqları, iri təsərrüfat küplərinin sınıqları və müşahidə olunan təsərrüfat quyularının, təndir və ocaq yerlərinin izləri orta əsrlərdə bu yaşayış yerində intensiv həyat və yaşayış olduğunu söyləməyə imkan verir.

Beşik daş Abidə Rəzqov kəndindən Mistan kəndinə gedən torpaq yolun cənub qərb hissəsində yerləşir. Əvvəllər bu ərazi yaylaq olmuş, hal – hazırda isə biçənək və örüş kimi istifadə olunur. Burada iri bir daşın üzərində təxminən 1,5 ton ağırlığında yumru daş vardır. Daş kənar təsir olmadan öz – özünə yırğalandığı üçün yerli əhali ona Beşik daş deyir.

Bil daş qutu qəbiristanlığı və kurqanlar. Abidə Mistan – Coni torpaq yolundan 500 m. aralıda yerli əhalinin "bil" yəni sucaq yer adlandırdığı ərazidə qeydə alındı. Daş qutu qəbirlərin əksəriyyəti Morqan qardaşları tərəfindən dağıdılmış, qəbir avadanlığı isə qarət edilərək Fransaya aparılmışdır.

Mistan orta qəbiristanlığı və türbə. Abidə Mistan kəndinin ərazisində qeydı alındı Qəbiristanlıq təxminən 1 hektara qədər ərazini əhatə edir. Burada XIV XV əsrlər üçün xarakterik olan qəbir daşları qeydə alındı.

Vəliyyəddin türbəsi. Türbə Lerik – Mistan yolunun solunda, Mistan kəndinə 500 metr qalmış, torpaq yoldan 50-60 m yuxarıda qeydə alındı. Türbə orta əsrlərə aid qəbirlərin əhatəsindədir. Əvvəllər burada tikili olmuşdur. Sonralar həmin tikili dağıdılmışdır. Müstəqillik dövründə buraya ziyarətə gələnlər uçmuş divarları çox primitiv şəkildə təmir etmişdir. Daha doğrusu daşlar dairə şəkilində türbənin özülünün yerinə toplanmışdır.

Coni daş qutu qəbiristanlığı. Abidə Coni kəndindən 3 km cənub qərbdə. Tülü kəndi ilə üzbəüz təpədə yerləşir. Təpədən Talış dağlarının ən yüksək zirvəsi hesab edilən Qız yurdu zirvəsi aydın görünür. Abidənin üzərində telefon stansiyası qurulmuşdur. Morqan qardaşları burada çox ciddi dağıntılar törətmişdir. Onlarla daş qutunun üst daşları götürülmüş. Qəbir kameraları isə dağıdılaraq qarət edilmişdir.

Baba Həsən türbəsi. Türbə Coni kəndindən təxminən 1 km şimal qərbdə yerləşir. Yerli əhalinin verdiyi məlumata görə əvvəllər buradakı qəbirin üzərində yonulmamış daşlardan və möhrədən tikilmiş türbə olmuşdur. Sovet dönəmində baxımsızlıq ucbatından bu tikili dağılmış yaxın vaxtlarda isə kənd müəllimi Məhəmməd Rüstəmov tərəfindən bərpa edilmişdir. Baba Həsən türbəsi hal hazırda ziyarətgah kimi fəaliyyət göstərir. Ətraf kəndlərin əhalisi, hətta sərhədin o tayından belə niyyət edib buraya ziyarətə gəlirlər.

Nəj qalası Qala Coni kəndinin cənub qərbində, kənddən təxminən 500 m yuxarıda yerli əhalinin Nəj adlandırdığı ərazidə qeydə alınmışdır. Keçən əsrin 80 ci illərində qeyri qanuni buldozer salınmış və cinayətgarcasına tam dağıdılmışdır. Qalaçanın ancaq mərkəz hissəsini dağıtmaq mümkün olmamışdır. Qalanın əsas tikinti materialı yerli cins daşlardan olmuşdur. Bunu ətrafa komalanmış bir tərəfi yonulmuş iri daşlar da təsdiq edir.

Mastayıl daş qutu qəbiristanlığı Abidə Mastail kəndinin cənub qərbində, sıldırım bir təpənin üstündə yerləşir. Yerli əhali bu təpəni "Divin ev yeri" adlandırır. Morqan qardaşları bu təpədə möhtəşəm bir daş qutu qəbiri açmışdır Qəbir çox böyük olduğundan onlar bu qəbiri dolmen hesab etmiş və "Div evi"

adlandırmışlar.

Abidədə sonrakı dövrlərdə qeyri qanuni yolla dağıdılmış 10 dan artıq daş qutu qəbiri qeydə alındı. Bir sözlə, bu möhtəşəm abidədə toxunulmamış qəbir demək olar qalmamışdır.

Mastayıl orta əsr yaşayış yeri. Abidə Mastayıl kəndinin girəcəyində, Lerikdən Mastayıla gedən yolun sağ tərəfində, meşənin içərisində qeydə alındı. Yerli əhali bu ərazini Köhnə Lerik talış dilində Kanə Lik adlandırır. Yaşayış yeri əvvəllər meşənin içərisində olmuşdur. Sonralar meşə qırılmış, iri bir tala əmələ gəlmişdir.

Abidənin ərazisi orta əsrlərə aid müxtəlif təyinatlı sadə və şirli qabların fraqmentləri ilə örtülüdür. Keramika nümunələrinin fraqmentlərinə əsasən yaşayış yerini XIII – XIV əsrlərə aid etmək olar.

İslamı sevənlər piri. Ziyarətgah Mastayıl kəndinin ərazisində, sıldırım təpədə yerləşir. Yerli əhali bu ocağa Piyə İslamon deyir. Burada İslamın Azərbaycanda geniş yayıldığı və təbliğ olunduğu vaxtlarda bu yerlərdə fəaliyyət göstərmiş din xadiminin dəfn olunduğu ehtimal edilir.

Qoca Baba türbəsi. Türbə Mastayıl kəndinin girəcəyində Kəndin şimal şərqindən axan çayın sahilində yerləşir. Burada eyni zamanda təxminən 1 h ərazini tutan orta əsr qəbiristanlığı da vardır. Burada XIV-XV əsrlərə aid üç ədəd baş daşı qeydə alındı. Baş daşlarının üzərində günəş rəmzi olan təsvirlər şəbəkə və s. işləmələr vardır.

Baba Davud türbəsi. Türbə Mastayıl kəndinin müasir qəbiristanlığında qeydə alındı. Kənd əhalisi Baba Davudu Babagil və Baba Rəhmanın qardaşı hesab edir. Əvvəl buradakı qəbrin üzərində palçıq və çiy kərpicdən türbə olmuş, lakin baxımsızlıq ucbatından dağılmışdır. İndiki türbə sonralar kənd əhalisi tərəfindən yenidən tikilmişdir.

Cəngəmiran daş qutu qəbirləri. Abidə Cəngəmiran kəndinin şimal qurtaracağında, Nso dərənin sağ və sol yamacında Gəlin qayası adlanan yerdə qeydə alındı. Yerli əhalinin verdiyi məlumata görə keçən əsrin 60 cı illərində yol çəkilərkən burada xeyli qəbir dağıdılmışdır. Çox təəssüf ki, üzə çıxan qəbir avadanlıqları ya itirilmiş ya da naməlum istiqamətə aparılmışdır. Yol çəkilişi zamanı açılmış yarğanda daş qutular açıq aydın görünürdü. Buldozer tərəfindən yarısı kəsilmiş iki ədəd daş qutu tərəfimizdən tədqiq olundu.

Cəngəmiran torpaq qəbirlər nekropolu Nekropol eyni adlı kəndin şimalında, yerli əhalinin Dombul boğça yəni Gavalı bağı adlandırdığı ərazidə qeydə alındı. Nekropoldan azacıq aralıda təxminən 3 hektara qədər ərazini əhatə edən orta əsr yaşayış yeri qeydə alındı Yaşayış yeri orta əsrlərə aid sadə və şirli keramika nümunələrinin fraqmentləri ilə örtülüdür. Onların arasında iri təsərrüfat küplərinin ağız və gövdə hissələri, çölmək, piyalə və boşqab tipli qabların ağız, qulp və oturacaq hissələri diqqəti daha çox cəlb edir. Keramika nümunələrinə əsasən Gavalı bağı yaşayış yerində XIII XV əsrlərdə intensiv yaşayış olduğunu söyləmək olar.

Xəlifə Zəkəriyyə orta əsr qəbiristanlığı. Abidə Cəngəmiran kəndinin təxminən 1 km də Lerik Zuvand yolunun sağ tərəfində yerləşir. Hal-hazırda abidənin bir hissəsi kənd qəbiristanlığı kimi istifadə olunur. Qəbiristanlıqda baxımsızlıq ucbatından dağılmış türbə də vardır. Türbədə heç bir yazılı daş qalmadığından onun kimə aid olduğunu dəqiq söyləmək mümkün deyil. Buna baxmayaraq yerli əhali onun Xəlifə Zəkəriyyəyə aid olduğunu ehtimal edir.

Qəbiristanlıqdakı qəbir daşlarını formasına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. 2, 3 və 4 yaruslu sənduqələr.
2. Üçguşəli olub üzərində astral təsvirlər olan baş daşları.
3. Qurtaracaq hissəsi qızılbaş çalmasına oxşayan baş daşları.
4. Qoyun qoç fiqurlu baş daşları.

Cəngəmiran orta əsr yaşayış yeri. Abidə Lerik – Zuvand yolunun 3 kilometrliyində, yolun solunda, yerli əhalinin Sovxoz Kuba adlandırdığı ərazidə qeydə alındı.

Hamarat daş qutu qəbiristanlığı. Hamarat Lerik rayonunun ən qədim kəndlərindən biridir. Buraya həm 20-ci kilometrdən həm də Veri yolu ilə getmək mümkündür Hamarat kəndinin cənub-qərbində yerli əhalinin Divəğəvon adlandırdığı ərazidə daş qutu qəbiristanlığı qeydə alındı. Buradakı daş qutu qəbirlər həddindən artıq böyük olduğu üçün yerli əhali bu qəbiristanlıqdakı qəbirləri div qəbirləri adlandırır.



Cəngəmiran. Daş qutu qəbir.



Cəngəmiran. Gil çölmək.D



Cəngəmiran. Qoç heykəllər.

Hamarat mağara düşərgəsi. Mağara eyni adlı kəndin cənub qərbində meşə massivinin içərisində, yerli əhalinin Çola küçə adlandırdığı yerdə qeydə alındı. Burada bir birinin yanında üç mağara vardır. Onlardan birində açılmış yarğanda 2 m. Qalınlığında mədəni təbəqə vardır.

Alçalıq orta əsr yaşayış yeri və qəbiristanlığı. Abidə Hamarat kəndinin şimal qərbində, Alçalıq yaylağında qeydə alındı. Yerli əhali bu ərazini Keçi türbəsi adlandırır.

Daster daş qutu qəbiristanlığı. Daster kəndi Hovildən Hamarata gedən yolun üstündə yerləşir. Kəndin ərazisində çoxlu sayda iri sal daşlar vardır. Yerli əhali bu daşların vaxtilə Morqan qardaşları tərəfindən dağıdılmış daş qutulara aid olduğunu söyləyir.

Bradi orta əsr qəbiristanlığı. Abidə eyni adlı kəndin ərazisində qeydə alınmışdır. Kənd meşənin içindədir. Ərazi vaxtilə tamamilə meşə və cəngəllik ilə örtülü olmuş, elə kənd də öz adını buradan götürmüşdür.

Akuşə türbəsi. Türbə Akuşə Peştə kəndinin ərazisində qeydə alındı. Burada orta əsrlərə aid qəbiristanlıq və türbə vardır. Yazılı daş olmadığından türbənin kimə məxsus olmasını dəqiqləşdirmək mümkün deyil. Yerli əhali Akuşəni islamın Azərbaycanda yayıldığı dövrlərdə bu yerlərə gəlmiş ərəb sərkərdəsi olduğunu ehtimal edir.

Büzeyir qalası. Qala eyni adlı kəndin cənub qərbində, kənddən təxminən 4 km yuxarıda hündür, sıldırım dağın zirvəsində yerləşir. Qalaya eyni zamanda Lüləkəran kəndindən də qalxmaq mümkündür. Dəniz səviyyəsindən təxminən 2000 m yüksəklikdə yerləşən qalanın üç tərəfi qalxmağı mümkün olmayan təbii sıldırım uçurumdur. Bizeyir kəndinə yaxın olduğu üçün yerli əhali bu qalaya kəndin adına uyğun olaraq Bəzzə, Bizəy çox halda isə ənənəvi olaraq Div qalası da deyirlər.

Qala üç hissədən ibarət olmuşdur. Dağın zirvəsindən təxminən 100 m aşağıya doğru şimal qərb yamacında eni 20 m, uzunluğu 70 – 80 m olan hamar hissə vardır. Qalanın digər üzü isə sıldırım qayalıqdır. Hamar yerdən təxminən 30 m yuxarıda tikinti qalıqlar, divarlar müşahidə olunur.

Büzeyir qalası orta əsrlərin dağlıq regionları üçün səciyyəvi olan bütün xüsusiyyətləri özündə əks etdirir. İç qala sıldırım qayanın lap zirvəsində inşa edilmişdir. Buraya çıxmaq üçün qayanın üzərində pilləkən və 60 sm enində yol çapılmışdır. Qayanın zirvəsində 150 kv m sahədə təbii meydan vardır. Bura bişmiş kərpic və keramika nümunələrinin fraqmentləri ilə örtülüdür. Çox güman ki, qalanın əsas müşahidə məntəqəsi burada olmuşdur. Dağın zirvəsinə 15 m qalmış bir birindən 5-6 m aralı iki kvadrat şəkilli hovuz qazılmışdır. Onların dərinliyi 2 metrə yaxındır.

Plan quruluşuna, divarların tikinti konstruksiyasına, təndir, ocaq yerlərinə və keramika nümunələrinə görə Büzeyir qalasının ərəb istilaları dövründən qabaq inşa olunduğunu və tarixin ayrı-ayrı dövrlərində müxtəlif funksiyalar daşıdığını daha doğrusu müşahidə məntəqəsi, müdafiə istehkamı və sığınacaq kimi istifadə olunduğunu söyləməyə imkan verir.

Pirəsora türbəsi. Türbə eyni adlı kəndin mərkəzində, müsəlman qəbiristanlığının içərisində qeydə alındı. Burada əvvəllər türbə olmuş, sonralar genişləndirilərək məscid halına salınmışdır. Məscid tikilərkən buradakı qəbir daşlarının da bəziləri o cümlədən iki ədəd qoç heykəli divara hörülmüşdür.

Pirəsora daş qutu qəbiristanlığı. Abidə eyni adlı kəndin şimal qərb hissəsində, Yerli əhalinin Xırman təpəsi adlandırdığı ərazidə qeydə alındı.

Orand orta əsr qəbiristanlığı və türbə. Abidə Pirəsora tərəfdən Orand kəndinə gedən torpaq yolun üstündə qeydə alındı. Orand kəndi dəniz səviyyəsindən təxminən 2000 m yüksəklikdə dağ silsiləsinin yamacında yerləşir.

Qəbristanlıqda qeydə alınan türbə XIII XIV əsrlərin yadigarıdır. Yerli əhali bu türbəni Şeyx Kəla türbəsi adlandırır. Ehtimala görə burada dəfn olunan şeyxin əsil adı Əkkaşə ibn Möhsün Əcədidir.

Sonaçola orta əsr qəbiristanlığı. Abidə Lerik Kəlvəz yolunun sol tərəfində qeydə alındı. Qəbiristanlıq cənubdan Hoveri kəndi, cənub qərbdən Zuvand çay, şərqdən isə müasir qəbiristanlıq və dağ massivi ilə həmsərhəddir. Təxminən 1 hektara qədər ərazini tutur. Hal hazırda abidənin bir hissəsi kənd qəbiristanlığı kimi istifadə olunur.

Qosmailyan orta əsr qəbiristanlığı. Abidə Qosmailyan kəndindən Hiveriyə gedən torpaq yolun sol tərəfində qeydə alındı. Cənub şərqdən dağ massivi, Şimal qərbdən müasir kənd evləri, şimaldan isə Hiveri kəndi ilə həmsərhəddir. Təxminən 1 hektara qədər ərazini əhatə edir. Qosmailyan qəbiristanlığının təxminən XIV-XV əsrlərə aid olduğunu ehtimal etmək olar.

Niməkeş orta əsr yaşayış yeri və qəbiristanlığı. Niməkeş kəndi XX əsrin 40 cı illərində köçürülmüş kəndlərdəndir. Kəndin ərazisi sıldırım dağlarla əhatə olunmuşdur. Hal-hazırda kənddə cəmi bir ev qalmışdır.

Qələsə ziyarətgahı. Ziyarətgah Lerik – Zuvand yolunun 12 ci kilometrliyində eyni adlı kənd ilə üzbəüz, yoldan təxminən 100 m yuxarıda yerləşir. Yerli əhali bu ziyarətgahı çox vaxt Ovon adlandırır çünki burada

dağdan su çıxır və deyilənə görə müalicə əhəmiyyətlidir.

Şingədulan orta əsr qəbiristanlığı. Şingədulan Dırıq kəndi olub Lerik Xanəgah yolunun 18 ci kilometrliyində yerləşir. Kəndin girəcəyində, Lerikdən gedəndə yolun sağ tərəfində orta əsr qəbiristanlığı qeydə alındı. Onun ərazisindən hal hazırda da qəbiristanlıq kimi istifadə olunur. Orta əsr qəbiristanlığında müxtəlif formalı qəbir daşları qeydə alındı.

Loman küp qəbirləri nekropolu. Abidə Şingədulan kəndinin şərq qurtaracağında Loman kəndinin ərazisində qeydə alındı. Yerli əhalinin Holay adlandırdığı yerdə keçən əsrin 70 ci illərində üzüm plantasiyaları salınarkən küp qəbirləri aşkar olunmuş və diqqətsizlik üzündən dağıdılmışdır. Sonralar bu ərazini yerli əhali küpün dibi, küp çıxarılan yer adlandırmışdır.

Əliabad orta əsr qəbiristanlığı və türbə. Abidə Əliabad kəndinin müasir qəbiristanlığında qeydə alındı. Burada iki ədəd üzərində qoç heykəli olan qəbir iki ədəd də orta əsrlər üçün səciyyəvi olan səkkiz guşəli ulduz təsvir olunmuş baş daşı qeydə alındı. Qəbiristanlıqda türbə də vardır. Türbənin Sırıq **seyidlərindən** olan Mir Məryəmə aid olduğunu söylədilər. Yerli əhali buranı ocaq hesab edir və niyyət edib ziyarətə gəlirlər. Əliabad qəbiristanlığını təxminən XIV-XV əsrlərə aid etmək olar.

Baba Kamal türbəsi. Abidə Lerk Əliabad yolunun sol tərəfində, Əliabad kəndinin girəcəyində qeydə alındı. Türbə kiçik meşə massivinin içərisindəki orta əsr qəbiristanlığının şimal-şərq tərəfindədir. Qəbiristanlığın ərazisi təxminən 2 hektara qədərdir. Burada yaşı 5 yüz ildən artıq olan palıd ağacları vardır ki, onların da kökü qəbirləri dağıtmışdır. Türbə taxtadan tikilmişdir. Baxımsızlıq ucbatından dağıdılmışdır. Ətrafdakı orta əsr qəbirlərinin baş daşları çıxarılaraq türbənin ətrafına toplanmışdır. Burada 6 ədəd qoç heykəlinin baş və bədən hissəsi, qızılbaş baş daşları, Üzərində 6, 8, 10 guşəsi olan ulduzlar təsvir edilmiş baş daşları qeydə alındı.

Babagil ziyarətgahı. Abidə Lənkəran Lerik yolunun 40 cı kilometrliyində, meşənin içərisində yerləşir. Burada böyük bir orta əsr qəbiristanlığı olmuşdur Yol çəkilərkən qəbiristanlığın bir hissəsi dağıdılmışdır. Qəbiristanlığın mərkəzində nəhəng bir daş qutu qəbiri olmuşdur. Deyilənə görə bu qəbir vaxtilə Morqan qardaşları tərəfindən qarət edilmişdir. Hələ o zaman bu ərazi ziyarətgah olduğundan bu hadisə böyük narazılığa səbəb olmuşdur. Tarix ədəbiyyatında Babagil ziyarətgahı haqqında çox yazılmışdır. Bu hər şeydən əvvəl onun yol kənarında, diqqət çəkən yerdə yerləşməsindən irəli gəlmişdir. İndinin özündə belə buradan keçənlər adəti üzrə ayaq saxlayır, türbəni ziyarət edirlər.

Beləliklə, 2011 ci ildə Lerik rayonu ərazisində aparılan arxeoloji tədqiqatlar bir daha göstərdi ki, bu rayon qədim və orta əsr abidələri ilə çox zəngindir. Bu abidələrin öyrənilməsi Azərbaycanın ən qədim dövrlərdən tutmuş son orta əsrlərə qədər böyük bir dövrünün ictimai siyasi həyatını, mədəni iqtisadi tarixini, burada yaşayan əhalinin məşğuliyyətini, adət ənənələrini, dünya görüşünü, dağlıq ərazi ilə dağətəyi və düzənlik arasındakı oxşar və fərqli cəhətləri, dağlıq ərazinin məskunlaşdırılması, oturaq və yarım köçəri təsərrüfat sahələrinin spesifik xüsusiyyətləri və başqa mühüm məqamları işıqlandırmağa kömək edər.

А.И.Алекперов, А.М.Мирабдуллаев,
Т.Г.Азизов, С.К.Керимов

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ, ПРОВЕДЕННЫЕ НА ТЕРРИТОРИИ ЛЕРИКСКОГО РАЙОНА

РЕЗЮМЕ

В 2011 году экспедиция «Археологические исследования юго-восточного Азербайджана» продолжила археологические исследования и поисковые работы в Лерикском районе. Начало новых исследований на территории Лерикского района было связано со столетием археологических исследований, проведенных на территории этого района еще в начале прошлого века французскими археологами-любителями братьями Морган, еще в конце XIX века. Главная цель экспедиции в 2011 году состояла в определении места археологических исследований, проведенных братьями Морган на территориях сел Мистан, Мастайыл, Разгов, Госмалион, Джони, Тюли Ери, Хивери, Лода Кагой. Помимо этого велись работы по подготовке археологической карты Лерикского района.

Экспедиция в результате разведочных работ, определены места археологических раскопочных работ, проведенных братьями Морган, зафиксированы десятки новых археологических памятников для составления археологической карты Лерикского района.

В результате археологических исследований, проведенных на поселении Чунух махалля, находящегося на территории села Чайруд Лерикского района, было определено, что на этой территории, расположенной на 1500-1600 метров выше уровня моря, во время арабских завоеваний интенсивная жизнь продолжалась свыше 300 лет.

A.I.Alabakov, A.M.Mirabdullayev,
T.H.Azizov, S.K.Karimov

THE ARCHAEOLOGICAL INVESTIGATIONS IN SOUTH-EAST AZERBAIJAN

SUMMARY

There are registered tens of monuments with secret-service works aim of preparation of districts archaeological maps from 2012 year in field – investigation season, South-West Azerbaijan monuments archaeological investigation expedition in Jalilabad regions area. As previous years secret-service works taken away in districts, upland, foothills and border regions.

There are known general coordinates, their periodical borders, taken away previous archaeological excavation works in some of new revealed monuments.

The archaeological investigations taken away mainly in Jalilabad region's Yasublu, Lallar, Tazakand, Shatirli, Khalilli, Gulmamadli, Saidabazar, Buzovar etc villages' area in 2012 year. It is known that the living places registered in upland area and border comparatively the living places situated in Mugan, captured few area. At the same time these monuments surface specialties also are sensible. It is affirms again that the people lives here are duals with cattle-breeding, economy, run for new pastures and often changed their places.

The archaeological investigations taken away in necropolis in the area of Jalilabad's Saidabazar village giving more interests during field-investigations time. There are investigated 5 land grave which buried with fire-worship traditions. It allows to say that, there was tradition to burn of death and ashes remainders instead of skeleton .Generally Saidabazar necropolis is a lot of interesting monument and it is considering to take away investigations in this monument.

İMİŞLİ RAYONU ƏRAZİSİNDƏ APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİ

(İmişli rayonu)

M.M.Mustafayev



Şəkil 1.



Şəkil 2.

2011-ci ildə Muxortəpə abidəsi yaxınlığında yerləşən Qızıltəpə abidəsində və Yeddi Kurqan ərazisində arxeoloji kəşfiyyat işləri aparıldı **(Şəkil 1,2).**

Qızıltəpə və Yeddi Kurqan abidələri (indiki Qızılkənd ərazisi) Arazın sol sahilində yerləşir. Abidələrə baxış zamanı yerüstü material toplandı. Bunlar, əsasən, şirli və şirsiz saxsı fraqmentlərindən ibarətdir. Arxeoloji kəşfiyyat işləri zamanı Qızıltəpə abidəsində bişmiş kərpiclə hörülmüş tikinti qalıqları da aşkar olundu. Buradan aşkar olunmuş maddi mədəniyyət nümünələri orta əsrlərə, əsasən, IX-XIV əsrlərə aiddir.



Şəkil 3.

Yeddi Kurqan ərazisində aparılmış arxeoloji kəşfiyyat işləri nəticəsində məlum oldu ki, buradan əldə olunan keramika nümunələrinin bir hissəsi Qızıltəpə abidəsində toplanmış keramika ilə eyni dövrə aiddir. Yeddi Kurqanla Qızıltəpə arasında məsafə təxminən 40 m-dir. Lakin, Yeddi Kurqan ərazisində toplanmış keramikanın çox hissəsi antik dövrə və ilk orta əsrlərə aid şirsiz saxsı nümunələrindən ibarətdir.

Sarxanlı kəndi İmişlinin ən böyük yaşayış məntəqələrindən biridir. Araz çayının sol sahilində, Mil düzündədir. Rayon mərkəzindən 22 km.-lik qərb tərəfdə yerləşir. Bu ərazidə Qalaca deyilən, ərazisi təqribən 3 hektara yaxın yaşayış yeri vardır (**Şəkil 3.4).** Ərazi əkin sahəsi olduğu üçün, abidədə yoxlama qazıntısı aparmaq mümkün olmadı. Yaşayış yerinin üstündən saxsı nümünələri toplandı. Bunlar, müxtəlif qab qırıqlarından, o cümlədən, xeyrə tipli qabın bir parcasından, dolça tipli qabın boğaz, qulp və gövdə hissələrindən ibarətdir. Tapıntıları, təxminən, IV-XIV əsrlərə aid etmək olar.



Şəkil 4.

Bəhrəmtəpə Arazın sol sahilində, Mil düzündə qəsəbədir, rayon mərkəzindən 19 kilometr cənub-qərbdə yerləşir. Qəsəbənin tikinti, sənaye və sosial obyektləri çayın hər iki sahilini əhatə edir. Qəsəbənin təxminən 4 hektara yaxın əraziyə malik dəyirman deyilən yerində küllü miqdarda yerüstü şirli və şirsiz saxsı nümunələri aşkar olunmuşdur. Ərazidə məcburi köçkünlər üçün düşərgə salınıb və onlar çiy kərpic istehsalı ilə məşğuldular. Buna görə, ərazidə yerləşən təpələrdən xammal kimi istifadə olunur. Bu təpələrin torpağından istifadə edərkən küp qəbirləri aşkar olunmuş, lakin, təəssüf ki, dağıdılmışdır.



Şəkil 5.



Şəkil 6.



Şəkil 7.



Şəkil 8.

Təpələrdən birinin dağıdılmış hissəsində 4x5 m-lik sahədə (20 m^2) kəşfiyyat xarakterli qazıntı işləri apardıq (**Şəkil 5.6,7).** Küp qəbri aşkar olunda. Dəfn üçün istifadə olunan təsərrüfat küpü dikinə basdırılmışdır. Küp qəbirdə skeletin, yalnız, kəllə sümüyü qismən salamat qalmışdı (**Şəkil 8).** Küp qəbrin ətrafından antik dövrə aid saxsı qab nümünələri tapılırdı.

Tədqiq olunan digər bir abidə Qaratəpə abidəsidir. Abidə Bəcirəvan kəndindən 15-18 km. şimalda, Sarı su gölünün yaxınlığında, çöllük ərazidə yerləşir. Abidənin yerləşdiyi ərazinin təhlilini verərkən qeyd etmək lazımdır ki, Bəcirəvan Arazın sol sahilində, Mil düzündə tarixi kənddir, İmişli şəhərindən şərqdə, rayon mərkəzindən 13 km. məsafədə yerləşir. Kəndin yaxınlığından Bakı – Naxçıvan dəmir yolu keçir.

Xəzər dənizi sahilində, indiki Salyan - Cəlilabad ərazisində yerləşmiş Bəcirəvan şəhərinin adı türk tayfa birliklərinin adından götürülmüşdür. Bəcirəvan haqqında, VII–VIII əsrlərdən başlayaraq, ərəb və fars tarixçiləri məlumat verməyə başlamışlar. Tarixi hadisələrin düzgün təsvirini verən Əl-Kufi, ƏL-Bəlazuri, Əbu Düləf, İbn əl-Hüseyn, Fəzlullah Rəşidəddin, Sədrəddin Əli əl-Hüseyn, Həmdullah Qəzvini və başqaları Bəcirəvan şəhəri, onun şərqdəki mövqeyi, iqlimi, yolları, böyük və zəngin ticarət mərkəzi olması və s. barədə ətraflı məlumat vermişlər. IX–XIII əsrlərdə Bəcirəvan Azərbaycanın ən məşhur şəhərləri olan Qəbələ, Bərdə, Beyləqan, Şabran ilə bir sırada dururdu. Lakin, monqolların Azərbaycana yürüşü Bəcirəvanın bu həyatına son qoymuşdur. 1220-1221-ci illərdə monqolların Azərbaycana birinci yürüşü zamanı Bəcirəvan monqollar tərəfindən yerlə yeksan edilmişdir. Doğrudur, sonradan Bəcirəvan yenidən dirçəlsə də, ancaq əvvəlki şöhrətini və statusunu bərpa edə bilmədi. Belə ki, 1280-1349-cu illərdə yaşamış XIII əsrin görkəmli fars coğrafiyaşünası Həmdullah Qəzvinin Bəcirəvan haqqında "Keçmişdə şəhər, indi isə kənd olan" fikrini işlətməsi təsadüfi deyildi. Qəzvinidən təqribən 60 il qabaq (1220-1221-ci illərdə) baş

verən hadisələrdən sonra Bəcirəvan özünü yalnız kənd tipli yaşayış yeri olaraq bərpa edə bilərdi. Çünki, monqolların işğalından sonra əslində bu şəhər dünya xəritəsindən silinmiş, əhalisinin çoxu qətlə yetirilmiş, sağ qalanlar isə başqa yerlərə səpələnmiş, əsasən Mil düzündə, Sarı su gölünün kənarında məskunlaşmış və sonralar Araz kənarına köçüb gəlmiş və Bəcirəvan kəndini yaşatmışdılar.

Qaratəpə müdafiə məqsədilə salınmışdır. Buna sübut olaraq abidəyə baxış keçirərkən aşkar olunmuş tikinti qalıqlarını, bişmiş kərpiclə işlənmiş qala bürclərinin qalıqlarını, şirli və şirsiz saxsı qab nümunələrini göstərmək olar (**Şəkil 9)**. Bunlar antik dövrü və orta əsrləri, yəni I minnilikdən başlayaraq – XIII əsr də daxil olmaqla uzun bir xronoloji dövrü əhatə edir. Qeyd etmək lazımdır ki, qonşu Beyləqan rayonu ərazisində də Qaratəpə adlı abidə vardır.

Arxeoloji kəşfiyyat işləri apardığımız abidələrdən biri olan "Göyərçin" çalası Ölcələr kəndin qərb hissəsində yerləşir. Ölcələr (Olcalar da deyilir) kəndi Bəhramtəpə avtomobil yolunun kənarında, Arazın 4 km.-ndə yerləşir. XIX əsrin ortalarında yaranmışdır. Ölcələr kəndinin adıyla bağlı mənbələrdə deyilir ki, kənd cavanları əkin-biçin işlərində qabaqcıl, öncül olduqları üçün onlara öncüllər deyilib. Vaxt keçdikcə Öncüllər sözü assimlyasiyaya uğrayaraq Ölcələr (Öncələr) şəklinə düşüb.

Ərazisi, təqribən, 1 hektara yaxın olan "Göyərçin" çalasının tədqiqi zamanı ərazidən çoxlu sayda şirli və şirsiz saxsı məmulatlarının qalıqları aşkar olundu. Bunlar yaxşı bişirilmiş, monoxrom və polixrom şirlə örtülmüşdür. Bukeramika nümunələri, dövr etibarilə IX-XIV əsrləri əhatə edir. Hal-hazırda ərazi əkin sahəsidir **(Şəkil 10,11).**

İmişli rayonunda arxeoloji kəşfiyyat işləri zamanı qeydə alınmış abidələr, yaşayış yerlərində əldə edilən osteoloji qalıqlar və əmək alətləri qədim sakinlərin əkinçilik və maldarlıqla məşğul olduğunu, xırdabuynuzlu və iribuynuzlu heyvanların maldarlıqla əsas yer tutduğunu təsdiq edir.

М.М.Мустафаев

АРХЕОЛОГИЧЕСКИЕ РАЗВЕДОЧНЫЕ РАБОТЫ, ПРОВЕДЕННЫЕ НА ТЕРРИТОРИИ ИМИШЛИНСКОГО РАЙОНА

РЕЗЮМЕ

Впервые археологические раскопки на территории Имишлинского района были проведены в 2008 году, на памятнике Мухортепе, расположенном в селении Нурулу.

В 2011 году основной целью экспедиции была разведка всех памятников Имишлинского района. В статье нашли отражение географическое расположение памятников, а также технические и типологические характеристики находок, выявленных во время разведочных работ географическое расположение и краткое описание всех средневековых памятников, выявленных до настоящего времени.

На основе изучения материальной культуры и керамических изделий, найденных при раскопках в поселении Бахрамтепе, памятник датировки IV-IX веками.

M.M.Mustafayev

ARCHAEOLOGICAL SURVEY IN THE TERRITORY OF IMISHLI

SUMMARY

For the first time archaeological excavation on the region Imishli it was take in 2008 year, in the monument Muxortepe it was situated by near Nurulu settlement.

This year we archaeoxloration in Imishli all archaeological monuments. In reporte describe geographical placement, also technological and tipological foundations material ascertained out of excavation.

On basis of ivestigations material culture and ceramics producion founded out of excavation, it was archaeometry the settlement Baxramtepe to date IV-IX.

GƏDƏBƏYDƏ ARXEOLOJİ TƏDQİQATLAR
(Gədəbəy rayonu)

T.N.Göyüşova

2011-ci ildə Gədəbəy arxeoloji ekspedisiyası Gədəbəy rayonu ərazisində yeni arxeoloji abidələrin aşkar edilməsi və qeydə alınması üçün kəşfiyyat-axtarış işləri aparmışdır. Nəticədə bölgədə bir neçə yeni abidə qeydə alınmışdır. Bu dəfə əsas kəşfiyyat obyekti arxeoloji və tarixi memarlıq abidələri ilə zəngin olan Gədəbəyin Şınıx və Miskinli bölgəsi olmuşdur. Şınıx bölgəsi Gədəbəy rayonundan təxminən 50 km şimal-qərbdə yerləşir. Düzrəsullu, Çayrəsullu, Göyəlli, Qarabağlar, Sonalar, Kilsəli (indi Turşsu) Qaravəllilər, Hacılar və s. kimi kəndləri əhatə edir.


2010-cu ildə ərazisində bir neçə arxeoloji abidə qeydə aldığımız Göyəlli kəndi ətrafındakı Sonalar, Hacılar, Çayrəsullu, Qarabağlar, Düzrəsullu, Kilsəli kəndlərində arxeoloji kəşfiyyat işləri davam etdirildi. Yüksək dağlıq ərazidə yerləşən bu kəndlərin ərazisi mümkün dərəcədə nəzərdən keçirilmişdir. Nəticədə Qarabağlar kəndində Axınca çayının sol sahilində, kənd xəstəxanası yerləşən ərazidə qədim qəbiristanlıq qeydə alınmışdır. Yerli əhali bu qəbirləri "Alban" qəbirləri adlandırırlar. Qəbirlərin üst daşları yer üstündən aydın görünür. İri sal daşlardan ibarət örtük daşları olan qəbirlər bir birinə yaxın yerləşmişdir. Qəbiristanlıq təxminən 0,5 ha yaxın ərazini əhatə edir.

Qəbirlərin bəzilərinin örtük daşlarının üzərində müxtəlif xaç təsvirlərinin cızılması nəzərə çarpırdı. Qarabağlar kənd sakini Əbdürrəhman Quliyevin (1936 cı il təvəllüdlü) verdiyi məlumata görə 1980-ci illərin əvvəllərində özlərini geoloq alim kimi təqdim edən, milliyyətcə erməni olan bir neçə şəxs çay boyu ərazidəki mövcud qədim qəbirlərin və sal daşların üzərinə xaç təsvirləri cızmışlar.

Daşların üzərinə cızılmış xaç təsvirlərinin yaxın illərdə cızıldığı açıq aydın bilinir. Və o da aydın olur ki, məqsəd onların tarixini və milli mənsubiyyətini saxtalaşdırmaqdır. Kənd sakinlərinin verdiyi məlumata görə dağılmış qəbirlərdən müxtəlif saxsı qablar, bəzək əşyaları, muncuqlar, üzəri yazılı üzük və s. əşyalar əldə edilmişdir. Verilən məlumatlara əsasən dağıdılmış qəbirlərdən əldə edilmiş saxsı qabların içərisindən heyvan sümükləri də aşkar edilmişdir. Yer üzərindən toplanmış saxsı fraqmentləri müxtəlif qablara aid olub, açıq qırmızı, çəhrayı rənglidirlər. Onların bəziləri antik dövr qabları üçün xarakterik olub, əldə formalaşdırılmışdır. Saxsı fraqmentlərinin gilinin tərkibində narın və iri qum qarışığı vardır. Lakin, qəbirlərdə arxeoloji qazıntı işləri aparmadan onların dövrü, dəfn adəti, qəbirlərin plan və quruluşu haqqında fikir söyləmək çətindir.

Gədəbəyin ucqar dağ kəndlərindən biri olan Hacılar kəndinə və ətrafına baxış keçirilmişdir. Hacılar kəndi Gədəbəy rayonundan 35-40 km şimal-qərbdə, dəniz səviyyəsindən 1800 m yüksəklikdə yerləşir. Yerli əhalidən aldığımız məlumata görə Hacılar kəndi ərazisində "Andızdının yanı" adlanan yerdə onların Səngər adlandırdıqları qala mövcuddur. Deyilən əraziyə baxış keçirildi. Məlum oldu ki, bura təbii qayalardan ibarət sədd şəkilindədir və heç bir tikili mövcud deyildir. Bu səbəbdən əhali buranı səngər adlandırır.

Digər tədqiqat obyektimiz Gədəbəyin Miskinli bölgəsi oldu. Bölgə Gədəbəy rayonundan cənubda, dəniz səviyyəsindən 1400-1500 m yüksəklikdə yerləşir. Miskinli bölgəsi Gədəbəy rayonunun Rüstəm Əliyev, Qalakənd, Əlinağılar, Arısu, Plankənd, Səbətkeçməz, Çanaxçı kəndlərini əhatə edir. Bölgədə əsas tədqiqat obyektimiz Qalakənd kəndi oldu. Qalakənd ərazisi Cənubi Qafqazın, o cümlədən Azərbaycanın arxeoloji cəhətdən öyrənilməyə başlanılmış ilkin bölgələrindən biridir. Hələ XIX əsrin sonlarında Simens firmasında çalışan Valdemar Belk Gədəbəydə tədqiq etdiyi 274 qəbirdən 30 ədədi Qalakənddə, 189 ədədini Qalakənd ətrafında, Qalakənd çayı ilə Şəmkir çayı arasında yerləşən və almanların "Paradiz festunq"- Cənnət qalası adlandırdıqları yerdə, 18 ədədi isə Qalakənd çayının yuxarı axarında Qamışlı deyilən ərazidə qazıb [1].



Şəkil 1. Qalakənd və onun ətrafına yaxın olan ərazilərdən, dağılmış qəbir abidələrindən tapılmış, son tunc-erkən dəmir dövrünə aid müxtəlif tunc silah və bəzəklər.



Şəkil 2. Dağılmış abidələrdən əldə edilmiş müxtəlif formalı dəmir xəncərlər.

Gədəbəy arxeoloji ekspedisiyası hesabat ilində Gədəbəyin Qalakənd ərazisinə baxış keçirmiş, ərazinin arxeoloji abidələrinin bu günki vəziyyətini öyrənmişdir. Qalakənd ərazisində mövcud arxeoloji abidələr daş dövrünün mezolit mərhələsinə aid Şorazağa mağarasından, son tunc-erkən dəmir dövrünə aid siklopik tikililərdən Govdu, Qamışlı, Gülxan, Tüklü, eyni dövrə aid daş qutu və kurqan qəbirlərdən, alban dövrünə aid alban xristian məbədlərindən və qəbirlərdən, 16-cı əsrə aid qaladan və yaşayış yerlərindən ibarətdir. Çox təəssüf ki, adları çəkilən bu abidələrin heç birinin üzərində qeydiyyat lövhəsi yoxdur. Arxeoloji abidələrin bu qədər zəngin olduğu ərazidə torpaq təsərrüfat işləri zamanı abidələr dağıdılır, aşkar olunun maddi mədəniyyət nümunələri əhali arasında itib batır.



Şəkil 3. Dağılmış abidələrdən tapılmış son tunc-erkən dəmir dövrünə aid saxsı qablar.

Saydığımız arxeoloji abidələr içərisində ən möhtəşəmi Govdu qalasıdır. Divarları doqquz sırada daşlardan heç bir bərkidici maddədən istifadə olunmadan tikilmiş bu qala öz möhtəşəmliyi ilə digər siklopik tikililərdən kəskin fərqlənir. Govdu

qalası arxeoloji abidə kimi qeydiyyata alınsa da [2, 139] təəssüf ki bu cür qiymətli, arxitektura baxımından mürəkkəb bir abidənin topoqrafik planı çəkilməyib və abidədə heç bir arxeoloji tədqiqat aparılmayıb. Qala sıx meşəliyin içindədir. Çox güman ki meşə burada təbii şəkildə çox sonralar yaranıb. Qeyd etdiyimiz kimi doqquz sırada iri daşlarla hörülmüş (daşların ölçüləri olduqca böyükdür. Bəzi hallarda onların ölçüləri 2x3, 3x4 m qədər, daşların təxmini ağırlığı 3-4 ton, böyük daşların çəkisi isə 6-8 tona qədərdir), salamat qalmış ən hündür divarı 4 metrə qədərdir. Qalanın içərisində də tikinti qalıqları vardır. Qala cənub tərəfdən təbii qaya ilə bağlıdır. Qalanın dairəsinin təxmini uzunluğu 960-1000 metrdir. Qalanın ətrafında və ona yaxın ərazilərdə son tunc-erkən dəmir dövrünə aid onlarla dağılmış daş qutu qəbirlər vardır.

Dağılmış arxeoloji abidələrdən tapılmış materialların bir qismini Qalakənd sakini Məmmədov Bəkir Səməndər oğlu (1952-ci il) toplamağa müyəssər olmuşdur. B.Məmmədovun kolleksiyası əsasən Qalakənd və onun ətrafından dağılmış qəbir abidələrindən eləcə də yaşayış yerlərindən əldə edilmiş arxeoloji materiallardan ibarətdir. Arxeoloji materiallar əsasən son tunc-erkən dəmir dövrünə aid müxtəlif tunc bəzəklərdən, saxsı qablardan, daş bütdən, müxtəlif muncuqlardan və s., orta əsrlərə aid dəmir qılınc, xəncər, bıçaq, müxtəlif saxsı qablar, numizmatik materiallardan və s. ibarətdir.

Qalakənd kolleksiyasının əsasını tunc bəzəklər təşkil edir. Tunc bəzəklər müxtəlif forma və ölçülü qolbaqlardan, gərdənliklərdən, asmalardan, sancaqlardan, sırğalardan, üzüklərdən, muncuqlardan və s. ibarətdir.

Qalakənd kolleksiyasında silahlardan, tunc xəncərlər, tunc, dəmir və obsidiandan hazırlanmış ox ucluqları, nizə ucluqları, təbərzin balta da vardır.

Bəkir Məmmədovun topladığı arxeoloji materiallardan ibarət kolleksiyanın içərisində saxsı qablar da yer almışdır. Onların hamısı dağıdılmış və qarət olunmuş qəbirlərdən əldə edilmişdir. Kənd sakinləri təsərrüfat və tikinti işləri zamanı əldə etdikləri saxsı qabların yalnız bütövlərini saxlamağa üstünlük vermişdir ki, bu da yüzlərlə nadir saxsı məmulatının məhvinə gətirib çıxartmışdır. Kolleksiyada müxtəlif formalı və ölçülü küplər və küpələr, dar boğazlı kuzə, cam və xeyrə tipli qablar da vardır ki, bu tip saxsı nümunələri bölgə üçün xarakterik olan, son tunc-erkən dəmir dövrünə aid qəbirlərdən əldə olunan avadanlıqlar içərisində ən çox rastlanan məişət qablarıdır. Saxsı qablar içərisində ən mühümü isə qara rəngli ağ inkrustasiyalı qabdır. Saxsı qab şar gövdəli olub, ağzı dardır və geriyə qatlanmışdır. Qabın boğaz hissəsindən, və gövdəsindən batıq kanalvari xətt keçir. Qabın gövdəsində iki tərəfdə, başları birləşmiş üçbucaqlardan əmələ gəlmiş sxematik keçi təsviri cızılmışdır. Üçbucaqların içi xırda nöqtələrlə doldurulmuşdur. Digər iki tərəfində isə bir birinin altında olmaqla 3 dairə cızılmışdır.



Şəkil 4. Qalakənd ətrafında ayı talası deyilən ərazidən, dağılmış daş qutu qəbirdən tapılmış insan heykəli (Büt. əhəng daşından hazırlanıb)



Şəkil 6. Qalakənd ətrafından tapılmış numizmatik materiallar.

Yerli əhali arasında Koroğlu qalası kimi tanınmış Qalakənd qalası ərazisindən və ətraf yerlərdən əldə edilmiş orta əsrlərə aid gil butələr, çıraqlar, zoomorf formalı qab hissəsi, gildən düzəldilmiş qəlyanlar, bülöv daşı, möhürlər, tarixin müxtəlif mərhələlərində zərb edilmiş xeyli numizmatik materiallar, çoxsaylı müxtəlif şüşə qolbaqlar, xristian albanlara məxsus dağılmış qəbir abidələrindən və yaşayış yerlərindən əldə edilmiş xaç formalı asmalar, müxtəlif materiallardan hazırlanmış bəzəklər, möhür üzüklər, gümüş və misdən düzəldilmiş sırğalar, tunc qolbaq, üzərində insan və heyvan təsviri olan asma medalyonlar, son orta əsrlərə aid müxtəlif qadın bəzəkləri və s. bir daha onu sübut edir ki Qalakənd ərazisi tarixin müxtəlif dövrlərinə aid müxtəlif növlü abidələrlə və maddi mədəniyyət nümunələri ilə zəngindir.

Arxeoloji materialların tapıldığı Qalakənd kəndinə və ətraf ərazilərə baxış keçirdik. Onların əsasən Qalakənd kəndindən və ətrafından, Qalakənd qalasından və ona yaxın ərazilərdən, Qamışlı, Ayı talası deyilən ərazidən, Arısu, Səbətkeçməz, Çanaxçı, Çaldaş kəndlərindən dağılmış qəbir abidələrindən, yaşayış yerlərindən tapıldığı müəyyən edildi. Adı çəkilən bu yerlərdə hələ də öz tədqiqini gözləyən onlarla abidə mövcuddur. Onlar əsasən son tunc erkən dəmir dövrünə aid müxtəlif tipli qəbir abidələrindən, qala və qalaça tipli yaşayış yerlərindən, qədim Alban məbədlərindən və s. ibarətdir.

Ən acınacaqlı vəziyyət isə ərazidə yerləşən Qədim xristian məbədlərinin bu günki vəziyyətidir. Qalakənd ərazisində Şamlıq, Qovdu Alban məbədləri olduqca bərbad vəziyyətdədir. Hər iki məbədin bünövrəsi qızılaxtaranlar tərəfindən eşilərək, divarları sökülərək, günü gündən dağıdılır. Gədəbəy ərazisində yerləşən, Qafqaz Albaniyasının ən gözəl memarlıq abidələrindən sayılan onlarla məbəd və kilsələrin bu gün yer üzündən silinmək təhlükəsi vardır.

Qeyd etdiyimiz kimi, 19-cu əsrin sonlarında Qalakənd və ətraf kəndlərdən əldə edilmiş zəngin maddi mədəniyyət nümunələri, xüsusən də tunc əşyalar, müxtəlif bəzəklər, silahlar, kəmərlər, o cümlədən tarixin müxtəlif dövrlərini müxtəlif tip arxeoloji materiallarla təmsil edən Bəkir Məmmədovun Qalakənd kolleksiyası və bu gün də tədqiqini gözləyən onlarla arxeoloji abidələr bir daha onu sübut edir Gədəbəy xüsusən də Qalakənd kəndi və onun ətrafı tək Azərbaycanın deyil, bütövlükdə Qafqazın əsas sivilizasiya mərkəzlərindən olmuşdur.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyev cənablarının sözləri ilə desək "Gədəbəyin çox gözəl təbiəti və çox gözəl iqlimi var. Burada turizmin inkişafı üçün çox böyük işlər görmək olar. Mən hesab edirəm ki əgər biz bu məsələlər üzərində səmərəli işləsək, qısa bir müddət ərzində bu gözəl diyar turistlər üçün çox cəlbedici ola bilər". Bu qədər zəngin tarixə, memarlıq abidələrinə, gözəl iqlimə malik, turizm potensialı bu qədər yüksək olan Gədəbəydə turizmin inkişaf etməsi üçün ilk növbədə arxeoloji, tarixi, memarlıq abidələrinin qorunmasına, tədqiqinə və bərpasına böyük ehtiyac vardır.

ƏDƏBİYYAT

1. Nagel V.,Ştrommenger Y. Qalakənd Cənubi Qafqazın Kirovabad (Yelizavetpol) ərazisində erkən dəmir dövrünün arxeoloji tapıntıları. Bakı 1999 (F.Abbasovanın tərcüməsi).
2. Тавакkул Расулоглы. Циклопические сооружения на териитории Азербайджана. Баку 1993.

Т.Н.Гёюшева

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ В ГЯДАБЕЕ

РЕЗЮМЕ

Гядабейская археологическая экспедиция проводила разведочные работы в районе, в частности, на территориях Шыных и Мискинли.

В результате были обнаружены и зарегистрированы новые археологические памятники. Территория Шыных расположена в северо-западной части района и охватывает села Дюзрасуллу, Чайрасуллу Гёйалли, Гарабаглар, Соналар, Гараваллилар, Гаджилар и др. На территории села Карабаглар, на левом берегу реки Ахынджа обнаружен древний могильник. Местное население эти могилы называет «албанскими».

Перекрытия некоторых погребений заметны на поверхности земли. На некоторых камнях перекрытий погребений заметны вырезанные крестики. По сведениям жителя деревни Карабаглар эти кресты были вырезаны геологами в 80-е годы XX века. Подъёмный материал, в основном, состоит из керамики античного периода.

Гядабейская археологическая экспедиция обследовала так же территорию памятника Калакенд. Большая часть памятника разрушена в результате хозяйственных работ. Житель села Калакенд успел собрать некоторые артефакты. В его коллекции, в основном, металлические изделия (браслеты, подвески, булавки, серьги, кольца, секиры, кинжалы, наконечники стрел и копья), керамика (кюпы, чаши, кувшины и др.), украшения и каменное изваяние. Нами было определено, что большинство материалов из коллекции Б.Мамедова собраны из Калакенда, Камышлы, Арысу, Сябаткечмаз и с территории Айы таласы.

T.N.Geyusheva

ARCHEOLOGICAL EXCAVATIONS IN GADABAY

SUMMARY

Gadabay expedition were taken away search works for register and finding out new archaeological monuments in area Gadabay region in September in 2011.In result there are registered some monument in region. This time mostly secret service object and archaeological and historical architecture monuments being rich in Gadabay's Shinikh and Miskinli villages. Shinikh district is situated from Gadabay region in North-West. It is round as Duzrasullu, Chayrasullu, Goyalli, Garabaglar, Sonalar, Garavallilar, Hajilar etc. villages. In result there was registered ancient graveyard in Garabaglar village, left side of Akhinja river in the area of next to village hospital. Native people names this graves as "Alban" graves. Graves top stones is seems from place. The graves which consists of big drop stone, cover stones graves is settles near to each other.

There was attracted various drawn cross descriptions on some graves cover stones.

The information getting by inhabitant of Garabaghlar village Abdurrahman Guliyev, beginning of 1980 years there were some people which their nationality was armenian but they pretend them as scientist and descript some crosses on the graves.

Faience fragments gathered from land was about various dishes have pink and light red. Some of them are about characterized for antique age dishes, formalized by hand. In the content of faience fragments' clay was fine and big sound mixtures.

Gadabay archaeology expedition done inspection in Gadabay's Galakand area studied area's archaeological monument situated today in report year. During land, economy works monuments ruins found material culture examples loses among people in the area which there is rich with archaeological monuments.

But some part of materials gathered (1952) by resident Mammadov Bakir Samandar oglu in Galakand. The collection of B.M.Mammadov majorly consist of archaeological materials getting by living place Galakand and by its ruined. Archaeoogical materials mainly has about Last Bronze Age – Early Iron Age various bronze decorations (bracelet, dewlap, halter, starboards, earrings, rings, beads etc) weapons (axes, swears, arrows tips.) pottery dishes (pitcher, glass etc.) stone, various beads (agate, pastas, clay) etc about Middle Ages Iron swear, knife, various pottery dishes, numismatic materials, glass bracelets etc.

BEYNƏLXALQ EKSPEDİSİYALAR

МЕЖДУНАРОДНЫЕ ЭКСПЕДИЦИИ
INTERNATIONAL EXPEDITIONS



MENTEŞ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR
(Tovuz)

Fərhad Quliyev və Bertille Lyonnetin
rəhbərliyi ilə
Fransa heyəti - L. Bouquet, G. Bruley-Chabot, L. Pecqueur, P. Raymond, A. Samzun M. Poulmarc'h və
Azərbaycan heyəti – O.Zamanov, Y.Məmmədov, V.Ələkbərov, Ş.Səlimbəyov M.Mirqədirov, S.N.İbrahimli, E.Muradova, A.Əliyeva

Giriş

Son dörd il ərzində Menteş qədim yaşayış yerində aparılmış arxeoloji qazıntılar özündə son neolit və ilk tunc dövrlərini əks etdirən Cənubi Qafqazda mükəmməl bir yaşayış yerini üzə çıxardı. Qazıntılardan aşkar edilmiş materialların (sümük alətlər, iri daş alətləri, bitki qalıqları, metal əşyalar və keramika məmulatı) və həmçinin yaşayış yeri ətrafında geomorfoloji analizlərin ilkin araşdırmalarının nəticələri hesabatmızda öz əksini tapmışdır.

Burada üç əsas dövr aşkar edilmişdir. Buna görə də Menteş qədim yaşayış yeri Cənubi Qafqazda xüsusi özəllikləri ilə seçilən arxeoloji abidə hesab edilir. Bu ondan irəli gəlir ki, Menteş abidəsində son neolitdən – ilk tunc dövrünə qədər heç bir fasilə olmadan uzun bir yaşayış dövrü müşahidə edilmişdir. Dövrlər müvafiq olaraq üst təbəqədən alt təbəqəyə qədər ardıcıllıqla davam etmişdir.

1. Kür – Araz dövrü

Qədim yaşayış yerinin 1970-ci illərdə dağıntıya məruz qaldığı aşağı təbəqəsinin öyrənilməsi prosesi başlanıldı. Dağıntılar olduğu üçün heç bir memarlığ qalığına rast gəlinməsə də, abidənin alt təbəqələrinə qədər qazılmış sahələrdə aşkar edilmiş arxeoloji materiallar Kür-Araz və eneolit dövrlərinə aid idilər. Aparılmış radiokarbon analizlərinin nəticələri göstərir ki, qazıntı sahəsinin bu hissəsi e.ə. III minilliyin II yarısına aiddir.

Bu il aparılan çöl tədqiqat işləri zamanı ikinci kurqanın qazıntılarına da start verilmişdir. Bu kurqan 2008–2009 cu illərdə qazılmış kurqandan təqribən 15 m aralıqda yerləşir. Kurqanın üst təbəqəsində mövcud olan iri sal daş parçaları demək olar ki, toxunulmamış olaraq qalmışdır **(şək. 1)**. Bu il aparılmış tədqiqat işlərinin başlıca hədəfi kurqanın üst hissəsində olan daş parçalarından təmizləmək olmuşdur. Bundan əlavə kurqanın ölçüsünü və yaşayış yerinin içərisinə doğru nə qədər daxil olduğunu müəyyən etməkdən ibarət olmuşdur **(şək. 2)**. Kurqanın hansı dövrlə bağlı olduğu radiocarbon analizlərdən sonra müəyyən ediləcəkdir.


Kalkolit (Eneolit) Dövrü

Bu dövrə aid olan təbəqə başlıca olaraq çiy kərpiclərdən tikilmiş düzbucaqlı formalı tikililərindən ibarətdir. Çiy kərpiclərdən ibarət olan divar qalıqları təqribən 50 sm hündürlükdə qalmışdır. Buradan bir neçə iri həcimli küplər, təsərrüfat quyuları, çoxlu sayda ocaq yerləri və sobalar aşkar edilmişdir. Sobalar (1x0,7 m) düzbucaqlı formasındadır, divar qalıqlarına əks istiqamətdə yerləşirlər. Ocaq yerləri isə dairəvi formalıdır (0.5 və bəzən də 1.5 m diametrində) və onların döşəmələri adətən çay daşları yaxud da gil və keramika parçaları ilə örtülüdür. Kənarları isə gil ilə suvanmışdır.

Qazıntı sahəsinin cənub-qərb hissəsində üç dairəvi formalı ocaq yeri (çox güman ki, keramika bişirmək üçün sobadır) çoxlu sayda keramika parçaları ilə birlikdə rast gəlinmişdir. **(şək. 3)**. Lakin təəssüf ki, ikinci kurqan öz dövründə yaşayış yerinin üzərində salındığı üçün qazıntı sahəsinin bu hissəsi nisbətən dağılmışdır.



Şəkil 1. İkinci kurgan.





Şəkil 2. Kalkolit (Eneolit) təbəqələri.

Düzbucaqlı tikilidən əvvəl, dirək yerləri olan təbəqə aşkar edilmişdir **(şək. 4)**. Bu təbəqə bir neçə təsərrüfat quyuları və xeyli iri dairəvi ocaq yerlərindən ibarətdir, bunlardan biri təsərrüfat quyusunun alt hissəsində, digəri ona bitişik və üçüncüsü isə düzbucaqlı sobanın alt hissəsində yerləşir.

2. Son Neolit və Erkən Kalkolit (Eneolit) Dövrü

Keramika parçaları ilə birlikdə aşkar edilmiş bir neçə qat dairəvi tikililərin üzə çıxarılması bizim üçün çox əhəmiyyətli tapıntı olmuşdur. Həqiqətən, 2009 cu ilin qazıntıları zamanı dairəvi tikilinin bir hissəsi aşkar olunmuşdur, lakin, tikili ilə əlaqəli heç bir material qalıqları üzə çıxarılmamışdır.

Qazıntı zamanı aşkar edilmiş divarlar dağılmış formada təqribən 0,30 m hündürlükdə qalmışdır və onların kərpicdən yaxud da gildən tikildiyini müəyyən etmək çətindir. Tikililərin diametri 3–6 m diametrləri arasında fərqlənir. Dən daşları istisna olmaqla, az sayda material qalıqları yerində aşkar edilmişdir.



Şəkil 3. Üç iri ocaq yeri.



Şəkil 4. Çiy kərpic divarlarından ibarət düzbucaqlı tikili altında aşkar edilmiş üzərində sütun dirəkləri olan təbəqə.



Şəkil 5. Aşağı təbəqədə mövcud olan dairəvi tikililər.

Qazıntı zamanı uşaq qəbirin aşkar edilmişdir. Bu qəbir dairəvi tikili divarının içəri hissəsi boyunca yerləşir lakin, digər bir dairəvi divar ilə örtülmüşdür. Burada heç bir çuxur aşkar edilməmiş və qəbirin üst hissəsi çox güman ki, ağac budaqları ilə örtülmüşdür, çünki, burada skeletin üst və ətraf hisələrində xeyli sayda həmin ağacın meyvələrinin çürüntüləri rast gəlinmişdir. Qəbir kamerasında baş tərəfdə donuzun çənə sümüyünün bir hissəsi ayaq tərəfində isə sümükdən biz alət aşkarlanaraq üzə çıxarılmışdır. Qeyd etmək lazımdır ki, Cənubi Qafqazda bu dövrlə bağlı qəbirlərin aşkar olunması çox nadir hadisədir. Sümüklər üzərində antropoloji analizlər aparılmışdır.

Aşkar olunmuş materialların tədqiqatları

Sümükişləmənin ilkin araşdırmaları

Menteş təpə abidəsində dörd il müddətində aparılmış qazıntılar zamanı 37 ədəd sümükdən (heyvan) olan material aşkar edilmişdir. Bu il üzə çıxarılmış daha aşağı qatlarda çox güman ki, sümükdən olan əşyalara və alətlərə rast gəlinmişdir. Onların əksəriyyəti (24) uzun sümüklərdən hazırlanmışdır. 9 ədəd kəsici və küt alətlər üzə çıxarılmış, onlardan üçü iri heyvanların bel sümüyündən hazırlanmış çömçələr, bunlardan biri Eneolit dövrünə aid sobada aşkarlanmışdır. Qeyd etmək lazımdır ki, sümük alətləri üzərində çox tez tez hallarda oxraya rast gəlinmişdir.

1- <u>İri daş alətləri</u>

Menteş təpə abidəsində dörd il müddətində aparılmış qazıntılar zamanı əsasən (Kalkolit) Eneolit təbəqələrində 225 ədəd daş alətləri aşkar edilmişdir. Həmin daş alətlər 20 növdə olmaqla yanaşı dən daşı, sürtmək və əzmək kimi müxtəlif faliyyətləri özündə əks etdirir. Bəzi alətlər üzərində (işlənmə texnologiyaları, üzərindəki oxra izləri və s) analizlər aparılmışdır. Müxtəlif növ daşlar yığılaraq toplanmış və onların əksəriyyəti yaxın ətraf ərazilərdən gəlmişdir (10 km). İki ədəd cilalanmış balta və bir neçə əl üçün nəzərdə tutulmuş kiçik dən daşları istisna olmaqla, alətlərin əksəriyyəti çox az formada cilalanmışdır.



Şəkil 6. Həvəngdəstə.



Şəkil 7. Cilalamaq və yonmaq üçün alət.



Şəkil 8. Əhəngdaşı.

56 ədəd dən daşları alətləri və onların arasında 15 ədəd əl üçün nəzərdə tutulmuş kiçik dən daşları və 27 ədəd bülöv daşı müəyyən edilmişdir. Qısa və bir tərəfi düz olan iki növdə dən daşları təyin edilmişdir. Onlar müxtəlif ölçülərdə və texnoloji cəhətdən çox fərqlilik nümayiş etdirir, lakin, onların funksiyasının və xronologiyasının fərqli olub olmadığı barədə hələ heç bir məlumatımız yoxdur. Əl üçün nəzərdə tutulmuş kiçik dən daşları adətən dən üyütmək üçün istifadə olunurdu.

2 ədəd həvəngdəstə aləti (biri qranit digəri isə əhəng daşından) və metamorfik qaya parçalarından hazırlanmış 40 ədəd həvəngdəstə tutacağı **(şək. 6)** da aşkarlanmışdır. Bunlardan 5–i üzərində xüsusi analizlər aparılmışdır: onlardan ikisi bitkilərin istehsalında istifadə olunmuş və digər ikisi isə oxra kimi rəngli materiallların hazırlanmasında istifadə olunmuşdur.

Metamorfik qaya parçalarından hazırlanmış çəkic funksiyasını həyata keçirən daş alətlərin əksəriyyəti əl üçün nəzərdə tutulmuş kiçik dən daşlarının və digər daş alətlərin cilalanmasında və hazırlanmasında istifadə olunmuşdur.

Çox az sayda sürtmək və cilalamaq üçün alətlər aşkar edilmişdir.Üzəri cilalanmış 24 ədəd çay daşı aləti gil əşyaların hazırlanmasında və çox güman ki, alətlərin itilənməsində və cilalanmasında istifadə olunmuşdur **(şək. 7)**. 4 ədəd əl daşı alətləri aşkar edilmişdir (heyvan dərisi və bitki liflərinin istehsalı üçün).

Nəhayət, bir neçə ədəd iri çay daşları və ağız hissəsi cilalanmış bazalt daşları da qazıntılar zamanı aşkar edilmişdir. Onlardan biri tiyə uclu daş aləti parçasıdır ki, bu da əhəng daşı alətlərinin hazırlanmasında istifadə olunmuşdur.

Qazıntı sahəsindən əhəng daşından giriş oyuqları, xeyli sayda kiçik qabların bir neçə fraqmentləri **(şək. 8)** və bir neçə bəzək əşyaları aşkar edilmişdir.

2- Bitki qalıqlarının ilkin araşdırmaları

Bitki qalıqları bitkinin toxumları və meyvələri və həmçinin kömür parçaları tərkibində bitki çürüntülərindən ibarətdir. Yabanı olmayan (yeməli) bitkilərin analizləri əkin – biçindən sonra bitkilərin istifadəsinin incəliklərini müəyyən edəcəkdir. Yabanı bitkilərin digərlərindən ayırd edilməsi yaşayış sahəsi ətrafında höküm sürmüş ətraf mühitin araşdırılmasına şərait yaradır. Aşkar edilmiş bitki qalıqlarının əkəriyyəti kömürləşmişdir və ocaq yerləri, çuxurlar, silos quyuları və tikililərin döşəmələri üzərindən yığılaraq toplanmış torpaq qatlarının yuyularaq təmizlənməsi nəticəsində əldə edilmişdir. Müxtəlif bitki növlərinin izləri gil və keramika parçaları üzərindən müəyyən edilmişdir. Ümumilikdə 1826 litr torpaq qatlarının yuyulması nəticəsində 147 ədəd müxtəlif nümunələr aşkar edilmişdir. Bunların əksəriyyəti 2011 ci ilin qazıntılarından əldə edilmişdir.

Analizlər hələ sona yetməmiş lakin, burada arpa, buğda və mərci bitki növlərinin yeməli bitki növləri olmalarını qeyd etmək istərdik.

3- <u>Metaldan olan materialların tədqiqatı</u>

2011 ci ilin qazıntıları zamanı Menteş təpədə 36 ədəd metaldan olan məmulatlar üzə çıxarılmışdır. Bunlar əsasən bizlər, iki ədəd funksiyası müəyyən olmayan alət, bir ədəd üzük parçası, bir neçə ədəd filiz parçaları, üç ədəd dalğavarı üzük, bir ədəd yastı formalı bəzək əşyası və iki ədəd metal ərintisindən sonra qalan qalıqlardan ibarətdir. Aşkar edilmiş əşyaların əksəriyyəti Eneolit (Kalkolit) təbəqələrindən müəyyən edilmişdir. Yalnız dalğavarı üzüklər Kür–Araz dövrünə və bir ədəd yastı formalı bəzək əşyası ikinci kurqana aid edilə bilər.

Boxum Laboratoriyaında aparılmış analizlər yalnız 2008 və 2010-cu illərin tapıntılarına şamil edilir. EDS və ICP-MS analizləri göstərir ki, tapıntıların əksəriyyəti əridilməmiş misdən ibarətdir. Yalnız üç metal nümunəsinin (iki ədəd biz və funksiyası bəlli olmayan metal əşya) arsenik metal növü olduğu göstərilir (1,2 to 3,57% As). Digərinin tərkibində yüksək dərəcədə kükürdün olduğu məlumdur (8,1% S). Menteş təpədən aşkar edilmiş metal əşyaların üzərində müəyyən edilmiş xarakterik elementlər dəmir (Fe), qurğuşun (Pb), nikel (Ni) və sürmə (Sb) elementlərinin olmasıdır.

4- <u>Alt təbəqədən aşkar edilmiş keramika nümunələri</u>

2011-ci ilin qazıntıları zamanı Menteş təpədən təqribən 10.000 ədəd keramika parçaları aşkar edilmişdir (əsasən dairəvi memarlıq tikililərindən üzə çıxarılmış keramika nümunələridir).

Bu nümunələr iki cür qruplaşdırılır. Birinci qrup Şomutəpə–Şulaveri, ikinci qrup isə Əlikömək təpə ilə yəni Muğan Düzü ilə əlaqəlidir **(şək. 9-10-11).**



Şəkil 9. Alt təbəqədən aşkar edilmiş keramika nümunəsi.



Şəkil 10. Alt təbəqədən aşkar edilmiş keramika nümunəsi.




Şəkil 11. Alt təbəqədən aşkar edilmiş keramika nümunəsi.

5- <u>Orta Kür boyunca Geomorfoloji tədqiqatlar</u>

Geomorfoloji tədqiqatların əsas hədəfi Kür çayı və Ağstafa çaydan Şəmkir çaya qədər Kürün bütün qollarına Xəzər dənizinin müdaxilə edib etmədiyini araşdırmaqdan ibarət idi. Çayların öz mövqeyini dəyişdirdiyi dövrü müəyyən etmək məqsədilə müxtəlif terraslardan 25 ədəd kömür qalıqları toplannmış və əvvəlki ilərdə yığılan nümunələrə əlavə edilmişdir. İlkin araşdırmalar göstərir ki, Xəzər dənizi ilə çayların öz mövqeyini dəyişməsi arasında bir əlaqə olmuşdur. **(şək. 12).** Yer səthinin landşaftında baş vemiş dəyişikliklər də həmçinin yaşayış sahələrinin yerləşmə mövqeyinin dəyişməsinə də təsir göstərmişdir.

E.ə. VI-III-cü minilliklərdə mövcud olmuş yüksək dəniz səviyyəsi hündür çay səviyyələrini əmələ gətirmiş və nəticə etibarilə Kiçik Qafqaz Sıra Dağlarının ətəyində iri torpaq yığınları təbii olaraq su ilə yuyulmuşdur. Əksər Neolit dövrü qədim yaşayış məskənləri burada yerləşir.

Eneolit dövrü yaşayış məskənləri isə adətən çay axınından nisbətən aşağı səviyyədə aşkar edilmiş və əksəriyyəti qalın torpaq qatları ilə örtülmüşdür.



Şəkil 12. Xəzər dənizinin səviyyələri (mavi) və çayların gətirdiyi əlaqəli təbəqələr (sarımtıl-qəhvəyi).

АРХЕОЛОГИЧЕСКИЕ ИССЛЕДОВАНИЯ ДРЕВНЕГО ПОСЕЛЕНИЯ МЕНТЕШ

под руководством

Фархада Гулиева и Bertille Lyonnet

Французская делегация – L. Bouquet, G. Bruley-Chabot, P. Raymond, A. Samzun, M. Poulmarc'h и

Азербайджанская делегация – О.Заманов, Я.Мамедов, В.Алекперов, Ш.Салимбеков, М.Миргадиров, С.Н.Ибрагимли, Э.Мурадова и А.Алиева

РЕЗЮМЕ

Археологические раскопки, проведенные за последние четыре года на месте древнего поселения Ментеш выявили поселение на Южном Кавказе, охватывающее периоды позднего неолита и ранней бронзы. В статье нашли отражение итоги первоначальных исследований, обнаруженных во время расскопок, материалов и геоморфологического анализа прилегающей к поселению территории.

На поселении выявлены три основных периода. Поэтому Ментеш считается археологическим объектом, отличающимся на Южном Кавказе своими особенностями. Долгое и непрерывное заселение поселения продолжалось, начиная с Позднего Неолита до Ранней Бронзы.

ARCHAEOLOGICAL INVESTIGATION AT ANCIENT SETTLEMENT OF MENTESH

Directed by Farhad Guliev and Bertille Lyonnete

French team - L.Bouquet, G.Bruley-Chabot, L.Pecqueur, P.Raymond, A.Samzun M.Poulmarc'h and

Azerbaijan team – O.Zamanov, Y.Mammadov, V.Alakbarov, Sh.Salimbayov M.Mirqadirov, S.N.İbrahimli, E.Muradova and A.Aliyeva

SUMMARY

Over the last four years of archaeological investigation at ancient settlement of Mentesh in the Neolithic and early Bronze Age periods revealed a perfect place of settlement in the South Caucasus. The results of materials found in excavations (bone tools, a large stone tools and the remains of plants, metal objects and ceramics) as well initial research of morphological analysis along the settlement was reflected in our report.

The three main periods have been found here. Therefore, ancient settlement of Mentesh is considered an archaeological monument which is characterized by special features in the South Caucasus. This is due to the fact that there was a long period of accommodation without a break from the last Neolithic period until the Early Bronze Age in Mentesh monument. Respectively, from the upper layer to the lower layer has a sequence of periods.

OĞLANQALADA AZƏRBAYCAN–AMERİKA BİRGƏ ARXEOLOJİ QAZINTILARI

(Şərur rayonu)

L.Ristvet, H.Gopnik,
V.B.Baxşəliyev, S.H.Aşurov



Şəkil 1: Oğlanqalanın Qızqaladan görünüşü. Şimal istehkamlar və şimal-qərb bürcü təpədə görünür. Narınqala təpənin zirvəsində yerləşir.

50 hektar sahəni əhatə edən Qaratəpə dağı üzərində yerləşən Oğlanqala, Dəmir dövründə Naxçıvanda ən böyük, Cənubi Qafqazda isə böyük qalalardan biri olmuşdur (şək. 1). Abidənin yerləşdiyi ərazi kənd təsərrüfatı üçün böyük əhəmiyyətli və Naxçıvanın ən məhsuldar ərazisi olan, öz başlanğıcını Kiçik Qafqaz dağlarından götürən Arpaçayın keçdiyi Şərur düzənliyini nəzarətdə saxlamaq baxımından olduqca əhəmiyyətlidir. 1988-1989–cu illərin qazıntıları zamanı Erkən və Orta Dəmir dövründə Oğlanqalanın bu ərazidə mühüm siyasi mərkəz olması ilə bağlı inkaredilməz dəlillər aşkar olunmuşdu (5). 2008-2011–ci illərdə apardığımız qazıntılar nəinki bu ilk mülahizələri təsdiq etdi, həmçinin göstərdi ki, Oğlanqala Erkən Dəmir dövründə müstəqil dövlətin paytaxtı olmuşdur. O, qonşu Urartu dövləti ilə iqtisadi və mədəni əlaqələr saxlamış, Əhəməni imperiyasının dağılmasından sonrakı yüzilliklərdə güclü müdafiə sistemi ilə əhatə olunmuş şəhər-dövlətin paytaxtı olmuşdu (28; 29; 7).

Oğlanqalada qazıntılar zamanı biri müasir, dördü qədim olmaqla beş arxeoloji dövr müəyyən edilmişdir. Bu ərazi Erkən Dəmir dövründə - V dövrdə - e.ə. 1200-800–cü illər ərzində məskunlaşdırılmışdır. Lakin, narınqalanın tikinti xüsusiyyətləri Orta Dəmir dövrü ilə tarixləndirilir. IV dövr e.ə. 800-600–cü illərə, yaxud Dəmir dövrünün sonuna, III dövr isə e.ə. 400 – 250–ci illərə aid edilir. E.ə. 200 və bizim eranın 100–cü ilində (II Dövr) dağın böyük hissəsi müdafiə divarları ilə möhkəmləndirilmiş şəhərə çevrilir. Ehtimal ki, bu dövrdə şəhər Olane adı ilə tanınmış və Strabonun (26) "Coğrafiya" əsərində xatırlanmışdır. Nəhayət müvəqqəti tikililər, keramika məmulatı, Orta əsrlər və müasir dövrlə tarixlənən qəbirlər, Elxanilər dövrünün şüşə qabları (Ib Dövrü), Rusiya imperiyasının mis pulları (Ia Dövrü) yaşayış yerinin böyük bir hissəsini əhatə edir (13-cü əsrdən XX əsrədək) (tab. 1).



Şəkil 2: Kurqan təpəsinin Oğlanqaladan görünüşü.



Şəkil 3: Kurqanda dəfn kromlexi.

Kurqan

20011-ci il mövsümündə məqsədimiz Oğlanqaladan 100 m şimal-qərbdə yerləşən kiçik təpəni qazmaqdan ibarət idi (şək. 2). Təpə ətraf ərazidən təqribən 2 m hündürlükdə yerləşir və diametri 65 m-dir. 2008-2009-cu illərdə aparılan ilkin araşdırmalar zamanı Xocalı-Gədəbəy mədəniyyətinə aid keramika məmulatı və bir quş fiquru aşkar etmişdik, onlar Azərbaycanın digər abidələrindən aşkar olunan materiallarla oxşardır və Erkən Dəmir dövrünə aid edilirlər (30). Nəticədə bu təpənin ya kurqan, ya da qəbirlər ola biləcəyini ehtimal etmişdik. Təpənin qazılması xüsusilə önəmli idi. Çünki o qalanın tikilməsinin ilk dövrü ilə tarixlənirdi (Oğlanqala V). Burada dəfn edilənlər haqqında məlumat əldə etməklə biz Oğlanqalanın kimlər tərəfindən tikildiyini, nə üçün bu qədər böyük tikintinin aparılması haqqında məlumat əldə edə bilərdik. Qazıntı zamanı diametri 3 m olan böyük bir kromlex aşkar edildi. O, Qafqazın digər yerlərindən aşkar olunmuş analoji abidələri xatırladırdı (şək. 3). Bu kromlexin qazıntısı zamanı V Dövrə aid olan keramika parçaları və dörd quş fiquru aşkar olundu. Onların paralelləri Naxçıvanın digər abidələrindən də məlumdur. Bəzi yerlərdə qazıntı 2, 5 m dərinliyədək davam etsə də heç bir skelet qalığı aşkar edilmədi.

Şimal və Qərb istehkamları

2011-ci il mövsümündə ikinci əsas məqsəd Oğlanqalanın şimal bürcü yaxınlığındakı istehkamları açmaqdan ibarət idi. 2010-cu ildə şimal-qərbdəki dairəvi bürcün şimal divarının təməlindən götürülən kömür analizi bu müdafiə istehkamlarının təqribən e.ə. 800-cü ildə inşa olunduğunu göstərmişdi. Bu şurfda tapılan beş ədəd keramika parçası, ehtimal ki, bu istehkamların tikildiyi dövrdən əvvələ aid idi. Bu o deməkdir ki, Oğlanqalanın istehkamları Urartunun Anadoluda möhkəmləndiyi (təqribən e.ə. 850-600-cü il), Qafqazda və Şimal-Qərbi İranda (34) hərbi əməliyyatlar apardığı dövrdə tikilmişdir. Bizi tapıntılarla yanaşı daha çox müdafiə istehkamları maraqlandırırdı. Oğlanqalanı inşa edənlər qalanı tikərkən Erkən Dəmir dövrü texnikasından, yoxsa öz nüfuzlu qonşuları olan Urartuların tikinti texnikası və üsullarından istifadə etmişdilər? Urartu istehkamları fövqəladə dərəcədə standartlaşdırılmışdır, onlar müntəzəm möhkəmləndirmə, yonulmuş daşlardan ibarət və standart ölçülü kərpic tikinti xüsusiyyətləri ilə xarakterizə olunur (11; 12; 13; 14; 33). Ehtimal ki, Urartulular dövlətin daimiliyini təmin etmək üçün imperiya ərazisindəki bütün istehkamların tikintisini oxşar layihələşdirmişlər.

Oğlanqalanın tədqiqi zamanı şimal istehkamlarının bu xüsusiyyəti 215 metrlik məsafədə izləndi (şək. 4). Araşdırmalar göstərdi ki, Oğlanqalanın istehkamları Dəmir dövrünün erkən mərhələsinin tikintilərini xatırladır. Lakin,, ola bilsin ki, Urartunun bəzi tikinti xüsusiyyətləri də təqlid edilmişdir. Urartu divarlarının düz və dördküncü, topoqrafiyaya uymayan xüsusiyyətlərindən fərqli olaraq Oğlanqala istehkamları Qaratəpə dağının topoqrafiyasına uyğun olaraq inşa edilmişdir. Şimal divarlarının araşdırılması ciddi düşünülmüş, lakin, bəzən qeyri-müntəzəm möhkəmləndirilmiş istehkamları ortaya çıxardı. Uzunluğu 7 m, eni 4 m olan divarın qərb tərəfinin təməli kifayət qədər davamlıdır. Onlar bir-birindən 15 m aralıda idi. Lakin, şərqə doğru bu nümunə qırılır. Möhkəmləndirilmiş divarlar əvəzinə qeyri-müntəzəm işlənmiş divar ziqzaqları ortaya çıxır. Möhkəmləndirilmiş divarların Urartu arxitekturasının xüsusiyyəti olmasına baxmayaraq, onların bənzərləri Cənubi Qafqazın Dəmir dövrü arxitekturasında da mövcuddur. Beləliklə, hələlik bu tikinti xüsusiyyətinin öz qaynağını haradan götürdüyü məlum deyil. Bu tip güclü künc divarları qonşuluqda olan Qızqalanın divarları ilə bənzərdir. Böyük ehtimalla, Qızqala şimaldan yürüş edənlərdə ilk görunuşdə Oğlanqalanın təsirini bağışlamalıydı. Qalanın şimal istehkamlarının özünəməxsusluğunu qeyd etməklə bu istehkamların tam bənzərinin məlum olmadığını qeyd etmək lazımdır.

Şimal istehkamlar blok halına salınmış əhəngdaşı parçalarından inşa edilmiş, daş blokların arasındakı boşluqları doldurmaq və divarı düzəltmək üçün isə kiçik həcmli daşlardan istifadə edilmişdir (şək. 5). Divarın müxtəlif hissəsindəki daşlar səliqə ilə düzülmüş, yonulmamış daşlardan ibarətdir. Lakin, divarın bəzi hissələrində, xüsusilə ŞQ-C, ŞQ-N, ŞQ-O, və ŞQ-Z divarlarında əhəngdaşı parçalarının boyük hissəsi kvadrat və düzbucaqlı blok şəklində yonulmuşdur. Digər hissələrdə isə, xüsusən ŞQ-U və ŞQ-V divarlarında bir qədər yonulmuş və yonulmamış daşlardan istifadə edilmişdir. IV Dövrdə divarlara yaxşı yonulmuş küncləri olan daşlar hörməmiş və ehtimal ki, bu hissələr zəif olduğundan eroziyaya tez məruz qalmışdır. Divar boyunca istifadə olunan kiçik həcmli daşların da miqdarı dəyişmişdir. Bu müdafiə divarı ana qaya üzərində

tikilmiş, bununla belə müxtəlif tikinti üsullarından istifadə edilmişdir. Divar inşa edilməzdən əvvəl təməldəki otlar yandırılmış və buna görə də birbaşa divarların altında tünd boz rəngli kül layı saxlanmışdır. Təməlin üzərindəki bitki örtüyünün yandırılması əhəngdaşının keyfiyyətini dəyişdirmiş və onların üzərində daş ovuğu və çatlaqlar qalmışdır. Bundan sonra bənnalar əhəngdaşı bloklarını təməlin üzərinə qoymaq və müxtəlif üsullardan istifadə etməklə səviyyəni düzəltməyə və düzgün səth almağa çalışmışlar. Divarların müxtəlif hissələrində fərqli düzəltmə üsulları ilə rastlaşmaq mümkündür. Əvvəlcə yaxşı qarışdırılmış möhkəm gil qatı divarların təməlinə qoyulurdu. Alternativ olaraq, bir neçə cərgə kərpic təbii tikinti təməli düzəltmək üçün istifadə edilirdi. Bəzən böyük blokların altı kiçik həcmli daşlarla düzəldilir, bəzən isə daş bloklar birbaşa qayanın üzərinə qoyulurdu. Urartu qalalarında olduğu kimi təməl üçün birbaşa qayanın oyularaq düzəldilməsinə heç vaxt rastlanmamışdır. Urartu qalalarında pilləli formada yonulan qayalar birbaşa təməlin əsasını təşkil edirdi. Oğlanqalanın bu istehkamında müxtəlif tikinti üsullarının istifadə edilməsi qalanı inşa edənlər haqqında müəyyən fikirlər deməyə imkan verir. Hesab edirik ki, qalanın müxtəlif hissələrinin tikilməsinə ayrıca şəxslər cavabdeh olmuş və tikintidə Urartu qalalarında olduğu kimi heç bir standartlaşdırmaya ehtiyac duyulmamışdır.



Şəkil 4: Şimal istehkamlarının planı.

Şimal müdafiə divarlarının daş istehkamları bəzi yerlərdə 2 m yüksəkliyində saxlanmışdır. Lakin, ümumiyyətlə, onların hündürlüyü əsasən 1-1,5 m-dən aşağı olmuşdur. Əlavə olaraq bu istehkamların üzəri ölçüləri 40 x 40 x 20 sm olan kərpic tikinti ilə tamamlanmışdır (şək. 6). Onlar həm inşa olunmuş divarların hündürlüyünü yüksəltmiş, həm də divarlar üçün terras rolunu oynamışdır. Divarların daş fasadı arxadan çınqılla doldurulurdu. Kərpic tikintilər daş təməl üzərində inşa olunurdu. Oğlanqalanın şimal tərəfinin araşdırılması göstərir ki, bu hissə kərpic terraslardan ibarət olmuş, divarların möhkəmliyini artıran çınqıl, daş divarlar kimi əsas tikinti materialı olmuş və ehtimal ki, təqribən e.ə. 800-cü ildə tikilmişdir. Terraslanmış

sahənin ölçüsü təqribən 78 x 164 m olmuşdur. Narınqalanın xarici divarı ilə müdafiə divarı arasındakı yüksəklik 35 m olmuşdur. Bu 2,42 ha olan sahənin terraslaşdırılmasına, karxana işlərinə, böyük əhəng blokları və milyonlarla kərpicin daşınmasına xeyli işçi qüvvəsi cəlb edilmişdir. Tikinti layihəsinin monumentallığı IV Dövr Oğlanqala liderlərinin böyük qüvvəsindən xəbər verir. Tikintinin möhtəşəmliyi özlüyündə siyasi hakimiyyətin qüdrətini göstərir. Lakin, hələ də məlum deyil ki, bu qalanı tikmək və qorumaq üçün işçi qüvvəsinin necə əldə edildiyi məlum deyil.



Şəkil 5: Tikinti texnikasının görünüşü.



Şəkil 6: Kərpic terraslar.



Şəkil 7: Şimal divarında ehtimal edilən qapı yeri



Şəkil 8: Qərb divarı

Şimal müdafiə divarının yaxınlığında çay daşlarından inşa olunmuş bünövrəyə rastlanır. Belə ki, bu divar bilavasitə ana qayanın üzərində tikilmişdir. Xeyli möhkəm olan təmələ əlavə olaraq yaxşı qarışdırılmış gil tökülmüşdür. Diametri 12-18 sm olan yuvarlaq çay daşları bu gil səthin üzərində yan-yana düzülüb. Bəzi hissələrdə çay daşları bir neçə düzgün cərgə əmələ gətirir, lakin, bəzi hallarda onlar təsadüfi olaraq yerləşdirilmişdir. Çay daşından inşa olunmuş təməllə şimal divarın arasına, daş fasadlarda olduğu kimi çınqıl doldurulmuşdur.

Qazıntılar zamanı şimal-şərq tərəfdə qapı yeri olduğu zənn edilən bir boşluğa rast gəlindi. Bu boşluğun eni 8,3 m-dir. IV Dövrdə burada inşa olunan divar, ehtimal ki, narınqalaya gedən orijinal qapı olmuşdur. Divarın şimal yamacın ən əlverişli mövqeyində yerləşməsi irəli sürülən ehtimalı təsdiq edir. Əlavə olaraq demək olar ki, burada çay daşlarından işlənmiş təmələ rastlanmamış, çay daşlarını kiçik hissələrə bölünmüş əhəng daşı ilə birləşdirən başqa bir üsuldan istifadə edilmişdir. Qərb tərəfdə ana qaya üzərində açılmış oyuq böyük ehtimalla qapı oxu üçün nəzərdə tutulmuşdur. Bu pilləkənli sahə, ola bilsin ki, III Dövrdə narınqalada rastlanmış divara bənzər tikinti zamanı doldurulmuşdur (şək. 7). Səviyyəni düzəltmək üşün IV Dövrün son cərgələri kiçik həcmli yastı daşlarla işlənmişdir. Bu tikintinin üzərinə iki cərgə kərpic tikinti, ondan sonra isə üç cərgə böyük daş bloklar qoyulmuşdur. Daş blokların əksəriyyəti IV Dövrdəki bənzərlərinə nisbətən çox kiçikdir. Ümumiyyətlə, yan-yana qoyulmuş 20-30 sm^2 ölçülü daşlar pis inşaat texnikasından xəbər verirdi, belə ki, bu tikintidə daşların bir çoxu bloklarla uyğun deyil.

Müdafiə sistemi üzərindəki araşdırmalar istehkamın qərb hissəsi haqqında aydın təsəvvür yaratmağa imkan verdi. Şimal bürcdən qərbə doğru aparılan qazıntılarda istehkamın bu hissəsinin tikilməsində hansı üsullardan istifadə edildiyini aydınlaşdırmaq əsas məqsəd olmuşdur. Nəticədə, şimal bürcdən cənuba doğru 70 m uzunluğundakı tikinti aşkara çıxarıldı. Qərb istehkamının tikintisində istifadə olunmuş yonulmuş daşlar bu hissədə istifadə olunan ən böyük bloklardan ibarət idi. Bu həmçinin bürclə eyni zamanda inşa olunmuş divarın şimal hissəsinə də aiddir. Divarın özünəməxsus xüsusiyyətlərindən biri qeyri-adi kobud künclərdən istifadə edilməsidir. Birinci təməldə əyilmə bucağı 60 dərəcədirsə, digərində bu gözlənilməz halda 90 dərəcə təşkil edir. Bu təməl 7 m davam edir, lakin, 4 m cənubda, şimal divara doğru bir qədər müntəzəm tikinti izlənilir. Bu sahədən götürülmüş bir neçə kömürün radiokarbon analizi bu divarın III və IV Dövrlər ərzində, təqribən e.ə. 800-250-ci illərdə fəaliyyət göstərdiyini təsdiq edir.



Şəkil 9: Küp qəbir.

Qərb divarı boyunca aparılan təmizləmə işləri zamanı Oğlanqalanın II Dövrünə aid küp qəbirə rast gəlindi (şək. 9). Burada qəbirlərin olması təsdiq edir ki, tikinti və bərpa işlərindən sonra divarlar öz əvvəlki funksiyasını itirmişdir. Qəbirdə cinsi məlum olmayan və pis saxlanmış yaşlı adama aid skelet qalıqlarının bir hissəsi aşkar edildi. Lakin, küp qəbirin qərb tərəfində aşkar olunan iki qulplu küpə bilavasitə Oğlanqalanın yerli sakinlərinə məxsusdur. Qəbirdə Roma imperiyasından gətirildiyi zənn edilən olduqca zəngin avadanlıqla müşayət olunan dəfn aparılmışdır (şək. 10). Qəbirdən üzərində imperator Avqustun portreti olan dörd gümüş sikkə tapıldı. Lakin, sikkələr paslanmış və bir qədər dağılmışdır. Buna baxmayaraq onların eyni tipli və üzərində iki kitabə olduğu aydın seçilir. Sikkələrin üz tərəfində dəfnə yarpağından tac qoyan Avqustun sağ barelyefi vardır. Onun kənarında "CAESAR AVGVSTVS DIVI F PATER PATRIAE." sözləri yazılmışdır. Sikkənin arxa tərəfində Sezarın Qayus və Lusiusunun iki təsviri verilmişdir. Şəkil üz tərəfdən,

arxasında nizələr olan qalxana söykənmiş vəziyyətdə təsvir edilmişdir. Kənarda isə "VGVSTI F COS DESIG PRINC IVVENT, C L CAESARES" kitabəsi yazılmışdır. Sikkələrin üçü numizmatik araşdırmalardan yaxşı məlumdur və ehtimal ki, e.ə. 2-ci il və bizim eranın 12-ci ilində kəsilmişdir. Diğər sikkə isə daha kiçik diapozona malik olub e.ə. 2-ci il, bizim eranın 4-cü ili ilə tarixlənir (32). Bundan başqa qəbirdən bir tunc və dörd qaşlı üzük əldə edildi. Onların üzərində inək və medalyon təsviri vardır. Bundan başqa qəbir inventarına yuvarlaq şəkilli şüşə flakon və bu tip flakona aid parçalar da daxildir. Qəbirdən bir ədəd Finikiya mənşəli şirli muncuq da aşkar edilmişdir.




Şəkil 10: Qəbirdən aşkar olunan materiallar.

Qəbir avadanlığının Roma mənşəli olması bir qədər mübahisəlidir. Avqustun hökmranlığı zamanı dövlət Parfiya ilə müharibələrdən yan keçməyə çalışaraq, diplomatik yolla 20-ci ildə Krassın itirdiyi əraziləri qaytarmaq istəyirdi. Onun oğulluğu Tiberius həmin dövrdə Cənubi Qafqazda hərbi əməliyyatlar aparmağa və çəkişmələr törətməyə çalışırdı. Küp qəbirin materialları göstərir ki, sonunda bu vilayət romalıların hakimiyyəti altına düşməmişdir. Lakin, burada dəfn edilən şəxsin yerli, yaxud gəlmə olduğu müəyyən deyildir. Ehtimal ki, onun dişlərindəki izotopların analizi bu məsələni aydınlaşdırmağa imkan verəcək.

Narınqala

2011-ci il mövsümündə üçüncü məqsədimiz narınqalada qazıntıları davam etdirmək idi. Ərazisi 1,2 ha olan bu sahədə, ehtimal ki, iki mühüm bina olmuş və e.ə. 800-250 –ci illərdə və Oğlanqalanın III və IV dövrlərində mühüm inzibati əhəmiyyətə malik olmuşdur. Narınqalanın əsas binası şimal tərəfdə yerləşir və təqribən 4700 m^2 sahəni əhatə edir. Burada Sovet dövründə, 1988-1989-cu illərdə və bizim 2008-2011-ci illərdə apardığımız araşdırmalar zamanı binanın 1800 m^2 sahəni əhatən edən hissəsi açılmışdır (şək. 11). 2011-ci ildə əsası 2010-cu ildə qoyulan və hər biri 10 x 10 m^2 sahəni əhatə edən daha iki kvadratda qazıntı aparıldı.



Şəkil 11: Sitadelin planı.

Radiokarbon analizlər göstərir ki, narınqala təqribən e.ə. 800-cü ildə - Oğlanqalanın IV dövründə tikilmişdir. Bu bürclərin və müdafiə istehkamlarının tikilməsi tarixi ilə üst-üstə düşür (30). İstehkamların inşasında istifadə edilən tikinti üsulları həmçinin narınqalada istifadə olunmuşdur. Bu divarların əksəriyyəti əvvəlkilər kimi ya ana qaya üzərində tikilərək gillə düzəldilmiş, yaxud kərpic tikinti ilə tamamlanmışdır. Lakin, bu divarlar demək olar ki, dağılmışdır. Müdafiə istehkamlarında olduğu kimi, narınqalada də bərkidici inşaat materialı kimi daş ovuğu, yaxud çınqıldan istifadə edilmişdir. Divarların eni 1,7 - 2,5 m arasındadır. Oğlanqalanın IV Dövrünə aid binaları ölçüləri 33 x 34 m, yaxud 1122 m^2 olan böyük daxili həyətin ətrafında inşa olunmuşdur. Bu demək olar ki, Türkiyədəki Altıntəpə (25; 36) məbədini əhatə edən daxili həyətlə eyni ölçüdədir. Daxili həyət, ehtimal ki, narınqalada ən mühüm ictimai yerlərdən biri olmuşdur. Onun hədsiz dərəcədə böyük ölçüsü qala hökmdarının güclü siyasi hakimiyyətini göstərir. Daxili həyətdən şərqə doğru bir neçə uzunsov, ensiz binalar aşkar edilmişdir. Bu hissədə qaya hündür olduğundan yalnız onların təməli aşkara çıxarılmışdır və onların funksiyası ilə bağlı kifayət qədər dəlil

yoxdur. Ehtimal ki, onlar anbar, yaxud sarayın inzibati otaqları kimi istifadə edilmişdir. Binanın cənub-şərq tərəfində bir kvadrat blok var idi, ola bilsin ki, cənub-qərbdə izlənən dairəvi formalı bürcün qalığıdır.

Daxili həyətdə IV Dövrə aid, qalanın inzibati funksiyaları ilə bağlı olan böyük küplərin qalıqlarına və Azərbaycanda ən qədim mixi yazı olan keramika üzərindəki kitabələrə rast gəlindi. Lakin, heç bir təsərrüfat küpü bütövlükdə aşkar edilmədi. Küplərin parçaları bədii cəhətdən olduqca yüksək səviyyəli hazırlanmışdır. Küplərin üzərindəki fraqment halındakı yazılar, şübhəsiz ki, onların tutumunu göstərir. Rəqəmlərə aid *a-q [ar] və ru* kimi bəzi işarələri bərpa etmək mümkün oldu, ehtimal ki, onlar *aqarqi u terusi* işarələrini və həcm ölçüsünü bildirmişdir (27, 80-82). Paynenin tədqiqatlarına görə Urartu mixi yazılarındakı *aqarqi* 240-250 litrə, *terusi* isə 28-29 litrə bərabərdir.



Şəkil 12: Yonulmuş daşlar.

2011-ci il mövsümündə əsas tədqiqatlar binanın şərq tərəfində aparıldı. 2010-cu ilin qazıntıları zamanı şərqdə narınqalanın IV Dövrə aid istehkamları aşkar olunmuşdu. Burada müəyyən ara verilməklə divarlar qərbə doğru yönəlir. Bu divarlar arasındakı məsafə qeyri-müntəzəm olub şərqə doğru 6,5 m – dən 7,5 m – dək genişlənirdi. Ehtimal ki, bu tikinti narınqalaya daxil olan əsas girişin qalığıdır. Bu sahənin qərb qurtaracağı III Dövrə aid W-S divarları ilə məhdudlaşdırılmış və ehtimal edilən girişi qapatmışdır. İstehkamla saray divarları arasındakı münasibəti aydınlaşdırmaq üçün burada qazıntılar aparıldı. W-S divarından altda daha əvvəlki dövrə aid divar qalıqları aşkar edikdi, burda yaxşı düzülmüş daş hörgü üzərində bərpa işləri aparılmışdır (şək. 12). Lakin W-S divarlarının əksəriyyəti kobud işlənmiş standart əhəngdaşı bloklarından inşa edilmişdir. Bu tip tikinti texnikası istehkamın və narınqalanın inşasında izlənmişdir. Bu divarda da ustalıqla yonulmuş yeddi daş blok var idi, onların ikisi standartlaşdırılmış formada olub 90 X 60 sm *и* 45 X 60 sm ölçüdə idi. W-S divarı W-A divarına doğru dönürdü və hər iki divarın cənub küncü kvadrat formalı əhəngdaşı bloklarından işlənmişdir. Bu tip daş bloklar Bastam, Torpakqala, Çavuştəpə, Ayanis (16, 54; 9, Lev. XXIV; 17; 10, Lev. XII) daxil olmaqla Türkiyə ərazisindəki Urartu yaşayış yerlərində və Şimal-Qərbi İranda aşkar edilmişdir. Bastam və Çavuştəpədə yonulmuş bloklar divarın kənarlarına qoyulmuş, lakin içəridə isə onlar kobud bloklarla təmsil edilmişdir. Bu tip bloklar Oğlanqalada olduğu kimi inzibati binanın təməlinin inşasında istifadə edilmişdir. Torpaqqalada belə bloklardan inşa edilmiş platforma üzərində Xaldinin məbədi inşa olunmuşdur (8, 12). Ayanisdə isə bu tip texnika narınqalanın cənub istehkamlarının təməlinin inşasında istifadə edilmişdir (40, fig. 7). Bu yaşayış yerlərinin hamısı e.ə.7-ci əsrdə inşa edilmiş və

Erzen bu tikinti texnikasını həmin dövrə aid etmişdir (9, 25-6). Ehtimal ki, Oğlanqalada bu bloklar e.ə. 7-ci əsrdə (yaxud sonra) bu küncü gücləndirmək üçün sitadelin təmiri və bərpası zamanı haradansa götürülmüşdür. Bu divar ya əsas binaya giriş üçün platforma rolunu oynamış, ya da çoxdan dağılmış qapı divarlarının tikintisi ilə bağlı olmuşdur. İlkin araşdırmalar göstərir ki, şimal qapısı üçün bura olduqca əlverişli olmuşdur, lakin W-S divarının qazıntıları bu girişin ölçülərini müəyyən etməyə imkan vermir. Bu sahədə IV Dövr sarayının planını müəyyən etmək üçün əlavə araşdırmalara ehtiyac var.


Oğlanqalanın narınqalası, böyük ehtimalla, e.ə. 7-ci əsrdən sonra qısa müddət ərzində tərk edilmişdir. Əlimizdə olan dəlillər e.ə. 400-250 –ci illərdə sitadelin yenidən məskunlaşdırıldığını və III Dövr memarlarının saray binasını bərpa etmək istədiyini göstərir. III Dövrün sarayı həmin ərazini əhatə edirdi və əvvəlki dövrlərdəki strukturların düzəldiməsi ilə inşa edilmişdi. Onun düzgün formada inşa edilmiş bəzi divarları IV Dövr arxitekturasını bərpa etmişdi, lakin daxili həyətin şimal, cənub və şərq divarları (W-A, W-C и W-E) III Dövrdə yenidən istifadə olunmuş, yaxud yenidən inşa edilmişdir. Ümumiyyətlə, III Dövr sarayının binaları çoxsaylı və kiçik həcmlidir. III Dövrün daş hörgüləri özündən əvvəlki IV Dövrdəkindən daha az möhtəşəmdir. III Dövr divarlarının bənnaları gil məhlulu ilə bərkidilmiş, kiçik yonulmamış daşlardan istifadə etmişlər. Artıq kiçik daşlardan istifadə edilməmişdir və divarlar IV Dövrdəkilərə nisbətən ensizdir. Onların eni 1 və 2 metr arasında dəyişir, tikintinin əksər hissələrində isə 1 metrdir. Stratiqrafik dəlillər göstərir ki, III Dövr memarları inşaat apararkən IV Dövrə aid maddi qalıqları dağıtmışlar. Onlar IV Dövr bənnalarının inşa etdiyi sahəni doldurmuş və III Dövrün kərpic səkiləri birbaşa ana qaya üzərində deyil torpağın üzərində inşa olunmuşdur. Lakin, daş hörgülər öz sələfləri kimi möhtəşəm deyildir və faktlar onların tamamlanmış hissələrinin çox gözəl görünüşə malik olduğunu təsdiq edir. Bu binanın müxtəlif yerlərində, xüsusilə III Dövrün W-A və W-E hissələrində yonulmuş daşlardan istifadə olunmanın əlamətləri qalmışdır. Yonulmuş daşlar əvəlki dövrdə olduğu kimi Qaratəpə dağının əsasını təşkil edən və memarlıqda geniş istifadə edilən mərmərləşmiş əhəngdaşından deyil, tuflaşmış əhəngdaşından və qum daşından hazırlanmışdır.

Bu binanın ən böyük qismi əvvəlki daxili həyətin yerində yerləşən iri otaqdan ibarətdir. III Dövrə aid bu otaq IV dövrdəki bənzərinə nisbətən daha kiçik olub ölçüsü 27 x 33 m-dir. Bəzi faktlar, xüsusilə bu otağın şimal tərəfində cəmləşən 29 ədəddən ibarət tikinti materialı göstərir ki, III Dövrün memarları əvvəlki daxili həyətin yerində sütunlu salon tikməyi planlaşdırmışdılar. Bu faktlar sütun barabanları, sütun altlıqları, kapitel və kvadratşəkilli postamentlərdən ibarətdir. Bu tkinti materiallarının heç biri sonadək işlənib tamamlanmamışdır. Qaldırıla bilən sütun barabanlarının heç biri tam işlənməmiş, son istifadə üçün cilanmamış və bədii formaya salınmamışdır. Bu sahədə aşkar edilən sütun altlıqları və sütun barabanları sahənin hər tərəfinə yayılsa da, Əhəməni apadanalarına bənzər həyətlərin yaradılması üçün kifayət deyil. Onların başa çatmamış formasını nəzərə alaraq demək olar ki, binanın böyük hissəsinin tikintisi başa çatdırılmamışdır. Bunə görə də sütun altlıqları və barabanların bu geniş sahədə necə istifadə edildiyini söyləmək çətindir.

Sütunlu salonlar Yaxın Şərq abidələrindən yaxşı məlumdur. Şərqi Türkiyədə və Qafqazda bu tip bir neçə saray qazılıb aşkar edilmişdir. Oğlanqalanın salonu Altıntəpə və Erebuninin salonlarından kiçikdir, ehtimal ki, onlar satraplıq mərkəzi olmuşlar (37; 36; 25; 15). Lakin, onların forması və həcmi bənzərdir. Oğlanqala sütunlarının birbaşa bənzərlərinin tapılmaması çətinlik törətsə də, onların başa çatmamış forması, xüsusilə zəng tipli sütun altlıqlarını Qaracəmirli, Sarıtəpə, Qumbati və Bencaminin (3; 18; 37) qazıntıları zamanı aşkar edilmiş nümunələrlə müqayisə etmək olar. Sütunların digər elementləri, xüsusilə yonulmamış gövdə, hədsiz dərəcədə kiçik olan barabanlar öz yaxın bənzərlərini İran (Nahavənd) və Əfqanıstan (Yunan-Baktriya, Ay-Xenum) Selevkidlərinin e.ə. 2-ci əsrə aid kontekstlərində tapır (31, fig. 7; 22, fig. 8). Postəhəməni kontekstlərini nəzərə alsaq, ehtimal ki, sütun barabanları bir-birinin üzərinə qoyulmuş və kapitellər onların üst qismini tamamlamışdır. Qazıntı zamanı digər elementlərin aşkar olunmaması Farsdan kənardakı Əhəməni mərkəzlərində, satraplıqların və inzibati əyalətlərin mərkəzində daş əsaslar üzərində ağac və kərpic kolonlardan istifadə edildiyini göstərir. III Dövrün təməlindən və sütunların altındakı kül laylarından götürülən kömürün radiokarbon analizi göstərir ki, bu tikintilərin ehtimal olunan tarixi e.ə. 4 – 3-cü əsrlərdir.

Radiokarbon tarixlər, sütunların və gil qabların paralelləri göstərir ki, bu binanın bərpası iki tarixi dövrdən birinə, ya Əhəməni imperiyasının son 50 ilinə, ya da post Əhəməni dövrünə, Selevkidlərin onların imperiyasını özlərinə birləşdirdiyi dövrə aiddir. Belə olduğu halda saray layihəsinin yarımçıq qalması ya III Daranın ölümü və Əhəməni imperiyasının dağılması və ya Makedoniyalı İsgəndərin imperiyasının süqutu ilə bağlı olmuşdur. İkincisi, bu, e.ə. 4-cü əsrin sonunda imperiyanın dağılmasından sonrakı qarışıq onilliklərdə Atropatena dövlətinin yaranması ilə bağlı ola bilər. Oğlanqala narınqalasının çoxsaylı özünəməxsus xüsusiyyətlərini nəzərə alaraq bu binanın tikintisini ikinci dövrə aid etmək olar. Oğlanqala Qafqazda farsların birbaşa olduqları Qaracəmirli, Qumbati və Bencamindən əsaslı şəkildə fərqlənir. Oğlanqalada hakimiyyətin simvollarından biri kimi böyük sütunlu salon mövcuddur. O tamamilə yerli stildə inşa olunmuşdur. Onun tikilməsini sifariş edən şəxs yerli əhaliyə məxsus olmuş, Şərur düzənliyini və ola bilsin ki, daha böyük əraziləri öz hakimiyyəti altında birləşdirmək istəmişdir. Lakin, bu hakimiyyət uzun sürməmiş, buna görə də tikinti layihəsi yarımçıq qalmış və ərazi tərk edilmişdir. Bu binada tapılan çoxsaylı ox ucluqları və sapand daşları bu dövrün güclü dağıntıya məruz qaldığını göstərir. Əhəməni imperiyası dağıldıqdan sonra onun Qafqazda güclü təsiri Qərbi Gürcüstanda Kolxidanın və Vanın qazıntılarından məlumdur. Ola bilsin ki, bənzər hadisə Oğlanqalada da olmuşdur (23).

II Dövrə narınqalanın tikintisi ilə bağlı əsas dəlillərdən biri də III Dövr sarayının xarabalıqlarında qazılmış 30-dan artıq çuxurdur. Onların qeyri-adi tapıntıları, ziyafətlərin keçirilməsi və başqa ictimai hadisələrdən xəbər verərək göstərir ki, sarayın bu monumental binası tərk edildikdən təqribən yüz il sonra bura Oğlanqala sakinlərinin gündəlik gəldikləri yerlərdən biri olmuşdur. Təpənin digər yerlərində aparılan geofiziki analizlər təqribən e.ə. 100 və bizim eranın 100-cü ilini göstərmişdir. Bu dövrdə Oğlanqala, ola bilsin, Strabonun (26) Qafqazda Olane adı ilə xatırladığı möhkəmləndirilmiş şəhər olmuşdur. Maqnometrik analizlər yolların kənarında və döngələrdə çoxlu ikiotaqlı evlərin olduğunu göstərir. Boyük həcmli bu binaların biri ola bilsin ki, saray olmuşdur (şək. 13).



Şəkil 13: Binanın maqnitometrik planı.



Şəkil 14: V Dövrün keramika məmulatı.

Keramika məmulatı.

2011-ci ilin mövsümü 2008-2011-ci illərin qazıntısında aşkar olunan bütün gil məmulatını öyrənməyə imkan vermişdir.

Oğlanqalanın keramikası beş tikinti dövrünə aid olsa da, tikinti işləri zamanı təbəqələr qarışdığından bəzən bir dövrün qablarını digərindən ayırmaq çətin olur. Bu onu göstərir ki, stratiqrafiya gil qabların xronologiyasını müəyyən etmək üçün heç də həmişə yaxşı bələdçi deyil. Məsələn IV Dövrün bədii cəhətdən yaxşı hazırlanmış, bəzən isə üzərində mixi işarələr olan təsərrüfat küplərinin parçaları demək olar ki hər bir konteksdən aşkar olunmuşdur. Əfsuslar olsun ki, onlar bəzən tarixləndirildikləri və istifadə edildikləri kontekslərdə aşkar olunmur. Onlar gil qabların ən böyük və ağır hissəsindən ibarətdir. Fikrimizcə, onlar yamacın yuyulması zamanı yer dəyişməmiş, ehtimal ki, sitadelin boş hissəsini doldurmaq üçün əvvəlcədən yığılmışdır. II Dövr binalarının sahəsində IV Dövrə aid bir təsərrüfat küpünün qalığı aşkar olunmuşdur. 2-ci sturukturda aşkar olunan bu parçalar, yəqin ki, müəyyən məqsəd üçün istifadə edilmişdir. 2008-ci ildə C şurfundakı binalardan aşkar olunan keramika məmulatının bir qismini II Dövrə aid etmək olar. Bu binaların hamısı və keramika əsasən II Dövrlə tarixlənir. Lakin, ola bilsin ki, binalar inşa edilərkən III Dövrün keramikası da onlara qarışaraq ətrafa səpələnmiş, həmin sahənin maddi qalıntıları ilə qarışmışdır. Digər yerlərlə də müqayisə aparmaq çətindir. Son Dəmir dövrünün keramikası Qafqaz, İran və Şərqi Anadolunun Antik dövrü boyunca davam etmiş və müəyyən ardıcıllıq göstərmişdir. Lakin bu ardıcıllığı dəqiqləşdirmək üçün yaxşı straqiyafiyası olan yerlərdən gələn gil qablara nəşrlərdə rastlanmır.


V Dövrə aid gil məmulatı hələ qazıntılar başlamamışdan şimal istehkamları ilə bağlı olan iki kərpic platformasından, az miqdarda isə narınqaladan aşkar olunmuşdur. V Dövrün ən yaxşı keramika kolleksiyası kurqanın qazıntıları zamanı *in situ* vəziyyətdə aşkar olunmuşdur. Ümumiyyətlə, beşinci dövrün keramika məmulatı boz-qara rəngli gildən bişirilmiş, cilalanmış, bəzən isə qravüra üsulu ilə naxışlanmışdır. Kurqanda daha çox kasa tipli qablar geniş yayılmışdır. Lakin, lüləkli və göbələkşəkilli çıxıntısı olan qablara da rastlanırdı. Bu tip çıxıntılı qablar Xocalı-Gədəbəy mədəniyyəti abidələrindən və İranda II Dəmir dövrü abidələrindən yaxşı məlumdur (şək. 14) (4; 6, 7-123; 2, 221-223; 1).



Şəkil 15: IV Dövrün təsərrüfat küpü



Şəkil. 16: III Dövrün triangl keramikası: A) Yerüstü kolleksiyanın bərpa olunmuş kasaları;
B) Trianql və feston keramika



Şəkil. 17: II Dövrün küpə və kasaları

IV Dövrün tapıntıları *in situ* vəziyyətdə aşkar olunmamışdır. Lakin, gil qabların böyük qismi bu dövrlə tarixləndirilən materiallar arasında özünə yaxın bənzərlər tapır. Dördüncü dövr keramikasının ən çox yayılmış forması diametri bir metr olan böyük təsərrüfat küplərinin, yaxud pifosların qalıqlarıdır. Divarlarının qalınlığı 20 sm olan qablar oxşəkilli naxışla bəzədilmiş yapma ornamentlə əhatələnmişdir (şək. 15). Bu yapma ornamentlərin yaxın bənzərləri bu dövrə aid digər nəşr olunmuş materiallar arasında vardır. Lakin, bəzi nümunələr Urartu pifosları ilə bənzərdir (19, 82, fig 11; pl. VIII:13). Urartu yaşayış yerlərində üzərində mixi yazı olan dörd böyük təsərrüfat küpünün parçası aşkar edilmişdir (27, 80-82). Söyləmək lazımdır ki, oxşəkilli motiv mixi işarələrin düşünülmüş və aldadıcı təkrarıdır. Əgər Oğlanqalanın yazı sistemi öz nüfuzlu qonşularının elitasından götürülmüşsə, demək olar ki, yerli hökmdarların tələbini əks etdirir. Dördüncü dövrün digər keramikası idxal edilmiş "Saray Keramikası"ndan ibarətdir. Üzərində qəhvəyi ləkələr olan, qırmızı rəngdə bişirilmiş, yaxşı cilalanmış bu keramikanın bənzərləri digər yaşayış yerlərindən yaxşı məlumdur. Digər formaları, xüsusilə kasaların ağız kənarlarını, qaralmış küpələrin ağız kənarlarını və ağzının kənarı xaricə qatlanmış küpələri də bu dövrə aid etmək olar.

III dövrün gil məmulatını tipoloji analiz etmək çox çətindir. Belə ki, bu dövrdə narınqalanın tikintisi tamamilə başa çatmamış və yaxınlıqda bənzərləri az məlumdur. Əhəməni imperiyasının müəyyən tarixi ardıcıllıqla davam etməsinə və kifayət qədər tarixləndirilmiş yerlərin çox olmasına baxmayaraq, birbaşa Əhəmənilərə aid keramika məmulatını ayırmaq mümkün olmamışdır. Lakin, Oğlanqalada bəzi ayrıca yerlər vardır ki, onları III Dövrə aid etmək olar. Bu dövrün keramikasının tipoloji analizi dəqiq stratiqrafiyaya deyil, stilistik meyarlara və digər yerlərlə müqayisələrə əsaslanır. Bu dövrün keramikası çoxdur. Onlar qum qarışığı olan gildən hazırlanaraq qırmızı rəngdə yaxşı bişirilmişdir. Keramika məmulatının rəng çalarları çəhrayı, sarı-qırmızı, narıncı rənglər arasında dəyişməkdədir. Bunlar Oğlanqalada daha çox yayılmış keramika nümunəsi olub II Dövr ərzində də davam etmişdir. Lakin, bəziləri daha çox Əhəməni dövrünə aid edilə bilər. Onlar içərisində düzgün profili olan kasalar da vardır. Bu tip kasalar Əhəməni imperiyasında Pakistandan başlayaraq Qərbi Anadoluda Sardisə qədərki ərazidə yayılmışdır. Onlar arasında ağız kənarları içəri və xaricə qatlanan kasalar da vardır. Materiallar arasında ağız kənarından gövdəsinə birləşik qulpları

olan küpələrə və idxal edilmiş zoomorf qulplara rastlanmışdır (şək. 16a) (21, fig. 7.56-7.57; 20, 481-2; 36, fig. 5). Ağız kənarı üçbucaqşəkilli küpələr, boyalı gil məmulatı İran və Cənubi Qafqazın Son Dəmir dövrü abidələrindən məlumdur. Onları həm II Dövrə, həm də III Dövrə aid etmək olar (şək. 16b). Boyalı keramika narınqalada III Dövrün və II Dövrə aid binaların kontekstlərindən məlumdur. Belə keramika daha çox yerüstü materiallar içərisindədir. Şübhəsiz ki, gələcək araşdırmalar bunların dövrləşdirilməsinə imkan verəcəkdir.

II Dövr (e.ə.200 – b.e.100 –cü ili)

II Dövrün stratiqrafiyası olan kontekstləri, xüsusilə narınqaladakı çuxurlardan və binalardan gələn keramika bu dövrün keramikasını tipoloji analiz etməyə imkan verir, lakin, əvvəlki dövrlərin gil qablarının istifadə edilməsi və onların yaxşı saxlanmaması səylərimizi çətinləşdirir. Narınqalada II Dövrün mətbəx çuxurlarından gələn materialları ayırmaq imkanımız olsa da, onlar başlıca olaraq mətbəx qablarından ibarət idi və uzun bir dövr ərzində istifadə edildiklərindən dövrləşdirmək və tiplərə ayrırmaq üçün o qədər də əlverişli deyildir. Bundan başqa formaların II Dövr və III Dövr ərzində davam etməsi statiqrafik arıcıllığı olmayan kompleksləri müəyyənləşdirməyə imkan vermir. Bununla belə Oğlanqalanın son məskunlaşma dövrünə aid olan bəzi formaları müəyyən etmək mümkündür. Halqa dabanlı, üzəri qırmızı və narıncı rənglə örtülmüş kasaların parçaları, ehtimal ki, II Dövrdə daha geniş yayılmışdır (şək. 17: 1-2, 4). Bu kasaların dairəvi, halqaşəkilli oturacaqları Parfiya və İran Azərbaycanının yaşayış yerləri üçün xarakterik deyil. Lakin, bəzi nümunələr Pasarqaddan, İranın digər yerlərindən və Artaşatın (24; 35, fig. 109: 5–15; 39, fig. 14: 9; 38, pl. 13).

Ellin dövrü qəbiristanlıqlarından məlumdur. Kənarında yiv açılmış kasaların ağız kənarları xaricə doğru çıxıntılı olub (şək. 17: 12, 15) qapaq qoyulmaq üçün nəzərdə tutulmuşdur (şək 17: 12). Bu tiplər daha çox yerüstü materiallar arasında yayılmış və həmin dövrlə tarixləndirilə bilərlər. Ağzının kənarı xaricə doğru çıxıntılı olan küpələr Cənub-Qərbi və Qərbi İranda Əhəməni dövründən Parfiya dövrünə keçən təbəqələrdən məlumdur və Oğlanqalanın II Dövrü üçün tipikdir (şək. 17: 7, 8, 11).

Nəticə və gələcək tədqiqat planları

Ekspedisiyanın ilk dördillik araşdırmaları e.ə I minillikdə Naxçıvanda olan siyasi və iqtisadi inkişaf haqqında, həmçinin, Yaxın Şərqin böyük hissəsi ilə Naxçıvan arasında olan dəyişkən əlaqələr haqqında mühüm informasiya verir. Tədqiqat işləri başlıca olaraq Oğlanqalada toplanmış və onun təqribən e.ə. 1000 - ci ildə məskunlaşdırıldığı müəyyən edilmişdir. Narınqalanın müdafiə istehkamları təqribən e.ə. 800-cü ildə inşa olunmuşdur. Ehtimal ki, Şərur düzündə kiçik bir şəhər dövlətin paytaxtı olmuşdur. Onun yenidən bərpası e.ə.350-250-ci illərə Əhəmənilər imperiyası və Ellin dünyasının genişləndiyi dövrə təsadüf edir. 2011-ci ilin tədqiqat mövsümü Oğlanqalanın Parfiya və Roma imperiyaları ilə əlaqələrini tədqiq etməyə imkan verdi. Binaların, tikintilərin və keramikanın yerli xüsusiyyətlərinə baxmayaraq, müəyyən edildi ki, şəhərin sakinləri öz dəfnlərində Roma elitasına aid sikkələrdən istifadə etmişdir. Gələcəkdə narınqalada qazıntılar aparmaq və bu şəhərin Urartu və Əhəməni imperiyası ilə əlaqələrini aydınlaşdırmaq zəruridir. Həmçinin, II Dövrün böyük binalarında qazıntılar aparmaq, e.ə. son yüzilliklərdə Naxçıvanın imperiyalarla münasibətini aydınlaşdırmaq gələcək planlara daxildir.

Tablo 1: Oğlanqalanın dövrləşdirilməsi

BC	Oğlanqala	Azerbaijan	Hasanlu (Urmia)	Iran	Periodization	Historical
1200-800 BCE	V	Xocalı-Gədəbəy	V-IV	Iron I-II	Early Iron Age	
800-600 BCE	IV	Mannaean	IIIb	Iron III	Middle Iron Age	Urartu
500-200 BCE	III	Late Achamenid/ Albania/ Media Atropatene	IIIa	Iron IV	Late Iron Age	Achaemenid and Hellenistic (Armenia/Mediat Atrapotene)
200 BCE-100 CE	II	Late Media Atropatene/ Caucasian Albania/ Arsacid	II	Parthian	Classical	Parthia/Armenia/Media Atropatene
1200 CE-1920 CE	I	Medieval-Modern	I	Medieval-Modern	Medieval-Modern	Medieval-Modern

ƏDƏBİYYAT

1. Асланов Г., Ибрагимов В., Кашкай С. *Древние некрополи Хараба-Гилана.* Бакы: Нурлан, 2002.
2. Асланов, Г., Кашкай С. *Погребении некрополи Мунджуклутепе.* Советская Археология 3, 1991.
3. Babaev I, Gagoshidze Y., and Knauss F. *An Achaemenid „Palace'' at Qarajamirli (Azerbaijan). Preliminary Report on the Excavations in 2006.* Ancient civilizations from Scythia to Siberia 131-132, 2007.
4. Bahşaliyev V, and Schachner A. *Das Kammergrab Von Yurdçu / Naxçivan. Ein Beitrag Zur Archäologie Der Früheisenzeit Transkaukausiens Und Ostanatoliens.* Studi Micenei ad Egeo-Anatolici 43, no. 1 2001.
5. Бахшалиев В.Б. *Археологические раскопки на поселении Огланкала.* Российская Археология, 1994.
6. Бахшалиев В.Б. *Naxçıvanın Erkən Dəmir Dövrü Mədəniyyəti.* Bakı: Elm. 2002.
7. Baxşəliyev V., Ristvet L., Gopnik H., and Aşurov S.. *Naxçıvanda Arxeoloji Tədqiqatlar.* Naxçıvan: 2010.
8. Burney C.A., and Lang D.. *The Peoples of the Hills*. New York: Praeger, 1972.
9. Erzen Afif. *Çavuştepe: M.O. 7-6. Yüzyül Urartu Mimarlık Anıtlari Ve Ortaçağ Nekropolu*. Ankara: Türk Tarih Kurumu, 1978.
10. Erzen Afif. *"Çavuştepe Yukarı Kale Ve Toprakkale 1976 Dönemi Kazıları."* Anadolu Araştırmaları 4-5, 1976-1977.
11. Zimansky P.. *Urartian Material Culture as State Assemblage: An Anomaly in the Archaeology of Empire.* Bulletin of the American Schools of Oriental Research, no. 299/300 (1995),
12. Zimansky P.. *An Urartian Ozymandias.* The Biblical Archaeologist 58, no. 2 (1995)
13. Zimansky P.. *The Problem of the Urartian Frontier*," in Neo-Assyrian Geography, ed. Mario Liverani (Roma: Università di Roma, 1995),
14. Zimansky P.. *Ecology and Empire : The Structure of the Urartian State,* Studies in Ancient Oriental Civilization:, (Chicago, Ill.: the Oriental Institute, 1985),
15. Kanetsyan A. *Urartian and Early Achaemenid Palaces in Armenia.* in The Royal Palace Institution in the

First Millennium Bc, ed. Inge Nielsen (Athens: Danish Institute at Athens, 2001).
16. Kleiss W.. *Bastam.* Teheraner Forschungen Bd. 4-5 (Berlin: Mann, 1979).
17. Kleiss W.. *Aspekte Urartäischer Architektur.* Iranica Antiqua 23 (1988).
18. Knauss F.. *Caucasus.* in L'archéologie De L'empire Achéménide: Nouvelles Recherches, ed. Pierre Briant and Rémy Boucharlat (Paris: de Boccard, 2005)
19. Kozbe G., Çevik Ö., and Sağlamtimur H.. *Pottery.* in Ayanis I, ed. A. Çilingiroğlu and Mirjo Salvini (Rome: Istituto per gli studi micenei ed egeo-anatolici, 2001).
20. Khatchadourian L.. *"Social Logistics under Empire: The Armenian "Highland Satrapy" and Achaemenid Rule, Ca. 600-300 Bc"* (University of Michigan, 2008).
21. Hilary G., and Rothman M.. *On the High Road: The History of Godin Tepe, Iran*. Toronto: Royal Ontario Museum and Mazda Press, 2011.
22. Guillaume O.. *Les Propylées De La Rue Principale: Fouilles D' Ai Khanoum 2, Mémoires De La Délégation Archéologique Française En Afghanistan.* Paris: de Boccard, 1983.
23. Lordkipanidze O.. *Introduction to the History of Caucasian Iberia and Its Culture of the Achaemenid and Post-Achaemenid Periods.* Archäologische Mitteilungen aus Iran und Turan 32 (2000).
24. Levine L.D., *Excavations at Jameh Shuran, Iran.* (Toronto: Royal Ontario Museum, N.D.)
25. Özgüç T.. *Altintepe.* Türk Tarih Kurumu (Ankara, Türk Tarih Kurumu Basımevi, 1966),
26. Potts D.. *Some Problems in the Historical Geography of Nakhchivan.* Ancient West and East 1 (2002). Strabo 11.14.6.
27. Payne M.. *Urartian Measures of Volume.* Ancient near Eastern Studies. Supplement (Louvain; Dudley, Mass.: Peeters, 2005).
28. Ristvet L. et al., *2008 Excavations at Oğlanqala, Azerbaijan.* Azerbaycan Arxeologiyasi (2009)
29. Ristvet L, V. Baxşəliyev, and Safar Aşurov.*Settlement and Society in Naxçıvan: 2006 Excavations and Survey of the Naxçıvan Archaeological Project.* Iranica Antiqua 46 (2011)
30. Ristvet L et al.. *On the Edge of Empire: 2008-2009 Excavations at Oğlanqala, Azerbaijan.* American Journal of Archaeology 116, no. 2 (2012).
31. Rahbar M., and Alibaigi S.. *The Hunt for Laodicea: A Greek Temple in Nahavand, Iran.* Antiquity 83 (2009)
32. Расулова М.М.. *Торгово-Экономические И Культурные Связи Кавказкой Албании С Античным И Эллинистическим Миром: I Век До Н.Э.- I Век Н.Э.* (Бакы: Mütərcim, 2008).
33. Smith A. *The Political Landscape: Constellations of Authority in Early Complex Polities.* (Berkeley: University of California Press, 2003).
34. Salvini M.. *Geschichte Und Kultur Der Urartäer* (Darmstadt: Wissenschaftliche Buchgesellschaft, 1995).
35. Stronach D.. *Pasargadae. A Report on the Excavations Conducted by the British Institute of Persian Studies from 1961 to 1963* (Oxford: Clarendon Press, 1978)
36. Summers G.D.. *Archaeological Evidence for the Achaemenid Period in Eastern Turkey.* Anatolian Studies 43 (1993).
37. Ter-Martirossov Felix I.. *The Typology of the Columnar Structure of Armenia in the Achaemenid Period.* in The Royal Palace Institution of the First Millennium Bc, ed. Inge Nielsen (Athens: Danish Institute at Athens, 2001)
38. Хачатрян Д., *Арташат: Античные Некрополи (Раскопки 1971-1977 г г)* Ереван: Издательство Академии Наук Армянской ССР, 1981
39. Haerinck E.. *La Céramique En Iran Pendant La Période Parthe*. Vol. 2, Iranica Antiqua Supplément. Gent: Iranica Antiqua, 1983.
40. Harmanşah Ö.. *Stones of Ayanis: New Urban Foundations and the Architectonic Culture in Urartu During the 7th C. Bc.* In Bautechniken in Antiken Und Vorantiken Kleinasien, edited by Martin Bachmann, 177-97. Istanbul: Deutschen Archäologischen Instituts Istanbul, 2009.

Л.Риствет, Х.Гопник, В.Б.Бахшалиев, С.Г.Ашуров

РАСКОПКИ АМЕРИКАНО-АЗЕРБАЙДЖАНСКОЙ ЭКСПЕДИЦИИ В ОГЛАНГАЛА

РЕЗЮМЕ

Крепость Оглангала, расположенная на горе Каратепе, охватывает 50 га площади. Это, вероятно, самая большая крепость Железного века в Нахчыване и одна из самых больших на Южном Кавказе. Раскопками 1988-1989 гг. в Оглангала обнаружены доказательства, того что это место было важным политическим центром в течение раннего и среднего железного века. Раскопки в 2008-2011 годов, подтвердили более раннюю гипотезу и дали новую информацию, указывающую, что Оглангала, вероятно, была независимым государством в середине железного века. Оно поддерживало экономические и культурные связи с соседним Урарту. Это поселение было центром богато укрепленного города-крепости в конце или сразу после падения империи Ахеменидов.

Раскопки в Оглангала определили пять периодов – четыре древних и один современный. Местность была заселена примерно между 1200 и 800 гг. до н.э., в течение раннего Железного века в Период V. Архитектура цитадели датируется средним железным веком. Период IV датируется между 800 и 600 гг. до н.э. или же поздним периодом Железного века, Период III – между 400 и 250 гг. до н.э. С 200 г. до н.э. и по 100 г. нашей эры (Период II) большая часть горы была занята большим укрепленным городом. Во время этого периода место, возможно, было известно как Олане, город, упомянутый в «Географии Страбона».

Главное здание цитадели находится на севере и занимает область приблизительно в 4700 м^2. Работы, проводившиеся здесь в 1988-1989 гг. и наши последующие раскопки во 2008-2010 гг. выявили часть этого здания размером около 1800 м^2. Строительство оборонительных стен цитадели относится приблизительно к 800 г. до н. э., когда крепость, вероятно, стала столицей маленького государства на Шарурском равнине. Цитадель Оглангала была, вероятно, оставлена после 7-го столетия. Наши доказательства последующего заселения этой крепости датируются определенным периодом между 400-250 гг. до н.э., когда архитекторы III Периода восстановили этот дворец.

L.Ristvet, H.Gopnik , V.B.Bakhshaliyev, S.Aşurov

AMERICAN-AZERBAIJANI EXCAVATIONS AT OĞLANQALA

SUMMARY

Perched atop the 50 ha Karatepe, Oğlanqala is probably the largest Iron Age fortress in Naxçıvan and one of the largest in the South Caucasus. Excavations in 1988-1989 at Oğlanqala uncovered tantalizing evidence that the site was an important political center during the early and mid-Iron Age. Four years of further excavation from 2008-2011 have confirmed this earlier hypothesis, providing new information indicating that Oğlanqala was probably an independent polity in the middle Iron Age with economic and cultural connections to neighboring Urartu, a fortress center at the end or just after the fall of the Achaemenid empire, and a wealthy fortified town in the last centuries BC. Our excavations have defined five periods, four ancient and one modern at Oğlanqala. The site was founded sometime between 1200 and 800 BC during the early Iron Age, Period V, but the architecture at the citadel dates to the Middle Iron Age, Period IV, between 800 and 600 BC and the Late Iron Age, Period III, between 400 and 250 BC. From 200 BC-100 AD (Period II) most of the mountain was covered by a large fortified town. During this period, the site may have been known as Olane, a town mentioned by Strabo in his geography. The main citadel building is in the north and covers an area of about 4700 m^2. Work here during the Soviet excavations from 1988-1989 and our previous excavations during 2008-2010 had already exposed ca. Specifically, our work has focused on the foundation of Oğlanqala around 1000 BC, the construction of the citadel and fortifications around 800 BC, when it probably became the capital of a small polity on the Şərur Plains 1800 m^2 of this building. The Oğlanqala citadel was probably abandoned briefly sometime after the 7th century. Our next evidence for occupation here dates to some time between 400 and 250 BC, when Period III architects rebuilt this palace.

BEYNƏLXALQ ŞƏMKİR-QARACƏMİRLİ ARXEOLOJİ EKSPEDİSİYASININ ÇÖL-TƏDQİQAT İŞLƏRİ HAQQINDA

(Şəmkir rayonu)

İ.A.Babayev, Y.Qaqoşidze, F.Knauss, A.Balaxvantsev,
E.Ə.İskəndərov, N.Ə.Alışov, F.Gutschke, M.Gutte,
G.Wüsten-Leyderwald, C.Gentzsch, J.Schöweitz




Şək. 1. Sarayın portik hissəsində sütunaltlıqları.

2011-ci ildə ekspedisiya iyul ayının 21-dən avqust ayının 31-nə qədər çöl-tədqiqat işləri aparmışdır.

Ekspedisiyanın elmi tərkibinə Azərbaycandan 3 nəfər: İlyas Babayev-ekspedisiyanın ümumi rəhbəri, AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru, professor, kiçik elmi işçilər Emil İskəndərov və Natiq Alışov; Almaniyanın Münxen Muzeyi, Halle Universiteti və Berlin Muzeyinin əməkdaşları ümumiyyətlə 7 nəfər: qrupun rəhbəri Münxen muzeyinin direktoru Florian Knauss, elmi əməkdaşlar Frauke Gutschke, Timo Stingl, Matthias Gutte, Gabriela Wüsten-Leyderwald, Chiristina Gentzsch və Janina Schönweitz; Gürcüstandan Gürcüstan Milli Muzeyinin elmi əməkdaşı professor Yulon Qaqoşidze, Moskvadan REA Şərqşünaslıq İnstitutunun elmi əməkdaşı Arçil Balaxvantsev daxil idilər. REA-nın elmi əməkdaşı bizim ekspedisiyamıza bu ildən qoşulmuşdur.

Ekspedisiyamız 2006-cı ildən Qaracəmirli kəndi yaxınlığında arxeoloji qazıntılar aparır. Əvvəlki 5 ildə aparılan qazıntılar nəticəsində müəyyən olunmuşdur ki, tədqiq etdiyimiz sahədə e.ə. V-IV əsrlərdə böyük inzibati mərkəz yerləşmişdir. Bu yaşayış yeri bir neçə kv.km-dən ibarət çox böyük sahəni əhatə etmişdir. Burada arxeoloji qazıntılar və kəşfiyyat işləri nəticəsində e.ə. V-IV əsrlərə aid böyük ictimai binaların qalıqları aşkar olunmuşdur.

Bu binaların ən möhtəşəminin qalıqları Qurbantəpə adlandırdığımız, təxminən bir hektar sahəni əhatə edən təpədə yerləşir. Bu qalıqlar saray tipli çox böyük binaya məxsusdur. Burada 3-cü ildir ki qazıntı aparılır. Hələ, 2006-2007-ci illərdə bu təpədən şərqdə İdealtəpə adlandırdığımız kiçik təpəcikdə arxeoloji qazıntılar apararkən iki dördsütunlu zalları, onların şimal və cənub tərəflərində nisbətən kiçik otaqları və şərq tərəfdə portiki olan bir binanın qalıqlarını aşkar etmişdik. 2007-ci ildə bu binanın qazıntısı başa çatarkən məlum oldu ki, həmin bina müstəqil bina deyil daha böyük bir binanın propleyası (giriş binası) olmuşdur. Araşdırmalarımız göstərdi ki, əsas binanın qalıqları propleyadan 240 m. qərbdəki təpədə yerləşir. 2008-ci ildə Qurbantəpədə kəşfiyyat qazıntıları nəticəsində orada doğurdan da böyük sarayın qalıqlarının olduğu müəyyənləşdirildi. 2009-2010-cu illərdə bu binanın divarlarının kvadrat formalı çiy kərpiclərlə hörüldüyü, onun böyük sütunlu zallarının olduğu müəyyənləşdirildi.



Şək. 2. Sarayın təxmini planı.

2011-ci ildə Qurbantəpədə daha geniş qazıntılar aparılmışdır. Bu binanın çiy kərpiclə hörülən divarları bəzi yerlərdə 1,5-1,6 m. hündürlüyə qədər qalmışdır. Sarayın fasadı onun şərq tərəfində yerləşir. Burada sarayın portiki 8 m. enində, 25 m. uzunluğundadır. Portikdə iki sıra daş sütun altlıqları qoyulmuşdur. Onlardan hələlik 5 ədədi aşkar edilmişdir. Onların yerləşməsinə görə portikdə hər sırada 6 ədəd, ümumiyyətlə, 12 sütun altının olduğu müəyyən olunmuşdur. Portikin arxasında 25x27 m. ölçüsündə (ümumi sahəsi 675 kv.m.) çox böyük qəbul-mərasim zalı yerləşir. Onun içərisində də güman ki, 36 sütun olmuşdur. Portikin və hələlik bu böyük zalın kiçik hissələri açılmışdır. Bu zalın qazıntı aparılan hissəsində sütun altlıqlarının qalıqları, daş kapitel qırıqları tapılmışdır. Portik və mərasim zalının təmizlənən hissələrində torpaq qatı o qədər də qalın olmadığı üçün sütun altlıqları burada həyat kəsiləndən az sonra sındırılmışdır. Onların bəzilərinin hissələri ilkin qoyulduğu yerlərindən kənara atılmışdır. Ancaq bütün sütun altlıqlarının ilkin yerlərini dəqiq müəyyənləşdirmək olur (şək. 1). Böyük zalın arxasında və ondan cənub və şimal tərəfdə nisbətən kiçik zallar, uzun dəhlizlər və müxtəlif otaqlar yerləşir. Hələlik, bu zallardan sarayın qərb tərəfində 3 zalın yerləri müəyyənləşdirilərək onlardan birinin qazıntısı başa çatmışdır (şək. 2. plan).



Şək. 3. Qazıntısı başa çatdırılan zalın ümumi görünüşü.


Bu zalın ölçüləri 11,6 (şərq-qərb istiqamətdə)x10,5 m. (şimal-cənub istiqamətində) olmaqla ümumi sahəsi 121,8 m^2 –dir. Onun içərisində 4 sütun altlığı aşkar olunmuşdur. Zəngvari olan bu sütn altlıqları çox yüksək səviyyədə naxışlanmışlar. Onların üstünə qoyulan sütunlar ağacdan olmuşdur (şək. 3). Bu zalın cənub tərəfində eyni ilə belə sütun altlıqları olan digər zal yerləşir. Onun hələlik döşəməyə qədər yalnız bir hissəsi təmizlənərək 2 zəngvari sütun altlığı aşkar edilmişdir. Bu zal da 4 sütunlu olmuşdur. Sütun altlıqlarının 2-nin hələlik üstü açılmamışdır.

Bu zalın da ölçüləri əvvəlki kimidir. Adlarını çəkdiyimiz zallardan şimalda digər zal yerləşir. Həmin zalın da döşəməsinin üstündə 4 ədəd daş sütun altlıqları aşkar edilmişdir. Hələlik bu zalın içərisi axıra qədər təmizlənməmişdir. Bu zalın sütun altlıqları əvvəlki zalların sütun altlıqlarından fərqlənirlər. Onların alt hissələri iki pilləli kvadrat formalıdır. Üstlərində dairəvi balışvari hissə vardır. Sarayın portik hissəsində

və böyük zalında da sütun altlıqları bu tipdədir (şək 4-5). Belə sütun altlıqları Əhəmənilər imperiyasının əsasını qoyan Şahanşah Kuruşun e.ə. VI əsrdə Pasarqaddakı tikdirdiyi sarayının sütun altlıqları tipindədir. Zəngvarı konelyurlu sütun altlıqları isə I Dara və Kserksin e.ə. VI əsrin axırı V əsrin əvvəllərində Persepolda tikdirdikləri sarayın sütun altlıqları tipindədir.



Şək. 4. Dördkünc sütunaltlıqları tam təmizlənməyən zalda.



Şək. 5. Dördkünc sütunaltlığı.

Qurbantəpədə bu ilə qədər 6 daş sütun altlığı aşkar edilmişdir. Bu il isə onların sayı 18-ə çatmışdır.

Çox maraqlıdır ki, Qaracəmirlidə aşkar etdiyimiz saray öz həcminə görə İmperiyanın mərkəzi şəhəri olan Persopolda I Dara və Kserksin tikdirdikləri saraydan böyükdür. Qaracəmirli sarayının çoxlu zalları, uzun koridorları və kiçik otaqları olmuşdur (şək. 6).



Şək. 6. Qazıntı sahəsinin bir görünüşü.

Sarayın daş sütun atlıqlarının üstünə qoyulan sütunların hamısı ağacdan olmuşdur. Sütunların üstündə görünür daş kapitellər qoyulmuşdur. Hələlik bu kapitellərin parçaları tapılmışdır. Giriş yerlərinin birində qapı üçün istifadə olunan ortasında oyuq olan dairəvi yastı daş aşkar olunmuşdur (şək. 7).



Şək. 7. Qapı yerində dabandaşı.

Qazıntılar zamanı əsasən e.ə. V-IV əsrlər üçün səciyyəvi olan müxtəlif gil qabların parçalarına rast gəlinmişdir (şək. 8).



Şək. 8. Gil qablar və kirəmit (novalça) qırıqları.

Məlum olduğu kimi, Əhəmənilər imperiyası Misir daxil olmaqla şimali-şərqi Afrikadan Hindistana, Hind okeanı və İran körfəzindən Böyük Qafqaz dağlarına qədər böyük ərazini əhatə edirdi. Hazırda bu böyük ərazidə onlarla dövlətlər yerləşir. Heredot Əhəmənilər imperiyasının tərkibində 70-dən çox xalqların adlarını çəkmişdir. Əhəmənilər imperiyasının mədəniyyəti bu imperiyanın tərkibinə daxil olan bütün xalqların mədəniyyətlərinin bir çox xüsusiyyətlərini özündə əks etdirir. Əhəmənilər dövləti müəyyən dərəcədə Midiya dövlətinin varisidir. Yazılı mənbələr və arxeoloji materiallar əsasında demək olar ki, indiki Azərbaycan Respublikasının yerləşdiyi cənubi şərqi Qafqaz Midiya dövlətinin tərkibinə daxil idi. Midiya dövlətinin şimal sərhəddi bəzi tədqiqatçıların yazdığı kimi Araz çayı olmamışdır. Yazılı mənbələr və arxeoloji tədqiqatların təhlili göstərir ki, indiki Azərbaycan Respulikasının ərazisi də müəyyən mənada qədim Azərbaycan dövləti sayılan Midiyanın tərkibinə daxil idi.

2011-ci ildə Qaracəmirlidə qazıntılar zamanı Almaniya Federativ Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Herbert Kvelle, Şəmkir rayonun İcra başçısı Nazim Veyisov, AMEA Prezidentinin 1-ci Vitse prezidenti Arif Həşimov, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun direktor müavini Nəcəf Müseyibli bizim qazıntı sahəmizə gələrək tədqiq etdiyimiz abidə ilə tanış olmuşlar.

Avqust ayının 20-də Şəmkir rayonunda ekspedisiyamızın qazıntılarına həsr olunan konfrans keçirilmişdir. Konfransda rayon rəhbərliyi, yerli təşkilatların nümayəndələri, məktəb direktorları, tarix müəllimləri iştirak etmişlər.

Şəmkir rayonunun Qaracəmirli kəndində aşkar edilən bu abidə təkcə Azərbaycanın deyil, bütün Qafqaz, Yaxın və Orta Şərqin tarixini öyrənmək üçün misilsiz elmi əhəmiyyətə malikdir. Bu abidənin öyrənilməsini başa çatdırmaq, mühafizə edərək turizm obyektinə çevirmək zəruridir.

Azərbaycan ərazisində yerləşən abidələr xalqımıza məxsusdur. Biz onları öyrənməli və qorumalıyıq.

И.А.Бабаев, Ю.Гагошидзе, Ф.Кнаусс,
А.Балахванцев, Э.А.Искендеров,
Н.Алышов, Ф.Гутшке, М.Гутте,
Г.Вистен-Лейдервальд,
К.Гентзш, Дж.Шовейтз

ОБ ИССЛЕДОВАНИЯХ МЕЖДУНАРОДНОЙ ШАМКИР-ГАРАДЖАМИРЛИНСКОЙ АРХЕОЛОГИЧЕСКОЙ ЭКСПЕДИЦИИ

РЕЗЮМЕ

В 2011 г. археологами Азербайджана, Германии, Грузии и России были продолжены раскопки дворцового здания V-IV вв. до н.э. на холме Гурбантепе, вблизи села Гараджамирли Шамкирского района.

Экспедиция еще в 2006-2007 гг. раскопками на Идеалтепе выявила остатки здания V-IV вв. до н.э. и установила, что это здание было проплеей другого, более значительного здания, остатки которого должны находиться на холме Гурбантепе на расстоянии около 240 м. к западу. Разведочные раскопки, проведенные в 2008 г. на Гурбантепе подтвердили это предположение о том, что здесь имеются остатки очень большого здания. В 2009-2010 гг. раскопками было установлено, что здесь находятся остатки дворца V-IV вв. до н.э., возведенного из сырцового кирпичами квадратной формы, имеющего большие залы с колоннами, длинные коридоры и другие, относительно небольшие, помещения.

В 2011 г. здесь велись более обширные раскопки. Выяснилось, что здание на восточной стороне имело портик шириной 8, длиной 25 м. Портик имел 12 колонн, расположенных двумя рядами по 6 колонн в каждом. За портиком имелся большой зал аудиенции 25х27 м, обшей площадью 675 кв. м.

Пока раскопками расчищена небольшая часть портика и зала аудиенции.

Каменные базы колонн в этих частях и некоторых других залах дворца прямоугольные, с двухступенчатыми круглым торовидным валиком наверху.

Эти базы колонн по своим формам схожи на базы колонн дворца первого царя Ахеменидского государства Кира в Пасаргадах.

При раскопках выявлены также длинные коридоры, относительно небольшие залы с колоколовидными, коннелированными базами колонн типа баз колонн дворца Ксеркса в Персополе. Из этих залов полностью расчищен лишь один зал с 4 мя базами колонн этой формы.

Общая площадь зала составляет 121,8 кв. м. По сторонам зала расположены другие, пока частично очищенные залы. В одном из них выявлены четырехугольные ступенчатые, в другом колоколовидные коннолированные базы колонн.

На Гурбантепе до сих пор обнаружено 18 каменных баз колонн. Но пока раскопана небольшая часть этого дворцового комплекса. Все колонны, поставленные на этих базах были деревянными.

При раскопках обнаружены обломки каменных капителей. Однако, по этим обломкам их форму установить трудно.

Пока в Гараджамирли раскопана не большая часть дворцового здания и установлено его приблизительное очертание.

Это здание, по всем параметрам, напоминает дворцы, построенные в столичных городах Ахеменидской империи в Пасаргадах и Персополе. Удивительно, что размеры дворца в Гараджамирли больше дворца шаханшаха Ксеркса в Персополе. Находки, в основном, представлены обломками различных керамических сосудов, характерных для V-IV вв. до н.э.

Учитывая величину всего поселения, а также дворцового здания на Гурбантепе, можно предполагать, что здесь находилась сатрапская резиденция Ахеменидов на Южнорм Кавказе. Этот центр потерял свое значение и перестал существовать во время крушения Ахеменидской империи в результате похода Александра Македонского на Восток в 30-20-ые гг. IV в. до н.э.

Продолжение раскопок дворца в Гараджамирли представляет большое научное значение для изучения истории всего Кавказа, Ближнего и Среднего Востока.

I.A.Babayev, Yu.Gagoshidze, F.Knauss, A.Balahvantsev, E.A.Iskenderov, N.A.Alyshov, F.Gutshke, M.Gutte, G.Visten-Leydervald, K.Gentzsh, Dzh.Shoveytz

ABOUT THE RESEARCH OF INTERNATIONAL SHAMKIR-GARADZHAMIRLI ARCHAEOLOGICAL EXPEDITION

SUMMARY

In 2011, archaeologists of Azerbaijan, Georgia, Germany and Russia have continued excavations in the palace building, V-IV centuries. BC on the Gurbantepe hill, near the village of Garadzhamirli, Shamkir region, Azerbaijan.

Expedition in 2006-2007 excavations on Idealtepe identified the remains of the building in-V-IV centuries BC and found that the building was propleya of another, more substantial buildings, the remains of which must be located on a hill Gurbantepe, located at a distance of about 240 m to the west. Exploratory excavations taken in 2008 confirmed this Gurbantepe and Confirm that there actually are the remains of a very large building.

In 2009-2010 excavations revealed that there are the remains of the palace in the V-IV-centuries BC built from mud bricks in the form of square, has large rooms with columns, long corridors and other relatively small space. In 2011, there was more extensive excavation. It was found that the building on the east side of the portico had a width of 8, length 25 m. Portico had 12 columns, arranged in two rows of six columns each. Over the portico is a large hall audience size 25x27 m, a total area of 675 square meters. Excavations cleared small part of the portico and hall audience.

The stone bases of columns in these parts, and some other rooms of the palace are rectangular, two-round toroidal roller top. The bases of columns in form are similar to the bases of columns of the first king of the Achaemenid palace of Cyrus in Pasargadae. Excavations also revealed the long corridors, the relatively small rooms with bell-shaped bases columns of type bases of columns in the palace of Xerxes in Persopole. One of these rooms completely cleared with four bases of columns that form. The total area of the hall is 121.8 square meters. On either side of this room are other, yet partially cleaned rooms. In one of the rooms there were revealed rectangular step, another bell-shaped bases of columns. On Gurbantepe there were found 18 stone bases of columns. But so far excavated a small part of the palace complex. All columns set on these bases were wooden. Repeatedly during the excavations there were found fragments of stone capitals. But on these fragments of their shape is difficult to establish.

In Garadzhamirli a little part of the palace building is found and its approximate shape is set. This building in all its parameters like palaces built in the capital city Achaemenid Empire in Pasargadae and Persopole. It is surprising that the size of the palace in Garadzhamirli is bigger than the size of the palace of Xerxes shah in Persopole if not to take into account the latter's harem.

The finds discovered during excavations in the ruins are mostly different ceramic vessels characteristic of V-IV centuries BC. Considering the size of the settlement, as well as the palace buildings on Gurban-tepe we can assume that here was the residence of the Achaemenids at Southern Caucasus. This center has lost its meaning and has ceased to exist during the fall of the Achaemenid Empire as a result of the campaign of Alexander the Great to the East in the 30-20th years IV BC. Continued excavation of the palace in Garadzha-mirli is great scientific importance for the history of the Caucasus and the Middle East.

MOUNDS AND SETTLEMENTS IN THE LOWER QARABAKH - MIL PLAIN, AZERBAIJAN
(Agjabedy district)

B.Helwing, T.R.Aliyev, and A.Ricci

Introduction

The cultural development of the Southern Caucasus since the first sedentary occupation is still poorly understood (Lyonnet 2007) and regional chronological sequences are only now being constructed. However, in light of the current state of research some observations can be proposed. Archaeological periods from the Neolithic to the Bronze Age are represented in this area in a highly unequal way. Sixth millennium Neolithic sites are documented, but the subsequent periods, particularly the fifth to early fourth millennium, are scarcely known. The character of occupation changes again in the later fourth millennium with new settlements of the so-called Leylatepe type (Narimanov et al. 2007) and the appearance of the Majkop and Kura Araxes complexes with their visible burial mounds.




Fig. 1. Map of the Southern Caucasus region and sites investigated within the Ancient Kura Project.

There are many possible reasons for this unbalanced representation of archaeological periods. One established assumption suggests that subsequent to a rich Neolithic occupation, environmental deterioration(s) forced people to turn to a less sedentary, and possibly fully pastoralist lifestyle, which would explain the lack of settlement sites. A reversal of this trend is then assigned to the arrival of migrating populations from the south during the fourth millennium BC (Achundov 2007).

When the project "Ancient Kura" was established in 2010[1], the supposed environmental impact on settlement dynamics was at the heart of the research question: how did humans interact with their environment, and how did environmental changes, natural or anthropogenic, influence human occupation, subsistence and settlement strategies? The research program investigates a stretch of land along the middle course of the Kura River (Fig. 1). In particular, three regions receive detailed attention: the westernmost one is the East Georgian Bolnissi area around the Neolithic site of Aruchlo, known through excavations during the Soviet era and again under investigation since 2006 (Hansen et al. 2006; Hansen et al. 2007). The central area lies in the Tovuz Rayon of Western Azerbaijan around the two sites Goytepe and Mentesh Tepe, which respectively date to the Neolithic and the Chalcolithic periods (Lyonnet / Guliyev 2010). The Lower Qarabakh Plain around Kamiltepe (Aliyev / Helwing 2009) is the southeasternmost area under investigation. As one part of the research program, intensive surveying in selected areas of the study region has already been carried out in order to gain an insight into site formation processes, visibility and representation. The aim of the following paper is to outline the methodological approach taken by the project and to present first results of the work carried out in 2009 and 2010 around Kamiltepe. The pattern observed there might serve as a case study for a better understanding of the archaeological landscape dynamics in others parts of the Southern Caucasus.

The Lower Qarabakh / Mil Steppe

The Lower Qarabakh Region, also known as the Mil Steppe, lies in the Southern Caucasus in south Azerbaijan, and it is located in the triangle formed by the confluence of the Kura and the Aras Rivers.




Fig. 2. Relief map of the Qarabakh region and elevation profile.

[1] The project "Ancient Kura" is carried out as a joint study by the German Archaeological Institute and the Centre National de la Recherche Scientifique in Paris in collaboration with the National Academy of Sciences Baku, Institute of Archaeology and Ethnography. Since 2010, the project has been funded by a Joint Research Program of the Deutsche Forschungsgemeinschaft (DFG) and the Agence Nationale de la Recherche (ANR).

The lower Qarabakh forms a gradual transition zone between the up to 3.700 m high Qarabakh Mountains and the Kura River lowland to the east that slopes down to about -13 m below sea level (Fig. 2). The rivers that descend from the Qarabakh Mountains cause considerable erosion in the western part of the region and alluvial deposition in the eastern part. Kamiltepe 1 is located on the easternmost low elevation of this descending terrain, exactly at the transition into the land covered by thick alluvial accumulation. 10 km further to the east of Kamiltepe, alluvial deposits reach at least 3 m, but most probably much more since the Neolithic period. In fact, a post-Achaemenid column base was recovered by locals at a depth of ~3 m below plain level during the 1950s when Soviet land amelioration projects led to the construction of irrigation channels. Before the construction of the Mingecevir Dam and the irrigation schemes, seasonal floods threatened all the alluvial lands along the Kura River. Today, the small rivers have mostly fallen dry due to increasing use of irrigation pumps. Climatically, the lower Qarabakh is catalogued as a semi-steppe region, with maximum precipitations of 200 mm/annum and absence of rain in summer. Nowadays, Artemisia low bushes compose most of the natural vegetation, while cattle and caprovine farming is the main traditional economic activity.

A profile exposed at the edge of the Kara Su River, immediately to the southeast of Kamiltepe 1, enabled the investigators to gain first indications on the geomorphological and landscape formation processes occurring along the river. It appears that a sequence of secondary loess deposits and alluvial layers of more than 1.5 m thickness accumulated in the plain during the Holocene (W. Bebermeier personal communication). This indicates alternating dry and humid conditions, but detailed dating and correlation of this sequence to human occupation episodes is not available yet. What the thick layer of sediments shows, however, is that strong loess and alluvial deposition might cover ancient sites.

Archaeology of the Lower Qarabakh / Mil Steppe

Previous archaeological investigations in the Mil Plain and Ağcabədi Rayon are rather scarce: the mounded site Kaletepe was first visited by E. Rosler (Rosler 1898), but only in the second half of the 20th century the “Azerbaijan Archaeological Expedition to the Mil Steppe” under the direction of A. Iessen /1965a) conducted extensive investigations in the area. This project documented several archaeological sites yielding painted pottery, among them Kamiltepe, where soundings were completed in 1956 by Iessen and again in 1965 by Narimanov. The painted material, canonized under the name of Mil Steppe Painted Ware (Narimanov 1987), was since then considered to represent the earliest sedentary occupation of the Lower Qarabakh and was dated to the 5th millennium BC on the basis of comparisons with the Mesopotamian Halaf materials. The model of prehistoric cultural development behind this interpretation considered the South Caucasian Neolithic to be a monolithic cultural block that appeared in the Southern Caucasus by diffusion from the more advanced Fertile Crescent.

Kamiltepe 1

The Azerbaijan-German expedition to the Mil Plain began in 2009 with resumed excavations at the site of Kamiltepe 1 in the Ağcabədi Rayon. The site appears on the topographic map as a spur on a low terrace north of the nowadays dry Kara Su River (Fig. 3). Earth quarrying and illegal digging, including a large bulldozer cut right through the centre of the mound, have caused considerable damage to the site.

Among the most unexpected results of the first two seasons of investigation was the recognition of a massive mudbrick construction of 20 m in diameter and a preserved height of 2.60 m, visible in the profiles of the bulldozer cut and confirmed in the excavate squares (Figs. 4–5). The homogeneous building material is made up of hand-shaped mudbricks approximately 30 cm long and with a square section of about 18x18 cm. Perpendicular walls are attached to the outer facade of this enigmatic construction. The material culture associated with this structure consists of a pottery assemblage with painted ceramics, obsidian and flint tools, and occasionally decorated objects, such as beads from shell, carnelian or turquoise. Radiocarbon dating indicates that the occupation of Kamiltepe 1 occurred during the mid 6th millennium BC (Aliyev / Helwing 2009).



Fig. 3. Kamiltepe 1, photograph showing the spur location of the site.



Fig. 4. Kamiltepe 1, Neolithic mudbrick construction.




Fig. 5. Kamiltepe 1, topographic map.

Neither a possible reconstruction of the central part of the mudbrick structure nor any explanation for its function can be proposed yet. Nevertheless, the site that appears as a small mound on the river terrace, as many others similar sites documented in the Southern Caucasus (Narimanov 1987), is indeed not a settlement mound but a site with a massively constructed core. As Kamiltepe 1 has badly suffered from earth quarrying, the top layers are not preserved and therefore no indications exist regarding the upper part of the construction or any possible buildings standing there. Accumulated debris along the edge of the mudbrick structure contains abundant ashes, together with cooking pots and animal bones. On the basis of these observations, a hypothetical reconstruction as a gathering and feasting place was formulated (Aliyev / Helwing 2009).

Among the many interesting finds of the first seasons of work in Kamiltepe were the results of the faunal investigations[2]. The recovered animal bones largely consist of domesticated animals, with caprids being the largest group in terms of the number of bones, followed by cattle and pig. Among the wild species gazelles and red deer appear, but also the large amount of birds, especially duck, as well as some fish bones and molluscs indicate the availability of aquatic resources probably in the close vicinity of the site. Magnetometry mapping carried out on and around Kamiltepe 1 confirmed this hypothesis by providing ample evidence for the presence of river meanders in the surroundings[3].

Survey Around Kamiltepe

The first step towards a better understanding of the use and function of Kamiltepe 1 was hence an attempt to contextualize the site within its surrounding landscape.

In the summer of 2010 over a period of three weeks, a small team of geoarchaeologists carried out a first season of surveying along the Kara Su River. One major aim of this investigation was to gain an initial acquaintance with the characteristics of the region and a preliminary understanding of the landscape taphonomic processes occurring in the area. Attention was paid to document the overall archaeological landscape signatures, sites and other archaeological features datable to the entire course of the Holocene. Because of the shortness of this first season, the present account can be considered neither detailed nor exhaustive; rather, it must be intended as a brief report to present preliminary results, discuss difficulties we encountered in the field and eventually as a base for future work in the region.

Field Techniques

For this first survey season, a combination of survey techniques was applied. On the basis of Tevekkul Aliyev´s profound knowledge of the region, we conducted general reconnaissance per vehicle along major tracks, targeted visits to areas of potential interest, carried out pedestrian low intensity surveys, as well as transects of collection around the site of Kamiltepe 1 and along the Kara Su River. Artefact concentration, soil signature, morphology and remote-sensing signal enabled sites' definition; pottery field scatters and archaeological landscape features were also recorded. Two sets of geo-referenced CORONA images (missions: DS1048 and DS1110, taken respectively on the 22nd of Sept., 1968 and the 24th of May, 1970) served as a main remote sensing tool for site and landscape feature detection and ground checking was accomplished to verify their signal.

Taphonomic Description

The SW area of the Ağcabədi Rayon is characterised by the presence of a major complex water scheme, built and expanded from the 1950s onwards (Narimanov, no year), which extends from NW to SE diverting the water of the Aras River to sustain farming activities. Major modern villages are located along this articulated channels´ system that divides the region into two main distinct zones (Fig. 6):

[2] Faunal investigations were carried out by N. Benecke, Dept. for Natural Sciences of the German Archaeological Institute and are reported separately in a following preliminary report.

[3] Magnetometry mapping by J. Fassbinder and R. Linck, Bavarian Dept. of Historical Monuments in Munich.




Fig. 6. A Landsat image of the investigated area with the two zones on the opposite sides of the major irrigation channel.

a) An eastern one that stretches eastwards towards the Aqgol und Sari Su lakes. Here the landscape is mostly flat and under intensive cultivation, with sparse villages and farmsteads. Over the last decades a process of parcelization has taken place in this area, with small plots and orchards that have replaced the larger fields of the late 1960s. Most likely, modern occupation, irrigation and destruction have levelled and removed ancient features for the most part, but targeted visits documented the presence of archaeological artefacts, mostly composed of pottery shard scatters. This zone can be therefore regarded as a "landscape of destruction" (Taylor 1972; Wilkinson 2003, 41 – 42), where extensive archaeological research might be conducted restrictedly, only investing great amounts of time and energy and sampling specific areas for more intensive targeted survey.

b) A western one, characterised by a gradually rising terrain which, moving westwards towards the Karabakh Mountain ranges, becomes more incised by the natural river courses. This is a more arid zone less suitable for agriculture due to conspicuous secondary loess deposits present on the surface and is therefore less artificially irrigated. Modern occupation is only represented by isolated single or double farms, locally called *firma*. Sparse larger fields of crops, but also extended fallow lands covered by low wild vegetation characterise this marginal environment: a stable "landscape of survival" (ibidem), where numerous archaeological sites and features have been preserved so far. However, during the second half of August 2010, large portions of this land started to be widely ploughed, indicating a growing interest for undertaking agricultural activities in this area and therefore a dangerous potential for a rapid and extensive destruction of archaeological remains.

Preliminary Survey Results

During the first season, the survey recorded a total of 22 sites, 16 of which are new discoveries (Fig. 7). At the present state of research, the dating assigned to them is only tentative and preliminary.

Along the Kara Su River, the major natural water course in the area around Kamiltepe, two clear patterns of occupation emerge:

a) The presence of at least 11 sites suggests a dense pottery Neolithic occupation in the area, with sites evenly displaced every 1/1.5 km along the Kara Su River and with a major concentration around Kamiltepe 1, where four Neolithic presences are documented (Fig. 8). Sites a re often located along the margin of the river valley, on low natural ridges or river terraces that slope down towards the Kara Su Plain. Most of the sites are small, ranging between 0.5 and 1 ha in size, but with abundant ceramic material present on the surface. Site 18, by far the largest discovered prehistoric site with pottery and lithic fragments covering an area of over 8 ha, is composed of a series of small low mounds located on the top and along the slopes of a natural ridge, on the right bank of the water course, approximately 5 km to the SW of Kamiltepe 1.

b) A series of small Medieval sites, possible farmsteads or rural settlements located along the Kara Su River, hint to a sparse occupation probably connected to major centres located to the east, such as site 8, Oren Kala, a large 630 x 630 m double-walled, square fort already investigated during the Soviet period (Iessen 1965a, 32 – 35).




Fig. 7. The sites discovered during the 2010 field season mapped over a combined SRTM DEM 2002 and CORONA imagery(1110-1057DA111; 24 May 1970; courtesy of the USGS).

Site 16, a shallow tell located on a flat ground on the right bank of the Kara Su River alluvial plain, some 50 m away from the modern course of the river, produced the possibly longest sequence of occupation among the surveyed sites. Another tell occupation is site 19, which, although smaller in size, prominently rises above the surrounding fields. Future investigations on these anthropogenic mounds might shed light on the occupation of the Kara Su River basin during several periods of time.




Fig. 8. The Neolithic sites discovered during the 2010 field season mapped over a combined SRTM DEM 2002 and CORONA imagery (1110-1057DA111; 24 May 1970; courtesy of the USGS).

Intensive Surveying Around Kamiltepe 1

For a detailed recovery of the archaeological remains around Kamiltepe 1, transect-base intensive collections were carried out over an area of 1 km of radius around this site (Fig. 9). Transects were set radiating from Kamiltepe or, more rarely, parallel to the Kara Su River. Surveyors walked over two parallel lines composed by series of 100 m long blocks collecting archaeological artefacts, mainly pottery and lithics, infrequently brick fragments. As the majority of fields have not been cultivated over the past years, the ground was largely covered by compact soil and dense wild vegetation – predominantly low Artemisia bushes. Only a few plots had been recently ploughed, whereas some areas, especially those located to the east of Kamiltepe 1, were inaccessible due to the presence of crops or onion fields. Therefore, the conditions made the detection of archaeological finds generally difficult and further transects might be collected if fields will present better ground visibility in the future. Nevertheless, this intensive collection enabled the recording of areas of higher concentrations of artefacts and the discovery of two mounded sites: Kamiltepe 5, a small low mound circular in form, located ca. 850 m to the NW of Kamiltepe 1; and site no. 13, a flat Medieval occupation situated along the Kara Su River, some 1.1 km to the S of Kamiltepe 1. One of the artefact clusters, named Kamiltepe 4, turned out to be another archaeological settlement site although no mound formation could be observed.

Investigating Kamiltepe 4 and 5

Within the 1 km radius, Kamiltepe 4 and Kamiltepe 5 underwent further investigation. The forma tion processes responsible for the current appearance of the two sites are totally distinct.




Fig. 9. Sites and dispersion of diagnostic and undiagnostic pottery sherds in the area around the site of Kamiltepe 1 mapped over a CORONA image (1110-1057DA111 image; 24 May 1970; courtesy of the USGS).

Kamiltepe 4

Kamiltepe 4 is located about 700 m southwest of Kamiltepe 1. The site appears almost flat but detailed topographic mapping shows that the ground slopes very gently southwards, in the direction of the Kara Su course. On the surface, recordable artefacts were few, the majority found close to animal holes. Magnetometry mapping indicated the existence of water course meanders of unknown date that seem to lie above a canal-like structure.

A 3 x 3 m sounding was investigated to intercept a small canal in square E29. The sounding revealed an archaeological sequence of several subsequent layers: the top one lies some 0.8 m underneath a compact loess deposit that must have accumulated after the abandonment of the site. The small canal turned out to be of comparatively late date since it cuts into the loess layers. The Neolithic structures underneath this deposit consist of a deep ditch with a V-shaped section and a subterranean house pit dug into the natural ground. The walls of the house pit were reinforced with a row of hand-shaped mudbricks. The sequence indicates:

a) the existence of semi- or fully-subterranean Neolithic constructions that never led to mound formation.

b) the accumulation of thick, post-Neolithic natural layers.

Hence, such sites can only be detected through intensive surveying in highly favourable conditions of visibility (i.e. deep ploughing or modern disturbance) and most likely would not be detectable on CORONA images.

Kamiltepe 5

Kamiltepe 5 is located 850 m to the north of Kamiltepe 1, on top of a very low ridge. It rises some 0.5 m Survey Results The survey conducted along the southern bank of the Kara Su River and the

intensive survey in the 1 km radius zone allows some, albeit preliminary, observations: above the surrounding land. The surface yielded large samples of Neolithic pottery and lithic artefacts.

A 3 x 3 m sounding in the central part of the small mound revealed Neolithic mudbrick architecture arranged into rectangular rooms immediately underneath the present surface. One fully preserved room inventory was uncovered, indicating that no disturbance, but also no later overlaying structures obscured this site.

As a result, depending on the location of the sites with regard to the immediate topography, two different site taphonomic processes emerge: in zones close to the former course of the Kara Su River deposits may have completely covered flat sites, and on slightly elevated locations mounds might have formed and may still be visible.

Survey Results

The survey conducted along the southern bank of the Kara Su River and the intensive survey in the 1 km radius zone always some, albeit preliminary, observations:

a) Modern taphonomic processes in the zones under intense irrigated agriculture close to the irrigation water collector have largely destroyed archaeological evidence.

b) Site formation processes are highly variable even over short distances and might depend on the topographical setting of the site.

c) The upper course of the Kara Su has enshrined a unique Neolithic micro-landscape with a dense cluster of sites along the course of the river. These sites date to the Neolithic but possibly were not all contemporaneous occupations. Further detailed investigations will allow us to reconstruct a detailed sequence of prehistoric occupation of the area.

d) At the moment, periods other than the Neolithic are represented on a very unequal scale in the survey record. Late Antique and Medieval occupations are considerably dense. This observation ties in with historical information on the periods when the kingdom of Caucasian Albania extended along the Middle Kura and reached the Aras River (Osmanov 1982). For the period subsequent to the Neolithic, however, evidence remains scarce: a few sherds indicate 5th and 4th millennium occupations, but data for Bronze Age to Iron Age sites is missing so far.

Post-Neolithic Kamiltepe

During the 4th millennium BC, the North Caucasian Majkop kurgans represent a new and unprecedented development, manifest in the large and widely visible burial sites. A similar phenomenon has until recently not been evident south of the Greater Caucasus, but new excavations attest the existence of comparable burial mounds in the Soyuk Bulaq region (Lyonnet et al. 2008). In the light of this discovery, the Uctepe site, ~12 km northeast of Kamiltepe, gains a new meaning. Uctepe is composed of three **(**az.: uc) burial mounds, each about 40 m high, which are visible from Kamiltepe. One of the kurgans has been excavated during the 1950s by the Archaeological Expedition to the Mil Steppe (Iessen 1965b), and yielded a richly equipped late antique secondary burial. Sherds from the fill of the mound indicate the possible presence of an older previous burial site datable to the Majkop period, which was destroyed by the younger burial. If this date is correct, the Uctepe site would be a good example for the introduction of a new funerary tradition that places a high emphasis on the visibility of burial monuments. Burial mounds again become a fashion during the later Iron Age, when series of small kurgans were erected on various sites, including Kamiltepe 1, where a late Iron Age kurgan was excavated by the Mil Steppe Archaeological Expedition team (Iessen 1965a, 20 – 31). The solidly constructed Kamiltepe 1 site must have been a visible mound during this period, and possibly for this reason the site was used as an elevated burial ground from the Iron Age onwards.

Excavation and cleaning of the eastern section of the bulldozer trench brought to light a huge bellshaped pit that had been cut into the centre of the mudbrick construction and reached the natural ground underneath it. It is highly likely that the pit represents the remains of a destroyed Iron Age burial as the fragments of human bones and Iron Age pottery indicate. Possibly this burial was placed right in the centre of the mudbrick platform of Kamiltepe 1 because the mound was still visible and ready for use as a “ready-made” burial mound without the efforts necessary to erect a kurgan from scratch. In the rather flat terrain of the Lower Qarabakh Mil Steppe, Kamiltepe 1 remained a landmark throughout the

millennia. Although the meaning of the monument changed through time, from possibly a gathering place, over periods of abandonment, to a kurgan site and elevated graveyard, its visibility was never lost after the first construction of its massive mudbrick core.

REFERENCES

Achundov 2007: T. Achundov, Sites des migrants venus du Proche-Orient en Transcaucasie. In: B. Lyonnet (ed.), Les cultures du Caucase (VIe - IIIe millenaires avant notre ere). Leurs relations avec le Proche Orient. Editions Recherche sur les Civilisations (Paris 2007) 95 – 122.

Aliyev / Helwing 2009: T. Aliyev / B. Helwing, Kamiltepe in der Milebene. Archaologische Untersuchungen 2009. Archaologische Mitteilungen aus Iran und Turan 41, 2009, 23 – 45.

Hansen et al. 2006: S. Hansen / G. Mirtskhulava / K. Bastert-Lamprichs / N. Benecke / I. Gatsov / P. Nedelcheva, Aruchlo 2005 – 2006. Bericht uber die Ausgrabungen in einem neolithischen Siedlungshugel. Archaologische Mitteilungen aus Iran und Turan 38, 2006, 1 – 34.

Hansen et al. 2007: S. Hansen / G. Mirtskhulava / K. Bastert- Lamprichs / J. Gorsdorf / D. Neumann / M. Ullrich / I. Gatsov / P. Nedelcheva, Aruchlo 2007. Bericht uber die Ausgrabungen im neolithischen Siedlungshugel. Archaologische Mitteilungen aus Iran und Turan 39, 2007, 1 – 30.

Iessen 1965a: A.A. Iessen, Iz istoriceskogo proslogo Milsko-Karabachskoje stepi. Trudy Azerbaidzanskoj Archaeologiceskoj Ekspedicii. In: A.A. Iessen (ed.), Materialy I issledovanija po archeologii SSSR 125 (Leningrad 1965a) 10 – 35.

Iessen 1965b: A.A. Iessen, Raskopki bol'sogo kurgana v urocisce Uc Tepe. In: A.A. Iessen (ed.), Materialy i issledovanija po archeologii SSSR 125 (Leningrad 1965b) 153 – 184.

Lyonnet 2007 (ed.): B. Lyonnet, Les cultures du Caucase: (VIe - IIIe millenaires avant notre ere): leurs relations avec le Proche-Orient. Archeologie (Paris 2007).

Lyonnet et al. 2008: B. Lyonnet / T. Akhundov / K. Almamedov / L. Bouquet / A. Courcier / B. Jellilov / F. Huseynov / S. Loute / Z. Makharadze / S. Reynard, Late Chalcolithic Kurgans in Transcaucasia. The cemetery of Soyuq Bulaq (Azerbaijan).

Archaologische Mitteilungen aus Iran und Turan 40, 2008, 27 – 44.

Lyonnet / Guliyev 2010: B. Lyonnet / F. Guliyev, Recent discoveries on the Neolithic and Chalcolithic of Western Azerbaijan. TUBA-AR. Turkish Academy of Sciences Journal of Archaeology 13, 2010, 219 – 228.

Narimanov 1987: И.Г.Нариманов, Культура древнейщего земледельческого-скотоводческого населения Азербайджана (Baky 1987).

Narimanov, no year: И.Г.Нариманов. Об одной группе погребальных памятников Мингечаура.

Narimanov / Akhundov / Aliyev 2007: I. H. Narimanov / T. I. Akhundov / N.H. Aliyev, Leylatepe. Settlement, tradition, a stage in ethnocultural history of South Caucasus (Baku 2007).

Osmanov 1982: F. Osmanov, Qafqaz Albaniyasının maddi mədəniyyəti (Bakı 1982).

Rosler 1898: E. Rosler, Archaologisch-ethnologischen Bericht uber seine fur die kaiserl. russ. Archaologische Commission unternommenen Untersuchungen im Gouv. Elisabethpol im Februar und April 1897. IV. Zehn Tage in der Mil'schen Steppe. Abhandlungen der Berliner Gesellschaft fur Anthropologie, Ethnologie und Urgeschichte 30, 1898, 293 – 329.

Taylor 1972: C.C. Taylor, The Study of Settlement Patterns in Pre-Saxon Britain. In: P. Ucko / R. Tringham / G.W. Dimbleby (ed.), Man, settlement and urbanism (London 1972) 109–113.

Wilkinson 2003: T.J. Wilkinson, Archaeological landscapes of the Near East (Tuscon, AR 2003).

B.Helvinq, T.R.Əliyev, A.Ricci

AZƏRBAYCANIN AŞAĞI QARABAĞ – MİL DÜZÜ BÖLGƏSİNİN KURQAN VƏ YAŞAYIŞ YERLƏRİ

XÜLASƏ

Azərbaycan Respublikasının Aşağı Qarabağ – Mil düzü bölgəsi Kür çayının sağ sahilindən Qarabağın dağlıq hissəsinədək uzanır. Bu bölgə müxtəlif tarixi dövrlərə aid abidələrlə zəngindir. Hələ XX əsrin ortalarında A.A.İessenin rəhbərlik etdiyi Azərbaycan arxeoloji ekspedisiyası Mil düzündə bir qrup yeni abidə aşkar etmişdir. Eneolit dövrünə aid edilən bu abidələrdən biri də Ağcabədi rayonu ərazisində - Qarasuyun sol sahilindəki təbii yüksəklik üzərində yerləşən Kamiltəpədir. Burada 2008-ci ildə tədqiqatlar bərpa olunmuşdur. 2009-cu ildən isə Kamiltəpə və onun ətrafında tədqiqatlar AMEA Arxeologiya və Etnoqrafiya İnistitutu ilə Almaniya və Fransa arxeoloqlarının birgə işi olan "QƏDİM KÜR (ANCİENT KURA)" lahiyəsi çərçivəsində aparılır.

2009-2011-ci illərdə aparılan qazıntılar zamanı I Kamiltəpədə aşkar edilmiş kərpic platforma və ona bitişik tikililər tədqiq olunmuşdur. Dairəvi formada olan bu platformanın diametri təxminən 24 metr, hündürlüyü isə 2,6 metrdir.

I Kamiltəpənin arxeoloji materialları arasında boyalı və boyasız olmaqla iki qrupa bölünən keramika məmulatı çoxluq təşkil edir. Toplanan nümunələrin əksəriyyəti mətbəxt qablarına məxsusdur. Onlar Cənubi Qafqaz abidələrinin, xususilə I Kültəpə, Əlikömaktəpə, Polutəpə və b.-nın saxsı qabları ilə oxşardır.

Şümük alətlərin və əşyaların azlığı I Kamiltəpəni Şomutəpə mədəniyyətindən fərqləndirən əsas əlamətlərdəndir. Bəzək əşyalarına - əsasən firuzə və əqiqdən hazırlanmış muncuqlara da az sayda təsadüf olunur. Sapand daşlarına isə əksinə, qazıntı sahəsinin hər tərəfində rast gəlinir. Müxtəlif ölçü və çəkilərə malik olan yumurtavari belə "daşlar"ın sayı yüzlərlədir.

Radio-karbon (14C) analizinin nəticələri I Kamiltəpənin neolit dövrünə - e.ə. 5600-5400 -ci illərə aid yaşayış yeri olduğunu göstərir. Bu məskən sonralar dəfn yerlərinə çevrilmişdir. Buradakı qəbirlərin əksəriyyəti dağılmış haldadır. Onlardan yalnız birini (dəmir dövrünə aid) salamat halda üzə çıxarmaq mümkün olmuşdur. Kamiltəpənin ətrafındakı kiçik kurqanlar da həmin dövrə aiddir.

Tədqiqatlar zamanı Qarabağ dağlarının ətəklərində və Mil düzündə, xüsusilə Qarasu boyunca müxtəlif dövrlərə aid onlarla yeni abidə qeydə alınmışdır. Onlardan ikisində kəşfiyyat qazıntı işləri aparılmışdır.

IV Kamiltəpə yaşayış məskəni (MPS 4) I Kamiltəpədən 0,7 km cənub qərbdə, əkin sahələrinin ortasında yerləşir. Kəşfiyyat işləri zamanı buradan neolit dövrünə aid saxsı qab nümunələri toplanılmış, abidənin geomaqnetik xəritəsi tərtib edilmişdir. Xəritədə torpaq altında qövsvari şəkildə uzanan bir neçə xəndəyin izləri diqqəti cəlb etmişdir. Qazıntı prosesində bu xəndəklərin 2,7 m dərinlikdə və "V" şəklində olduğu müəyyən edilmişdir. Xəndəklərin içərisində çiy kərpiclərdən inşa olunmuş arakəsmələr var. Qafqaz regionunda belə qurğulara ilk dəfədir ki, rast gəlinir. Abidədə aparılan qazıntı zamanı dairəvi planda olan evin qalığına, balıqqulağından hazırlanmış çoxlu miqdarda muncuqlara təsadüf olunmuşdur.

Ayrı-ayrı nümunələrin radiokarbon analizi IV Kamiltəpə yaşayış məskəninin e.ə. VI minilliyin əvvəllərinə aid olduğunu göstərir.

V Kamiltəpə (MPS 5) yaşayış yeri I Kamiltəpədən 850 metr şimal-şərqdə, kiçik təpə üzərində yerləşir. Abidə üzərində 4 x 4 metr ölçüdə iki şurf qoyulmuş, çiy kərpicdən inşa edilmiş dörd künc evlərin qalıqları aşkar edilmişdir. Bu abidədən əldə edilən keramika nümunələrini I Kamiltəpənin saxsı qablarından fərqləndirən əsas cəhət, onların oturacaqlarının dar və ağıza doğru genişlənməsidir. Saxsı məmulatının əksəriyyəti boyasızdır. Sadə boya naxışlı qablara çox az rast gəlinir. Bəzi qabların üzərində dırnaq izləri diqqəti cəlb edir.

Radiokarbon analizlər V Kamiltəpədə e.ə. 5400 illərdə yaşayış olduğunu göstərir.

Mil-Qarabağ düzənliyinin əlverişli təbii-coğrafi şəraiti burada ardıcıl və uzunmüddətli yaşayış üçün zəmin yaratmışdır. Hələ neolit dövründə bu bölgədə Halaf, Hacı Firuz və Şomutəpə mədəniyyətləri ilə sinxiron, qarşılıqlı əlaqədə olan mədəniyyətlər formalaşmışdı. Bölgədəki kurqan və yaşayış yerləri tunc və erkən dəmir dövrlərində burada intensiv həyat olduğunu göstərir. Mil-Qarabağ düzü antik və orta əsrlərə aid abidələrlə də zəngindir.

Б.Хельвинг, Т. Р.Алиев, А.Риччи

КУРГАНЫ И ПОСЕЛЕНИЯ НИЖНЕГО КАРАБАХА - МИЛЬСКОЙ СТЕПИ АЗЕРБАЙДЖАНА

РЕЗЮМЕ

Нижний Карабах-Мильская степь Азербайджана простирается с правобережья реки Кура до нагорной части Карабаха. Этот регион богат памятниками разных исторических эпох. Еще в середине XX века археологическая экспедиция во главе с А.А.Иессеном обнаружила группу новых памятников в Мильской степи. Одним из таких памятников энеолитического периода является Камильтепе, расположенный в Агджабеди на естественной возвышенности левобережья Гарасу. Здесь с 2009 года проводятся исследования Институтом археологии и этнографии НАНА совместно с археологами Германии в рамках проекта "ДРЕВНЯЯ КУРА".

Во время раскопок 2009-2011 гг. в Камильтепе I были исследованы каменная платформа и, соединенные с ней, строения. Диаметр данной платформы округлой формы около 24 метров, высота 2,6 метра.

Среди артефактов Камильтепе I доминируют керамические изделия. Большинство собранных образцов относятся к кухонной утвари. Они идентичны с памятниками Южного Кавказа, в частности, с керамическими сосудами Кюльтепе I, Аликемектепе, Полутепе и др.

Костяные орудия малочисленны, что является основной чертой, отличающей Камильтепе I от культуры Шомутепе. Также мало встречаются предметов украшения, а пращи, напротив, встречаются чаще. Количество таких яйцевидных “камней” с различными размерами и весом - сотни.

По результатам радиокарбонного (14 C) анализа Камильтепе является поселением неолитического периода 5600-5400 гг. до н.э. Позднее оно превратилось в место для захоронений. Большинство могил здесь в разрушенном состоянии. Только одну из них, относящуюся к железному веку удалось обнаружить целой. Малые курганы вокруг Камильтепе относятся к тому же периоду.

Во время исследований на склонах гор Карабаха и в Мильской степи, особенно вдоль Гарасу были зафиксированы десятки новых памятников. В двух из них проводились разведочные раскопки.

Поселение Камильтепе IV (MPS 4) расположено на 0,7 км юго-западнее от Камильтепе I, среди посевных площадей. Составлена геомагнетическая карта памятника, где привлекали внимание следы дугообразных рвов под землей. В процессе раскопок определилось, что рвы имеют "V"образную форму и расположены на глубине 2,7 м. Внутри них имеются перегородки из сырцового кирпича. Такие строения на Кавказе встречаются впервые. Во время раскопок памятника были обнаружены остатки круглого в плане дома и многочисленные бусины из ракушек.

Радиокарбонный анализ отдельных образцов датирует поселение Камильтепе IV началом VI тысячелетий до н.э.

Поселение Камильтепе V (MPS 5) расположено в 850 м. к северо-востоку от Камильтепе I, на небольшом холме. Здесь был установлен шурф размером 4x4 м., и обнаружены остатки четырехугольных строений из сырцового кирпича. Основной чертой, отличающей образцы керамики этого памятника от сосудов Камильтепе I является то, что у них узкие днища, расширяющиеся ближе к венчику. Большинство керамических изделий без росписи. Привлекают внимание следы ногтей на некоторых сосудах.

Радиокарбонный анализ показывает, что Камильтепе V было заселено в 5400 гг. до н.э.

Благоприятные географические условия Миль-Карабахской равнины способствовали последовательному и длительному проживанию здесь. Еще в период неолита в этом регионе сформировались культуры, взаимосвязанные и синхронные с культурами Халаф, Гаджи Фируз и Шомутепе. Курганы и поселения в регионе показывают интенсивность жизни в эпоху бронзы и раннего железа. Миль-Карабахская равнина также богата памятниками античности и средневековья.

MÜNDƏRİCAT

AZƏRBAYCANDA 2011-ci ildə APARILMIŞ ARXEOLOJİ TƏDQİQATLAR 8
M.N.Rəhimova

ARXEOLOJİ QAZINTILAR 24
PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI TƏDQİQATLARIN İLKİN NƏTİCƏLƏRİ 25
Ə.Q.Cəfərov

PALEOLİT ARXEOLOJİ EKSPEDİSİYASI CƏNUBİ QAFQAZ DƏSTƏSİNİN TƏDQİQAT İŞLƏRİNİN NƏTİCƏLƏRİ 29
M.M.Mənsurov

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA PALEOLİTİN TƏDQİQATI 37
A.Ə.Zeynalov

NEOLİT DÖVRÜ HƏSƏNSU YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ QAZINTILAR 45
N.Ə.Müseyibli, A.M.Ağalarzadə, G.K.Axundova

GÖYTƏPƏ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR 50
F.E.Quliyev, Y.Nişiyaki, S.Kadovaki, F.R.Hüseynov, Y.Arimatsu, K.Şimoqama, Ş.Kume, Ç.Akaşi, T.Odaka, O.Brelyova, O.Zamanov, Y.Məmmədov, Ş.Səlimbəyov

AŞAĞI DAŞARX YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILAR 65
A.Q.Seyidov

NAFTALAN-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR 70
M.M.Hüseynov

SİRAB ƏTRAFINDA ARXEOLOJİ ARAŞDIRMALAR 81
V.B.Baxşəliyev

I MAXTA QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR 87
S.H.Aşurov, V.B.Baxşəliyev, S.A.Hüseynova, F.A.Əliyeva

AĞSTAFA RAYONUNDA TUNC DÖVRÜNÜN QƏBİR ABİDƏLƏRİ 97
N.Ə.Müseyibli, G.K.Axundova, A.M.Ağalarzadə

РЕЗУЛЬТАТЫ АРХЕОЛОГИЧЕСКИХ РАСКОПОК НА ПОСЕЛЕНИЕ СЕРКЕРТЕПЕ 109
Д.Л.Мусаев

II KÜLTƏPƏDƏ YENİ TƏDQİQATLAR 115
V.H.Əliyev, A.Ə.Məmmədova

ŞİMALİ-QƏRBİ AZƏRBAYCANDA APARILAN TƏDQİQATLAR 125
N.M.Muxtarov, İ.N.Bədəlova

QARABAĞ ARXEOLOJİ EKSPEDİSİYASININ ÇÖL-TƏDQİQATLARININ İLKİN NƏTİCƏLƏRİ 130
H.F.Cəfərov, D.H.Cəfərova, N.H.Əliyev

SİTALÇAY KURQANLARI....139
Q.O.Qoşqarlı, V.A.Əsədov, T.D.Babayev

GÖYGÖL-GORANBOY ARXEOLOJİ EKSPEDİSİYASININ GORANBOY RAYONU ƏRAZİSİNDƏ APARDIĞI TƏDQİQATLAR....146
B.M.Cəlilov

ŞAHTAXTI ABİDƏLƏR KOMPLEKSİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR....156
Q.H.Ağayev, Z.H.Rzayev

PLOVDAĞ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTI İŞLƏRİ....161
B.İ.İbrahimli, H.İ.Qədirzadə, T.F.Xəlilov, T.Q.Qədirzadə

BƏRDƏ ARXEOLOJİ EKSPEDİSİYASININ APARDIĞI ARXEOLOJİ QAZINTILARIN NƏTİCƏLƏRİNƏ DAİR....170
A.M.Məmmədov, M.İ.Rəcəbov

SUMBATAN-DİZƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR....175
B.İ.İbrahimli, T.F.Xəlilov, H.Q.Qadirzadə, L.N.Əhmədova

QAZAX ARXEOLOJİ EKSPEDİSİYASININ SARVANTƏPƏ YAŞAYIŞ YERİNDƏ APARDIĞI ARXEOLOJİ TƏDQİQATLAR....180
Ş.N.Nəcəfov

RƏSUL DƏRƏSİ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTI İŞLƏRİ....190
Q.S.İsmayılzadə, B.İ.İbrahimli, T.F.Xəlilov

YASTITƏPƏ SON TUNC-İLK DƏMİR DÖVRÜ YAŞAYIŞ YERİNDƏ APARILMIŞ ARXEOLOJİ QAZINTILARIN YEKUNLARI....196
Ş.N.Nəcəfov, Z.C.Hacılı

ABŞERON ARXEOLOJİ EKSPEDİSİYASININ TƏDQİQATLARI....207
İ.N.Əliyev, C.İ.Əliyev

QƏBƏLƏ ARXEOLOJİ EKSPEDİYASI ANTİK QƏBƏLƏ DƏSTƏSİNİN ÇÖL-TƏDQİQAT İŞLƏRİ HAQQINDA....213
İ.A.Babayev, E.Ə.İskəndərov, N.Ə.Alışov, L.X.Mustafaev, R.İsmayılov

MEYDANTƏPƏ YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR....221
Ə.H.Bədəlov, A.A.Əsədov

QALATƏPƏ ANTİK ALBAN ŞƏHƏR MƏSKƏNİ VƏ NEKROPOLUNDA TƏDQİQATLAR....226
T.R.Əliyev, F.İ.Babayev, T.T.Hüseynova, G.İ.Əliyeva, V.B.Abbasov, V.T.Əliyev

V SANDIQTƏPƏ ABİDƏSİNDƏ TƏDQİQATLAR....235
M.C.Xəlilov

GÜLÜSTAN QALASINDA APARILAN ARXEOLOJİ TƏDQİQATLAR....240
A.A.Quliyev

ŞƏMKİR ŞƏHƏR YERİNDƏ APARILAN ARXEOLOJİ QAZINTILAR....248
T.M.Dostiyev, R.Y.Bəşirov, N.N.Hüseynli, R.H.Mirzəyev

GƏNCƏDƏ ARXEOLOJİ TƏDQİQATLAR 266
A.M.Məmmədov, T.V.Əliyev

ŞƏHRƏRGAHDA ARXEOLOJİ TƏDQİQATLARIN YENİ NƏTİCƏLƏRİ 271
Q.C.Cəbiyev, E.İ.Abbasova

QƏBƏLƏ (SƏLBİR) ŞƏHƏR YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR 278
C.T.Eminli

QƏBƏLƏDƏ (QALA) ARXEOLOJİ TƏDQİQATLAR 297
Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova

NEFTÇALA RAYONUNA ELMİ EZAMİYYƏTİN NƏTİCƏLƏRİ 302
A.M.Ağalarzadə

AĞSUDA ARXEOLOJİ TƏDQİQATLAR 310
Q.C.Cəbiyev, F.S.Xəlilli, E.İ.Abbasova

ARXEOLOJİ KƏŞFİYYAT 318
SAHDƏNİZ–2 İNFRASTRUKTUR LAYİHƏSİ İLƏ BAĞLI SƏNGƏÇAL TERMİNALININ GENİŞLƏNDİRİLƏCƏYİ ƏRAZİDƏ APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİNİN YEKUNLARI 319
Q.O.Qoşqarlı, Ş.N.Nəcəfov, V.A.Əsədov, A.M.Ağalarzadə, Ə.İ.Əbdürəhmanov, T.D.Babayev

LERİKDƏ ARXEOLOJİ TƏDQİQATLAR 333
A.İ.Ələkbərov, A.M.Mirabdullayev, T.H.Əzizov, S.K.Kərimov

İMİŞLİ RAYONU ƏRAZİSİNDƏ APARILMIŞ ARXEOLOJİ KƏŞFİYYAT İŞLƏRİ 342
M.M.Mustafayev

GƏDƏBƏYDƏ ARXEOLOJİ TƏDQİQATLAR 346
T.N.Göyüşova

BEYNƏLXALQ EKSPEDİSİYALAR 352
MENTEŞ QƏDİM YAŞAYIŞ YERİNDƏ ARXEOLOJİ TƏDQİQATLAR 353
Fərhad Quliyev, Bertille Lyonnet

OĞLANQALADA AZƏRBAYCAN–AMERİKA BİRGƏ ARXEOLOJİ QAZINTILARI 360
L.Ristvet, H.Gopnik, V.B.Baxşəliyev, S.H.Aşurov

BEYNƏLXALQ ŞƏMKİR-QARACƏMİRLİ ARXEOLOJİ EKSPEDİSİYASININ ÇÖL-TƏDQİQAT İŞLƏRİ HAQQINDA 379
İ.A.Babayev, Y.Qaqoşidze, F.Knauss, A.Balaxvantsev, E.Ə.İskəndərov, N.Ə.Alışov, F.Gutschke, M.Gutte, G.Wüsten-Leyderwald, C.Gentzsch, J.Schöweitz

MOUNDS AND SETTLEMENTS IN THE LOWER QARABAKH - MIL PLAIN, AZERBAIJAN 386
B.Helwing, T.R.Aliyev, and A.Ricci

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLAR – 2011

"Xəzər Universiteti" nəşriyyatı
Bakı, 2012

AFPoliqrAF mətbəəsində çap olunmuşdur

Mətbəənin direktoru: F.R.Hüseynov
Texniki redaktor: A.Q.Rəsulov
Dizayn: Ə.Q.Əliyev

Formatı 64x90 $^{1}/_{16}$.
Həcmi 25 ç.v.
Tirajı 500